FLORA XƏLİLZADƏ

# YOLUM DÜŞƏ ZƏNGƏZURA

**Qarakilsə (Sisian)**
**Urud**
**Vağədi**
**Ağdü**
**Comərdli**
**Şəki**
**Şıxlar**
**Ərəfsə**
**Dəstəyird**
**Sofulu**
**Murxuz**
**Qızılcıq**

- 7904 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

63.5 (5Hdl)
X 49

Ön söz: İsmayıl VƏLİYEV
*Filologiya elmləri doktoru, professor*

Redaktor: Könül MİRZƏYEVA

**F.Xəlilzadə, "Yolum düşə Zəngəzura"**
**Sənədli, bədii, ensiklopedik nəşr.**

**"Araz" nəşriyyatı, - Bakı, 2007, səh. 522**

***Müəllifin bu kitabında Azərbaycanın məşhur mahallarından olan qədim Zəngəzur torpağının tarixi, mədəniyyət abidələri, toponimləri haqqında sənədli faktlara əsaslanmaqla dəyərli məlumatlar verilir. Kitabda bu torpaqda boya-başa çatan böyük şəxsiyyətlər, müəllimlər, ictimai-siyasi xadimlər, maarif işçiləri, yazıçılar, şairlər, rəssamlar, musiqiçilər və elm adamları, o cümlədən, Zəngəzuru ürəkdən sevən, ona bağlanan sadə, lakin geniş ürəkli vətənpərvər sakinləri haqqında bədii-publisistik, həm də biblioqrafik bilgilər yer alır.***

***Əsər geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.***

**F $\frac{4902060000}{050}$ 2007**

**© "Araz", 2007**

# ÖN SÖZ
## *BİR ŞAİRİN DUYĞULARI*

İnsanlar necə şair olur, onlara necə vergi verilir, şeir nə zaman yazılır, yaxud yazılmır, yaranır? Bu suallara çoxları cavab axtarır. Lakin mən cavab sorağında deyiləm. Şairi onun şeiri tanıdır. Şeirdə ifadə olunan duyğular, fikirlər səni özünə bağlayır, alıb götürür, sən də sözün axarında sevinir, qəmlənir, qəzəblənir, ya da yanıb-yaxılırsan. Söz ürəkdən gələndə zamana, insan ürəyinə güzgü tutanda orada hər kəs özünə bağlı nəsə tapır, insan sözlə ovunur, sözlə yaşayır. Bu da təbiidir. Çünki sözü ilkin, başlanğıc hesab edirlər. Yəni dünya da, insan da sözlə yaranıb, Tanrının sözü ilə. "Söz qılıncdan kəsərlidir", "Söz kəsəni qılınc kəsməz" deyirlər.

Floranı mən tələbəlik illərindən tanıyıram. Onun dünyaya, adamlara baxışında bir qeyri-adilik var. Sanki o, qarşısındakı adamın üzünə baxmır, onun qəlbini, fikrini, duyğularını görür. Onun gözlərində mərhəmət var, baxışlarında bir şəfqət duyulur. Həssaslığını, kövrəkliyini də gözlərindən görmək olur. Şeirləri də gözləri kimi durudu, safdı. Görünür heç vaxt duyğularına, mənliyinə, vicdanına xilaf çıxmayıb.

Flora yalnız şairdimi? O, jurnalistika fakültəsini bitirib, ömrünü mətbuat işinə sərf edib və bu gün də qəzetdə məsul vəzifədə çalışır. O, həm də publisistdir. Zərdabi, Mirzə Cəlil, Üzeyir bəy, S.Ağaoğlu, Əbdürrəhim bəy ənənələrini yaşadan yazılar yazır. Mən bu sözləri niyə deyirəm? Çünki hər qəzetçi, hər jurnalist hələ publisist ola bilmir. Ötəri, adi informasiya yazanlar da publisist ola bilmir. Bunun üçün çox keyfiyyətlər lazımdır. Əslində bu, xalq üçün yazmaq, xəlqi yazmaq mənasını ifadə edən bir anlayışdır.

Floranın adi qəzet yazılarında da bir ciddiyyət, məna olur. Yəni, o, yazdığı məsələyə adi məsələ kimi baxmır. Onun yazılarında hadisə, zaman, vəziyyət barədə bir şərh, yozum olur və hiss edirsən ki, bu məsələ nə üçün aktualdır, nə üçün gərəklidir.

Flora şair, publisist-yazıçı kimi bu mənalı ömründə çox iş görüb. Ən əsası da odur ki, xəlqi iş görüb. Hansı məsələ xalqı narahat edir, nəyə diqqət yetirilməlidir, nəyin dalınca getmək lazımdır, harada səsimizi çıxarmalıyıq, nəyə irad tutmalıyıq. Bütün bunlara Flora cavab verir. Ədəbi janra, yazının həcminə, səhifənin yerinə görə yox, məzmuna, mətləbə görə söz deyib.

Bəzən o da olur ki, söz yerinə düşmür fikri yayındırır, mətləbi tam ifadə etmir, uzunçuluq yaranır. Bunu müəlliflər, mətbuat işçiləri yaxşı bilirlər və nəyisə pozub, yenidən yazır, nəyisə ixtisar edirlər...

Mən Floranın şeirlərini oxuyanda nəyinsə başqa cür, artıq olduğu barədə fikirlə rastlaşmamışam. O nəyi deyirsə, yaxşı deyir. Niyə? Çünki kimisə təkrarlamır, öz sözünü deyir, öz fikrini ifadə edir. Yəni bu onun baxışı, onun deyimi, onun münasibətidir. Bu şeirlərdə Tanrıya, torpağa, vətənə insani münasibət diqqət çəkir. Vətənlə bağlı şeirlərdə doğma torpağa sədaqət, sevgi yüksəkdir, gözəldir, mənalıdır və yanğılıdır. Param-parça olmuş vətənimizin qayçılanmış xəritəsini görürəm bu yazılarda. Tarixə, keçmişə, kökə qayıdış, namərdlərə, düşmənlərə qəzəb, nifrətlə yanaşı, satqınlığa, laqeydliyə, qədirbilməzliyə, nadanlığa, yazıqlığa, mütiliyə üsyan var bu şeirlərdə. Vətən dərdi, vətən nisgili Ağabəyim ağa kimi Floranı da yandırır. Onun dünyaya göz açdığı, ayaq basdığı, gülünü-çiçəyini qoxladığı, dağı kimi qürurlandığı, dərəsi kimi gurladığı, çayı kimi aşıb-daşdığı, qalası kimi qoruduğu, balası kimi oxşadığı, səması kimi tutulduğu, buludu kimi boşaldığı, yağışı kimi yağdığı yerlər... Bir ömür yaddaşının sözə keçən muzeyini, xatirəsini, xəritəsini görürsən bu şeirlərdə. Floranın şeirlərində bayatı yanğısı var. Özü də necə...

Könlüm ağlar ötənə,
Ümid bağlar yetənə.
Ovul, ürəyim, ovul,
Əlin çatmaz Vətənə!

Daş da səndən vəfalı,
Quş da səndən vəfalı,
İldə bir yol Vətəndə
Qış da səndən vəfalı.

Burada qafiyə, söz tutumu, sözün estetik tərəfi, yəni hər şey elə çitələnib, bir-birini tamamlayıb ki, onlardan söz açmaq artıqdır.

Torpaqlarımızı itirsək də, yurd-yuvadan uzaq düşsək də Flora vətən torpaqlarını itmiş, itirilmiş hesab etmir:





Orada bir evimiz bizlərə həsrət,
Yurddan didərginik, qonağıq, Allah!
Yönümüz dağlara, düzlərə həsrət,
Getməsək ölərik, qınağıq, Allah!

Floranı başqalarından fərqləndirən bir xüsusiyyət də var. Çoxları tarixi kitablardan oxuyur, qədimlər, keçmişlər, ulu varlıqlar haqqında nağıllardan, dastanlardan öyrənir. O, isə doğma Zəngəzurun, Urudun yetirməsi kimi tarixin zəngin xəzinəsinin içində bitən, boy atan çiçək kimi hər şeyi öz gözü ilə görüb.

Urud kəndi dünyanın tarix muzeyidir. Dağ-dərəsi, meşəsi, yolucığırı, çayları-bulaqları ilə. Urudun dünyadan köçənlərinə qoyulan sinə daşları, oradakı naxışlar, simvollar ən əski mədəniyyətimmizin yadigarlarıdır. Zəngəzur Urudu ilə bir tarix, bir dastandır. Ona görə onun ürəyində Urud yanğısı qövr edir.

Doğulanın yurdu yox,
Yanan yurdda ordu yox.
Bu mənin - Urudu yox,
Allah, özün kömək ol.

Vətən, torpaq, yurd həsrətli şeirlərdə nisgil, dərd, ağrı-acı içində inam, dözüm, mübarizə ruhu da yüksəkdir:

Min nisgilin izi vardı sinəmdə,
Sevincimin yeri dardı sinəmdə,
Sənsizliyim sazdı, tardı sinəmdə,
Sənə dözdüm, sən də mənə döz, Vətən.

Əslində şairin dediyi bu dözümün, "dözmə"nin labüd olduğu zamanda birliyin dirlik gətirəcəyini anlayanların azlığı da düşünənləri narahat edir. Adamlar bəzən düz yoldan yayınır, avazı, sözü, yoluyolağı dəyişir.

Mən görürəm, sinəndəki saz deyil,
Avazından bəllidir ki, naz deyil.
Yandım Allah, çəkdiyimiz az deyil,
Məni fələk şişlərinə taxan sən.

Məramı, məqsədi dəyişən adamların havası da, avazı da ayrıdır. Ona görə də şair incə bir qınaqla deyir:

Bu çaldığın havaların adı nə?
Bu saldığın davaların adı nə?
Bu dəyişən havaların adı nə?
Çay aşağı, çay yuxarı axan sən.

Vətəni bürüyən qaçqınlıq dərdi insanları içəridən əridir, ürəyini çürüdür. Bu ağrını, bu dərdi çəkən bilir. Vətənsiz körpənin gözünü dolduran yaşı görməyən cibini doldurur, ümidi qırılan körpənin ömrü gödəlir, nisgil, vətənsizlik körpəni qoca, yaşlı kişiyə döndərir. Flora xanım da həssaslıqla bu mənzərəni görür, yana-yana dərdini şeirə çevirir:

Min ağıllı bir dəlinin başında,
Körpəsi də elə qoca yaşında,
Yurd ağrısı ürəyimin başında
Cibi dolan, gözü dolan kim indi?

Flora Xəlilzadənin zərif, həssas duyğuları poeziyada, publisistika sahəsində gördüyü işlər vətəndaş xidmətidir. Əvəz gözləmədən, mükafat ummadan görülən işlərdir. Onu müəllimləri, həmkarları tanıyır, qiymətləndirir və bu da Floraya qol-qanad, ümid verir. Vaxtilə əziz müəllimimiz Qulu Xəlilov, özü də hər adamı, hər yazılanı bəyənməyən, bir tənqidçi olan Qulu Xəlilov Floranın yaradıcılığına yüksək qiymət verib. Bəxtiyar Vahabzadə, Əzizə Cəfərzadə, Məmməd Araz, Vidadi Babanlı, Sabir Rüstəmxanlı, N.Həsənzadə kimi tanınmış ziyalılar Floranın yaradıcılığı və şəxsiyyəti haqqında çox qiymətli fikirlər söyləyiblər.





Xarici ölkələrdə keçirilən beynəlxalq simpoziumlarda, mədəniyyət günlərində Flora fəal iştirak edib. 1994-cü ildə Türkiyədə keçirilən Beynəlxalq Nət yarışmasında onun uca peyğəmbərimizə həsr etdiyi şeir mükafata layiq görülüb. Mən o zaman Türkiyədə idim və həmin şeirin mədəni mühitdə necə böyük təsir oyatdığını yaxşı xatırlayıram.

Floranın yeni kitabı hazırlanır və doğma obasına, elinə, bu yurdun adamlarına həsr olunmuş bu kitab da onun həssas ürəyinin, işıqlı qəlbinin bir nişanəsidir.

Flora təvazökar, bəzən də haqqını tələb etməyən bir insandır. Hətta yazılarında özünün şair olmadığını da deyir. Yadıma böyük şair Oljas Süleymanovun sözləri düşür. O deyir ki, mən şeirdə publisistəm. Flora da publisistikada şairdir. Sözün şəhdi-şəkəri, bədiiliyin xoş və təsirli ovqatı onun bütün yazılarında özünü göstərir.

Necə ki, vətənin yaraları göynəyir, sağalmayıb, necə ki, yurdlarımız, qalalarımız, qəbirlərimiz, müqəddəs abidələrimiz düşmən əsarətindədir Flora mübarizəsini dayandıra bilməz. Onun əsərlərində Zəngəzurun zəngləri çalınacaq, oyaq ruhların səsi eşidiləcək, Urudun tarixi daşları əks-səda verəcək, kar qayaları dilə gətirəcək. Floranın mənalı, kədərli gözləri bundan sonra yaşaranda yalnız sevinc yaşları axıdacaq. Floranın sözü yaralı vətənə dayaq olacaq...

Yeni kitabın mübarək olsun, mənim bacım, sənə uğurlar diləyirəm.

**İsmayıl Vəli Öməroğlu,**
*Filologiya elmləri doktoru,*
*professor*

## OXUCULARA

Bilirsinizmi, niyə yazdım bu kitabı? Ömrümün elə həddinin, səddinin kənarında dayandım ki, son mənzilə uzanan yolun qısaldığını duydum. Olumdan ölümə tələsdiyimiz bir üzü yaz, bir üzü qış olan bu dünyanın etibarına, vəfasına ümidim qalmadı. Geriyə boylandım. Uşaqlığım keçən yerlərin, Ulu Zəngəzurun dilbər qoynunda - dağların ovucunda yerləşən ana yurdumun - Urudun bütün qayası, daşı, dərəsi, düzü, bağı-bərəsi üstümə yeridi. Ürəyimə şığıyan həsrətin yaxasından yapışaraq gördüklərimi, çəkdiklərimi acı yuxu kimi tərsinə yozdum. Amma heç nə dəyişmədi. Yolları bağlı dağların dumanı çəkilmədi. Bu pərişanlıq qəlbimi sızlatdı.

İnsan bütün ömrü boyu bir çox itkiyə hazır olur. Bilir ki, nə vaxtsa qapısını ata, ana, dost, tanış itkisi döyəcək. Bu dərdlərin yeri göynəsə də, zaman hər şeyə sığal çəkə bilir. İnsanın gözləmədiyi dərd Vətən itkisidir. Bu həsrət adamı dirigözlü öldürür. 1988-ci ildən biz zəngəzurlular bütün Qərbi Azərbaycanda yaşayan soydaşlarımız kimi vətəndən yetim qaldıq. Bu, elə bir dərd ki, yarası sağalmır.

Xəyalı gözümdən asılı yerlərin bir içim suyu, bir udum havası, bir ləçək ətirli çiçəyi üçün Allah bilir ki, necə darıxırmışam. Bizi üzən bu həsrəti ifadə etməyə təsirli söz tapa bilmirəm.

Fikirləşdim ki, o yerləri görməyən urudlular üçün yadigar olaraq bu kitabı qələmə alım. Dərdimə şərik olub göz yaşlarımı silən övladlarım heç vaxt mənim sevdiyim kəndi yuxuda belə görə bilməzlər. Çünki onlar o yerlərdə olmayıblar. Qorxum yurdumuzun ən əvvəl doğmalarımız tərəfindən unudulmasıdır. Ona görə istədim ki, yazdıqlarım birinci növbədə sevdiyim insanlar tərəfindən oxunsun. Sözlə rəsmini çəkməyə çalışdığım Urudun abidəsi onların da ürəyində əbədi ucalsın. Bilsinlər ki, analarının qəlbini sevindirmək, nə vaxtsa ruhunu şad etmək üçün əsl urudlu olmaq, o yerlərə mütləq dönmək lazımdır. Bilsinlər ki, onların nəslinə, qohum-əqrəbalarına, millətlərinə hansı əzabları verib, hansı zülmə düçar ediblər. Bilsinlər ki, yaşıllıqların qoynuna sığınmış Urudun hansı bəxtəvər günləri olub?

Bilsinlər ki, Urud harada qaldı? Bilsinlər ki, Zəngəzur mahalı necə para kənddən, rayondan, qəsəbədən, obadan ibarət idi? Bilsinlər ki...

Əziz urudlu, sevimli zəngəzurlular. Bu təkcə, mənim kitabım deyil, hamımızındır. Təkcə urudluların da deyil, vətənini, doğma yurdunu itirən hər kəsin qəlb harayıdır, dərd güzgüsüdür. Belə, əziz oxucum. Səni vətən həsrəti ilə nəfəs-nəfəsə qoyduğum üçün bağışla.

**Müəllif**





# O YOL BİZİM YOLUMUZDUR

***Bizim ata-baba torpağımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olubdur. Bunlar bizim tarixi torpaqlarımızdır, ancaq biz Ermənistana qarşı torpaq iddiası irəli sürmürük. Halbuki sürə bilərik. Çünki indiki Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır.***

**İlham ƏLİYEV**

***Azərbaycan Respublikasının Prezidenti***

# ZƏNGƏZUR

Uca dağları, sıldırımlı şiş qayaları, dar gədikləri, dəli çayları, laləli təpələri, buz bulaqları, gül yaylaqları, ətirli çəmənləri, yaşıl ormanları, təmiz havası, min bir gözəlliyi ilə seçilən, əzəməti ilə vüqarlanan, Allahın məhəbbətlə nəqş etdiyi nəhəng təbiət möcüzəsi - Zəngəzur.

Bu mahal əsasən bir neçə bölgədən ibarət olub: Qafan, Gorus, Qarakilsə (Sisian), Mehri, Zəngilan, Qubadlı, Laçın. Tarixi mənbələrdə, müxtəlif səyyahların yazılarında göstərilib ki, Zəngəzur türklərin qədim yurd yeri olub. Xüsusilə də Zəngəzurdakı türk mənşəli toponomik adların çoxluğu bu fikri təsdiqləyir. Rəsmi sənədlərdən məlumdur ki, Zəngəzur vaxtilə Gəncə quberniyasının qəzası olub. 1920-ci ildən sonra Zəngəzurun Qafan, Gorus, Qarakilsə və Mehri bölgələri Ermənistana verilib. Parçalanmış, bölünmüş Zəngəzurun hansı səbəbdən ermənilərə bağışlanması hələ də dəqiqliklə açılmayıb. Qərbdən Zəngəzur, Şərqdən Qarabağ dağları bu qədim mahalın sipərinə çevrilib. Bazarçay da onun bərəkətli torpağının sinəsindən asılmış mirvari boyunbağıya bənzəyirdi. Hər halda təyyarədən bu gümüşü gözəllik belə görünürdü.

"Zəngəzur" toponominin mənasını tarixçi-alimlər, səyyahlar müxtəlif cür izah edirlər. Bəzilər bu toponimi zəngilərlə (qədim türk tayfası), bəziləri də "zəngin" sözünün kəsb etdiyi mənalarla bağlayırlar. Yürüdülən fikirlərdə müəyyən həqiqətin izi olmamış deyildi. Zəngəzurla bağlı çoxlu rəvayət və əfsanələr də var.

Universitetdə oxuduğum vaxt bizə "Azərbaycan tarixi" fənnindən mühazirə oxuyan alim, rəhmətlik İbadulla Mədətov da bir rəvayət söyləmişdi. Onun fikrincə, "Zəngəzur" "zəngin zühur elədiyi yer" mənasındadır.

Azərbaycanın cənubi-qərbində yerləşən bu ərazinin "Zəngəzur" kimi adlandırılması orta əsrlərdən də məlumdur. İşğalçılar tez-tez bu yerlərə hücumlar edər, əhalini soyar, onlara divan tutardılar.

Zəngəzurun təbii gözəlliyi, zənginliyi, coğrafi mövqeyi həmişə başına bəla olub. Araşdırmalar sübut edib ki, bu yerlərdə heç zaman erməni yaşamayıb. Zəngəzur lap qədimdən əcdadlarımızın vətənidir. Bütün tarixi mənbələrdə bu fakt aydınca göstərilib ki, XVII əsrə qədər Zəngəzurda erməni adında nəinki bir tayfa, ailə, heç bir adam da olmayıb. Bu yerlərdə mövcud olan tarixi abidələrin, bulaqların, dağların, yurdların qədim adları da ya albancadır, ya da türkcə. Mahalda olan ziyarətgahlar, ocaqlar, pirlər və digər sınaq yerlərinin çoxluğu da bunu sübüt edir.





Talesizlikdən yadellilər heç zaman Zəngəzurdan əl çəkməmişdir. Başı bəlalı mahal tez-tez müxtəlif hücumlara məruz qalıb. Lakin Zəngəzurun ən acınacaqlı dövrü XVIII əsrin sonu, XIX əsrin əvvəllərində başlayıb. "Gülüstan" (1813) və "Türkmənçay"(1828) müqavilələrindən sonra İrandan gəlmə ermənilərin Zəngəzurda, eləcə də Qarabağda yerləşdirilməsinə şərait yaradıldı. Bununla da gülüstanın tən ortasına qanqal toxumları səpildi. Bir fakt da məlumdur ki, Rusiyanın İrandakı səfiri A.Qriboyedovun bu istiqamətdə apardığı siyasət də ermənilərin mənafelərini, məkrli əməllərini daha da geniş şəkildə cücərtməyə yönəldi. Qriboyedovun bütün fəaliyyəti sözün əsl mənasında türk millətinin əleyhinə idi. Əlbəttə, mən tarixçi deyiləm, bu səbəbdən də qədim mənbələrdə göstərilənləri müzakirəyə çəkmək fikrim yoxdur. Bir vətəndaş, bir zəncgəzurlu olaraq yurdumuzun və millətimizin başına gələn müsibətlərdən, üzləşdiyimiz haqsızlıqlardan söz açmaqla gələcək nəslə bəzi gerçəkliklərdən danışmaq istəyirəm.

Zəngəzurun ümumi sahəsi 7822 kv. kilometrdən çoxdur. Saysız hesabsız abidələrlə zəngin olan mahalın çox qədim tarixi var. "Kitabi - Dədə Qorqud" dastanında oxuduğumuz adların çoxuna bu mahalda rast gəlmək mümkün idi. Məsələn Oğuz dərəsi, Qara Məlikli, Bayandur, Bayvart, Qazançı, Qəmərli, Düyər, Düyün, Qapıçıq, Oğuzbəyli, Qarabazar, Məliklər... Elə yer adları da var ki, onlara yalnız Zəngəzurda deyil, Azərbaycanın başqa bölgələrində, eləcə də Türkiyə, Orta Asiya və qonşu Gürcüstanda (məhz azərbaycanlıların sıx yaşadıqları ərazilərdə) indi də rast gəlmək olur. Məsələn, Sofulu, Qazançı, Urud, Dəmirçi, Qaralar, Muğanlı, Çaykənd, Qaratəpə, Qaraqoyunlu, Hacılar, Şəki, Güllücə, Gültəpə, Gölkənd, Yayçı, Yenikənd, Nüvədi, Üçtəpə,



Bazarçayın üzərində qədim körpü

Zeyvə, Afşar, Biçənək və s.

1919-ci ildə Zəngəzurdakı 222 yaşayış məntəqəsindən 116-sı Azərbaycan türklərinə məxsus idi. 1920-ci ildə Zəngəzurda yaşayan əhalinin 70,9 faizi Azərbaycan türkləri olub. 1931-1986-cı illərdə bu nisbət ürəkaçan deyildir. Getdikcə nisbət fərqləri davam edib. 1931-ci ildə 191 yaşayış məntəqəsindən 87-si, 1986-cı ildə 128 yaşayış məntəqəsindən 40-ı azərbaycanlılara məxsus olub. Sovet hakimiyyəti illərində ermənilər öz niyyətlərini həyata keçirməkdən usanmırdılar. Ələ keçirdikləri ərazilərdən azərbaycanlıları öz ata - baba yurdlarından sıxışdırıb çıxarmaqla yanaşı, şəhər, rayon, kənd, qəsəbə, dağ, çay adlarını da dövlət səviyyəsində dəyişdirmişdilər. 1924-1959-cu illər arasında 18 şəhər, rayon, 495 kənd və qəsəbə adı erməniləşdirildi. 1905-1907 və 1914 - 1920-ci illərdə törədilmiş qırğınlar nəticəsində təxminən yarım milyon azərbaycanlı daşnakların həyata keçirdikləri toqquşmaların, qırğınların qurbanı oldu. Həmin illərdə Zəngəzurda 115 kənd və on minə yaxın adam, o cümlədən 4.472 qadın və uşaq qətlə yetirilmişdir.





Sovet hakimiyyəti illərində ermənilər öz məkrli əməllərini həyata keçirmək üçün hər məqamdan fəndgirliklə istifadə edirdilər. "Yeni yol" salmaq bəhanəsi ilə gah qədim körpüləri (üstündə aydınca tarixi, ustasının adı olan, yaxud da alban, ərəb əlifbası ilə yazılar həkk edilmiş) dağıdır, gah da minillik tarixi olan qəbiristanlıqları yerlə yeksan edir, hansısa tarixi abidənin - xəttat babalarımızdın qalan nişanənin daş yaddaşını - kitabələri söküb yerinə erməncə "yeni tarix" quraşdırırdılar. Onlar bu cür süni tarix yaratmağa, saxtakarlığa, elə aludə olmuşdular ki, minlərlə insanın gözü qarşısında daşların üstündə xaç şəkli oyub torpağa basdırır, çayın dibinə atır, divarın içinə hörürdülər. Nə vaxtsa "tapılanda" "bura ermənilərə məxsusdur", - deyə qışqıra bilsinlər. Bu, onların çox köhnə və sağalmayan xəstəliyidir.

Təəssüf ki, bu iyrənc və sağalmaz mərəz onların özlərinə qənim kəsilməkdənsə, özlərini məhv etməkdənsə günahsız insanların qətlinə bais oldu, minlərlə ailəyə bədbəxtlik gətirdi, nəticədə bəşəriyyətin özü üçün ləkəyə çevrildi. Bu qara ləkə Zəngəzurun da taleyinə kölgə saldı. Onu öz halal sahiblərindən məhrum etdi. 1988-ci ildə zəngəzurlular doğma yurdlarından vəhşicəsinə qovuldular. Taleyin amansızlığı bu dilbər guşənin dincliyinə, bəxtəvərliyinə son qoydu. Ermənilər Zəngəzuru öz doğma anasından - Azərbaycandan qopardılar. Bu qopmanın ağrı-acıları neçə-neçə vətənsiz qalmış insanın sinəsində sağalmaz yaraya çevrilib. İndi ancaq yuxularımızda gördüyümüz vətənimiz - unudulmaz, yaddan çıxmaz Zəngəzur mahalı yağı tapdağında saralmaqdadır. O torpaqda doğulmayan zəngəzurlular böyüyür. Yolunuz işıqlı, gələcəyiniz xoş olsun. Amma ata - ananızın, babalarınızın, əcdadlarınızın xəyalı və ruhu dolaşan doğma Zəngəzuru unutmayın. Biz bacarmadıq, sizlər qeyrətli olun, bizi də qaytarın ora.

**2004.**

# VƏTƏNİN UNUDULMAZ OĞLU



Ümummilli liderimiz Heydər Əliyev 10 may 1923-cü ildə Naxçıvanda dünyaya gəlmişdi. Bu qədim şəhərdə böyümüşdü, təhsil almışdı. Amma valideynlərinin doğma yurdla bağlı dediklərini heç vaxt unutmamışdı. İstər orta, istərsə də ali məktəbdə oxuyanda həmişə yay tətillərində Qarakilsəyə gələr, Comərdlidə, Urudda olar, qohum-əqrəbaları ilə görüşərdi. Hər iki kənddə çoxlu uşaqlıq və gənclik dostu var idi. Bazarçayda çimməyi çox sevərmiş. Ən hündür qayadan çaya tullanarmış. Urudda sonralar həmin qayaya "Heydər qaya"sı deyərdilər. Uşaqlıq dostlarından biri, indi haqq dünyasında olan Sabir Tahirov mənə danışardı: "Bir gün çaydan çıxıb yastı qayanın üstündə uzanaraq özümüzü günə verirdik. Birdən Heydər dedi: "Kaş adamı aparıb Bağırovun (M.C.Bağırov - F.X) yerinə qoyalar". Kimin ağlına gələrdi ki, bu sözləri ona söylədən fəhmin gücüdür".

Sonrakı illərdə də Heydər Əliyev ata və ana yurdunu unutmadı. Onun gənclərə məsləhətlərindən biri də bu idi ki, ali təhsil aldıqdan sonra mütləq doğma ocağa qayıtsınlar. Kəndlər boşalmasın.





1974-cü ildə Bakı - Sisian avtobus marşrutunun açılması Heydər Əliyevin öz həmvətənlərinə ən böyük hədiyyəsi oldu. Bu marşrut əvvəllər ancaq Gorusa qədər işləyirdi. İnsanlar çox əziyyətlə Qafan və Naxçıvan istiqamətindən qatarla Bakıya gedib-gələrdilər. İki gün vaxt itərdi. Az sonra Bakı-Gorus təyyarə xətti işə düşdü. Sevincimizin həddi-hüdudu yox idi. Düz 45 dəqiqəyə evimizdə olurduq.

O zamanlar Heydər Əliyevdən ermənilər çox çəkinirdilər. Onun qorxusundan azərbaycanlılara bir kəlmə də turş söz deyə bilməzdilər. Bütün xıltları, kinləri içlərində idi. Dilə gətirməzdilər. Elə ki, 1987-ci ildə Heydər Əliyev vəzifədən və Siyasi Bürodan getdi, sanki ermənilərin qurumuş qanqallarına həyat gəldi. Dərhal öz şeytan əməllərini həyata keçirməyə başladılar. İlk torpaq iddiaları Qarakilsədən baş qaldırdı. Əvvəlcə Uruda məxsus yaylaqlar və əkin sahələri alınaraq ermənilər yaşayan kəndlərə verildi. Bizim əleyhimizə müxtəlif kitablar çap edildi, təbliğatlar aparıldı, azərbaycanlılar incidilməyə başlanıldı. Sonra da... Hər şey bəllidir. Qarabağ kartını ortaya ataraq nəinki Zəngəzurda, bütövlükdə Qərbi Azərbaycanda yaşayan soydaşlarımızı 1988-ci ilin soyuqlu qış günlərində dədə-baba yurdlarından min cür vəhşiliklə qovdular. Halbuki Heydər Əliyev vəzifədə olsaydı və yaxud da ermənilərin dəyirmanına su tökən öz namərdlərimiz naxələflik etməsəydilər başımıza bu faciələr gəlməzdi.

Heydər Əliyevin cahanşümul xidmətlərindən çox danışmaq olar. Mən ancaq onun xatirəsinə həsr etdiyim kiçik bir yazını sizin diqqətinizə təqdim edirəm.

# VƏTƏNƏ ŞƏRAFƏT, TORPAĞA ZİNƏT

Hər gün Baş ziyarətgahdan dəstə-dəstə insan keçir. Buraya gələnlərin varlığında bir iftixar hissi duyulur. Kimi əlini sinəsinə qoyaraq baş əyir, kimi də gətirdiyi gül dəstəsini əzəmətli abidənin önünə düzərək sükutla uzaqlaşır, kimi də saatlarla dayanaraq sanki ulu öndərin ruhu ilə söhbətləşir. Hər birimizin içində vətəndaş olaraq ümummilli liderimiz Heydər Əliyevə bir borc hissi var. Qüdrəti və xalqa məhəbbəti ilə Günəş ucalığında dayanan ulu öndərin boynumuzda elə bir haqqı var ki, onu qaytarmağa bir ömür azlıq edər.

Heydər Əliyev elə düha idi ki, bütöv bir xalqın taleyi məhz onun fəaliyyəti, cəsarəti, mübarizəsi, nurlu əməlləri ilə həll edildi. Buna görə də Baş ziyarətgah yenə də paytaxtımızın döyünən ürəyinə çevrilib.



Bu ürəyin çırpıntıları hər birimizin sinəsində eşidilməkdədir. Rəhbərini sonsuz məhəbbətlə sevən xalq ümummilli liderinin əzəmətli xatirəsi önündə üç ildir ki, baş əyməkdədir. Əslində bu, əyilmək deyil, daha da ucalmaq, qüvvətlənmək, güclənmək, Heydər Əliyev ideyaları yolunda birləşmək, durulaşmaq, mübariz olmaq deməkdir. Nahaq yerə deyilməyib: "Ölüm var ki, həyat qədər mənalı". Buna heç ölüm də demək olmaz. Heydər Əliyevin müdrikliyi, kamalı cahanda bütün əyriliklərə, naqisliklərə, hətta qara ölümün özünə belə qalib gəldi.

Ömür yolunda hər kəsin son anı bəllidir. Zirvələrə yüksəlmiş qeyri-adi ömrə malik ümummilli liderimizin yalnız özünəməxsus bir qüdrəti idi ki, o, həmişə ilk Günəş ucalığında dayanıb. Hərdən düşünürsən ki, ümummilli liderin; bənzərsiz şəxsiyyətin, cəngavər Oğulun nəhəng arzularla çırpınan ürəyi necə susa bilər? O elə bir qüdrətin, əzəmətin sahibi idi ki, buna inana bilmirsən. Min ildən bir doğulanlar Allaha yaxın olurlar. İstər əməllərində, arzularında, istərsə də xalqa xidmətində, zəkasında bütün zirvələri fəth edən Heydər Əliyev məhz Günəş ucalığında dayanaraq bizim indi də yolumuza işıq saçır. Baş ziyarətgahda yaradılmış "gül dağı" bunun sübutudur. Bu etirafı hamımız bilirik ki,



7904



çoxumuzun qəbri itib-batacaq. Danılmaz həqiqətdir. Amma Şəhidlər xiyabanı, bir də Baş ziyarətgah müqəddəs məkan kimi bu millət yaşadıqca duracaq, güllərdən-çiçəklərdən libas geyinəcək.

Bu ilin yayında türkiyəli jurnalist, TRT-nin əməkdaşı Üfüq Baykal ilk dəfə Bakıya gəlirdi. Onu hava limanında qarşılayanda birinci sözü bu oldu: "Mən mütləq ilkin olaraq sayın cümhurbaşqanımız Heydər Əliyevin məzarını ziyarət etmək istəyirəm". Elə hava limanından birbaşa Baş ziyarətgaha gəldi. Türkiyəli həmkarımız xeyli müddət burada sükuta daldı. Ümummilli liderimizin ruhuna dualar oxuyandan sonra dedi: "Mən onu çox sevirdim. Hələ Naxçıvanda olarkən telefonla çox danışmışdıq. Sonra Ankarada, İstanbulda görüşmüşdük. Bir neçə dəfə müsahibə almışdım. Həyatımda ilk dəfə idi ki, möcüzəli bir şəxsiyyətlə rastlaşmışdım. Acılar olsun ki, mən Bakıya bu halda gəldim. Çox istərdim ki, ondan yenə müsahibə alım. Fikirləşirəm ki, Heydər Əliyevin hər kəlməsi bir fəlsəfədir. Onun açması ilə məşğul olmağa ömür bəs etməz. İndi onun abidəsini gördüm. İnanmağım gəlmədi ki, o zarafatı, o mənalı, müdrik səsi bir daha eşitməyəcəyəm. Azərbaycan xalqı çox xoşbəxtdir ki, onun belə dahi oğlu olub".

Ölkədən gedən də, Vətənə dönən də, qonaq da öncə yolunu Baş ziyarətgaha salır. Əbədi liderin müqəddəs məzarı önündə təzim edərək sanki ona hesabat verir. Yaxşı deyirlər ki, qazandığımız uğurları biz burada, ürəyimizdə də olsa, Heydər Əliyevə çatdırmalı, onun ruhundan xeyir-dua almalıyıq. Günəşlə yanaşı dayanan bu ruhun əli həmişə çiynimizdədir.

Böyük İnsanın can qoyduğu, bizlərə əmanət etdiyi bu müqəddəs torpaq həm də and yerimizə çevrilib. Buraya yalnız müsafirlər, siyasətçilər, sənət adamları, adi vətəndaşlar gəlmirlər. Bura həm də ilk dəfə ailə quranlar, əsgəri xidmətə yollananlar, hansısa beynəlxalq yarışa qatılanlar böyük bir inamla, ehtiramla üz tutaraq xeyir-dua alırlar. Üçüncü ildir müşahidə edirik ki, təzə bəylə gəlin əllərindəki çiçəkləri müqəddəs məzarın - ulu öndərin uyuduğu məkanın üzərinə qoyaraq Zərifə xanım Əliyevanın abidəsi önündə dayanaraq and içirlər. Baş ziyarətgahdan sonra Şəhidlər xiyabanına gedir, Vətən yolunda canlarını qurban verən Fərizə və İlhamın uyuduğu qoşa məzarı ziyarət edirlər. Onlar ulu öndərdən xeyir dua-alır, Vətənə, xalqa, millətə, məhz Heydər Əliyev kimi fədakarlıqla, sədaqətlə xidmət edəcəklərinə and içir, Fərizə və İlhamın məzarı önündə isə bir-birlərini dərin məhəbbətlə sevə-



Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

cəklərinə söz verirlər.

Fəxri xiyabanda Azərbaycan xalqının çox dəyərli övladları torpağa tapşırılıb. Bu mənada buraya gələnlərin ardı-arası kəsilmir. Amma bir həqiqəti dilə gətirmək lazımdır ki, son illərə qədər bu müqəddəs ünvan sanki yaddan çıxmışdı. Qohum-əqrəbadan başqa Fəxri xiyabanı kimsə ziyarət etməzdi. Taleyin qəribəliyinə bax ki, sağlığında bütün xalqına, millətinə başucalığı, şərəf və ləyaqət gətirən Heydər Əliyev haqq dünyasına qovuşduqdan sonra yatdığı torpağı da zinətləndirdi. Vətəninə şərafət, torpağına qədir-qiymət gətirən Heydər Əliyevin bu da bir qüdrətidir ki, indi hər kəs Fəxri xiyabanda uyuyanların hamısına dualar oxuyur. Azərbaycanın say-seçmə oğullarının, şöhrətli insanlarının hamısının ruhu Fəxri xiyabanda rahat dolaşmaqdadır.

Həyatda qəribə təzadlar olur. Elə ataların da bu qəribəliklə bağlı bir kəlamı var: "Torpağın üzü soyuqdur". İnsan haqq dünyasına qovuşan kimi bəzən unudulur. Bu üç il təsdiqlədi ki, Heydər Əliyevə olan dərin məhəbbət millətin varlığı qədər əbədidir. Nə ayrılığın məsafəsi, nə torpağın soyuqluğu bu böyük şəxsiyyəti qəlbimizdən çıxara bilmədi. Heydər Əliyev həmişə bizimlədir. Onun nurlu ideyaları xalqın, millətin qolundan tutaraq ağ günlərə aparır. Üç il yox, qərinələr keçsə, əsrlər ötsə də, Heydər Əliyevin bənzərsizliyi, əvəzsizliyi duyulacaqdır. Qəhrəmanlığın, hünərli olmağın, sevilməyin, xalq yolunda fədakarlığın yolları müxtəlifdir. Millətin inandığı, sevdiyi şəxsiyyət olmaq bəlkə də çətin deyil. Amma onun qəlbində əbədi qalmaq çox çətindir. Heydər Əliyev doğma xalqının xoş gələcəyi naminə elə cəsarətli addımlar atdı, qeyri-adi xariqələr yaratdı, mübarizə apardı ki, onun yolu ilə getmək labüdləşsə də, onun Özü olmaq heç bir vaxt mümkün deyil. Heydər Əliyev Allahın Azərbaycan xalqına bağışladığı hikmət dəryası idi.





## SİSİAN



Zəngəzurun, ümumiyyətlə Qərbi Azərbaycanın ən böyük və səfalı təbiətə məxsus rayonlarından biri Qarakilsədir (Sisian). Bəzi müasir tədqiqatçılar, yazı və kitab müəllifləri rayonun adını "Sisyan" yazır, onu "Sisiakan", "Sisovan", "Syuni", "Sisəcan" toponimləri ilə əlaqələndiriblər. Hətta bir sıra tarixçi alimlərin də tədqiqatlarında məhz belədir. Sisyanın kökü məhz bu adlarla sıx bağlıdır. Buna bizim etirazımız yoxdur. Həmin Sisyan əslində indiki rayon mərkəzi olan Sisianın 11 kilometrliyində yerləşib. 1590-cı ilə aid ərəb mənbələrində "Sisəcan" adı dəfələrlə çəkilib. B.Budaqovun, Q.Qeybullayevin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" kitabında oxuyuruq: "Orta əsrlərdə ərəbcə Sisəcan adlanan, 1590 -cı ilə aid türkcə mənbədə "Sisyan" kimi tanınan Siscan kəndi... Sisəkan adının təhrif formasıdır, 1728-ci il mənbəyində isə Sisyan kimidir". 1918-ci ildə kəndin əhalisi daşnaklar tərəfindən qovulmuş, oraya başqa ölkələrdən gəlmə ermənilər yerləşdirilmişdir. İndi həmin kənd ermənicə Hatsavan adlandırılmışdır. Rəsmi sənədlərdə də bu kəndin adı Sisyan yazılıb, mötərizədə isə Hatsavan göstərilib, gah da əksinə.

Qarakilsə rayon mərkəzi isə 1930-cu ildə yaradılıb. Qarabulaq və

Qarakilsə adlanan ərazilərin birləşdirilməsi nəticəsində 1719 kv. kilometr ərazidə yaranan yeni rayon mərkəzi 1940-cı ilə kimi rəsmi sənədlərdə Qarakilsə adlandırılıb. Rayonun ərazisində albanlardan qalma Qara kilsə olduğundan yerli əhali həmin ərazini "Qarakilsə", Ağdü kəndinə dönən yolun üstündə içmək üçün yarasız qara rəngli çeşmə qaynağından oraya da "Qarabulaq" deyirdilər. Fikir verin, hər iki toponim təmiz türk dilindədir, ermənicə heç bir söz yoxdur. Deməк olar ki, bu yerlərin adları əhali arasında həmişə tez - tez işlədilirdi: "Qarakilsəyə gedirəm", yaxud da "Qarabulaqda çox gözləməli olduq" və s. Maraqlıdır ki, ermənilər də öz danışıqlarında belə deyirdilər.

1940-cı ildə Ermənistan hökuməti rayonun adını dəyişərək türklərin qanına susamış cəllad P.D.Sisianovun şərəfinə "Sisian" adlandırdılar. Kim idi Sisianov? 1802 -ci ildə Qafqaza baş komandan təyin olunmuş bu mənfur insan erməni keşişləri tərəfindən öyrədilərək azərbaycanlılara dərin nifrət bəsləyirdi. Onun ən yaxın köməkçiləri, başbilənləri, eləcə də əlaltıları məhz ermənilər idi. O, Qafqaza əslində işğalçılıq planları ilə gəlmişdi. Döyüş əməliyyatlarını məhz Azərbaycan üzərində qəddarlıqla həyata keçirən Sisianovun birinci məqsədi elə bu torpaqdakı xanlıqları dağıtmaq oldu. Bu istiqamətdə apardığı işğalçılıq nəticəsində Azərbaycanın bir sıra xanlıqlarını ələ keçirib böyük bir qoşunla Bakı üzərinə yeridi. Lakin Sisianovun bəd əməli həyata keçmədi. Başı bədənindən qoparılmış rus generalı əsl cəzasını aldı. Sisianovun başsız bədəninin yiyəsi erməni keşişi Danil çıxdı. O, əziz dostunun başsız cəsədini kilsədə gizlədərək yeni təyin olunmuş komandandan mükafat aldı. Başsız bədən isə Tiflisə aparıldı. Ermənilər uzun müddət Sisianovun Azərbaycan xalqına etdiyi pisliyi, düşmənçiliyi, işğalçılıq fəaliyyətni fərəhlə xatırladılar. Bu məqsədlə də unutmadıqları "əziz"lərinin adını Qarakilsəyə verdilər. Ona görə də qoy tədqiqatçılar, eləcə də bu bölgə ilə əlaqədar məqalə, kitab yazanlar Sisianı Sisyan yox, doğru - dürüst adı ilə yazsınlar.

## QARAKİLSƏ

Dəniz səviyyəsindən 2300 metr hündürlükdə, səfalı bir çökəklikdə yerləşən Qarakilsənin cənub və qərbinin bir hissəsi meşə, bir hissəsi isə dağlar və Alp çəmənliklərindən ibarətdir. Bölgə İşıqlı, Ərimaz, Qısırdağ, Salvartı, Qırxqız, Qazançı dağları ilə əhatə olunmuşdur. Bölgəni tən yarıya bölən Bazarçay bu yerlərə xüsusi gözəllik bəxş edib.





Çox qədimdən bölgədəki 76 kəndin 6-sı albanlara, 61-i türk tayfalarına məxsus olub. 1917-1918-ci ilə qədər Qarakilsədə mövcud olan kəndlər:

1. **Yaycı**
2. **Qamçı**
3. **İlizin**
4. **Darabaz (Abbas dərəsi)**
5. **Şilətağ**
6. **Lor**
7. **Gilətağ**
8. **Bəhrili**
9. **İrmis**
10. **Qala**
11. **Qalayça**
12. **Urud (ən qədim türk kəndi)**
13. **Boz dərə**
14. **Kürdlər**
15. **Kalafalıq**
16. **Pürül**
17. **Vəng (alban kəndi)**
18. **Vağədi (alban kəndi)**
19. **Güllükaha**
20. **Cəhrədərə**
21. **Kənd yeri**
22. **Dərəkənd**
23. **Ağdü (alban kəndi)**
24. **Şükürbəyli**
25. **Kilsəli (alban kəndi)**
26. **Qızılcıq**
27. **Şəki**
28. **Qarabulaq**
29. **Qarakilsə**
30. **Uz**
31. **Dulus**
32. **Əxlətli**
33. **Şıxlar**
34. **Dəstəyird**

35. Püsək
36. Qıvraq
37. Alışar
38. Pulkənd
39. Sofulu
40. Murğuz (Murxuz)
41. Təzəkənd
42. Comərdli
43. Ərəfsə
44. Pırnavid (alban kəndi)
45. Əngələvid (alban kəndi)
46. Şələk
47. Bələk
48. Şüküralı
49. Ərikli
50. Məliklər
51. Məzrə
52. Saybalı
53. Salvartı
54. Bazar Düzü
55. Şam
56. Qaraməlikli
57. Qalaaltı
58. Cəhrələr
59. Bayandur
60. Sandıqlı
61. Sisakan (Sisyan)
62. Ağkənd
63. Alılı
64. Zabazur
65. Yaqublu
66. Bazarçay
67. Dəlmələr
68. Qızılqaya
69. Suludərə
70. Baharlı
71. Hortagiz (Hörtuyüz)
72. Zabanzadur





73. Şükər
74. Böyük Hasar
75. Qalacıq
76. Yenikənd

Bu kəndələrin çoxunun dağılmasına, adlarının dəyişdirilməsinə baxmayaraq, azərbaycanlılarla bərabər ermənilərin özləri də danışıqda köhnə adları işlədirdilər.



Məlumdur ki, 1918-ci ilə kimi ermənilər Zəngəzurda türklərin yaşadığı 115 kəndi tamamilə yer üzündən silmişlər. Bu dağılan, məhv edilən yurd yerlərinin içində Qarakilsəyə məxsus kəndlər də olub: Qamçı, Bozludərə, Qala, Qalaaltı, Kalafalı, Pürül, Güllükaha, Cəhrədərə, Kənd yeri, Dərəkənd, Şükürbəyli, Qarasu, Pulkənd, Şüküralı, Ərikli və s. 1930-cu illər repressiyası zamanı Azərbaycanda millətin ziyalı övladları, mədəniyyət xadimləri, yazıçıları, şairləri gedər-gəlməzə aparılırdı. Ermənistanda isə Eqişe Çarensdən başqa (şəxsi düşməni varmış) bir ermənin də burnu qanamadı. Əksinə, burada azərbaycanlılara divan tutuldu, özü də kütləvi şəkildə. Qarakilsə rayonunun Bazarçay, Ağkənd, Təzəkənd, Şam və başqa kəndlərinin əhalisi "xalq düşməni"

damğası ilə qətlə yetirildi.

1948-1951-ci illərdə Ağkənd, Alılı, Məzrə, Qalacıq, Əngələvid, Şəki, Vağədi və s. kəndlərin azərbaycanlı əhalisi ya bütünlüklə, ya da qismən sıxışdırılıb çıxarılmışdır. Xarici ölkələrdən Qarakilsəyə erməni axını davam etməkdə idi. Onlar əhalisi məhv edilmiş Azərbaycan kəndlərində yerləşdirilməklə bərabər, həmin yaşayış məntəqələrinin adları da dövlət səviyyəsində dəyişdirildi. Məsələn, Qarakilsə - Sisian, Şilətağ - Lernaşen, Yenikənd - Noravan, Qaraməliklər - Spandaryan, Darabaz (əslində Abbas dərəsi) - Darbaz, Təzəkənd - Tasik, Məzrə - Bartsravan, Sisyan (Sisakan) - Hatsavan, Ağkənd - Aşotavan və s.

1937-ci ilə kimi bölgədə 34 kənd qalmışdı. Elə həmin Şam, Bəhrili, İrmiş kəndləri də tamamilə məhv edildi, əhalisi qonşu kəndlərə köçürüldü. Ermənilər yenə də öz əməllərindən əl çəkmədilər. Azərbaycanlılar yaşayan kəndlərin adları erməniləşdirildi: Urud Voratan, İşıqlı dağı İşğanasar, Ərəfsə Arevis, Dəstəyird Dastakert oldu.

1988-ci ilə qədər Qarakilsənin Urud, Ağdü, Vağədi, Comərdli, Qızılcıq, Sofulu, Murxuz, Şıxlar, Ərəfsə, Dəstəyird, Şəki kəndlərində ancaq azərbaycanlılar yaşayırdılar. İki əsr müəyyən fasilələrlə türklərə qarşı apardıqları soyqırımı siyasətini ermənilər daha qəddarlıqla həyata keçirdilər. Qərbi Azərbaycanın başqa bölgələri kimi Zəngəzur mahalı da özünün qədim sakinlərindən, əsl sahiblərindən ayrılmalı oldu.





# RUHUMUN ÜNVANI - URUD



*Hər gecə yuxumda kəndi görürəm,*
*Torpağı görürəm, yurdu görürəm,*
*Sərkərdə görürəm, ordu görürəm,*
*Ruhu perik düşmüş ana görürəm...*

# URUD



Qarakilsənin ən qədim və gözəl kəndlərindən biri olan Urud. Mənim ana yurdum. Xəyalımdan çəkilməyən, yuxularımdan çıxmayan, xiffətindən üzüldüyüm doğma yurd. Əlimizdən gedəli özümüzə gələ bilmirik. Bütün dərdlərə, əzablara dözmək, sinə gərmək mümkünmüş, amma yurd itkisi elə bir gözəgörünməz ağrıdır ki, adamın bütün canına, ruhuna hoparaq gecə - gündüz rahatlıq vermir. Urudun geniş sinəsindən pərvazlanıb Bakıya gəldim, oxudum, işlədim, yazdım, yaratdım, beş qələm sahibindən biri oldum. Bir də onda gözümü açdım ki, şəhərdə evim, ailəm, övladlarım var. Neçə kitabın müəllifiyəm. Dünyanın böyük-böyük ölkələrinə ayağım dəyib. Hansı məmləkətə istəsəm gedə bilərəm, bircə öz kəndimizdən başqa. Övladlarıma Niaqara şəlaləsini, Sena çayını, Misir ehramlarını, Nyu - Yorkun gözəlliklərini, Ərəbistanın əsrarəngiz gecələrini göstərə bilərəm. Amma kəndimizdəki Qaladan, Bazarçaydan, evimizdən, bağımızdan başqa. Allahım, bundan dəhşətli heç nə hiss edə bilmirəm. Düşünməkdən, yazmaqdan başqa əlimizdən nə gəlir ki?! Şair qardaşım, yaxın





qohumum Musa Urud "Urud" kitabı yazdı. Ürək ağrılarını sakitləşdirmək, gələcək nəslə yurdumuz haqqında mükəmməl məlumat vermək üçün. Mənim də borclu qaldığım müqəddəslər var. Urudum, anamın ruhu, uşaqlıq dostlarım, qohum-əqrabam, canlarını bizə fəda etmiş şəhidlərimiz və nəhayət, qəriblikdə dünyasını vaxtsız dəyişən didərginlərimiz,doğma siması gözlərimdən çəkilməyən həmvətənlərim - bax bu xilqətin qarşısında söz borcum var. Çıxa biləcəyəmmi?

# BALACA KƏNDİN BÖYÜK TARİXİ

"Urud" sözünün açması ilə bağlı tədqiqatçıların müxtəlif fikirləri var. Bir məsələ önəmlidir ki, sovet hakimiyyətinin qurulmasına qədər kəndin adı rəsmi sənədlərdə Rud olub. Əhali arasında isə Urud deyilib. Rud da türk tayfalarının adı ilə bağlıdır. Əlbəttə, mən tarixçi olmadığım üçün bu məsələnin çox dərin qatlarına baş vurmaq istəmirəm. Görüb bildiklərimdən danışmaq daha məqsədəuyğundur. Kənd dağların və qeyri-adi qayaların əhatəsində yerləşir. Kəndin kənarından Bazarçay axır. Qarakilsənin başqa kəndləri ilə müqayisədə nisbətən arandır. Yayda havası yumşaq, qışda mülayim olur. Kəndin kənarlarında çoxlu mağaralar mövcuddur. Həmin mağaralarda olan hörgülər və digər nişanələr təsdiq edir ki, bu yerlər ən qədim insan məskəni olub. Hətta kəndin özü vaxtilə 3 kənddən ibarət olub. Urudun cənub hissəsində - Qalanın başında köhnə kənd yeri var. Hətta oradakı evlərin kalafalıqdan son illərə qədər dururdu. Həmin kəndin hər tərəfi qayalar və dağlarla əhatə olunub. Bundan başqa, Qalanın lap başında yenə də köhnə, dağılmış divar daşları var idi. Bu Qalanın başında 50-dən çox kalafa - ev yerləri, hörgülər dururdu. Mərhum müəllimimiz Qasım Hacıyev bizi tez-tez Qalaya aparar, Urudun köhnə tarixindən danışardı. O, öz söylədiklərini atasından eşitdiyini bildirərdi. Böyükkənd, Qazıdamı, Qalanın başı - bu kəndlər zəlzələdən sonra dağılıblar. Qalanın başına Bazarçaydan saxsı kəmərlər vasitəsilə su çəkilibmiş. Aparılan qazıntılar nəticəsində biz o kəmərin sınıqlarına rast gəlmişdik. Hətta Qalanın divarları arasında çaya xüsusi pilləkənlər var idi. İnsanlar o yolla çaydan su gətirirmişlər. Qalanın başına çıxmaq üçün

cəmi bir yol var idi. Biz uşaq vaxtı o çətin yoldan Qalanın zirvəsinə çıxardıq, düşəndə isə çox əziyyət çəkərdik. Bəzən də köməyimizə bütün kənd gələrdi.

Urudun ətrafı müxtəlif dağlar və qayalardan ibarətdir. Hər birinin də öz adı var idi. Məsələn, Təəzzür dağı, İlan qayası, Yumru qaya, Bədir qaya, Vəl qaya və s. Kəndin yeri çınqıllıq olsa da geniş əkin sahələri, bağları, meşələri var idi. Su sarıdan heç bir korluğu olmazdı. Neçə yerdə bulaqlar qaynayırdı: İstisu, Şorbulaq, Dəyirman arxı, Zor - Zor,



Cəfər bulağı, Baldırğanlı bulaq, Kəklik bulağı, Soltan bulağı, Qarabulaq və s. İstisu yerin dərin qatlarından çıxırdı, Adabağı deyilən yerdə üzə çıxmışdı. İki İstisu vardı. Birində əvvəllər insanlar ancaq gedib çimər, öz xəstəliklərini müalicə edərdilər. İkinci İstisudan isə həm çimmək üçün, həm də içməli su kimi istifadə edirdilər. Son illərdə, demək olar ki, İstisuyun hesabına çox yerdən Uruda axın - axın insanlar gələrdi. Çünki İstisu müxtəlif xəstəliklərin sağalmasında, tənəffüs sisteminin yaxşılaşmasında, orqanizmin gumrahlaşmasında böyük əhəmiyyətə malik idi.

Uşaq vaxtı bağlarda çox vaxt ayağımız qəribə daşlara ilişərdi. Bu







qəribə daşlar elə bil ki, ağac kimi yerdən özü bitib çıxırdı. Sonralar məlum oldu ki, kənddə çoxlu qədim qəbir yerləri var. Aparılan müşahidə və tədqiqatlar nəticəsində öyrənildi ki, Urudda 14 qədim qəbiristanlıq olub. Xüsusilə də "Gilas dibi" deyilən yerdə, Bədir qayasının ətrafında, Qalaçanın arxa tərəfində, Pürüldə, Gəncəli adasında, Taxtalarda, Cidaxurda və s. ərəb əlifbası ilə yazılmış qəbir daşlarına, xına rənginə düşmüş sanduqələrə rast gəlmək mümkün idi. Əlbəttə, o vaxtlar biz belə şeylərə o qədər də diqqətlə yanaşmırdıq. Ağlımıza gəlmirdi ki, sonralar nə baş verəcək. Kənd qəbiristanlığında isə məzarların üzərində qoyulmuş sanduqələr, qoç heykəlləri, bir-bir yoxa çıxdıqca ağlımıza gəlməzdi ki, onu oğurlayıb aparan ermənilərdir. Hətta bir dəfə Bazarçayın üzərindəki qədim körpünü dağıtmaq, bununla da Urudun qədimliyini silmək istəyirdilər. Bədir qayası ilə körpü ətrafında yol salmaq bəhanəsi ilə gecə-gündüz partlayışlar edirdilər. İndi də gözümün qarşısından çəkilmir: göyə qalxan toz - torpağın içində insan skletləri ətrafa yayılırdı. O vaxt uşaq olduğumdan ermənilərin məkrindən xəbərsiz idim. Çox sonralar öyrəndim ki, mənim anadan olduğum Urud kəndində 1503-1504, 1578... illərdən

qalan xatirə abidələrdə tariximiz yaşayır. Vaxtilə akademik Ziya Bünyadov, eləcə də tarixçi - alim, etnoqraf Məşədi xanım Nemətova Urudda maraqlı tədqiqatlar aparmış, bu kəndin qədim türk kəndi olduğunu sübuta yetirmişlər. Yazıçı Anarın ssenarisi əsasında Uruddakı qəbirüstü abidələrlə bağlı sənədli film də çəkilmişdir. Şaxələnmiş mədəniyyətimizin Qərbi Azərbaycan üzərində gərilmiş qanadı öz kökü ilə həmişə möhkəm bağlı olmuş, xalqın ictimai fikir tarixinin tərkib hissəsi kimi boy atmışdır.

Ermənilər bu kəndin axirət dünyasını əks etdirən daşlarında, Qala və Qalaçalarında, mağara və kahalarında, körpülərində, daş kitabələrində yazılanları yox etmək üçün min bir oyun çıxarsalar da, yaddaşlarda iz salanları silə bilmirdilər. 1968-ci ildə Urudun adını dəyişərək Voratan etsələr də, Urud onun öz doğma sakinlərinin bioqrafiyalarında, xatirələrində öz əzəlki doğma adı ilə qalmaqdadır.

## BİR DAHA XATIRLATMA

AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, tanınmış tarixçi-alim Məşədixanım Nemətova uzun illər yurdumuzu qarış-qarış gəzərək axirət dünyamızın daş kitabələrini oxumaqla məşğuldur. Apardığı tədqiqatlar nəticəsində neçə - neçə şovinist ermənini susdurmağa nail olmuş bu hünərli xanıma biz də çox borcluyuq. Vaxtilə Zəngəzuru da min bir istək və əziyyətlə özünün "səyahət" planına salan, doğma kəndimiz Urudda tədqiqatlar aparan Məşədixanım Nemətova: "Zəngəzurun Azərbaycan torpağı olmasını sübut etmək üçün mən dəridən-qabıqdan çıxdım. Urud qəbiristanlığındakı işlərim böyük bir məsələnin üstünü açdı. Eramızdan əvvəlki əsrlərə aid qoç heykəlləri, sənduqə formalı qəbir daşları, onların üzərindəki yazılar tarixin daş pərdəsini qaldırdı...:"

Məşədixanım Nemətova Urudun fəxri vətəndaşıdır. Onun doğma kəndimizlə bağlı qələmə aldığı tədqiqatdan bir parçanı bu kitaba daxil edirik.





## BİR DAHA ZƏNGƏZURUN URUD ABİDƏLƏRİ HAQQINDA



Zəngəzurun Urud abidələrini biz hələ 1961-ci ildə tədqiq etmişdik. Abidələrin xronoloji çərçivəsi hicri tarixilə 333 - 1019 - 1478 - 1611-ci illəri əhatə edir. Sənduqə formalı və qoç heykəlli Urud abidələrinin qabartma və epiqrafikası Zəngəzur ərazisində yaşamış aqvanların (albanların) hələ qeyd olunan abidələrin və islam ideyalarının Zaqafqaziyada meydana çıxmasından əvvəl türkləşməsinin uzun bir prossesini göstərir. Onlar Zaqafqaziyada (Azərbaycan, Gürcüstan, Ermənistan) qalmış, XIV - XVII əsrlərə aid digər at, qoç heykəlli xatirə abidələrinə oxşayırlar. Onlara əsasən Azərbaycan xalqının formalaşmasında əsas rol oynamış qədim türkdilli tayfaların toplandığı yerləri aşkar etmək olar.

Məlum olduğu kimi, ən qədim zamanlardan Zəngəzurun əhalisi Albaniya ilə sıx iqtisadi, mədəni əlaqədə olmuşdur. Sisyan və alban katolikosları dost və müttəfiq olublar. Bu səbəbdən də həmin ərazilərdəki kilsələr də həmişə alban kilsəsinə meyil göstərmişdir... Qədim zamanlardan alban tayfaları, eləcə də zəngəzurlular



heyvandarlıqla məşğul olaraq bir-birləri ilə qarşılıqlı münasibətdə yaşamışlar. Əsrlərdən bəri qonşuluq, tarixi talelərdəki ümumilik, sıx iqtisadi və mədəni əlaqələr maddi və mənəvi mədəniyyətlərinin ümumi cəhətlərinin meydana gəlməsinə səbəb olmuşdur.

Aparılan tədqiqatlar göstərir ki, Urud - Zəngəzur Azərbaycana









daxil olan Naxçıvan tüməninə aid idi. Albaniya torpaqlarında həmişə albanların nəslindən ibarət feodalar yaşayıb, ermənilər yox. Hətta Matenaradandakı bir sıra sənəd və küpçilər də adları çəkilən yer



adları türk mənşəlidir. Məsələn, Ayıdərə, Zoğallıdərə, Qızılqaya, Tikmədaş, Keçi qayası, Gəmiqaya, Qaraçınqıl, Kor çeşmə və s. Sonralar bu adların hamısı erməniləşdirilmişdir. Daşlar üzərindəki qədim yazıları oxuduqca bir daha əmin olursan ki, Zəngəzurun köklü əhalisi azəri türkləridir. Öz nəsil-nəcabətlərini hansı yazılı daşlarda axtarırlar axtarsınlar, Urud qəbiristanlığındakı abidələrin, kitabələrin erməniyə qətiyyən dəxli yoxdur. Çünki bu abidələrin üzərindəki yazılar nəiki farsca, ərəbcədir və yaxud da qeyri-anlaşıqlı dildədir, əksinə təmiz azərbaycancadır. Məsələn, abidələrin birinin üzərində mərhumun ölüm tarixi, adı belə yazılıb: "Bu Əmir Rəmin oğlu İftixarla eyni ildə vəfat etmiş İmamqulunun oğlu Çələnbiyə aid abidədir".

Təkcə yazılar deyil, abidələrin üzərindəki oymalar, şəkillər, peşə ilə əlaqədar təsvirlər, haşiyələr ancaq türk abidələrinin, eləcə də bədii daşyonma sənətimizin texnikasına uyğun gəlir. Uruddakı abidələrin əksəriyyətində xəttat babalarımızın mahir nəqqaşlığı öz işini görmüşdür. Urud abidələrində istifadə olunmuş təsviri sənət motivləri Zaqafqaziyada məskunlaşmış qədim türkdilli tayfaların dini ayinlərini və məişətlərini də əks etdirir. Qeyd etmək lazımdır ki, bu abidələrdə əks olunan motivlər erməni abidələrində yoxdur. Urud qəbiristanlığında dəfn olunanların türkləşməsi prossesini də daha qədimlərə aparan digər epiqrofik dəlillər də var. İndiyədək hamı albanların erməniləşməsi - qriqoryanlaşması, gürcüləşməsi haqqında yazıb. Onların türkləşməsini göstərən arxeoloji etnotoponimi və digər dolayısı materiallar da var. Urud abidələri alban tayfalarının uzun zaman türkləşməsi və müsəlmanlaşması prossesini, eləcə də onların Azərbaycan xalqının təşəkkülündə iştirak etməsini göstərən yeganə yazılı mənbə, əsas maddi sübutdur.

**1990.**





# ALIŞA BİLMƏDİYİM HƏYAT

Bu, anamın yoxluğu oldu. Taleyin bu amansızlığı ürəyimi min yerdən didib parçaladı. Çünki doğma vətənimlə, doğulduğum Urudla anamı eyni vaxtda itirdim. Bu qoşa itkinin sitəmləri bütün varlığımda ağır bir kədər kimi dolanmaqdadır. Neçə illər keçsə də, nə o yurd gözlərimdən çəkilir, nə də anasız həyatın soyuqluğuna öyrəşə bilirəm. Gözlərimi yuman kimi eləcə o yurda dönürəm. Analı günlərimin bəxtəvərliyini yaşayıram.

...Uzun qış gecələrində anam ya yun darayardı, ya da cəhrə əyirərdi. Bu cəhrənin də qəribə səsi vardı. Yorğanı başıma çəkib "yatsam" da, fikrim anamın yanında qalardı. Dişləri iti nizələrə bənzəyən yun darağının qorxunc görünüşü həmişə məni vahimələndirərdi Çox sürətlə, özünəməxsus səliqə ilə yun darayan anamın indicə əllərini bu iti "nizə"lərə keçirəcəyindən çox qorxardım. Amma anam öz işinin pərgarı idi. Səliqə ilə yığdığı əlçəkləri sonra eyni məharətlə cəhrədə əyirərdi. Onlardan ya corab toxuyardı, ya da xalça. Kənddə anam qədər zərif ip əyirən olmazdı. Özü xalça ustası idi. Kənddə çoxunun xanasını o qurardı, xalça palazını ipdən o kəsərdi. İndi çox urudlunun evində onun əlinin yadigarları - xalçalar nişanə kimi qalmaqdadır.

Taleyin minbir sitəmini görmüş anam çox zəhmətkeş və cəfakeş idi. Əlindən hər iş gəlirdi. Bizi yaxşı saxlamaq üçün gecə - gündüz çalışardı. Müxtəlif meyvə ağacları ilə dolu olan böyük bir bağımız vardı. Yaz gələndən payızın sonuna kimi anam orada işləyərdi. Əslində, çınqıllıqdan ibarət olan bir ərazinin sonradan güllü bağa çevrilməsində anam uzun illər zəhmət çəkmişdi. Səhər açılmamışdan - o başdan durar, dəhnəyə gedər, arxa su vuraraq bağımıza gətirər, gün doğmamış bostanı, ləki suvarardı. Həyətimizdə, eləcə də hasarların dibində sıralanmış qızılgüllərin ətri ətrafı bürüyərdi. Deyim ki, heç kim anam kimi qızılgül, heyva, armud, gilənar və qoz mürəbbəsi bişirə bilməzdi. Böyük bir çəlləkdə kələm, pomidor, xiyar şorabası qoyar, ilboyu qonum - qonşuya paylardı. Hələ qapımızda sıralanmış arı pətəkləri... Onlara da anam özü baxardı. Hərdən üzü torlu şlyapanı başına keçirir, arı yeşiklərinin ağzını açanda ürəyimi yeyirdim ki, indicə arılar onu sancacaq. Anam arılara tüstü verdikcə onlar uzaqlaşırdı.

Məktəbə gedənə qədər hərfləri öyrənmişdim, bütün nağılları bilirdim. Bu sahədə mənim ilk müəllimim anam olmuşudu. Təhsilə, elmə, kitaba böyük həvəsi vardı. Bu səbəbdən də hər birimizin dərsləri

ilə cidd maraqlanar, yaxşı oxumağımıza çalışardı.

Mən anamın qeyri - adi sevincini ali məktəbə qəbul olunduğum vaxt görmüşəm. Universitet rəhbərliyinin təşəkkür məktubunu ona verəndə anamın göz yaşlarını və əllərini yuxarı tutaraq ulu Yaradana necə mehriban səslə təşəkküunu - "Allah, sənə çox şükür" - kəlmələrini heç unuda bilmirəm.



Hər iki babam - Nəcəf və Mahmud ötən əsrin əvvəllərində - 20-ci illərdə ermənilər tərəfindən qətlə yetirilib. Heç qəbirləri də məlum olmayıb. Anam da həmin dövrdə qaçqın ailəsində dünyaya gəlib. Nənəm Gülzarın sinəsinə çalınçarpaz dağlar çəkilib. Həm ərini itirib, həm oğullarını. Ermənilərin vəhşilikləri nəticəsində yurd - yuvasından perik düşmüş biçarə qadın nə edəcəyini bilməyib. Hətta ona məsləhət görüblər ki, qundaqdakı körpəsini də atsın. Amma nənəm bütün sitəmlərə tablaşaraq sonbeşiyi olan Gözəli və digər qızlarını başına yığaraq qaçqınlığın minbir əzabına qatlaşıb. Nəhayət, ara sakitləşdikdən sonra yenidən doğma kəndlərinə qayıdıb. O vaxt heç kəsin ağlına gəlməzdi ki, beləkdəki körpələr ağbirçək, ağsaqqal vədəsinə çatanda yenə də talelərinin üstünü dəhşətli bir amansızlıq alacaq, daşnaklar yenidən onları öz ocaqlarından didərgin edəcəklər.

Onu gözləyən bu faciədən xəbərsiz anam öz işi ilə məşğul oldu. Övladlarına tərbiyə verdi, böyütdü, oxutdu, gözəl ev - eşik sahibi oldu. Sonda isə...

Mənim adı Gözəl, özü gözəl anam! O laləli dağların, süsənli çəmənlərin ətri sənin nəfəsinə hopmuşdu. Şəhərli həyatım başlayandan





sonra bunu daha aydın hiss edirdim. Yayda biz, qışda da sən bir - birimizin görüşünə yetərdik. Urudun bütün nemətlərindən mənə pay göndərərdin. Bir yay da Bakıda qala bilməzdim. O dağların qoynuna, öz doğma evimizə qaçardım. Hərdən Elnuru bağrına basıb deyərdin: "Nənə qurban, sən burda məktəbə gedərsən. Nə var hay - küylü şəhərdə?!" Kim idi sənin xətrinə dəyən, necə istəyirdin, elə də olmalıydı. Amma... Amması odur ki, günlərin birində sənin özünü evindən - eşiyindən didərgin saldılar.

Yadımdadır ki, ermənilərin Dağlıq Qarabağla əlaqədar başladıqları tufanın ilk zərbəsi Qərbi Azərbaycanda yaşayan soydaşlarımıza dəydi. Qəfil basqılar, yol kəsmələr, adam öldürmələr, ev yandırmalar, min cür vəhşiliklər Zəngəzurda baş alıb gedirdi. O məqamlarda anamı Bakıya gətirmək istədik. Etiraz etdi: "El - oba nə deyər?" Gecələr dağ - daşda gizlənib, gündüzlər evə qayıdan həmkəndlərim danışırdılar ki, hər dəfə saqqallılar kəndə dolanda anam öz "Fatihə" sini oxuyurmuş. Amma kənddən tərpənmək belə istəmirdi.

1988-ci ilin dekabrında soyuqlu-şaxtalı bir qış səhərində bütün kənd camaatını sürüyə-sürüyə, zorla üstüaçıq maşına dolduraraq doğma yurddan çıxardılar. Onları Şahbuz yaxınlığında dərəyə tökdülər. Yazıq anam danışardı: "Bizi sonradan axtaranlar əziyyət çəkməsin deyə, bir - birimizin qolundan tutaraq gedirdik ki, donsaq da, bir yerdə ölək".

Yaxşı ki, şahbuzlular ermənilərin bu insanlığa sığmayan amansızlığından xəbər tutdular. Onlar bu biçarələri çovğunda donmağa qoymadılar. Sıldırımlı dağları, qayalıqları aşaraq ölümlə əlbəyaxa olanları xilas etdilər. Bilmirəm, ana, o vaxtlar sən nə düşünmüsən? Bizi kədərləndirməmək üçün çox şeyi ürəyində saxladın, açıb ağartmadın.

Hərdən bu hadisələrdən söz düşəndə - "Dünyada heç zaman belə zülm olmayıb" söyləyirdi. "Didərgin", "qaçqın" sözlərini eşidəndə elə bil başıma qaynar su ələyirlər, ay bala!" - deyərdi. Ömrü - günü dəhşətli qovğaya urcah oldu. Qapı döyüləndə diksinərdi. Yurd həsrəti, yaşının o vaxtında öz doğma ocağından qovulması sağalmaz bir dərdlə anamın sinəsinə yığılmışdı. Üstündə əsməyimizə, yüz cür dəva - dərman həşirində olmağımıza baxmayaraq, anam yataqdan qalxmadı. On bir ay xəstə yatdı. Gözümüzün qənşərində şam kimi əriyirdi. Son günləri çox əzablı keçdi anamın. Allah! O xanım-xatın qadından əsər-əlamət qalmamışdı. Dözə bilmirdim anamın bu halına. Ürəyim partlayırdı. Ölümündən bir neçə gün əvvəl qəribə bir işıq, şəfəq gəldi anamın sifətinə, dirçələn kimi oldu, məni soruşdu:

- Burdayam, ana! - dedim.

- Neynirsən?

- Heç, nəsə yazmaq istəyirəm - yalandan dedim. Ağlamağımızı ondan gizlədirdik.

- Bilirsən, bala, kəndimizdəki o körpünü Məlik Təngi tikdirib. Ermənilər öz adlarına çıxarırlar. Bir də sənə and verirəm o Allaha, yollar açılsa öz bağımızdan bir ovuc torpaq gətirərsən...

Bu anamı son sözləri oldu. Səhəri bütün günü eləcə susdu. Hərdən gözlərini açıb üzümə baxırdı. Öldürürdü o baxışlar məni. Allah, nə edəcəyimi bilmirdim. Az qalırdım başımı divara vuram, niyə, niyə dərdinə əlacsızam, ana?! Birdən... ağlıma gələndən ayılan kimi oldum. Özümdən asılı olmayaraq "ana, ana" deyərək harayladım. Çağırışıma cavab vermək istədi, gücü çatmadı. Sifətində gileyli bir ifadə duyuldu. Qucaqlayıb onu sinəmə sıxmaq, bu gedişdən saxlamaq istədim. Bacarmadım. Məni dünyaya gətirəni dünyada saxlamağa gücüm çatmadı.

Bir qonşumuzun dediklərini unuda bilmirəm: "Axşam idi. Ermənilər bizi xəbərdar etmişdilər ki, sabah çıxmalısınız. Qulağıma səs gəldi, sizin bağa tərəf boylandım. Gördüm anandır, ağacları oxşayır. Düzü birtəhər oldum. Hasarı adlayıb yanına getdim: " Gözəl bacı, neyləyirsən?" - dedim.

- Nə yaxşı gəldin, ay Güleyşə. Bu bağ məim əziyyətimin bəhrəsidir. Sabah bizi çıxardırlar. Allah bilir nə olacaq. Vidalaşıram. Bir - birimizə qoşulub o ki var ağladıq..."

Qəribədir, indi sarsılan, qəmlənən kimi anamı yuxuda görürəm. Həyatda olduğu kimi elə nəvazişli sözlər deyir, elə isti məsləhətlər verir ki... ayılıram. Röyalarım çin olmur. Anamın yoxluğuna ilk dəfə 20 yanvar müsibətində "sevindim". "Yaxşı ki, anam bu faciələri görmədi" - dedim. Amma anamın bir xahişini indiyədək yerinə yetirə bilməmişəm. Hələ də bağçamızdan bir ovuc torpağı gətirə bilmirəm. O məndən ötrü ölümə gedərdi, mənsə bir ovuc torpağı gətirməyə necə də acizəm?! Bağışla məni, ana!

Hərdən mənə elə gəlir ki, çəkdiklərim, gördüklərim dəhşətli bir yuxudur. Nədənsə ayıla bilmirəm... Ayıla bilsəydim, bircə kəlmə deyərdim:

Bu dərdi, bu qəmi üstümə atıb
Mənə yetimliyi qandırdın, ana!





# QƏLBİMİZDƏ ALLAH, QİBLƏMİZDƏ SEYİD MİRİSMAYIL AĞANIN GÜNBƏZİ

Uca dağların ovucunda yerləşən Urud elə bir müqəddəs ünvan idi ki, onun hər daşı, dərəsi bizim üçün qiymətli və əzizdir. Urudlular əsl Allah adamı kimi dinə, imana tapınırdılar. Hər kəsin qəldbində Tanrı sevgisi, gözləri önündə Qala (ilk salavat çevirdiyimiz möhtəşəmlik), tez - tez üz tutub ziyarət etdiyi müqəddəs ünvanlar - Seyid Mirismayıl Ağanın günbəzi, evi, körpünün yanındakı Bədir qayasının dibində qara rəngli xüsusi Yumru daş (bəzən ona Qara daş da deyirdilər), Qalanın üstündəki vəlvələ və zəlzələdən dağılmış məbədin salamat qalmış qoşa sütunu və bir də Naxçıvandakı Əshabı Kəhf ziyarətgahı idi.

Bədir qayasının ayağında yerləşən Qara daşın çox qeyri-adi görkəmi vardı. Sanki bu daşı xüsusi olaraq hazırlamışdılar. Yuxarısında oyuq vardı. Ziyarətçilər həmin oyuqda piltə yandırardılar. Daşın başına fırlanar, öpər, alınlarını ona söykəyər, niyyət edərdilər. Sonralar bir neçə dəfə ermənilər o daşı yox etməyə cəhd göstərsələr də, müxtəlif bəlaya düçar olmuşdular. Qorxudan uzun müddət ona yaxın düşmədilər. Hətta yaxınlıqdakı köhnə qəbiristanlığı yerlə-yeksan etsələr də, daş yerində qalırdı. Bir müddət sonra isə necə olduğu bilinmədi.

Qəribədir ki, urudlular istər günbəzi, istərsə də digər ocaqları ziyarət edərkən orada mütləq piltə yandırardılar, şam yox. Nənələrin dediyinə görə, burada ancaq pak yağdan hazırlanmış piltələr yandırılsa, niyyət qəbul edilərdi.

Seyid Mirismayıl Ağanın möcüzələri haqqında ətraf kəndlər də, rayonlar da yaxşı bilirdilər. Kim çətinə düşürdüsə, gəlib Mirismayıl ağanın ətəyindən yapışardı ki, - Ağa, mənə kömək elə. Göydə Allahı, yerdə səni deyib gəlmişəm. Ağa, - Get, sabah işin düzələcək - deyərək, əlini həmin insanın başına çəkərmiş. Bir neçə gündən sonra həmin adamlar yenidən ziyarətə gələrlərmiş ki, işləri tarazlaşıb. Xəstələr gəlib Ağanın evində yatmaqla şəfa taparlarmış. O, heç bir dəva - dərmandan istifadə etmədən əlini xəstənin ağrıyan yerinə çəkər, bəzən içdiyi suyun, çayın qalan hissəsini ona içirdərmiş. Sürəyya xalam danışır ki, kəndimizdə İslam adlı bir oğlan yaşayırmış. Yetim olduğundan



onu bacısı saxlayırmış. Günlərin birində İslamın başına hava gəlir. Onu birtəhər Mirismayıl Ağanın ocağına gətiriblər. O, burada bir neçə gün qaldıqdan sonra xəstəliyi keçib...

II Dünya müharibəsi zamanı savaşa gedən insanlar Mirismayıl Ağadan çörək alıb ciblərinə qoyurmuşlar. Məhz həmin şəxslər ən çətin döyüşlərdən salamat çıxmışlar.

Qeyri-adi duyuma malik olan Seyid Mirismayıl Ağa bəzən narahatçılıq içində çırpınan həmkəndlilərinin qapısını özü döyər, müşkül işlərinin tezliklə düzələcəyini söyləyərmiş. Həmişə başında əmmamə, belində qurşaq, əyində çuxa, əlində əsa olan Seyid Mirismayıl Ağanın ocağı insanlarla dolu olardı. Xəstələr, şikəstlər, min cür dərdə mübtəla olanlar bu müqəddəs ünvanda mütləq şəfa tapardılar.

Tanrı onu göz nurundan məhrum etsə də, qəribə bir qüdrət vermişdi öz müqəddəs bəndəsnə. Yolu - izi gözlüdən yaxşı gedərmiş. Əlində xüsusi şəfaverici qüvvə var imiş. Adını tutub qapısına gələn naümid qayıtmazmış. Təkcə Qarakilsədə (Sisianda) deyil, bütün Zəngəzurda hörmət qazanmış Seyid Mirismayıl Ağa çox xeyirxah və nəcib bir insan olub. Danışırlar ki, nəzirin hamısını götürməzmiş. Deyərmiş: "Sənin əlacın kəslib bu boyda nəzir demisən. Mənim insafıma nə olub?" Yetim-yesirə əl tutar, xeyir-şər işlərini öz xərci hesabına çəkərmiş. Müxtəlif dini mərasimlərdə, deyək ki, Qurban bayramında mütləq Mirismayıl Ağa qoyunlar kəsər, bütün kənd camaatına paylayarmış. Sovet dövrünün təzyiqləri altında isanlar öz dini mərasimlərini, milli bayramlarını, demək olar ki, gizli şəraitdə qeyd edirdilər. O zamanlar Məhərrəmlik ayında kənd camaatı imamlarına





təziyə saxlamaq üçün mütləq Mirismayıl Ağanın evinə yığışar, Quran oxuyar, sinə döyərdilər.

1956-cı ildə haqq dünyasına qovuşan Ağanı köhnə qəbiristanlıqda dəfn etdikdən sonra onun məzarı üstündə məqbərə tikildi. Kənd arasında bu müqəddəs ziyarətgaha "Günbəz" deyirdilər. Əlacsız insanlar yaxın-uzaq ellərdən bu müqəddəs ocağa tez-tez ziyarətə gələrdilər.

Mən gözümü açandan anamın həmişə andlarını eşidərdim: "Ya Allah, ya həzrəti-Abbas, ya cənab Əli, ya Mirismayıl Ağanın günbəzi, ya Əshabi Kəhf! Özün balalarıma kömək ol". Bu andlar mənim varlığımda elə bir inam yaratmışdı ki, dünyada bu müqəddəslərdən güclü, qüdrətli varlığın ola biləcəyini ağlıma gətirmirdim. Bəzən müşahidə edirdik ki, insanlar kəndin ayağından başınadək - günbəzə qədər olan yolu ayaqyalın gedirdilər. Çünki, ağbirçəklər söyləmişdilər ki, gərək Ağanın qəbrini ziyarətə bu cür gedəsən. Onda Allaha xoş olar, arzularına yetərsən. Maraqlıdır ki, Mirismayıl Ağanın günbəzinə hərdən qonşu kəndlərdə yaşayan ermənilər də gələrdilər. Deyilənə görə Urud işğal olunduqdan sonra kənd qəbiristanlığını yerlə yeksan edən quldurlar günbəzə toxunmağa bir müddət ehtiyat ediblər. Hətta sonralar çəkilmiş bir lent yazısında da dağıdılmış qəbiristanlıqda günbəzin görüntüsü qalmaqdadır.

Ağanın qardaşı Mirhəbib Ağa da ali ruhani təhsil almış, dövrünün çox savadlı, məlumatlı insanlarından biri olmuşdur. Uzun illər repressiya və təzyiqlər ucbatından başqa yerdə yaşamaq məcburiyyətində qalmışdır. Mirhəbib Ağanın Zaqataladan Uruda gəlişi əsl bayrama çevrilirdi. Bütün el onun görüşünə tələsirdi, Ağanın söhbətləri kənd camaatına ruhi qida verirdi.



Mirismayıl Ağanın vəfatından sonra onun ocağında yadigar qalan yeganə oğlu Seyid Miriş atasının etdiyi xeyirxahlıqları daha əzəmətlə yerinə yetirməyə başladı. Qəribədir ki, indinin özündə də bütün urudlular

yuxuda Mirismayıl Ağanı görürlər. Onda Seyid Mirişin ünvanına üz tutub bu müqəddəs ocağın ziyarətinə gedirlər. Məni bir möcüzə həmişə heyrətləndirir. Ən çətin məqamda əgər yuxuda Seyid Mirişi görürəmsə, ürəyimdə bir rahatlıq yaranır. Bilirəm ki, nigarançılığını çəkdiyim işlər qaydasına düşəcək. Bu, həmişə belə olur.

Deyilənə görə, o vaxtlar bir neçə dəfə Mirismayıl Ağanı tutmaq istəyiblər. Amma mümkün olmayıb. Ya onu aparmağa gələn milis özü ölüb, ya maşını qəzaya düşüb, ya da Ağanın önündə dili-ağzı qıfıllanıb, onda özünə gəlib ki, Ağanın ayaqlarına düşüb yalvarır: "Ya Seyid, məni bağışla..."

Mirismayıl Ağanın davamçısı Seyid Miriş 1988-ci ildən Sumqayıtın Corat qəsəbəsində yaşayır. Onun seyidliyi övladlarına keçib. Müxtəlif yerlərə dağılmış zəngəzurlular çətinə düşəndə üz tutduqları, köməyə çağırdıqları Hacı Seyid Miriş Ağanın cəddi olur. Atasının bütün gözəl xüsusiyyətlərini özündə əks etdirən Seyid Mirişin övladları Miradil, Mirəhməd, Mirkamil və Mirismayıl öz babalarının vəsiyyətinə əməl edərək insanlardan mərhəmət və xeyirxahlıqlarını əsirgəmirlər. Seyid Miriş Ağa bütün urudluların sevimlisidir. İndi öz qədim ziyarətgahlarına gedə bilməyənlər bu nisgillərini Seyid Mirişi görməklə dağıdırlar. Seyid Miriş də hamıya öz xeyirxah əlini uzadıb, onlara öz ehtiram və məhəbbətini bildirsə də, ürəyində bir xiffətin göynərtisini çəkməkdədir:

Mirişəm, sağalmaz könlüm qubarı,
Gündüzüm dərd-ələm, gecəm ah - zarı,
Neylərəm dövləti, neylərəm varı?
Sənsiz darıxmışam, ay dədə yurdu.

Bir hadisəni tez - tez xatırlayıram. Seyid Miriş Urudda yaşadığı vaxt çoxlu qoyun-quzusu var idi. Onları yayda yaylağa, qışda isə qışlağa göndərirdi. Bir dəfə Seyid Miriş heyvanları Qubadlıdan Sisiana qaytaranda yolda ermənilər heyvanların xəstə olduğunu söyləmiş, onların respublikaya gətirilməsinə maneçilik törətmiş və sürünü seyiddən alıb aparmışlar. Bütün kənd cammatı Ağadan şikayət etməsini xahiş etsə də, Seyid Miriş təmkini pozmadan bir kəlmə söyləmişdir: " Mən heç hara gedən deyiləm. Mənim şikayət ediləsi bir yerim var". Bir neçə gün sonra məlum oldu ki, Sisianın sahə milisi





erməni Civan qoyunların hamısını kəsdirib. Həmin hadisədən bir həftə keçməmişdi ki, Civan öz motosikletində elə qoyunları saxladığı yerdə aşıb ölmüşdü. Xəbər kəndə çatanda hamı heyrət içində - "...Seyid düz deyirmiş, şikayət ediləsi bircə yer varmış. Qurban olduğum da o şikayəti eşidib tədbirini gördü...", - deyirdi.

1988-ci ilin qovhaqovunda ermənilər Seyid Mirişin evinə girməyə cəsarət etmirdilər. Amma sonrası nə oldu, bilmirəm. Bu gün Seyid Miriş Coratdakı evində atası Mirismayıl Ağa kimi Quran oxuyur, namaz qılır, oruc tutur, əlsizə- ayaqsıza kömək olur, əyri yola düşəni çəkindirir, hamıya ağsaqqal kimi düzgün yol göstərir.

## EL AĞBİRÇƏYİ DÜRRƏ XALA



Mirismayıl Ağanın böyük qızı Dürrə xanım kəndimizin sevimli, istəkli övladlarından biri oub. Azərbaycan qadınına xas olan bütün mənəvi keyfiyyətlərə malik Dürrə xala hələ də gözlərimin önündədir. Nurlu siması, mehriban səsi və geniş ürəyi vardı. Əsl ağbirçək idi. Kənd qızlarının toy-nişanında birinci xeyir -dua verən Dürrə xala olardı. Hətta təzə gəlinin cibinə pul qoyub deyərdi: "Qızım, bunu evin buşqağında ("evin küncündə" deməkdir - F.X.) saxlayarsan. Həmişə ruzulu olacaqsan. Pulunun üstünə pul gələcək".

73 yaşında dünyasını dəyişən Dürrə Mirismayıl qızını elə atasının yurdunda dəfn etdilər. İndi o müqəddəs qəbir də zalımların əsarətindədir.

Tez - tez yuxuda görürəm bu el ağbirçəyini. Ruhuna dualar oxumaqdan başqa heç nəyə gücüm çatmır.

# RÜBABƏ XANIM MİRİSMAYIL QIZI



Az ömürlü, nurani, pirani Rübabə xanım Seyid Mirismayıl Ağanın sevimli qızlarındandır. O, sözün əsl mənasında paklığın, təmizliyin rəmzi idi. Yadımdadır, məhərrəmlik təziyələrini Ağanın günbəzində keçirəndə Rübabə xanım necə yanıqlı səslə ağı deyərdi. O səsin ürək göynədən sədası hələ də qulaqlarımdadır. Həyat yoldaşı Niftalı İsmayılov II Dünya müharibəsindən qayıtmamışdı. Yeganə oğlu Təmreyxanı namus və qeyrətlə böyüdən, oxudan Rübabə xanım çox az yaşadı. Onun da qəbri atasının yanındadır.

# SİDDİQƏ MİRİSMAYIL QIZI



Kənddə hamı ona Süddüqə deyərdi. O, Seyid Mirismayıl Ağanın sonbeşiyidir. Son dərəcə mehriban, səmimi, qayğıkeş bir insan olan Siddiqə xanım Urudun işğalından qabaq Sumqayıtda yaşayır. Hər il yayda kəndə gələndə bütün el - oba onun görüşünə çıxardı. Xoşbəxtlikdən biz Süddüqə xalagilnən qonşu idik. Qızı Ema ilə bir yerdə oynayardıq. Süddüqə xalagil kəndə gələndə ən çox sevinən bəlkə də mən olardım. Çünki onların il boyu səssiz qalan həyatinə səda düşər, qaranlıq





pəncərələri işıqlanardı.Süddüqə xala tez - tez bizə gələrdi. Həmişə də şəhərdən anam üçün sovqatı olardı. Anam Süddüqənin pay - pülüşünü çox sevər və əzizləyərdi. Çünki onun "əli yüngül"lüyünün ailəmizə düşəri olurdu. Bu, bir neçə dəfə sınaqdan çıxmışdı. Əgər Süddüqə xalanın ayağı həyətimizə dəyirdisə, o il bizim evimizdə heç kim xəstələnmirdi. Urcahımız həmişə xeyir işlərlə qarşılaşırdı.

İndi bütün urudluların görüş yeri əsasən xeyir - şər məclisləridir. İllah da, həmin mərasimlərdə Süddüqə xalanı görəndə çiçəyimiz çırtlayır. Sanki ulu Tanrının əlini kürəyimizdə hiss edirik. Kənddə bir neçə qadın var ki, xətrini dağlar qədər istəyirdim: Dürrə xala, Süddüqə xanım və nəhayət Səmayə xala. O, Seyid Mirişin həyat yoldaşıdır. Özü seyid olmasa da, Ağanın ocağında o qədər nəcib əməllərlə, xeyirxahlıqla məşğul olub ki, elə kənd arasında ona " Seyid Səmayası" deyərdilər.

...Elimiz dağıdıldıqdan sonra duyğularımıza sanki qor düşüb. Tanrıya üz tutub öz eşqinə bizi o yerlərə qaytarmasını diləyirik. Qəlbimizdə Allah, qibləmizdə Mirismayıl Ağanın günbəzi. Bizi bu bəxtəvərliyə qovuşdur, İlahi!

# İŞIQ



Hər dəfə Təmreyxa İsmayılovu görəndə qəribə fikirlər ağlıma gəlir. Bu xeyirxah və nəcib insanın çöhrəsində daim bir işıq var. Bu işığın selində onun daxili aləmini oxumaq çox asan olur. Təmreyxa Seyid Mirismayıl ağanın sevimli qızı Rübabə xanımın yeganə övladıdır. Atası Niftalı kişi II Dünya müharibəsindən qayıtmamışdır. Kerç uğrunda gedən döyüşlərdə itkin düşmüşdür.

Təmreyxa danışır ki, ağlım kəsəndən sonra atamın şəklini çox axtardım. Amma heç yerdə tapa bilmədim. Hətta rayon hərbi komissarlığının arxivinə də müraciət etdim. Ancaq bir nişanə əldə edə bilmədim. Bu həmişəlik mənim ürəyimdə

ağır bir dərdə çevrildi.

Bir müddət ali məktəbə daxil ola bilmədiyindən kənddə çalışan Təmreyxa Urudda klub müdiri işləyirdi. Yaxşı tar çalmağı var idi. Lakin dayısı Mirişin təkidi ilə ali təhsil almaq üçün Bakıya gəlmiş və 1960-cı ildə Azərbaycan Dövlət Universitetinin əmtəəşünaslıq fakültəsinin ərzaq malları şöbəsinə daxil olmuşdur. Söhbətlərin birində Təmreyxa deyir: "Dayım Mirişin məhəbbəti və köməyi olmasaydı, kim bilir, mənim həyatım necə qurulardı? Dayım mənə, sözün əsl mənasında atalıq edib. Ona əziyyət verməmək üçün tələbəlik illərində gecələr çörək mağasında işləyir, gündüzlər təhsilimi davam etdirirdim. Elə universiteti bitirən il həmin mağazada satıcı vəzifəsində çalışdım. Sonralar isə həm öz inadkarlığım, həm də Nazirlər Sovetinin göstərişi ilə Respublika Meyvə - Tərəvəz məhsullarının Saxlanılması və Satışı Bazasında baş satıcı vəzifəsinə təyin olundum. İşimin öhdəsindən gəlməyə çalışırdım. Respublika əhalisini meyvə - tərəvəzlə və çeşidli ərzaq məhsulları ilə təmin etmək vəzifəsinin bir hissəsi də mənim üzərimə düşürdü. Çalışırdım ki, öz işimi ləyaqətlə yerinə yetirim".

1968-ci ildə Təmreyxa İsmayılov "Azərkonservmeyvətərəvəz" Baş İdarəsinə əvvəlcə baş əmtəəşünas, sonra rəis müavini, daha sonra isə həmin idarənin ticarət şöbəsinin müdir müavini vəzifəsinə təyin olunmuş və 1974-cü ilə kimi bu idarədə çalışmışdır. 1977-1983-cü illər ərzində Ticarət Nazirliyində şöbə müdirinin müavini, sonra isə şöbə müdiri vəzifələrində işləmişdir. Həmin ildən 1997-ci ilə kimi yenə də Ticarət Nazirliyinin Ərzaq malları şöbəsinin rəisi vəzifəsində çalışmışdır.

Hal - hazırda Səhmdar cəmiyyətdə Deportament rəisi vəzifəsində çalışan Təmreyxa İsmayılov xeyriyyəçilik fəaliyyətini də davam etdirməkdədir. Onun ən böyük arzularından biri "Üç İsmayıl" məscidini inşa etdirməkdir. O bu arzusunu belə izah edir: "Mötəbər və pak ocaqların - Mirismayılın, Kətən oğlu İsmayılın və İsmayıl peyğəmbərin nəvəsiyəm. Ona görə də bir nəvə kimi mən onların adlarını bir yerdə əbədiləşdirmək istəyirəm. İslam dininin bütün tələblərinə itaət edirəm. Övladlarımı da dinimizə, millətimizə, torpağımıza məhəbbət ruhunda böyüdə bilmişəm. Mənim bir xoşbəxtliyimə səbəb ömür - gün yoldaşımın varlığıdır. Nəcəfli tayfasından olan Temir kişinin qızı Nəzakət xanım bu çətin yolda birinci dayağım olub. Bizim 3 övladımız, 5 nəvəmiz var. Mənə elə gəlir ki, qadın sədaqətli və səbrli olanda ailənin qapısını qəm - qüssə tanımaz"

Mən indi anladım ki, niyə Təmreyxa İsmayılovun çöhrəsində belə işıq duyuram. Çünki içi işıqlı adamların şəfəqi həmişə üzündə olur. Təmreyxa İsmayılov bir nəslin deyil, bütün urudluların sevimlisidir.





## ÖMRÜN DÜNƏNİ

İlk gördüyüm dünya öz ailəmiz olub. Çox pislikdən, amansızlıqdan, ən əsası da anamın əzablarından, taleyin hansı sarsıntılarına məruz qaldığından ağlım kəsənə qədər xəbərim olmayıb. Bəlkə də, elə bu məqamlar ömrümün ən bəxtəvər anları olub ki, dünyanın min üzündən uzaq düşmüşəm. Evimizdə nəyin və kimin öz yerində olub - olmadığını da dərindən anlamamışam. Ta məktəbə gedənə qədər. İlk mənəvi ağrım da onda cücərib. Bir acı həqiqəti dərk edib və ömrüm boyu yanğısında cızdağım çıxıb ki, çoxuna bütöv qismət olan bəzi bəxtəvərlik taleyimə yazılmayıb. Sinəmdə çatılan həsrətin yaxamdan yapışan əlləri hulqumumdan tutsa da hələ uşaqlıqdan içimdə göyərən qürur və inad mənə çox kömək etdi.

Hər kəsdən seçilməyi bacardım. Yadımdadır, xəstələndiyim üçün dərsə getməmişdim. Bütün sinif yoldaşlarım evimizə gəlmişdilər. Çünki həmin gün inşa yazmalı idilər. Mənə xüsusi ləzzət edirdi ki, bir mənim yoxluğum bütün dərsi pozmuşdu. Beləcə sərbəst inşa mövzularına meyil edə - edə, içimdəki ağrıların diqtəsi ilə yazmağa marağım artdı. Uşaqlıqda şeir kitablarından xoşuma gələn nümunələri dəftərimə köçürərdim. Yadıma gəlir ki, bir dəfə o şeirləri oxuyan böyük bacım elə bilmişdi ki, özümdən yazıram. Məni qucaqlayaraq ağlamış, - "Sən mütləq şair olacaqsan", - demişdi. Xəcalətimdən bacıma həqiqəti deyə bilməmişdim. Həm də onun sevicini korlamaq istəmədim. Sonralar isə öz yazdıqlarımı bir kimsəyə göstərməzdim. Bu yazıları uzun müddət də saxlamazdım. Yenisini yazana qədər qoruyar, sonra da cırıb atardım.

Birinci sinfə gedənə qədər bütün nağılları mənə anam danışmışdı. Qadını o qədər bezdirmişdim ki, daha söyləməyə nağıl tapmadığından mənə əlifbanı öyrətməyə başladı.

Nağılların əfsunundan isə qopa bilmirdim. Bu səbəbdən də tez - tez Telli xalamgilə qaçardım. Xalamın oğlanları - Murad, Pənah, Maşallah mənə yeni nağıllar söyləyirdilər. Hələ Telli xalam - sinəsi söz çeşməsi, folklor yuvası idi. Həm də lətifəbaz idi. Özü də elə məzə ilə danışardı ki, qəşş edənə qədər gülərdik. Anam nə qədər ciddi, dərdçəkən, zəhmətsevər, çalışqan qadın idisə, Telli xala bunların tam əksi idi. Deyib - gülən, baməzə, heç nəyi vecinə almayan, hər sözə öz



## Telli xalam

sözünü qoşan, şən arvad idi. Hələ Sarabəyim xalam, o da tam başqa bir xasiyyətə malik idi. Ağırtaxtalı, ağzıdualı, əli Quranlı, xanım - xatın xalamız kəndimizin yuxarı başında - Şirvanəkən adlanan yerdə olurdu. Onların həyətindən baxanda bütün kənd aydın görünürdü. Tez - tez kəndin ayağında durub xalamgilin həyətinə tamaşa etməkdən xüsusi zövq alardım. Xalam elə təmizkar arvad idi ki, yuduğu döşək ağlarını xüsusi səliqə ilə sərərdi. Bir balaca külək əsən kimi həyətdə sanki ağ bayraqlar yellənərdi. Nədənsə, bu mənzərə elə xoşuma gəlirdi ki...

Məktəbə gedənə qədər heç bir rəfiqəm olmamışdı. Yalnız hərdən qonşu qızı Reyhanla oynayardım. Beş qardaşın bir bacısı idi. Uşaqlıq illərinə boylananda yalnız o, gözlərimin qarşısında gəlib durur. Məktəbli olandan sonra isə vəziyyət dəyişdi. Yaxın qohumumuz Rəmziyyə ilə bir sinifdə oxuduq, sonralar universitetdə ayrı-ayrı fakültələrdə, amma paralel təhsil aldıq. Dostluğumuz, səmimi münasibətimiz bu günə kimi davam edir. İkimizin dostluq etdiyi Svetlana Hacıyeva isə Qasım müəllimin qızıdır. O da Bakıda yaşayır, tibb işçisidir.

Ən sevimli, istəkli dostlarımdan biri də Tərifə İsgəndərovadır. O məndən bir sinif yuxarıda oxuyurdu. İlk dəfə məni onun oxuduğu sinifə qoymuşdular, yaşım çatmadığına görə sonralar məni geri qaytardılar. Tərifə elə uşaqlıqdan həkim olmaq istəyirdi. İndi respublikamızın tanınmış ginekoloqlarından biridir. Binəqədi rayonundakı 9 saylı Qadın məsləhətxanasının baş həkimidir.

Uşaqlıq illərində çox istədiyim bir rəfiqəm də Tərifə Tahirovadır. Adaşları fərqləndirmək üçün birinə "böyük Tərifə", o birinə isə "kiçik Tərifə" deyərdik. Tərifə çox erkən ailə qurdu, indi Sumqayıtda yaşayır.

Çox böyük bağımız var idi. Evimizin bir tərəfi kəndin əsas inzibati binalarına söykənirdi. Məktəb, klub, kitabxana, mağaza, hamam,





kolxoz idarəsi qonşuluğumuzda yerləşirdi. Evimizin bir tərəfində isə bağlar uzanıb gedirdi. Qonşularımızın da mehriban simaları gözlərimdən çəkilmir. Çoxu mən uşaq ikən dünyasını dəyişdi. Sonra da qaçqınlıq iztirabları o unudulmaz insanların həyatlarına qənim kəsildi. Yeri düşdükcə onların barəsində sizə söz açacağam.



## Urudlu müəllimlər

Qeyri - rəsmi ilk müəllimim anam olub. Çünki məktəbə gedənə qədər bütün hərfləri, rəqəmləri, saymağı, oxumağu mənə o öyrətmişdi. Xeyli kitab mütaliə etmişdim. Amma ilk qiymət verən, jurnala "5" yazan, "müəllimə" - deyə müraciət etdiyim insan Hafizə Quliyeva olub. Sonra bu möhtəşəm sıra davam edib: Roza Hacıyeva, Xatın Quliyeva, Gülxar Gəncəliyeva, Fatma Tahirova, Cəbrayıl İsgəndərov, Alxan Tahirov, Qasım Hacıyev, Abdulla Abdullayev, Əsədulla Tahirov, Ağaqulu İsmayılov, Sahib Quliyev, Şəmil Tahirov, Muradxan Tahirov, Kamran Gəncəliyev, Fərrux Qəhrəmanov, Mirseyib Həsənov, Aslan Hətəmov, Cəlal Abbasov, Fazil Quliyev, Əjdər Quliyev. Mən o müəllimlərin adlarını yad edirəm ki, məhz 1988-ci ilə kimi urudluların

əksəriyyətinə dərs deyiblər.

İlk dəfə oxuduğum (ikinci sinifdə oxuduğum zaman) böyük əsər "Mehman" (Süleyman Rəhimov) povesti olub. V- VI siniflərdə artıq Drayzerin, Hüqoqun romanlarını oxuyub başa vurmuşdum. Bacım Fantina Azərbaycan Dövlət Universitetində qiyabi təhsil alırdı. Bacım imtahanlara hazırlaşanda evə gətirdiyi kitabları ondan əvvəl mən vərəqləyirdim. Bacım həm də kənd kitabxanasında işləyirdi. Bu səbəbdən də kitablarla təmasım daha çox olurdu. Günüm bədii ədəbiyyat oxumaqla keçərdi. Bir də axşamlar kluba hind filmi gətirilsəydi, mütləq gedərdim. Bəzən də yayda qonşu uşaqlarına qoşulub pəncərədən film seyr etməyi sevərdim. Amma klub müdiri duyuq düşən kimi pəncərəyə örtük tutardı. Klubda hind filmi göstərilən gün kənddə bir bayram ruhu olardı. Ayrı vaxt evdən çıxmayan qadınlar həmin axşam mütləq kluba gələrdilər. İndi də hərdən televiziya kanallarında məhz həmin illərin hind filmlərini görəndə qəribə bir hal keçirirəm. Bu xiffətin əsas səbəbi odur ki, hind filmləri o zaman bizlərə təmiz hisslər, nəciblik, xeyirxahlıq kimi əxlaqi sifətlər aşılayırdı.

Evimizdə iki mənəvi işıq yanırdı: Qulu Xəlilov və Məmməd İbrahim (sonralar Məmməd Araz). Qulu müəllimin əbədi tənqidi məqalələri, Məmmədin də şeirləri mənim üçün mənəviyyat dərsi idi. Gah tənqidçi, gah da şair olmaq istəyi ilə müxtəlif yazılar, gündəliklər yazardım. Təəssüf ki, heç birini saxlamamışam.

Səkkizinci sinfi öz kəndimizdə - doğmaca Urudda bitirdim.İki il də qonşu Vağədi kəndində oxudum. Nəhayət, arzularımın şəhəri Bakı. İllər bir quş kimi uçub getdi. Bir də gözlərimi açdım ki, Universitetinin jurnalistika fakültəsini bitirmişəm. Bir müddət "Azərbaycan təbiəti"ndə, on beş il "Azərbaycan müəllimi" qəzetində, sonralar "Azərbaycan"da, "Azərbaycan qadını" jurnalında, yenidən "Azərbaycan" qəzeti redaksiyasında çalışdım.

İllərdir ki, əlimdə qələm oxucularımın ünvanına söz adlı bəxşiş göndərirəm. Xoşa gələni də olub, yəqin ki, gəlməyini də. Amma bir dəfə turş üz görməmişəm. Məni yaşadan, ruhlandıran da elə budur.

Şair də ola bilərdim, yazıçı da. Amma dəlicəsinə sevdiyim jurnalist sənəti məni özünə elə bağladı ki, şairliyə də, yazıçılığa da hərdənbir boylana bildim.

Həyatımda çox itki görüb, çox qəmlə üzləşmişəm. Amma taleyimin





ən ağır sarsıntısı məhz 1988-ci ilin payızı - doğma Urudun itirildiyi günlər oldu. Ana yurdun gözümdən asılan insanları xəyalımdan boylandıqca onların portretini sözlə yaratmağa çalışdım. Əsas mənbə isə eşidib bildiklərim və gördüklərimdir.

## HƏMİDƏ BİBİ

Kəndimizdə yaşlı, qoca bir qadın var idi. 30-35 il bundan əvvəl vəfat edib. Niyə xatırlayıram o qadını? Çox sonra anladım ki, o qoca qadın əslində millətimizin çəkdiyi əzabların abidəsi imiş. Türk qadınlarının başına gələn bədbəxtliklərin şahidi və canlı şəhidinə çevrilən o qonşu qarı yadımdan çıxmır.

Heç kimi yox idi. İkiqat yeriyirdi. Az qala ağzı dizlərinə dəyirdi. Gözləri eləcə dolu, çöhrəsi xiffətli olardı. Böyükdən kiçiyə hamı ona "Həmidə bibi" deyərdi. Dərdlərin əlində yumağa dönmüş bu qadının xətrini bütün kənd əziz tutardı. Hətta qonşu bağına alma, armud oğurluğuna gedən nadinc oğlan uşaqları da onun bostanına dəyib - dolaşmazdılar. Həmidə bibinin kənd arasında böyük hörməti var idi. Vayda ağı deyərdi, toyda xeyir - dua verərdi. Hər kəs ona kömək etməyə çalışardı. Görərdin ki, biri həyət - bacasını süpürür, biri bulaqdan ona su gətirir, kimsə odun doğrayırdı...

Həddən ziyadə məğrur qadın idi, baxmayaraq ki, çox şeyə ehtiyacı olardı. Di gəl, bir kimsəyə ağız açmazdı. Ona nə bağışlasaydılar, çalışardı ki, geri qaytarsın. "Varımdı", - deyərdi, uzun təkiddən sonra götürərdi. Əslində isə bir həsir idi, bir Məmmədnəsir.

Yadımdadır, bir dəfə mağazadan 3 litrlik balonda şaftalı kompotu alıb arxa boşaltdı. Sonra balonu küllə sürtüb yudu. Bir çox həqiqətlərdən xəbərim olmadığı üçün marağımı gizlədə bilməyərək soruşdum:

- Bibi, niyə belə etdin, hayıf deyil?

- Yox, ay bala. Onu kafirlər bağlayıb, murdardır. Mənə balon lazım idi.

Kəndə həmişə erməni gələndə öz - özünə deyinər, söyər, sonra da komasına çəkilərək ağı deyib ağlayardı. O yanıqlı səs indi də qulağımdan çəkilmir.

Niyə tənha qalmışdı Həmidə bibi? Dünyanın bəzi gərdişlərindən, qovğalarından xəbərsiz olduğumdan çox sonralar anladım hər şeyi.

Ötən əsrin əvvəllərində erməni daşnakları Zəngəzura divan tutanda onların vəhşiliklərinə tuş gəlmiş çarəsizlərdən biri də Həmidə bibi olubmuş. Həyat yoldaşını, qardaşlarını, oğullarını diri - diri qılıncdan keçirən Andronik Həmidə bibinin kürəyinə qaynar samovar bağlatdıraraq bu biçarə qadının nalələrindən ləzzət alırmış. Bir təsadüf nəticəsində tab gətirib sağ qalan qadın ömrünün sonuna kimi ikiqat yeridi. Bütün kənd sakinləri üçün göz dağına dönmüş Həmidə bibinin başına gələnlərin illərdən sonra təkrar olacağı heç kimin ağlına gəlmirdi. Canlarında tülkü hiyləgərliyini yaşadan ilan xislətli ermənilərin quduğanlığı baş qaldıran günlərdə Həmidə bibinin ağlar xəyalı hamının gözlərinə görünmüşdü. Tanrı, Sən bizi unutqanlıqdan hifz elə!

## KƏNDİMİZİN QARANQUŞU



Bu, İbad dayı idi. Ona qədər Urudda bir neçə poçtalyon işləmişdi. Amma mənim yadımda qalan məhz İbad Həmzə oğlu Məmmədov oldu. Bütün kənd onu çox sevər və yolunu intizarla gözləyərdi.

Qonşu Vağədi kəndində yerləşən poçt şöbəsindən məktubları, müxtəlif göndərişləri, qəzet və jurnalları götürüb Uruda gətirərək hər birini öz sahibinə çatdırardı. O illərdə İbad kişi kəndimizin həqiqi mənada qaranquşuna çevrilmişdi. Qəzet, jurnal oxumaq sevimli məşğuliyyətimiz olmuşdu. Bu səbəbdən də gözümüz poçtalyonun yollarına dikilərdi. Hərbi xidmətdə olan, ali məktəblərdə oxuyan, uzaq şəhərlərdə yaşayan urudluların öz doğmaları ilə ünsiyyət vasitəsi məhz məktublar olardı. Bu namələri də bizə İbad dayı çatdırardı. Qəribə iş metodu var idi. Əvvəlcə küçədə yastı bir daşın üstündə əyləşər, nəfəsini dərər,gəlib - gedənin "sovqat"ını özünə çatdırardı. Sonra da qapı - qapı dolaşardı. Darvazadan xeyli aralıda, hasarın tinində dayanaraq bərkdən səslənərdi. Özü də mütləq uşaqların adını çağırardı. Bir ünvana səda





göndərərdi. Amma onun səsini eşidən kimi qonşuluqdakı evlərdən hamı tökülüb gələrdi: "Bizə məktub var, İbad dayı?" Bu qarışıq, doğma səslər indi də qulaqlarımdan getməyib.

İbad Məmmədov əslində mexanizator olub. Həmişə yer şumlayar, toxum səpər, taxıl biçərdi. Lap cavan vaxtlarında bir erməni dığası onu itələyərək işləyən kombaynın fırlanan çarxına salmışdı. Bu qəza nəticəsində sağ qolunu dibdən itirdi. Uzun müddət müalicədən sonra yenidən həyata qayıtdı. Amma daha peşəsini davam etdirə bilmədi. 30-40 il poçtalyonluq etdi.

Qoçaq, zəhmətkeş və mehriban insan idi. Həyatın hər cür çətinliyinə inadı və əməyi ilə qalib gəlirdi. Ev tikdi, bağ saldı, gözəl balalar böyütdü, amma günlərin birində həyatının bütün səhmanı pozuldu. Əziyyətlə qurduğu yuvasından, illərlə çiynində gəzdirdiyi, ünsiyyət bağladığı poçtalyon çantasından onu zorla ayırdılar. Urudda doğulub, elə bu doğma kənddə də qocalmışdı İbad kişi. 1918-ci ildə ata - babaları qonşu İrmis kəndindən didərgin düşmüşdülər. Sonra geri qayıdanda kəndin varlığından əsər-əlamət görmədilər. Ermənilər İrmisin əhalisini tamamilə qətlə yetirərək kəndi yerlə yeksan etmişdilər. Onlar Urudda məskunlaşmışdılar. 70 ildən sonra bu kənd də əldən getdi...

Həmişə insanlara xeyir xəbər çatdırmağı daha çox xoşlayan, müjdəçi kimi tanınan, sevilən İbad dayı fələyin bu qəfil qəzasına, ermənilərin vəhşiliyinə tab gətirə bilmədi. Urudun itkisi, doğma yurddan qovulması kişinin ürəini qovurdu, cızdağını çıxartdı. Sumqayıtda "Urud" deyə - deyə gözlərini əbədi olaraq yumdu.

Mənimsə uşaqlıq illərimdən gələn bir şirin xəyal gözlərimin önündən çəkilmir. Köhnə məktəbin yanından bir kişi əlinin ağzına tutaraq evimizə sarı çağırır: "Flor-a-a-a..." Məktubları, qəzet və jurnalları sinəmə sıxaraq evə necə qaçdığımı indi də unuda bilmirəm. Böyükdən - kiçiyə kənddə hamı dünyanın riyalarından, böhtan və şərlərindən uzaqda pak bir həyat yaşayırdı. Bu müqəddəs günlərimizin şəriklərindən biri də poçtalyon İbad dayı idi.

# KINO GÖSTƏRƏN



Kənddə hələ nə televiziya var idi, nə də indiki kimi texniki tərəqqi dünyanı öz möcüzələr ilə heyrətə gətirmişdi. Uşaqların, yeniyetmələrin çox sevdiyi yerlərdən biri də kənd klubu idi. Xüsusilə də orada hind filmləri nümayiş etdiriləndə lap bayram olurdu. O axşam bütün kənd kluba axışırdı. Əvvəllər kinogöstərənlər ermənilər olardı. Sonralar Marsel Xəlilov bir müddət rayon kino istehsalat idarəsində kinomexanik vəzifəsində işlədi. Axşamlar böyüklər, gündüzlər uşaqlar üçün film göstərirdi. Kino başlanan kimi bilet almağa pulu olmayan uşaqları da içəri buraxırdı.

Marsel Xəlilov əvvəlcə Bakıdan xaricə üzən gəmilərin birində matros idi. Sonra necə oldusa, Uruda qayıdıb kinomexanik işlədi. Doğrudur, ermənilərlə yoldaşlıq edirdi, amma çomağını unutmurdu. Bir dəfə İstisu deyilən yerdə erməni dığaları azərbaycanlı qızlara söz atmışdılar. Marsel həmin gədələri ölüncə döyərək kənddən qovmuşdu. O, təkcə Urudda deyil, qonşu kəndlərdə də kino göstərirdi. Bir dəfə Darabasda qoca bir erməni ona yaxınlaşaraq gizlicə deyib: "Atanın burada düşməni çoxdur. Onun biz ermənilərə çox pisliyi dəyib, çıx get". Marsel təəccüblə deyib ki, mənim atam həmişə insanlara yaxşılıq edib. Onu bütün Ermənistanda mərd adam kimi tanıyırlar. Nədən bu kənddə düşməni olsun? Qoca söyləib: "Sənin atan Darabas dağlarında ermənilər tərəfindən gizlədilmiş silahı, topu, pulemyotu üzə çıxarıb. Erməni - müsəlman qırğınında fəallıq göstərənlərin çoxunu tanıdığından sonralar məsuliyyətə cəlb elətdirib. Mən unutsam da başqaları unutmayıb. İndi özün bilərsən, məndən demək". Əlbəttə, gənc kinomexanik ermənin bu xəbərdarlığından geri çəkilmədi. Bir müddət öz işini davam etdirdi. Amma ona olan soyuq münasibətdən, badalaqlardan duyurdu ki, ermənilərlə bir yerdə işləmək çox davam etməyəcək. Bir axşam özü kimi igid kənd oğlanları ilə birlikdə yenə





də İstisuya istrahətə gələn ermənilərin dərsini əməlli - başlı verərək gecə ikən Bakıya getdi. Sumqayıtda, Bakıda, Tümendə işlədi, xarici ölkələrdə çalışdı. Ailə qurdu, beş övlad atası oldu, amma bir daha Uruda dönmədi. Çünki Marsel kimi əyilməz, daşnakların iç üzünə bələd olan bir insanın onlarala üz - üzə gəlməsi çox çətin idi. Buna bir çox səbəb də var idi. Atası Məmməd Xəlilov qələbəyə bir neçə gün qalmış II Dünya müharibəsində itkin düşmüşdü. Bu müəmmalı hadisədə erməni əli olduğu sonralar aşkar edildi. Amma bunun sübutu çox çətin idi. Ona görə də məkrli ermənilərlə bir yerdə işləmək ölümdən də betər idi.

Urud işğal ediləndə Marsel Xəlilov Monqolustanda çalışırdı. Azərbaycana dönəndə isə... Urud adlı kəndin sakinləri doğma yurdlarından perik düşmüşdülər. Zəngəzura uzanan yolların üstünü duman almışdı. Anası, bacısı, qohum - qardaşı qaçqınlıq ömrünün ağrı - acısını yaşayırdılar. Əsəbləri nə qədər gərilsə də, yumruqları düyünlənsə də əlindən heç nə gəlmədi. Olan olmuşdu...

Yolunu Saray kəndindəki qəbiristanlığa saldı. Didərginliyin əzablarına, Urudun itkisinə dözməyərək dünyasını dəyişmiş anasının müqəddəs məzarını əlləri ilə sığalladı, baxışları ilə oxşadı, bulud kimi dolub - boşaldı. Qəbirin yan - yörəsində ağaclar əkdi. Amma bütün bunlar yaralı qəlbini ovutmadı. Ona elə gəldi ki, Atası Məmmədin ruhu başının üstündə dayanaraq dərdinə, qəminə şərik olur, ona təsəlli vermək istəyir. Sıxılmış dodaqlarından bir hıçqırtı qopdu: "Ata, anam da getdi..."

# CƏRGƏSİ POZULMUŞ DURNA QATARI

Ağlım kəsəndən bilirdim ki, kəndimizdə xanım-xatın, ağbirçək qadınlar olub. Onların bəziləri dünyalarını tez dəyişsələr də, xatirələri qəlblərdə yaşayır, tez-tez yada düşürdülər. Hətta çoxunun zəif xəyalını mən də xatırlayıram. Durna qatarına bənzəyən bu gözəl sıranın səfi tez pozulsa da, xatirələrimdə yaşayan o əziz insanların ruhuna bir ərməğan, bəlkə də daha çox bütün urudluların qəlblərindən qopan dualar kimi fikrimdən keçənləri qələmə aldım.

# GÜLÜSTAN NƏNƏ

Nəcəfli nəslindəndir. Qeyrət və şücaəti ilə Zəngəzurda yaxşı tanınan, Qarakilsənin adlı-sanlı oğulları olan Mahmud və Behbudun doğmaca bacısıdır. Bu qadını görənlər danışırlar ki, o, son dərəcə gözəl, uzun saçlı (12 saç hörərmiş), mavi gözlü qız olub. Qızlar bulağından su içməmiş qonşu İrmis kəndindən olan Qəhrəman bəyin bu cazibədar qıza gözü düşüb. O vaxt qızları çox erkən ərə verərlərmiş. Gülüstanı da Qəhrəman bəyə nişanlayıblar. Gəlini at belində aparmaq adət imiş. Yolda görüblər ki, qız şivən qoparıb ağlayır. Atı saxlayıb soruşublar ki, nə olub? Gülüstan gözlərini silərək cavab verib ki, bəs gəlinciyim evdə qalıb. Qəhrəman bəy tez Uruda - Cəfərqulu kişigilə adam göndərərək Gülüstanın gəlinciyini gətizdirir. Qız çox kiçik olduğundan təzə bəy onu öz anasına tapşırır ki, muğayat olun, qoyun böyüsün. Elə edin ki, sizi doğmaları kimi sevsin, mən oxumağa gedirəm.

Qəhrəman bəy 5-6 ildən sonra İrmisə qayıdaraq təzədən böyük bir ziyafət qurub. Deyirlər ki, qarazurnanın səsi dağlarda əks-səda verirmiş. Çox xoşbəxt ailələri olub. Gülüstanın dörd qızı və bir oğlu dünyaya gəlib. Təəssüf ki, onların bəxtəvərliyi uzun sürməyib.

Ötən əsrin əvvəllərində - 1915-ci ildə daşnak Andronikin quldur dəstəsi Zəngəzura basqın edən vaxt irmislilər də öz doğma yurdlarından perik düşüblər. Bu dəhşətli qovğalarda Gülüstan xanım sevimli ərini itirərək beş körpə ilə həyatın ağır əzablarına düçar olub. Əlbəttə, vaxtilə gözəl həyat keçirmiş bu qadının, nazlı bir xanımın son anda beş uşaqla zülmlərə tab gətirməsi, dözməsi böyük iradənin hesabına başa gəlir. Nəhayət, elə bir vədə yetişib ki, zəngəzurlular yenidən doğma yurda qayıtmalı olublar. Gülüstan da balalarını başına yığaraq kəndlərinə qayıtdı. Amma təəssüf ki, İrmis adlı kənd yer üzündən biryolluq silinmişdi. Qədim yurd yeri özü boyda xarabaya dönmüşdü. Əlacsız ana yenidən Uruda dönüb. O, bu qovğada təkcə həyat yoldaşını deyil, qardaşı Mahmudu da itirmişdi.

Həyatda çox ağrı-acı görən Gülüstan Xəlilova həmişə özünü tox tutmağı, içindəki dərdi gizli saxlamağı bacarırdı. Nəvəsi Fantina Xəlilovanın söylədiklərindən: "Nənəm həmişə bizə Qaçaq Nəbidən danışardı. Söyləyərdi ki, Qaçaq Nəbi, qardaşı Mehdi və Həcər xanımla tez-tez bizə gələrmişlər. Həcərin əynində kişi paltarı, başında papaq





olarmış. Onlar bəzən də bizim evdə dincəlɘrmişlər. Nənəm uşaq vaxtı damın üstünə çıxıb kəndə gələn yola göz qoyarmış ki, bir hadisə olsa, Nəbiyə xəbər versin".

Gülüstan xanım sözün əsl mənasında Allah adamı olub. Ömrünün sonuna kimi namaz qılıb, oruc tutub, Quranı əzbər bilirmiş. Gözəl əl qabiliyyəti varmış. Naxışlı corablar, xalı, palaz, kilim, cecim, məfrəş, xurcun toxuyarmış. Bu işi həvəslə qız-gəlinlərə öyrədərmiş. Deyirlər ki, onun bişirdiyi xörəyin ətri yeddi qonşuyacan yayılarmış.

Bir məsələ də qəribədir ki, o dövrün xanımları ermənilərdən, daha doğrusu, onların başımıza gətirdikləri zülmlərdən danışmağı sevməzmişlər. Sanki hər şeyin yenidən təkrar olacağından qorxarmışlar. Bu səbəbdən də ötənləri yada salmırmışlar. Amma Gülüstan nənə nəvələrini başına yığaraq qaçhaqaçdan danışarmış. Onun dediklərindən: "Hərə başını götürüb bir yana getmişdi. Urudda bir qoca qadın öz evində qalaraq heç hara çıxmayıb. Söyləyib ki, mən kimə neyləmişəm, kimə pisliyim keçib. Qoca arvadam, erməninin mənlə nə işi? Oğlu nə qədər yalvarsa da, qarı getməyə rahzı olmur. Qəfildən ermənilər kəndə tökülüşdülər. Daşnaklar görüblər ki, ağacın dibində bir qoca qadın əyləşib, yanında gənc bir oğlan. Quldurlar tüfəngin qundağı ilə qarını vurub öldürüblər, oğlanın da kürəyinə qaynar samovar bağlayaraq Üçtəpə adlanan yaylağa aparıblar. Sitəm və əzablara dözməyən gəncin həyatına son qoyulub. Başqa bir cavan gəlinin döşünü kəsərək südəmər körpənin ağzına pərçim edərək ağacdan asıblar". Bu zülmlərin şahidi olmuş Gülüstan qadın sanki nəvələrini hər şeydən xəbərdar etmək istəyirmiş.

İkinci Dünya müharibəsinə qədər həyatları çox sakit axarda keçirdi. Qızlar ailə qurmuş, oğul evlənmişdi. Yaralar yavaş-yavaş sağalırdı. Amma müharibə hər şeyə son qoydu. Yeganə oğlunu o ağır döyüşlərdə itirən Gülüstan arvad 90 il ömür sürərək gözləri yolda qaldı. Ömründə çox itkilər görmüş bu qadın oğlunun həlak olacağına inanmırdı. Təəssüf ki, taleyin bu acısını da dadmalı oldu.

Gülüstan Xəliliova 1957-ci ildə vəfat edib. İndi onun uyuduğu qədim Urud düşmən tapdağındadır.

## GÜLZAR NƏNƏ

Bir xəyal, bir röya kimi xatırlayıram. Anamın anası Gülzar nənə. Deyirlər ən çox istədiyi nəvəsi mən olmuşam. Erməni zülmü bu qadının da həyatında çox ağır iz qoydu.

1905-1918-ci illərin bütün məşəqqətlərini çəkən, dolanışığın minbir əzabını dadan Gülzar nənəm öz həmkəndliləri ilə birlikdə doğma yurddan qaçarkən hamilə imiş. Yanında da balaca qızlar, oğlanlar. Ermənilər onları atdöşü edərkən Gülzar yıxılıb, körpə qucağından düşüb. "At, at o uşağı, bələyin dalınca getmə, öz canını qurtar", - deyə qaçqın yoldaşları nə qədər təkid etsələr də, Gülzar sürünə-sürünə qundağı götürərək kürəyinə bağlayıb. Özünü də, balasını da erməni caynağından xilas edib. Amma əri Nəcəfi, qoşa oğlanlarını ermənilər qətlə yetiriblər. Böyük oğlu Talıb itkin düşüb. Yetim qalmış qızlarını min bir əziyyətlə həyatın çovğunundan salamat çıxardan Gülzar arvad ömrünün 78 yaşında dünyasını dəyişib

Anam və xalalarım danışardılar ki, nənəmin son sözü "Talıb" olub.

Talıb Nəcəf oğlu Xudaverdiyev, mənim böyük dayım 1918-ci ildə ermənilər Zəngəzur kəndlərinin başına ağlagəlməz zülmlər gətirəndə itkin düşüb. Öldü-qaldısından xəbər çıxmayıb, amma sonralar dayım haqqında qəribə-qəribə, əfsanəyə bənzər söz-söhbət gəzirdi. Guya sağdır, hardasa yaşayır, hətta yüksək vəzifəsi də var. Deyirlər ki, günlərin birində dayım Uruda qayıdarkən yolda qohumlardan biri ilə rastlaşıb. Kişi onu yaylaqdakı alaçığa aparıb xoş-beşdən sonra öyrənib ki, Talıbın çoxlu pulu, qızılı var. Soruşub ki, xeyirdimi, bu tərəflərə gəlməkdə məqsədin nədir? Talıb cavab verib ki, anamı, bacılarımı axtarıram. Uzun müddət idi ki, başım əldə deyildi. Gözü dayımın cibində olan kişi yalan danışıb: "Sənin qohum-əqrəbandan bircə mən qalmışam. Ananı da, dədəni də, bacı-qardaşlarını da, elə qohumlarının hamısını ermənilər qırdılar. İndi kəndə nəyə gedirsən, kim var ki?" Bibisi oğlunun sözlərinə inanan Talıb dayım möhkəmcə ağlayıb. Pul-parasını da bu tamahkar qohumuna verərək o gedən gedib. Bu söhbəti isə qonşu alaçıqda xəstə yatan Rəna adlı gəlin eşidirmiş. Birtəhər özündə güc tapıb Talıbı haraylasa da, ona səs verən olmayıb. Rəna arvadla (anamın doğmaca əmisi qızı) ahıl vaxtında Bakıda görüşmüşdüm. Bu əhvalatı mənə yana-yana, göz yaşları ilə danışan





qadın özünə yer tapa bilmirdi. "Niyə basaratım bağlandı, niyə ayağa dura bilmədim, mən niyə Talıbın dalınca getmədim?"

İndi dünyada nə Gülzar nənəm, nə Rəna arvad, yəqin ki, heç Talıb dayım da yoxdur. Ama onu dəqiq bilirəm ki, Talıb Nəcəf oğlu Xudaverdiyevin övladları, nəvə və nəticələri olmamış deyillər. Yazıq anam, üzünü görmədiyi, yalnız adını eşitdiyi dayımın həmişə intizarında idi. Eh, Allahın möcüzəsi hər an baş verə bilər. Kim bilir, bəlkə nə vaxtsa qapım döyüləcək "mən Talıb Xudaverdiyevin nəvəsiyəm, nəticəsiyəm" sədalarını eşidyəcəyəm. Hələ də ümid bizi tərk etmir.

## TƏNZİLƏ XALA

Bu qadının mehriban siması və qeyri-adi səsi heç xəyalımdan çəkilmir. Tənzilə Quliyeva Nəcəfli nəslinin ağbirçəklərindən biri olub. Atamın əmisi Behbudun həyat yoldaşı, anamın xalası olan Tənzilə xanım mənim çox sevdiyim bir insan idi. Bütün xeyir və şər işlərimizin başında mütləq o əyləşirdi. Hər bir məsələni onun tövsiyəsi ilə həll etməyə çalışardıq. Çox tədbirli, təəssübkeş, qeyrətli və mehriban qadın idi.

Yadımdadır ki, Novruz bayramının axırıncı çərşənbə axşamının səhəri biz uşaqlar mütləq qohum-qardaşın evinə gedər, öz bayram payımızı alardıq. Mən adətən, iki adamın sovqatını çox sevərdim. Biri Telli xalam, o birisi də Tənzilə xala olardı. Mənə qırmızı boyanmış yumurtalar, konfet, iydə, fındıq, ərik qurusu verərdilər. Nədənsə ən çox mən Tənzilə xalamın payından razı qalardım.



Bizim ailənin, xüsusilə də anamın ən çox hörmət etdiyi, məsləhət aldığı, bir sözünü iki eləmədiyi insan məhz Tənzilə xala idi.

Başı çox qeyri-qallar çəkmiş Tənzilə xalamın oğlu Mözən kəndimizin mexanizatoru idi. O, bir

müddət də kənd mağazasında çalışmışdı. Ana bütün ömrünü yeganə oğluna və onun balalarına həsr etmişdi. Dünyanın düz vaxtında (yəni hələ Urud işğal edilməmişdi) vəfat edən Tənzilə xalamın qəbri doğma kənddə qaldı. 1988-ci ildə ermənilər kəndə hücum edərkən əhalini zorla öz doğma evlərindən çıxartdılar. Bu zaman Mözənin həyat yoldaşı evdən çıxmaq istəməyərək gizlənməyə səy göstərib. Anam danışardı ki, saqqallılar bizi sürüyə-sürüyə maşına dolduranda Yeylağın (Mözənin həyat yoldaşı) naləsi məni varımdan etdi. Bilmədim ki, o biçarənin başına nə gəldi.

Topdağıtmaz evləri, yaxşı xalı-xalçaları olan Mözən Quluyev bir iynəsini belə götürə bilməyib. Hər şey erməniyə qalıb. Həm vətənini, həm də dolu evini itirən Quliyevlər başqa soydaşlarımız kimi Bakıda məskunlaşdılar. Amma həm anasının dağıdılmış məzarı, həm də Vətən həsrəti Mözəni için-için əridərək günlərin birində qəlbini susdurdu.

Mən bu insanları ehtiramla xatırlamaya, yada salmaya bilmərəm, çünki onlar sözün əsl mənasında doğma kəndimizin simvolları idilər.

## İLK ALİ TƏHSİLLİ QADIN



Ötən əsrdə - 1911-ci ildə dünyaya gəlmiş Gülbahar Xəlilova Urudun ali təhsil almış ilk qadınlarındandır. İrəvanda, qardaşı Məmməd Xəlilovun yanında qalırdı və şəhərdəki məktəblərin birində müəllimə işləyirdi. O, son dərəcə gözəl və cazibəli bir qız idi. Qardaşının qorxusundan ona vurulan cavanlar qapılarına elçi göndərməyə ürək etməyiblər. Hətta bu məqsədlə neçə dəfə evə gələn olsa da, söz açmağa, elçi olduqlarını bildirməyə cəsarət etməyərək kor-peşiman geri dönüblər. Məmmədin son dərəcə ciddiliyindən hamı çəkinirmiş.

Günlərin birində Məmmədəli adlı vedili bir müəllim özündə cəsarət taparaq Gülbaharı Vediyə qaçırdır. Bu xəbər Məmmədə ağır təsir edir. O, kiçik bacısını hamıdan çox sevirdi. Uzun müddət pərişan olsa da,





barışıq üçün gələnləri qapıdan qovub. Bəlkə də bu nisgil uzun müddət davam etməzdi, əgər qəfildən müharibə başlamasaydı. Məmməd Xəlilov da, Gülbaharın həyat yoldaşı da müharibəyə gediblər. Gülbahar qardaşının ondan üz döndərməsini ürəyinə saldığından günü ağlamaqla keçərmiş. Gənc müəllimənin zərif qəlbi bu xiffətə çox tab gətirmədi. Dilində "Məmməd" adı ilə dünyasını çox nakam və dərdlə dəyişdi. Ondan nişanə qalan iki övladını - Oqtay və Sabirəni isə əmiləri Abbas Əliyevlə həyat yoldaşı Nüşafərim xanım öz övladları kimi saxlayıb böyütdülər.

Talesizlikdən müharibənin od - alovu Məmməd Xəlilovun və Məhəmmədəli Əliyevin həyatlarını qara müəmmalara bükdü. Bir tərəfdən də erməni şovinistləri 1948-1953-cü illərdə növbəti repressiyanı həyata keçirdilər. Vedidə yaşayan soydaşlarımızı Beyləqan rayonuna köçürtdülər. Həm vətənsiz, həm də qohum - əqrabasız qalan biçarələr həyatın bu amansızlığı ilə də barışmalı olublar. Sabirə ilə Oqtay anasının qohum - əqrabalarını, üzünü görmədikləri dayıları Məmmədin balalarını bir də 1965-ci ildə soraqladılar. Yaxşı ki, bir - birinə həsrət qalan bacı - qardaşın övladları, nəhayət ki, görüşdülər. Elə bu nəsildə neçə Gülbahar, Məmməd var. Ən dəhşətlisi odur ki, erməni şovinistlərinin törətdiyi fəlakətlər nəticəsində cismimizlə ruhumuz ayrı düşdü.

# ÜSTÜMÜZDƏ HAQQI OLAN İNSANLAR

Bu, yəqin ki, valideynlərimizdən sonra müəllimlərimiz ola bilər. Rəhmətlik Hafizə müəllimədən üzü bəri biz nəslin yaddaşında çox müəllimin işıqlı sürəti yaşamaqdadır. Əlbəttə, mən bütün müəllimlərimizə öz ehtiramımı bildirir, onları sonsuz məhəbbətlə xatırlayıram. Bu unudulmaz insanların arasında elələri də var ki, onları ayrıca yad etməmək, bəlkə də səhv olardı. Çünki o şəxsiyyətlər adi müəllim deyildilər. Gözdən, könüldən uzaq bir dağ kəndində yaşasalar da, öz qabiliyyətləri ilə seçilirdilər. Qeyri - adi istedad sahibi olan o əziz insanlar indi də xəyalımızdan çəkilmirlər. Hərdən onları xatırladıqca qəlbimi bir kədər bürüyür. Görəsən, indi belə müəllimlər varmı? Təmənnasız, bütün varlıqları ilə məktəbə bağlı olan o şəxsiyyətlər əsl mənada qəhrəmanlıq göstərirdilər.

Mənim ən çox sevdiyim və bütün urudluların sevimlisi olan

## QASIM HACIYEV



Əslində riyaziyyat müəllimi idi. Bu səbəbdən də urudluların əksəriyyəti məhz ali məktəblərin fizika - riyaziyyat fakültələrində oxuyurdular. Onun çox qəribə, qeyri-adi dərs keçmək, öyrətmək qabiliyyəti var idi.

İkinci Dünya müharibəsinin iştirakçısı idi. Xalqımızın igid oğlu Mehdi Hüseynzadə ilə birlikdə döyüşmüşdü. Ömrü - günü çox ağır qovğalara düçar olmuşdu. Faşistlərə əsir düşən Qasım Hacıyev həbs düşərgələrində minbir əzaba qatlaşaraq dözüm və iradəsi hesabına son anda ölümə qalib gəlmiş, nəhayət, qələbədən çox sonra doğma kəndə qayıtmışdır. Cəbhədə alman dilini mükəmməl öyrənmişdi. O, savaşdan sonra bütün urudlulara (kənd ermənilər tərəfindən işğal olunana qədər) alman dili dərsi demişdi.





Qasım müəllimin cəmi üç il verdiyi biliyə əsasən 9-10-cu sinifləri (başqa kənddə - Vağədidə) bitirdik, ali məktəbdə də oxuduq, hələ üstəlik xarici ölkələrdə də bu dilin sayəsində çulumuzu sudan çıxarda bildik.

Yadımdadır ki, Qasım müəllim bizim sinifdə bir dəfə fizika dərsi keçdi (əsas müəllimimiz xəstələnmişdi). İndiyə kimi o dərsi olduğu kimi yadımda saxlamışam. Onun ən böyük pedoqoji ustalığından biri də dərsi təsirli danışmaq, ən çətin, mürəkkəb məsələləri aydın şəkildə izah etmək, beyinə, yaddaşa yeritmək gücünə malik olması idi.

Geniş dünyagörüşlü, hərtərəfli biliyə malik Qasım Hacıyev bir neçə xarici dili mükəmməl bilirdi. El arasında ona "yeddi dilli Qasım" deyirdilər. Müntəzəm olaraq bədii ədəbiyyatı mütaliə edərdi. Nəinki kənd, rayon, şəhər kitabxanalarında, ümumiyyətlə oxumadığı kitab, xəbərdar olmadığı ədəbiyyat, yenilik yox idi. Bəzən bizi başına yığıb qədim Qalaya apararaq açıq havada tarix "dərs"i keçərdi. Hər bir abidənin, daşın, qalanın, dağın, dərənin adının mənasını izah edərdi. Bəzən də onunla birlikdə köhnə kəlafalıqda - qədim yaşayış yerlərində qazıntı aparardıq. Tapılan hər saxsı parçasına necə də sevinərdi. Onun köməyi və təşəbbüsü ilə məktəbimizdə "tarix güşəsi" yaradılmışdı. Qazıntı zamanı tapdığımız qədim əşyaları ora yığmışdıq.

Gözəl rəsm çəkmək qabiliyyəti var idi. Məktəbimizin bütün divar qəzetlərinin başlıqlarını, plakatları, şüarları mütləq Qasım Hacıyev yazardı. Qalanın döşündə çaylaq daşlarından "yazdığı"rəqəmlər, bayram günlərinin adları gözümün önündən çəkilmir. İstənilən adamın portretini, mənzərəni çox ustalıqla kağız üzərində çəkə bilirdi.

Müharibədən sonrakı illərdə bir sıra dərs ləvazimatları, əyani vəsaitlər çatışmırdı. Kimya, fizika üzrə alimlərin, yazıçı və şairlərin portretini qara karandaşla elə işləmişdi ki, inanmaq olmurdu bu fotodur, yoxsa rəsm.

Bir neçə musiqi alətində gözəl çalırdı. Onun tarda ifa etdiyi muğamların yanıqlı avazı indi də yadıma düşəndə ürəyimin başı göynəyir. Məktəbdə və kənddə yaradılmış özfəaliyyət dərnəklərinə bədii rəhbərlik edirdi. Yadımdadır ki, Yeni il bayramında kənd klubunda xüsusi canlanma var idi. Qasım müəllimin hazırladığı konsert proqramı hamının xoşuna gələrdi. Əsl rejissor idi. Kimin nəyi, necə ifa edəcəyini əvvəlcədən özü bilirdi, seçirdi, hazırlayırdı. Bəzən təklif

etdiyi rollar, deklomasiyalar, mahnılar ürəyimizcən olmasa da etiraz etməzdik. Çünki Qasım müəllimi çox istəməklə bərabər, həm də ondan çəkinirdik.

Arada bir bizə idman dərslərini də keçirdi. Qəribədir ki, onun üçün dərs problemi yox idi. Hansı fənnin müəllimi kimi sinifə girirdisə, keçdiyi dərs yaddaşımıza ilişib qalırdı. Adicə idman dərsi də belə. Tanrı onu hərtərəfli yaratmışdı. Əlindən hər şey gəlirdi. Hər bir ixtisasın sahibi ilə o sənətin mahir bilicisi kimi danışırdı. Qasım Hacıyev ensiklopedik biliyə, dərin təfəkkürə, möhkəm hafizəyə malik insan idi.

Sinifimizdə həm pis oxuyan, həm də nadinc bir şagird var idi. Demək olar ki, bir neçə dəfə sinifdə qalaraq bizimlə oxuyurdu. Bir il sinif rəhbərimiz Qasım müəllim oldu. O, həmin oğlanı sinif nümayəndəsi (sinifkom) təyin etdi. Hamımız təəccübləndik. Elə Qasım Hacıyevin də bu pedaqogji ustalığının nəticəsində Təyyar adlanan oğlan birdən-birə dəyişdi. Dərsə hazırlıqlı gəldi, səliqəli geyindi. Hətta, bizim hər birimizə irad tutmağa başladı. Qasım müəllimin sözü onun üçün qanun idi.

Təəssüf ki, xatirəsi hər bir urudlu üçün əziz və unudulmaz olan Qasım Hacıyev doğma kəndinin dağıdılmasından sonra çox yaşaya bilmədi. Naxçıvanda dünyasını dəyişdi. Xeyirxah, nəcib bir insan, mehriban ailə başçısı, sədaqətli dost, əsl vətəndaş olan Qasım Hacıyev dərs dediyi şagirdlərinin qəlbində əbədi iz saldı.





# ABDULLA ABDULLAYEV



Urudluların çoxunun müəllimi olub. Adətən, botanika, zoologiya fənlərindən dərs deyirdi. Bəzən əmək və idman dərslərini də ona həvalə edirdilər. Son dərəcə də səmimi və mehriban adam olduğundan istənilən şagirdin qəlbinə yol tapa bilirdi. Bundan başqa, Abdulla müəllimin çox gözəl əl qabilyyəti var idi. Sözün əsl mənasında usta idi. Qapı, pəncərə, arı pətəyi düzəldərdi. Kənd yeri olduğundan hamının ona işi düşürdü. Təbiətən səxavətli və mərd adam olan Abdulla müəllimin xətrini kənddə hamı çox istəyirdi.

İkinci Dünya müharibəsinin iştirakçısı olan Abdulla Abdullayev əməkdar müəllim idi. 1988-ci ildən Uruddan zorla çıxarıldıqdan sonra ürəyi bu məşəqqətlərə davam gətirmədi. Elə Bakıda da haqq dünyasına qovuşdu. Ömrü boyu işi-peşəsi insanlara yaxşılıq etməkdən ibarət olan sevimli müəllimimiz doğma Urudundan, onun pərən-pərən düşmüş sakinlərindən nigaran, sinəsi Vətən dağlı getdi.

Abdulla müəllimdən indi bizə xoş xatirələr və bir də millət, Vətən üçün böyütdüyü 7 ləyaqətli övladı qalıb. Balalarının hamısını oxudan, cəmiyyət üçün əsl vətəndaş kimi yetişdirən Abdulla müəllim, təəssüf ki, onların bir sıra uğurlarında, xeyir işlərində iştirak edə bilmədi.

Abdulla Abdullayevin atası Əsəd bəy kəndimizin ən varlı adamlarından olmuşdu. Abdulla müəllim sözün həqiqi mənasında bəy oğlu idi. Bu əsillik, nəciblik onun bütün əməllərində özünü biruzə vermişdi. Sovet hakimiyyəti qurulduqdan sonra, xüsusilə repressiya illərində Əsəd bəy təziqlərə, işgəncələrə məruz qalmışdı. Böyük qardaşı itkin düşmüşdü. Var-dövlətləri əllərindən alınmışdı. Amma qandakı, gendəki mənəvi zənginlik, bəylik, ağayanalıq bu nəslin hər bir üzvündə yaşamaqdadır.

Abdulla müəllimin qardaşı İsrafil Abdullayev də həm urudlulara, həm də qonşu kəndlərin uşaqlarına uzun illər fizikadan dərs demişdi. İndi Sumqayıtda yaşayan İsrafil müəllim də bizim hamımız kimi, yəqin ki, nə vaxtsa Uruda dönəcəyinə ümid bəsləyir.

# CƏBRAYIL İSGƏNDƏROV

Urudluların əksəriyyətinə dərs deyib Cəbrayıl müəllim. Həm də təkcə doğma kəndinin deyil, bütövlükdə Qarakilsə rayonunun müxtəlif kəndlərində müəllim işləyərək insanların maariflənməsinə çalışıb.

On yaşında ikən atasını itirib, anasının himayəsində qalan Cəbrayıl İsgəndərov 1918-ci ildə bütün həmkəndliləri kimi erməni quldurlarının törətdiyi fəlakətdən qurtulmaq üçün qaçqınlıq həyatının əzablarını da çəkib. Başqa qohum-əqrabalar kimi beş ildən sonra yenidən Uruda qayıdıb. Əvvəl doğma Urudda, sonra Vağədi kəndində oxuyub. İlk müəllim işlədiyi təhsil ocağı Şəki kəndindəki ibtidai sinif olub. Bir müddətdən sonra Uruddakı ibtidai məktəbə direktor vəzifəsinə təyin edilib.

İrəvan şəhərindəki Ali Kommunist Kənd Təsərrüfatı Məktəbində təhsilini davam etdirən Cəbrayıl İsgəndərov savadlı, bacarıqlı, işgüzar insanlardan biri olub. Bu səbəbdən də Qarakilsə rayonunda müxtəlif məsul vəzifələrdə çalışıb: təlimatçı, partiya komitəsinin üçüncü katibi olub.

Əslində isə Cəbrayıl İsgəndərovun ürəkdən bağlı olduğu, ayrıla bilmədiyi bir peşə var idi: müəllimlik. O, bir tərəfdən öz təhsilini tez-tez artırmaq məqsədilə müxtəlif ali məktəblərdə oxuyur, digər tərəfdən də kənd cavanlarının maariflənməsinə can atırdı.

Cəbrayıl İsgəndərov 1950-ci ildən ömrünün sonuna kimi müqəddəs peşəsini ləyaqətlə yerinə yetirib. Uruddan onlarca alim, professor, akademik, məşhur insanlar, müxtəlif sənətkarlar çıxıb. Qürurla, fəxrlə demək olar ki, onların əksəriyyətinə məhz Cəbrail müəllim dərs deyib, elmin sirlərini öyrədib.

Talesizliyə bax ki, uşaqlığından üzü bəri qaçqınlıq onu qarabaqara izləyib. İkinci dəfə Urudu 1989-cu ildə itirdi. Amma bu dəfə unudulmaz müəllimimiz həsrətini çəkdiyi kəndə qayıda bilmədi. Bakıda dünyasını dəyişdi.





# AĞAQULU İSMAYILOV

Urudluların, eləcə də Qarakilsənin müxtəlif kəndlərindən olan insanların əksəriyyətinin rus dili müəllimi olub. Yaddaşımızda iz salan, bizə dərs dediyi illəri tez-tez xatırladığım Ağaqulu müəllim dərin hörmət bəslədiyim pedaqoqlardan idi.

Ağaqulu İsmayılovun uşaqlıq illəri erməni zülmünün acınacaqlı dövrünə təsadüf edib. Adam bəzən bu dəhşətdən özünə gələ bilmir ki, bir insan bir ömür boyunda neçə dəfə qaçqın düşər, neçə dəfə yurd itirər, neçə dəfə sinəsi dağlanar? Ağaqulu İsmayılovun da uşaqlığı, eləcə də ömrünün ahıl çağı qaçqınlığın müdhiş, çəkilməz əzabları ilə üzləşib. Fikir verin, ilk dəfə doğma kəndlərindən didərgin düşəndə 5 yaşı olub. Qaçqınlığın nə demək olduğunu bütün dərdləri ilə sinəsinə çəkən və bu əzabın minbir ağrısını yaşayan Ağaqulu İsmayılov digər zəngəzurlular kimi ara sakitləşəndən - 1920-ci ildən sonra yenidən doğulduğu yurda dönüb. Şəraitsizliyə, bir-birinə bağlanan çətinliklərə baxmayaraq pedaqoji təhsil almağa nail olub. Uzun müddət Rayon Partiya Komitəsində müxtəlif vəzifələrdə çalışıb və ömrünün sonuna kimi sevimli peşəsindən - müəllimlikdən ayrılmayıb.

Talesizliyə bax ki, Ağaqulu müəllim 75 yaşında yenə də evindən-eşiyindən didərgin edilib.

1988-ci ilin sonları bütün Qərbi Azərbaycan üçün qara il oldu. Həmin acı ruzigarın doğma yurddan - Uruddan qopardığı insanlardan biri də Ağaqulu İsmayılov oldu. Amma bu dəfə bu dərd önündə o heç bir dözüm tapmadı. Ağaqulu müəllim daha yorulmuşdu. Vətən itkisi elə həmin ildə bir çox urudlular kimi Ağaqulu İsmayılovu da əbədiyyətə qovuşdurdu.

O, böyük bir ailə başçısı idi. Səkkiz övladın yeddisi ali təhsillidir. Bu halal ocaqda pərvazlanan övladların hər birinin maraqlı həyat yolu var: Mailə, Füzuli, Vahid, Ofelya, Vidadi, Şərqiyə, Əsmər, Natiq.

Mailə İsmayılova II Dünya savaşından sonrakı illərdə Urudun ali təhsil alan ilk qızlarından sayılır. Füzuli İsmayılov atasının sənətini davam etdirir. Uzun illər Bakının Binəqədi rayonunda rus dili və ədəbiyyatı müəllimi vəzifəsini ləyaqətlə yerinə yetirən Füzuli İsmayılov 1977-ci ildən 248 saylı məktəbin direktorudur.

Füzuli müəllimin həm də gözəl nitq, aparıcılıq qabiliyyəti var. Urudluların xeyir-şərində həmişə iştirak etməyi, dost-tanışa həmdəm



olmağı bacaran. Füzuli müəllimi toy şənliklərində görəsən. Gözəl, poetik duyumu var. Saatlarla şeir söyləyər, ağıllı, müdrik fikirlərdən nümunələr gətirər. Ən məşhur, nüfuzlu urudludan tutmuş sadə peşə sahibinə kimi hamısı ona əzizdir. "Hər bir urudlu mənə Vətənim qədər əziz və qiymətlidir" - söyləyir.

## Füzuli İsmayılov

Ağaqulu müəllimin üçüncü övladı Vahid İsmayılov Bakıda Xarici Dillər İnstitutunu əla qiymətlərlə bitirmişdir. Təyinatla "İnturist" Turizm Birliyində tərcüməçi işləmişdir. Sonra köhnə "İnturist"də direktor müavini vəzifəsində çalışmışdır. Bu sahədə qabiliyyəti, səriştəsi onu qısa müddət ərzində yeni vəzifəyə yüksəltmişdir. Bir müddət "İnturist" Turizm Birliyində rəis müavini olmuş, 1992-ci ildən 1999-cu ilə qədər "Azərbaycan" mehmanxanasında direktor və direktor müavini vəzifələrində çalışmışdır.

Təəssüf ki, Vahid İsmayılov dünyasını vaxtsız dəyişdi. 28 oktyabr 1999-cu ildə vəfat edəndə onun 50 yaşı var idi. Qəbri nurla dolsun. Bir oğul və iki qız balası Vahiddən nişanə qaldı.



## Vahid İsmayılov

Mənim uşaqlıq xatirələrimdə dərin iz salan Ofelya (biz ona öz aramızda Qəndi deyərdik) tez-tez yadıma düşür. Xüsusilə də, kəhrizdən su daşıdığımız məqamları, kitabxanaya getdiyimiz günləri, bir sözlə, bir daha əlçatmaz, ünyetməz urudlu çağlarımızı xatırlayıram. Qəribədir ki, dünən görüşdüyüm insanları bu gün tez unuduram. Amma uşaqlıqdan üzü bəri mənimlə qolboyun gələn, xəyalımdan çəkilməyən insanların bütün danışıqlarını, yerişlərini, gülüşlərini, söhbətlərini nöqtəsinə, vergülünə kimi unutmamışam.





# ƏSƏD TAHİROV



Hərdən yolum uzaq dağ kəndlərinə düşəndə mütləq birinci növbədə məktəblə maraqlanıram. Diqqətimi həmişə bir məsələ çəkib ki, mütləq belə tədris ocaqlarında çalışan müəllimlərin əksəriyyəti başqa yerdən gəlməli olurlar. Elə indinin özündə də vəziyyət belədir.

Urud isə elə binədən ürfan ocağı olub. Məktəb var olan gündən orada həmişə urudlu müəllimlər çalışıblar. Qürur duymuşuq ki, qonşu kəndlərin əksəriyyətində işləyən müəllimlərin də çoxu məhz urudludur. Bəzən bir məktəbdə bir ixtisas üzrə bir neçə müəllim olardı. Amma dərs saatlarını elə bölüşdürərdilər ki, heç kim bir-birindən inciməzdi. Əsəd Tahirov uzun illər bu işi məharətlə yerinə yetirib. O, Urud məktəbində dərs hissə müdiri idi. Riyaziyyat müəllimi olsa da, bəzən başqa dərsləri də aparmalı olurdu. Çox sakit və ciddi xarakteri var idi. Dərs zamanı öz peşəsinə elə aludə olurdu ki, bəzən hər şeyi unudurdu. Səsi məktəbin həyətinə yayılardı. Yoldan keçənlər də dayanıb Əsəd müəllimin necə həvəslə dərs keçməsinə qulaq asardılar.

Yumşaq xasiyyətə malik olduğundan hətta dərsi bilməyən ən nadinc şagirdə belə turş söz deməz, kimsəyə əl qaldırmazdı. Adama elə gəlirdi ki, Əsəd müəllim ümumiyyətlə hirslənə bilməz. Ondan inciyə biləcək kiminsə olacağını heç ağlıma gətrə bilmirəm.

1988-ci ildə ermənilər Qarabağ kartını ortaya atdıqdan sonra Qərbi Azərbaycana gediş - gəlişdə çətinliklər yarandı. İlk qaçqınlar dəstəsi görünəndən sonra Zəngəzurun yolları bağlandı. Urudun Bakıda yaşayan ziyalılarının bir qismi çarə axtarmağa başladı. Onlar bir araya gələrək müxtəlif təşkilatların, nazirliklərin qapısını döydülər. Çünki Qərbi Azərbaycandan xoş sədalar eşidilmirdi. Həmin vaxtda təsadüfən Bakıda olan Əsəd müəllim də bizə qoşulmuşdu. Onun da ailəsi,bacı - qardaşı, qohum - əqrabası Urudda qalmışdı. İlk dəfə idi ki, mən o

mülayim insanın necə qəzəbləndiyini, hirsləndiyini gördüm. Təəssüf ki, bizim harayımız eşidilmədi. Ellərimiz dağıdıldı. Həmin müsibətli günlərin zərbələrindən biri də Əsəd Tahirova dəydi. Uruddan sonra çox yaşaya bilmədi. Günlərin birində eşitdiyimiz acı xəbərdən sarsıldıq: Sevimli müəllimlərimizdən biri də qaçqın kimi dünyasını dəyişdi.

## ALXAN TAHİROV

Ötən əsrin ortalarında Urud məktəbində çalışan müəllimlərin sanki çox ixtisası var idi. Diplomundan asılı olmayaraq kimin hansı fənni keçmək qabiliyyəti olsaydı, həmin dərsi ona etibar edərdilər. Bu baxımdan Alxan Tahirov bəzilərimizə Azərbaycan dili və ədəbiyyat, bəzilərinə də rus dili fənlərindən dərs deyərdi. Çox səliqəli və zabitəli kişi idi.

O dövrün müəllimləri sözün əsl mənasında öz peşələrinin vurğunu idilər. Şagirdi öyrətməkdən, çalışdırmaqdan, başa salmaqdan sanki xüsusi zövq alırdılar. Hətta bəzən "3" qiymət alanları dərsdən sonra saxlayar, onlara əlavə dərs keçərdilər. Təbii ki, yaxşı oxuyan, çalışqan uşaqlar müəllimin sevimlisinə çevrilərdi.

Alxan Tahirov bacarıqlı pedaqoq olmaqla yanaşı həm də zəhmətkeş bir insan idi. Öz əlinin bəhrəsi ilə gözəl ev - eşik düzəltmişdi. Həyat yoldaşı Zəri xanımla birlikdə mehriban və nümunəvi ailə sahibi olmuşdular. Onlar necə də mədəni və nəzakətli insan idilər, Allah! Hər ikisi haqqında keçmiş zamanda danışmaq mənə nə qədər ağır olsa da, təəssüf ki, Urudun işğalından sonra bu qoşa ömrün də gülüstanını şaxta vurdu. O çiçəklər birdən - birə soldu. Sanki urudsuz yaşamaq istəmədilər. Haqq dünyasında olan bu unudulmazları həmişə böyük məhəbbətlə, ehtiramla xatırlayıram.

Ruhları şad olsun!





## KAMRAN GƏNCƏLİYEV



Yuxarıda müəllimlərimin ünvanına dediyim xoş sözlərin yiyələrindən biri də Kamran Gəncəliyevdir. O bizə coğrafiya fənnindən dərs deyərdi. Həyat yoldaşı Gülxar müəllimə də ibtidai sinifdə qayğımızı çəkib. Hər ikisi yaddaşımızda dərin iz salan sevimli müəllimlərimizdən olub. İndi Bakıda yaşayırlır. Gülxar müəllimə mənə söylədi ki, Kamran şəhərdə tablaşa bilmir, günü - güzəranı Xızıda - bağ - bağatda keçir. Kamran müəllimin bacısı Xatın xanım da bizə III sinifdə dərs deyib. İndi Gəncədə yaşayır. Urudda biz Kamran müəllimlə həm də qonşu idik. Ona görə də onun yaşıllığa necə bağlı olduğunun şahidiyəm. Bizim bağın içindən keçən arxdan onlara su gedərdi. Tez - tez bərəni öz bostanımıza çevirərdim. Hövlənak gələrdi. Mənim nadincliyimə bir dəfə də turş üz göstərməzdi. Əksinə, gülümsəyərək deyərdi: "Yaxşı, gəl sizin bostanı, ağacları suvaraq, sonra suyu kəsməyəsən ha!..."

Kamran Gəncəliyev həqiqətən çox qeyri - adi bir müəllim kimi unudulmur. İndi də gözlərimdən çəkilmir. Üzü bizə sarı dayanıb çubuğu arxadakı xəritəyə uzadaraq bütün ölkələrin, hətta ən kiçik şəhərlərin, ərazilərin, çayların, göllərin, boğazların adlarını tez -tez çəkərək yerini dəqiq göstərərdi. Hər dəfə onun bu ustalığına heyrət edərdik. Dərslərimi yaxşı oxuyurdum, Kamran müəllimdən həmişə "5" qiyməti alırdım. Amma nə qədər məşq elədimsə də, çalışdımsa da onun kimi xəritəyə baxmadan ölkələri, şəhərləri... sürətlə göstərə bilmədim.

# FƏRRUX QƏHRƏMANOV



O, həm urudluların, həm də vağədililərin əksəriyyətinə Azərbaycan dili və ədəbiyyatdan dərs deyib. Fərrux müəllim səmimi və mehriban insan kimi hər iki kəndin sakinləri arasında dərin hörmət qazanmışdı. Böyük nüfuza malik idi. Uzun illər Vağədi kənd orta məktəbində çalışan Fərrux Qəhrəmanov özü Urudda yaşayırdı. Gözəl ev - eşiyi, bağ - bağatı var idi. Saçları erkən ağardığından hərdən mənə elə gəlirdi ki, o bir dağ - abidə kimi insanlar arasında gəzib- dolaşır.

Həyat yoldaşı Roza Hacıyeva isə bizə II sinifdə dərs deyib. Vaxtilə kəndin ən gözəl xanımlarından sayılan Roza müəllimə geniş dünyagörüşlü, istiqanlı, mehriban müəllimə kimi ürəyimizə hopub. Bu ailənin bütövlükdə Zəngəzur mahalında böyük xətir - hörməti var idi. Bu onların həm nəcabətli nəsillərindən, həm də özlərinin qazandığı şəxsi hörmətdən irəli gəlirdi. Roza müəllimənin atası Əbdülmənaf kişi Zəngəzur, Naxçıvan bölgələrində ad - san qazanmış, tanınmış şəxsiyyətlərdən olub. Onun barəsində ayrıca söz açacağıq. Roza xanım həm də mənim çox sevdiyim Qasım müəllimin bacısıdır. Bu nəslin, bu ailənin Azərbaycan elminə bəxş etdiyi uğurları sadalasaq böyük bir siyahı yaranar. Ona görə də yeri düşdükcə bu nüfuzlu şəxsiyyətlər barəsində mütləq oxucularımıza söz açacağıq.



Bir məsələ də var ki, Fərrux müəllim mənim üçün ikiqat əzizdir. Çünki o, Sarabəyim xalamın böyük oğludur. Ona görə də onun haqqında danışdıqca danışmaq istərdim. Bütöv bir nəslin sevimlisi olan Fərrux Qəhrəmanov mənim anamın ən çox əzizlədiyi, görmək istədiyi insanlardan olub. Fərrux Qəhrəmanov mənə bir də ona görə əziz və müqəddəsdir ki, anamın cənazəsini çiynində daşımış, onunla son görüşən doğmalarımızdan olmuşdur. Bəzən çox sevdiyin adam haqqında elə geniş danışa bilmirsən. Söz axtarışına çıxırsan. Bilmirsən, hansı ifadəni, hansı deyimi tapasan ki, Fərrux Qəhrəmanova bəslədiyin hörməti, ehtiramı, məhəbbəti təcəssüm etdirə bilsin. Yalnız onu deyə bilərəm ki, Tanrı Qəhrəmanovları qorusun!





# MİRSEYİB HƏSƏNOV

Urudda səkkiz illik məktəbi bitirdikdən sonra iki il də qonşu Vağədi kəndində oxumalı olduq. (Ötən əsrin 80-ci illərindən sonra bizim kəndimizdəki təhsil ocağı da onillik məktəbə çevrildi). Mirseyib müəllim bizlərə riyaziyyatdan dərs deyərdi. Çox savadlı və həddən artıq mülayim bir insan idi. O, riyaziyyatla bağlı məsələləri həll edəndə, yaxud da hansısa tənliyi başa salanda sanki şeir söyləyirdi. Ən çətin düsturlar, rəqəmlər beynimizə elə həkk edilirdi ki...

Jurnalist olmaq istəyi varlığıma elə hopmuşdu ki, onuncu sinifdə oxuyanda riyaziyyata tamam laqeydləşdim. Hətta ev tapşırıqlarını sinif yoldaşlarım - Bəsti və Sima yazıb gətirərdilər. Onlar riyaziyyatdan həmişə "5" alardılar. Ən çətin məsələni, misalı bir saniyədə həll edərdilər. Mirseyib müəllim riyaziyyatdan zəiflədiyimi görüb bir gün anama şikayət etmişdi: "İstəsə hamıdan yaxşı oxuyar. Amma bədii ədəbiyyat oxumaq huşunu aparıb". Anamın iradlarından utanıb bir neçə gün dərsə hazırlıqlı gəlsəm də sonra yenə içdən gələn maraq öz işini gördü. Mirseyib Həsənov həm də məktəbimizin dərs hissə müdiri idi. Bir neçə dəfə tarix dərslərində bizə qulaq asmışdı. Bir gün məni yanına çağırıb dedi: "Qızım, sən mütləq tarix fakültəsini seç. Səndən yaxşı tarixçi çıxar".

Yadımdadır, universitetə qəbul olunub kəndə qayıdanda qarşıma ilk çıxan Mirseyib müəllim oldu... Sevincimi ona bildirəndə çox sakit ahənglə dedi: "Belə də olmalı idi. Gedib riyaziyyatda oxuyası deyildin ki!.. "

İstər Uruddan, istərsə də Vağədidən riyaziyyatçılar çoxdur. Onların arasında alimlər, professorlar, hətta akalemiklər də var. Bir qürur hissi keçiririk ki, həmin insanların əksəriyyətinə məhz Mirrseyib Həsənov

dərs deyib.

Urudun süqutundan sonra dünyasını Sumqayıtda dəyişən Mirseyib Həsənov kəndimizin parlaq təfəkkürlü oğullarından biri idi

## SAHİB QULİYEV



Əslində mənə dərs deməyib. Mən birinci sinfə gedəndə o, məktəb direktoru idi. Deyim ki, ən çox qorxduğum, çəkindiyim insanlardan biri olub. Qızı Rəmziyyə ilə bir sinifdə oxuyurduq. Yaxın rəfiqəliyimiz var idi. Həm də qohum idik. Amma buna baxmayaraq Sahib əminin adı gələndə ürəyimizi yeyirdik. Bəlkə də dərsə qorxudan hazır gəlirdik ki, o, yoxlamağa gələ bilər. Zəif oxuyan şagird gözünün düşməni idi. Ona ağır söz deməkdən çəkinməzdi.

Tale elə gətirdi ki, biz orta məktəbin son sinfində oxuyanda Sahib Quliyev kəndimzin kolxoz sədri seçildi. Amma yenə də münasibətlər dəyişmədi. Dərs desə də, deməsə də Sahib Quliyev bizim hamımızın çox sevdiyi müəllimlərimizdən oub.

Urudun işğalının son günlərinə kimi doğma kənddə yaşayan Sahib Quliyev başımıza gələn müsibətlərdən danışanda elə bir hala düşür ki, bəzən onun bu dərdini tərpəddiyinə peşiman olursan. Sahib əminin təkcə biz urudluların deyil, bütün azərbaycanlıların qəlbində izi olmalıdır. Çünki bu gün sağ qalmağımıza, yaşamağımıza çoxumuzun borclu olduğu insanlardan biri də məhz Sahib Quliyevdir. Çünki onun sevimli övladlarından biri Aqil Quliyev Azərbaycanın Milli Qəhrəmanıdır. O, Qarabağ uğrunda gedən döyüşlərdə dastanlara sığmayacaq şücaətlər göstərib. Xocalı soyqırımında ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilib.

Mənə elə bir ata göstərə bilərsinizmi ki, onun iki qəhrəman oğlu olsun. Bəlkə də tapılar. Amma bu halda mümkün deyil ki, sənin bir oğlun Azərbaycanın, digər övladın isə Çeçenistanın Milli Qəhrəmanı olsun. Qardaşı Aqilin qisasını almaq niyyəti ilə cəbhəyə üz tutan





Nəsimi Quliyevin başına gəlməyən bəla olmadı. Amma o, bütün fırtınalardan, təziq və təqiblərdən , soyuq zindanlardan, çək - çevirlərdən cəngavər mərdliyi ilə sıyrılaraq təsdiqlədi ki, Azərbaycan oğlu əslində kimdir. Bu mövzularla əlaqədar təbii ki, ayrıca danışacağıq. Belə igidlərin atası haqqında köhnə müəllimlik bioqrafiyasını vərəqləmək çox sönük görünür. Yalnız bircə onu demək istəyirəm ki, üzləşdiyin ağrılara, acılara əyilmə, Sahib əmi!

...Əlbəttə, urudlu müəllimlər çoxdur. Onların hər biri haqqında dastan yazılsa azdır. Sadəcə biz o insanları xatırladıq ki,onlar elə Urudun rəmzi deməkdir.

## HAQQI DANMAQ GÜNAHDIR

İnsan ömrü öz əlində deyil. Bu, təbii prossesdir və bu ömür yolunda tuş olduğu elə amansızlıqlar var ki, onu da yazan Allahdır. Şəmil Tahirov urudluların əksəriyyətinə Azərbaycan dili və ədəbiyyatından dərs deyib. Etiraf da edək ki, ən tələbkar, uşaq oxudan, peşəsinə məsuliyyətlə yanaşan bacarıqlı müəllimlərdən olub. Onu da unutmaq lazım deyil ki, Şəmil Tahirov Urudda son dərəcə gözəl ev - eşik qurmuş, bağa, mülkə sahib insanlardan olub. Kəndin axırında ucaltdığı ikimərtəbəli bina öz zahiri yaraşığı ilə bütün evlərdən seçilirdi. Təəssüf ki, o, minbir əziyyətlə tikdiyi bu xanimanda xoşbəxt yaşaya bilmədi. Günlərin birində ermənilər Uruda hücum edəndə hamı dağ - daşa çəkilmişdi. Şəmil müəllim evindən çölə çıxmadı. Ona elə gəlirdi ki, doğma evin divarları onu düşmən hədəfi olmaqdan xilas edəcək. Amma nə qədər sadəlövh düşünürmüş. Ermənilər gözlənilməz vəhşiliklə nəinki evə hücum edib Şəmil müəllimi döydülər, onun gözləri qarşısında ev - eşiyini dağıtdılar, od vurub yandırdılar, pul - parasını əlindən aldılar, özünü də sürüyə - sürüyə çöllərə atdılar. Sonralar Şəmil müəllim Bakıda məskunlaşsa da, aldığı zərbələrdən ruhi əzablar çəkdi. Bu əzabın da nəticəsində beyin pozuntusu tapdı, yaddaşın bütün xanaları sıradan çıxdı. Amma bəs biz? Biz ki, onu yaxşı tanıyırdıq, çoxumuza dərs deyib, sevimli müəllimiz olub. Şəmil Tahirov əslində Urudun dirigözlü şəhidlərindən biridir. Atalar demişkən, haqqı danmaq günahdır. Özü özünə eləyəni min fələk də yığışsa eləyə bilməz.

# KİTABXANAÇI



Urud dünyanın elə bir guşəsi idi ki, hələ çox pisliklər, riyalar bu kənddən uzaqda mürgüləyirdi. Kəndin təmiz təbiəti kimi əhalisi də saf və pak idi. Orta məktəbdə yaxşı oxuyanlar mütləq Bakıya ali təhsil almağa gedirdilər. Bir sinifdə 1 və ya 2 zəif şagird olardı. Ümumiyyətlə, Urud camaatında elmə, maarifə həvəs böyük idi. Urud nəinki Zəngəzurda, bütövlükdə Qərbi Azərbaycanda oxumuşların, ziyalı və məşhur adamların sayına görə seçilirdi. Yadımdadır ki, ötən əsrin 60-70-ci illərində Moskvada çıxan "Oqonyok" jurnalında Urud haqqında geniş bir məqalə dərc etmişdilər. Müəllif heyrətə gəlmişdi ki, balaca bir kənddən bu qədər çox sayda alim, akademik, partiya və dövlət xadimi, rəssam, jurnalist çıxıb.

Urudluların çox sevdiyi və daim can atdığı ünvanlardan biri də kənd kitabxanası idi.

Fantina Xəlilova 1957-ci ildən 1988-ci ilə kimi kitabxananın müdiri olub. Qiyabi olaraq Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin kitabxanaçılıq şöbəsini bitirən Fantina Xəlilova müharibədən sonra ali təhsil alan urudlu qızların ilkinlərindən sayılır.

Fantina adicə kitabxanaçı deyildi. Oxuduğumuz kitabları necə dərk etdiyimizi bilmək üçün bizi sorğu-suala tutardı. Əgər kimsə bu imtahandan "kəsilsə" ona yenidən kitab verməzdi. Çalışardı hər bir oxucu kitabı mütləq oxusun, anlasın. Tez-tez kitabxanada müzakirələr, ədəbi-bədii axşamlar təşkil edərdi. "Yaxşı işinə görə" dəfələrlə müxtəlif diplom və tərifnamələrə layiq görülmüşdü. 1988-ci il onun da həyatının ən ağır məqamlarına çevrildi. Doğma vətənindən didərgin oldu. Həmişə də yana - yana söyləyir: "Ermənilər on min nüsxələrlə Azərbaycan dilində olan kitabları yandırdılar". Kitabı həyatı qədər sevən, ömrünü onun təbliğinə bağlayan bir insan üçün bu dəhşətli mənzərənin nə demək olduğu aydındır.

Fantina Xəlilova hazırda Bakıda yaşayır. Bir müddət Azərbaycan







Texniki Universitetinin texniki oxu zalında şöbə müdiri vəzifəsində çalışdı. İndi təqaüddədir. "50 il də indən belə bu şəhərdə yaşasam fikrim - zikrim Urudda qalıb". Bir övladı var. Fərqanə. Ali təhsillidir. Türk şirkətlərinin birində aparıcı mütəxəssisdir. Urud işğal ediləndə o, çox balaca idi. "Yadımda kəndimizin dağları və bir də nəhəng cəviz ağacları qalıb", - deyir.

Fantina Xəlilovanın 1985-ci ildə "Sovet Ermənistanı" qəzetində dərc edilmiş bir yazısını ixtisarla bu kitaba daxil edirik.

# KƏNDİMİZİN OĞULLARI

Böyük Vətən müharibəsinin qanlı-qadalı illərində Ermənistanın Sisian rayonundakı Urud kəndinin də öz payı var. Canlarını vətən uğrunda qurban verən qələbəmizin 20 milyon qurbanı içərisində bu kiçik kəndin də oğulları var.

Müharibə ... 1941-ci il 22 iyun. Bu ildırım sürətli ağır xəbəri Urud

kəndində ürək ağrısı ilə qarşıladılar. Qeyrətli oğullar könüllü cəbhəyə yola düşdülər. 63 nəfər mərd igid ciblərində partiya və komsomol biletləri vuruşa, müharibə meydanlarına atıldı, Vətən uğrunda döyüşlərə yollananlar arasında körpə balalarından ayrılıb gedən Hüseynqulu, Məmməd, Bəhram, Yusifəli, Abbasəli, Sadıq, Nifdalı, Yusub və başqaları da var idi. Onlar Vətən uğrunda vuruşdular və qayıtmadılar, öz övladlarını və cavan gəlinlərinin gözlərini həmişə yolda qoydular. Yeni evlənən oğlanlar Bəxtiyar, İbrahim, Müslüm, Abdulla sevgililərini bir kəsə tapşırmayıb yola düşdülər. Ürəyində qız sevib, sevgisini heç kəsə açmayan Valeh, Umud, Məhi, Novruz, Mirzəli silaha sarılıb cəbhələrdə qəhrəmanlıq göstərdilər. Müharibə zamanı kənddə ancaq uşaqlar, qadınlar və qocalar qaldı. Kişi qeyrətli qadınlar arxa cəbhədə çətinliklərə sinə gərib, kolxozun ən çətin işlərindən yapışdılar. Vuruşan ataların, qardaşların, oğulların, ərlərin əvəzinə işlədilər. O vaxt kolxozda heç bir maşın-texnika yox idi, bütün işlər əl ilə görülürdü. Səpin, əkin, biçin, məhsul yığımı, ferma işləri, bir sözlə bütün işləri qeyrətli qadınlarımız görürdü. Kişi peşəsi sayılan işlərin bütün zəhmətlərinə qatlaşdılar. Müharibə illərində minbir əziyyətlə Urud kəndində arxa cəbhədə çalışan kişi qeyrətli qadınlar: Rübabə, Telli, Züleyxa, Nübar, Gözəl, Fatma, Şamama, Suğra, Urvat və başqa qoçaq gəlinlər çətinliklərə sinə gərərək mərdliklə çalışırdılar, yaxşı işləyib minbir əziyyətlə uşaq böyüdürdülər. Gündüz can-başla kolxozda, gecə lampa-çıraq işığında ev işləri görərək vuruşan oğullar üçün isti corab, əlcək də toxuyub cəbhəyə göndərirdilər. Aman günün ömrünün az olduğunu yaxşı bilirdilər. Aldıqları üçkünc əsgər məktubları onlara qol - qanad verirdi. Camat ümidlə yaşayırdı. Heç kəs öz əzizinə ölümü yaxın qoymurdu. Onlar öz əsgər oğlunu, gəlinlər həyat yoldaşlarını və günahsız körpələr öz atalarının yolunu intizarla gözləyirdilər.

Nəhayət, bir gün şad xəbər dünyaya və eləcə də Urud kəndinə yayıldı: Qələbə!...

1945-ci il 9 may qələbə günündə bütün camaatı "Güllü bağ" adlanan böyük bir yaşıllığın qoynuna yığıb yemək-içmək, şənlik məclisi təşkil etdilər. Hamı sevinir, gülür, rəqs edir və sevincdən ağlayırdı. Müharibə qurtardı. Urud kəndindən cəbhəyə gedənlər gəlməyə başladılar. 1946-cı il sentyabrın birində birinci sinfə gedən uşaqların atası müharibədən qayıtmadı. Uşaqları ataları yox, analar məktəbə yola saldılar. Cəbhəyə





gedən 63 nəfər mərd oğulun 34-nəfəri qayıtmadı. Onlar vətən yolunda, gələcək nəslin şən və xoşbəxt yaşaması üçün canlarından keçdilər.

Müharibənin vurduğu yaralar hələ də sağalmayıb. Vətən uğrunda həlak olanlar unudulmurlar, onların qoçaqlığına, ölməz hünərinə eşq olsun!

**1985**

## II DÜNYA MÜHARİBƏSİNDƏN URUD KƏNDİNƏ QAYITMAYANLAR

**Xəlilov Məmməd Qəhrəman oğlu**
**Abdullayev Novruz Əsəd oğlu**
**Bayramov Yusub Ağamalı oğlu**
**Bayramov Bəhram Səvdim oğlu**
**Quliyev Tanrıverdi Əli oğlu**
**Quliyev Seyidəli Əli oğlu**
**Quliyev Miriş Əli oğlu**
**Quliyev Əhməd**
**Quliyev Həsən**
**Quliyev Umud Əli oğlu**
**Quliyev İbrahim Nəsir oğlu**
**Quliyev Hüseynqulu Rəsul oğlu**
**Quliyev Sərdar Əbdüləli oğlu**
**Quliyev Əsəd Əbdüləli oğlu**
**Quliyev Mirzəli Manaf oğlu**
**Quliyev Abdulla Müseyib oğlu**
**Əzimov Həşim Qəbil oğlu**
**Quliyev Eynullah Muxtar oğlu**
**Əmrahov Müslüm**
**Zeynalov Bəhram**
**Kərimov Mikayıl**
**Kətənov Məhi İsmayıl oğlu**
**Kətənov Nifdalı İsmayıl oğlu**

**Gəncəliyev Nurməmməd Məhərrəm oğlu**
**Gəncəliyev Məhi Nurməmməd oğlu**
**Almirzəyev Vəlirza**
**Almirzəyev Məmmədəli Vəlirza oğlu**
**Nəsibov Bəxtiyar Nəsib oğlu**
**Tahirov Valeh**
**Şahverənov Abbasəli Əbdül oğlu**
**Şahverənov Yusifəli İsmayıl oğlu**
**Şahverənov Sadıq Şahgəldi oğlu**
**Şahverənov İslam Kəlbeyi Cahan oğlu**
**Şahverənov Mikail**







# NAĞILA BƏNZƏR ÖMÜRLƏR

Qəhrəman bəyin urudlu Cəfərqulunun qızı Gülüstandan çox xoşu gəlirdi. Mahmudla Behbud İrmis kəndində yaşayan Qəhrəman bəyin tez -tez onların yol izində görünməsindən təəccüblənsələr də, bir gün qapılarına gələn elçilər hər şeyi aydınlaşdırdılar. Qardaşlar yeganə bacılarının Qəhrəman bəyə nişanlanmasına etiraz etmədilər. İllər bir - birnə qovuşub, ötüşdü. Gənc ailədə 4 qız - Səkinə, Tavat, Anaxanım, Gülbahar və bir oğul - Məmməd böyüyürdü. Lakin ailənin xoşbəxtliyi uzun sürmədi. 1918-ci ildə erməni daşnaklarının Zəngəzurda törətdiyi toqquşma nəticəsində yüzlərlə azərbaycanlı ailəsi kimi, Qəhrəman bəyin də külfəti doğma yurddan didərgin düşdü. Yolda kişini ermənilər öldürdülər. Qarakilsənin kəndlərindən Qarabağa sarı qaçan didərginlər Kür boyu çöllərə töküldülər. Dağ şəraitində yaşayan insanların buranın təbiətinə uyğunlaşmağı çətin oldu. Erməni gülləsindən, süngüsündən qurtulmuş biçarələrin əksəriyyəti də xəstəlik və aclıqdan dünyalarını dəyişdilər. Beş bala ilə həyatın amansızlığına tuş gələn Gülüstan ana Qarabağın Hindarx deyilən yaşayış yerində məskunlaşıb. 9 yaşlı Məmməd bir bəyin quzusunu otarmaqla ailənin yükünü çiyinlərinə çəkib.

Tale elə gətirib ki, sovet hakimiyyəti qurulduqdan sonra ara bir az sakitləşib. Bütün zəngəzurlular kimi bu ailə də böyük ümidlə vətənə qayıdıb. Amma doğma İrmis kəndi ermənilər tərəfindən dağıldığından, sakinlərinin də əksəriyyəti qətlə yetirildiyindən Gülüstan arvad körpələrini başına yığaraq ana yurdu Urudda məskunlaşmaq məcburiyyətində qalıb. Gülüstanın əri də, qardaşı Mahmud da, neçə yaxın qohumu da bu davada həlak olmuşdu. Qardaşı oğlanları - Fətulla, Əliş və Mözənin salamat qalmaları qadını sevindirib.

Məməd çox fərasətli çıxıb. Elmə, maarifə maraq göstərərək orta məktəbi bitirdikdən sonra müxtəlif şəhərlərdə təhsil alıb. Tiflisdə, Bakıda, İrəvanda, Zaqafqaziya Ali Partiya məktəbində oxuyub. Qərbi Azərbaycanda - Zəngibasar, Vedi, Qarakilsə rayonlarında Partiya Komitələrinin I katibi vəzifəsində çalışıb. Onu tanıyanlar danışardılar ki, Məmməd Xəlilov son dərəcə zəngin mənəvi aləmə və zahiri yaraşığa malik şəxs olub. Ucaboylu, şux qamətli, enlikürək, sarışın, alagöz və həddən-ziyadə ciddi insan imiş. Ermənilər ondan çəkinərmişlər.



Danışırdılar ki, Məməd Xəlilov bir dəfə daşnakların Darabas kəndindəki dağın gözündə gizlətdikləri silah - sursatı, iki topu, pulemyotu aşkar edərək neçə erməninin cəzalandırılmasına nail olub.

Bir müddət İrəvan şəhərində yaşayan Məmməd Xəlilov "Sovet Ermənistanı" qəzetində kənd təsərrüfatı şöbəsinin müdiri işləyib. Həmin qəzetdə onlarca məqaləsi dərc edilib. Lakin ermənilərin iç üzünə dərindən bələd olduğu üçün, görünür, ona bu şəhərdə rahat yaşamağa imkan verməyiblər. Bakıya gələrək ADU - nun tarix fakültəsinə (qiyabi) daxil olub. Bir neçə dil bildiyindən, siyasi cəhətdən hazırlıqlı, savadlı, təcrübəli, səriştəli olduğundan Azərbaycan KP MK tərəfindən Bərdə şəhərinə I katib göndərilib.

Dünyaya gələndən ömrü qovğalarda keçən Məmməd Xəlilovun həyat yolu heç vaxt hamar olmayıb. 1941-ci ildə II Dünya savaşı başladı. Məmməd Xəlilov könüllü olaraq davaya gedib. Halbuki onun bronu var idi. Bir müddət məktubları Krımdan, Kerçdən, Sevastopoldan gəlib. Hələ müharibənin şiddətli illərində yazdığı məktublar inamla dolu olarmış. Üçkünc əsgər məktubları son illərə kimi qalırdı. Müharibədə siyasi rəhbər olan kapitan Məmməd Xəlilov qələbəyə bir neçə gün qalmış itkin düşüb.

Qızı Fantinanın dediklərindən: "Qələbə gününü kəndimizin camaatı





böyük şənliklə qarşıladı. O gün necə sevinirdik. Cəbhədə vuruşan cavanlar yavaş - yavaş geri qayıdırdılar. Ancaq bizim gözümüz hələ də yolda idi. Qardaşım çox yerlərə getdi, qardaşlıq qəbiristanlıqlarını gəzdi, xatirə abidələrinin önünə çiçək dəstələri qoydu, adları oxudu, aradı. Amma bir məlumat əldə etmək mümkün olmadı. El ağbirçəyi Gülüstan nənəm də gözü yolda, qulağı səsdə, beli ikiqat, 90 yaşında dünyadan köçəndə əlləri uzalı, nigaran getdi. Müharibə başlananda 22 yaşlı gənc anam ömrün dolaylarında tək-tənha qaldı. Bibim Tavat - atamın ən istəkli bacısı qardaş həsrəti ilə şam kimi əridi..."

Müharibədən əvvəl Məmməd Xəlilovun "Emadin" markalı maşını, Göy atı və üstündə həmişə gəzdirdiyi (dövlət tərəfindən verilmiş) tapançası olub. Görkəmli tədqiqatçı İsrafil Məmmədov 15 avqust 1985-ci il "Sovet Ermənistanı" qəzetində yazıb: "Məmməd Xəlilov kimi övladı olan bir xalq xoşbəxtdir. Müharibədən əvvəl müxtəlif rayonların Partiya Komitəsində işləyən bu şəxsin çox böyük xidmətləri var. Apardığım araşdırmalardan bəlli olub ki, "Sovet Ermənistanı" qəzetinin təkcə 1940-cı il may, iyun, iyul, avqust saylarında Məmməd Xəlilovun ardıcıl məqalələri dərc olunub. Bu yazılar vasitəsilə Məmməd Xəlilovun qələminə, təfəkkürünə bələd olduqca, kamalına, ağlına, düşüncə və qabiliyyətinə heyran kəslirsən".

Məmməd Xəlilov 1940-cı ildə Bakıya, sonra Bərdəyə, oradan da müharibəyə getdi və bir daha qayıtmadı. Ciyərparalarının, doğmalarının, ömür - gün dostunun, ana - bacılarının ruhu perik düşdü. Övladları da minbir həsrəti sinələrinə yığaraq qocaldılar. Yaxşı ki, Xəlilovlar ağacının yaşıl budaqları göyərməkdədir. Həyat davam edir. Amma bu dərd hər kəsi öldürməkdədir ki, bizim bütün yazılarımız vətənsiz dil açır, körpələrimiz kimi...

# HÜSEYNQULU QULİYEV



Urudun nakam, lakin unudulmaz oğullarından biri də Hüseynqulu Rəsul oğlu Quliyev olub. Ermənilərin Zəngəzurda qan əkdiyi bir zamanda dünyaya gələn Hüseynqulu ailənin yeganə övladı idi. Minbir əziyyətlə oxuyub kənd məktəbində müəllimlik edirmiş. Erkən ailə qurmuş Hüseynqulu müəllim 1939-cu ildə Finlandiya müharibəsinə aparılıb. O zaman Quliyevlər ailəsində yeni körpə doğulmuşdu. Ata qızının adını Şahxanım qoymuşdu. Amma bu qız balanı böyütmək ataya qismət olmadı.

1941-ci ildə başlanan II Dünya müharibəsi Hüseynqulunu yenidən səngərlərə göndərib. Atası Rəsulun, anası İrastanın, arvadı Mülayimin gözləri yolda qalsa da, 1942-ci ildə Hüseynqulu Quliyevdən qara kağız gəldi. Ailənin bütün üzvləri bu dərdə tab gətirməyərək vəfat ediblər. Balaca Şahxanımı ana nənəsi Şərəf arvad və dayıları Mənsumla Hüseyn saxlayıblar.

Şahxanım Quliyeva Urudun müharibədən sonra ali təhsil alan ilk qadınlarındın olub. Ağlı, kamalı, mehribanlığı, qeyrəti, təmiz əxlaqı ilə hamıdan seçilən bu yadigar qız Səyyar adlı bir oğlanla ailə qurub xoşbəxtliyə qovuşdu. Uzun müddət Bakıda yaşadılar. Tanrı ona üç övlad bəxş etdi: Sima, İlham, Rəsul. Övladlarının üçünü də oxudan Şahxanım Quliyeva hazırda Almaniyada yaşayır.

# "ƏYBƏR BABA"

Xəyalımdan çəkilməyən gözəl insanlardan biri də kəndimizin ağsaqqalı Əkbər Əkbərov idi. Çox mehriban, istiqanlı, bütün kəndin xeyrinə, şərinə yarayan bir insan olan Əkbər Əkbərov qonum qonşu ilə ünsiyyət bağlamağı bacaran, dar məqamda əldən tutan bir şəxs idi. Nədənsə mən həmişə onu görəndə elə bilirdim ki, çox doğma, yaxın,







sevimli bir insanla təmasdayam. Xətrini dağlar qədər istəyirdim. Həmişə də ona "Əybər baba" deyərdim. İnsafsızlıq edib adını yüz dəfə çağırsaydın, ancaq "can" kəlməsini eşidərdin. Hirslənmək, turş sifət göstərmək, qəzəbli danışıq tərzi bu kişidən min ağac uzaq idi. Uşaq vaxtı elə bilirdim ki, Əkbər baba ancaq arıçıdır. Çünki kolxozun arı təsrrüfatına o baxırdı. "Güllübağ" deyilən yerdə düzülmüş arı pətəklərinin arasında Əkbər baba bütün günü arılarla "həmsöhbət" olardı. Amma əlindən başqa işlər də gəlirdi. Taxta yonurdu, qapı - pəncərə düzəldirdi, divar hörürdü... İşində bir memarlıq qabiliyyəti var idi.

Günlərin birində məktəbdə II Dünya müharibəsinin veteranları ilə görüş keçirildi. Gözlərimə inanmadım. Bizim Əkbər baba çox səliqəli geyinmişdi. Allah, sinəsində nə qədər orden, medal var idi? Onda bildim ki, əslində bu fağır görkəmli kişi çox igid, hünərli, qorxmaz bir insan olub. Sən demə, II Dünya mühari bəsi başlananda kəndimizdən döyüşə birinci gedən Əkbər Əkbərov olub. 1941-ci ildən qələbə gününə kimi müxtəlif cəbhələrdə faşistlərə qarşı vuruşub. 78-ci atıcı alayında xidmət edən həmyerlimiz Stalinqrad, Odessa, Solnok, Budapeşt, Bratislava və s. şəhərlərdən, ölkələrdən keçərək Berlinə qədər şərəfli bir döyüş yolu keçib. Doğma kəndə isə 1946-cı ildə qayıdıb. Nə illah edərdiksə, bizə müharibədən danışmağı sevməzdi. "Gedin işinizlə məşğul olun, oxuyun, savad alın, müharibə nəyinizə gərəkdir. Allah heç bir millətə o cür savaşı qismət etməsin".

Təəssüf ki, Əkbər Əkbərovun heç ağlına da gəlməzdi ki, həmişə sülh arzusunda olan, insanlara xeyirxahlıq edən bu mülayim xasiyyətli insanın doğulduğu, boya-başa çatdığı doğma kəndinin, el - obasının başına hansı faciələr gələcək. Həyat yoldaşı Səlbinaz bibi yaşının ahıl vaxtında didərginlik, qaçqınlıq dərdinin iztirablarına dözməyərək Sumqayıt şəhərində dünyasını dəyişəcək. Sonbeşik oğlu Səid (o, uzun müddət, yəni Urudun işğalına qədər kənd mağazasında satıcı işləyirdi) küçə ilə o qədər fikirli gedəcək ki, bir namərdin sürətlə

sürdüyü maşının qurbanı olacaq. Bununla da həyatına erkən nida qoyulacaq. Ötənləri xatırlayanda Əkbər baba haqqında fikirləşməmək olmur. Hərdən mənə elə gəlir ki, bizim nəsil heç yuxumuzda da görə bilməyəcəyimiz qeyri - adi bir həyat yaşayıb. O, həyatın, o günlərin ən əziz, unudulmaz sakinlərindən biri də Əkbər baba idi. Ruhu şad osun!

## ƏFSANƏVİ İNSAN



Onun haqqında həmişə qeyri - adi söz - söhbətlər eşidərdim. Cəmil Tahirov kəndimizin fəxr etdiyi insanlardan biri olub. O, 1902-ci ildə Urudda anadan olub. İlk təhsilini mollaxanada alsa da, hələ uşaqlıqdan çox fərasətli və gözüaçıq idi. Təəssüf ki, təhsilini davam etdirmək üçün onun həyatı müxtəlif qovğalardan keçib. Uşaqlıq illərində daşnakların Zəngəzura hücumu zamanı ata - anasını itirərək qardaş - bacısı ilə birlikdə yetimliyin ağır günlərini yaşayıb. 16 yaşında ikən ordu sıralarına gedib. Hərbi hissədə onun çox qorxmaz, bacarıqlı olduğunu görüb məktəbə göndəriblər. Orta təhsil aldıqdan sonra hərbi işlərə bağlanan Cəmil Tahirov 1936-cı ildə Moskvada Hərbi Akademiyaya daxil olub. Oranı bitirdikdən sonra bir müddət Minsk şəhərində çalışıb. 1941-ci ildə isə onu Naxçıvana göndəriblər. İşə başlamamış II Dünya müharibəsinin ağır yolları onu da cəbhəyə aparıb. Müharibə illərində xüsusi fədakarlıq göstərən Cəmil Tahirovu döyüşün ən qızğın yerlərinə göndərər, ona inanardılar. 1943-cü ildə ağır döyüşlərin birində yaralandığından Gürcüstana - hərbi hospitala göndərilib. Sinəsini müxtəlif orden və medallar bəzəyən Cəmil Tahirov uzun müddət Naxçıvanda yaşayıb.

Sonralar isə Bakıya köçmüşdür. 1978-ci ildə dünyasını dəyişib. Məzarı Saray kəndindədir.





## O BİZİM ATAMIZ İDİ



Fətulla Mahmud oğlu Quliyev Zəngəzur mahalının çox hörmətli, nüfuzlu el ağsaqqallarından biri olub. Nəinki Urudun, qonşu kəndlərin də xeyri - şəri onsuz keçməzdi. Taleyin bir çox "bəxşiş"i də onun həyatından yan ötüşməyib. Qardaşlarımın sonbeşiyi Zahir mənə bir yazı verdi. Bəzi ixtisarla bu kitaba daxil etdim. Fətulla Quliyev el ağsaqqalı, Nəcəfli nəslinin şah damarı idi. Zahirin yazısından:

"Atamın gözəl natiqliyi var idi ki, danışanda da elə bil şeir deyirdi. Sözləri sədəf kimi düzmək qabiliyyəti olan atam yığıncaqlarda danışanda hamı onun nitqinə valeh kəsilərdi.

Atam həyatını bəzən mənə danışardı. Maraqla qulaq asardım və uşaq ağlımla elə başa düşərdim ki, yəqin bütün atalar bu cür olur və belə ömür yolu keçirlər. Lakin yaşlaşandan və başqalarının onun haqqında danışdıqlarını dinləyəndən sonra anladım ki, doğrudan da bizim atamız çox qeyri - adi bir insan olub.

O, 1899-cu ildə Urudda anadan olub, Şeyx Nəcəfqulunun nəvəsi Molla Mahmudun oğludur.

Adət və ənənləri çox gözəl bilirdi, dini savadını atası Mahmuddan almış, o vaxtkı molla məktəbində altı sinif oxumuşdu. Latın əlifbasını da bilirdi (rəhmətlik əmidostum İzzət xanım atama "Mirzə" deyərdi və ona Quranı oxutmaqdan ləzzət alardı). Onun danışdığına görə oxuduğu molla məktəbi Urudun aşağı hissəsində (cənubunda) Həsənbağının ortasında, kəndin girəcəyində yerləşirmiş. Sovet dövründə oranı ilk vaxtlar poçt idarəsi ediblər. Lakin keçmişdən yadigar qalmasını istəməyən ermənilər oranın tədricən sökülməsinə nail olublar.

Atam deyirdi ki, keçmişdə Urudda olan bu məktəbdə yaxın kəndlərdən - Darabazdan, Gilətağdan, İlizindən, Şamdan, Vağədidən, Böyük Hasardan (bu kənd Urudla Vağədi arasında İlan dağının aşağı

hissəsində yerləşirmiş. Xarabalıqlarını mən görmüşəm) uşaqlar gəlib oxuyurmuşlar.

Atamın danışdığına görə kəndin cənubunda Babək qalasının altındakı təzə körpüdən (o bu körpünü "təzə" adlandırırdı) aşağıda "novdaşı" deyilən yerdən 50 metr cənubda (sütunları qalırdı) körpü var imiş. Adı da Dəvəbatan. Onu bizim ulu babamız Şeyx Nəcəfqulu öz sərmayəsi ilə tikdiribmiş. Çünki onların əsas örüş yerləri çayın o tayında imiş. Lakin sonralar zəlzələdən uçulan o körpünü daşan çay dağıdıb aparıb. Təzə deyilən o möhtəşəm körpü yenə də Urud kişilərinin hesabına tikilib.

Atamın danışdığına görə, Andronikin Zəngəzura hücumu zamanı (Bazarçay tərəfdə olanda) öz nümayəndəsini Qarabulağa göndərir ki, bəs mənə müqavimət göstərməsinlər. Heç kimə toxunmayacağam. Lakin onun bu hiyləsi baş tutmayıb. Bütün kəndlərin ağsaqqalları yığılıb tədbir töküblər ki, hər bir kənd öz müdafiəsini təşkil etməlidir və eyni zamanda dağların başında tonqallar yandırmaqla Minkənd, Laçına və Qubadlıya xəbər verilsin.

Armudlu dərəsinin başında olan müdafiə dəstəsi kəndə xəbər verib ki, Qızılcıq kəndi yandırıldı. Bundan sonra kənddən qadın və uşaqları Əlimərdan kişi, Behbud əmi, Əsəd Abdullayevin başçılığı ilə Meydanlar tərəfdən Qarabulaq, Bitlibulaq istiqamətində tez bir zamanda Minkəndə qaldırmalı olublar, çünki Gorus yolu çox təhlükəli idi.

"20 nəfər atlı qalxır Baydar başına və Qıraq Kalafalıq istiqamətində müdafiə zonası yaradırlar (hər ehtimala qarşı). Bir gün keçəndən sonra səhər sübhündə Bəlimlik tərəfdən 10-12 atlının gəldiyini görüblər. Demə Soltan bəy xəbər göndəribmiş ki, atışmaya girişməsinlər. "Lakin onları kəndə buraxmaq da olmazdı. Orucqulu əmim əmr verdi ki, onlar yaxınlaşan kimi atəş açın. Belə də oldu. Qırağıl enişinə çatanda qayalardan çıxıb çığırışdıq, silahımız az idi. Cəmi 10 tüfəngimiz var idi. Daş yağdırmaqla atəş də açıldı. Onlar bu halda atları geri sürdülər. Ermənilər artıq uzaqlaşmışdılar ki, Yantəpə istiqamətndə böyük qoşunun hərəkət etdiyini gördük. Lakin geri qayıdıb ölənəri dəfn etdikdən sonra ailəmizin dalınca getdik. Məlum oldu ki, kənddə heç kim qalmayıb. Hamı Qubadlının Mahmudlu kəndinə yığılıb. Mən isə atamgilə Minkəndinə çatdım və böyük köçü Xanlığa qədər gətirdik və orada ayrı - ayrı kəndlərə dağılışdıq".





Andronikin Zəngəzura basqını barədə atam danışırdı ki, Bazarçayın sol sahili ilə Sarıgüney tərəfdən Armudlu dağı yüksəkliyində təşkil olunan müdafiə hissələri Vağədinin yandırılmasını Urud ağsaqqallarına xəbər veriblər. Gecə ikən kəndin camaatı çıxarılıb. Babam Mahmud, nənəm Nazlı, əmim, bibilərim Cahan, Fatimə... Bu siyahını davam etdirmək olar. Həmin köçə rəhmətlik Əsəd Abdullayev başçılıq edib. Hələ belə bir təklif də olub ki, Quduzun dərəsi deyilən yerlə çayın axın istiqamətində getsinlər. Salman və Əlimərdan kişi etiraz ediblər ki, bu yol çox sıldırım qayalardan keçir və qabaqda Gorus erməniləri var. Onlar sonra Darabasdan keçməklə Şam camaatı ilə birgə Qarabulaq - Bitlibulaq istiqamətində Minkəndə, oradan Qubadlı və Laçına keçməli imişlər. Belə də olub. Bizim kəndin camaatı əsasən bu iki rayona yayılıb. Həmin yerlərdə də vəba xəstəliyi yayıldığından çoxlu təlafat olub.

O zaman bütün elimiz zülm çəkdi. Zəngəzurda sovet hökuməti qalib gələndən sonra atasını, anasını, bir çox qohumlarını itirən atam minbir sarsıntı və əzabla qardaş və bacıları ilə birgə Uruda dönür, kəndin cavanları ilə birgə komsomol sıralarına daxil olur. Üç aydan sonra bolşeviklərin firqəsinin üzvü seçilərək İrəvan şəhərinə göndərilib. Orada Fəhlə Gənclər məktəbi var imiş. Altı ay orada oxuyub. Oradan göndərilib Sisian rayonunun enkevedesinə. Bir il sonra isə Vağədi kənd sovetinə sədr təyin olunub. Həmin Sovetliyin Partiya Təşkilatı sədri işləyib. O vaxt kollektivləşmənin ən çətin vaxtları imiş. Hər yerə onu göndərirmişlər. Dediyinə görə, Quranı həmişə cibində gizlədərmiş.

Mən tələbə olanda atam Bakıya gəlmişdi. Qardaşım Mahirgildə televizorda "Axırıncı aşırım" kinosuna baxırdıq. Birdən qayıtdı ki, bu kino elə bil biz tərəflərdə çəkilib. "Abbasqulu bəyi tanıdım", - dedi. Mən İrəvanda olanda bu adamla tanış olmuşam. Çox cəsur və millətini sevən bir adam idi. Bizi yataqxanada başına yığardı. Çox dəyərli məsləhətlər verərdi". Abbasqulu bəylə atamın dostluğu olub, hətta məktublaşıblar da. Atamın arxivi var idi. Bir qırmızı sandıqçada o sənədləri saxlayırdı. Mən kəndə qayıdanda maraqlandım. O, sandıqçanı gətirdi. Oradan Abbasqulu bəyin ərəb əlifbası ilə atama yazdığı məktubunu gördüm.

Atam II Dünya savaşında da iştirak edib. Döyüş yolu Mozdokdan başlayıb. Akim Abbasovla orada tanış olub. Bir yerdə onun başçılığı altında vuruşub, lakin sağ qolundan, ayağından, sinəsindən yaralanmış

atam hospitala düşüb. Müalicədən sonra yenə də cəbhəyə qayıdıb. Krım uğrunda döyüşlərdə atam başından yaralanaraq yenidən hospitala düşür. Müalicəsi tamam olmadan yenidən cəbhəyə qayıdıb. General Pokosovskinin komandanlığı altında Berlinə ilk girənlərdən biri olub. "Berlin uğrunda döyüşlərdə fərqlənməyə görə" medalı ilə təltif olunub. Müharibənin tam sonunda vətənə qayıdıb.

Müharibə öz işini görmüşdü. Tez - tez xəstələnirdi. Baş nahiyyəsində, sinəsində hələ də müharibənin qəlpəsini gəzdirən atam dəfələrlə həkimlərə müraciət etsə də, bir nəticəsi olmadı. Dedilər, o qəlpələr elə yerlərdədir ki, oradan cərrahi yolla çıxarılsa daha ciddi fəsadlar verə bilər. Atam bəzən saatlarla huşunu itirirdi. Bununla belə o qurub - yaratmaqdan qalmadı. Kənddə yeni bağlar salınmasına başçılıq etdi. Bazarçayı boyu Qazı bağı deyilən sahəni kol - kosdan təmizlətdirərək rayonda ilk dəfə olaraq yeni sort meyvə bağları saldırıb. Səhhətinin ağır olmağına baxmayaraq yenidən məsul vəzifələrə, ictimai işlərə cəlb olunurdu.

Beləliklə, Zəngəzurda sovet hökuməti qurulana qədər camaatın qırılanı qırılıb, sağ qalanı da minbir əziyyətlə vətənə dönmək həsrəti ilə yaşayıb. Atasını itirən atamız hələ gənc yaşlarından necə sarsıntılar keçirdiyini, böyük bir ailəni necə çətinliklə qoruyub saxladığından danışanda ağlı kəsən insanın tükləri biz - biz olardı.

Zahirin yazılı söhbəti burada tamamlansa da, hər övladın qəlbində minbir xatirə var. Məsələ ondadır ki, ötən əsrin əvvəlində başımıza gələnlər əsrin sonunda yenidən təkrarlandı. Nəticədə isə nəinki öldük, həlak olduq, həm də yurdumuzu, eləcə də axirət dünyamızı itirdik.

## NƏSLİN FƏXRİ - MİLLƏTİN ŞÖHRƏTİ

Orta məktəbin aşağı siniflərində oxuyurdum. Bir gün ədəbiyyat müəllimimiz sinfə daxil olaraq qəhərli səslə dedi: " Xalqımıza ağır itki üz verib, görkəmli tarixçi-alim Məmməd İsgəndərov vəfat edib". Mən ilk dəfə müəllimi hönkürtü ilə ağlayan görürdüm. Bütün məktəb sarsıntı içində idi. Elə bil dünyanın kədərini kəndimizin üstünə ələmişdilər. Yadımdadır, qohum-əqraba tələsik yığışıb Bakıya yola düşdü.





## KİM İDİ MƏMMƏD İSGƏNDƏROV?



Bu sualın cavabını açıqlamazdan öncə deyim ki, Nəcəfli tayfası, sözün həqiqi mənasında, xalqımıza ləyaqətli övladlar bəxş edib. Azərbaycanın tarixində, ədəbiyyatında, mədəniyyətində, elmində görkəmli mövqe tutan insanları ilə həmişə fəxr edə bilib. Damarlarında bu tayfanın qanı axan ümummilli liderimiz Heydər Əliyev, təbiətimizin pasibanı, akademik Həsən Əliyev, xalq rəssamı Hüseyn Əliyev, xalq şairi Məmməd Araz, görkəmli dövlət xadimi Məmməd Xəlilov, tanınmış jurnalist Xudu İsgəndərov, akademik Qafar Həsənov və uzun nöqtələrdən sonra Məmməd İsgəndərov (bu nəslə mənsubluğumla həmişə fəxr etmişəm - F.X.).

Məmməd Salman oğlu İsgəndərov 1908-ci ildə Urud kəndində anadan olmuşdur. Atası Salman, anası Ballı arvad kəndin ən hörmətli sakinlərindən olub. Ötən əsrdə ermənilərin törətdikləri qan - qada bu ailənin də qapısını tanıyıb. Məmməd 10 yaşında ikən doğma yurddan perik düşüblər. Bir müddət Zəngilan qəzasında sığınacaq tapan didərginlər ağır güzəran keçiriblər. Məmməd atasına kömək etmək məqsədi ilə Məmmədbəyli kəndində bəy qapısında muzdurluq edib. Sovet hakimiyyəti qurulduqdan sonra doğma kəndə qayıdan İsgəndərovlar ailəsi təzədən gün - güzəran qurmağa başlayıb. 1924-cü ildə kənddə yenicə təşkil edilmiş 4 sinifli ibtidai məktəbin ilk şagirdlərindən biri də Məmməd İsgəndərov olub. Ömrünü elmə, təhsilə bağlayan gəncin həyat yolu müxtəlif şəhərlərdən, məktəblərdən keçib. O vaxt Kommunist Partiyasına böyük inam var idi. İnsanlar bu partiyanın gələcəyinə qeyri - adi ümidlər bəsləyirdilər. Bəlkə də elə buna görədir ki, hər iki Məmməd (İsgəndərov və Xəlilov) şüurlu surətdə özlərini bu partiyanın əsgəri hesab edərək əsl fədakarlıq göstərdilər.

Məmməd İsgəndərovun sadəcə olaraq bioqrafiyasına qısaca nəzər salmaq kifayətdir ki, onun necə qabiliyyətli, bacarıqlı insan

olduğundan xəbər tutasan. 1932-1933-cü illərdə Tiflis şəhərində Zaqafqaziya Kommunist Universitetində təhsil alıb. 1933-1936-cı illərdə Ümumittifaq Kommunist Bolşeviklər Partiyasının Zaqafqaziya ölkə Komitəsinin Aparatında işləmiş, eyni zamanda Zaqafqaziya Kommunist Ali Kənd Təsərrüfatı məktəbində dərs demişdir. 1937-ci ildə Ermənistan Kommunist Bolşeviklər Partiyasının Mərkəzi Komitəsində təlimatçı vəzifəsçinə təyin olunan Məmməd İsgəndərov eyni zamanda İrəvanda nəşr edilən "Qızıl Şəfəq" qəzetində redaktor müavini işləmişdir. Az sonra Vedi Rayon Partiya Komitəsinin I katibi vəzifəsində çalışan Məmməd İsgəndərov 1938-1941-ci illərdə İrəvan Şəhər Partiya Komitəsinin I katibi vəzifəsini aparıb. 1941-1947-ci ilə kimi Ermənistan KP MK - nin katibi olmuşdur.

1947-1950-ci illərdə Moskvada Ümumittifaq Kommunist Partiyası Mərkəzi komitəsi yanında İctimai Elmlər Akademiyasında təhsil alan Məmməd İsgəndərov mərkəzdən əvvəlki iş yerinə deyil, Azərbaycana göndərilib. Bir faktı da qeyd edək ki, Məmməd İsgəndərov Ermənistanda heç bir türkə nəsib olmayan bir ucalığa qalxa bilmişdir. Çox güman ki, buna görə də mikoyanların əli ilə onu öz vəzifəsindən düşünülmüş bir siyasətlə uzaqlaşdırıb Bakıya göndərdilər. Çünki Məmməd İsgəndərov Ermənistanda İrəvanda yaşayan azərbaycanlılara daha çox lazım idi. Yuxarı səviyyədə hər bir azərbaycanlının sözünü deyən, ona arxa duran nüfuzlu və sözükeçən adam idi. 1950-ci ildən başlayaraq ömrünün sonuna qədər Məmməd İsgəndərovun həyatı və yaradıcılığı Bakı ilə bağlı olmuşdur. Ömrünün bu mərhələsi də səmərəli keçmişdir. O, Sov.İKP Marksizm - Leninizm İnstitutunun əvvəl direktor müavini, sonra direktoru olmuşdur. 1952-1956-cı illərdə Azərbaycan KP MK - nın təbliğat - təşviqat şöbəsinin müdiri işləyən Məmməd İsgəndərov 1956-cı ildən ömrünün sonuna kimi Marksizm - Leninizm İnstitutunun direktoru vəzifəsində çalışmışdır. Uzun illər müxtəlif rəsmi vəzifələrdə çalışan Məmməd Salman oğlunun əslində həyatının üçüncü mərhələsi daha mənalı keçmişdir. Bu dəfə o özünü elmi fəaliyyətə həsr edərək 50-ə qədər məqalənin, 2 monoqrafiyanın müəllifi olmuşdur. Tarix elmləri doktoru Məmməd İsgəndərov bir alim kimi də geniş şöhrət qazanmışdır. Təbii ki, dövrün, quruluşun diktəsi onun da yaradıcılığından yan keçməmişdir. Əlbəttə, bu, Məmməd İsgəndərovun günahı deyildi. Zamanın tələbi özgə idi. O dövrdə hər kəs bu tələbə





əməl etməyə məcbur idi. Ürəyindən qara qanlar axsa da, Azərbaycan xalqının düşməni S.M.Kirov haqqında kitab yazan Məmməd İsgəndərov bu şovinistin əməllərinə bələd olmamış deyildir. Amma o zaman bu həqiqətləri dilə gətirmək mümkün idimi? Bəlkə də bu acı həqiqətləri hamıdan çox Məmməd İsgəndərov bilirdi və bu ağrıları da ürəyində çəkdiyinə görə az yaşadı, cəmi 57 il. 1965-ci ildə qəflətən ürəyi dayandı. Urud kəndində dünyaya gələn Məmməd İsgəndərovun son mənzili Fəxri xiyaban oldu.

2003-cü ildə Fəxri xiyabanda torpağa daha bir şərəfli insan, ümumilli liderimiz Heydər Əliyevin müqəddəs cismi tapşırıldı.

Demək olar ki, hər iki şəxsiyyətin arasındakı məsafə o qədər də uzaq deyil. Hərdən qəribə və xiffətli duyğular qəlbimizi isidir. Görəsən təsadüfdür, yoxsa qanunauyğunluq? Bir kişinin nəvə -nəticələri eyni torpaqda qovuşublar. Bu yolun bir yolçusu da Məmməd Araz oldu.

## JURNALİST XUDU İSGƏNDƏROV



İşığına qanadlandığım insanlardan biri də Xudu Salman oğlu İsgəndərov olub. Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində oxuyan ilk urudlu məhz o idi. Urudda, ümumiyyətlə texniki sahələrə meyil daha çox olardı, nəinki humanitar ixtisaslara.

Xudu İsgəndərov ömrünün sonuna kimi yalnız bir qəzetdə - "Kommunist"də işləyib. Səmimi təbiəti, dadlı - duzlu yazıları ilə seçilən Xudu İsgəndərov qəzetdə felyetonlar şöbəsinin müdiri idi. Oxucular onun yazılarını sevə - sevə oxuyurdular. Mətbuat tariximizin ən görkəmli nümayəndələrindən biridir. "Kommunist"in 15-20 il əvvəlki saylarını vərəqləyən olsa, mütləq Xudu müəllimin bir - birindən maraqlı, oxunaqlı məqalələrini, məzəli felyetonlarını, kəskin tənqidi çıxışlarını oxuyacaq. Qəribə yazı üsuluna malik idi. İlk sözdən oxucunu cəlb etməyi, qələmə aldığı mətləbi sonacan

oxutmağı bacarırdı. Biz nəsil jurnalistlərin boynunda min haqqı var Xudu müəllimin. Söhbət hansısa bir auditoriyada mühazirə oxumaqdan, seminar keçməkdən getmir. Xudu İsgəndərov kimi ustadlar bizlərin mənəvi müəllimi idi.

Yadımdadır, jurnalistika fakültəsinə qəbul olunanda məni ilk təbrik edənlərdən biri Xudu İsgəndərov idi. Təbəssümlə, özünəməxsus zarafatla demişdir: "Deyəsən, əminin ( özünü nəzərdə tuturdu - F.X.) yolunu seçibsən, amma sən bizdən də irəli getməlisən. Bizim dövrümüz tamam başqa idi". Onu da xatırlayıram ki, tələbəlik illərində mənim "Azərbaycan müəllimi" qəzetində tənqidi bir məqaləm dərc edilmişdi. Məni dərhal yanına çağırdı. Həyəcanlı görünürdü: "Bala, sən heç bilirsən kimin bostanına daş atırsan?... Onlar bu xalqın xərçəng xəstəliyidir. Heç "mənəm - mənəm" deyən kişilər onlarla bacarmırlar. Özünü işə salarsan, ehtiyatlı ol..." O vaxt Xudu əminin bu xəbərdarlığı mənə qəribə gəlmişdi. Ürəyimdə ondan incimişdim ki, kişiyə bax. Əyriliyə necə göz yummaq olar? Amma sonralar həyat göstərdi, təcrübə təsdiq etdi ki, Xudu əmi necə haqlı imiş. "Təndir çox isti olanda, xəmir küt gedər".

1988-ci ildə namərd qonşuların başladığı torpaq iddiası, Qərbi Azərbaycanda baş verən repressiyalar, deportasiya onsuz da sağlam canı olmayan Xudu İsgəndərovun səhhətini daha da pisləşdirdi. Bu işıqlı insanın həyatı, demək olar ki, bir neçə il ağır xəstəliklə çarpışmaqla keçdi. Günlərin birində - 1994-cü ildə isə taqəti tamam tükəndi. Fani dünyaya "əlvida" deyərək gözlərini yumdu. Deyim ki, Urudu artıq itirmişdik, anam dünyasını dəyişmişdi, neçə əzizimiz - Vətən oğlumuz şəhid olmuşdu. Amma Xudu müəllimin ölümü bunlardan da ağır gəldi mənə. Xudu İsgəndərov tanıdığım urudluların ən mehribanı, xeyirxahı, təəssübkeşi, böyük ürək sahibi idi. Elə bir təbiəti, xasiyyəti var idi ki, dərdini ona deyə bilirdin. Üstünə qaçacağımız bu işıqlı insanı məhz dərdli günlərimizdə itirdik. Yaxşı ki, yerində mərd övladları qalıb: Salman və Fəxrəddin. Onlar öz ləyaqətləri ilə atalarının əməllərini yaşadırlar.

Mənə ağır gələn bir məsələ də o idi ki, yadlar tapdağı altında qalmış Zəngəzurun Urud kəndində dünyaya gələn Xudu İsgəndərov Abşeronun Goradil kəndində torpağa tapşırıldı. O günlər ürəyimdən kədərli misralar keçdi:





**Öz ürəyin öz qarşına çıxmadı,**
**Gözlərimiz dolan oldu, ay əmi!**
**Nur fikirlər bir zülməti yıxmadı,**
**Gül ömürlər solan oldu, ay əmi!**

**Sözlə mülklər tikərdin sən, görürdük,**
**Nə becərdin, nə dərdin sən, görürdük.**
**El dərdini çəkirdin sən, görürdük,**
**Öz yurdumuz talan oldu, ay əmi!**

**Ötən günlər harda qaldı, deyimmi?**
**Ruhlarımız darda qaldı, deyimmi?**
**Doğma yerlər sarda qaldı, deyimm?,**
**Nəslimizə olan oldu, ay əmi!**

**Ocaq harda, külüm orda, yazardın,**
**Bağça harda, gülüm orda, yazardın,**
**Olum harda, ölüm orda, yazardın,**
**Dediklərin yalan oldu, ay əmi!**

## ƏBDÜLMƏNAF HACIYEV



Zəngəzurun, Naxçıvanın görkəmli dövlət xadimlərindən biri olmuş Əbdülmənaf Hacıyevin xatirələrdə çox işıqlı bir obrazı var. Yadımdadır, biz uşaq olanda o, Naxçıvan şəhərində yaşayırdı. Hərdən kəndimizə gələrdi. El - oba başına yığışar, maraqlı söhbətlər edərdilər. Amma heç vədə ağlımıza gətirməzdik ki, Əbdülmənaf Hacıyev kəndimizin ilk ziyalılarından biridir. Çox sonralar Urudu itirdikdən sonra apardığımız araşdırmalar nəticəsində haqq dünyasına qovuşmuş bu görkəmli şəxsiyyətin bioqrafiyasına nəzər salanda heyrətlənməyə bilmədik.

1896-cı ildə Urudda anadan olmuş, orta təhsilini Gorus rayonunun Oğlanlar Seminariyasında aldıqdan sonra Moskva Hüquq Elmlər Akademiyasına daxil olmuş, 1932-ci ildə həmin təhsil ocağını hüquqşünas ixtisası ilə bitirmişdir. Əmək fəaliyyətinə hələ çox erkən başlamış Əbdülmənaf Hacıyev müxtəlif illərdə ayrı - ayrı rayonlarda müəllim işləmişdir. II Dünya müharibəsindən çox qabaq Ağdam rayonunda maarif şöbəsinin müdiri, Qubadlıda müəllim kimi fəaliyyət göstərmişdir. 1933-1936-cı illərdə isə Naxçıvan Şəhər Maarif Şöbəsinin müdiri, Vilayət Partiya Komitəsinin Təbliğat - təşviqat şöbəsi üzrə katib, 1936-1938-ci illərdə Həmkarlar İttifaqının sədri və nəhayət, 1938-1948-ci illər arasında Naxçıvanda ədliyyə naziri vəzifəsində çalışmışdır. O, bu illər ərzində bir neçə dəfə Naxçıvan Muxtar Respublikasının deputatı da olmuşdur. Müxtəlif fəxri fərmanlara, "Əməkdar müəllim" fəxri adına layiq görülmüş Əbdülmənaf Hacıyevin xidməti olduqca çoxdur. Təəssüf ki, işlədiyi müddətdə o, müəyyən haqsızlığa da düçar olmuşdur. II Dünya müharibəsi zamanı səngərlərdə vuruşan oğlu Qasım Hacıyev ağır döyüşlərin birində faşistlərə əsir düşür. Uzun illər "konslagerlər"də min bir əziyyətə, əzaba düçar olmuş Qasım Hacıyev o ağır işgəncələrdən qurtulsa da, bu hadisələrin zərbəsi atasının taleyindən yan keçmədi. Həyatın amansızlığı öz hökmünü verdi. Oğlunun faşistlərə əsir düşdüyünə görə Əbdülmənaf Hacıyevi tutduğu vəzifədən azad etdilər. Bu haqsızlıq qarşısında Əbdülmənaf kişi sarsılsa da, əyilmədi. Öz sevimli peşəsini - müəllimliyini davam etdirdi. Ötən əsrin 80-ci illərinin sonuna kimi Naxçıvan şəhərindəki 7 saylı orta məktəbdə fars dili müəllimi işlədi. Ömrünün son dörd ilini isə doğma kəndi Urudda keçirdi.

El ağsaqqalı Əbdülmənaf Hacıyev son dərəcə ensiklopedik biliyə malik, islam dinini mükəmməl bilən, böyük həyat təcrübəsi olan, el - obanın dərd - sərinə yarayan, hamı tərəfindən sevilən bir insan idi. Ən önəmlisi də odur ki, bu kişinin ailəsində Azərbaycan elmi üçün çox ləyaqətli övladlar yetişmişdir. Böyük oğlu





## SABİR HACIYEV



AMEA - nın müxbir üzvüdür. O, 1956-cı ildə Bakı Dövlət Universitetini bitirdikdən sonra elə həmin təhsil ocağında müəllimlik fəaliyyətinə başlamışdır. Sabir müəllim fizikanın ən mürəkkəb sahəsi olan elementar zərrəciklərlə məşğul olub. O, 1960-cı ildə namizədlik, 1974-cü ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. Ömrünün 20 ilini kafedra müdiri kimi məsuliyyətli bir vəzifədə keçirən Sabir Hacıyev 10 il fakültə dekanı olmuşdur. 120-dən çox elmi məqalənin və 3 dərsliyin müəllifidir. 1983-cü ildən AMEA-nın müxbir üzvü seçilən Sabir müəllim 17 elmlər namizədi və neçə - neçə elmlər doktoru hazırlamışdır.

Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Şöhrət" ordeni ilə təltif olunmuş Sabir Hacıyev 2001-ci ildə Amerika Bioqrafiya İnstitutunun tərtib etdiyi "Dünyanın görkəmli elm xadimləri" siyahısına daxil edilmiş, həmin institut tərəfindən qızıl medala layiq görülmüş və bu sahə üzrə "İlin adamı" adını almışdır.

## NƏVƏLƏR

Əbdülmənaf kişinin nəvəsi, Qasım müəllimin oğlu Vaqif Hacıyev isə babadan gələn ənənəni davam etdirərək Bakı Dövlət Universitetini bitirdikdən sonra həyatını elmi tədqiqata həsr etmişdir. O, 1989-cu ildə texnoloji prosseslərin avtomatlaşdırılması ixtisası üzrə elmi işini müdafiə edərək texnika elmləri namizədi adını almışdır. Bu illər ərzində müxtəlif elmi - tədqiqat institutlarında, ali məktəblərdə, zavodlarda çalışan Vaqif Hacıyev 2002-ci ildən "Sumqayıt Elektrik Şəbəkə" Açıq Tipli Səhmdar Cəmiyyətində əvvəlcə mühəndis, sonra isə Regional İdarənin Mərkəzi Enerji Satış və İstismar idarəsinin kompüter mərkəzində aparıcı mühəndis vəzifəsində çalışır.



vəzifəsində çalışır.

Kiçik qardaş Rauf Qasım oğlu Hacıyev əvvəlcə Bakı Maliyyə Kredit Texnikumunu, sonra isə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirib. 1975-1979-cu illərdə Naxçıvanda Dövlət Sığorta İdarəsində, Maliyyə Nazirliyində, Nazirlər Sovetində, Dövlət Plan Komitəsində müxtəlif vəzifələrdə çalışmışdır. İşlədiyi müddətdə dəfələrlə müxtəlif mükafatlara layiq görülmüşdür. 1989-cu ildən isə Bakı şəhərinə köçmüş, əvvəlcə Maliyyə Nazirliyinin Baş Büdcə İdarəsində baş iqtisadçı, Sosial Sahələrin Maliyyələşdirilməsi İdarəsində rəis müavini, Kadr və kadr hazırlığı şöbəsinin rəisi, İşlər İdarəsinin müdiri vəzifəsində çalışmış, 1995-ci ilin sentyabr ayından Bakı Şəhər Nizami Rayon Maliyyə İdarəsinin rəisidir.





# EYNULLA HACIYEV



Əbdülmənaf kişinin kiçik qardaşı Eynulla Hacıyev ötən əsrdə fəaliyyət göstərmiş məhşur hüquqşünas olub. O, bir müddət Azərbaycanın müxtəlif rayonlarının hüquq - mühafizə orqanlarında çalışıb. İşlədiyi müddətdə obyektivliyi, prinsipiallığı və ədalətliliyi ilə seçilən Eynulla Hacıyev müxtəlif mükafatlara layiq görülüb. O, sonralar Bakı şəhərində Baş prokuror müavini vəzifəsində işləyib.

Urudlular, sözün həqiqi mənasında, Eynulla Hacıyevlə fəxr edir, onun bütün işlərindən qürur duyurdular. Haqq dünyasına qovuşmuş Eynulla müəllimin oğlu Rahib Hacıyev atasına layiq bir övlad kimi öz sahəsinin mütəxəssisidir. Peşəkar həkimdir. Bununla bərabər, elmi fəaliyyətini də davam etdirir. Hazırda Rahib Hacıyev tibb elmləri namizədidir.

# XATİRƏLƏRİN İŞIĞINDA

## *Yaxud da, mənim xalam oğlanları*

Telli xalamı həddən artıq çox istəyirdim. Xüsusilə də onun məzəli söhbətlərinin, lətifələrinin vurğunu idim. İmkan tapan kimi onlara qaçar, xalamın şirin-şəkər söyləmələrinə, atmacalarına qulaq asar, qəşş edincə gülərdim. Xalamı bir də ona görə çox istəyirdim ki, böyük oğlanları Bakıda yaşadığından tez-tez o, şəhərə gedər, hamımıza hədiyyələr gətirərdi. Yayda isə sevincimizin həddi-hüdudu olmazdı. Bütün ili Bakıda yaşayan xala uşaqları istilər düşən kimi mütləq Uruda dönərdilər. Yayda Urudun gəlhagəli başlayardı. Qışın solğunluğundan əsər-əlamət qalmazdı. Urud, sözün əsl mənasında, büsatlı günlər keçirərdi. Xalam qəhrəman ana idi. On övlad tərbiyə edib böyütmüşdü. Maraqlıdır ki, uşaqlarının səkkizi ali təhsil almışdı. Telli xalama həm də "alimlər anası" deyərdilər. Çünki onun böyük oğlanları elmin

zirvələrini fəth etmiş, öz tədqiqatları, yaradıcılıqları ilə şöhrət qazanmışdılar.

## SABİR TAHİROV



Xalamın böyük oğlu Sabir qağa (mən ona həmişə belə deyərdim) o qədər sadə və mehriban xasiyyətə malik idi ki, sonralar mən onu yaxından tanıyanda dəhşətə gəldim. Çünki Sabir Tahirov öz elmi fəaliyyəti ilə bir dahi ömrünü yaşayırmış. Təəssüf ki, çoxumuzun onun bu orijinal, özünəməxsus elmi yeniliklərindən xəbərimiz olmadı. Sabir Tahirov mənim üçün böyük qardaş idi. O, kəndə gələndə ən çox ona fərəhlənirdik ki, həmişə çiynində fotoaparat və kamera olardı. Kəndin bütün mənzərələrini, insanlarını lentin yaddaşına köçürərdi. Urudu itirdikdən sonra məhz Sabir Tahirovun çəkdiyi şəkillər bizə son nişanə kimi qaldı.

Təəssüf ki, Sabir Tahirov yaşadığı müddətdə öz qiymətini almayan alimlərdən biri oldu. O, 1928-ci ildə Urudda anadan olmuşdu. Uzun müddət ailə vəziyyətinin ağır sosial durumu ilə əlaqədar kənddə muzdurluq etmişdi. Lakin oxumaq həvəsi qəlbini tərk etmədiyindən yenidən orta məktəbə getmiş, sonralar isə Ağdamdakı ikillik Müəllimlər İnstitutunu və Azərbaycan Dövlət Universitetini bitirmişdir. İlk əmək fəaliyyətinə Laçının Cicimli kəndində müəllim kimi başlayan Sabir Tahirov bir müddət müxtəlif orta məktəblərdə çalışsa da, 1962-ci ildən ömrünün sonuna kimi Bakıda yaşamışdır. Ömrünü elmi axtarışlara, kəşflərə, tapıntılara həsr edən Sabir Tahirov 1967-ci ildə yarımkeçiricilər fizikası üzrə namizədlik dissertasiyasını müdafiə etmişdi. Nüvə fizikası, radiasion tədqiqatlar, astrofizika və s. sahələrdə tədqiqatlar aparan Sabir Tahirov bəlkə də onlarla doktorluq işi görən insanların elmi araşdırmalarını tək öz canı və təfəkkürü ilə bacarmışdı. Yerin cazibə qüvvəsi, ulduzların əmələ gəlməsi, kainatın yaranması ilə bağlı onun gəldiyi elmi nəticələr çox vaxt məlum elmi baxışlarla üst-





üstə düşmədiyindən onun nəzəriyyələri inkarla, müqavimətlə üzləşirdi. Bəzi hallarda da Sabir müəllimə heç bir elmi əsas, dəlil gətirmədən onun müxtəlif elmi araşdırmalar aparmasına rəsmi surətdə qadağalar qoyulurdu. Həmkarları etiraf edirdilər ki, Sabir Tahirovun təlimlərini yaxına qoymayanlar öz fikirlərini heç cür əsaslı dəlillərlə sübuta yetirə bilmirdilər. Yerin cazibə qüvvəsi, ulduzların və Günəş sisteminin yaranması ilə bağlı üç orijinal monoqrafiyanın müəllifi olan Sabir Tahirovun gəldiyi elmi nəticələr yəqin ki, gələcəkdə geniş təhlil olunacaq, bu alimin kəşfləri, elmi araşdırmaları, nəhayət ki, öz təsdiqini tapacaq. Sabir Tahirov hər bir azərbaycanlı üçün həm də ona görə əziz və unudulmazdır ki, onun yeganə oğlu Vaqif Tahirov Qarabağ döyüşlərində iştirak etmiş, məşum Daşaltı əməliyyatı zamanı qəhrəmancasına həlak olmuşdur.

Sabir Tahirov bu vəfasız dünyanı şəhid atası və elmlər namizədi kimi tərk etsə də, əslində, elmi fəaliyyəti ilə akademiklər akademiki idi. Özünün xarakteri, daha açıq desək, fağırlığı, haqqını tələb etməməsi və bir də ətrafın laqeydliyi, ya bəlkə də paxıllığı onu öz halal qismətindən, hansısa bir şöhrətdən məhrum etdi. Min təəssüf!.. Onu yaxından tanıyanların yaddaşında, əsl fiziklərin düşüncələrində Sabir Tahirov elə dahi kimi qaldı.

## VLADİMİR TAHİROV



Biz ona həmişə "Volodya müəllim" deyərdik. Elə indi də belədir. Həmişə zarafatla söyləyirlər ki, Volodya müəllim birinci sinfə gedəndən indiyə kimi ancaq oxumaqla, elmi işlərlə məşğuldur. Orta məktəbi bitirən kimi Ağdamda ikiillik Müəllimlər İnstitutuna, orada təhsilini başa çatdırdıqdan sonra Azərbaycan Dövlət Universitetinə daxil olub. Demək olar ki, onun da həyat yolu Sabir müəllimlə eyniləşib. 1958-ci ildə Azərbaycan Elmlər Akademiyasının Fizika İnstitutunun aspiranturasına daxil olub. 1962-ci ildə namizədlik, 1972-ci

ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1974-cü ildən Bakı Dövlət Universitetinin professorudur. Milli Elmlər Akademiyasının müxbir üzvü seçilən Volodya Tahirov 300-ə yaxın elmi məqalənin, neçə-neçə kitabın müəllifidir. O həm də 50-dən çox namizədlik və doktorluq dissertasiyasına opponentlik etmiş, onun rəhbərliyi ilə 30-dan çox namizədlik, onlarla doktorluq dissertasiyası müdafiə edilmişdir.

Əlbəttə, Volodya müəllimin elmi axtarışları və yenilikləri barədə mütəxəssislər dəqiq fikir söyləyə bilərlər. Mənim üçün Volodya müəllim birinci növbədə sevimli xalaoğludur, əqrabadır. Mən onunla həmişə fəxr etmişəm. Çünki sözün əsl mənasında, Volodya Tahirov böyük ziyalıdır. Onun içində daim bir günəş yanır və bu günəşin işığı həmişə çöhrəsində əks olunur. Həyatda belə işıqlı insanların mövcudluğu çox fərəhlidir. Çünki onunla söhbət etdikcə bütün varlığına xoş emosiyalar axmaqdadır. Klassik ədəbiyyatı və poeziyanı çox sevən Volodya müəllim saatlarla Füzulidən, Məmməd Arazdan nümunələr söyləyər. Çox sonralar bildim ki, Volodya müəllimin özü də zərif, incə duyumlu şeirlər yazırmış. Xüsusilə də, Urudun işğalından sonra onun qələmə aldığı yazıları oxuduqda diqqətimi çəkən şeirlərin ona məxsusluğu qəlbimi riqqətə gətirdi. Volodya müəllim Urudla bağlı öz xatirələrini neçə müddətdir ki, yazmaqdadır. Yəqin ki, tezliklə bu xatirələr kitab şəklində oxuculara çatdırılacaq.

Volodya müəllim haqqında yazanlar onun çox böyük alim olduğunu qeyd edirlər. Şəksiz ki, bu belədir. Amma bu alimin səmərəli fəaliyyət göstərməsində bir amili mütləq qeyd etmək lazımdır. Bu da onun ömür-gün dostu Məhluqə xanımla bağlıdır. Məhluqə xanım Volodya müəllimə təkcə həyat yoldaşı deyil, ana-bacı qayğısı göstərib və bu fədakarlıq indi də davam etməkdədir. Bəlkə də Volodya müəllimin elmi yaradıcılıqda qazandığı ən böyük uğurların kökü ailədə sahib olduğu səadətlə bağlıdır.

Volodya müəllimin çox səmimi və mehriban ailəsi var. İki oğlu - Elxan və Kamal alimdilər. Onlar da öz sahələrinin aparıcı mütəxəssisləri sayılırlar. Ülvi də Bakı Dövlət Universitetini bitirib. Bu ocaqda nəvələr böyüyür. Bu o deəmkdir ki, həm ömür, həm də ənənələr davam edir.





# AİLƏNİN DİGƏR ÖVLADLARI



Telman Tahirov iqtisadçıdır. Uzun müddət Bakı Kooperativ Texnikumunda müəllim işləyib. Hazırda təqaüddədir. Pənah Bakı Dövlət Universitetini, Murad Politexnik İnstitutunu bitirib. Maşallah həkimdir. Xalamın sevimli oğlanlarından olan Fariz (ona Paris deyirdik) adlı-sanlı neftçi ikən 30 yaşında qəfil qəzadan vəfat edib. Ondan bizə qızı Xatirə yadigar qalıb. Xalamqızı Pəri Pedaqoji Universiteti qutarıb. Bir müddət idarəetmə orqanlarında çalışıb, rayonlarda Partiya Komitəsinin katibi işləyib. Hazırda Xırdalan qəsəbəsində müəllimədir. Telli xalamın yalnız iki qızı - əkizləri Səadət və Tinatin ali təhsil almayıblar. Onlar da Bakıda yaşayırlar.



# URUDLU ALİMLƏR

1. Məmməd Salman oğlu İsgəndərov - tarix elmləri doktoru.
2. Sabir Əbdülmənaf oğlu Hacıyev - AMEA -nın müxbir üzvü, fizika - riyaziyyat elmləri doktoru, professor.
3. Sabir İsmayıl oğlu Tahirov - fizika - riyaziyyat elmləri namizədi.
4. Vladimir İsmayıl oğlu Tahirov - AMEA-nın müxbir üzvü, fizika - riyaziyyat elmləri doktoru, professor.
5. Qafar Teymur oğlu Həsənov - AMEA -nın müxbir üzvü, texnika elmləri doktoru, professor.
6. Yaqub Yamin oğlu Yolçuyev - AMEA- nın müxbir üzvü biologiya elmləri doktoru, professor.
7. Bakir Abbas oğlu Tahirov - fizika - riyaziyyat elmləri doktoru, professor.
8. Nadir Fərrux oğlu Qəhrəmanov - fizika - riyaziyyat elmləri doktoru, professor.
9. Habil Əli oğlu Quliyev - geologiya, mineralogiya elmləri namizədi.
10. Məmmədxan Həşim oğlu Tahirov - fizika - riyaziyyat elmləri namizədi.
11. Feyruz Əhməd oğlu Quliyev - fizika - riyaziyyat elmləri namizədi.
12. Akif Əli oğlu Kətənov - fizika elmləri namizədi
13. Feyruz Həbib oğlu Bayramov - kimya elmləri namizədi.
14. Qulam Teymur oğlu Həsənov - texnika elmləri namizədi.
15. Hökmran İsmayıl oğlu Cəfərov - fizika - riyaziyyat elmləri namizədi.
16. Elşad Məcnun oğlu Qurbanov - biologiya elmləri doktoru.
17. Sahib Abdulla oğlu Abdullayev - coğrafiya elmləri namizədi.





18. Rəhilə Abdulla qızı Abdullayeva - texnika elmləri doktoru.
19. Gülsüm İsa qızı Quliyeva - kimya elmləri namizədi.
20. Rəşid Fərrux oğlu Qəhrəmanov - kimya elmləri namizədi.
21. Polad Fərrux oğlu Qəhrəmanov - fizika - riyaziyyat elmləri namizədi.
22. Qəşəm Əşrəf oğlu Kətənov - kənd təsərrüfatı elmləri namizədi.
23. İmran Cəbrayıl oğlu İsgəndərov - riyaziyyat elmləri namizədi.
24. Hilal Muradxan oğlu Tahirov - kimya elmləri namizədi.
25. Vaqif Qasım olu Hacıyev - kimya elmləri namizədi.
26. Elxan Vladimir oğlu Tahirov - fizika - riyaziyyat elmləri namizədi.
27. Kamal Vladimir oğlu Tahirov - fəlsəfə elmləri namizədi.
28. Gülnarə Sabir qızı Hacıyeva - fəlsəfə elmləri namizədi.
29. Lalə Sabir qızı Hacıyeva - fizika - riyaziyyat elmləri namizədi.
30. Rahib Eynulla oğlu Hacıyev - tibb elmləri namizədi.
31. Elçin Qafar oğlu Həsənov - fizika - riyaziyyat elmləri namizədi.
32. Hikmət Qafar oğlu Həsənov - fizika - riyaziyyat elmləri namizədi.
33. Məshəti Əbülfəz qızı Mehdiyeva - kimya elmləri namizədi.
34. İradə Habil qızı Quliyeva - kimya elmləri namizədi.
35. ...

***Bu siyahı davam etməkdədir. Təəssüf ki, Urudun işğalı təkcə vətən itkisi deyil, həm də urudlularla əlaqələrin qırılmasıdır. Bu səbəbdən də yeni nəslin nailiyyətlərindən müntəzəm xəbər tutmaq qeyri - mümkündür.***

# QƏHRƏMANOVLAR

MEHDİ KİŞİ Urudun sayılan - seçilən ağsaqqallarından biri olub. Əbdülmənafla Eynullanın böyük qardaşı, xalam Sarabəyimin həyat yoldaşıdır. Erməni daşnaklarının min cür zülmünü görmüş, törətdikləri cinayətlərin şahidi olmuş Mehdi kişi sovet hökumətini də qəbul edə bilmirmiş. Sonralar öyrəndik ki, evinin damında hətta 5-10 tüfəng saxlayırmış ki, nə vaxtsa özü kimi qoçaq, mərd kişiləri başına yığıb bəyənmədiyi bu quruluşun dağılmasına nail olacaq. İllər keçdikcə arzularının puç olduğunu görüb dərdini içində çəkmək məcburiyyətində qalıb. Başını aşağı salaraq taleyin bu gərdişi ilə razılaşmalı olub. Çalışıb ki, ailəsini xoşbəxt etsin. Sarabəyim xalam da ağzıdualı, əli Quranlı, oruc tutan, namaz qılan bir qadın idi. Öz mehribanlığı, ılıq münasibətləri ilə Mehdi kişini ovutmağa çalışarmış. Onların 7 övladı olub: Fərrux, Təyyub, Oqtay, Sürəyya, Ruqiyyə, Məhluqə və Fatma.



Nadir Qəhrəmanov

FƏRRUX QƏHRƏMANOV haqqında öz müəllimlərimlə bağlı qələmə aldığım yazıda söz demişəm. O, uzun illər qonşu Vağədi kəndində müəllim işləyib. Kəndimizin işğalından sonra Sumqayıtda yaşayır. Ocağında 4 övlad böyüdən Fərrux müəllim həm də alim oğullar atasıdır. İlkini Nadir Qəhrəmanov fizika - riyaziyyat elmləri doktoru, professordur. Fizikanın mürəkkəb yarımkeçiricilər sahəsinin tanınmış mütəxəssislərindəndir. Bir çoz elmi kəşfin müəllifidir. Uzun illər Bakı Dövlət Universitetində fizika fənnindən mühazirələr oxuyub, tələbə və aspirantların elmi işlərinə rəhbərlik edib. Nadir Qəhrəmanov hazırda Sumqayıt Dövlət Universitetinin rektorudur. Bu təhsil ocağının yenidən dünya standartları səviyyəsində qurulmasında misilsiz xidməti var. Nadir müəllimin kiçik qardaşları Rəşid və Polad da elmlər namizədidirlər. Nəslin soykökünü öz adında əbədiləşdirən sonbeşik Qəhrəman isə Bakı Dövlət Universitetinin məzunudur.

Sarabəyim xalamın ortancıl oğlu TEYYUB 1925 -ci ildə Urudda





anadan olub. İlk təhsilini Urudda almış, orta məktəbi isə Vağədidə bitirmişdir. Lakin ali təhsil dalınca getməyə bir qədər yubanmışdır. 1941-ci ildə II Dünya müharibəsinin başlanması ilə əlaqədar kolxozda işləmək məcburiyyətində qalıb. Riyaziyyatı yaxşı bildiyindən müharibə qurtarana qədər Qarakilsənin bir çox kolxozunda hesabdar vəzifəsində çalışmışdır. 1946-cı ildə isə Naxçıvana getmiş, orada təhsilini davam etdirmişdir. Uşaqlıqdan bağlandığı müsahiblik işi onu bu peşəyə əbədi bağlayıb. Bir müddət Naxçıvanda müxtəlif idarələrdə baş mühasib vəzifəsində çalışan Teyyub Qəhrəmanov 1959-cu ildə Bakıya köçüb. Məşhur tikinti idarəsinin birində yenidən baş mühasib vəzifəsində işini davam etdirib. Lakin həmişə prinsipiallığı, düzlüyü ilə seçilən Teyyub Qəhrəmanov vəzifəli insanların, gizli mafiyanın güdazına gedib. Nə qədər çalışsa da, öz haqqını müdafiə edə bilməyib. Heç bir günahı olmadan ona 10 il həbs cəzası verblər.



Teyyub Qəhrəmanov

Ömrünün ən gözəl çağlarını zindanda keçirən Teyyub Qəhrəmanov şəvə saçlarını ağartdı, sağlam canını itirdi. O, türmədən çıxanda min ilin qocasına dönmüşdü. Başını aşağı salaraq uzun illər atasız qoyduğu körpələrinin qayğısına qalmağa başladı. Ömrünün sonuna kimi köhnə peşəsini - mühasibliyi davam etdirdi. Sonralar bəraət alsa da, hər şey çox gec idi. Çəkdiyi mənəvi əzablar onun ömrünə balta çaldı. Teyyubdan bizə 3 övladı yadigar qaldı - Fəxrəddin, Fəridə və Fuad.



Oqtay Qəhrəmanov

OQTAY QƏHRƏMANOV xalamın sonbeşik oğludur. Ucaboylu, qaragözlü Oqtayı xalam daha çox sevirdi. Qardaşla-



**Urudda kəhrizdən su gətirdiyim günlərdən biri olaydı...**

rının yolu ilə gedən Oqtay, təbii ki, orta məktəbi rayonda bitirib, sonra Naxçıvanda təhsilini davam etdirib, bir müddət də orada yaşayıb. Cəmil Tahirovun qızı - gözəllər gözəli Validə xanımla ailə qurduqdan sonra Bakıya köçüb. Sahil qəsəbəsində İcraiyyə Komitəsinin sədri işləyib. Dünyasını Bakıda dəyişib. Ondan da 3 övlad nişanə qalıb - Aida, Eldar, Nailə.

Xalamın qızları erkən ailə qurduqlarından ali təhsil almayıblar. Yalnız sonbeşik qızları Fatma Bakıda qardaşlarının yanında qalaraq oxumuşdur. O, tibb işçisidir. Sağlamlığımızın keşiyində öz ömrünü gilə - gilə əridən Fatma Qəhrəmanova mənim çox sevdiyim qohumlarımdandır. Rəhmətlik xalamın eyni ilə özüdür. Hər dəfə onun səsini eşidəndə uşaqlığım yadıma düşür. Elə bilirəm ki, məni səsləyən Sarabəyim xalamın özüdür. Yeri behişt olsun. Tanrı ondan nişanə qalan övladları qorusun!

## DAĞILAN TİFAQ

**MƏMMƏDXAN TAHİROV** BDU-nun (kecmiş Azərbaycan Dövlət Universiteti) mexanika rizaziyyat fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə Azərbaycan Elmlər Akademiyasının Kibernetika İnstitutunda başlamışdır. Sonra SSRİ Elmlər Akademiyasının hesablama mərkəzinin aspiranturasına daxil olmuş və akademik A.A.Dorodnitçinin rəhbərliyi altında məsaməli mühitdə maye və gazların hərəkətinin qeyri-xətti xüsusi törəməli differensial tənliklərin







ədədi həll üsullarının işlənməsi sahəsində elmi-tədqiqat işi aparmışdır. O, keçmiş SSRİ məkanında ilk dəfə olaraq məsaməli mühitdə ikifazalı sistemin hərəkətinin differensial tənliyinin ədədi həllinin tapılması üsulunu vermişdir. Akademik A.A.Dorodnitçinin təklif etdiyi inteqral münasibətləri tətbiq etmişdir. Bundan başqa, Məmmədxan Tahirov maye və qazların məsaməli mühitdəki hərəkətinin tərs məsələləri, neft və qaz laylarındakı proseslərin istifadə edilməsi və s. məsələlərlə də məşğul olmuşdur. Onun aldığı elmi nəticələr respublikada, Moskvada və bir çox başqa şəhərlərdə nəşr edilən elmi jurnallarda, məcmuələrdə dərc olunmuşdur.

Elmi işlərlə paralel olaraq o, pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. Azərbaycan Dövlət Neft Akademiyasında Tətbiqi riyaziyyat kafedrasının yaradılmasında, respublikada mühəndis-riyaziyyatçı kadrların hazırlanmasında böyük əmək sərf etmişdir. 1977-ci ildən 1980-ci ilə qədər Tətbiqi riyaziyyat kafedrasının müdiri olmuş, çoxsaylı aspirant və dissertantlara rəhbərlik etmişdir. Onun yetişdirmələrinin bir çoxu indi "Tətbiqi riyaziyyat" kafedrasında, respublikanın digər elmi müəssisələrində və s. sahələrdə çalışır.

# XATİRƏLƏR

Məmmədxan müəllim kəndimizin fəxri idi. Həmişə yay aylarında kəndə gələrdi. Yayda Urudda qeyri-adi bir həyat yaşanardı. Çünki müxtəlif şəhərlərə, yerlərə səpələnmiş urudlular mütləq yayda doğma kəndə üz tutardılar. Məmmədxan müəllim hər yay kəndə gələr, yaxın qohumu və dostu, professor Vladimir Tahirovla birgə gəzib dolanardılar. Məmmədxan müəllim kəndimizin gözəl-göyçək qızlarından biri Səriyyə xanımla ailə qurmuşdu. Tanrı elə bil onları xoş vaxtında yaratmışdı. Bir-birilərinə elə yaraşırdılar ki... Gözəl-göyçək övladlar böyüdürdülər: Nərgiz, Fərid, Arif.

Hər dəfə onların barəsində düşünəndə istər-istəməz fikrimə gələn ifadənin dəhşətindən ürəyim dağılır. Tifaqı çox erkən dağıldı bu mehriban ailənin. Elə bil ki,hər şey Urudla bağlı imiş. Məmmədxanla Səriyyə xanımın xoşbəxtliyi, bəxtəvərliyi ən başlıcası,qoşa ömrü də eləcə bir dən kimi sovrulub getdi. Hardan əsdi bu dəli və insafsız ruzigar, niyə dağıldı bu tifaq, İlahi!

1988-ci ildə Ermənistanda başlanan qasırğa Bakıda yaşayan bizləri də çox narahat edirdi. Payızda artıq gediş-gəliş kəsilmişdi. Urudla heç bir əlaqə saxlaya bilmirdik. Biz - Bakıdakı ziyalılar bir yerə yığışaraq çarə axtarırdıq. Camaatımıza kömək etmək üçün qapılar döyürdük. O ağır və həyəcanlı günlərdə Məmmədxan Tahirov həmişə bizimlə idi. Açıq deyəcəyəm, evindən çölə çıxmayan, bizə qoşulmayan, həmvətənlərinin dərdini çəkməyənlər də vardı. Amma indi bunları üzə vurmağın yeri deyil.

Məmmədxan müəllim qara bulud kimi tutulmuşdu. Nəqliyyat Nazirliyində bizi aldatdılar ki, guya camaatı xilas etmək üçün vertolyot verəcəklər. Fikirləşdik ki, bizlərdən yalnız bir nəfər getsin. Məmmədxan müəllim söylədi ki, özüm gedəcəyəm. Mən tutuldum. Çünki anam orada qalmışdı. Biçarə qadının halı məni çox narahat edirdi. Məmmədxan müəllim elə həssas və ürəyi geniş insan idi ki, məni gözəl duyurdu. Qolumdan tutub dilləndi: "Sən heç narahat olma, biz burdan nə qədər az getsək, o qədər yaxşıdır ki, Uruddan çox adam çıxarda bilərik. Sən arxayın ol, mən birinci Gözəl xalama (anamı nəzərdə tuturdu F.X.) kömək edəcəyəm. Sonra başqa qohum-qardaşa". Amma təəssüf ki, o zaman Azərbaycan hökuməti, sözün həqiqi mənasında, Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın





taleyinə biganə yanaşdı. Nəinki vertolyot verdilər, heç başqa tədbir də görmədilər. Günlərlə küçələrdə dolaşdıq, hansı təşkilata, nazirliyə müraciət etdiksə, bir nəticə olmadı.

... Gecə yuxumu qarışdırmışdım. Tezdən Məmmədxan müəllimə zəng elədim. Səsi tutqun idi. "Nə olub, Məmmədxan müəllim, niyə belə həyəcanlısınız?" Xeyli müddət susdu. Sonra zəif səslə dedi:

- Sən pis olma, vəziyyət dəyişib.
- Yaxşılığa doğru?
- Pisliyə.
- Nə olub ki?
- Bizimkiləri bu tezdən çıxardıblar.
- Hardan bildiniz?
- Çingizlə telefon əlaqəm oldu.
- Neyləyək?
- Təcili Naxçıvana, Taməddin həkimə və başqa urudlulara xəbər verək. Əriklidən köməyə getsinlər.

Dünya başıma fırlandı. Urudluların başına gələn o faciə isə... yazdıqca bitməz. Elə bil o günlərdən sonra Məmmədxan müəllimin varlığında bir ölüm kabusu dolaşırdı. Keçirdiyi streslər, yaşadığı vahiməli anlar öz işini görürdü. Məmmədxan müəllim ermənilərin törətdiyi haqsızlıqla heç cür barışa bilmirdi. Çox zərif və həssas ürəyi bu amansızlığa dözə bilmədi. 1991-ci ildə gözlərini əbədi yumdu. Yadımdadı, anam vəfat edəndə (1989-cu il) mənə təsəlli vermək istəyirdi. Dili söz tutmadı, hönkürdü. O hüznlü sima gözlərimdən çəkilmir. Məmmədxan müəllimin qəfil gedişinə heç cür inana bilmədim. Üç balasının birinə də toy etməmişdi. Heç ölən vaxtı da deyildi. Bu dərd azmış kimi bir talesizlik də baş verdi. Həyat yoldaşı Səriyyə xanım da Məmmədxan müəllimin arxasınca əbədiyyətə qanadlandı. Məhəbbət və sədaqətdən qurulmuş bu xaniman da beləcə dağıldı. Səriyyə xanım kəndimizin ilk aqronom qadınlarından olmuşdu. İndi onun haqqında keçmiş zamanda danışmaq mənə çox ağırdı. Aramızdakı yaş fərqinə baxmayaraq, mən onunla dostluq edirdim, xətrini dağlar qədər istəyirdim. Şən, mehriban, deyib - gülən, xeyirxah və sevimli bir xanım idi. Hayıf Səriyyə xanımdan, hayıf Məmmədxan müəllimdən. Allah hər ikisinə rəhmət eləsin!

# ƏQRABALARIM



Fatma bibim

Kaş möcüzə baş verəydi. Günlərin birində doğma kəndimizə qayıdardım. Əvvəlcə evimizi, bağımızı qarış-qarış gəzərdim. Sonra da üz tutardım qohum-əqrabalarımın həyətlərinə. Oradan da qaçaydım Bədir qayasının dibində uyuyan axirət dünyamıza (görəsən, o müqəddəs ünvanı goreşənlər - ermənilər dağıtmayıblar ki?). Öpərdim o sinədaşlarını. Mirismayıl Ağanın günbəzində piltələr yandırardım, dünyasını dəyişmiş əzizlərimizin ruhuna dualar oxuyardım. Amma... illərdir bu xəyallar gerçəkləşmir. Yuxularımda gördüyüm Uruda bircə günlük də gedə bilmirəm. Xəyalımdan asılı qalmış əzizlərimin ruhu mənə dinclik vermir.

İki bibim olub - Cahan və Fatma. Cahan bibim haqqında bir neçə yazıda söz açmışam. O, xalq şairi Məmməd Arazın anası idi. Fatma bibimi isə heç görməmişəm, haqqında eşitmişəm. Son dərəcə lətafətli, munis baxışlı, gözəl bir xanım olub. Təəssüf ki, erkən dünyasını dəyişib. İndi hərdən ondan yadigar qalan balaları ilə görüşür, bibim haqqında söhbətləşirik. Bibimin bu şəklini də mənə oğlu Vaqif verdi.

Əliş əmim isə kəndin sayılıb-seçilən ağsaqqallarından, Nəcəfli nəslinin azman kişilərindən olub. Çox qoçaq, xeyrə-şərə yarayan qeyrətli insan idi. Əmimi xatırlayanda həmişə yadıma uzun qəlyanı düşür. Bir də görərdin onu tüstülədə-tüstülədə gur səsi ilə çağırır: "Gözəl, ay Gözəl. Bir əppək şorbası bişir, gəlirəm". Həyətimizdən keçib oğlu Ələstangilə (mən ona da "əmi" deyirəm) gedərdi. Qəribə gur səsi, ötkəmliyi, bəzən də özünəməxsus hap-gopu olardı. Bütün bunlardan başqa, Əliş əmim qohumcanlı, namuslu adam idi. Oğlu Taməddin haqqında da mən yazılarımda söz açmışam. Əgər məndə səlahiyyət olsaydı, Taməddin Quliyevə Milli Qəhrəman adı verərdim. Ona görə yox ki, o mənim əmimoğlumdur. 1988-ci ilin payızında





ermənilər urudluları dərədə qarın-buzun içinə atmışdılar ki, donub ölsünlər. Bizim camaatı o zillətdən - ölümdən xilas edən məhz Taməddin həkim oldu. Tanrı onu da, onun yolu ilə gələn qeyrətli oğlanları - Azəri, Raufu daim var etsin.



İbadət əmimin sonbeşik oğlu idi. O da həkimliyi oxumuşdu. Uzun illər Şuşa xəstəxanasında çalışdı. Lakin həyatı, arzuları çox yarımçıq qırıldı. Bu gün İbadət haqqında keçmiş zamanda danışmaq mənim üçün əzablıdır. Çünki o qara telli, ucaboylu oğlan neçə-neçə insanı ölümün pəncəsindən xilas etmiş, onlara şəfa vermişdir. Heç bilmədik ki, özünün qurtula bilmədiyi xəstəlik İbadətin canını haradan tapdı. İllər boyu ağrı-acı əlində əriyib yox oldu mənim enlikürək, ucaboylu əmim oğlu. İbadət nəslimizin göz yaşına, ürək qubarına çevrildi.

Gülçöhrə əmimin sevimli qızlarından biridir. Mən onu qeyrət, namus simvolu bilirəm. Ermənilər kəndimizə doluşanda o ağır günlərdə Gülçöhrə xanım, sözün həqiqi mənasında, analara, bacılara himayədarlıq edib, onlara ürək-dirək verib. Anam danışardı ki, gecələr Gülçöhrəgildə gedib qalardıq. Allah, o, bizə nə qədər hörmət və izzətlə yanaşardı. Amma təəssüf ki, bu xanım da ömrünün yaşlı çağında didərginlik əzabına düçar oldu.

Durna Əliş əmimin ikinci qızıdır. Heç bərkdə əli yoxdur. Hansımızı görsə, gözləri dolur. "Urud" deyib dad çəkir. Hazırda Sumqayıtda yaşayır. Amma hələ də ona elə gəlir ki, nə vaxtsa doğma yurda qayıdacaq.

Bu qohumlarımın adlarını niyə çəkirəm? Məqsədim tanışlıq deyil. Bilirəm ki, bu kitab hər bir urudlunun, ümumiyyətlə, zəngəzurlunun evində mütləq olacaq. Qoy onlar öz el-obalarının adamlarını yaxşı-yaxşı tanısınlar. Unutmasınlar. Bəlkə doğrudan da möcüzə baş verəcək. Bəlkə doğrudan da nə vaxtsa dağların o üzünə bir karvan düzüləcək. Qoy sıradan qalan olmasın!

# QAN QOHUMLARIM

## UMUD QULİYEV



U.Quliyev (sağda) tələbə yoldaşları ilə 1937-ci il

Urudun unudulmaz, nakam oğullarından biri olub. Nəcəfli tayfasının azman kişilərindən sayılan Əli Quliyevin böyük oğludur. Umud uşaqlıqdan elmə, oxumağa böyük həvəs göstərib. Öz fərasəti, ağlı ilə tay-tuşlarından seçilərmiş.

1938-ci ildə Naxçıvan şəhərindəki Pedaqoji Texnikumu bitirdikdən sonra Şahbuz rayonunda müəllim işləmişdir. Təəssüf ki, bu gənc müəllimin həyatı da, arzuları da yarımçıq qırıldı. Valideynlərinin böyük inamla ona verdikləri adı axıra qədər yaşada bilmədi. Umud bir ümidsizliyə çevrildi.

Əli kişi də, Şərəbanu arvad da öz ilkinlərinə gözaltı etdikləri qıza elçi gedə bilmədilər. Çünki II Dünya müharibəsi öz qara caynaqlarını Umud kimi igidlərin taleyinə uzatmışdı və bu ac canavar nər biləkli, enlikürəkli oğulların bahar ömrünə qənim kəsildi. Deyilənə görə, Umudun cəbhədən son məktubu 1942-ci ildə gəlib. Sonrakı taleyi müəmmalara bürünüb. Hansı şəraitdə həlak olub, yoxsa əsir düşüb, naməlumdur.

Üzünü görmədiyim, amma uşaqlıq illərimdən həmişə haqqında xoş sözlər eşitdiyimiz, xüsusilə də analarımızın göz yaşları ilə xatırladığı Umud Quliyev sonuncu urudlu qalana kimi unudulmayacaq.

Bu şəkil isə tələbə vaxtı - Naxçıvanda oxuduğu illərdə çəkilib. Tələbə yoldaşları - urudlu Fərrux Qəhrəmanov, Qasım Hacıyevlə birlikdə. Umuddan sonuncu nişanə olan bu şəkli Fərrux müəllim illərdir ki, saxlamaqdadır. Tələbə yoldaşının mərdliyindən, gözəl xasiyyətindən, dostcanlığından danışan ağsaçlı Fərrux Qəhrəmanov Umudu həmişə ehtiram və məhəbbətlə xatırlayır.





## İSA ƏMİ



Əli kişinin ikinci oğludur. Gözümü açandan İsa əmini kəndin böyüklərindən görmüşəm. Ömrü boyu Urudda yaşayıb. Qarakilsənin kəndlərində müxtəlif vəzifələrdə çalışıb. İsa əmi əslində Urudun simvollarından biridir. II Dünya Müharibəsi illərindən başlayaraq təsərrüfatla bağlı müxtəlif vəzifələrdə çalışıb. Mühasiblikdən başlanan əmək fəaliyyəti kolxoz sədrinə kimi yol gedib.

Torpağa, təbiətə qəlbən bağlı olduğundan həmişə doğma kənddə yaşamağa üstünlük verib. Həyat yoldaşı Xatın xanım da urudluların əksəriyyətinin müəllimi olub.

İsa əmigilin bağlarından biri bizim evimizin yanında yerləşirdi. Su arxları da bizim bağdan keçirdi. Nədənsə İsa əmi su aparanda mən tez gedib arxın bərəsini öz bostanımıza, ya da ağacların dibinə yönəldərdim. Bir də görərdim ki, İsa əmi çiynində bel tələsik gəlir. Qaçıb suyu öz çəminə salardım. Kişi hər dəfə zarafatla deyərdi: "Gücün elə əminə çatır. Niyə qoymursan mən işimi qurtarım?" Mən də şıltaqcasına cavab verərdim: "Bəs bizim ağaclar yazıq deyil?" "Yaxşı qoy sizin ağaclar su içsin, sona çatanda mənə xəbər verərsən". Bəzən də özü ağacları suvarıb gedərdi ki, mən onun suyunu kəsməyim. Yaxud da əvvəlcədən deyərdi: "Əmibalası, işim var, tələsirəm, bu dəfə suya dəymə. Mən qurtaran kimi sənə xəbər verərəm". İndi o günləri xatırlayanda elə kövrəlirəm ki... Görən o bağlardakı ağacları suvaran varmı? Kim bilir, o yaşıl dünyanın hüsnü indi nə gündədir?!

Hər bir urudlunun qəlbində İsa əminin ayrıca yeri var. Onun cismi də, ruhu da doğma yurdda qaldı. İsa əminin üç övladı olub: Gülsüm, Musa və Məryəm.

# HABİL QULİYEV



Dünyasını 40 yaşında dəyişmiş Habil Quliyev Azərbaycan Dövlət Universitetinin geologiya fakültəsini bitirmişdi. Məşhur neftçi-alim Fərman Salmanovla birlikdə uzaq Sibirdə neft axtarışlarında iştirak etmişdir. Geologiya-minerologiya elmləri namizədi idi. Doktorluq dissertasiyası üzərində işini tamamlamışdı. Amma təəssüf ki, əcəl imkan vermədi.

Onunla ünsiyyətim çox az olub. Mən çox uşaq idim, Habil əmi də Bakıda yaşayırdı. Yaydan-yaya kəndə gələrdi.

Olduqca ciddi və səmimi insan olan Habil Quliyevdən bir övlad yadigar qaldı. Qızı İradə Quliyeva hazırda Bakıda yaşayır. O da elmlər namizədidir.

# ƏJDƏR QULİYEV



Əli kişinin sonbeşik oğludur. Rəsmi sənədlərdə adı Şirin olsa da, ona "Əjdər" deyə müraciət edərdik. Mənə elə gəlir ki, bizim üçün Əjdər adı daha doğmadır. Çünki bu adın səslənişində urudlu günlərin xatirəsi yaşamaqdadır. Əjdər əmi mənim çox sevdiyim, xətrini dağlar qədər istədiyim insanlardan biridir.

Əjdər əminin toyunu indiki kimi xatırlayıram. Mənim 10-11 yaşım olardı. Uruda gəlini Ağcabədinin Poladlı kəndindən gətirməli idilər. Qohum-əqraba yığışıb Qarabağa yola düşdük. Anam məni də özü ilə apardı. İlk dəfə idi ki, belə bir qeyri-adi, uzun səfərə çıxırdım. Yol boyu gördüyüm hər şey mənim





üçün yeni idi. İlk heyrətləndiyim Xan qızı Natəvanın çəkdirdiyi su kəməri oldu. Sonra da Ağdam... Kəndimizdən Qarakilsəyə, Gorus şəhərinə getmişdim. Hər yerdə erməni görmüşdüm. İlk dəfə idi ki, böyük bir şəhərdə - Ağdamda məhz hamının doğma dildə danışdığını eşitdim. Elə sevinirdim ki... Günortaya düşmüşdük. Ağdamda dayanıb nahar etdik. Bütün evlərdən muğamat səsi gəlirdi. Qəribədir, indi də muğamat eşidəndə yadıma ilkin olaraq o mənzərə - Ağdam düşür. Bilmirəm, bu nə hissdirsə, elə bilirəm ki, muğamat o gün ilk dəfə Ağdamda doğulmuşdu. Hələ Ağcabədidə ilk dəfə idi yer üstündə təndir gördüm. Bostanda bizim yerlərdə bitməyən tərəvəzlər diqqətimi çəkdi. Hələ qamış hasarlar mənə çox qeyri-adi təsir bağışlamışdı. Elə hey kənddə bu səfərdən danışardım. Ağzımı açan kimi, uşaqlar zarafatla deyərdilər: "O il Qarabağa gedəndə..." Nə isə...

Bakıda müxtəlif vəzifələrdə çalışmış Əjdər əmi olduqca qohumcanlı, təəssübkeş, vətənpərvər və qeyrətli oğullarımızdan biridir. Mən onu nəslimizin xan çinarlarından sayıram. Həyat yoldaşı Atlas Xəlilova da mənim həmişə "bacı" deyərək əzizlədiyim, sevdiyim xanımlardan biridir. Uşaqlıq illərimin unudulmaz xatirələrinin xeyli hissəsi də Atlas bacımla bağlıdır. Tələbə vaxtı yay tətilində həmişə bizə gələrdi. Yadımdadır ki, o, Bakıya qayıdanda avtobusun dalınca ağlaya-ağlaya xeyli qaçardım.

Onların da iki oğlu var. Bakıda yaşayırlar.

# GÜLSÜM QULİYEVA

Ziyalı ailəsində dünyaya göz açmış Gülsüm xanım İsa Quliyevin ilk övladıdır. Hələ orta məktəb illərindən çalışqanlığı, biliyi, mehriban və səmimi xasiyyəti ilə fərqlənən Gülsüm Quliyeva Urudun gözəl-göyçək qızlarından biri olub. Yadımdadır ki, o, Bakıda - Azərbaycan Dövlət Universitetinin kimya fakültəsində oxuyanda tətillərdə mütləq Uruda gələrdi. Mən onda orta məktəbdə oxuyurdum. Gülsümü görəndə elə sevinirdim ki... Onun söhbətlərinə qulaq asmağı çox xoşlayardım. O, Bakıdan, müəllimlərindən, tələbə yoldaşlarından danışdıqca qəlbim fərəhlə dolardı.

Tələbə ikən Coğrafiya İnstitutunda laborant işləmiş Gülsüm Quliyeva görkəmli akademik Həsən Əliyevin rəhbərliyi altında müxtəlif elmi araşdırmalarda iştirk etmiş, maraqlı təcrübələr

aparmışdır. Ailə qurduqdan sonra taleyi Gəncə şəhəri ilə bağlı olan Gülsüm Quliyeva əvvəlcə Alüminium zavodunda laborant, texniki-peşə məktəbində müəllim vəzifələrində çalışmışdır. Ciddi şəkildə elmlə məşğul olan Gülsüm xanım 1986-cı ildə namizədlik dissertasiyasını müdafiə edərək kimya elmləri namizədi adını almışdır. 50-dən artıq elmi məqalənin və 5 dərs vəsaitinin müəllifi olan kimya elmləri namizədi Gülsüm Quliyeva hazırda Gəncədə Azərbaycan Texnologiya İnstitutunun dosentidir. Üç övlad anasıdır.

## MUSA QULİYEV



Ən böyük itkisi Urud, ən böyük sevgisi Vətən torpağı, ən böyük istəyi "İlahi, sən məni o yurda qaytar", ən böyük qorxusu Urud genofonunun dağılması, ən böyük diləyi "Getməyə yolum yoxdursa, Tanrı , məni süründürmə", ən böyük inamı sabah olan Musa Urud (Quliyev) 1961-cı ildə anadan olub. Əmim İsanın ən böyük arzusu onu həkim görmək idi. Musa orta məktəbi qızıl medalla bitirən ili Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub. Musa uşaqlıqdan ağlı, dərrakəsi, o cümlədən hər şeyə maraq göstərməsi ilə seçilirdi. Əlinə həkimlik dip-





lomu alandan sonra bir müddət Gəncədə çalışdı, sonra Bakıya gəldi. Müxtəlif səhiyyə təşkilatlarında, o cümlədən Əhalinin Sosial Müdafiəsi Nazirliyində işlədi. 2000-ci ildə Azərbaycan Milli Məclisinə deputat seçildi.

Həm Azərbaycan Yazıçılar, həm də Jurnalistlər Birliyinin üzvü Musa Urud özünəməxsus poetik aləmi olan, dəst-xəttilə seçilən şairlərimizdən biridir. Musa Urud "Nuh, gəminə götür bizi", "Tanrı şam yandırıb", "Ömürdən 101 şeir", "Üzü haqqa gedirəm", "Urud", "Haqqım var yaşamağa", "Zəngəzur" kitablarının müəllifidir. Yaradıcılığı müxtəlif ədəbi mükafatlara layiq görülmüş Musa Urud 1998-ci ildə Azərbaycan Respublikasının Prezidenti, unudulmaz Heydər Əliyevin sərəncamı ilə Prezident mükafatına layiq görülmüşdür.

Musa Urudun poeziyasında ruha ən çox təsir edən Vətənlə, ovqatımızla, taleyimizlə bağlı şeirlərin olmasıdır. Onun poeziyasındakı doğmalıq bir də ondan irəli gəlir ki, bizim hamımız eyni sarı simin üstündə köklənmişik:

Nahaqları kəsən haqdı, nə yaxşı,
Gözüm toxdu, könlüm toxdu, nə yaxşı.
Bir kimsəyə borcum yoxdu, nə yaxşı,
Bir Tanrının can borcundan savayı.

Musanın evində üç gül bala böyüməkdədir. Mənim üçün ən fərəhlisi odur ki, bu ocaqda İsa adlı bir oğul da öz ata-babalarının saldığı izlə addımlamaq üçün kövrək qanadlarını bərkitməkdədir.

# URUDUN İŞIQLARI - ZİYALILARI

## KAMRAN İSGƏNDƏROV



Kamran İsgəndərov kəndimizin unudulmaz ağsaqqalı Salman kişinin ortancıl oğludur. Uşaqlıq illəri Dünya savaşına təsadüf etdiyindən həmkəndlilərinin necə əziyyət çəkdiyinin şahidi olub. Anası Ballı arvadın qonum - qonşuya necə əl tutduğunu indi də unutmayıb. "Əsl el anası idi. Kimin nə əyər - əskiyi vardı, onun üstünə gələrdi. Elə bil Allah da anama kömək dururdu. Yox yerdən belə nəsə tapırdı, düzəldirdi, bir kimsəni naümid qaytarmırdı". Bu şəraitdə tərbiyə alıb böyüyən Kamran orta məktəbi bitirəndə artıq müharibə də başa çatmışdı. Oxumaq həvəsi əvvəlcə onu Ağdamdakı ikiillik Müəllimlər İnstitutuna gətirdi. Oranı bitirən kimi isə Bakıya üz tutdu. Azərbaycan Dövlət Universitetinin coğrafiya fakültəsində oxudu. Ali məktəbi bitirən ildən "Xəzərdənizneftqazgeofizika" Kəşfiyyat Trestində əvvəlcə mühəndis, sonra isə müxtəlif vəzifələrdə çalışmışdır. Ömrünün 40 ildən artıq bir dövrünü dənizdə neft kəşfiyyatına bağlayan Kamran İsgəndərov göstərdiyi əmək nailiyyətlərinə görə keçmiş sovetlər birliyinin yüksək mükafatı olan "Qırmızı Əmək Bayrağı" ordeninə layiq görülüb. Digər mükafat və təltifləri də var. Hazırda təqaüddə olan Kamran Salman oğlu İsgəndərov Urudun ziyalı oğullarından biridir.





## İLKİNLİYƏ APARAN YOLLAR



Neçə döngədən, gədikdən, dağdan, dərədən keçərək minillik məsafəni az qala bir göz qırpımında addımlayıb doğma yerlərə çatır. Qəribədir, uşaqlığım keçən yerləri andıqca xəyalıma ilkin olaraq qapıbir qonşularımız gəlir.

Sifətini güclə xatırladığım Zərif arvad tək övladı Alışın, oğulluqları Qasımın, Rəhimin, Kərimin minbir əziyyətini çəkmişdi. Əri Bəhmən kişi onu ömrün dolaylarında köməksiz qoyaraq haqq dünyasına qovuşmuşdu. Kənd camaatı bu yetimdar və pənahsız qarıya tez - tez əl tutardı. Oğulluqları lap fərasətli çıxmışdılar. Hərəsi öz başının çarəsini qıla bilmişdi. Oxuyub ali savad alanları da var idi. Alış kəndində (Şıxlar) kinomexaniklik edirdi. Sonralar Sumqayıta köçüb getdi.

Mənim yadımda ən çox qalan Kərim Qasımov oldu. Zərif arvadı doğma anası qədər sevirdi. Yayda kəndə gələrdi, həmişə mehribanlıqla "bacı" deyə əzizlədiyi ögey anasına pal - paltar, yaylıq, parça, xına alıb gətirərdi. Zərif rəhmətə gedəndən sonra Kərim daha Uruda dönmədi. Mən onunla bir də Bakıda təsadüfən küçədə rastlaşdım. Halbuki aradan 15-20 il keçmişdi. Mən köhnə qonşumuzu dərhal tanıdım. Kərim Qasımov 1957-ci ildə Azərbaycan Dövlət Dillər İnstitutunun ingilis dili fakültəsini bitirib. Bir müddət Yevlax rayonunda müəllim işləyib. 1960-cı ildə yenidən Bakıya qayıdaraq Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda elmi işçi (tərcüməçi) kimi fəaliyyətə başlayıb. 1967-ci ildən isə AMEA-da "Xarici dillər" kafedrasının baş müəllimidir. Bir neçə elmi məqalənin, iki kitabın müəllifi olan Kərim Qasımov "İngiliscə - Azərbaycanca" lüğətinin hazırlanmasında fəal iştirak edib, əsas müəlliflərdən biri olub.

# TANIŞ ADLAR



Yaqub müəllimi zorla xatırlıyıram. Amma onu bilirəm ki, Urudun ilk müəllimlərindən olub. Oğlu Rəfail Tahirovdan aldığım məlumata görə, ötən əsrin əvvəlində yaşayan digər urudlular kimi Yaqub müəllimin də həyatı taleyin amansızlığına tuş gəlib. Hələ 8 yaşında ikən ermənilərin törətdiyi fəlakətin acısını dadıb. Doğma kənddən didərgin düşən Tahirlilər Azərbaycanın müxtəlif bölgələrində məskunlaşıblar. Bu qaçhaqaç dövründə Yaqubun atası ermənilər tərəfindən öldürülüb. Varlı adamların qapısında nökərlik edən Yaqub qəpik - qəpik topladığı pulun hesabına Bakıya gələndə 11 yaşı vardı. Böyük qardaşı Cəmil hərbi məktəbdə oxuyurdu. Qardaşını axtarıb tapan Yaqub bir müddət hərbi hissədə qardaşının dostlarının himayəsində qalıb, öz üzərində işləyib, oxuyub - yazmağı öyrənib. Əslində, heç orta məktəbdə oxumayan Yaqub öz ağlının hesabına qazandığı bilik və savadına görə hamının diqqətini çəkib. İmtahan verərək iki ali məktəbə - Pedoqoji İnstitututa və Tibb İnstitutuna qəbul olub. Lakin eyni vaxtda iki ali məktəbdə oxumağa maddi cəhətdən gücü çatmadığından (həm də iki ali məktəbdə eyni vaxtda oxumağa icazə də yox idi) müəllimliyə üstünlük verib. İnstitutu bitirdikdən sonra Yaqub Tahirov Laçında Hərbi Komissarlıqda çalışıb. Sonra II Dünya müharibəsi başlayıb. Müharibədə Yaqub Tahirov olmazın əzab - əziyyətini çəkib. Əsir düşüb. Həbs düşərgələrində almanların məşəqqətlərinə dözməyərək bir neçə dəfə qaçmağa səy göstərib və nəticədə daha ağır cəzaya məruz qalıb. Vəhşicəsinə döyülüb, başından ağır zərbə alıb, huşunu, yaddaşını itirib. Taleyinə müxtəlif faşist düşərgələrinin ünvanı yazılıb. Bu dözülməz şəraitdə ağır xəstəliklər tapsa da, xoşbəxtlikdən sonralar yaddaşı bərpa olunub. Müharibədən sonra Uruda qayıtmış, müəllimlik peşəsi ilə məşğul olmuşdur. Uşaqlıqda





ermənilər, gənclik illərində də faşistlər tərəfindən incidilən, döyülən, əzilən, maddi və mənəvi cəhətdən sarsıntıya məruz qalan Yaqub Tahirov 50 yaşını tamamlamamış dünyasını dəyişdi. Yeganə övladı Rəfail Tahirov isə Yaqub müəllimdən bir nişanədir.



1963-cü ildə Azərbaycan Politexnik İnstitutuna daxil olaraq mühəndis - elektrik ixtisasına yiyələnib. İnstitututu bitirəndə Rəfail Tahirovun təyinatı İrəvan şəhərindəki Elektromexanika Elmi - Tədqiqat İnstitutuna verilmişdi. Amma Rəfail bu müəssisədə cəmi 3-4 ay işləyə bilib. Ermənilərin təzyiqləri onun normal işləməsinə, İrəvanda yaşamasına mane olub. Erməni dilində başa düşdüyündən anlayıb ki, türk olduğu üçün onun İrəvanda - məhz elmi müəssisədə işləməsi mümkün olmayacaq. Rəfaelin dediklərindən: " Elə bil, Allah mənə kömək durdu. Bu məsələ ilə əlaqədar o vaxtkı SSRİ Energetika Nazirliyinə təyinatımın dəyişdirilməsi ilə əlaqədar müraciət etdim. Ərizəmə baxıldı və mən yeni təyinatla Azərbaycana qayıtdım".

Bir müddət Geofizika İnstitutunda baş mühəndis vəzifəsində çalışan Rəfail Tahirov 1988-ci ildə Yəmən Demokratik Respublikasında çalışıb. İki il bu ölkədə neft axtarışı ilə məşğul olub. 1990-cı ildə yenidən vətənə qayıdıb.

Azərbaycanın müxtəlif rayonlarında polimetalik filiz yataqlarının elektrik metodu ilə axtarışı işində müəllif iştirakçı kimi 7-dən artıq elmi hesabatın, 3 ixtiranın və elmi məqalənin müəllifi olmuş Rəfail Tahirov bir müddət "Azəravtonəqliyyat" Dövlət Konsernində Kadrlar şöbəsinin rəisi vəzifəsində çalışıb.

## NARINGÜL İSGƏNDƏROVA



Bakıda ilk getdiyim ünvan Tarix muzeyi olub. Buna da əsas səbəblərdən biri urudlu qızı Narıngül İsgəndərovanın orada işləməsi idi. Mənə elə gəlirdi ki, bu möhtəşəm muzeyin əsl yaradıcısı elə Narıngül xanımın özüdür. Kim bilir, onu bu ünvandan ayrı salsalar, hansı ağır hissləri keçirər. Ömrünün 40 ilindən çoxunu məhz bu muzeyə bağlayan, onun hər bir eksponatını canı qədər sevən Narıngül İsgəndərova əsl müzey işçisidir.

Orta məktəbi bitirdikdən sonra Bakıya - böyük qardaşı Məmmədin yanına gəlib. Onun qayğısı və məsləhəti ilə sənədlərini Xarici Dillər İnstitutunun fransız dili fakültəsinə verib. Tərcüməçi olmaq istəyində imiş. Ancaq tale elə gətirdi ki, onu 1961-ci ildən Azərbaycan Tarix muzeyinə kiçik elmi işçi vəzifəsinə götürdülər. Elə o vaxtdan da taleyini bu ünvana bağladı. "Başqa yerdə heç işləyə də bilmərəm", - söyləyən Narıngül xanım öz işini çox sevir.

Muzey ekspozisiyasında Azərbaycan və fransız dillərində ekskursiyalar aparır. İşlədiyi illər ərzində ekspozisiya müdiri kimi gərgin və məsuliyyətli işin öhdəsindən bacarıqla gəlmişdir. Muzey ekspozisiyasının yüksək səviyyədə təqdimatı üçün əlindən gələni əsirgəmir. Muzey işçiləri arasında səriştəliyi ilə seçilən Narıngül Salman qızı İsgəndərova bir müddət buruda çalışmaqla bərabər pedoqoji fəaliyyətlə də məşğul olmuşdur. Gələcək elmi işçilərə fransız dilindən dərs demişdir.

Kəndimizin gözəl - göyçək qızlarından sayılan Narıngül xanım həmişə yayda Uruda gələrdi. O, ana yurdunu çox sevirdi. "Urud əldən gedəni ürəyimizin ritmi dəyişdi. Elə bil ki, qocalıq da qapını vaxtsız döydü", deyə xiffətlə gülümsəyən Narıngül xanımın gözləri yol çəkirdi. Kim bilir, o baxışlardan urudlu günlərin hansı xatirəsi asılmışdı.

**2004.**

**Qeyd: Elə Urud həsrəti ilə də dünyasını dəyişdi Narıngül xanım...**

**2006.**





## ATALAR VƏ OĞULLAR

Feyruz və Üzeyir Bayramovlar. Hər ikisi həm urudluların, həm də bütövlükdə zəngəzurluların yaddaşında dərin iz salmış unudulmaz ağsaqqalımız Həbib Ağamalıoğlunun övladlarıdır.

Həbib Bayramov Qarakilsə bölgəsinin ən nüfuzlu, böyük hörmət sahibi olmuş köhnə kişilərindən idi. Ulu babaları varlı olduğundan Bayramovlar ailəsi həmişə zəngin yaşayıblar. Səxavətli, ürəyiaçıq, mərdanə Həbib kişi hamıya əl tutub. II Dünya müharibəsindən geri qayıtmayan qardaşının balalarını da öz övladlarından ayırmayaraq böyüdüb, oxudub, ailə, ev-eşik sahibi edib.



Həbib Bayramov Urudun ilk ziyalılarından olub. Ötən əsrin 20-30-cu illərində İrəvan şəhərində təhsil alıb. Əvvəlcə Pedaqoji texnikumu, sonra isə institutut bitirib. Vağədi kəndində azərbaycanlılar üçün ilk orta məktəbin yaradılmasında onun və Məmməd Xəlilovun böyük əməyi olub. Azərbaycanlıların maariflənməsində Həbib Bayramovun zəhməti çoxdur.Qızılcıq, Ağdü, Vağədi, Urud kənd məktəblərində gah müəllim, gah direktor vəzifəsində çalışıb. Göstərdiyi fədakar əməyə görə ona 1940-cı ildə "Əməkdar müəllim" fəxri adı veriblər. Həbib Bayramov təşkilatçılıq qabiliyyəti ilə seçilirdi. Təsərrüfata dərindən bələd olduğundan onun bu qabiliyyət və bacarığından ermənilər həmişə istifadə edirdilər. Onun əlinin altında işləməklə Həbib Bayramovdan çox şey öyrənirdilər. Müharibə illərində və ondan sonra Urud kolxozunun sədri işləyən bu fədakar insan öz kəndlilərini acı günlərdən xilas edə bildi. Ona ən ağır gələn məqam isə yolunu gözlədiyi dostlarının, qohum - qardaşlarının davadan qayıtmaması oldu. Xüsusilə də 1945-ci ildə birinci sinfə gedən uşaqların əksəriyyətinin atalarının müharibədə həlak olması Həbib kişiyə dərd gətirirdi. Oğlu Üzeyir danışır: "Atam həmin

uşaqları xüsusi əzizləyər, sevər, qayğı göstərər, bizə heç gözünün ucu ilə də baxmazdı ki, ürəklərinə toxunar".

1974-cü ildə dünyasını dəyişmiş Həbib Bayramovun cismi də, ruhu da Uuruddadır.

Bu kişinin ocağında həm özünün, həm də qardaşının balaları böyüdülər, oxudular, Azərbaycan xalqı üçün gərəkli insanlar oldular. Həbib kişi həm də qoşa alim oğulun atası oldu.



Böyük oğlu Feyruz Bayramov 1965-ci ildə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsini bitirdikdən sonra ömrünü elmə bağlamışdı. Azərbaycanda elektrokimya məktəbinin ilk yaradıcılarından sayılan Feyruz Bayramov kimya elmləri namizədi kimi 70-dən çox elmi əsərin və bir neçə ixtiranın müəllifi idi. Onun əsərləri respublikanın, keçmiş İttifaqın və bir sıra xarici ölkələrin nüfuzlu jurnal və məcmuələrində çap olunmuşdur. Feyruz Bayramovun birbaşa rəhbərliyi və iştirakı ilə işlənib hazırlanmış elektrokimyəvi texnoloji prosseslər Bakının, Sumqayıtın və Gəncənin əlvan metallurgiya müəssisələrində tətbiq olunmuş, dövlətə milyon manatlarla gəlir vermişdir. Dərin nəzəri biliyə, böyük təcrübəyə malik alim elektrokimyəvi texnologiya sahəsi üzrə mütəxəssislərin, ixtisaslı kadrların hazırlanmasında xüsusi xidmətləri olmuşdur. Təəssüf ki, Feyruz Bayramovun ömrü yarıda qırıldığından alim kimi bir çox elmi axtarışları tamamlanmadı. Cəmi 57 il yaşamış alim







qardaşımızın ürəyində Urud adlı bir yara da var idi...

Həbib müəllimin ikinci oğlu Üzeyir Bayramovun da zəngin həyat yolu var. Üzeyirin fəaliyyəti çox şaxəlidir. Buna da səbəb onun müxtəlif sahələr üzrə həm ali təhsil alması, həm də böyük təcrübəyə, səriştəyə, qabiliyyət və bacarığa malik olmasıdır. O, bir tərəfdən filoloq kimi ədəbiyyatla məşğul olur, müxtəlif mövzularda maraqlı



məqalə və xatirələr qələmə alır,digər tərəfdən də Üzeyir Bayramov bacarıqlı təşkilatçı və kənd təsərrüfatı işçisidir. Uzun illər bu sahənin nazirliyində müxtəlif məsul vəzifələrdə çalışıb. Fəhləlik də etmiş, müəllim də olmuş, şöbə rəisi, sovxoz direktoru, deputat... Əmək kitabçasına qeyd edilmiş vəzifələrin sayı çoxdur. Üzeyir Bayramovun fəaliyyəti ayrıca bir kitabın mövzusudur.

Ənvər və Nurəddin Bayramovlar Həbib kişinin qardaşı övladlarıdır. II Dünya müharibəsindən qayıtmayan kiçik qardaşının körpələrini öz balalarından ayırmayaraq doğma övladları kimi böyüdüb tərbiyə edən Həbib Bayramov onları ali məktəbdə də oxutdu. Ənvər Bayramov müəllim idi. Bir müddət Naxçıvanda, sonra isə Bakıda pedaqoji fəaliyyət göstərdi. Təəssüf ki, onun da ömrü yarıda qırıldı.



Nurəddin Bayramov isə iqtisadçı kimi bu gün də diqqət çəkən insanlardan biridir. Ata ocağının çırağını yandıran Nurəddin Bayramov öz işgüzarlığı və bacarığı ilə tanınır. Unudulmaz Həbib Bayramovun tərbiyəsini görmüş, öyüdünü almış bu fərasətli oğullar sözün əsl mənasında urudluların ən ləyaqətli

nümayəndələrinə çevrildilər. Hər iki qardaşın övladları, nəvələri nəslin ənənəsini davam etdirməkdədirlər. Bayramovlar nəsli dədə - babadan öz xeyirxahlıqları, səxavətləri və mərdlikləri ilə seçiliblər. Həmişə ağayana yaşayıblar, ətrafdakı qohum - əqrabaya, tanış - bilişə əl tutmağı, dayaq olmağı özlərinə borc biliblər. Bu qədim nəsil ocağının yeni pöhrələri də seçilənlərdən oldular: Ramil, İlham, Xalid, Aida Bayramovların hər biri öz peşəsinin zirvəsindədir.

## ÖMÜR MÖHLƏT VERMƏDİ



Müharibənin başsız qoyduğu ocaqlardan biri də Suğra arvadın ailəsi oldu. Həyat yoldaşı Əhməd Quliyev II Dünya müharibəsinin ac qurd kimi udduğu oğullardan biri idi. Gözləri yoldan yığışmayan, ömrünün sonuna kimi Əhmədin ölümünə inanmayan Suğra balalarını - iki oğul, bir qızını bir Allah bilir ki, hansı əziyyətlə böyütdü. Onlara həm ana, həm də ata oldu.

Böyük oğlu Səməd ali təhsil aldıqdan sonra Sumqayıt şəhərində müəllim işlədi. Qızı erkən ailə qurdu. Kiçik oğlu Feyruz Quliyev 1964-cü ildə Bakı Dövlət Universitetinin fizika fakültəsini bitirdi. Tələbəlikdən elmə böyük maraq göstərdiyindən müəllimləri onun gələcəkdə istedadlı alim olacağını yəqinləşdirmişdilər. Bir il keçməmiş Feyruz Quliyev Elmlər Akademiyasının Fizika İnstitutunun aspiranturasına daxil oldu. Uzun illər apardığı araşdırma, təcrübə və tədqiqatlar, nəhayət, öz bəhrəsini verdi. Urudlu alimlərin sırasına cavan bir fizik də qoşuldu.

O, 1973-cü ildə namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək elmlər namizədi alimlik dərəcəsi aldı. Bir müddət Fizika İnstitutunda müxtəlif vəzifələrdə çalışan Feyruz Quliyev 1976-cı ildən ömrünün sonuna kimi Sumqayıt Dövlət Universitetində çalışdı. Doktorluq dissertasiyası üzərində işləyən Feyruzun çox arzusu





yarımçıq qaldı. Ömür möhlət vermədi ki, elmi işini başa çatdırsın. Böyük oğlu Əhmədin toy sevincini yaşasa da, Rüfətin bu mərasimini görmədi. Ruhəngizin xeyir işində iştirak etmədi. Atasız böyümüş Feyruz Quliyev sevib-seçdiyi Qənurəni (rəsmi adı Tinatin) yarıtmadı. Qoşa ömrün nəvəli günləri onlara qismət olmadı. Urudda dünyaya gəlmiş Feyruz Quliyev Sumqayıtda torpağa tapşırıldı.

Hər kəsin qəlbində bir xoş xatirəsi qalan Feyruz müəllimin yarımçıq qalmış yolunu indi övladları davam etdirir. Mənim xatirəmdə isə Feyruz müəllim mehriban, səmimi, həssas bir insan kimi yaşamaqdadır. Sevinirəm ki, indi onun ocağında balaca Feyruz dil açmaqdadır.

## BƏKİR TAHİROV

1940-cı ildə Urud kəndində anadan olub. Rəsmi sənədlərdə adı Bəkir olsa da, kənddə hamımız ona Zakir deyərdik. Orta məktəbi bitirdikdən sonra oxumaq arzusu ilə Bakıya gələn Bəkir Tahirov Azərbaycan Dövlət Universitetinin fizika fakültəsində təhsil aldı. 1963-cü ildə universiteti uğurla bitirərək əmək fəaliyyətinə Azərbaycan Elmlər Akademiyasının Şamaxı Astofizika Rəsədxanasında kiçik elmi işçi vəzifəsindən başlamışdır. Burada maraqlı elmi, astrofiziki tədqiqatlar aparmışdır.

1965-ci ildə aspiranturaya daxil olaraq təhsilini uğurla başa vurdu. Bəkir Tahirov həm Azərbaycan EA-nın Fizika İnstitutunda , həm də Litva EA-nın Yarımkeçiricilər İnstitutunda müxtəlif tədqiqatlar apararaq bir sıra maraqlı fiziki hadisə effektlərini dərindən araşdırdı. Tapdığı yeni elmi nəticələr əsasında namizədlik və doktorluq dissertasiyalarını işləyərək onları uğurla müdafiə etmişdir.

Bəkir Tahirov hazırda AMEA-nın H.Abdullayev adına Fizika İnstitutunun aparıcı elmi işçisi, fizika-riyaziyyat elmləri doktorudur. O, qazandığı elmi nailiyyətlər barədə çoxlu sayda beynəlxalq elmi konfrans və simpoziumlarda məruzə edərək Azərbaycan elminin şöhrətini daha da artırmışdır. Bəkir Tahirov fizika ilə bərabər, təbiətşünaslığın da bəzi problemləri ilə yaxından maraqlanır. Uzun illər bu sahədə uğurlu yaradıcılıq axtarışları aparıb. İndiyə qədər qələmə aldıqlarım tanınmış bir alim haqqında rəsmi məlumatlar idi.

Bəkir Tahirovu, dediyim kimi, biz Urudda Zakir müəllim kimi tanıyırdıq. Elə indinin özündə də mən ona həmişə "Zakir müəllim"

deyirəm. Çünki bu müraciətin özündə bir doğmalıq, Urudlu günlərin istiliyini duyuram. Qoy dünya onu Bəkir Tahirov kimi tanısın. Biz urudlular isə ona "Zakir müəllim" deyə müraciət edir, ehtiram göstəririk.

## MƏKTƏB DİREKTORU



Məmməd Nəriman oğlu Alıquliyev kəndimizin ziyalılarından biridir. Hələ tələbəlik illərindən mən onu mehriban və istiqanlı bir insan kimi tanıyıram. 1973-cü ildə M.F.Axundov adına Azərbaycan Dövlət Xarici Dillər İnstitutunu bitirəndən sonra təyinatla Bərdə rayonundakı Samuxkənd orta məktəbində rus dili müəllimi işləyib.

O vaxtlar Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində oxuyurdum. Mən də Bərdə rayonunda çıxan "Kommunizm yolu" qəzetində təcrübə keçirdim. Yay olduğundan aran torpağının istisinə heç dözüm gətirə bilmirdim. Bir az da qəribçilik öz işini görürdü. O günlərdə həmişə Məmməd müəllim şagirdləri ilə yanıma gələr, məni darıxmağa qoymazdılar. Sonra da bütöv bir məktəb yığışıb məni şadyanalıqla kəndimizə yola salardılar. Nədənsə, Məmməd müəllimlə görüşəndə həmişə o illəri xatırlayıram. Bəlkə də bu ondan irəli gəlir ki, mən Bərdədə, tələbə yoldaşlarımın arasında fəxr edirdim ki, belə eloğlum, qohumum, qardaşım var.

Məmməd Alıquliyev 1977-ci ildən Bakı şəhərində yaşayır. Binəqədi rayonunda müxtəlif məktəblərdə müəllim işləyib, 1997-ci ildən Nəsimi rayonundakı 247 saylı orta məktəbdə direktor vəzifəsində çalışır. Həm həmkarları, həm valideynlər arasında böyük hörmət və nüfuz qazanıb. Hərdən onun haqqında xoş sözlər eşidəndə ürəyim dağa dönür. Düşünürəm ki, harada bir urudlu varsa, orada mütləq müvəffəqiyyət və uğur olacaq. Çünki o uca dağların qoynunda doğulan, təmiz hava udan, pak sulardan dadan insanlar həmişə zirvəyə uçuşludurlar.





## BİR AİLƏNİN NİŞANƏLƏRİ



Kənddə qonşu olmuşuq. Onların evi kəhrizin yanında yerləşirdi. Hər gün həyətlərindən keçib kəhrizə gedərdik. Rəhmətlik Məşədi Məhəmmədlə evləri yanaşı idi. Ataları Həsən kişinin üç qardaşı - Məhəmməd, Temir, Abış və Asya adlı bir bacısı var idi (Roza, Məxmər, Sabir və Qasım Hacıyevlərin anası). Həsən kişini mən görməmişəm. Haqqında həmişə maraqlı söz - söhbət eşitmişəm. Həyat yoldaşı da, özü də erkən vəfat etmişdi. Onlardan üç oğul, bir qız yadigar qalmışdı: Məzahir, Fərəməz, Lətif və Tamara xanım. Tamara xanım qonşu Vağədi kəndində müəllimə işləyirdi və orada yaşayırdı. Qardaşlar isə Sumqayıta köçmüşdülər. Yalnız yayda kəndə gələrdilər.

Ailənin sonbeşik oğlu Lətif Həsənzadə orta məktəbi bitirdikdən sona Naxçıvanda ikiillik Müəllimlər İnstitutunda təhsil alıb. Bir müddət, 1960-cı ilə kimi kənddə müəllim işləyib. Sonra isə təhsilini davam etdirmək üçün Bakıya gəlib. Qəribədir ki, bu dəfə o, başqa sənət seçib. Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olub.1966-cı ildə ali məktəbi bitirdikdən sonra Sumqayıt şəhərində klinikada cərrah işləyir. Həyat yoldaşı Tacirə Miriş qızı da həkimdir. Hazırda Sumqayıtda balalarımızın sağlamlığı keşiyində dayanır.

Bu həkimlər ailəsinin həm Sumqayıtda, həm də ətrafdakı yaşayış massivlərində böyük hörmət və nüfuzu var. Gözəl həkim, bacarıqlı təbib olmaqla yanaşı, bu ömür-gün dostları həm də nəcib insan, mehriban ailə başçılarıdır.

# TEMİR KİŞİNİN ÖVLADLARI

Nəcəfli tayfasından olan Temir Əmiş oğlu Həsənov sovet hakimiyyəti qurulana qədər öz şəxsi təsərrüfatlarında işləmişdir. Sovet hakimiyyəti qurulduqdan sonra isə bolşeviklər onların əllərindən var - dövlətlərini zorla alaraq kolxoz yaratmışlar. Həmin dövrdə kənddə bir qədər işsizlik problemi ortaya çıxmışdı. Bəziləri kolxoza üzv olmaq istəmir, baş götürüb harasa gedirdilər. Belə adamlardan biri də Temir Həsənov olub. O, bir müddət Bakıda neft mədənlərində fəhlə işləmişdir. Lakin vətəndən, qohum - qardaşdan ayrı yaşamaq ona çətin olduğundan yenidən Uruda qayıtmışdır. Qonşu Ağdü kəndindən olan Tərlan adlı bir qızla ailə qurmuşdu. Kənddə hamı onları çoxuşaqlı ailə kimi tanıyırdı. Çünki Tərlan xanım qəhrəman ana idi. Ona hətta qızıl medal da vermişdilər. Onların 7 oğlu, 3 qızı var idi. Səmayə ilə Sarıgül tez ailə qurduqları üçün ali təhsil dalınca gedə bilmədilər. Ailənin qalan 8 övladı isə müxtəlif ixtisaslar üzrə ali təhsil aldı.

Temir kişi ömrünün sonuna qədər Urud kolxozunda anbardar vəzifəsində çalışmışdır. Böyük oğlu Mirseyib əvvəlcə Urud, sonra isə Vağədi kənd orta məktəbində riyaziyyatdan dərs deyirdi. Qarakilsədən ali məktəbə üz tutan cavanların əksəriyyətinin müəllimi məhz Mirseyib Həsənov olub.



Digər oğlu Qafar Həsənov isə 1957-ci ildə indiki Bakı Dövlət Universitetinin fizika fakültəsini bitirib. Bir müddət Azərbaycan Elmlər Akademiyasında çalışıb. Sonra aspiranturaya daxil olub. Elmə həvəsi onu tədqiqatlar aparmağa sövq edib. 1962-ci ildə namizədlik dissertasiyası müdafiə edib. 1971-ci ildə isə Tiflis şəhərində texnika elmləri doktoru adı almaq üçün dissertasiya müdafiə etmişdir. 1970-ci ildən Azərbaycan Neft və Kimya İnstitutunun fizika kafedrasında çalışan Qafar Həsənov 1972-ci ildən həmin kafedrada





professor vəzifəsinə seçilmişdir. Həmin ildən başlayaraq fizikanın müxtəlif sahələri ilə bağlı tədqiqatlar aparan Qafar Həsənov 1991-ci ildə ilk dəfə olaraq, məhz o, mayelərin fiziki xassələrinə lazer şüalarının təsirini həm nəzəri, həm də təcrübi olaraq tədqiq etməyə başlamışdır. Onun bu praktik əhəmiyyəti olan elmi işini nəzərə alaraq azərbaycanlı alimi Beynəlxalq Ekoenergetika Akademiyasına akademik seçiblər. Bu müddət ərzində görkəmli alimin rəhbərliyi altında 2 elmlər doktoru və 17 elmlər namizədi yetişmişdir. 285 elmi əsərin müəllifidir. Qafar müəllimin 12 elmi kəşfi müəlliflik şəhadətnaməsi almışdır.

Azərbaycan elmi və təhsilinin inkişafındakı xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. 2000-ci ildə Respublika Prezidenti Heydər Əliyevin sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif olunmuş Qafar Həsənov 2001-ci ildən Nyu - York Akademiyasının həqiqi üzvü seçilmişdir. Hazırda Azərbaycan Dövlət Neft Akademiyasında fizika kafedrasının müdiri vəzifəsini icra edən Qafar Həsənov AMEA - nın müxbir üzvüdür. İki övlad atasıdır. Hikmət və Elçin Həsənov qardaşları atalarının yolu ilə gedirlər. Həlelik hər ikisi elmlər namizədidir. Yeni uğurlar isə qarşıdadır.

İslam, Qulam, Elman Həsənov qardaşları da ixtisaslı mütəxəssislər kimi müxtəlif sahələrdə çalışırlır. Qulam Həsənov elmlər namizədidir. Hazırda Texniki Universitetin müəllimidir. Temir kişinin sonbeşik övladı Nəzakət xanımdır. 1965-ci ildə orta məktəbi bitirdikdən sonra bacısı qızı Tacirə (Lətif həkimin həyat yoldaşı) ilə birlikdə Bakıya gəliblər. Nəzakət Politexnik İnstitutuna, Tacirə isə Tibb İnstitutuna qəbul olunublar. 1968-ci ildə IV kursda oxuyarkən Urudun işıqlı ziyalılarından sayılan Təmreyxa ilə ailə həyatı qurub. Nəzakət xanım Mirismayıl Ağanın qızı Seyid Rübabə xanımın gəlini olub. Hazırda üç övladı var. İndi beş nəvəyə nənəlik edən Nəzakət xanım zarafatla deyir: "Mənim bu sahədə böyük təcrübəm və səriştəm var. Təcrübəsiz nənələrin hamısına kömək etməyə hazıram".

# BIZİM QONŞULAR



Yamin kişigil Qalacanın lap yanında olurdular. Bizim evimiz də Qalaca ilə üzbəüz idi. Həmişə bağ-bağatı suvarmaq üçün Yamin kişi bizim bağdan keçən arxı təmizləyər, hər birimizlə söhbət edə-edə dünyanın gərdişlərindən danışardı. Qəribə adətim var idi. Yazıq kişi bağa çatmamış mən onun suyunu kəsərdim. Əvvəllər qaça-qaça bizim bağa tərəf gələn Yamin dayı sonralar mənim vərdişimə adətkar oldu. Nə isə... Xanbuta xala ilə Yamin dayının üç övladı var idi. Qızları Sərvinaz tibb işçisi idi. Qonşu Qızılcıq kəndində yaşayan Savalan müəllimlə ailə qurmuşdu. Böyük oğlu Yaqub Bakıda oxuyurdu. Sonbeşik Hacı isə orta məktəbdə. Bu ailə haqqında düşünəndə həmişə kövrəlirəm. Yadıma unuda bilmədiyim çox yuxa məqamlar düşür.

Aşağı siniflərdə oxuyurdum. Hacı hər gün mənə bükülü bir kağız verər, bunu səkkizinci sinifdə oxuyan bir qıza çatdırmağımı xahiş edərdi. Söylərdi ki, onun riyaziyyat məsələsini həll eləmişəm, ver köçürsün. Bir dəfə xalamoğlu darvazanın yanında qarşımı kəsərək dedi:

- Əlindəki nədir?
- Heç başqasınındır.
- Məktub aparırsan?
- Yox, riyaziyyat məsələsidir.
- Əvvəlcə ver mən köçürüm, sonra apararsan.

Bu sözlər məni silkələdi. Çünki xalamoğlu məktəbdə riyaziyyatı yaxşı bildiyinə görə ad çıxarmışdı. Hətta müəllimlər onu "riyaziyyatın Allahı" adlandırırdılar. İndi birdən-birə onun köçürmək istəməsi mənə qəribə gəldi. Anladım ki, ovcumdakı elə məktubdur və onu xalam





oğluna verə bilmərəm. Bu səbəbdən də müqavimət göstərdim. "Yox, yox" deyərək ovcumu möhkəm tutdum. O, biləyimi sıxaraq məktubu məndən almaq istədi. Mən birtəhər onun əlindən qurtularaq ovcumdakını ağzıma təpdim. Kağızları uddum, amma vermədim. Bu sirri isə heç kəsə danışmadım. Özüm də bilirdim ki, burda nə isə anlaşılmaz qeyri-adi bir iş var. Amma heç vaxt üzə vurmurdum. Günlərin birində eşitdim ki, Hacının anası qızın qarşısını kəsərək onu təhqir edib. Qızın valideynləri başqa yerdə yaşayırdılar. O, kəndimizdə nənəsinin yanında qalırdı. Bu təhqirdən sonra o gedən kənddən getdi. Bir də 30 ildən sonra təsadüfən Bakıda rastlaşdıq. Bəs Hacının taleyi nesə oldu?

Hacının rəsmi sənəddə adı Müstəcəb idi. Bir müddət kənddə solğun görünürdü. Sonralar Rusiyaya çıxıb getdi. Kurqan Tibb İnstitutunu bitirdi. Rusiyanın Almenova rayon xəstəxanasında həkim işləyirdi. Özünə ailə qurmuşdu, bir oğlu da vardı. Amma taleyi bəd gətirdi. Bu günə kimi onun ölümü müəmmalı qaldı. Bilən olmadı ki, əslində, Hacı niyə həyata vaxtsız əlvida dedi. Mən isə ürəyimdə başqa şeylər düşündüm. Yuvası dağılmış qaranquşlar heç vaxt xoşbəxt olmurlar.



Yamin kişinin böyük oğlu Yaqub Yolçuyev isə orta məktəbi bitirdikdən sonra əvvəlcə Naxçıvan şəhərindəki 4 saylı Fəhlə-Gənclər Məktəbində oxuyub, lakin ailə vəziyyətinin çətin olması ilə əlaqədar yenidən kəndə qayıdıb. Bir müddət hətta çoban olmuşdu. Təhsilə, elmə olan həvəsi sönmədiyindən 1959-cu ildə oxumaq arzusu ilə Bakıya gəlib. Sənədlərini Bakı Dövlət Universitetinin biologiya fakültəsinə verib. 1964-cü ildə həmin təhsil müəssisəsini fərqlənmə diplomu ilə bitirib. Həyatın bir çox çətinlikləri

bu mətin iradəli insanın qarşısına sədd çəkə bilməyib. Gündüz zavodda fəhlə, axşam isə aspiranturada oxuyub. Nəhayət, fəhləlikdən qurtularaq Bakı şəhərindəki 2 saylı xüsusi təyinatlı orta məktəbdə müəllim işləmişdir. Yaqubun qeyri-adi biliyə, dərin savada malik olması onun ömür yoluna işıq saçır. Nəhayət, Azərbaycan Milli Elmlər Akademiyasının Geologiya İnstitutunda işə düzəlir. Bununla da onun bütün ömrü bu institutla bağlı olur. Laborant kimi işə başlayan Yaqub Yolçuyev baş elmi işçi vəzifəsinə kimi yüksəlir. 1971-ci ildə elmlər namizədi, 1984-cü ildə isə elmlər doktoru alimlik dərəcələri almaq üçün dissertasiya müdafiə etmişdir. Biologiya elmləri doktoru Yaqub Yolçuyevə 2000-ci idə professor elmi adı verilmiş, 2001-ci ildə isə AMEA-nın müxbir üzvü seçilmişdir. AMEA biologiya elmləri bölməsinin Büro üzvü, Zoologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, zoologiya, etnomologiya və parazitologiya elmi sahələri üzrə ixtisaslaşmış doktorluq müdafiə şurasının sədri, Avropa Biokimyaçılar və Molekulyar Bioloqlar; Azərbaycan Zooloqlar Cəmiyyətinin üzvüdür. Yaqub Yolçuyev ilk dəfə Azərbaycanda zoologiyanın, o cümlədən də parazitologiyanın inkişafı üçün vacib olan parazit-sahib münasibətlərinin molekulyar-biokimyəvi əsaslarını öyrənən yeni bir elm istiqaməti yaratmış, laboratoriya təşkil etmiş və onun rəhbəridir. Yaqub müəllimin yüzlərlə tələbəsi onun başladığı işi ləyaqətlə davam etdirirlər.

Urudlu alim 105 elmi məqalənin, 3 kitabın, bir neçə ixtiranın müəllifidir. Yaqub Yolçuyevin rəhbərliyi altında 7 elmlər namizədi və elmlər doktoru yetişmiş, onlarla aspirantı namizədlik dissertasiyası üzərində işləyir. Həyat yoldaşı Anaxanım Yusifova da kənd təsərrüfatı elmləri namizədidir; ADPU-nun dosentidir. Qızı Nigar Yolçuyeva biologiya elmləri namizədidir. AMEA-nın Fiziologiya institutunda böyük elmi işçidir. Oğlu Anar Azərbaycan Neft Akademiyasını bitirib, Azersell şirkətində şöbə müdiridir.

**2006.**

**Nə acılar ki, Yaqub müəllim qəflətən dünyasını dəyişdi.**

**2007.**





# QURUYAN AĞACLAR

Onlar əvvəlcə kəndimizin yuxarı başında yaşayırdılar. Sonra bizə qonşu gəldilər. Özlərinə gözəl ev-eşik tikdilər; bağ-bağat saldılar. Yurin Şahverənovun atası İkinci Dünya savaşından qayıtmamışdır. O, evin böyük oğlu kimi bacı-qardaşlarına, sözün əsl mənasında, atalıq edirdi. Özü oxumasa da, fəhləliklə, zəhmətlə qardaşlarının ali təhsil almalarına nail olmuşdu. Kənddə hamının Firdovsi müəllim kimi tanıdığı Lütvin Şahverənov müəllim idi. Bir müddət qonşu Şəki kəndində işlədikdən sonra Bakıya köçmüşdü. Tariel Şahverənov da ali məktəbi bitirdikdən sonra Bakıda işləyirdi. Təəssüf ki, bu yaşıl ömrün budaqları çox tez qurudu. Urudun işğalından sonra qardaşların üçü də bir-birinin ardınca haqq dünyasına qovuşdu. Bir təsəlli var idi ki, bu quruyan ağacların yerlərindən yaşıl pöhrələr göyərməkdədir. İndi bu nəslin oğul-uşaqları, nəvə-nəticələri bir yerə yığışıb öz babaları haqqında fikirləşəndə ürəklərindən onu da keçirirlər ki, nə vaxtsa Uruda dönsünlər. O zümrüd guşənin qoynunda Allah ümidinə qalmış, ya bəlkə də erməni tapdağı altında saralmış dədə-baba ocağını ziyarət etsinlər. Kim bilir, bu, nə vaxt urcahamıza çıxacaq?

# SÖNMÜŞ İŞIQLAR

Həmişə onların bağından keçib kəhrizə gedərdim. Rəhmətlik Məşədi Məhəmməd mənim kənddə gördüyüm sonuncu molla idi. Uzaq-yaxın ellərdən onun yanına gələrdilər. Hətta ermənilər də ona dua yazdırardılar. Mən xəstələnəndə bir də görərdim ki, nənəm duanı stəkanın içinə salıb suyunu mənə içirdir. Guya Məşədi Məhəmmədin yazdığı bu dua məni sağaltmalıdır. Qəribə xasiyyəti vardı bu kişinin. Birdən elə mehriban, birdən də davakar olurdu. Heç nədən ətrafdakıları öz qəzəbinə düçar edərdi. Vay o günə ki, həmin anda bağdan keçib kəhrizə gedərdik. Kişi az qalardı bizi öldürsün. Amma yaxşı ürəyi vardı. Yetim qalmış qardaşı balalarına əsl atalıq etmişdi. Adil (biz kənddə ona Qənbər deyərdik) klub müdiri işləyirdi. Həyat yoldaşı Şükufə xanım da Kətən dayının qızı idi. Çox mehriban, səmimi, deyib-

gülən, zarafatcıl Şükufə xanım nədənsə kənddə yaşamaq istəmədi. Günlərin birində Adil işini təhvil verib Sumqayıta getdi. Bir neçə il keçməmiş ailəsini də özü ilə apardı. Onsuz da sıralanmış qonşu evlərin çoxunun sahibi Bakıda, Sumqayıtda, Gəncədə yaşadıqlarından işıqları yanmırdı. Bir işığı sönən də məhz Məşədi Məhəmmədgilin evi oldu.



Xüsusilə də, axşamlar mən qonşularımızın doqqazına baxa bilmirdim, ürəyim sıxılırdı. Həmişə səsli-küylü həyətə bir sükut düşmüşdü. Yaxşı ki, yay var idi. Onda bu evlərin işıqları yanar, məhəllədə bir şuxluq duyulardı.

İndi fikirləşirəm ki, bir qışın səssizliyinə darıxan bizlər indi bütöv bir kəndin sükutuna, məhvinə, bizsizliyinə, sahibsizliyinə necə dözürük? İndi bir evin, beş evin yox, bütöv kəndin işıqları söndürülüb.

## QONŞU QIZ

Ömrümün elə bir həddinin yaxınında dayandım ki, könlümün bütün gücü ilə pərən-pərən düşmüş duyğularımı ruhumun can atdığı bir nöqtədə cəmləşdirdim. Bu, yalnız xəyalımın gecə-gündüz lövbər saldığı doğma kəndimiz idi. Qəlbimin başı göynəyirdi. Ay Allah, kaş yenə o bağ olaydı, yenə daşları bir himə bənd kimi uçulacaq uşaq boydakı bağ divarları... Hər tərəfdən qızılgül ətri gələrdi. Alma çiçəklərinin rahiyəsi duyulardı. Quşların şən ciggiltisinə qoşulub səsimi





başıma salardım.

Dağlar qızı Reyhan, Reyhan,
Aləm sənə heyran, heyran.

Qonşu evdən ucaboylu, alagözlü bir qız hasara yaxınlaşıb narazılığını bildirərdi:

- Mənim adımı çəkmə.
- Sənə nə, mən mahnı oxuyuram.



Hər dəfə bu xatirə yadıma düşəndə hönkürtü ilə ağlamağım gəlir. Çünki Reyhan mənim uşaqlıq illərimin ən yaxın həmdəmi olub. İki məqamı ömrüm boyu unuda bilmirəm. Bir ali məktəbə qəbul olunanda onun sevincini, bir də Reyhanın qaçırıldığını eşidəndə mənim kədərimi...

Kəndimizdə gözəllər çox idi. Amma nədənsə bu qız hamıdan seçilirdi; Lap Cəfər Cabbarlının "Füruzə" hekayəsindəki kimi idi. Reyhan sözün əsl mənasında, türk gözəlinə bənzəyirdi. Onu başqalarından təkcə zahiri görkəmi deyil, mənəviyyatı, son dərəcədə duyğulu, həssas olması fərqləndirirdi. Anasını erkən itirdiyindən qardaşlarının da qayğılarını çəkən Reyhanla biz çox yaxın dost olmuşduq.

Məktəbə gedənə qədər ondan başqa heç kimi tanımırdım. Qonşu qızına elə bağlanmışdım ki, hətta ayrılanda elə bilirdim ki, ölərəm. Amma indi illərlə bir-birimizi görmürük. Elə ki, üz-üzə gəldik yenə də hər şeyi unuduram. Reyhan mənim üçün uşaqlıq illərim, pak, təmiz, arzularla döyünən qəlbim deməkdir. Mən onun üçün kiməm, nəçiyəm, bax, onu bilmirəm, Reyhan Quliyeva (qız familiyası belədir) Sumqayıt məktəblərinin birində müəllimə işləyir. Hərdən rastıma çıxanda sanıram ki, uşaqlığım elə o yaşa dönərək o boy-buxunda məni qarşılayır. Çox kövrəlirəm. Az qala, bütün olub-keçənlərin yaxasından tutaraq nəyi isə xatırlamaq, yada salmaq istəyirəm. Axı, bu, mənəm!

Qönçəli qızılgülləri dərib arxın suyu ilə sənə göndərən, şirin-şirin nağıllar uyduran və onun da baş qəhrəmanı olan Flora. Unutdunmu o günləri? Ehey...

## BİR URUDA DÖNƏLİM

Ofelya xanım Ağaqulu müəllimin qızıdır. Anası Şüşə xala bir müddət kəndimizdə poçtalyon işləmişdi. O, məndən yuxarı sinifdə oxuyurdu. Bizə tez-tez gələrdi. Evlərimiz yaxın idi. Bir kəhrizdən su içirdik. Böyük bacı-qardaşlarımız bir sinifdə oxumuşdular. Ailə arasında dostluq münasibəti var idi. Sonralar nədənsə soyuqluq yarandı. Kənd yeri idi. Bəzən də su, toyuq, it, pişik üstündə insanlar bir-birindən incik düşərdilər. Sözümün canı odur ki, Ofelya mənim üçün həmişə əziz olub. Ona və mənə bəlli olan bir çox xatirələr bizi birləşdirir. Kənddə ona Qəndi deyərdik. Urudda sanki bu, bir növ adətə çevrilmişdir. Çoxunun iki adı olardı.

Sonralar heç orta məktəbi başa vurmamış Qəndini qaçırdılar. Bununla da ünsiyyətimiz qırıldı. İndi hərdən xeyirdə-şərdə rastlaşsaq da, min ilin əzizi kimi görüşürük, söhbət edirik. Bilmirəm, nədəndir, bir belə doğmanın, yadın içində Ofelyanın- Qəndinin mənim qəlbimdə toxunulmaz yeri var. Bəlkə də bu, ən çox uşaqlıq illərinin ələdüşməz xatirələri ilə bağlıdır. O insana ki qəlbən yaxın olursan, vəssalam. O, sənə bütün qohumlarından doğmadır.

## LƏYAQƏTLİ ÖMÜR SAHİBİ

Ana yurdumuz Urudun ermənilər tərəfindən işğalından sonra onunla görüşməmişdim. Amma həmişə haqqında düşünürdüm. Çünki uzun illər "Urud" kolxozunun sədri işləyən Həmzə Tahirov əslində kəndimizin rəmzlərindən biri idi. Düz 18 il kolxoz sədri işləmişdir. Bir maraqlı fakt var ki, Həmzə Tahirova qədər kəndimizin yeniyetmələri mütləq təhsil dalınca gedər, müxtəlif şəhərlərdə oxuyar, ali savad aldıqdın sonra bir daha doğma yurda qayıtmazdılar. Ancaq yaydan yaya görüş yeri doğma kənd olardı. Məhz Həmzə Tahirovun bacarıqlı təsərrüfat rəhbəri olması nəticəsində kənddə böyük quruculuq işləri görüldü. Urudda yeni üçmərtəbəli məktəb binası, müasir tələblərə cavab verən kitabxana, klub, hamam tikildi, bütün həyətlərə su







çəkildi, kəndin telefonlaşdırılması başa çatdı, mavi ekran evlərə ayaq açdı, kənd camaatının yaşayış tərzi xeyli yüksəldi. Bu səbəbdən də kənd cavanlarının əksəriyyəti yönünü iri sənaye şəhərlərinə yox, elə təsərrüfata, doğmaca kəndimizə yönəltdi. Həmzə Tahirov çalışırdı ki, hər bir cavan münasib işlə təmin olunsun, kənddə yaşamağa, ömürlük qalmağa marağı artsın. Onlara torpaq sahəsi ayırır, yeni evlər tikilməsinə kömək edirdi. Cavanların kəndə bağlılığı xeyli artmışdır.

O zaman "Urud" kolxozu kənd təsərrüfatı məhsullarının istehsalına görə Respublikada qabaqcıl yerlərdən birini tuturdu. Heyvandarlıq, əkinçilik, bağçılıq getdikcə inkişaf edirdi. Fədakar və şərəfli əməyinə görə Həmzə Tahirov əvvəlcə "Şərəf nişanı", "Qırmızı Əmək Bayrağı", daha sonra isə "Lenin" ordenləri ilə təltif edilmişdir. Dəfələrlə qurultay nümayəndəsi seçilən kolxoz sədri bir neçə çağırış Ermənistan Ali Sovetinin deputatı olmuşdur.

Həmzə Tahirov təbiətsevər bir insan kimi böyük hörmət qazanmışdır. El arasında ona zarafatla "su azarkeşi" də deyirdilər. Sədr olduğu 18 ildə doğma kəndimizin təkcə iqtisadiyyatına, mədəniyyətinə fikir verməyib. O, həm də torpaq pərvanəsi kimi çalışıb. İlkin xeyirxahlığı məhz su ilə bağlıdır. Əvvəllər kəndin qız gəlini səhər - axşam çiynində səhəng ya kəhrizdən, ya da bulaqdan su daşıyardılar. Ətrafdakı bulaqlar isə eləcə axıb çaya tökülərdi. "Zor - zor" adlanan içməli suyu kəmər vasitəsilə kəndə gətirdilər. Buz kimi şirin su hə-

yətlərdə fəvvarə vurdu. Ağbirçək nənələr dönə-dönə alqışlar etdilər, "ömrün su kimi aydın olsun", - söylədilər. Həmzə Tahirovun su ilə bağlı qayğıları çox oldu. Yağış suyuna möhtac olan sahələrə su kəmərləri çəkildi. Bomboz təpələr yaşıl libas geyindi. Kəndimizin "Meydanlar" adlanan ərazisinin istifadəsiz sahələrində alma, qoz bağları salındı. "Gəncəli" adasının 5 hektar sahəsi yaşıllaşdı. "Mirəhməd" adlanan ərazi kol - kosdan təmizlənib alma, gavalı, armud bağlarına çevrildi. Ömrü boyu istifadəsiz qalmış "Taxtalar", "Xəşdərə" adlı sahələr də suyun hesabına cana gəldi. Su quru torpaqlara yeni həyat gətirdi.

Vaxtilə kəndimizdə İstisu çıxırdı. Qarabağdan, Muğandan, Borçalıdan, Göyçədən camaat onun sorağına tökülüb gələrdi. Min dərdin əlacı idi. Yeli olanın, qol - qıçı ağrıyanın ağrı - acılarını götürərdi, hər yaranı sağaldardı bu şəfalı su. Yazdan payıza kimi ətrafında çadırlar yan - yana düzülərdi. Bir çal-çağırlı dəmlər olardı ki. Sonra bu dirilik suyu birdən - birə yoxa çıxdı. Nə axtaran oldu, nə maraqlanan. Uzun və çox uzun illər keçdi. İstisuyun eləcə quru adı qaldı. Həmzənin də qəlbində yurd salmış bu dərd onu xeyli düşündürdü. Geoloqlar köməyinə çatdılar. Axtarışlar uğurla nəticələndi. Yerin təkindən İstisu bir daha işıqlı aləmə gülümsəyəndə Həmzə rahat nəfəs aldı, arzusuna çatmışdı. Həkimlər suyun böyük müalicəvi əhəmiyyətini, şəfaverici olduğunu yenidən təsdiq etdilər. Həmzə Tahirov bacarıqlı və ağıllı adam olduğundan mütəxəssislərlə məsləhətləşdi. Çünki sudan düzgün istifadə olunmalıdır. Bu məqsədlə də sanatoriya tipli pansionatın tikilməsi üçün layihə hazırlandı. Bu xeyirxah işin təməl daşlarını məhz Həmzə müəllim qoydu.

Əlbəttə, bir kolxoz rəhbəri kimi onun qayğıları çox idi. Amma həmişə çalışırdı ki, kənddən çıxan alimlər, professorlar, başqa peşə sahibləri ilin bütün aylarını müxtəlif şəhərlərdə könül rahatlığı ilə yaşasınlar, yazsınlar, yaratsınlar, elmin zirvələrini fəth etsinlər. Amma ilin bircə ayını uzaq - uzaq şəhərlərə, kurortlara, sanatoriyalara getməsinlər, eləcə öz ana kəndimizə qayıtsınlar. Doğma kəndin qayğılarına, yeniliklərinə yadlaşmasınlar. Nəyi yox idi bu balaca Urudun? Təmiz havasını, buz suyunu, ətirli buğda çörəyini, cəvizini, qırmızıyanaq almasını, min dərdə dərman olan balını dünyanın heç bir nemətinə dəyişmək mümkün deyildi.

Amma təəssüflər olsun ki, bu xoşbəxtlik uzun sürmədi. 1988-ci





ilin deportasiyasından sonra bu dilbər guşə öz halal sahiblərinin əllərindən alındı. O illərdə Həmzə Tahirovun başına çox qeylü - qallar gəldi. Ermənilər ilkin olaraq onu öldürmək istəyirdilər. Duyuq düşən həmkəndlilər öz kolxoz sədrlərini xilas etmək üçün kənddən çıxartdılar. Anam rəhmətlik danışırdı ki, "saqallılar" Uruda doluşanda birinci hücum çəkdikləri yer Həmzə Tahirovun evi oldu. Daşnakların bağırtısından, vəhşi çığırtılarından qulaq tutulurdu. Evdə nə vardısa hamısını talan edərək pəncərələri, əşyaları sındırdılar. Hələ də o vahiməli mənzərə çoxlarının xəyalından silinməyib.

Xoşbəxtlikdən Həmzə Tahirovun ailəsi bu qovğadan salamat çıxdı. Hazırda Həmzə Tahirov Novxanıda yaşayır. Ömrü boyu zəhmətə bağlı olduğundan yenidən həmkəndlilərini başına yığaraq fermer təsərrüfatı yaratdı. Urudda yarımçıq qalan işlərini Novxanıda davam etdirir. Heyvandarlıqla, əkinçiliklə, bağçılıqla məşğul olur. İş başdan aşır. Bir də görürsən ki, səsi gah yonca sahəsindən, arpa, buğda zəmisindən, qoyun fermasından, gah da meyvə bağlarından gəlir. "Lap Uruddakı kimi yaratmışam hər şeyi. Amma nə hava o yerlərinkinə bənzəyir, nə də gözüm o uca dağları görür", - deyə Həmzə Tahirov kədərlə gülümsəyir.

Qəribədir, mən onunla Urudda son dəfə öz evində görüşmüşdüm. Həyat yoldaşı Xavər xanım çox mehriban və səmimi bir qadındır. Həmzə müəllimin həm də ən böyük xoşbəxtliyi belə bir fədakar, dözümlü, tədbirli, cəfakeş və sədaqətli xanıma rast gəlməsidir. Biz həm də qonşu idik. Hər dəfə Bakıdan kəndə dönəndə birinci görüşdüyüm qonşumuzun uşaqları olardı: Sərvinaz, Rüxsarə, Mübariz, Elşən, Elman... Bu dəfə uzun ayrılıqdan sonra mənim iş yerimdə söhbətləşdik. Artıq Həmzə Tahirov baba idi. Nəvələrindən danışırdı. Nədənsə elə kövrəldim ki... Hər dəfə bir urudlu görəndə elə bilirəm ki, o yerlərdən bir xəbər gətirəcək. Amma həmişə də müsahibim özü məndən soruşur: "Görən biz Uruda qayıda biləcəyikmi?" İçimizi doğrayan bu suallara uzun illərdir ki, cavab tapa bilmirik. İş də var, güc də, ev də, eşik də. Nə olsun ki? Canımızda bir qürbət ağrısı var. Vətənin içində qərib olmuşuq. Heç yazımı kövrək notlarla tamamlamaq istəməzdim. Çünki Həmzə Tahirov həyatsevər, nikbin, mübariz bir insandır. Nə vaxtsa Uruda dönəcəyinə tam əmindir. Nə deyirik, təki qismətimiz olsun, qardaş!

## BƏY NƏVƏSİ



Sahib Abdullayev Abdulla müəllimin böyük oğlu, Əsəd bəyin nəvəsidir. Uşaqlıqdan təbiətə, atasının sənətinə, anasının peşəsinə (anası Səmayə xanım uzun müddət su mühəndisi olmuşdur) böyük marağı vardı. Saatlarla Bazarçayın sahilində dayanar, suların qırağında ara-sıra gözünə dəyən qızıl balıqların naxışında, Urud dağlarının qeyri adiliyində minbir sehirli hisslər keçirərdi. Orta məktəbi bitirən kimi Bakıya gələrək indiki Bakı Dövlət Universitetinin geoloji-coğrafiya fakültəsinə daxil olub. Sonralar bir müddət Kənd Təssərrüfatı Nazirliyinin Erroziya və Suvarma Elm-İstehsalat mərkəzində işləyib. 1983-cü ildə görkəmli Azərbaycan alimi, akademik Həsən Əliyevin rəhbərliyi ilə coğrafiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə edib. 60-a yaxın elmi əsərin, kitabçanın, tövsiyənin, 150-dən çox elmi publisistik məqalənin müəllifidir. Kənd Təssərrüfatı Nazirliyinin "Erroziya və Suvarma" Elm İstehsalat Mərkəzində "Erroziyaya uğramış torpaqların meliorasiyası" laboratoriyasının rəhbəri olub. Doktorluq işində "Azərbaycanın Xəzəryanı sahillərində ekoloji pozulma və defilyasiya prosesi" nə həsr olunub.



**Əsəd bəyin nəvəsi Səyyar Həbib oğlu**

Böyük bir nəslin nümayəndəsi olan Sahib Abdullayev görkəmli alim olmaqla bərabər, həm də mehriban, səmimi, vətənpərvər bir





insan idi. Təbiətindəki sadəlik, sifətindəki işıqlı cizgilər, əməllərindəki xeyirxahlıq onun əsl bəyzadəliyindən xəbər verirdi.

## KƏNDİMİZDƏ GÖZƏLLƏR VAR İDİ



Hər dəfə Rəhilə ilə görüşəndə yadıma yazıçı Salam Qədirzadənin "Kəndimizdə bir gözəl var" əsəri düşür. Əlbəttə, ən çox da Rəhiləyə görə yox, onun anası, sevimli Səmayə xanıma görə. Nədənsə mənə elə gəlirdi ki, Səmayə xanım tayı-bərabəri olmayan gözəllər gözəli idi. Bu, təkcə onun zahiri yaraşığı ilə deyil, xasiyyətinin mülayimliyi, mehribanlığı, həssaslığı ilə ölçüyə gəlirdi.

Rəhilə hələ orta məktəbdə ikən dərslərini çox yaxşı oxuyar, təfəkkürünə, nəzakətli davranışına görə hamıdan seçilirdi. Anası Səmayə xanım geniş dünyagörüşlü, zamanın qeylü-qallarından xəbərdar, səmimi, hamı ilə isti münasibət saxlaya bilən insan idi. Bir müddət İrəvan su idarəsinin Sisian (Qarakilsə) şöbəsində mühəndis işləmişdi. Xatırlayıram ki, həmişə bir yerə gedəndə Allaha yalvarardım, kaş qarşıma Səmayə xala çıxa, xeyir-dua verə. Doğrudan da, təbiət ondan heç nə əsirgəməmişdi. Qənirsiz gözəl idi. Adama elə ülfət göstərərdi ki, onun varlığından sanki xoş emossiyalar qopardı. Bütün günü özünü mənən rahat hiss edərdin. Təbii ki, belə bir ananın sinəsindən süd əmən Rəhilə də öz mərifəti, elmi düşüncəsi ilə çoxuna nümunə idi. Hələ uşaqlıqdan riyaziyyata böyük həvəs və maraq göstərirdi. İki ali məktəbi - əvvəlcə Politexnik İnstitutunun elektronika, sonra isə Bakı Dövlət Universitetinin riyaziyyat fakültələrini bitirib. İlk əmək fəaliyyətinə 1969-cu ildə Azərbaycan Elmlər Akademiyasının Kibernetika İnstitutunda laborant vəzifəsindən başlayıb.

İnformasiya Telekommunikasiya Elmi Mərkəzində (indiki İnformasiya Texnologiyaları İnstitutu) böyük mühəndis, aparıcı

mühəndis, qrup rəhbəri, şöbə müdiri vəzifələrində çalışıb. 1992-ci ildən 1994-cü ilədək Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda (indiki Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçiliyi Akademiyası) və Türkiyə Respublikasının Ankara Universitetində müəllim kimi fəaliyyət göstərib.

Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutunda apardığı elmi araşdırmalar nəticəsində 2001-ci ildə "İnformasiya sistemlərinin adaptivliyinin layihə modelləri" mövzusunda dissertasiya işini müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsi adına layiq görülmüşdür.

1998-ci ildən Respublika Təhsil Nazirliyinin Elm İdarəsində aparıcı mütəxəssis vəzifəsində çalışır.

Bir çox beynəlxalq və respublika elmi konfranslarında (Rusiya, Türkiyə, İngiltərə və s. ölkələr) iştirak edib. Onun məruzələri Höte adına Alman Mərkəzinin, Rusiya Federasiyası Təhsil Nazirliyinin və yeni informasiya texnologiyaları üzrə YUNESKO İnstitutunun 2000-ci ildə Moskvada keçirilmiş beynəlxalq konfransın plenar iclasında və s. dinlənilmişdir. Rəhilə Abdullayeva 40-dan çox elmi məqalənin, bir çox dərs vəsaitinin, monoqrafiyanın və bir lüğətin həmmüəllifidir.

Rəhilə xanım respublikanın ali məktəblərində elmi kadrların hazırlanmasında böyük əmək sərf edir. O, hər il Təhsil Nazirliyi tərəfindən keçirilən ali məktəb tələbələrinin və gənc mütəxəssislərin elmi konfranslarının hazırlanmasının ən fəal təşkilatçılarından biridir.

Rəhilə Abdullayevanın elmi maraq dairəsi çox genişdir. O, informasiya texnologiyası sahəsində çox savadlı və bacarıqlı mütəxəssisdir. İnformatika ilə bağlı olan elm sahələrində öz bacarığından məharətlə istifadə edir.

2003-cü ilin iyun ayında o, müəlliflər qrupu sırasında Xəzər dənizinin ekologiyası üzrə məruzənin hazırlanmasında iştirak etmişdir. Məruzə ABŞ-ın Ekologiya üzrə Beynəlxalq Fənlərarası Assosiasiyası tərəfindən bəyənilmiş və Londonda keçirilən Beynəlxalq Ekoloji Konfransa təqdim edilmişdir. Konfransın təşkilat komitəsi tərəfindən seçilmiş 30 ən yaxşı məruzələr sırasında həmin məruzə assosiasiyanın antologiyasında çap edilmişdir.

Bütün bu söylədiklərimiz Rəhilə xanımın elmi fəaliyyətinin ayrı-ayrı səhifələridir. O, hazırda doktorluq işini tamamlamışdır. Bütün bunlardan sonra deyim ki, Rəhilə xanım mənim üçün doğulduğum





kəndin ən əziz parçası deməkdir. O, həm də mənim sevimli müəllimim olmuş Abdulla Abdullayevin qızıdır. Ailədə üç qardaş, üç bacı olublar. Hamısı da ali təhsillidir.



Özünə yaraşan ömür-gün dostu var idi Rəhilə xanımın. Əli Əliyev vaxtilə Bakı Dövlət Universitetinin dosenti, Ankara Universitetinin professoru idi. Təəssüf ki, bu qoşa ömrün xoşbəxtliyi uzun sürmədi. Ağlagəlməz qəza nəticəsində faciəli surətdə həlak olan Əli Əliyev çox sevdiyi həyat yoldaşını ömrün dolaylarında tək qoydu. Rəhilə taleyin bu amansızlığı qarşısında öz təmkin və məğrurluğunu itirməyərək balalarını ləyaqətlə böyütdü. Bir tərəfdən elmi işlərlə məşğul oldu, digər tərəfdən də zərif çiyinlərini ağır yükün altına verdi. Övladlarına həm ata, həm də ana olmağı bacardı. Qızı Səbinə qardaş Türkiyədə Qazi Universitetinin aspirantıdır. Oğlu Bəxtiyar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində ümumi şöbənin müdiridir. Kiçik qızı Aygün Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirdi.

Gözəl ailə başçısı, sevimli ana, sədaqətli dost, cəfakeş bacı, fədakar alim olan Rəhilə Abdullayeva hər şeydən öncə əsl vətəndaşdır. Doğma kəndimiz əlimizdən gedəndən sonra onunla tez-tez görüşür, bir sarı simin üstündə köklənirik. Bir-birimizə nə qədər təskinlik versək də, çox vaxt özümüzü ağlamaqdan saxlaya bilmirik. "Həyatın çox amansızlığını gördüm. Ömür-gün dostumu, valideynlərimi qəfildən itirdim, neçə qohumumun həsrəti ilə üzbəüz dayandım, amma, ay Flora, bunların heç biri məni Urud qədər yandırmadı" - deyə dərindən ah çəkən Rəhilənin dolu gözləri dəfələrlə qəlbimin başına od salıb. Heç vaxt da sözünün üstündən başqa bir ifadə işlətməyə taqətim çatmayıb. Hərdən də mənə elə gəlir ki, ikimiz də ayaq üstə qurumuşuq, ruhumuz içimizdən uçub gedir. Ehey, hardasan doğma, kənd?!

Bəzən də kövrəlməmək üçün özümüz qəsdən mövzunu dəyişib ordan-burdan danışırıq. Amma bir də ayılırıq ki, ya mən onun

anasından söz açıram, ya o mənim anamdan danışır. İçimizdən qovrula-qovrula həmişə də bir ah çıxır: kəndimizdə gözəllər var idi...

## UŞAQLIQ DOSTUM



Tərifəni nə qədər sevdiyimi ifadə edə bilmirəm. Bir kənddə doğulmuş, bir məktəbdə oxumuş, bir bulaqdan su içmiş, bir nəsildənik. Yadımdadır, ilk dəfə məktəbə gedəndə necə sevinmişdim. Cəmi bircə gün Tərifə ilə bir partada əyləşmişdim. Amma cəmi bircə gün. Yaşım çatmadığından Hafizə müəllimə bir daha məni sinfə buraxmadı. O vaxtlar ciddi qayda-qanun var idi. Yaşın çatmır, qurtardı. Baxmayaraq ki, məktəb direktoru da, sinif müəllimi də ən yaxın qohumlarımız idilər, amma anamın xahişlərini eşitmədilər. Mən bütün hərfləri tanıyır, hesabı da əla bacarırdım. Nə isə...

Tərifə orta məktəbin nümunəvi şagirdlərindən idi. Müəllimlər onu həmişə tərifləyirdilər. Aramızda bir sinif fərqi olmasına baxmayaraq, həmişə bir yerdə olardıq. Nədənsə tez - tez küsərdik. Barışmağımız uzun çəkərdi. Qəribə adətimiz var idi, məktublaşardıq. Bu ondan irəli gəlirdi ki, kənddə başqa əyləncə yeri olmadığından, sevimli məşğuliyyətimiz məktublaşmaq idi.Tərifə çox yaxşı oxuduğundan əla cümlələr yazardı. Mən də biliyimi, qabiliyyətimi "nümayiş" etdirmək üçün (bəlkə də ondan geridə qalmamaq naminə) çalışırdım ki, onun məktublarına bərabər bir şey yaza bilim. Sonralar mənə zarafatla deyərdi ki, sənin jurnalist olmağına əsas səbəb məhz uşaqlıq illərimizdəki məktublaşmağımız kömək etdi.

Biz orta məktəbin 7-8 -ci siniflərində oxuyarkən gələcəkdə atıq hansı peşənin sahibi olacağımızı müəyyənləşdirmişdik. Mən jurnalist, Tərifə isə həkim olmaq arzusunda idi.

O, arzusuna qovuşdu. Tərifə İsgəndərova həqiqətən də gözəl,





qabiliyyətli bir həkim oldu. 22 ildən çoxdur ki, Bakının Binəqədi rayonundakı Qadın məsləhətxanasında baş həkim vəzifəsində çalışır. Bacarıqlı müəssisə rəhbəri, təcrübəli həkim, nəcib insan olmaqla yanaşı, Tərifə İsgəndərova həm də gözəl ailə başçısıdır. Həyat yoldaşı Nazim İsmayılov hüquqşünasdır. Könül və Rüstəm adlı övladları var.

Bütün bunlardan başqa Tərifə İsgəndərova mənim üçün çox əziz bir dostdur. Hər dəfə onunla görüşəndə qəribə nostalji hisslər keçirirəm. Sanki ömrümün unudulmaz anlarını təzədən yaşayıram. Tərifə mənim üçün dünənki qayğısız uşaqlığım - bəxtəvər günlərim deməkdir. Bəlkə də buna görə onunla ünsiyyətdə olanda özümü o qədər yaxşı hiss edirəm ki... Ürəyimdən keçir ki, kaş yenə də çiynimizdə səhəng kəhrizdən su gətirməyə gedərdik. Yenə Urud olaydı, yenə o yamaca qalxardıq. Yol beləcə uzanaydı. Nəhayət, Tərifə hirslənib səhəngini yerə qoyub soruşardı: "Sən hara gəlirsən, eviniz aşağıda qaldı". Mən də ürkə - ürkə deyərdim: "Bacımgilə gedirəm". Harda qaldı o günlər? İndi onun qayğılarını əlindən alan Könül və Rüstəm, mənim isə ürək paralarım Elnur və Bəhruz bir - birləri ilə dostluq edirlər. Yaş ötsə də, içimizdəki xatirələr yaşamaqdadır.

## YAXŞI Kİ, VARSAN!

Həmişə uşaqlıq illərimə boylananda sən gəlib durursan gözlərimin önündə. Nə qədər acılı - şirinli xatirələrimiz var. On il bir sinifdə oxuduq, bir partada əyləşdik, bir ali məktəbin ayrı - ayrı fakültələrində təhsil aldıq, ailə qurduq, oğul - uşaq sahibi olduq. Bütün bu ömür yolunda əlaqələrimiz qırılmadı. Lap uşaqlıqdakı kimi bir - birimizə qarşı səmimi və mehriban olduq. Həmişə bu sözləri tez - tez işlədirik: "Biz bir yumurtanı bölüb yemişik. Yəni, həyatımız, duyğu və düşüncələrimiz eyni qayğının içindən keçib. Bu günün özündə də dara düşən kimi, kiməsə əsəbləşən anda sənə üz tuturam, səndən nəsə umuram. Çünki qayğınla, ipək xasiyyətinlə, yanımınla əsəblərimə sığal çəkirsən. Sənə dost deyimmi, ondan artıqsan. Bacı söyləyimmi, daha əzizsən. Qohum adlandırımmı (həqiqətən qohumuq). Lap yaxınsan. Yox, sənə sadəcə olaraq Rəmziyyə deyəcəyəm. Bir ildə, bir gündə dünyaya gəlmişik. Sanki əkiz tayımsan mənim. Ən

köhnə, ən sevimli, ən əziz, unudulmaz dostum, sən elə öz varlığımsan.

Rəmziyə Sahib qızı Quliyeva Urud kəndində anadan olub. Təbii ki, urudluların içində ən yaxşı tanıdığım, ən yaxın münasibətdə olduğum insanlardan biridir. Azərbaycan Dövlət Universitetinin



**Rəmziyyə xanım və həyat yoldaşı Arif Qaraşov**

kimya fakültəsini bitirib. Bir müddət Əkinçilik İnstitutunda çalışıb. Üç övlad anasıdır. Urudluların bütün xeyir - şərində yaxından iştirak edir. Son dərəcə xeyirxah və səxavətli insandır. Bir qardaşı Azərbaycanın, digəri isə Çeçenistanın milli qəhrəmanıdır.

Bizim söhbətimizin ünvanı həmişə Uruddur. Haradan başlasaq, gəlib doğma kəndə çıxırıq. Xatirələrin işığında uşaqlığımız keçən yerləri addım - addım gəzirik. Rəmziyyənin şaqraq səsi ilə xatırladıqları məni qəşş edənəcən güldürür: "Yadındamı, tələyə düşmüş tülkünü necə sürükləyib məktəbə gətirdik?", "Xatırlayırsanmı, Nəsibəni qara necə basmışdıq?", "Kömür sobasının içinə kartof düzdüyümüz yadındadır? Bişdikcə ətri sinfi bürümüşdü. Qorxudan götürüb yeyə bilmirdik", "Flora, rus dili müəllimi Melkumyanın başına açdığımız oyun





yadındadır?" Və nəhayət həyəcanla söylədi: "24 apreli unutmamısan? Allah, Allah, ermənilər nə hoqqadan çıxırdılar? Biz dərsdən gəlincə İfi də (anası İfratı nəzərdə tutur), Gözəl xalam da nə günə düşmüşdülər". Bu xatirələrin hər biri geniş bir mövzudur. Beləcə geriyə boylandıqca nələr yada düşür. Təəssüf ki, indi o doğma yerlərə ancaq ya xəyalların, ya da xatirələrin gücü ilə getmək olur. Başqa cür mümkün yoxdur. Nə əlimiz yetir, nə ünümüz çatır.

Rəmziyyə ilə tez - tez görüşürük. Mənə elə gəlir ki, yer üzündə ərk edə biləcəyim, bütün içimdəkiləri nöqtəbənöqtə söyləyəcəyim adam yeganə odur. Ürəyimdən keçən budur: nə yaxşı ki, sən varsan! Və həmişə də var olasan!

## XARİCİ DİL MÜƏLLİMƏSİ



Gülbəniz Cəfərova Urudda anadan olub. Gözlərini dünyaya açandan hər tərəfi zümrüd rəngində görüb. Evləri kəndin yuxarı başında - Pürül bağlarına tərəf uzanan hündür qayalıqların üstündə yerləşirdi. Atası Cəmil kişi həyatın, çətin dolanışığın hər üzünü görmüşdü. Min bir əziyyətlə, zəhmətlə özünə gözəl ev - eşik düzəltmişdi. Fağır kişi özü oxumadığından uşaqların təhsilinə çox fikir verirdi. Balalarının üstündə nanə yarpağı kimi əsirdi. Ən böyük arzusu onların ali təhsil almaları idi.

Xoşbəxtlikdən Gülbəniz hələ orta məktəbdən dərslərini yaxşı oxuyurdu. Çoxumuzun müəllimi olmuş Qasım Hacıyev alman dili fənnini Gülbənizə necə sevdirmişdisə, qız hələ şagirdlikdən mütləq Xarici Dillər İnstitutunda oxuyacağına qərar vermişdi. Orta məktəbi bitirən il atası Gülbənizi Bakıya gətirdi. Qız qəbul imtahanlarını verib tələbə biletini alana qədər ata da Bakıda qaldı. Cəmil kişi ən böyük arzusuna yetmişdi. Sevincindən bilmirdi ki, neyləsin. Onun da ocağında ali məktəbdə oxuyan vardı.

Gülbəniz Cəfərova institutda oxuduğu illərdə alman dili ilə bərabər ingilis dilini də mükəmməl öyrəndi. Bir neçə dəfə Almaniyada təcrübə keçdi.

Hazırda Bakı məktəblərinin birində balalarımıza ingilis və alman dillərini öyrədən Gülbəniz xanım həm də xoşbəxt ailə sahibidir. Həyat yoldaşı Fəxrəddin, oğlanları Rüfət və Fərid onun ömür sevincləridir. Amma həmişə gözlərində dərin bir kədərin izi duyulmaqdadır: "Yay tətilində elə pis oluram ki... Kəndimizdən ötrü burnumun ucu göynəyir. Doğrudur, ömür - gün dostum bizi təbiət qoynuna, dilbər guşələrə aparır. Neyləyəsən ki, Urudun yerini vermir. Kaş o Zor-zor bulaqdan bir stəkan su içəydim. Bircə dəfə Pürül bağlarını gəzəydim", - deyə Gülbəniz dərindən köks ötürdü. "Mən yenə birtəhər dözürəm. Anam Aynişan lap çox fikir edir. Hərdən düşünəndə dəhşətə gəlirəm. Yəni, biz Qarakilsəni - onun o gözəl guşələrini bir daha görməyəcəyik?"

## LEYLAMIZ



Urudun gözəl - göyçək xanımlarından biri də Abdulla müəllimin ortancıl qızı Leyladır. Xasiyyətində, qohum - əqrabaya münasibətində anası Səmayə xanımın mehribanlığını, yanımlığını, səmimiyyətini xatırladan, vətənpərvərliyində atası Abdulla müəllimə, səxavətində, əliaçıqlığında babası Əsəd bəyə çəkən Leyla Abdullayeva elimizin ən zərif çiçəklərindən biridir. Orta məktəbdə də, texnikumda da, universitetdə də əla qiymətlərlə oxuyub. Hazırda Bakı Yeyinti Sənaye texnikumunda müəllimədir.

Elə şux, gülərüz, həlim təbiətlidir ki, hər dəfə onu görəndə xəyalıma Urudun gül - çiçəkli yamacları gəlir. Elə bilirəm ki, o gülüstanın ən canlı, həmişəbaharlı çiçəyi məhz Leyladır. Bu zərif xilqətin varlığında Urud adlı əlçatmaz elimizin həsrəti də yaşamaqdadır. Bircə





kəlmə o yerlərdən söz düşsə, Leyla bulud kimi dolur, həmişə təbəssümlü sifətinə kədər çökür: "Biz əvvəl - axır Uruda gedəcəyik. Bu qədər vətənsiz qalmaq olmaz. Mən hər gün övladlarıma Uruddan danışıram. Öyüdüm, nəsihətim,vəsiyyətim kimi ruhlarına hopsun. Mənə qismət olmasa, qoy onlar analarının vətənini görmək arzusunu həyata keçirsinlər. Nə qədər ki, biz yaşayırıq, Urud da var! Hər bir urudlu bir Urud deməkdir".

Qızı Sevdanın toyunda neçə həmvətənimlə görüşdüm, qəlbim riqqətə gəldi. İlə bildim ki, Urudun bütün dağı, dərəsi o gün çiçək açırdı. Çünki sözümüzdə, gözümüzdə, özümüzdə bir Urud havası duyulurdu. Qədim bir türk şərqisinin harayı qəlbimi titrətdi:

"Yurda dönəlim, arkadaş!"

## AYBƏNİZ MEHDİYEVA

ADU-nun filologiya fakültəsində təhsil alıb. AMEA-nın Beynəlxalq Münasibətlər İnstitutunun əyani aspiranturasını bitirib. Uzun müddət Beynəlxalq Münasibətlər İnstitutunda kiçik elmi işçi vəzifəsində çalışıb. Hazırda Sumqayıt Dövlət Universitetinin Müasir Azərbaycan ədəbiyyatı kafedrasının müəllimidir. Elmi məqalələri Milli Münasibətlər İnstitutunun və Azərbaycan Müəllimlər İnstitutunun Sumqayıt filialının "Elmi əsərlər" buraxılışında çap olunub. Onun Urudun unudulmaz oğlu Məmməd Aran haqqındakı yazısını kitaba daxil etdim.

## İSTİQLAL MÜBARİZİ

Bütün ömrünü yalnız Azərbaycanın yox, bütün türklərin azadlıq və istiqlalına həsr etmiş Məmməd Sadıq Aran istər Azərbaycan Xalq Cümhuriyyəti parlamentində deputat olduğu vaxt, istərsə də onun süqutundan sonrakı dövrlərdə mübarizələrlə dolu həyat yaşamışdır. O, bu mübarizədə həm görkəmli siyasi, həm də yaradıcı şəxsiyyət kimi iştirak etmişdir.

Sadıq Cəmih oğlu Axundzadə 1898-ci ildə Zəngəzur qəzasının Qarakilsə nahiyyəsinin (indiki Sisian rayonu) Urud kəndində ruhani

ailəsində anadan olmuşdur. Onun babası Qafqaz Şeyxülislamı, atası molla Cəmih bəy isə o dövrün tanınmış ziyalılarından olmuşdur. O, ilk təhsilini atasının kənd uşaqları üçün tikdirdiyi xüsusi məktəbdə almışdır. Bir müddət sonra o, nahiyə mərkəzi Qarakilsədə ibtidai təhsil almış, sonra isə Naxçıvan şəhərindəki məktəbdə təhsilini davam etdirmişdir. Hələ uşaq yaşlarından ədəbiyyata maraq göstərən Məmməd Sadıq ədəbi yaradıcılığa Naxçıvanda oxuyarkən yazdığı satirik şeirlərlə başlamışdır. Şeirləri isə o dövrün qəzetlərindən olan "Açıq söz"də və "Füyuzat" jurnalında çap olunmuşdur. Elə bu şeirlərin nəşri ilə də Məmməd Sadığın ağrılı-acılı ömrü başlamış və bu acı onun bütün ömrü boyu davam etmişdir. Lakin buna baxmayaraq, öz əqidəsi, amalı və məsləkinə sadiq qalmış, heç bir haqsızlıq onun iradəsini qıra bilməmişdir.

Məmməd Sadıq Naxçıvan səkkizillik məktəbini bitirdikdən sonra polisin təqibindən yaxa qurtarmaq məqsədilə İrana qaçmış, 1914-cü ilin əvvəllərindən Marağa şəhərində yaşamışdır. O, Marağada bir ibtidai məktəb açmış və orada müəllimlik etmişdir. 1916-cı ildə Osmanlı imperatorluğu cihad elan edir. Məmməd Sadıq cihadın müddəalarını yaymaq məqsədilə yenidən Qafqaza dönür, aylarla Qafqazın müxtəlif yerlərini dolaşır.

1917-ci ildə Məmməd Sadıq Gorusa qayıdır. Orada bir məktəb açır. 1917-ci il inqilabından sonra həmin mahalda azərbaycanlılara qarşı ermənilərin başladıqları soyqırımının qarşısını almaq məqsədilə təşkilati işlərlə məşğul olur. Gördüyü tədbirlərdən biri Naxçıvana gedib, oradan Türkiyənin yardımını təmin etməkdən ibarət olur.

1918-ci ilin dekabrında Azərbaycan parlamentinə deputat seçilmişdir. O, Azərbaycan Milli Parlamentinə Zəngəzurdan seçilən yeganə nümayəndə olmuşdur. O, Müsavat Partiyasının mühacirlərlə əlaqədar komissiyasının üzvü vəzifəsində çalışmışdır. 1920-ci il 27 aprel istilasından sonra o, Müsavat Partiyasının Qarabağda yaradılmış gizli təşkilatının sədri seçilir. Buna görə də davamlı təqiblərə məruz





qalır. 1921-ci ilin ikinci yarısına kimi gizli fəaliyyətini davam etdirir. Həmin il o, Müsavat Partiyası tərəfindən Türkiyəyə göndərilir və İstanbulda dövlət nümayəndələri ilə görüşlər keçirir. Azərbaycana qayıdan vaxt Batumda həbs edilir. İki il ərzində Tiflisdə "ÇK"-nın zindanlarında ağır işgəncələrə məruz qalan Məmməd Sadıq məhkəmə prosesində özünü ruhi xəstə kimi qələmə verir və həbsdən azad edilir.

1923-cü ilin sonlarına kimi gizli Müsavat Partiyasının sıralarında fəaliyyətini davam etdirən Məmməd Sadıq yenidən İrana keçmək məcburiyyətində qalmış və 1924-cü ilin yanvarında oradan Türkiyəyə getmişdir.

1924-cü ildən Məmməd Sadığın həyatının yeni dövrü başlanmışdır. Müsavat Partiyasının Xarici bürosunun qərarı ilə mədəniyyət komissiyasının nəzdində Azəri Türk Gənclər Birliyi yaradılır və həmin birliyin sədri seçilir. Birliyin əsas məqsədi gəncləri təşkilatlandırmaq, onlarda milli ruhun yüksəldilməsinə nail olmaq, həm də ehtiyac hiss edən üzvlərinə yardım göstərməkdən ibarət olmuşdur.

Bu vaxtdan etibarən M.S.Aranın mübarizəsi yalnız Azərbaycanı deyil, bütün türk ellərini əhatə edir. Bu mübarizə həm də Azərbaycan siyasi mühacirəti üçün kəskin ixtilaflar müşayiət olunan ağır bir dövrə təsadüf edir. Mayasında əsasən şəxsi ambisiyaların dayandığı bu ixtilaflar 1929-1932-ci illərdə Türkiyədəki müsavatçılar arasında ziddiyyətin daha da dərinləşməsinə, siyasi mühacirlərin əsas təşkilatları olan Azərbaycan Milli Mərkəzi və Müsavat Partiyasının Xarici Ölkələr Bürosu daxilində qruplaşmaların yaranmasına gətirib çıxarmışdır.

1929-cu ildə mühacirlərarası ixtilafları dərinləşdirən əsas məsələlərdən biri də "Milli vərəq" məsələsi idi. "Azəri Türk" dərgisinin məsul müdiri Məmməd Sadıq Aran həmin dərginin 28-29-cu saylarında yazırdı: "Doqquz sənədin bəzi qızıl ruslara qarşı xaricdə Azərbaycan davası aparanların... fəaliyyətinin səmərəsi olaraq ortada istiqlal davasının tarixi vərəqə və vəsiqələri toplanmışdır". Mühacirlər böyük biabırçılıq kimi qəbul etdikləri "milli vərəq"in əllərə keçməsi

məsələsində Məmməd Sadıqdan şübhələnirdilər. Günahsız olduğunu sübut etmək məqsədi ilə Məmməd Sadıq jurnalist təhqiqatına başlyaraq işi axıra çatdırıb "milli vərəq"i əllərə verən adamın Şəfi bəy olduğunu elan edir... "Azəri Türk" dərgisinin həmin sayında M.Sadıq "Paydos, əfəndilər, paydos!" başlıqlı məqalədə yazırdı: "Xəyanətin Rəsulzadə Məhmət Əmin bəyin arkadaş və silahdaşlarından Rüstəmbəyli Şəfi bəy tərəfindən yapıldığını təsbit etdik".

1932-ci ildən "Yeni Qafqaz" jurnalını M.Ə.Rəsulzadə ilə birlikdə nəşr etdirib. Bununla yanaşı, 1928-1931-ci illər arasında "Azəri Türk" jurnalını, 1928-ci ildə isə "Yaşıl Yaprak" jurnalını nəşr etdirmişdir. Hər iki jurnalın sahibi və məsul müdiri olmuş, həmin dərgilərdə müxtəlif ictimai, siyasi, publisistik mövzularla çıxış etmişdir. Bu illərdə o, Azərbaycan istiqlalı uğrunda mübarizə apardığına görə "Aran" təxəllüsünü qəbul etmişdir.

1932-ci ildə Finlandiyada yaşayan türklərin dəvəti ilə oraya gedir və oradakı türk uşaqlarının təlim-tərbiyəsi ilə məşğul olur. O, eyni zamanda türk və fin dillərində "Yeni Turan" adlı qəzet nəşr edir, həmin qəzetin amalı türkçülük, türk-rus mücadiləsi və həmin mücadilənin tarixi kökləri və s. olmuşdur. Qəzetin 1932-ci il 4 aprel tarixli sayında oxuyuruq: "Türklüyünü qorumaq üçün bu millət ağır və qanlı bir cidala atılmış, silahsız, vəsaitsiz olmasına rəğmən qorxunc ölümlə boğuşuyor. Mən əsir həyatı yaşamam..." - deyən türk milləti istiqlal üfüqünə doğru çılğın bir sevgi həyəcanı ilə irəliləməkdədir. Belə üsyankar ruhlu nümunələr sübut edir ki, Məmməd Sadıq Aranın ədəbi və ictimai fəaliyyətinin əsasını millətə sədaqət, vətənə məhəbbət, demokratiya və milli müstəqillik uğrunda mübarizə təşkil edir.

1934-cü ildə Məmməd Sadıq təkrarən İstanbula qayıdır və Azəri Türk Gənclər Birliyində fəaliyyətini davam etdirir. 1936-cı ildə isə fars və rus dillərini mükəmməl bildiyindən "Cümhuriyyət" və "Ulus" qəzetlərinin İran müxbiri sifəti ilə həmin ölkəyə göndərilir. Beş il İranda yaşayan Məmməd Sadıq Aran 1941-ci ildə İstanbula qayıdır.





İranda yaşadığı müddətdə o, burada yaşayan soydaşlarının həyatı ilə yaxından maraqlanır, Cənubi Azərbaycanın ictimai-siyasi vəziyyəti, tarixi, görkəmli şəxsiyyətləri, ədib və şairlərindən bəhs edən "İran türkləri" əsərini yazır.

Ötən əsrin 50-ci illərindən sonra Məmməd Sadıq Aranın mübarizələrlə dolu hərtərəfli fəaliyyətində insan psixologiyası, xalqın fikir və düşüncəsi əsas yer tutur. Bu illərdə o, "Azərbaycan Qarşılıqlı Yardım Cəmiyyəti"ni yaratmışdır. Xeyriyyəçilik adı altında fəaliyyət göstərsə də, cəmiyyətin əsas qayəsi Azərbaycan istiqlaliyyəti fikrini şüurlarda yaşatmaq, onun uğrunda mübarizə aparacaq gənclər yetişdirmək idi.

M.S.Aran sonralar yenə də jurnalistlik fəaliyyətini davam etdirmiş, 1951-ci ildə "Türk yolu" jurnalını buraxmışdır.

M.S.Aranın gənc nəslin vətənpərvərlik və millətsevərlik baxımından "Türkün altun kitabı", "Millətlərin haqqı və məhkum türklərin davası", "Qardaş köməyi", "Gənclərə nəsihət", "Qara köynək" kimi nəsr əsərləri, "Qaçaq Nəbi", "Top səsləri" adlı pyesləri, yüzlərlə siyasi-publisistik məqalələri onun irsinin dəyərli nümunələridir.

Onu da qeyd edək ki, istər sahibi və redaktoru olduğu jurnallarda, istərsə də yazıb-yaratdığı ictimai-siyasi, bədii, elmi əsərlərində o, gah "Məmməd Sadıq Aran", "Məmməd Sadıq Sisianlı", "Məmməd Sadıq Axundzadə" kimi açıq, gah da "M.S.", "M.S.S." kimi gizli imzalarla çıxış etmişdir.

M.S.Aran 1972-ci ildə İstanbulda vəfat etmişdir.

M.S.Aranın yaradıcılığının küll halında nəşr edilib xalqımıza çatdırılmasına ehtiyac var. İnanırıq ki, onun əsərləri demokratiya, milli müstəqillik uğrunda mübarizədə ictimai fikrin, Azərbaycan mühacir ədəbiyyatının və milli mühacirət tariximizin mühüm səhifəsi kimi vərəqlənəcək, haqq işinin tərcümanı sayılacaqdır.

# VƏTƏNİN RUHUDUR ŞƏHİD RUHU

## YANVARDA ATILAN GÜLLƏ



1990-cı ilin 20 yanvarında Vaqif Tahirov yaralanmışdı. Lakin onda ölümdən sovuşa bilmişdi. Uzun müddət xəstəxanada müalicə olunduqdan sonra sağalan kimi iş yerinə qayıtmışdı. Amma doğma torpaqlarımızın üzləşdiyi fəlakətlər Vaqifə dinclik vermirdi. Onun bütün fikri - zikri Qarabağda qalmışdı. Günlərin birində ata oğlunu cəbhəyə yola saldı.

Üç bacının bircə qardaşı idi Vaqif. Bakıdakı 52 saylı orta məktəbi və Politexnik İnstitutunun avtomatika fakültəsini bitirmişdi. İki il də hərbi xidmətdə olmuşdu. "Ozon" zavodunda mühəndis işləyirdi. Hələ orta məktəbdə oxuduğu illərdə idmanla məşğul olurdu. Dəfələrlə Bakı birinciliyi uğrunda keçirilən boks yarışlarında birinci yeri tutmuşdu. Atası Sabir Tahirov elmlər namizədi idi. Fzika İnstitutunda çalışırdı. Əsilləri Zəngəzurdan olan Vaqif Tahirov hər yay doğma yurdun yaşıllığa sığınmış qoynuna tələsərdi. Vaqifin uşaqlığı Urudda keçmişdi. O, bu yerlərin dağına, dərəsinə, gülünə, çiçəyinə, çəməninə, çayına vurğun kəsilmişdi. Gecələr Bazarçayın nəğmələrinə qulaq asar, gündüzlər Qədim Qalanın zirvəsinə qalxaraq dağların ovcunda əl içi kimi aydın görünən balaca kəndin ürəkaçan mənzərəsini minbir maraqla, heyranlıqla süzərdi. 1988-ci ilin payızında ermənilər Vaqifin bütün qohumlarını dədə baba torpaqlarından vəhşicəsinə qovdular. 25 yaşlı gənc bu ağır dərdi sinəsinə sığışdıra bilmirdi. Baba yurdunun erməni vəhşilərinin əlində qalmasına tablaşmırdı. Qəlbi intiqam hissi ilə çırpınırdı. Min təəssüf ki, bu çırpıntı çox eşidilmədi. Məlum Daşaltı əməliyyatında Vaqif həlak oldu. 1990-cı ildə Bakıda Vaqifə atılan güllə 1992-ci ilin yanvarında





Qarabağ torpağında sinəsinə tuşlandı. Bir çinar boylu igidimiz də belə şəhid olu.

Vaqif haqqında danışanda bir hadisəni xatırlayıram: Ölümündən bir həftə öncə Bakıya gəlmişdi. Özü ilə birlikdə yaralanmış dostunun itini də gətirmişdi. "Hospitalda yatır, Alazan (itin adı idi) onsuz məhv olardı, qorxdum. Yiyəsi xəstəxanadan çıxan kimi gəlib aparacaq", - deyə Vaqif doğmaları ilə görüşərək cəbhəyə qayıtmışdı. Doğmalarını da elə ən çox bu yandırırdı ki, Vaqif adi bir itin də arada - bərədə qalıb ölməsinə qıymamışdı. O vaxt evin tək oğullarını müharibəyə aparmırdılar. Vaqif özü könüllü getmişdi. Hətta bir dəfə atası sözarası ona eşitdirmişdi ki, sən təksən. O an Vaqifin sifətində bir giley duyulmuşdu və o, incik halda demişdi: "Nə bir, nə beş? Hər kəs öz ömrünü yaşayıb, öz borcunu da verməlidir".

Vaqifdən sonra ailənin bütün tifaqı dağıldı. Valideynləri də ciyər - paralarının son gedişinə tab gətirməyərək qəflətən dünyalarını dəyişdilər. Vaqif Tahirovun müqəddəs məzarı Şəhidlər xiyabanında uyuyur.

Mayın bir ilıq günü Vaqifin ad günüdür. Hər dəfə əlimdə qərənfil onu ziyarətə gedəndə qəbrinin başında gözü yaşlı bir qız görürəm. Amma hənirti hiss edən kimi dərhal oradan uzaqlaşır.

## UCABOYLU, QARAGÖZLÜ AQİLİMİZ



Yurd itirdik, el itirdik... İlahi, azmış. Ucaboylu, qaragözlü igidlərimiz əlimizdən getdi. Şəhidlik zirvəsindən boylanan Aqil Quliyevin Xocalı soyqırımında qəhrəmanlıqla həlak olduğu gündən illər keçir. Sinəmizə köz kimi sıxılan o günlər ovqatımıza gah qürur gətirdi, gah da bizi çəkilməz nisgillərə tuş etdi.

Aqil qədim Zəngəzur mahalının dilbər bir guşəsində - Urud kəndində dünyaya gəlmişdi. Dağların ovcunda yerləşən bu kənd türk mədəniyyətinin əsrlərin o tayında qalmış xəttat, ozan babalarımızın

yaradıcılığını, sənətkarlığını daşlarda, qalalarda yaşadan təbii bir muzey idi. Orta məktəbi doğma kənddə bitirdikdən sonra ali təhsil almaq məqsədi ilə uzaq diyarlara üz tutan oğullarımız Vətən dara düşəndə harayına birinci getdilər. Aqil Quliyev də Xarkov Ali Yanğınsöndürənlər Məktəbində oxuyurdu. Həmin ərəfədə, soyuqlu - şaxtalı bir qış gecəsində ermənilər bu kəndin sakinlərinə olmazın müsibətlərini verdilər. Onları döyə - döyə, zorla, sürüyə - sürüyə üstüaçıq maşınlara dolduraraq kənddən çıxardılar. Bu acı xəbəri eşidəndə Aqil sarsılsa da, əlindən heç nə gəlmədi. Atası Sahib Quliyev biz nəslin, demək olar ki, hamımızın müəllimi olmuşdu. Vətən sevgisini, torpaq uğrunda fədakarlığı bizə öyrədən müəllimimiz həyatın bu amansız gərdişi qarşısında aciz qalmışdı. Ömrü boyu tərənnüm etdiyi sovet dövlətinin bu ikiüzlü siyasətini, baş verən haqsızlıqları qəbul edə bilmirdi.

1991-ci ilin bir payız axşamı qapı döyüldü. Gələn Aqil idi. Təyinatı Perm şəhərinə olsa da, o, Vətəninin harayına dözməmişdi. Qeyrət onu Qarabağa apardı.

Üç ay Xocalıda alay komandiri kimi fədakarlıq göstərdi. Onun igidliyi çoxuna bəllidir. Bu barədə məqalələr, kitablar yazılıb, videolentlər çəkilib. Əsgərlər də onun xətrini çox istəyirdi, yerli sakinlər də. Cəsarətinə, hünərinə hamı bələd idi. 1992-ci il fevral ayının 2-də çox mühüm bir əməliyyat zamanı ayağından iki güllə yarası aldı. O döyüşdə düşmənin 20-dən çox qaniçənini məhv etmişdi Aqil. Mühasirəyə alınmış bu bədbəxt taleli şəhərdən yaralı komandiri çıxarmaq mümkün olmadı. Köməyə gələn də yox idi.

Xocalı soyqırımından bir qədər əvvəl Azərbaycan televiziyasının müxbiri Qulu Məhərrəmliyə verdiyi müsahibədə Alay komandiri Aqil Quliyev cəbhədə baş verən uğursuzluqların səbəblərindən danışaraq o dövrdə respublika prezidenti olan Ayaz Mütəllibovun göstərdiyi laqeydlik və biganəliyə öz hiddətini bildirmişdir. Təəssüf ki, o zaman Teleşirkətin rəhbərliyində əyləşənlər də Ayaz Mütəllibova xidmət göstərən dinsiz, imansız, duyğusuz qullar idi. Onlar həmin çıxışın ekranda getməsinə icazə vermədilər. Soyqırımı baş verəndən çox sonra o kadrı biz ekranda ilk dəfə 1994-cü ildə gördük. Artıq nə prezident Ayaz Mütəllibov Azərbaycanda idi, nə də Aqil Quliyev yaşayırdı. Xocalı soyqırımından bir neçə gün əvvəl əsgərlər komandirlərini döyüş mövqeyindən uzaqlaşdırmağa çalışsalar da,





mümkün olmayıb. Məhz o müdhiş gecə Aqili xərəyə qoyub Xocalıdan çıxartmaq istədilər. Təəssüf ki, dolu kimi yağan güllələr heç kimə aman vermədi. İgid özü təkid edib ki, onu qoyub getsinlər. Əks halda özləri də həlak olacaqlar...

Böyük qardaşı tabır komandiri Nəsimi Quliyev Aqilin taxtaya dönmüş bədənini sinəsinə sıxarkən çəkdiyi nərə dağ - daşda əks-səda verib. Qardaş intiqamı onu xeyli müddət cəbhədə saxladı.

Döyüşçü bacımız, tibb işçisi Familə Novruzova danışır ki, Ağdamda Aqilin cənazəsi üstündə onun anasından, bacısından öncə mən ağlamışam. Elə orada and içmişik ki, qardaş, sənin qanın yerdə qalmayacaq.

Cəbhədə göstərdiyi igidliyə və qəhrəmanlığa görə Aqil Quliyev ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü. 1999-cu ildə ümummilli liderimiz Heydər Əliyev Milli Qəhrəmanın layiq görüldüyü yüksək mükafatı onun atası Sahib Quliyevə təqdim etmişdi.

Milli Qəhrəman Aqil Quliyev nəslimizin, pərən - pərən düşmüş elimizin qeyrətli balası idi. Təəssüf ki, atasına, anasına sədaqətli oğul olmadı, bir gözəli yarıtmadı, bir cüt bacını əzizləmədi. Ömrü kimi hər şey yarımçıq qaldı. Bircə torpaq məhəbbəti bütöv idi sinəsində. Bu bütövlüyə də qurban getdi.

Aqil Zəngəzurda doğuldu, Ukraynada oxudu, Qarabağda şəhid oldu. O, Vətən - Azərbaycan oğlu idi. Ölümsüzlüyə qovuşan Aqilin fədakarlığı, qazandığı hörmət, ad, şərəf qürurumuzu artırsa da, içimizi göynədir. Ucaboylu, qaragözlü bir oğulu necə unutmaq olar?

## AĞLAMA, ANAM, AĞLAMA...

O gün tək getdim Şəhidlər xiyabanına. Anaların ağısından, bacıların sızıltısından sinələr deşilirdi. İlk dəfə idi ki, Fərizənin, Ülvinin, Vaqifin, Aqilin qəbirlərinə qərənfil düzmədim. İlk dəfə idi ki, onlarla görüşmədən nakam bir oğulun məzarı önündə diz çökdüm. Ağdərənin Çıldıran kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuş, Azərbaycanın Milli Qəhrəmanı 25 yaşlı Fəxrəddin Nəcəfovun məzarı önündə dayandım. Bu hüznlü anlar nə qədər çəkdi, bilmirəm. Bir də onda ayıldım ki, yanımda yaşlı bir qadın dayanıb. Ağlamaqdan heyi tükənmiş bu biçarə yerə çökərək ürək

parçalayan səslə duyğularımı daha da dara çəkdi:

Düşmənin qolu qurusun
Səni vurduğu yerdə...

Handan-hana qadın dikəlib getmək istəyəndə soruşdum:
- Tanıya bilmədim sizi.
- Hardan tanıyasan, ay bala, mən, bax, o qəbirdə yatan Orucun bacısıyam. Gördüm ki, tək ağlayırsan, dözmədim.



Fəxrəddin 1967-ci ildə Bakıda ziyalı ailəsində anadan olub. Atası Vəliyəddin fələyin çox boz üzünü görüb. Çəkdiyi dərdlərin ən ağrılısı yurd, vətən dərdi idi. Qədim Zəngəzurun səfalı qoynunda yerləşən doğmaca kəndi - Urud yağılara qalmışdı. Qardaş - bacısı, qohum - əqrabası didərginliyin əzablarında qovrulurdu. Vaxtilə oğlu Fəxrəddini özü ilə birlikdə hər yay ata yurduna aparardı. Fəxrəddin hər şeyə bir uşaq marağı göstərərdi. Urudun adicə daşına, çiçəyinə, çayına, bulağına eləcə məftun olardı. 1988-ci ildən o kəndə uzanan yollar namərdcəsinə kəsildi. Yurd - yuvamız erməni tapdağında qaldı. Bütün bunlar azmış kimi Azərbaycanın qədim Qarabağ torpağında daşnaklar meydan suladı. Ağlagəlməz dəhşətlər, vəhşiliklər baş alıb getdi. Fəxrəddin kimi oğullar isə belə xəyanətə dözə bilməzdilər. Üz tutdular cəbhəyə. O, Xarkov Ali Yanğınsöndürənlər Məktəbini bitirmişdir. Arzuları geniş sinəsinə belə sığmırdı, amma... Amması odur ki, hər şey yarımçıq qaldı.

1991-ci ilin sentyabrında könüllü olaraq Goranboy cəbhəsinə getdi. Sorağı gah Todandan, gah Şəfəqdən gəlirdi. Yay da isə Qarabağda Canyataq, Gülyataq kəndləri uğrunda gedən döyüşlərdə ağır yaralanmışdı. Beş yerdən - çiynindən, qollarından, ayaqlarından həm güllə, həm də qəlpə yarası almışdı. Yaraları tam sağalmamış yenidən döyüşə yollanıb. Sonuncu dəfə 1992-ci il sentyabrın 2-də





cəbhəyə gedəndə ürəyi istəyənlərlə görüşüb, hətta halallaşıb. Qəribəsi budur ki, o şux, zarafatcıl oğlan anasından başlamış qonum qonşuya, qohuma, dosta kimi hamı ilə vidalaşaraq "bu dəfə qayıtmayacağam", - deyib. Anası Lida xanım yana - yana xatırlayaraq danışır ki, stolun üstünə üç şəkil və bir də kiçik məktub qoymuşdu. Məktubda yazılmışdı:

"Məni mütləq Aqilin yanında dəfn edərsiniz". (Milli Qəhrəman Aqil Quliyev Fəxrəddinin ata tərəfdən yaxın qohumu idi, Xocalı hadisələri zamanı həlak olmuşdur).

## O AYLI GECƏ

Ağaca söykənərək gözlərimi Fəxrəddinin qara mərmərdən boylanan şəklinə, mehriban gözlərinə diksəm də, xəyalım çox uzaqlara qanadlanmışdı.

Kənddə toy çalınırdı. Gəlin bizim evdə idi. Yevlaxlı Lida zəngəzurlu Vəliyəddinə könül bağlamışdı. Bacımın yaxın rəfiqəsi olan Lidanı anam öz doğma qızı kimi köçürtdü. O aylı gecə heç yadımdan çıxmır. Çox uşaq idim. Bacı dediyim Lidanın mehrinə sığınaraq dadlı söhbətlərinə qulaq kəsilmişdim. O qərib və qəribə gecə heç vaxt yadımdan çıxmır. Lida Ayla bağlı qəribə əfsanələr danışardı. İki il sonra isə Lida bacı Bakıdan bizə məktub göndərmişdi. İçində bir yaşlı Fəxrəddinin şəkli vardı. Arxasına yazmışdı:"Nənəm Gözələ yadigar". Fəxrəddinin cəbhədə həlak olmasını eşidəndə ikinci dəfə idi ki, anamın ölümünə açıqca sevindim (ilk dəfə Yanvar faciəsində belə hisslər keçirmişdim). Nə yaxşı ki, o yazıq qadın bu dərdlərdən xəbərsiz getdi.

## ÇALINMAYAN TOY

Fəxrəddin böyüdü, orta məktəbi ana babası Cümşüd kişinin yanında - Yevlax rayonundakı Yəldili kəndində bitirdi. Sonra isə Aqilin yolu ilə getdi. İstər həyatda, istərsə də taledə. Gələcək dərdlərdən xəbərsiz ana öz tədarükündə idi. Hər şey hazırlanmışdı. Toy şamlarından tutmuş, nişan üzüyünədək. Bəxt güzgüsü də alınmışdı, evi də vardı. Elçi getməyə hazırlaşırdılar ki...

...Həyətdə çadır quruldu. Qırmızı xonçalar ünvanını dəyişdi. Ananın fəryadı hər kəsi dağladı: "Qoymadılar balama baxım. O, belə gedə bilməzdi. Biz ona toy çaldırmalı idik...". Xalası Gülşən danışır ki, Fəxrəddinin son anlarında yanında olan döyüş yoldaşı Rafiq hospitalda yatanda yanına getmişdik. Nakam balamızın son sözləri belə olub: "Ana, ana... Anam mənə nişan aparasıydı". Hamımızın gözlədiyi o toy nə acılar ki, çalınmadı. Əvəzində bizə qismət olan yas məclisi sinəmizi dağladı.

## AĞRILI SÖZ - SÖHBƏTLƏR

1992-ci il sentyabrın 2-də yenidən cəbhəyə gedən Fəxrəddin saat 4-də düşmən gülləsinə tuş gəlib, 5-də Bakıya gətirilib. Günorta saat 1-dən 7-ə kimi Daxili Qoşunlar İdarəsinin qarşısında üstüaçıq maşında qalıb. Sürücüdən başqa yanında heç kim olmayıb. Təbii ki, o zaman Bakımızın öz adi həyatını yaşaması Fəxrəddin kimi igidlərin həyatının hesabına başa gəlmişdi. O, ərənlər, ərlər torpaq uğrunda ölümə gedirdilərsə, vətən naminə fəda olurdularsa, bəs o cür laqeydliyə nə ad verək?! Adi insanlıq borcu da unudulmuşdu. Doğrudur, itkinlərimiz çox oldu. Gözü yaşlı, qəlbi dağlı ata - anaların hamısının dərdinə - sərinə qalmaq çətin idi. Ancaq hər halda oğullarının cənazəsinin aparmağa gələn valideynlərdən qaçıb gizlənməyə heç cür haqq qazandırmaq olmur. Belə hərəkətlər elə o vaxt şübhə doğurur, başqa söz - söhbətlərin danışılmasına şərait yaradırdı. Yasın ilk günü qulağıma dəyən sözlər məni sarsıdırdı: "Fəxrəddini arxadan bizimkilər vurub". Nəhayət, üçüncü cümə axşamı bu sözləri bir daha eşitmədim. Çünki yaralı döyüşçülər təsdiqləmişdilər ki, Fəxrəddin son nəfəsinədək ermənilərə qarşı qəhrəmancasına vuruşmuşdu. Bir yaralı əsgəri döyüş mövqeyindən çıxarmaq istəyəndə erməni gülləsi öz işini görüb.

## QƏHRƏMANLAR ÖLMÜRLƏR

Dərdinə qurban olum şəhid anası, bu cür ağlama. Fəxrəddin kimi igidlər heç vaxt ölmürlər. Ölü bax, o günlərini eyş - işrətdə keçirən bığıburmalardı. Soruşursan, Ağdərə hardadır? - çiyinlərini çəkirlər. Ölü bax, o harın, "kişi"lərin qumarbaz, sərxoş övladlarıdır.





Hər şeyin geci - tezi var. Şər işləri əyan eləyən Allah başımızın üstündədir. Sən əbədi diri qalacaq oğlunu ölmüş bilib ağlama.

1992.

# ÖZ TORPAĞINDA İTKİN DÜŞMÜŞ ƏSGƏRLƏR

## RAMİN ABDULLAYEV



Ramin haqqında düşünəndə ancaq uşaqlığı gözümün önünə gəlir. Bizdən bir-iki yaş kiçik idi. Bütün uşaqlardan seçilirdi. Həm son dərəcədə gözəl simalı, həm də hamıdan ucaboylu idi. Sonrakı illərdə hər birimizin tələbəlik həyatı başladı. Aradan keçən illərin bir başında eşitdim ki, Ramin Abdullayev Azərbaycan Neft Akademiyasında oxuyur. Təbii ki, biz urudluların görüş yeri ancaq yaydakəndimizdə olardı. Bu görüş də hamıya qismət deyildi. Yalnız xeyir-şərdə bir araya gəlirdik. Raminin atası Həbib kişi də, anası Tovuz xala da kəndimizin sayılıb-seçilən sakinləri olublar. Hər ikisi də çox mehriban və səmimi idilər. Bir kimsəyə pislik etməzdilər. Valideynlərin xeyirxah və nəcib xüsisiyyətləri öz övladlarına da keçmişdi.

Ramin Abdullayev ali məktəbi bitirdikdə sonra bir müddət Bakı Kondisionerləri zavodunda işlədi. Sonra isə Səttarxan adına zavodda sex rəisi vəzifəsində çalışırdı.

Kəndimizin gözəl-göyçək qızlarından olan Elenora xanımla ailə quran Ramin iki oğul atası idi. Amma təəssüflər olsun ki, bu gənc ailənin xoşbəxtliyi uzun sürmədi. 1988-ci ildə başlanan qara tufan Abdullayevlər ailəsinin də həyatında ağır izlər qoydu. Ermənilər tərəfindən işgəncəyə məruz qalan, vəhşicəsinə döyülən Həbib kişini ölümün pəncəsindən xilas etmək mümkün olmadı. Doğma kənd də

əldən getdi, ata da, neçə qohum-qardaş da. Ramin bu əzablarla barışa bilmirdi.

1991-ci ilin payızında könüllü olaraq cəbhəyə getdi. Sorağı Qarabağdan gəlirdi. Dəfələrlə mühasirəyə düşmüş Ramin öz qorxmazlığı, igidliyi ilə seçilirdi. Ramin Abdullayev olan yerdə hamının ürəyində bir rahatlıq yaranardı.

1992-ci il yanvarın 18-də Ramin Bakıya, balalarının görüşünə gəldi. Həyat yoldaşı, oğlanları onun bu qəfil qayıdışına çox sevinmişdilər. Hələ anası Tovuz xala yerə-göyə sığmırdı. Ona elə gəlirdi ki, Ramin həmişəlik qayıdıb. Ürəyi torpaqlarımızın azadlığı uğrunda çırpınan igidi isti ocaqda saxlamaq olardı?! Amma nə ananın, nə də həyat yoldaşının ağlına gəlməzdi ki, bu, onların son görüşüdür. Kim əzizinin ölümünü yaxın qoya bilər ki?! Cəmi üç gün sonra Ramin Abdullayevi təcili hərbi hissəyə çağırdılar. Yanvarın 26-da məşhur və müəmmalı Daşaltı əməliyyatı baş verdi. O döyüşdə Ramin Abdullayev də iştirak edirdi. 15 gün sonra döyüşdə həlak olmuş onlarla döyüşçüdən ancaq dördünün meyiti əzizlərinə qaytarıldı. Onların arasında urudlu Vaqif Tahirov da var idi. Gənazəsi Şəhriyar adına Mədəniyyət Evindən qaldırıldı. Qulağıma dəyən səslərdən dəhşətə gəldim: "Ramindən xəbər-ətər yoxdur".

Hələ də müəmması açılmayan o döyüşdə Ramin Abdullayev itkin düşdü. Bir neçə ay sonra ailəsinə ölümü haqqında arayış göndərdilər. Vəssalam! Bir igidin ömrü beləcə sona yetdi. Cəmi 32 il yaşamış Ramindən iki övlad nişanə qaldı: Emil və Rasim.

Bütün bunlardan sonra yenə də Ramin Abdullayevin adı eşidiləndə əvvəlcə yadıma Urud düşür: Məktəbin həyətində dostları ilə futbol, voleybol oynayan o ucaboylu, şümal oğlan... Bir də gözləri yollarda qalmış, beli ikiqat olmuş, xiffətindən yumağa dönmüş Tovuz ana!

**1992.**





## SƏRXAN HƏSƏNOV



Sərxan Lətif oğlu Həsənov 1967-ci ildə Urud kəndində anadan olub. Sərxan haqqında düşünəndə rəhmətlik anamın danışdığı bir hadisəni dəhşətlə xatırlayıram. Ermənilər 1988-ci ildə Urud camaatını minbir işgəncə ilə öz doğma kəndlərindən çıxarıb Naxçıvanla Qarakilsə arasındakı dərəyə tökəndə daha bir vəhşiliyə də yol vermişdilər. Onlar bu biçarə insanların pul-paralarını əllərindən almış özlərini də döyərək qarın içinə atmışdılar. Anam danışırdı ki, Sərxanın bələkdəki körpəsi həyat yoldaşının qucağında idi. Ermənilər körpəni qarın içinə qoyaraq bıçaqla onun bürüncəyini ortadan böldülər ki, bələyin içində pul var. Soyuqdan donmuş uşağın çığırtısı, ananın bayılması, əsəbdən gərilmiş Sərxanın vəziyyəti çox dəhşətli idi.

Təbii ki, Sərxan bu ağır günü heç vaxt unutmazdı. Ona görə də Bakı şəhərində məskunlaşan kimi könüllü olaraq cəbhəyə getmişdi. Qəlbi intiqam hissi ilə alışıb-yanan gənc döyüşlərdə öz igidliyi ilə seçilirdi. Təəsüf ki, məlum Daşaltı əməliyyatı zamanı Sərxan Həsənov da həlak olmuş, daha açıq desək, meyidini əzizlərinə vermək mümkün olmamışdı. Faciəyə bax ki, Sərxanın yeddisi günü qızı Şahanə də vəfat etdi. Valideynləri Sərxanın bu müsibətinə tab gətirmədilər. Anası Şüşə xanım Şəhidlər xiyabanını gəzərək naməlum əsgər məzarları üzərində göz yaşı tökdü. Oğul dərdi atanı da, ananı da haqq dünyasına erkən qovuşdurdu.

Ömür - gün yoldaşı Yamən, yeganə qızı Günellə həyatın bu dolanbac yollarında tənha qaldı.

Şəhidin bacısı Rəqibədən aldığım bu məktub ürəyimi göynətdi. O yazırdı: "İllərdir ki, hər açılan qapıya, hər keçən əsgərə baxıram. Hələ yol gözləyirəm. Bu günə kimi qardaşımın qayıdacağına ümid bəsləyirəm. Axı o necə həlak ola bilərdi? Ölünün məzarı olmaz? Hanı mənim qardaşımın qəbri?" Bacı ürəyinin cızdağını çıxardan bu haqlı suallna isə cavab tapmaq necə də çətindir. Səbir də diləməyə heyim çatmır.

# ALA GÖZLÜ CAHANGİR



Cahangirin atası Əbülfət Kərimov urudludur. Ali məktəbi bitirdikdən sonra təyinatını Ağdam rayonunun Xındırıstan kəndinə alıb. Burada ailə quraraq məskunlaşıb. Həyat yoldaşı Zərifə də müəllimədir. Hər ikisinin atası II Dünya müharibəsindən qayıtmayıb. Uşaqlıqdan ürəklərində bu nisgili qəlblərində yaşadan ailə başçılarının heç ağıllarına da gəlməzdi ki, günlərin birində yurdun səmasını qara buludlar bürüyər. Qohum-əqrəbanın, ana-bacısının yaşadığı Urud kəndi xarabazara çevrilər, sakinləri didərgin edilər. Qarabağ adlı dilbər guşənin hər qarışında qan qoxuyar. Bir vaxt faşistlərə qarşı vuruşan ataların nəvələri indi erməni vəhşiləri ilə üz-üzə dayanmalı olar. Əslində bu heç kimin ağlına gəlmirdi.

Cahangir Əbülfət oğlu Kərimov 1974-cü ilin fevralında Ağdam rayonunun Xındırıstan kəndində dünyaya gəlmişdi. Orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra ali təhsil almaq arzusu ilə Bakıya üz tutmuşdu. Qəbul imtahanı zamanı müsabiqədən keçə bilmədiyindən Bakı Kooperativ Texnikumunda oxumalı olub. Bu elə bir vaxt idi ki, Qarabağ qazanı qaynamaqda, igidlər bir-bir şəhidlik zirvəsinə üz tutmaqda idilər. Qəlbi həmişə vətən eşqi ilə çırpınan Cahangir günlərin birində Bakı şəhərindəki Nərimanov rayonunun hərbi komissarlığına yollanıb. Ərizə yazaraq könüllü cəbhəyə getmək istədiyini bildirb. Çox keçmir ki, Cahangirin sorağı Ağdərədən gəlir. O, bu bölgədəki döyüşlərdə iştirak edib. Çıldıran uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərən Cahangir düşmən gülləsinə tuş gəlib. Bununla da igid bir oğulun həyatına son qoyulub, qəbri Xındırıstandadır. Əbülfət müəllim oğlu haqqında yazdığı kiçik bir məktubda balasının bəzi fərdi cizgilərini, qabiliyyətini qələmə alıb: "Fiziki cəhətdən çox sağlam olan Cahangir dərslərini hamıdan yaxşı oxuyurdu. Enli kürəyi, ala gözləri, uca boyu var idi. Əlindən nə gəlmirdi? Çox qabiliyyətli gənc idi. Hələ





orta məktəbdə oxuyanda traktorçu-maşinist peşəsinə yiyələnmişdi. Həvəskar sürücü kimi istənilən avtomobili əla idarə edirdi. Rəngsazlığı da yaxşı bacarırdı. Vaxtilə orta məktəbdə oxuyanda evlərini necə təmir edibsə, indi də ona əl vurulmur. Fotoqraflığı da bacarırdı. Məktəbdə olan tədbirləri, müəllimlərinin və sinif yoldaşlarının şəkillərini çəkməyi çox sevərdi. Bu şəkillərin arasında sevgilisinin də əksi var. O qədər mehriban, mədəni, səviyyəli, istiqanlı idi ki,... Cahangir səliqəli, təmiz, şux geyinməyi də çox sevirdi. Xəttatlığı da bacarırdı. Onun sevgilisinə ünvanladığı bir məktubu qalıb. Orada bir qəbir rəsmi var. Özü çəkib. Rəsmin altında da belə yazılıb: "Şəhid olaramsa, qəbrimi bu cür düzəldin. Sinə daşında isə belə bir beyt yazdırın:

Hamı unutsa da, unutma məni,
Unutmaz məzarın daşları səni.

Biz Cahangirin vəsiyyətinə əməl etdik. Onun Xındırıstandakı məzarı özünün tərtib etdiyi şəkildə düzəldildi". Əbülfət müəllimin məktubunu sonadək oxumaq mümkün deyil. Onun hər sözündə bir ata fəryadı duyulmaqdadır. Oğul fərağı atanı dilə gətirib. Həmkəndliləri danışırlar ki, o tez-tez Cahangirin qəbri üstə gedərək öz şeri ilə nalə çəkir:

Aman, aman vay aman,
Ucaboylu Cahangirim hey!
Halım oldu nə yaman,
Ala gözlü Cahangirim hey!
Nə tez daşa döndün sən,
Şirindilli Cahangirim hey!
Qoydun məni əlaman,
Ay ağıllı Cahangirim hey!

# NİŞANLI OĞLAN

Bu Fariz Gəncəliyev idi. 1968-ci ildə Urudda anadan olmuşdur. Orta məktəbi bitirən ildən Sumqayıtda yaşayırdı. O, 49 saylı Sumqayıt şəhər texniki peşə məktəbində kran sürücüsü peşəsinə yiyələnmişdir. Birinci il idi işləyirdi ki, hərbi xidmətə çağırdılar. SSRİ silahlı qüvvələrinin tərkibində öz borcunu verməyə gedən cavan bir də onda vətənə

döndü ki, lələ köçüb, yurdu qalıb. Bütün Qərbi Azərbaycan elləri böyük Azərbay cana üz tutaraq müxtəlif bölgələrə səpələnib. Fariz atası Şəmistanı tapsa da, anası Şəfiqə dünyasını dəyişmişdi. O nişanlı idi. Amma toyu çalınmadı. Sevdiyi qızı ağ libasda görə bilmədi. Könüllü olaraq 1992-ci ildə cəbhəyə getdi. Cəmi bircə il vuruşa bildi. Onun sorağı Füzuli rayonunun Qaraxanbəyli, Kürdmahmudlu, Aşağı Veysəlli kəndlərindən gəlirdi. "Qızılqaya" yüksəkliyində Fariz əsl igidlik göstərmişdi. Bunu sonralar cəbhə yoldaşları danışardı. Çox qorxmaz və cəsur imiş. Ermənilərin üstünə qartal kimi şığıyarmış. Təəssüf ki, döyüş yolları yarımçıq qaldı. Füzuli uğrunda gedən ölüm-dirim savaşında Fariz Şəmistan oğlu Gəncəliyev həlak oldu. Şəhidin əində Azərbaycan bayrağı olub. Deyilənə görə, o, bu bayrağı zirvəyə sancmaq istəyirmiş.



Sumqayıtda Şəhidlər xiyabanında uyuyan Fariz Gəncəliyev təkcə urudluların deyil, bütün Azərbaycanın qürur duyduğu unudulmaz, daim yaşayacaq igidlərindən biridir.

## YARIMÇIQ NAĞIL



Üç bacının tək qardaşıydı Xalıqverdi. Ataları Sadıq kişi Böyük Vətən müharibəsi deyilən savaşdan qayıtmamışdı. Anaları Şamama xanım nə zülmlə saxlamışdı onları! Bir özü bilirdi, bir də Allah. Müharibənin vurduğu yaralar sağalmasa da, yavaş-yavaş qaysaqlanırdı. Xalıqverdi doğmaca kəndi Urudda aqronom işləyirdi. Əlinin zəhməti ilə ev-eşik qurmuş, ailəsinə güzəran düzəltmişdi. Bərli-bəzəkli otaqlar tikmiş, yaraşıqlı bağ - bağça salmışdı. Uşaqlar böyüdükcə ata-anasının da fərəhi aşıb-daşırdı. İlki Vüqar Azərbay





can Dövlət Universitetinin fizika fakültəsində oxuyurdu. Belə xoşbəxt günlərin birində doğma yerlərdə tufan qopdu. 1988-ci ilin payızında ermənilər Urud camaatını üstüaçıq maşınlara dolduraraq Şahbuz yaxınlığındakı dərəyə gətirdilər. O biçarə didərginlər arasında Xalıqverdi kişinin ailəsi də vardı. Şahbuzluların sayıqlığı və fədakarlığı nəticəsində o soyuq və şaxtalı gecədən xilas olan urudlulur üz tutdular Azərbaycanın müxtəlif guşələrinə.

İl ildən bəd, il ildən ağır gəldi. Yurdumuzun hər guşəsində şəhid qəbirləri göyərdi. Başımıza od ələnən bu illərin birində - 1992-ci ildə Vüqar Xalıqverdi oğlu Sadıqov universiteti bitirdi. Bakıdakı 238 saylı orta məktəbdə işə başladı. İşinə, peşəsinə çox bağlı idi. Şagirdlərinin heç birinə biganə qala bilmirdi. Özünü bütünlüklə onlara həsr etmək istəyirdi. Lakin 1993-cü il oktyabrın 20-də leytenant rütbəsi ilə Milli Orduya çağırılması ilə müəllimliyi yarımçıq qaldı. "Qələbədən sonra qayıdıb işləyərəm", - deyib şagirdləri, müəllim yoldaşları ilə görüşüb ayrıldı. 888 № li hərbi hissədə təlim keçdikdən sonra Ağdamdakı döyüş cəbhəsinə göndərildi. O, burada da özünü cəsur döyüşçü, yenilməz əsgər kimi göstərdi. Düşmənlə açıq döyüşdə şücaəti, qətiyyəti ilə fərqləndi. Bir dəfə strateji əhəmiyyətli yüksəkliyi cəmi bir neçə saat ərzində ələ keçirmişdi. Məharətlə yerinə yetirdiyi bu tapşırığa görə hissədə onu tərifləyəndə Vüqar bunu sadəcə bir əsgər borcu adlandırıb təvazökarlıq eləmişdi. Xasiyyətindəki yumşaqlığa, kövrəkliyə baxmayaraq düşmənə qarşı çox amansız idi...

Ağdam rayonunun Yuxarı Salahlı kəndi uğrunda gedən döyüşlərdə o, xüsusi qəhrəmanlıq göstərmişdi. Hər addımda ölümlə üzbəüz olan cəngavər bu döyüşdən də qəhrəmancasına çıxacağına əmin idi. Lakin onu şəhidlik zirvəsi gözləyirmiş...

Neçə ildir ki, Vüqarı sevənlər onunla Bakının Şəhidlər xiyabanında "görüşürlər". Hər gün ziyarətinə gələn əzizləri məzarını öpüb min rəhmət oxuyur, yarımçıq qalmış qısa ömrünün kədərli nağılını dinləyirlər. Biri vardı, biri yox, urudlu Xalıqverdi kişinin Vüqar adlı bir oğlu var idi. Toysuz, yarsız nakam bir oğlu...

# GÜNAHIN NƏ İDİ, ELÇİN?!



Nə yaşadın, nə gördün ki, bilək nə imiş təqsirin? Niyə sənə bu qədər zülm verdilər? Sənə necə qıydılar? 23 baharlı ömrünü yarıda qıranlar nə günah etdiklərini heç anladılarmı? Anan da, atan da, bibilərin də, səni tanıyanlar, qohum - əqraban da indi tez - tez əllərini yuxarı qaldıraraq Tanrıya üz tuturlar. Əlləri Quranlı, dilləri dualı bu insanlar sanki alqışı unudub qarğış edirlər. Ömrünə balta çalanların cəzasını Allah versin!

O qədər də bizdən uzaq olmayan keçmiş illər gözlərimiz önündən kino lenti kimi gəlib keçir. Əli Əsəd oğlu Gəncəliyev Qarakilsənin Urud kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra ali təhsil almışdı. Tale elə gətirdi ki, Əli bir müddət Naxçıvanda yaşadı. Elə orada da könül bağladığı Sədaqət adlı bir qızla ailə qurdu. 1965-ci ildə övladları dünyaya gəldi. Onlar bu oğul payının adını Elçin qoydular. Xoşbəxt, firavan ömür sürdülər. Elçin 7 yaşında olanda ailə gənclik şəhəri Sumqayıta köçdü. Elçin I sinfə Sumqayıtda gedib.

Sakit, mehriban və həssas təbiətli Elçin Gəncəliyevdə şəkər xəstəliyi varmış. Bu səbəbdən də valideynləri onun üstündə əsir, hər cür qayğısını çəkir, övladlarının erkən tapdığı mərəzdən əziyyət çəkməməsinin qarşısını alırdılar. Amma ağıllarına da gəlməzdi ki, qarışqanı da belə ayaqlamağı bacarmayan Elçinin üstünə bir vaxt hansı şərləri atacaqlar.

1988-ci ilin baş verən qovğaları, bununla əlaqədar Sumqayıtda törənən hadisələr. Bütün dünyaya bəlli oldu ki, bu şəhərdə baş tutan iğtişaşların ssenarisini məhz ermənilər yazıb həyata keçirmişdilər.

Amma o zaman tutulanlar arasında "yan"lardan çox azərbaycanlılar var idi. Zindana atılanlardan biri də Elçin Gəncəliyev oldu. 15 gündən sonra onu evə buraxdılar, amma 15 gündən sonra da yenidən həbs etdilər. Payıza kimi 2-ci Bayıl türməsində sorğu - sual altında qaldı. Bu müddət ərzində Elçin hansı məşəqqətlərə məruz qalıb, Allah bilir.





Qəfildən ölüm xəbəri eşidildi. Venası kəsilibmiş. Əslində, bu işi kim görüb, bilinmədi. Doğrudanmı, özü intihar etmişdi, yoxsa... Hər iki sualın cavabı birdir: ədalətsizlik! Bu haqsızlığa imza atanlar təkcə özgələr deyil, həm də özümüzünkülər oldu.

Ölümündən sonra Elçinə bəraət verdilər. Amma nə faydası? Nə Elçin dirildi, nə də onun valideynlərinin göz yaşları qurudu. Ən dəhşətlisi odur ki, günahsız yerə həbs edilib ölümə tuş olan bu cavan oğlanın şəhidlik statusu da yoxdur. Əslində, şəhid idi Elçin! Əlləri səmaya uzadılmış o ananın ahı tutacaq əsl zalımı.



# YADIMA DÜŞƏNLƏRDƏN

Onlar ailədə dörd bacı olublar. Ataları Abbasəli İsmayılov II Dünya müharibəsindən qayıtmamışdı. Anaları Nübar xala ömrün dolaylarında dörd qız balası ilə tək - tənha qalmışdı. Danışırlar ki, Abbasəlinin müharibədən gələn "qara kağızı"nı heç kəs ürək edib Nübar xalaya verə bilməyib. Camaat kağızı bir - bir , ev - ev ötürüb. Hamı Abbasəlinin həlak olması xəbərini bilib. Bircə həyat yoldaşı Nübar xanımdan başqa. Çünki o, həmişə deyərmiş ki, Abbasəli hər gülədən ölən oğul deyil, o mütləq qayıdacaq. Uzun müddət Abbasəlinin yoxluğuna inanmayan Nübar arvad illər keçdikcə ümidi üzüldü. Anladı ki, Abbasəli bir daha geri qayıtmayacaq. Həyatın bu amansızlığı qarşısında minbir əzaba, zillətə məruz qalan Nübar xala əsl ana cəfakeşliyi, qadın fədakarlığı ilə dörd yetimini zərif qanadlarının altına çəkərək onlara həm də atalıq etdi. Urudda doğulmuş Nübar xanım dünyasını Bakıda dəyişib.

Gündüzlər kolxoz işində çalışıb evə çörək qazandı. Gecələr yun daradı, cəhrə əyirdi, corab, xalça və s. toxudu. Həyatın ona vurduğu zərbələr qarşısında bu vüqarlı qadın sınmaq, əyilmək istəmirdi. Böyük qızı Kəklik kəndimizin sayılıb - seçilən nəslindən olan Tofiqlə ailə qurdu. Oğul - uşaq sahibi oldu. İkinci qızı Maisə Fazil müəllimin ocağında gəlin oldu. Məxmər də özünə ailə qurdu. Sonbeşik Şahnisə isə erkən ərə getmək istəmirdi. O, hələ orta məktəbi bitirdikdən sonra Bakıya gəldi. 1958-ci ildə Azərbaycan Dövlət Universitetinin mexanika - riyaziyyat fakültəsinə daxil oldu. Ali məktəbi bitirdikdən sonra bir müddət Sabunçu rayonundakı 113 saylı orta məktəbdə riyaziyyat müəlliməsi işləmişdi. 1990-cı ildən isə 80 saylı məktəbdə işləyir.

Şahnisə İsmayılovanın 5 övladı, 8 nəvəsi var. Urudun II Dünya müharibəsindən sonra ali təhsil almış ilk ziyalı xanımlarından biridir.

# YAXŞILAR UNUDULMUR

...Məstalı kişinin vəfat etdiyi günü indiki kimi xatırlayıram. Yaz ağzıydı. Məktəbdən bizi Qəz bağı adlanan ərazidə kolxozçulara kömək etməyə aparmışdılar. Bağın daş-çınqılını, çör-çöpünü təmizləyirdik.





Bərk yorulmuşduq. Məstalı Abdullayev də həmin bağa qoruqçuluq edərdi. Kiçik qızı Qalya (biz ona kənddə Zəriş deyirdik) qardaşımın həyat yoldaşıdır. Bu səbəbdən də mənim Məstalı babaya ərkim çatırdı. Uşaqları başıma yığıb onun yanına getdik. Əyləşib söhbətləşdik. Əslində dincəlmək istəyirdik. Kişi bizim gəlişimizə bənd imiş. Çörək bağlamasını açıb bizi nahara dəvət elədi. Soyutma yumurta, pendir və təzəcə çıxmış yarpızı çox iştahla yeyib, bu mərd və mehriban kişiyə təşəkkürümüzü bildirdik. Bir az bağda ora-bura qaçıb, sonra da dəstə ilə evə qayıtdıq. Kəndin ortasında, mağazanın yanında anamın, eləcə də digər kənd camaatının pəjmürdə yeyin gəlişləri ilə rastlaşdıq. Dərhal anamdan soruşdum ki, nə olub? Yazıq qadın dili-dodağı əsə-əsə söylədi: "Deyirlər ki, Məstalı kişi keçinib". Eşitdiyimə inana bilmədim. "Biz axı onun yanından gəlirik. Bizə çörək də verdi", - deyə astaca dilləndim. Sən demə ölüm xəbəri çox sürətlə yayılırmış. Həqiqətən də Məstalı kişi dünyasını dəyişmişdi. Heç özümə gələ bilmədim. Elə onda da, indi də düşünəndə bu qəfil gedişin müəmması mənim üçün sirr olaraq qaldı.

Məstalı kişinin yeganə oğlu Ziyadxan Abdullayev öz ailəsi ilə Bakıda yaşayırdı. Anası Şamama arvad da biryolluq Bakıya, övladlarının yanına köçdü. Yalnız yaydan-yaya Uruda gələrdilər.

Orta məktəbi bitirib Bakıya gələn ili bir müddət mən də Ziyadxan əmigildə qalmışam. Şəhərdə yaxın qohumlarımız çox idi, elə indi də var. Allah saxlasın. Amma Ziyadxan əmi də, həyat yoldaşı Məhluqə xala da mənə bütün əqrabalarımdan yaxın və əziz oldular. Bir-birlərini gözəl tamamlayan bu nəcib insanların çox böyük ürəkləri və mehriban xasiyyətləri var idi. Uzun illər müşahidə etdim ki, urudluların əksəriyyəti məhz onların evində qalaraq ali məktəblərə qəbul imtahanları verərdilər. Ziyadxan əmi də, Məhluqə xala da bu yad uşaqlarına öz doğma balaları kimi ülfət göstərər, sanki xeyirxahlıqdan kiməsə kömək etməkdən, arxa durmaqdan, əl tutmaqdan zövq alardılar. Bircə dəfə onların evində olan kəs bu mehriban və səmimi ailənin cazibəsindən qopa bilməzdi. Hər ikisi çox qəribə və qeyri-adi xarakterə malik idi. Şəhər yerinin öz qanun-qaydaları var. Sudan başlamış hər şey pul tələb edir. Amma Ziyadxan əmi də Məhluqə xala da bu qonaqlara - tələbələrə qayğı göstərməkdən, onları doyunca yedirib-içirməkdən bezməzdilər.

Mən ona elə ürəklə "əmi" deyirdim ki, əslində heç doğmalarımdan

görmədiyim hörmət və izzəti, həssaslığı mən Ziyadxan əmidən və Məhluqə xaladan duymuşdum. Onlar mənim üçün çox əziz və dəyərli insanlar idi. Kövrək təbiətli Ziyadxan əmi təəssüf ki, çox az yaşadı. Bir parça çörək qazanmaq üçün sovet dövründə dəbdə olan "sezona" (Rusiyaya) getmişdi. Meyidi qayıtdı. Danışırdılar ki, onun qətlini ermənilər təşkil edibmiş.

Ziyadxan əmi dörd övladından yalnız böyük oğlu Güloğlanın toyunu görmüşdü. Qalan uşaqların qayğısı məhz Məhluqə xalanın çiyinlərinə düşdü. Təkcə öz ömrünün deyil, bütövlükdə həyatın əvvəlki xoş büsatını itirən Məhluqə xala Ziyadxanın yadigarlarını ev-eşik etdi. Qızlar ərə getdilər, sonbeşik Samir də ailə qurdu. Dünyaya nəvələr-nəticələr gəldi. Təəssüf ki, Məhluqə xala özü də çox yaşamadı. Günlərin birində eşitdim ki, sağalmaz xəstəliyə düçar olub. O mehriban, həmişə gülərüz sifətini ağrı-acıdan qara buludlar bürüyüb. Gündən-günə şam kimi əriməkdədir. Bacısı danışdı ki, gördüyün o gözəl Məhluqədən əsər-əlamət qalmayıb. Xətrini çoxundan əziz tutduğum bu xanıma dəyə bilmədim. Neçə dəfə yarı yoldan qayıtdım. Yaddaşımda əvvəlki Məhluqə xalanı saxlamaq istədim. Onun vəfatı ilə bağlı qara xəbər mənə çatanda nə keçirdiyimi bir Allah bildi. Bağışla məni, ey böyük ana, bağışla!

**2005.**

## ORADA BİR EV VAR İDİ

Kəndimizin girəcəyində bir ev var idi. Burada Telli Alıqulu qızı balalarını başına yığıb onlara həm atalıq, həm də analıq edirdi. II Dünya müharibəsinin başsız qoyduğu ailələrdən biri də Telli arvadın uşaqları oldu. Kənddə belə yaralı ailələr az deyildi. Ona görə də Telli arvad dərdini içinə çəkib yetimlərini böyütməklə məşğul oldu. Çox mehriban, şirindil, zəhmətkeş olan Telli xalanın anamla qohumluğu da var idi. Bir-birilərinə "əmiqızı" deyərdilər. Güleyşəni, Bənövşəni və Fizzəni erkən ərə vermişdi. Oğlanları Əhəd, Hökmran (biz kənddə ona Zeqam deyərdik), Əhliman, Əbülfət. Telli arvadın oğlanları çox fərasətli çıxdılar. Yetimliyin hər üzünü, çətinliyini görsələr də, həyatın sərtliklərinə qalib gəlməyi bacardılar.

Əhəd Kərimov orta məktəbi bitirdikdən sonra ali təhsil almaq üçün Bakıya üz tutdu. Pedaqoji İnstitutu bitirdikdən sonra bir müddət Ağdam







rayonunda müəllim işlədi. 1967-ci ildən isə indiyə kimi Bakı şəhərindəki 132 saylı məktəbdə fizika müəllimidir. Respublikanın əməkdar müəllimi, qabaqcıl maarif xadimi olan Əhəd Kərimov metodistdir. Respublikada təhsilin inkişafında müəyyən xidmətlərə malikdir.

İkinci qardaş Hökmran Cəfərov isə fizika-riyaziyyat elmləri namizədidir. Uzun illərdir ki, Texniki Universitetdə dərs deyir.

Əhliman Kərimov isə Neft-Kimya Akademiyasını bitirmişdi. Sumqayıtdakı "Superfosfat" zavodunda baş mexanik işləyib. Təəssüf ki, çox erkən dünyasını dəyişib.

Sonbeşik qardaş Əbülfət Mirzə Fətəli Axundov adına ADPDİ-nin alman dili fakültəsini 1963-cü ildən bitirdikdən sonra təyinatla Ağdam rayonunun Xındırıstan kənd orta məktəbində müəllimlik fəaliyyətinə başlayıb. O, bu məktəbdə sıravi müəllimlikdən direktor vəzifəsinədək yüksəlib. Hazırda təqaüddədir. Əbülfət müəllim hamımız üçün bir də ona görə əziz və doğmadır ki, onun böyük oğlu Cahangir 1992-ci ildə Qarabağ uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olub.

...Kəndimizin girəcəyində bir ev var idi. Urud bizim olanda orada Telli adlı bir arvad balalarını başına yığıb gecələr onlara şirin nağıl danışardı. Görən, o ev indi də yerindəmi?

## DAĞLARIN O ÜZÜNDƏ

Çox sonralar başa düşdüm ki, niyə mənim qohum-qardaşlarım müxtəlif yerlərə səpələniblər. Birinin sorağı Beyləqandan, bir başqasının səsi Cülfadan, Şahbuzdan eşidilir. Hələ xarici ölkələrdə naməlum talelərə düçar olanları demirəm. Demə, ötən əsrin əvvəllərində ermənilərin törətdiyi qovğalar nəticəsində doğma yurddan perik düşmüş insanların bir qismi sonradan Uruda qayıtmayıblar. Onlar elə oradaca məskunlaşıb ailə, uşaq sahibi olublar. Cülfanın Qazançı kəndində urudlu çoxdur. Onlardan biri də anamın xalası oğlu Məşədi Mikayıl idi. Biz ona "dayı" deyərdik. Hər dəfə payızda cülfalılar - əski

urudlular bir maşın tutaraq Uruda gələr, Seyid Mirismayıl Ağanın ocağını ziyarət edər, qohum-qardaşla görüşərdilər. Məşədi Mikayıl dayım da həmişə bu ziyarətçilərin arasında olardı. Anam onun gəlişinə çox sevinərdi. "Qardaş" deyərək boynuna sarılar, ən ləziz yeməkləri süfrəyə düzərdi. Dayım həmişə bizə Qazançı kəndinin təbii nemətlərindən - heyva, ərik, gavalı qurusu və s. gətirərdi. Dayımgil bircə gün qalar, sonra da çıxıb gedərdilər. Hər payız bu görüş baş tutardı. Məşədi Mikayıl dayım vəfat edəndən sonra övladları bu yolun yolçusuna döndülər. Urudun işğalından sonra onlarla da olan əlaqələr qırıldı.

Bibimgil isə Şahbuzun Nurs kəndində yaşayırdılar. O zaman Cahan bibim Ağdülü İnfil kişi ilə ailə qurmuşdu. Ötən əsrin əvvəllərində doğma kənddən perik düşən bibimgilin ailəsi elə Nursda qalmalı olub. İnfil kişi ermənilərə yaxşı qan uddurub. Bu səbəbdən də son illərə kimi onun adı gələndə Qarkilsə ermənilərinin canına vəlvələ düşürdü. Bibimin 5 uşağı olub - İbrahim, Gülsüm, Məmməd (Məmməd Araz), Əbülfəz və Məryəm. İndi o beş qanaddan təkcə Məryəm bibim (ona da bibi deyirəm - F.X.) qalmaqdadır. Amma oğul-uşaq, nəvə-nəticə ocağın istisini yaşatmaqda davam edirlər.



Böyük qardaşım İnqilab da Naxçıvanda oxuduqdan sonra Şahbuzda qalaraq işləyib. Yəqin ki, həm qardaşımın, həm də əmimoğlu Taməddin Quliyevin Şahbuzda qalmalarına səbəb də elə bibimgilin orada yaşaması olub. İnqilab bir çox idarə və təşkilatlarda, eləcə də Rayon Partiya Komitəsində müxtəlif vəzifələrdə çalışıb. İxtisası mühasiblik olub, təqaüdə çıxana qədər bu peşəni ləyaqətlə davam etdirib. Urudun işğalından sonra Şahbuzda yaşamaq ona çox çətin olub. Çünki dağın o üzündən bir səda, səs gəlmədiyindən birdən-birə ömrünün ən gözəl günlərini keçirdiyi rayonda darıxmağa başlayıb. Bir gün eşitdik ki, o da Bakıya köçüb.

Bacım Gülüşan da Şahbuzda yaşayır. Nə illah etsək də, Bakıya köçmədi: "Burada ana yurdun havası var", - dedi. Üç oğul, üç qız





anasıdır. Hamısı da ev - eşik sahibidir. Oğlu Sabir Babayev stomatoloqdur. "Urud deyəndə yadıma Fətulla babamın alma bağları və bir də Qala düşür", - söyləyir.

## MAHİR QULİYEV



Rəsmi sənəddə adı Hidayətdir. Amma gözümüzü açandan ona Mahir demişik.

II Dünya savaşı başlanan ildə anadan olub. İbtidai sinfi Urudda oxusa da, sonra Şahbuzda - böyük qardaşı İnqilabın yanında orta təhsilini davam etdirib. Hərbi xidmətdən sonra tələbəlik və gənclik illəri Bakıda keçib. Uzun müddət meyvə-tərəvəz mağazasında satıcı, müdir vəzifəsində işləyib. Hazırda Hövsan bələdiyyəsində çalışır. Mehriban, səmimi xasiyyəti var. Urudun sayılıb-seçilən oğullarından biridir. Dörd övlad atasıdır. Ən böyük arzusu budur: "Kaş nəvəm Əlyar Urudu görəydi".

## ZAHİR QULİYEV



Urudda anadan olub. Vağədi kəndində orta məktəbi bitirib. Bakıda mühəndis ixtisasına yiyələnib. Uzun illər nəqliyyat sistemində məsul vəzifələrdə çalışıb. Üç övlad atasıdır.

Zahir Nəcəfli nəslinin ən qeyrətli və təəssübkeş oğullarından biridir. Hamının xeyrinə-şərinə yarayır. Hələ cavanlığından özünü ağsaqqal, ciddi, xeyirxah bir insan kimi təsdiqləmişdi. Son dərəcə zəhmətkeş, çalışqan və nəcib xüsusiyyətlərə malik qardaşımızın arzuları çoxdur. Onlardan ən

müqəddəsi Urudla bağlıdır. Ötən illərə boylandıqca sinəsi ocaq kimi alışır. Məktəbli illərindən tutmuş Urudun süqutuna qədər hər şeyi ardıcıllıqla şirin bir röya kimi danışır. Bəzən də bu xatirələrə elə bir duz qatır ki, qəşş edənədək gülürsən: "Birinci sinifdə oxuyurdum. Hamımız kimi mənə də əlifbanı Hafizə müəllimə öyrədib. Atamın əmisi qızı olduğundan ona bibi deyirdim. Amma məktəbdə eləcə "Quliyeva" idi. O vaxt müəllimlərə nədənsə familyaları ilə müraciət edirdik. Atamın bibimlə zarafatı vardı. Ona sataşmağı xoşlayardı. Bəzən də bu zarafat lap həddini keçirdi. O vaxt (1954-cü il) rəngli kitablar olmadığından müəlliməm hansı hərfi öyrətsəydi, sinifə o hərflə başlanan meyvə və ya əşya gətirərdi. Yaxşı yadımdadır. "B" hərfini keçəndə atam bir boranını torbaya salıb mənə dedi ki, "bunu apar ver Hafizə bibinə. Sinifdə qopan gülüşün sədası hələ də qulaqlarımdan çəkilməyib. Yadıma düşəndə həm gülürəm, həm də möhkəm pərtlik keçirirəm".

Bu xiffətli xatirədən sonra kədərli bir faktı da danışdı. Ötən əsrin əvvəllərində ermənilər Zəngəzurda qırğınlar törədən zaman babamız Mahmud kişi bu qovğanın qurbanına çevrilib. O, Qubadlı tərəfdə həlak olub. Dəhşətlisi budur ki, ermənilərin son 200 ildə başımıza gətirdikləri müsibətlərin nəticəsində babalarımızın, atamızın, neçə yaxın qohum-qardaşımızın axirət dünyası da müxtəlif ünvanlara qismət olub.







**Həkim stomatoloq Sabir Babayev: "... Urud deyiləndə yadıma qala, bir də Fətulla babamın alma bağı düşür..."**



**"Lider" televiziyasının müxbiri, BDU -nun aspirantı Elnur Niftəliyev: "Kaş çəkilişlərimin birini Urudda - ana Vətənimdə apara biləydim".**



**Mirismayıl Ağanın nəticəsi "Urud" firmasının direktoru Fikrət Tahirov: "Əzizlərimizin ruhu dolaşan doğma yerlərə qayıtmaq ən böyük arzumdur"**



**Urudda anadan olmuş Ruslan İsmayılov Azərbaycan Neft Akademiyasını bitirib. Ailəlidir. Allahdan diləyi budur ki, Bakıda doğulmuş iki övladını günlərin birində Uruda apara bilsin.**





# NƏSİLLƏR VƏ TALELƏR

Zəngəzur mahalının ən qədim və füsunkar kəndi sayılan Urud o qədər də böyük əraziyə malik deyildi. Dağların ovcunda qərar tutmuş kəndimiz cəmi 110 evdən ibarət idi. Amma buna baxmayaraq, Urud nəinki Zəngəzurun sərhədləri daxilində, bütövlükdə Azərbaycanın, xalqımızın taleyində mühüm rol oynayan insanların, şəxsiyyətlərin ana yurdu olub.

Kənddə demək olar ki, hamını bir-birilə qohumluq əlaqəsi bağlayırdı. Ötən əsrin əvvəllərində Andronikin qoşunları millətimizə divan tutanda Urudun, eləcə də qonşu kəndlərin başı çox bəlalar çəkdi. Sovet hakimiyyəti qurulduqdan sonra bəziləri doğma obasına qayıtdı. Əlbəttə, bu qovğada çox urudlu həlak oldu, itkin düşdü. Qonşu kəndlərin də əksəriyyəti yerlə-yeksan olduğundan onun sağ qalmış sakinləri də elə Urudda məskunlaşdılar.

Urudda hər bir tayfanın bineyi-qədimdən öz adı və yaxud da ayaması olub: Gəncəalılar, Nəcəflilər, Tahirlilər, Alıseyranlılar, Şahverənlilər, Adıgözəllilər. Bu tayfaların hətta öz içərisindən ayrılan xətlər də vardı ki, onların da öz ayaması yaranmışdı. Məsələn; Bayramalılar, Əmişlilər və s. Bu tayfaların arasında üçü öz ziyalıları və alimlərinin, məşhur şəxsiyyətlərinin sayına görə daha da çox seçiliblər: Gəncəalılar, Nəcəflilər və Tahirlilər.

# SON GÖRÜŞ

Gözlərimdən çəkilməyən, hüsnü ilə ürəyimin pərdəsini soyan, varlığımı göynədən, sözümü ağzımdı kilidləyən, məni məndə çürüdən, öldürən Urud. Doğma yerlərlə son görüşüm 1986-cı ildə oldu. O günü indiki kimi xatırlayıram. Böyük oğlumun onda 3 yaşı vardı. Kəndə dincəlməyə getmişdik. Qayıdan baş bizi şəhərə xalamoğlu Sabir öz "Jiquli"sində gətirməli oldu. İllər boyu mən nə qədər şəhərə, kəndə gedib-gəlmişdim. Yadıma gəlmir ki, evdən çıxanda nə vaxtsa yola su götürməli olum. Amma o ayrılıq məqamında on litrlik qabı həyətimizdəki bulaqdan doldurub maşına qoydum. Anam təəccüblənəndə "şəhərdəki suyu içə bilmirəm" - dedim. Sən demə, bu, mənim son dəfə götürdüyüm nemət imiş. Kənddən aralanıb Vağədi

tərəfdən Cada deyilən yerə üz tutanda xalam oğlundan xahiş etdim ki, maşını saxlasın. Təpənin döşündən kəndimizə sarı boylandım. Qədim və möhtəşəm qalanın zirvəsi görünürdü. Varlığımı dəhşətli bir həsrət göynətdi. İndi də anlamıram ki, Məmməd Arazın o məşhur misraları hardan mənim dilimə qanadlandı:

Bəlkə bu yerlərə bir də gəlmədim,
Duman, salamat qal, dağ, salamat qal!

Mənim hönkürtü ilə ağlamağım Sabir müəllimi də riqqətə gətirdi. Rəhmətlik kişi qolumdan tutaraq dedi: "Niyə belə edirsən? Getmək istəmirsən, qayıdaq gedək. Nə olub, uşaqsan?!" Amma haradan bilərdik ki, bu bizim doğma yerlərlə son görüşümüzdür. Ürəyə damanlar bizi bu yerdən qopmağa qoymurdu.



Sonra elə oldu ki, 1987-ci ildə ikinci oğlum Bəhruz dünyaya gəldi. Bu səbəbdən də həmin ili kəndə gedə bilmədim. 1988-ci ilin fevralında isə ermənilər Qarabağ kartını ortaya ataraq tufan qopardılar. Aləm dəydi bir-birinə. Vahiməli günlərimiz başladı. Qohum-əqraba kənddə, yollar bağlı, qulağımıza gündə bir səs gəlirdi. O vaxt kənddə kolxoz sədri işləyən Həmzə Tahirovun həm evində, həm də idarəsində birbaşa kodla əlaqə saxlamaq üçün telefon rabitəsi var idi. Doğrudur, hər dəfə bu əlaqə yaranmırdı. Nəhayət, bir gün telefonun o başında səs eşitdim:

- Alo.
- Mənə Həmzə müəllim lazımdır.
- Hamza muallımdır.

Səsin ahəngindən və ləhcəsindən danışanın erməni olduğunu dərhal anladım. Ona görə də ermənicə bildiyim bir-iki sözlə ona anlatdım ki, sən Həmzə deyilsən. O da bildirdi ki, Həmzə yoxdur. Xahiş etdim ki, bir urudlu telefona çağırsın. Alındı: "Kimdir danışan?" - deyə xəbər aldım. Səsin doğmalığından urudlu olduğunu dərhal anladım. Çox





yavaş və təlaşlı bir səslə "Rəhimdir" dedi.
- Hansı Rəhim?
- Mürsəl kişinin oğlu.
- Nə var, nə yox Rəhim?
- Sağlığın.
- Rəhim, sən açıq danışa bilmirsən?
- Hə.
- Vəziyyət çox pisdir?
- Olduqca.
- Kömək lazımdır?
- Lap tez.
- Ermənilər kəndə dolublar?
- Hə.
- Sizi çıxartmaq istəyirlər?
- Hə.
- Danışa bilmirsən?
- Yox.
- Anamı telefona çaxıra bilərsən?
- İndi yox.
- Onda de, sabah bu vaxtı gəlsin idarəyə. Mən zəng edəcəyəm.
- Yaxşı. Bizi unutmayın!
- Sizə kömək lazımdır?
- Mütləq...

Sabah yenidən həmin vaxt zəng etdim. Yenə də qarğa səsli erməninin əsəb gətirici sözlərini eşitdim. Rəhimi çağır, dedim. "Purda heç kım yoxdur. Na istayırsan? Sumqayıtda bizi qırdılar. Amma biz sızınkılara heç na etmirik. Hamzanı axtarırıq". Beləliklə, mənim Urudla danışığım alınmadı. Gecə yenidən zəng etdim. Telefon cavab vermədi. Bir neçə gündən sonra isə aldığımız vahiməli xəbərdən ölmək dərəcəsinə gəldik. Saqqallılar bizimkiləri üstüaçıq maşınlara dolduraraq dərədə qarın içinə tökmüşdülər. Olan-qalan pul-paralarını da əllərindən almışdılar.

## BAĞLAR SOLUB, EVLƏR XARABA QALIB

Urudu tez-tez yuxularımda görsəm də, bu, vüsal deyil. Həsrəti məni dirigözlü öldürür. Eloğlumuz Qivami Məmmədovun gördüyü bir xeyirxah təşəbbüs təqdirəlayiqdir. Onun gürcü dostlarından kimsə 2001-ci il sentyabrın axırı oktyabrın əvvəli Urudla bağlı bəzi görüntüləri lentə köçürüb. Bir çox urudlunun evində olan bu lent həqiqətən göz dağı, ürək ağrısıdır. O büsatlı, möhtəşəm, gözəl kəndimizdən əsər-əlamət qalmayıb. Dəmir darvazaları pas tutub, hasarlar dağılıb, evlərin həyətini, yolunu, cığırını kol-kos basıb, hətta qapı-pəncərələrin də rəngi dəyişib. Damlarda ot göyərib. Həyat əlaməti duyulmur bu kənddə. Nankorlar! Əgər siz bu yurdda yaşamayacaqdınızsa, o gülüstanı niyə xarabazara çevirdiniz? Kəndin hüsnü elə solğun, ürək parçalayandır ki, bu öldürülmüş, soyulmuş, viran edilmiş yurd yerimizə baxa bilmədik.

Bircə dağlar, bir də qədim Qala həmişəki möhtəşəmliyində, görkəmində idi. Bazarçayda heç nə olmayıbmış kimi axıb getdi. Kəndin kimsəsizliyindən, yetimliyindən, yiyəsizliyindən adamın ürəyi sıxılırdı. Ara-sıra gözə dəyən ermənilərin nimdaş görkəmləri də çox şeydən xəbər verirdi. Bir vaxt az qala qələbəliyinə, maşınlarının sayına görə rayon mərkəzindən geri qalmayan, şəhərə bənzəyən Urudda indi at-eşşək arabasında gəzirdilər.

Deyirlər, təkcə insanlar qarğış etmirlər. Hətta yurd yerlərinin də ahı olur. Kim onun ocağına su calasa, itini zəncirdə qoysa, sahibini didərgin etsə, mütləq ağır günaha batır və Tanrı əvvəl-axır onun cəzasını verir. Ermənilərin gec-tez haqq divanına çəkiləcəyi gün olacaqdır. Çünki onların bəşər adına ləkə olan çirkin əməlləri, iyrənclikləri, yaramazlıqları Yaradana bəllidir. Rəbbim isə bu sökülən, dağılan dünyanı belə bərbad görmək istəməz. Bu mənada ermənilərin ölüm fərmanı çoxdan imzalanıb. Gec edər, zor edər Allah!

## "BİR UÇAYDIM BU ÇIRPINAN YELİNƏN"

Otuz beş ilə yaxındır ki, şəhərdə yaşayıram. Göz nurumuz Bakı təkcə respublikamızın paytaxtı, yurdumuzun döyünən ürəyi deyil, həm də bizim çoxumuzun arzularının, niyyətlərinin, uğur və





xoşbəxtliklərinin ünvanıdır. Dünyanın neçə gözəl, füsunkar, cazibəli məmləkətində olmuşuq. Amma çox çəksə, üç gün olub bu heyrətimizin, məmnunluğumuzun ömrü. Yenidən Bakı üçün darıxmış, ondan ayrı yaşamağın mümkünsüzlüyünü dərindən düymuşuq. Bütün bu səadətin, bağlılığın içində bir "amma" da göyərməkdədir. Bu illər ərzində (mən öz payıma deyirəm) şəhərləşə bilmədik. Bakını nə qədər sevsək də, ona bütün istəklərimizlə bağlansaq da, bəzilərimizin bir ayağı qaçaq olub. Çünki insanın doğulduğu yer, beşik heç vaxt yaddan çıxan deyil. Hansı mərtəbədə yaşamağından, hansı ucalığa qalxmağından asılı olmayaraq doğulduğu yer həm də onun son mənzilinin ünvanına dönəndə nə qədər gözəl olur.

İllərdir ki, namərd qonşularımızın - ermənilərin vəhşəti, insanlığa sığmayan amansızlıqları ucbatından yurd yerlərimizi itirmişik. Cəhlimlərin, izlərin, cığırların qovuşduğu yollarımızı indi toz-tozanaq deyil, müxtəlif partlayıcı maddələr, mərmilər basıb. Yuxularımızdan çəkilməyən, gözlərimizdən asılı qalan doğma yerlərin xiffəti hulqumumuzdan yapışıb bizi haldan salanacan dözür, tablaşır, dərya səbri göstəririk. Sonra isə... Daha sonrası yoxdur ki?!

Yurdsuzun ən dəhşətli anları günü yaza dönəndə başlyır. Təbiətin



**Dünyanın bəxtəvər çağlarında urudlular Hacalı yaylağına gedərdilər...**

oyanan vaxtı adamın varlığında qəribə bir hissiyyat baş qaldırır. Sanki bütün ilboyu mürgüləmiş xiffətin donu açılır. Ürəyində qaysaqlanmış yaraların ağrısı bütün sümüklərini sızıldadır. Varlığında sanki min ilin həsrəti göynəyir. Adamın az qala bütün əzaları nalə çəkir. Gözlərini yumub xəyalın uçduğu yerləri seyrə dalırsan.

Novruza on-on beş gün qalmış həyət-bacalarda bir canlanma duyulardı. Bağ-bağatda səliqə-səhman yaradılardı. Daşları tökülmüş bağ divarları hörülər, evlərin fasadları, ağaclar əhənglə ağardılar, bostan yerləri çör-çöpdən, xəzəl çürüntüsündən, çınqıldan təmizlənər, arxlar qazılar, yollara nəzər salınardı. Maraqlıdır ki, yazda hər kəsin öz yaşına, başına uyğun əmək bölgüsü vardı. Adətən, kişilər çöl-bayır işlərində çalışar, oğlan uşaqları bayram tonqallarında yandırmaq üçün dağa-dərəyə qaçıb kol-kos yığıb gətirərdilər. Özü də bu kolun xüsusi adı vardı. Hətta deyirdilər ki, heyvan, quş belə o kola yaxın getməz. Allah onu elə yaratmışdı ki, ən təmiz, pak kol sayılırdı. Novruzda da həyətlərdə məhz ondan tonqal çatardılar. Bir az yetkin oğlanlar isə beş-on gün ancaq (ilboyu yığdıqları) köhnə maşın təkərlərini dağların başına daşıyardılar. Kəndimiz dağların ovcunda yerləşdiyindən hər tərəfdə yandırılmış tonqalların atəşi çox gözəl mənzərələr yaradırdı. Bu tonqalların şöləsi ətraf kəndlərdən də görünərdi. Azərbaycanlılar qürur duyduqca ermənilərin gözlərinə tor gələr, paxıllıqdan ürəkləri sıxılardı. Sən demə, ilan xislətli millət məqam gözləyirmiş.

Qadınlar isə Novruza adətən xüsusi hazırlıq görərdilər. Zəngəzurda Novruza həmişə "Əziz gün" deyərdilər. Birinci növbədə bütün küsülülər barışardı. Özü də bu iş mütləq axırıncı çərşənbəyəcən başa çatmalıydı. Sonra da ellikcə yığışıb dünyasını dəyişmişləri ziyarət edər, onların ruhuna dualar oxunar, təzə ölü sahibləri də halva bişirib ehsan kimi paylayardılar.

Zəngəzurun bütün kəndlərində, qəsəbə və şəhərlərində Novruzun özünəməxsus süfrəsi vardı. Sacda qovrulmuş buğdanı, yəni qovurğanı kır-kırada (təqribən dəyirman daşlarının kiçik forması) qovut çəkərdilər. Qovutu da ya baldan hazırlanmış şərbətlə, ya da şirin süddə qarışdırıb yeyərdilər. Süfrədə mütləq səməni qovutla yanaşı qoyulardı. Həmənsürdən (itburnudan - F.X.) xüsusi turşu hazırlanardı. Həmənsürü elə qaynadıb süzgəcdən keçirərdilər ki, qatı şirəsi - məti qalardı. İçinə də lobya, düyü qataraq bişirərdilər. Sonra da hər kəs öz zövqünə görə ona şəkər tozu qataraq yeyərdi. Çox dadlı olan bu bayram təamına





"Həmənsür turşusu" deyərdilər. Özü də bu ləziz yeməyi kənddə bir neçə evdə nəhəng qazanlarda hazırlayıb bütün camaata paylardılar. "Həmənsür turşusu" bizim yerlərdə Novruz bayramının bir əlaməti idi. Onu ancaq bu bayramda hazırlayardılar. İlaxır gecəsinə qədər mütləq "Çöçə" adlanan bayram şirniyyatı da hazırlanardı. Təqribən şəkərburaya oxşayır, amma bir qədər iri və yastı olur. Qıraqları da eynən buruq-buruq bükülür və mütləq də təndirdə bişirilir. Xəmiri südlə yoğrulur. Yağlı olduğundan təndirin badından közün üstünə düşməsin deyə onu xüsusi sabulca ilə ehmalca götürürlər. İçi də çəkilmiş lobyadan, mərciməkdən, bəzi hallarda da cəvizdən (biz tərəflərdə qoza "cəviz" deyərdilər) hazırlanırdı. Cəvizdən hazırlanmış içdən xüsusi kətə (bizlərdə "qalın" adlanır) bişirilərdi. Bayram süfrəsində fəsəlinin öz yeri vardı. Novruzda bütün həyətlərdən ətrafa xoş rahiyələr, ətirlər yayılardı. Çünki hamı öz təndirində bir-birindən dadlı, ətirli bayram şirniyyatı bişirərdi.

Zəngəzur ellərində İlaxır çərşənbəsi xüsusi təntənə ilə qeyd edilərdi. Qarakilsənin azərbaycanlılar yaşayan bütün kəndlərində bu günün xüsusi büsatı olardı. Həyətlərdə, dağların başında tonqallar alışardı. Həmin axşam hamı evində yaxşı sözlər danışar, deyib-gülərdi. Kimsə qulaq falına gələ bilərdi. Çalışmaq lazım idi ki, heç kəs pəjmürdə qayıtmasın. Azərbaycan mətbəxində plovun 200-ə qədər növü var. Qəribədir ki, kəndimizdə hər kəs özünəməxsus plov bişirərdi. Hər kəsin əlinin və bişirdiyi təamın öz dadı olardı. Buna görə də hamı bir-birinə boşqabda mütləq plov göndərərdi.

Elə ki ailə süfrə başına yığışdı, plov məcməəsi ortaya gəldi, əsl bayram mərəkəsi onda qopardı. Qapılar qəfil döyülər, cavab gözləmədən içəriyə papaq, ya torba atılardı. Bu, bayram sovqatına gələn kənd cavanlarının özünəməxsus hədiyyə alması idi. Evin ağbirçəyi deyə-gülə həmin torbaya, ya papağa yer-yemişdən, konfetdən, çöçədən, şirniyyatdan, qırmızı boyanmış yumurtadan, mer-meyvədən yığardı. Kənddə yumurtanı qırmızı soğan qabığından boyayardılar, rənglə yox.

İlaxır çərşənbəsinin səhəri sübh tezdən hamı durar və bulağa tələsərdi. Əl-üz orada yuyular, evə su gətirilər, hər tərəfə səpilərdi və o sudan çay qoyulardı. Həmin gün evin ağbirçəyi cibində 7 balaca daş (fındıq boyda) gətirərdi. Bulaqdan götürülmüş bu daşlar müxtəlif ərzaq qablarının - məsələn, unluğun, çörək təhnəsinin, düyü torbasının, yağ

qabının, motalın içinə və s. qoyulardı. O daşa da "bərəkət daşı" deyərdilər. Mənası belə açıqlanırdı ki, evin bərəkəti bu daş kimi yerində tərpənməz olsun, çəkilməsin. İlaxır çərşənbəsinin səhəri balaca uşaqlar evlərin qapısını döyərək deyərdilər: "Çərşənbə, çəliyimi ver". Ev sahibi mütləq bu uşaqları gülərüz qarşılyıb onlara Novruz sovqatı verərdi. Qonum-qonşular, qohumlar, hətta yadlar belə bir-birlərinə mütləq bayram payı göndərərdilər. Əvvəllər bu bəxşiş bayram süfrəsinin ləziz nemətlərindən ibarət olardı. Sonralar insanların yaşayış səviyyəsi yaxşılaşdıqca və təsadüfən də arada gözaltı - qız-oğlan sevdası var idisə, mütləq bu işarəti anladacaq hədiyyələr də olardı. Məsələn, oğlan evi qızgilə ətir və başqa hədiyyələr göndərərdisə, əks tərəfdən də sovqatın içində naxışlı corab (əldə toxunma), dəsmal, hətta bəzən kişi üst köynəyi də olardı.

Novruz bayramının kənddə keçirilməsinin özgə ləzzəti vardı. Təbiətin gözəl qucağında olan təntənə şəhər mühitində o dərəcədə büsatlı, təbii və gözəl alınmır. Dağın-dərənin özü də bu işdə bir növ insana köməkçidir. Bulaqların kənarında yaşıl bir xətt əmələ gəlir. Kolların dibində - qarın, buzun tən ortasında bənövşələr baş qaldırır. Dərəni-təpəni qəribə bir rəng bürüyür. Hərdən tövlədən bayıra qaçan ala-bula çəpişlər, dəcəl quzular həyət-bacaya bir özgə gözəllik gətirərdi.

Şaqqı sınmış havanın, buzu ərimiş göllərin yaz ömrü başlayardı. Təbiətin bağrından qopan bu təzəlik, yenilik insanların ovqatını yaxşılaşdırar, əhvalını yüksəldərdi. Bütövlükdə, insanın təbiətlə birlikdə yaza çıxması, onu qarşılaması böyük sevinc və xoşbəxtlikdir. Təəssüf ki, torpağından perik düşmüş bizlər indi bir qaranquş gücünə də malik deyilik ki, heç olmasa yazda bir dəfə doğma yurda üz tutaq. Aşan çayları, daşan gölləri, zümrüd çölləri görək, bənövşənin ətrini hiss edək. Novruzda alqış edərlər, dualar söyləyərdilər ki, Yerin də, göyün də bu ülfətdən qırışığı açılsın. Allaha xoş getsin. Deyir, hətta bayramda düşmənin də qulağına pis söz çatdırmazlar. Üzümüzü Allaha tutub, - Məsləhət özünündür, - deyirik. Pisi də, yaxşını da, ağı, qaranı da, göyərçini də, ilanı da - hamısını özün yaratmısan. Bu gen dünyanı bizə sən bəxş etmisən. Özün tədbirini gör, özün çarəsini qıl. Bizim əlimizdən nə gəlir ki?! Ürəyimizi üzən bir fikri Şəhriyar misraları ilə dilə gətirirəm: "Bir uçaydım bu çırpınan yelinən". Bir görəydim bizim dağlar yerindəmi?





# 11 YAŞLI ÇEMPİON



Həşim Tahirli Bakıda anadan olub. Nəsimi rayonundakı 292 saylı orta məktəbdə təhsil alır, dərs əlaçısıdır. Bir neçə fəxri fərman və diplomun sahibidir. Atası Faiq söyləyir ki, 3-5 yaşından idmana meyil göstərib. Baxdığı cizgi filmlərin qəhrəmanına oxşamaq Həşimin ən böyük arzusu idi. Ən çox da öz yaşıdları ilə güləşməyi daha çox sevirdi. Bu sevgi ona qol-qanad verərək yaşıdlarından fərqləndirdi.

Ötən ilin may ayında uşu-sanda üzrə ənənəvi olaraq İtaliyanın Teruçiçi şəhərində dünya kuboku uğrunda yarış keçirilirdi. 53 ölkə döyüşçülərinin qatıldığı bu tədbirdə Azərbaycandan 14 idmançı iştirak edirdi. Onların arasında Həşim Tahirli də var idi. İlk dəfə belə bir mötəbər beynəlxalq yarışda öz gücünü sınamaq səadətinə nəsib olan Həşim Tahirli qələbə çalacağına inanırdı. Yola düşməmişdən əvvəl Bakıda öz qohumlarına, dostlarına, valideynlərinə inamla bildirmişdi: "Mən medalla qayıdacağam". Babası Muradxan müəllim onu qucaqlayaraq zarafatla demişdi: "Diplom da olsa bizə xoşdur. Təki sən Azərbaycanı ləyaqətlə təmsil edəsən və hamının etimadını doğruldasan".

Uzaq İtaliyada yarışlar çox gərgin keçirdi. Hər kəs buradan öz vətəninə qalib kimi qayıtmaq istəyirdi. Həşim dediyi sözün üstündə durdu. O, yarımfinalda nakaut zərbəsi ilə rusiyalı rəqibinə qalib gəldi. Finalda isə erməni rəqibinin üzərində tam qələbə qazanaraq birinci yerə çıxdı. Qızıl medala layiq görülən Həşim söyləyir: "Ən böyük arzum məşğul olduğum idman növü üzrə Azərbaycanı bütün dünyada tanıtmaqdır. İstəyirəm ki, ölkələrdə dalğalanacaq bayrağımızın təkrar-təkrar ucalmasında mənim də rolum olsun".

Həşim Tahirlinin məşqçisi beşqat dünya, ikiqat Avropa çempionu Ramil Allahverdiyevdir. Balaca Həşim öz ustadı haqqında məhəbbətlə

danışır: "Çox tələbkar müəllimdir. Biz yarışda olan zaman o, özündən çox bizimlə maraqlanırdı. Yeməyimizdən tutmuş bütün rejimimiz onun nəzarəti altında olurdu. Əvəzsiz məşqçidir".

Hazırda Həşim Tahirli onunla bərabər İtaliyadan qızıl medalla qayıtmış Ceyhun Xalıqlı (14 yaş) ilə birlikdə noyabr ayında Çində keçiriləcək yarışa hazırlaşırlar. 2008, 2012-ci illərdə də onlar beynəlxalq yarışlarda iştirak edəcəklərini söyləyirlər.

Balaca Həşimlə görüşəndə o, bizə qəribə bir hadisə söylədi: "Mənim babalarım Zəngəzurda doğulublar. Onlar həmişə ermənilərin zülmlərini görüblər. Mən erməni ilə rinqə çıxanda doğma yurdlarından qaçqın düşmüş nənəmi, babamı xatırladım. İçimə elə bil yeni qüvvə gəldi. Bu da mənim intiqamım idi ki, rəqibimi dərhal məğlub etdim. Gün o gün olsun ki, əmilər, dayılar, bizim böyüklərimiz də torpaqlarımızı ermənilərdən alaraq onları əbədi məğlub etsinlər".

Qoluna qüvvət, oğul bala! Qarşıda hamımızı çox sınaqlar gözləyir. Tanrı sənin kimi gələcək qəhrəmanları hifz etsin!

## HARAY, DURNAM, QATARIMI İTİRDİM

Ağlım kəsəndən evimizdə həmişə onun adını eşitmişəm. Cahan bibimin oğlu Məmməd. Bibimgil Şahbuzda yaşayırdılar. Böyük bacım Zəhra da o evdə gəlin idi. Əlaqələrimiz yaxın olsa da Bakıya gələn kimi Məmməd deyilən bibim oğlunu görməmişdim. Məni ilk dəfə onun iş yerinə -"Ulduz" jurnalı redaksiyasına qardaşım apardı. İlk baxışdan gözümə çox tanış, sanki illər boyu qəlbimdə gəzdirdiyim bir surət göründü. Bilmirəm bu doğmalıqdımı, yoxsa elə qandan gələn yaxınlıqdımı, ya bəlkə də öz böyüklüyüdür ki, Bakıda yaşadığım bu uzun illər ərzində Məmməd əmi mənə bütün qohumlarımdan yaxın və əziz oldu. Ona "əmi" deməyim də qəribə görünə bilər. Məmməd Araza istər Yazıçılar Birliyində, istərsə də yerində, fərqi yoxdur, özündən böyük də, kiçik də "əmi" deyə müraciət edirdi. Bu ifadə əslində kəsb etdiyi mənaya görə yox, ehtiram, hörmət, məhəbbət əlaməti kimi işlənirdi.

Məmməd Arazın babaları qədim Zəngəzurda haqq dünyasına qovuşublar. Ata-anası da o torpaqda doğulub. Atası İnfil kişi Qarakilsənin Ağdü kəndində, anası Cahan xanım isə Urudda anadan olublar. Bu səbəbdən də Məmmədin istər ata, istərsə də ana





babalarının, eləcə də bir çox əzizlərinin qəbirləri indi yadlar tapdağında qalmış qədim Zəngəzurdadır. Sisian adlanan, əslində Qarakilsə olan o rayon daha bizim deyil. İllər boyu bu nəsil erməni zülmündən minbir bəla çəkib. 1918-ci ilin hadisələri zamanı İnfil babagil (şairin atası) Şahbuzun Nurs kəndində məskunlaşmalı olublar. İndi də İnfil kişi barədə onu tanıyanlar arasında müxtəlif əfsanələr dolaşmaqdadır. Erməni-müsəlman münaqişəsi zamanı İnfil həqiqətən böyük qəhrəmanlıq və hünər göstərmişdi. Neçə-neçə erməni dığasının məhv edilməsinə nail olmuşdur. Bu qoçaq və qorxmaz kişi yağılara qan uddurmağı bacarmışdı. Amma quş kimi yuvasından perik düşdüyündən



bir daha doğma yurda qayıtmamışdı. Elə o vaxtdan bibimgil Nursda yaşamalı olublar.

Məmmədgil ailədə beş uşaq olub. Böyük qardaşı İbrahim doğma kənddə müəllim işləyirdi. Kiçik qardaşı Əbülfəz də müəllim idi. O həm də istedadlı nasir kimi yazıb-yaradırdı. Təəssüf ki, dünyasını çox vaxtsız dəyişdi. Gülsüm və Məryəm bacıları da kənddə yaşayırdılar. Mənim "bibi" deyərək sevdiyim Gülsüm xanım da dünyasını qəfil dəyişdi. Şairlik taleyi Məmmədi doğmalarından

sıyıraraq Bakıya gətirib. Ata-anasının qəbri Nurs kəndindəki məzarlıqdadır. Dayıları Əliş və Fətullanın, xalası Fatmanın, anası Cahanın- hamısının doğum yeri Urud, haqq dünyasının ünvanı müxtəlifdir. Ötən əsrin əvvəlində və sonunda əsən acı küləklər-ermənilərin torpaq iddiaları bu möhtəşəm nəslin nəinki dirilərini, ölülərini də bir-birindən ayrı salıb.

Məmməd Araz məhz bu ağır taleyin sarbanı olub. Ürəyində neçə doğmasının, əzizinin həsrət dağını yaşatdı. Firidunla Elçinin və sonra da Aftandilin ( qardaşı oğlanları) əbədiyyətə vaxtsız üz tutmaları, qoşa qardaşın həyata "əlvida" söyləməsi, ana kimi sevdiyi bacısı Gülsümün vəfatı şairin bütün ağrı-acılarından betər oldu.

Beşaddımlıq ömür yolunda nə qədər dərdlə, kədərlə, ağır qəmlə, bəd xəbərlə izləşmək olarmış. Məmməd bütün bunlara dözüm göstərə bilirdi. Öz arı-acılarını da unutmuşdu. Heç vaxt gileylənməyi, şikayətlənməyi sevməzdi. Çünki

Bu get-gəllər bazarına dəvədi dünya,
Bu ömür-gün naxışına həvədi dünya.
Əbədiyə qəh-qəh çəkər əbədi dünya,
Dünya sənin, dünya mənim, dünya heç kimin!- deyirdi.

Məmmədin anası - mənim doğmaca bibim Cahan xanım sinəsi bayatılı, bədahətən misralar deyən bir qadın olub. Hərdən mənə elə gəlirdi ki, əminin ilk kitabları və sonrakı kitablardakı bir çox şerləri əslində bibimindir. Onun laylaları, südü ilə Məmmədin ruhuna hopub və sonra da hansı fəhmin gücünəsə kağızlara köçürülüb. Deyim ki, bibimin bütün övladlarının, hətta nəvələrinin yazı-pozu qabiliyyəti var. Yəni bu nəsildə hər kəsin bir şeir dəftəri, bir poetik dünyası var. Amma kimsə irəli çıxmağa, söyləməyə cürət etməzdi. Çünki Məmməd Araz bu nəslin elə nəhəng, çinar timsallı şeir tacıdır ki, olsa-olsa biz o nəhəngin kölgəsində adicə cücərən otlarıq. Məmməd Araz şöhrəti bir xalqın yetəcəyidirsə, fəxridirsə, görün bizim nəsil nə qədər xoşbəxtdir. Hələ uzun illər nəinki bu nəsildən, hətta Zəngəzurdan belə kiminsə kim olmaması da qorxulu deyil. Çünki Zəngəzurun, Qarakilsənin bu xalqa, bu millətə verdiyi əbədilikdir.

Məmməd Araz bütün varlığı, ağrı-acıları ilə birlikdə Azərbaycanın özü demək idi. Şeirlərində yurdumuzun portretini çox sərrast və təsirli yaradan xalq şairinin özü də elə bu taleyi göynərtili torpağımızın güzgüsünə dönmüşdü. Gəlimli-gedimli dünyanın son hökmü içimizdən keçərək duyğularımıza ələnir. Məmməd Araz





nidasının həzin giziltiləri içimizi doğrayır.

Öz ömrümü şum elədi öz əlim,
Yazında gül, payızında xəzəlim.
Gündoğandan, günbatana mənzilim,
Bu da belə bir ömürdü yaşadım.

Dünənini heç vaxt döşdən asmayan, sabahına qəbir qazmayan, öz şair ucalığını, şəxsiyyətini, "mən"ini hamıya görk eləməyi bacaran böyük insan, böyük vətəndaş, böyük şair Məmməd Araz. Onun bütün şeirlərinin ahəngində məmnunluqla peşimançılığın qəribə qovuşması var. Sanki bu şair illər boyu ilahi bir varlığa hesabat verib.

Ömürsüz ömürdən çox asılıyam,
Gərəkdir söz deyəm, söz yastılayam
Hardasa gül üzə, gül yastığıyam.
Hardasa ilana köynəyəm bala.

Məmməd Arazın qəfildən dünyasını dəyişməsi ürəyimizə iti nizələr vurdu və onun qəribə bir misrası yada düşdü.

Ölə-ölə yazmıram,
Yaza-yaza ölürəm.

Beləcə bir şam kimi əriyirdi Məmməd Araz. Ömür tükəndikcə, söz meydanı genişlənirdi. Nigarançılıq, səksəkələr, müşahidələr şairin ürəyindən misra-misra süzülürdü:

Gedir yal davası, sümük davası,
Gedir vurhavurla çəpik davası.
Gedir milyonçunun qəpik davası
Dünya düzəlmir ki, düzəlmir, baba!

Bu sarsıntıları içindən keçirən və bütün üzüntülər önündə ucalığını, məğrurluğunu saxlaya bilirdi Məmməd Araz.

Mənim üçün ən ağır dərd və çəkə bilmədiyim kədər Məmməd Arazın uzun illər ağır xəstəliyə mübtəla olması idi. Mən hərdən inana bilmirəm ki, bu cür qüdrətli nəfəsin, ilhamın sahibi ağrı-acı əlində çarəsiz qalar. Hərdən də ağlıma gələndən gah sevinirdim, gah da gizlicə ağlayırdım. Bəlkə elə Allah belə məsləhət görüb. Məmməd Araz onu əhatə edən aləmdən bir ox kimi sıyrılaraq elə bir ucalığın yaxasında qərar tutsun ki, hamıdan seçilsin, fərqlənsin. Öz böyüklüyünü, təmizliyini, paklığını, saflığını, ucalığını, bənzərsizliyini sona qədər saxlaya bilsin. Məmməd Araz yeganə şairdir ki, kimliyi, şəxsiyyəti, əqidəsi, həqiqəti olduğu kimi şeirlərində görünür. Gözlərimin önündəcə ayrı-ayrı misralardan boylanan qüdrətli bir obrazı

bayaq yuxarıda dediyim sözləri təsdiqləməkdədir.

Yastı-yastı yapalaqlar yarıdı,
Girdə-girdə topalaqlar yarıdı.
Yarımadın heç nədən,
Yarımadın nə yaxşı,
Çömçə tutan əlləri
Yalamadın nə yaxşı.
Yarımadın nə yaxşı.

Bax, budur Məmməd Araz! Öz böyüklüyü, əzəməti, dərdi və bu dərdin içində göyərən bənzərsizliyi.

Məmməd Araz duyğular və sevgilər şairi idi. Və bütün bunlardan da öncə vətəndaş idi. Hamı belə söyləyir. Mənə elə gəlir ki, o daha çox bir o qədər də diqqət çəkməyən üsyankar idi. Yarasını duzla yuduğumuz millətin xörəyinə bir çimdik duz vermədik. İnamını noxdaladıq, inadını axtaladıq. Əlacı, dəvası-dərmanı bir yana, bu yazıq millətə dərdi də ucuz vermədik. Böyük və həssas şairimiz "başbilənlərin" portretini necə ustalıqla yaradırdı:

Ayağı altına yastıq qoyanlar,
Başının altına qumbara qoydu.
Nadanlar dünyanı qumara qoydu.
Mən belə dünyanın nəyindən küsüm!?

Heç küsməzdi də. Çünki, onun köksündə Araz dərdi, Zəngəzur ağrılı, Qarabağ nisgilli bir ürək çırpınırdı. Məmməd Araz həmişə ağlamağın, sızlamağın, giley -güzarın əleyhinə olub. O deyirdi: "İnsan mütləq içində güc tapıb yenidən dirçəlmək, ayağa durmaq, özünü-özündə itirən dünyaya, məhz özünü, öz milli varlığını tanıtmaq üçün mübarizə aparmalıdır". O həmişə haqq divanına inanırdı. Bilirdi ki, gec-tez hər şey öz ünvanına tuş olmalıdır. Çünki Allahın qüdrətindən heç nə xali deyildir.

Əyilməkdir ağlamağın tərs üzü,
Dərdi tapıb üzməyəni dərd üzür,
Ağlayanı tez də tapır, dərd-hüzür,
Bəlkə tanrı belə yazıb, ağlama.
Səsini boğ, millət qızı, ağlama!

Onun poeziyasından hansı misranı çəksən ya üzləşdiyimiz dərdin-bəlanın ağrılarıdır, ya da bəşəri yanğıya çevrilmiş məhəbbətin qəlb paralayan tufanları. Ömrün yaşıl köynəyi didiləndə yorğun xatirələrdən





başqa nəyə əl yetər? Nə yaxşı ki, dərdləşməyə Məmməd Arazın poeziyası var.

Sən məni sevsəydin nolardı görən?
Görən olardımı bir dərdim onda?
Yoruldum demədən qolum üstə sən,
Dünyanı piyada gəzərdim onda.

Məmməd Arazın bütün şeirləri arzumuza bələdçi, ruhumuza elə doğmadır ki, bu poeziyanın baş alıb gedən ünyetməzliyi bizi kövrəldə-kövrəldə təzələdir. İçimizdə dəli bir ümid oyadır. Çəkdiyimiz bütün həsrəti qəfil bir görüşün sevinci ilə unudarıq fikirləşirik. Beləcə naşükürlük daşını uzaqlara atırıq. Məmmədin bütün şeirləri gözəldi. Amma nədənsə, özü aşağıdakı misralarını daha çox sevirdi:

İki ömür yolu,
Bir dəmir yolu,
Bizim üçün dayanıb bu dayanacaq,
Nə sənin mənim tək duyanın olub,
Nə məni sənin tək duyan olacaq.

Bu həzin etiraf adamın içini odlayır. Yaddaşın bir ucuna yazılmış, günlər sinəmizi yandırır. Hərdən dəhşətə gəlirəm. Bilirsinizmi nədən? Məmmədsiz dünyada yaşamaqdan. Və onda Məmmədin öz misrası ilə əllərimi yuxarı tutub hayqırmaq istəyirəm: "Ya Rəbbim, bu dünya sən görən deyil!" Məmmədi aparan qatar bir də ömrümüzə qayıdıb yolumuza çıxmaz. Dərdimi gizlədərək qəmimə üstün gəlmək istəsəm də, dağlara, çəmənlərə qaçmaq istəyirəm. Üzümü qayaların kar qulağına tutub ürəkdən bir nalə çəkmək istəyirəm. Göz yaşlarımı gizlətsəm də, ürəyimi göynədən sözlər dilimə gəlməkdən, məni yandırıb-tökməkdən əl götürmür:

Haray, durnam, qatarımı itirdim!
Havar çəkdim, havarımı itirdim!
Dalğasında avarımı itirdim,
İnnən belə o gözlərə baxmaram!

Məmməd əmi, mən də innən belə "Azərbaycan" Nəşriyyatının ikinci mərtəbəsindəki iş otağının qapısını açmaram. "Azərbaycan təbiəti" jurnalına bir də yazı gətirmərəm. Bir vaxtlar yaşadığın mənzilin qapısını da belə döymərəm. Sənsiz oraları heç təsəvvürümə gətirmərəm. İndi mənim tez-tez gedəcəyim ünvan var-uyuduğun Fəxri xiyaban. Çəhrayı gülləri çox sevirdin. Nə vaxt qəbrin üstə o rəngdə güllər olmasa, bil ki, mən də yoxam, ölmüşəm daha!...

**2004.**

## OĞLUMUN İNŞA DƏFTƏRİNDƏN

Onda sonbeşik oğlum Bəhruzun 15 yaşı var idi. Bir gün məktəbdən müəllimi evə zəng edib söylədi: "Bəhruzun inşası məni ağlatdı". Üzülə-üzülə oxudum, oğlumun yazdığı inşanı. Ürəyimin başı göynədi. Nöqtə-vergülünə toxunmadan bu kitaba saldım ki, 15 baharlı bir ömrün həsrətini hamımız anlayaq və əzizlərimizi heç vaxt unutmayaq.

## Həsrətində olduğum insan

Əziz və istəkli nənəm Gözəl!

Bilirəm ki, sən bu məktubu heç vaxt oxumayacaqsan. Bu məktub heç vaxt öz ünvanına çatmayacaq. Amma sənə qarşı bəslədiyim məhəbbətim könlümdə elə həsrətə çevrilib ki, duyğularımı dilə gətirməsəm, olmur. Sənin xatirən bizim üçün çox əzizdir. Anamın göz yaşlarında, atamın xatirələrində sənin çox işıqlı bir surətin yaradılıb. Necə fədakar, zəhmətkeş, mehriban qadın olmağın barəsində evimizdə hər gün danışılır. Deməkolar ki, sən həmişə bizimləsən. Sənə qarşı məhəbbtimiz elə dərindir ki, mehriban sifətin xəyalımızdan çəkilmir.



Sən analar anasısan. Ona görə yox ki, bizim sevimli nənəmiz olmusan. Həm də ona görə ki, sən vətənini, doğma torpağını canından artıq sevən bir insan olmusan.

Anam danışır ki, ermənilər kəndimizin sakinlərini zorla öz doğma ocaqlarından çıxaranda sən evimizdə gizlənmisən. Namərdlər səni də öz yuvandan qopardıblar. Qışın bir sərt günündə dərədə qarın içinə atıblar. Nə zülmlər, nə məşəqqətlər səkibsən, bir Allah bilir. Sənin kimi mərd bir qadının zərif ürəyi bu ağır dərdlərə tab gətirmədi. Anam nisgillə deyir ki, əziz nənəmiz, sən də vətən, torpaq uğrunda şəhid oldun. Ona görə də sən bizim üçün çox qiymətli və əziz bir varlıqsan.

Anam bizə tez-tez səninlə bağlı xatirələr danışır. Biz də sənin kimi vətənpərvər, mərd, mehriban və qüdrətli olmaq istəyirik. Söhbətlərdən bizə aydın olur ki, sən kişi dəyanətli qadın olmusan. Bilirsənmi, sənə niyə məktub yazdım, nənə? Məni narahat edən məsələləri bildirmək istəyirəm. Anamın ağlar gözləri bizi də sarsıdır. Çünki o, özünü sənin ruhun qarşısında narahat və borclu hiss edir. Axı sənin doğma torpağın, son nəfəsində dilindən düşməyən kəndimiz düşmən tapdağındadır. Məzarın Abşeronun Saray, ruhun Zəngəzurun Urud kəndində olan nənəmiz! Bağışla bizi. Hələ vəsiyyətinə əməl edə bilməmişik. Qəbrin üçün doğma yurdundan bir ovuc torpaq arzulamısan. Hələ yollar açılmayıb. Hələ qara bulud o dağların başından çəkilməyib. Amma əziz nənəm, bu məktubu ona görə yazıram ki, biz varıq, biz böyüyürük, biz mütləq torpağımızın hər qarışını yağılardan azad edəcəyik.

Qoy sənin ruhuna əyan olsun ki, biz heç vaxt vətənimizi unutmuruq. Biz heç vaxt valideynlərimizə layla dediyin doğma ocağı yaddan çıxarmamışıq. Bilirik ki, vətən gözdür, biz kirpik. Bu gözlərin keşiyini çəkmək bizim borcumuzdur. Biz borcu ləyaqətlə yerinə yetirəcəyik.

Əziz nənəm! Düşmən qoymadı ki, sən mənə nağıl danışasan. Həyatın yarımçıq qırıldı. Məktub yazdım, biləsən ki, söyləmədiyin nağılların həsrəti mənə dedi: "Biri var idi, biri yox idi. Dünyada Gözəl adlı bir nənə var idi. O nənənin də yağı tapdağında qalan yurd-yuvası..."

Arxasın demək istəmirəm, nənəcan! Qoy heç göydən üç alma da düşməsin. Düşsə, nə olacaq ki? Nağıl alması yeməkdənsə döyüşə getmək lazımdır.

Hələlik nənə. Yenə sənə məktub yazacağam. Yəqin onda sənə müjdə verərəm. Uyğun rahatlıq tapar, ruhun sakitləşər.

O gələcək xoş xəbərin arzusu ilə sənə bu kövrək məktubu nəvən Bəhruz yazdı.

**2002**

# URUDLU GÜNLƏRİN YADİGARI

Bu yazı, 1979-cu ildə "Azərbaycan təbiəti" jurnalında dərc edilib. O vaxt universiteti təzəcə bitirib mətbuatda çalışırdım. Kəndimizin həsrətinə dözə bilməyərək qələmə aldığım ürək sözləri urudlu günlərimin əks-sədasıdır. Burada kəndimizdəki yer adları, toponimlər bir daha diqqətimi çəkdi. Bu səbəbdən də həmin məqaləni bəzi ixtisrlarla kitaba daxil etməyi məqsədəuyğun hesab etdim.

# YÖNÜ BƏRİ BAXAN DAĞLAR

Kəndimizdən ayrı salıb illər məni. Bir arzunun, bir istəyin sorağında coşan könlüm o dağlardan ayrı düşüb. Bax burada deyiblər də: "Dağlar əsirgədi qarını məndən".



Günlərin birində yaylaq həsrəti məni yamanca kövrəltdi. Nə vaxt gəldim, necə oldu bilmədim. Gözümü açdım ki, kəndimizdəyəm - şiş qayalar, uca dağlar qoynundakı yaşıl bir diyarda! Yenə Bənövşəli bu







lağın, yenə sevdalı kəhrizin sehirli nəfəsinə, buz dadına heyrət kəsilmişəm. Çiyələk rəngli yaylaları: Təəzürü, Üçtəpəni, Hacıalını, gül - çiçəkli yamacları, Ağyastanı, Cıdaxuru, Şirvanəkəndi, Qaragüneyi, Meydanları... qarış - qarış dolaşdıqca Urudun ululuğuna, qədimliyinə, yaşıllığına sevinmişəm. Bağları, Balbağını, Qazbağını, Pürülü, Bəybağını, Əriklini, Gilasdibini, Otayı, Gəncəli adasını... gəzdikcə yanıqlı ürəyimə sərinlik çilənib, könlüm toxtayıb, əsəblərim sakitləşib. Təbiət ən böyük loğmandır deyənlərə ürəyimdə min kərə haqq qazandırmışam. Öyünmüşəm ki, bu kəndin övladıyam, bu torpağın bir parçasıyam. Dağlar sırasında İşıqlı dağımız mənə həmişə daha uca, daha nurlu görünür. Hələ Babək qalası əlçatamaz, ünyetməz uşaqlığımın necə şirin xatirəsi, dadlı anları uyuyub onda. Ana yurdun təbiəti də ana qədər əvəzsizmiş,əzizmiş! Hələ onunla bağlı şirinli - acılı xatirələr, reyhanlı, süsənli, nərgizli günlər... bağrı qara lalələrin həsrəti.

Vel qayası, İlanqaya, Yumruqaya, Bədirqaya, Uzunqaya, Yastıqaya, "Xan oturan" (bu da kəndimizin yaraşığı qədim körpü) neçə əsrin yadigarı. Deyirlər ki, Babək igidlərinin oylağıymış bu yerlər. Hələ qaçaq Nəbinin bu dağlarda at oynatmağını, quş qonmazlarda "koma" düzəltdiyini öz gözləri ilə görənlər də son illərə qədər yaşamaqda



idilər.

Dünyanın yaşıllığa sığınmış Zəngəzur mahalında sinəsi söz çeşməli nənələr yaşayırdı. Yadımdadır ki, gecələr nənəmin ulu dağlarımız, qalın ormanlarımız barəsindəki nağıllarına həvəslə qulaq asardım. Qəribədir, nənəm ağaclar, quşlar, meşə heyvanları haqında çoxlu əfsanə bilirdi.

Xatırlayıram ki, bir dəfə sahibsiz bir yurdda bayquş uladığını təşvişlə nənəmə bildirəndə hamımız pis olduq. Quşa lənətlər yağdırdıq. Nənəmin gözləri harasa lap uzaqlara dikilmişdi. Handan hana özünə gəldi. Şirin bir əfsanə danışdı bizə.

Demə, adına bəyquş deyərlərmiş bu quşun. Gözəlliyinə, vüqarına tay tapılmazmış. Qəribə güc bəxş edib təbiət ona. Heç vaxt ov dalınca getməzmiş.

İndi də belədir. "Ov"lar özü onun ətrafında fırlanar, axırda quşlardan biri öz xoşuna onun yemi olarmış.

Bəyquş ömründə bircə dəfə "sevir", bircə dəfə "həyat qurur". Lap qədimlərdə olubmuş bu hadisə. Bəyquş öz sevgilisini qəflətən itirir. Onun fərağına dözmür, özünü dağa - daşa çırpır. İstəmir ki, öz dərd - qəmi ilə quş yoldaşlarına da əzab versin, onları incitsin. Tənha, kimsəsiz bir yurda üz tutur. Fəryad edir, nalə çəkir. Vəfalı bəyquş yoldaşları onun bu gizli "vay"ından yenə xəbər tutub dərdinə şərik çıxırlar.





O gündən bu quşlar ovqatlarına uyğun yer axtarıblar, ağlamaq üçün, ürəklərini boşaltmaq üçün...

İnsan gərək quşdan səksənməsin, o da canlıdır axı. Qoy heç harda sahibsiz, insansız yurd tapılmasın, xarabazarlıqlar olmasın. Onda yəqin ki, bəyquş da fəryad çəkməz!...

... Kəndimizdə nəhəng qoz ağacları var. Yaşını, ömrünü bilən yoxdur. Dağlar ucalığında böyüklüyü, çəmən boyda çətri var. Bizim tərəflərdə qoza "cəviz" deyirlər. Elə kövrək qabıqlıdır ki, barmağınla balaca sıxan kimi ağappaq ləpələr ovcuna düşür.

Urud qozları! Kimin mədəsi pozulsaydı, nənəm deyərdi: "Bir az cəviz ləpəsi ye". Azarının elə bil bütün ağrı - acıları da ona bağlıymış. Mərəzi tez ötüb keçərdi. Qədirbilən kənd əhli həmişə bu ağacların artırılması qayğısına qalırlar, onu qoruyurlar. Bir də görürsən ki, ildırımdan, qəfil tufandan heç bir ota, kola ziyan dəymədi, amma qoz ağaclarının qol - qanadları yerə sərildi, sinəsi qapqara qaraldı, koğuşlar əmələ gəldi. Onda görərsən ki, Əkbər baba ağacın gövdəsindəki "yara"nı təmizlədi, sonra da qalın bir keçə ilə sarıdı, bərk



- bərk bağladı. Bəs necə, əsrlərin yadigarını sabaha da çatdırmalıyıq.

Bağlı - bağatlı, axarlı - baxarlı Urudum mənim. Adının mənası çaylaqdır deyirlər. Yəqin ki, bu yerlər başdan - ayağa su olub. Bəlkə də ona görə bulaqlar belə çoxdur. Hər çeşmənin öz adı, öz hüsnü var: Sul-

tan bulağı, Kəklik bulağı, Cəfər bulağı, Baldırğanlı bulaq, Söyüdlü bulaq, Damcı bulaq, Bitli bulaq, Yuxarı kəhriz, Aşağı kəhriz, Hovuz, Hamam, Zor - zor, İstisu, Turş su... Hələ qədim və gözəl Bazarçay. Neçə illərdir ki, öz axımında, öz nəğməsindədir. Gecələri lap gözəl olur Urudun. Bazarçayın qeyri - adi səsi sanki layla çalır. Mənim Telli xalam həmişə Sultan bulağının suyundan çay qoymağı sevərdi. Bulaq da bir az uzaqda idi. Hər gün balaca səhəngimlə xalama həmin bulaqdan su gətirərdim. Özüm isə hələ bulaq sularının fərqini aydınlaşdıra bilmirdim. Bir gün yorulduğumdan səhəngi yaxınlıqdakı kəhrizdən doldurub apardım. Fikirləşdim ki, xalam nə biləcək ki, hansı bulaqdan su gətirmişəm. Səhəri xalam mənə belə bir söz dedi: "Bala, sən çox əziyyət çəkmə, kəhrizdən özüm də su gətirə bilərəm". Quruyub yerimdə qaldım. Mənim bu yaşlı xalam bulaqların tamını necə gözəl tanıyırdı...

Qədim tarixə və tarixi abidələrə malik olan Urud kəndi uluca bir elə dönüb. Qorqud əvəzi igidləri, gülyanaqlı qızları, ulduzlartək yaxına - uzağa səpələniblər. Haraya gediblərsə, ora özləri ilə hava, səma genişliyi, təbiət səxavəti aparıblar.

Hərdən dağ həsrəti biz "dönükləri" Urudda - dünyanın bu yaşıl qoynunda yenidən görüşdürər, saflaşdırar, ayrılıq vədəsi çatanda şəfəq nurundan doyunca içər, gözü - könlü tox dağlara tamaşa edərik, dağ biçimində, dağ vüqarında geriyə qayıda bilək deyə. Yenə qəlbimizdə nəsə göynəyər, həsrət - həsrət zümzümə edərik:

Yönü bəri baxan dağlar,
Mənim sizdə nəyim qaldı?!

**1979.**

Qəribədir ki, bu yazıda məhəbbətlə vəsf olunan gözəllikdən indi əsər - əlamət qalmayıb. Ötən illərdə təsadüfən doğma kəndə qədər gedib çıxan bir soydaşımız danışır ki, Bazarçay quruyub.(Yəqin ki, Tanrının ittihamıdır). Bulaqların gözü tutulub. Tək - tük evdə şikəst, əlil, yaşlı erməni yaşayır. Ən dəhşətlisi budur ki, qədim qəbiristanlıq şumlanıb. Üç yeniyetmənin əl - ələ tutub gövdəsini ancaq qucaqlaya biləcəyi qoz ağacları kəsilərək mebel düzəldən şirkətlərə satılıb. Bir sözlə, ermənilər gözəl Urudu da xarabalığa döndərərək bayquşların məskəninə çeviriblər. Bizlərin gözündən isə asılı qalan Urudumuz həmişəki kimi cazibədar və sevimlidir.





# QIZILQAYANIN ƏTƏYİNDƏ



***Könlüm ağlar ötənə,***
***Ümid bağlar yetənə.***
***Ovul, ürəyim, ovul,***
***Əlin çatmaz Vətənə!***

# VAĞƏDİ - QƏDİM YAŞAYIŞ MƏSKƏNİ

İşıqlı dağının ətəyində yerləşən Vağədi kəndi çox qədim yaşayış məskənlərindən biri olmuşdur. Bu kəndin ilk sakinləri də oğuz tayfalarının ulu babaları sayılırdı. Kəndin adı ilə bağlı müxtəlif yozumlar səslənir. Bəzi tədqiqatçıların fikrincə, bu kənd əvvəllər Qızılqaya, sonralar Dəlmələr, nəhayət, Suludərə adlanıb. Qəribədir ki, bu adların hər biri ilə əlaqədar kənddə müəyyən yerlər var idi. Hətta söyləyirdilər ki, kəndin sonuncu adı Həcəəkkə olmuşdur. Son zamanlara kimi yaşlı nəslin arasında bu ad tez-tez hallanırdı. "Vağədi" toponiminin izahı ilə əlaqədar Budaq Budaqov və Qeybulla Qeybullayevin apardıqları tədqiqatlarda oxuyuruq: "Vağədi Yelizavetpol quberniyasının Zəngəzur qəzasında kənd adıdır. 1918-ci ildə Azərbaycan türklərindən ibarət əhalisi qovulmuş, oraya başqa yerlərdən gəlmə ermənilər köçürülmüşdür. Sonra əhalisi qarışıq olmuşdur. 1988-ci ildə kəndin azərbaycanlılardan ibarət hissəsi doğma yurddan qovulmuşdur. Bu kəndin adı Böyükdüz olmuşdur ki, bu da Səlcuq oğuzlarının Bükdüz tayfasının adını əks etdirir. 1468-ci ilə aid mənbədə Vağədi kimidir. Orta əsrlərdə Albaniyanın qədim Tatev monastrına mənsub kənd olmuşdur".

Hər tərəfi dağlarla əhatə olunmuş Vağədi kəndi Qarakilsənin ən gözəl, dilbər guşələrindən biri idi. Yaşlı adamlar söyləyirlər ki, bu kənddə 10 qədim qəbiristanlıq olub. Hətta bəzilərinin üstündə xaç şəkilləri də var imiş ki, bunlar da albanlara məxsusluğun işarələridir. Qəbiristanlıqların adları öz halal sahiblərinin əsl tarixini və soykökünü əks etdirmək baxımından maraqlıdır: Cəhrədərə, Kalafalıq, Alıbəyli, Qonşudərə, Güllü və Ağzıaçıq kahanın üstü, Türklər yurdu, Şükürbəyli və s. Bu kəndin alban tayfalarına məxsusluğunu təsdiqləyən başqa bir abidə də mövcud olub. Vağədiyə qərbdən giriş yolunun üzərində xaç rəsmi olan hündür bir daş var idi. İki metr yarım hündürlüyündə olan bu daşa əvvəllər heç kim fikir vermirdi. Sonralar bəlli olanda ki, bu, alban xaçıdır, ermənilər həmin nişanəni təzələşdirmək adıyla dəyişdirdilər. İlk baxışda heç kəsin ağlına bəd niyyət gəlmirdi. Amma sonralar məlum oldu ki, ermənilər hansı hiyləyə əl atırmışlar. Kənddə alban kilsəsi, sonrakı əsrlərdə müsəlmanlığın nişanəsi olan məscidlər tikilsə də, zaman keçdikcə bu müqəddəs ünvanlar qəsdən sıradan çıxarılmış, hətta sovet dövründə həmin ibadətgahların yerində kolxoz





üçün inzibati bina, anbar və başqa tikililər inşa etmişdilər.

Vağədidə türk tayfalarının yaşadığını əks etdirən qəribə bulaq abidəsi də mövcud idi. Danışırlar ki, o bulaq daşlarının üzərində ərəb əlifbası ilə yazılar da var imiş. Bu abidələr 1948-ci ildə dağıdılaraq yox edilmişdir. Hətta xaç daşının yanında qədim bir qəbiristanlıq olub ki, orada məhz türklərin dəfn edildiyini söyləyirdilər. El arasında həmin axirət dünyası "sünni qəbiristanlığı" adlanırdı. Dəfələrlə yadelli qəsbkarların bu kəndə hücumları nəticəsində yerli əhali arasında təriqət ayrı-seçkiliyi yaranmış, hətta "şiə məscidi", "süni məhəlləsi" kimi ifadələr də formalaşmışdı.

Vağədi kəndinin şərqində yerləşən məşhur Qızılqaya bu qədim və yaraşıqlı yaşayış məntəqəsinə xüsusi gözəllik bəxş edirdi. İşıqlı dağı bu yerlərin vüqarının, əzəmətinin, onun mehriban, saf sakinlərinin məğrurluğunun əsl simvolu idi. "Zor-zor" adlanan çay timsallı bulaqdan əhali həm içməli su, həm də bağ-bağatı suvarmaq üçün istifadə edirdi. El arasında belə bir ifadə vardı ki, Zorzor suyundan içən şəxs buz baltası kimi olar, ona heç bir soyuq, şaxta təsir etməz. Sınaqdan çıxmışdı ki, ondan bir içim dadan ömrü boyu mənəviyyatca sağlam və əqidəli olardı. Zor-zordan vağədililərlə bərabər, qonşu Urud kəndinin sakinləri də istifadə edirdilər. Bu nəhrdən hər bir qapıya su çəkmişdilər.

Kəndin kənarlarında yerləşən kahaların dəlmələri o qədər füsunkar görünürdü ki, sanki dağların sinəsində oyuq-oyuq evlər tikilmişdi. Kənddə dişgöynədən bulaqlar, su dəyirmanları mövcud olmuşdur. Vağədi kəndinə məxsus yer, yurd, yaylaq, bulaq, dağ, bağ, dərə, yol adlarına fikir verin: Pürül, Qəz bağı, Vəng, Əjdaha dərəsi, Qızılqaya, Sarı yoxuş, Dəvəboynu, Toxlutökülən, Dolayı yol, Çadırdaş, Quzu kahası, Göbəkdaşı, Çömçə bulağı, Cada, Çöplü çuxur, Qayabaşı, Şalvarlı dərə, Şinher yolu, Şorsu, Bərk dərə, Arpa çuxuru, Cəhrə dərə, Novlu bulaq, Bayıldar dərəsi, Kafır damı, Haçaqaya, Kərbəlayi Nəcəfqulunun qoşa dəyirmanı, Bəyalının dəyirmanı, Ağayar yurdu...

Vaxtilə həm kəndin içində, həm də kənarlarında, eləcə də İşıqlı dağının zirvəsində pirlər olub. Dədə-babadan insanlar o müqəddəs yerləri ziyarət edər, orada şam, yaxud da təmiz yağda hazırlanmış piltələr yandırardılar. Vağədi Urud, Ağdü, Dərəkənd (bu kənd 1905-1918-ci illərdə daşnaklar tərəfindən yerlə-yeksan edilmişdi, ancaq xarabalıqları qalırdı) və bu viran edilmiş yurd yerinin yaxınlığında

1930-cu ildə yaradılmış Noravan (Yeni Oba) kəndləri ilə, eləcə də Laçın rayonunun ərazisi ilə həmsərhəd idi.

Kənd əhli hələ qədimdən əkinçilik, meyvəçilik, bağçılıq və heyvandarlıqla məşğul olurdu. Ermənilər əslində Vağədiyə 1920-ci ildən sonra gəlmişdilər. Vağədi sözün əsl mənasında bağlardan ibarət idi. Tanrı qeyri-adi gözəlliklə bərabər nemətlərini də bu dilbər yerlərdən əskik etməmişdi. Hər növ alma, armud, ərik, heyva, alça, gilas, gilənar, tut, şaftalı, gavalı, cəviz, hətta üzüm də olurdu. Dağı, düzü, dərəni müxtəlif gül-çiçəklər və dərman bitkiləri başına götürmüşdü. Xüsusilə də giləmeyvələr Vağədidə daha çox bitirdi: böyürtikan, həmənsür (itburnu), yemişan və s. Yazdan başlayaraq qızılgüllərin ətri kəndi bürüyərdi. Ümumiyyətlə, Vağədi camaatı həyət və bağçalarda müxtəlif gül-çiçək becərməyi çox sevərdi.

Zəngəzurun digər yaşayış məntəqələri kimi Vağədinin də faciəsi XX əsrin əvvəllərindən başlayıb. 1905-ci ilin erməni-müsəlman qırğınları bu kəndin də həyatında ağır izlər qoyub. Daşnaklar Vağədidə 28 ailəni bütün üzvləri ilə birlikdə qətlə yetirərək 47 qadın və 107 kişini təsəvvüredilməz amansızlıqla öldürmüş, 10-a yaxın cavan gəlini əsir aparmışdı. Bütün bu zülmə və işgəncələrə baxmayaraq, insanlar öz isti ocaqlarını tərk etməyərək Vağədidə yaşamaq istəyirdilər. Ona görə də ara bir qədər sakitləşən kimi həmvətənlər doğma kəndə qayıdardılar. Amma bu binəsiblər bilmirdilər ki, onları qarşıda hansı fəlakətlər gözləyəcək. 1918-ci ilin yayında Andronikin başçılıq etdiyi daşnak quldur dəstəsi Zəngəzurun kəndlərində analoqu olmayan vəhşiliklər törətdi. Ermənilər Azərbaycan kəndlərində dəhşətli qəddarlıq edərək əhaliyə divan tutdular. Onlar bir tərəfdən kəndləri dağıdır, evləri yandırır, insanları qılıncdan keçirir, digər tərəfdən də azərbaycanlılara minbir zülm verərək onların əzablarından, nalələrindən həzz alırdılar. Ermənilər Vağədidə sözlə ifadəsi çətin tapılan qırğınlar törətmişdilər. Yüzdən artıq adamı hündür qayanın başından çaya atmışdılar. Vağədili ziyalı Əli Nəcəfzadə öz xatirələrində yazırdı: "Daşnaklar qadınların döşlərini kəsərək kürəklərinə samovar bağlamışdılar. Hətta bir ananın döşünü qopardaraq ağlayan körpəsinin ağzına soxmuşdular. Uşaq bu vəhşətdən boğulub ölmüşdü".

O vaxt insanlar bir tərəfdən də vəba xəstəliyindən əziyyət çəkirdilər. İnsaf hissindən tamamilə məhrum olmuş quldurlar xəstələri





elə öz yatağındaca doğramışdılar. Bu zülmdən canını birtəhər xilas edib qaçanlar sonralar vətən həsrətinə tab gətirməyərək yenidən doğma yurda qayıtmaq məcburiyyətində qalıblar. O cümlədən, kəndləri xarabalığa çevrilmiş sakinlər də yaşayışı mümkün olan Uruda, Ağdüyə və Vağədiyə sığındılar.

Sovet hakimiyyətinin qələbəsindən sonra bir müddət sakitlik yarandı. İnsanlar başlarına gələn fəlakəti unudaraq yenidən yaşamaq, yaratmaq uğrunda mücadiləyə qalxdılar. Qarakilsənin səfalı kəndlərindən olan Vağədidə də həyat qaynadı. Əslində bu kəndin sakinləri üç tayfanın törəməsindən ibarət olub: Ağaməmmədli, Alməmmədli, İrzalı. Sonralar bu tayfalar da böyüyərək müəyyən qollara ayrılıb. Tayfalar arasında sayca ən çox olanı İrzalı tayfası sayılır. Tayfalar çox mehriban olublar. Onların arasında qohumluq əlaqəsi yaranıb, birlikdə əkin-biçinlə, kəndin yenidən qurulması ilə məşğul olublar. Kənd sakinlərinin vəziyyəti həmişə yaxşı olub. Çalışqan, zəhmətkeş insanlar olduqlarından özləri üçün normal şərait yaradıblar. Kənddə kasıb ailənin sayı çox az idi. Erməni daşnaklarının vurduğu yaralar sağalmasa da, qaysaqlanırdı. Lakin İkinci Dünya müharibəsinin başlanması ilə bağlı bu kəndin də növbəti ağır günlərinə imza atılıb. II Dünya müharibəsində Vağədi kəndindən 77 nəfər iştirak edib, onlardan 45-i həlak olmuşdu. Müharibədən sağ-salamat qayıdanların da sinəsini müxtəlif orden və medallar bəzəyirdi. Onlar cəbhələrdə əsl qəhrəmanlıq göstərmişdilər. Nabatəli Allahverdiyev "Qırmızı Əmək Bayrağı" ordeni və başqa medallarla təltif olunmuşdu. Pulemyotçu Yasin Bünyadovun qəhrəmanlığı dillər əzbəri idi. Hamı onunla fəxr edirdi. Çoxlu orden və medalları var idi. Qəzənfər Şahhüseynova Stalinin imzası ilə yüksək mükafat verilmişdi. O, Ukrayna cəbhəsində xüsusi qəhrəmanlıq göstərmişdi. Şirin Baxşəliyevi Zəngəzurda tanımayan yox idi. O, gözəl təbib, həm də dəllək idi.

Vağədi kəndində adı dillər əzbəri olan ağsaqqallar yaşayırmış. Onların el arasında çox böyük hörmət və nüfuzları olub. İndi də xatirələri qəlblərdə yaşayan o insanları bir daha yada salırıq: Hacı Tahirverdi, Hacı Səməd, Məşədi Aslan, Yüzbaşı Əlif, Kərbəlayi Allahverdi, Məşədi Mansır, Məşədi Abbasəli, Kərbəlayi Nəcəfqulu, Hacı Hüseynqulu, Axund Nəsrulla, Kərbəlayi Hümbət, Hacı Abdulla və oğlu Məşədi Xudafirim, Hacı Süleyman... Bu unudulmaz kişilərin ənənəsini yaşadan sonrakı nəsildən çıxan ağsaqqallar: Soltan və Şirxan

qardaşları, Məşədi Emin, Məhəmmədəli, Xıdır, Şahvəli, Azay və Qoçaq qardaşları, Abbas, İsgəndər, Veysəl, Allahverdi, Nəriman, Xeybər Quliyev, Bəhrili İman, Şükür Kərəmov və başqaları. Bir məsələni də bildirək ki, Qarakilsədən Məkkə ziyarətinə ən çox zəvvar Vağədi kəndindən gedib. Buna görə də kənddə Hacıların sayı çox olub.



**Telman Ağayev**

Sovet hakimiyyəti illərində əmək cəbhəsində xariqələr yaradıb hünər göstərmiş Saməddin Şükürov, Xanış Usubalıyev Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşlər. Zöhrə Cəfərova "Qırmızı Əmək Bayrağı", Ətlas Abdullayeva isə iki dəfə "Əmək" ordenləri ilə təltif edilmişlər. Bu insanlar dəfələrlə rayon və Ali Sovetin deputatları seçilmişlər.

Vağədi kəndi Azərbaycan elminə, siyasətinə çox bilikli, savadlı insanlar bəxş etmişdir. Məsələn, Məhi Qarayev - hüquqşünas, Yamin Yusifov - general-mayor, Müzəffər Hacıyev - alim, Telman Ağayev - Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Xanvəli Abdullayev - BDU-nun professoru, Musa Nəcəfov - alim, Novruz Tahirov - alim, Vəkil Abbasov - həkim, Səməd Əsədov - cərrah, Karlen Abbasov - əməkdar həkim, Sidqəli Bayramov - tibb elmləri namizədi, Novruz Maqsudov - polkovnik, İlqar Abbasov - Suraxanı rayonunun icra başçısı, Cahan Ağayeva - Estoniya "Ocaq" cəmiyyətinin sədri, Niyazi Hacıyev - polkovnik, Məhərrəm Hacıyev - Lomonosov adına Moskva Universitetinin professoru, Vadim Tapdıqoğlu - Beynəlxalq Dama Federasiyasının Prezidenti, Ənvər Hacıyev - Sumqayıt Tibb Texnikumunun müəllimi, Orucəli Abdullayev - alim, Novruz Zeyniyev, Alı Namazov - biologiya elmləri namizədləri, Əhliman Bayramov- geologiya-minerologiya elmləri namizədi, Mehriban Bağbanlı (Səfərova)- tibb elmləri namizədi, Dilarə Ağayeva - həkim, Güllər Usubqızı - Xırdalan Kollecinin elmi işçisi,





Namaz Abbasov - vaxtilə Vağədidə kolxoz sədri, Rayon Partiya Komitəsində təlimatçı, III katib və s. məsul vəzifələrdə çalışıb. Hazırda Bakıda yaşayır, bütövlükdə Qarakilsə camaatının çox sevdiyi, hörmət və ehtiram göstərdiyi ağsaqqallardan biridir. Vaqif Qaraşov - texnika elmlri namizədi... Əlbəttə, bu siyahını uzatmaq olar, amma təəssüf ki, 1988-ci ilin deportasiyasından sonra doğma yurddan didərgin düşmüş insanların hər biri haqqında dəqiq məlumat toplamaq çox çətindir.



**Əhliman Bayramov**

Ana yurdum Urudla Vağədi arasında cəmi 3-5 kilometr məsafə olub. Bu kəndləri bir-birinə qonşuluq münasibətləri ilə bərabər, başqa əlaqələr də bağlayırdı. Hətta bir neçə dəfə hər iki kənd eyni kolxozda birləşib. Sovetlikləri də eyni olub. Urud camaatının da istifadə etdiyi poçt şöbəsi, xəstəxana, tibb məntəqəsi məhz Vağədidə yerləşirdi. Vağədi kəndi həm də Qarakilsənin o dövrdə yarızarafat, yarıciddi elmi mərkəzi sayılırdı. Çünki yeganə orta məktəb bu kənddə yerləşirdi. Natamam təhsil aldıqdan sonra orta məktəbi başa çatdırmaq üçün qonşu kəndlərin uşaqları məhz Vağədidə oxuyurdular. Uzun illər Vağədi məktəbi rayonun işığı sayılıb. Bu nurun ziyası neçə-neçə talelərə şölə saçıb. Vaxtilə məktəbin yaradılmasında urudlu Məmməd Xəlilovun və Həbib Bayramovun böyük zəhməti olmuşdur. Təhsil ocağının müəllimləri Şuşa, Ağdam, Gəncə və Naxçıvan seminariyasının məzunları olub. Həmin müəllimlərin xatirəsini bu gün də Qarakilsə camaatı ehtiramla yad edir: Həbib Bayramov, Əli Kətənov, Yaqub Tahirov, Ağaqulu Nəcəfov, Müzəffər Hacıyev, Əbdülmənaf və Eynulla Hacıyev qardaşları, Əli Nəcəfov və başqaları. Bu müəllimlərin əksəriyyəti



**Mehriban Bağbanlı**



Novruz Tahirov

II Dünya müharibəsindən qayıtmayıb. Onların saldığı cığırla aşağıdakı insanlar inamla irəliləməyə başlayıblar: Turab Babayev, Hüseynalı Bünyadov, Həsənxan Ağayev, Ağamalı Quliyev, Fərrux və Oqtay Qəhrəmanov qardaşları, Mirseyib Həsənov, İman Ağayev, Xalidə Abbasova, Güllü Şükürova, Muradxan Tahirov, Abdulla və İsrfail Abdullayev qardaşları, Validə Tahirova, Savalan Məmmədov, Məhər Tahirov, Aslan Hətəmov, Tamara Həsənova, Cəlal Abbasov, Əjdər Quliyev, Sitarə Həsənova, İbrahim Quliyev, Abdulla Yolçiyev, Arif Quliyev və başqaları.

1988-ci ildən sonra didərginliyin minbir əzabını yaşayan vağədililər Qarabağ adlı savaşda öz ciyərparalarını qurban verdilər. İgidliyin şəhidlik zirvəsinə yüksəlmiş Kamil Şükür oğlu Əsədov, Həşim Novruz oğlu Əsədov, Fariz Hüseynalı oğlu Bünyadov ölümsüzlük qazandılar. Bütün bu ağır dərdin və faciələrin içində soydaşlarımız vətənə dönmək ümidini itirmədilər. Amma bir ağrılı cəhət var ki, Vağədidə doğulmuş, böyümüş, o yerlərin təmiz havasını almış, saf suyunu içmiş, halal ruzisini dadmış insanların sayı azaldıqca nisgilimiz daha da artır. Bizi qorxudan ölümlər yox, unutqanlıqdır. Çünki insan olmadığı yeri yuxuda da belə görmür. Tanrı bizi bu fəlakətdən qorusun. Hələ ki varıq, hələ ki vətənə dönmək ümidini itirməmişik.





# MƏKTƏB İLLƏRİ

**Bu həyatdır, əzizim;**
**Ömür alan, gün satan,**
**Toyuna da gül satan,**
**Vayına da gül satan,**
**Bu üzdə çay körpüsüz,**
**O üzdə körpü çaysız.**

Məmməd Arazın bu misralarını heç bilmirəm, niyə xatırladım. Bildiyim odur ki, xəyallar bizi geri çəkdikcə gözümüzə dolan o yerlər, eləcə də unudulmaz məktəb illəri qəlbimizi göynətdi. Nitqimizi lallaşdıran, ruhumuzu sıxan, bizi taqətdən salan, için-için incidərək ağladan xatirələrin yel qanadında haralaracan getmədik? İlahi, bu nə boyda dəhşətdir, ədalətsizlikdir, yerə-göyə sığmayan dərddir, bəndələrinə tuş etmisən?! Doğulduğun yerlərə gedə bilməyəsən. Xəyalın çəkilmədiyi ünvanlara üz tutmayasan. Bəlkə heç bizim dünənimiz - o şən, bəxtəvər günlərimiz olmayıb? Bəs hardan gəldik bu şəhərə? Nə ola, Allah, yenə o dağların qucağı, yenə Bazarçayın sahili, Zor-zordan su içdiyimiz, Qəz bağına alma dalınca getdiyimiz günlər olaydı.

Səkkizinci sinfi Urudda bitirdikdən sonra mütləq Vağədi kəndində beynəlmiləl orta məktəbdə oxumalı olurduq. Günlərin birində bu qismət bizim də taleyimizə yazıldı. Mən, Rəmziyyə, Nəsibə, Mahirə, Səyavuş, Nəbi, Eyvaz, Cəlil Vağədi məktəbində oxuyurduq. Yeni sinif yoldaşlarımızla da tez dil tapıb dostlaşdıq: Sima, Bəsti, Aybəniz, Vəsilə, Nazilə, Şəfiqə, Tehran... Sima ilə Bəsti orta məktəbi qızıl medalla bitirdilər. Aybənizə isə "Riyaziyyatın Allahı" deyirdik. Tənəffüslərdə həmişə səs-səsə verib mahnı oxuyardıq. Vağədililərlə urudluların dostluğu həmişə tutub və möhkəm olub. Yadımdadır, tətil vaxtlarında bir-birimiz üçün necə darıxardıq.

Vağədi məktəbində bizə dərs deyən müəllimlərin əksəriyyəti urudlular olsa da, onların arasında Vağədi ziyalıları da var idi: Əjdər Quliyev, Cəlal Abbasov, Məhər Tahirov, Aslan Hətəmov sevimli müəllimlərimiz olublar. Vağədidə oxuduğumuz illər ən unudulmaz xoş xatirələrlə doludur. Elə ki yaz başlardı, düzlərdən laləni yığıb sinifə ilk gətirən biz olardıq. Yolun uzaqlığına, dərədən, təpədən, yoxuşdan keçməsinə baxmayaraq, məktəbə birinci biz çatardıq. Həmişə bu qoçaq-

lığımızı nümunə çəkərdilər. Qəribədir ki, kəndimizdə də bizə "vağədililər" deyərdilər. Gülməli bir hadisəni heç unuda bilmirəm. Bir dəfə səhər erkən dərsə gedəndə dağda qayanın arasından bir zingilti eşitdik. Sinif yoldaşlarımızla hənirti gələn tərəfə getdik. Gördük ki, tələyə tülkü düşüb. Tənbəllik etmədən biz qızlar həmin tülkünün ayaqlarını məftillə bağlayıb məktəbə gətirdik. Bütün məktəbə səs düşmüşdü. Ondan sonra gözləyirdilər ki, görək, bu dəfə nə gətirəcəyik. Uzun müddət bu hadisəni danışıb güldülər.

Orta məktəbi bitirdikdən sonra dörd qız indiki Bakı Dövlət Universitetində paralel oxuduq. Mən jurnalistika, Sima, Rəmziyyə kimya, Aybəniz mexanika-riyaziyyat fakültələrində təhsil aldıq. Tələbəliyimizin yadigarı olan bu şəkil də o illərdə çəkilib.



Həyatın elə qanunauyğunluqları var ki, ömür ötdükcə dünənindən uzaqlaşmalı olursan. Başımız öz iş-gücümüzə, problemlərə qarışdı. Təəssüf ki, daha əvvəlki kimi bir-birimizdən xəbər tuta bilmədik. Bir də onda özümüzə gəldik ki, doğma yurdu itirmişik. Əslində, o kəndlər bizim görüş yerlərimiz idi. Qəribədir, indi daha çox kövrək və yuxa olmuşuq. O şirin məktəb illəri dördəlli yaxamızdan yapışıb bizi geriyə çəkir. Hərdən o günlərə boylananda yadımıza nələr düşmür... Hətta sevimli müəllimlərimizin baxışlarını o qədər yaxından duyuruq ki, onların gözlərindəki həsrət bizi dirigözlü öldürür.





## ASLAN HƏTƏMOV



Hər birimiz valideyinik. Uşaqlarımız məktəbdən evə dönüncə kim bilir, hansı nigarançılığı keçiririk. Bəlkə on dəfə əl telefonu ilə xəbər tuturuq ki, görək hardadır. İndi təsəvvür edin ki, biz urudlular oxumaq, savad almaq həvəsi ilə beş kilometrlik bir məsafəni - dağdan, daşdan, sıldırım qayalıqlardan keçən yolu alatorandan durub qət edirdik. Oxumaq üçün iki-üç il bu qorxulu yolları gedib-gəlirdik. Bu məktəbin özündə çalışan müəllimlər də bizim kimi yollar yolçusu idilər. Hərdən fikirləşirdim ki, şagird də bizdən, müəllim də. Amma niyə məhz qonşu kənddə oxumalıyıq? Çox sonralar bunun səbəbini anladım.

Tarix müəllimimiz Aslan Hətəmov olub. Biz ona sadəcə "Hətəmov" deyə müraciət edərdik. Həyatın çox sərt dolaylarını yaşamışdı. II Dünya müharibəsinin iştirakçısı olmuşdu.

Çox tələbkar idi. Oxuyan şagirdi ürəkdən sevər, onun xətrinə belə dəyməzdi. Hətta bəzi nadincliyinin də üstündən keçər, şıltaqlıqlarını üzünə vurmazdı. Vay o günə ki, şagird tənbəl ola, dərs soruşanda cavab verə bilməyə. Bir-iki dəfə Hətəmov həmin şagirdi qaldırar, dərs soruşar, sonra o uşaqdan əməlli-başlı incik düşərdi. Ömür-billah ona yüksək qiymət yazmazdı.

Qəribə dərs soruşmaq üsulu var idi. Bir dərsdə beş-altı şagirdi sorğu-suala çəkərdi: "Əvvəlin sən danış", sonra başqa birisini çağıraraq "yoldaşın qalan yerdən davam et" - deyərdi. Onun bu tələbkarlığı şagird kimi xoşuma gəlməsə də, aşağı qiymət almağı sevməzdim. Ona görə də dərsə hər gün hazır gələrdim. Elə ən çox "beş"lərim tarixdən olardı. Özü də bu "beş"i jurnala elə ürəkdən və böyük yazardı ki, qonşu qrafaları da tutardı. Sonralar ali məktəbdə oxuduğum illərdə

Aslan Hətəmovu həmişə minnətdarlıqla xatırlamalı olurdum. Çünki məhz onun tələbkarlığı nəticəsində orta məktəbdə topladığım biliklər mənə bu sahədə çox kömək etdi. O, mənə həmişə "mütləq tarixçi ol" deyərdi. Bir mənim yox, çoxunun yaddaşında mənalı izlər salan Aslan Hətəmov hamımızın sevdiyi, xətrini əziz tutduğu müəllimlərdən birincisi olub.

Onun Vağədi kəndində gözəl ev-eşiyi, bağ-bağçası vardı. Həyat yoldaşı Sitarə Həsənova da müəllimə idi. Sitarə xanım, əslində, urudlu qızıydı. Kənddə ailələrimiz qonşu olublar. Tez-tez Uruda gələrdi. Qızları Rüxsarə ilə rəfiqə idim. Yadımdadır, yayda həmişə ay işığında əyləşərək uzun-uzadı söhbət edərdik. Məni anam, onu dayısı arvadı Şükufə səsləyərdi ki, evə gedək, gecdir. Biz də gileyli-gileyli bitməyən söhbətimizi sabaha saxlardıq. Sonralar Rüxsarə də ali təhsil aldı. İndi Sumqayıt şəhərində yaşayır. Müəllimədir. Amma o yurd yerlərimiz... Bizə ancaq xəyal və xatirələr qaldı.

## SİTARƏ HƏSƏNOVA

1928-ci ildə Urud kəndində anadan olub. Ağdam Müəllimlər İnstitutunun qiyabi şöbəsində oxuya-oxuya Vağədi kənd orta məktəbində işləyib. Gəncliyi II Dünya savaşının ağır illərinə təsadüf etdiyindən zərif çiyinlərinə çox yük götürüb. Həmişə öz ləyaqəti, əxlaqı, tərbiyəsi ilə çoxuna nümunə olub. Vağədili Aslan Hətəmovla ailə qurub. Birlikdə eyni məktəbdə 30 ildən çox çalışıblar. Özlərinə gözəl şərait qurmuşdular. Mehriban ailə sahibi idilər. Yadımdadır ki, onların evi Vağədidə öz gözəlliyi ilə seçilirdi. Təəssüf ki, bu xoşbəxt həyat uzun müddət davam etmədi. İndi bu qocaman müəllimlər didərginli, qaçqınlı həyatının mənəvi iztirablarını yaşayırlar.

Ötənlərə boylandıqca işıqlı surətləri gözlərimdən çəkilməyən insanlardan biri də





## CƏLAL ABBASOV VƏ TAMARA XANIMDIR



Hər ikisi Vağədi kənd orta məktəbində müəllim işləyirdi. Cəlal müyəllim bu kənddən, Tamara Həsənova isə urudlu idi. Cəlal Abbasov biz nəslin çoxuna dərs deyib. Yumşaq səsi, mehriban təbiəti var idi. Şagirdlərlə ılıq münasibəti olardı. Xətrini çox istəyərdik. Çalışırdıq ki, onu çox incitməyək. Tale onların isti yuvasına soyuq su ələdi. Bir müddət Sumqayıtda yaşadılar. İndi haqq dünyasına qovuşublar. Onlardan bizə xoş xatirələr qalıb.

## MƏHƏR TAHİROV



Alman dili dərsi keçərdi. Urudlulara xüsusi rəğbəti vardı. Çünki bizim ilk alman dili müəllimimiz Qasım Hacıyev olmuşdu. O, bizə alman dilini elə öyrətmişdi ki, bu dili mükəmməl bilməyimiz, sərbəst danışmağımız Məhər müəllimi valeh edərdi. Çox yumşaq təbiətli, mehriban insan idi. Hətta pis oxuyan şagirdləri belə incitməz, onlara ağır sözlər deməzdi. Çox sevdiyi bircə kəlmə vardı: " Gələcəyini düşünsən, dərsinə diqqətli olarsan". Tez-tez ibrətamiz məsələlər çəkər, tənbəl uşaqlara təsir etməyə çalışardı. Təbiətində o qədər yüksək mədəniyyət var idi ki, qələmindən çətin hallarda "2", "3" qiyməti düşərdi.

İndi Bakıda yaşayır.

## ƏJDƏR QULİYEV



Bizə çox az müddətdə dərs deyib. Yaddaşımızda müəllimlikdən çox insanlığı ilə iz salıb. Qəribədir ki, bizim nə incikliyimiz, umu-küsümüz olsaydı, heç kəsə yox, məhz Əjdər müəllimə bildirər, ondan məsləhət alardıq. Hətta incik düşdüyümüz müəllimlər haqqında şagird qeybətlərini də Əjdər müəllimlə edərdik. Çox mehriban insan olduğundan bizə məsləhətlər verər, yol göstərərdi. İndi haqq dünyasında olan unudulmaz müəllimimizin ruhuna dualar oxuyur, onu unutmadığımızı hörmət və ehtiramla bildiririk.







Tanrı Əjdər Quliyevin timsalında dünyasını dəyişmiş Vağədi müəllimlərinin hamısına rəhmət eləsin!

Əjdər müəllimin oğlu Azay Quliyev Milli Məclisin üzvüdür. Ölkənin siyasi - ictimai həyatında fəal iştirak edən, sevilən, fəxr etdiyimiz Vətən oğludur.

## TAPDIQ DAYI



Tapdıq Xudaverdiyev 1939-cu ildə Vağədi kəndində anadan olub. Azərbaycan Xarici Dillər İnstitutunun alman dili fakültəsində təhsil almışdır. O, müxtəlif dövrlərdə məsul vəzifələrdə çalışmışdır. Altı övladı var. Ailəlidirlər. Hamısı da ali təhsillidirlər. Bir qızı (Xudafirimova Aytəkin) Nəsimi Rayon Bələdiyyəsinin üzvü və bələdiyyənin katibidir. Bir oğlu (Xudafirimov Hicran) Polis Akademiyasının sonuncu kurs tələbəsidir. Eyni zamanda Nəsimi Rayon Polis İdarəsinin əməkdaşıdır.

Tez-tez telefonla danışırıq. O qədər mehriban, geniş ürəkli insandır ki... Bir də görürsən zəng edir: "Ay qızım, bir uşaqları da götürüb Masazıra gəl, lap Uruda getməyə bərabər olacaq". Amma gedə bilmirəm. Dolacaq gözlərindən, boğazında kilidlənən sözlərindən qorxuram. İndi insanlar vətəndən yana o qədər kövrək və yuxa ürəkli olublar ki ...

Öz yazılarımda Tapdıq dayının adını çəkməsəm olmazdı. Çünki bu

kitabın taleyi ilə ən çox maraqlanan, soruşan iki adam varsa, biri Tapdıq kişidir.

Nəvəsi Vüqar Musayev muğam ifaçısı kimi fəaliyyət göstərir.

## VÜQARIN MƏKTUBUNDAN



Mən, Musayev Vüqar İmdad oğlu 1986-cı ildə Sumqayıt şəhərində anadan olmuşam. Sumqayıt şəhər orta məktəbinin VIII sinfini bitirdikdən sonra A.Zeynallı adına kollecdə oxumuşam. Kolleci bitirdikdən sonra 2006-cı ildə Milli Konservatoriyaya daxil olmuşam. Atam-anam Qərbi Azərbaycanın dilbər guşəsi, dağlar, dərələr qucağında yerləşən, bir tərəfi Yan təpə, bir tərəfi Arpa-buğda təpəsi, bir tərəfi Təəzür dağı olan, baldırğanlı, yarpızlı, laləli, Zor-zor sulu, bağı-bağatı ilə məşhur olan Sisianın Vağədi kəndində anadan olmuşdur. Məlum hadisələrlə əlaqədar olaraq valideynlərim zorla vətənlərindən qovulublar.

Doğma yurddan söhbət düşəndə, babalarım Əli və Tapdığa deyirəm ki, nə çox tərifləyirsiniz Vağədini. Mən o sözü elə-belə deyirəm ki, görüm nə deyirlər. Elə bil himə bənd imişlər. Tapdıq babam dolub-boşalır, nələr danışmır...

...Uşaq vaxtı əlimdən tutub alma bağına, kəndin qırağına aparmışdı məni. Dedi: "Bax, o Babək qalasıdır. Gör necə də məğrur dayanıb keşik çəkir". Babam danışır ki, Vağədinin Zor-zor suyu, Qızıl qayası, ərik bağları, yarpızlı, gicitikanlı, baldırğanlı dərələri, keçmiş Pürülü kəndinin canlı daş hasarları, keçmiş əsrlərdə tikilmiş məscidlərin, tarixi abidələrin daş xarabalıqları, saymaqla bitməyən oğuzlara məxsus daş abidələri unutmaq mümkün deyil. Qonşu Urudda məğrur Babək qalası öz oğul və qızlarını başına yığacağı günü gözləyir...

Deyirəm, İlahi, o günü qismət elə, elimizi azad edək, mən də gedim Babək qalasını, Nəbi səngərini, cəviz, alma, ərik ağaclarını, yamaclı dərələri, çınqıllı qayaları, laləli çəmənləri görüm. Üzümü dağlara tutaraq bir "Heyratı" oxuyum. Bəlkə onda ürəyimiz sakitləşə.





# İŞIQLIDAN SÜZÜLƏN NUR



***Bazar çayı nəğməsini ötürmü,***
***Nisgilimiz görən ona yetirmi,***
***Bu həsrət içimizi ütürmü,***
***O yollar, cığırlar dumana qaldı.***

# AXARLI - BAXARLI AĞDÜ KƏNDİ

Qarakilsə bölgəsinin səfalı və gözəl kəndlərindən biri də Ağdüdür. Bu kənd həm də mənə ona görə əziz və unudulmazdır ki, dünyaya çıxış da, doğma Uruda dönüş də məhz bu qədim türk məskəninin içindən keçib gedirdi. Hər dəfə Bakıdan kəndə qayıdanda Ağdüyə çatan kimi içimdə bir rahatlıq duyulardı. Bu gözəl kəndin təbiət mənzərələrini, bağlarını, evlərini seyr eiməkdən doymazdım. Yadımdadır ki, rayon mərkəzindən Ağdüyə girəndə yolun sağ tərəfində böyük alma bağları var idi. Yazda bu yerlərin əvəzi olmazdı. Alma çiçəyinin ətri kəndi başına götürərdi. Bağlar o qədər gözəl görünürdü ki, baxmaqdan doymaq olmurdu. Az qala bütün gözəlliyi içimə çəkmək, onun cazibəsində, əfsununda uyumaq istəyirdin.

Günlərin birində Bakıdan kəndimizə gələndə Ağdüdə gördüyüm mənzərə məni dəhşətə gətirdi. İnana bilmədim ki, insan adlanan varlığın əli belə dəhşətlər törədə bilər. Bütün alma ağaclarını kökündən çıxardaraq yerində tütün əkmişdilər. Bu cür vəhşi münasibətə söz tapa bilmədim. Sonra öyrəndim ki, rayon rəhbərləri - məhz ermənilər bu fitvanı veriblər. Niyyətləri bu olub ki Ağdü cavanları, qız-gəlinləri tütün plantasiyalarında gecə-gündüz işləməkdən zəhərlənsinlər. Uzun müddət bu hadisənin ağır təsirindən çıxa bilmədim. Amma ağlıma da gəlməzdi ki, nə vaxtsa Ağdünün özünü itirəcəyik.

Ağdü toponimi özü türk mənşəlidir. Budaq Budaqov, Qeybulla Qeybullayev "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" adlı kitabda yazırlar: "Ağdü Azərbaycanın Yelizavetopol quberniyasının Zəngəzur qəzasında (indiki Ermənistanın Sisian rayonunda) kənd adıdır... Ermənistan ərazisində ən qədim türk mənşəli toponimlərdəndir. İlk dəfə eramızdan əvvəl VIII əsrə aid Urartu mənbələrində Kiçik Qafqazda Akutaini adı çəkilir. Bu adın "ini" hissəsi Urartu dilində məkan bildirən şəkilçidir. Ona görə də mənbədəki Akuta adı ilə Aqudi toponiminin eyniliyinə şübhə ola bilməz. XIX əsrdə Qars əyalətinin Oltin dairəsində Aqut-Kom (kənd və yayla adı), Kutais quberniyasının Zuqbidi qəzasında Axuti (kənd adı), Tiflis quberniyasının Borçalı qəzasında Akut-Qaya (dağ adı), Naxçıvan qəzasında Aqut-İr (kənd adı), Azərbaycanın Quba qəzasında Oqudi (qışlaq adı) toponimləri ilə mənşəcə eynidir. Eləcə





də, Azərbaycanın Şəki rayonunda Öhüd (XIX əsrə aid mənbələrdə Oxut şübhəsiz ki, Okut adının fonetik baxımdan dəyişilmiş forması) kəndinin adı da bu sıraya aid edilə bilər".

"Ağdü" sözünün mənası türkcə ağ düzənlik, təpəlik, ucalıq və çəpər mənasındadır. Kənd camaatının əsas məşğuliyyəti əkinçilik, tütünçülük və maldarlıq idi. Təbiət öz səxavətini bu kənddən əsirgəməmişdi. Ətrafı silsilə dağlar və sıldırım qayalardan ibarət idi.

1918-ci ildə erməni daşnaklarının qəfil hücumları nəticəsində kənd əhalisi qətlə yetirilmiş, qaçqın və didərgin düşmüşdülər. Həmin ilə qədər Ağdü 800 evli bir kənd olub. Andronikin quldur dəstəsi kəndə od vuraraq yandırıb. 1922-ci ildə nəhayət, doğma yurda qayıdan ağdülülər dağıdılmış yurd yerlərini bərpa edərək yeni evlər tikdilər, bağlar saldılar. 1988-ci ilə qədər kəndin 1834 nəfər əhalisi və cəmi



300 ev vardı. Qarakilsənin (Sisian rayonunun) ən böyük kəndlərindən sayılan Ağdü həmişə vurub-tutan, qoçaq, igid kişilər ilə məşhur olub. Təsadüfi deyildir ki, 1905-ci ildə daşnak Stepanın qoşununu darmadağın edib onu öldürən məhz Ağdü igidləri olubdur. Vaxtilə Ağdü Zəngəzur mahalının basılmaz qalası sayılırdı.

Coğrafi baxımdan ərazisi otlaq, əkin sahələri və bağlardan ibarətdir. Bu qədim kənd qərbdən Qarakilsə (Sisian), şərqdən Noravan, cənubdan Uz, şimaldan isə Laçınla sərhəd idi. Qədimdən taixi abidələrlə zəngin olan Ağdüdə VI əsrdə tikilmiş qəbirüstü iki qülləli abidə, onun daşlarındakı zərif naxışlar, ümumiyyətlə, qəbir daşlarındakı müxtəlif işləmələr, qoç fiqurları, günbəzlər bu kəndin tarixi keçmişindən və qədimliyindən xəbər verirdi. Alban kilsəsinin salamat qalmış sütunlarına sonralar ermənilər sahib çıxsalar da, əsl həqiqət bunun əksini sübut edirdi. Çünki Ağdü ən qədim türk kəndi olub. Orada tarixən erməni yaşamayıb. Kənd əsasən 8 məhəllədən ibarət idi: Hasar məhəlləsi, Çala məhəllə, Dikdaşın üstü, İçibulaqlı, Yamac məhlə, Quru Nov, Ağtəpə, Kahaqabağı.

Ağdünün allı - güllü yaylaqları həmişə dillər əzbəri idi: Şükürbəyli, Mirəhməd, Niyazdüşən, Mikayıləkən, Qıyamadınlı, Kəndyeri, Yalyurd, Qaraçılar və s. Ağdü bulaq və gölləri ilə də məhşur idi: Mütəllim gölü, Məmmədalı gölü, Nəcəfalı gölü və s. Axarlı - baxarlı Ağdü kəndində 24 bulaq var idi. Ümumiyyətlə, ərazisində bulaq daha çox idi. Bulaqları: Gurbulaq, Damcılı bulaq, Sızqabulaq, Soyuqbulaq, Allahverdi uşağının bulağı, Xan-xanım bulağı, Arzubulaq, Əlimərdan bulağı, Əhliman bulağı, Şəmil bulağı, Paşa bulağı, Güllücahan bulağı, Ağbulaq, Dağbəyi bulağı, İçibulaqlı, Topsöyüd İkigözlü, Yeddinovlu, Cəlil bulağı və s. İşıqlı dağı da bir tərəfdən bu kəndə özgə bir gözəllik bəxş edirdi. Bazırçayı isə kəndin cənubundan axıb gedirdi. Həmin çayın üzərində su dəyirmanları var idi. Hər bir dəyirmanın da öz adı olardı: Qoşadaş, Qoşadəyirman, Qarapir, Şapalaqgüney, Qoşakaha. Hətta bir bulaq vardı ki, ona el arasında "Qoturbulaq" deyirdilər. Ətrafdakı daş - qayanı qırmızı rəngə boyamışdı. Müxtəlif xəstələrə şəfa gətirirdi. Qoturbulaqdan bir az aralıda isə diş göynədən Gurbulaq axıb gedirdi. Kəndin qərbində Böyük və kiçik Sütökülən, cənub - qərbində isə zoğallı bağ, Cəvizlik yerləşirdi. Şimal qərbində isə məşhur Çürükqaya görünürdü. Şimala doğru uzanan yolun üstündə isə bir pir var idi. Ağdü kəndinin hələ çox qədim zamanlardan adı dillər əzbəri olan say - seçmə at oynadan, ov ovlayan, xoş əməlləri, xeyirxahlıqları ilə şöhrət qazanan məşhur kişiləri olub: Hacı Əbdüləli, Kərbəlayı Mürsəl, Kərbəlayı İsgəndər, Kərbəlayı Ələkbər, Məşədi Şirin, Məşədi İbrahim və s. Kənddə müxtəlif tayfalar





yaşayıb. Hər tayfanın da öz ayaması olub: Xanımağalı, Cəlilli, Vəlməmmədli, İsmayıluşağı, Nağdalıuşağı, Alıuşağı, Dərəkəndli, Cəfərli, Əhmədli, Qaradağlı və s. Kəndin havası təmiz, təbiəti min nemətli, suları şəfalı olduğundan Qarakilsə bölgəsində ən uzunömürlü adamlar məhz Ağdü kəndində yaşayıb. Vaxtilə bu kəndin sakinləri arasında yaşı 100-120-ni keçmiş onlarla ağsaqqal, ağbirçək olub.



**İnfil kişi**

Ağdü kəndi Azərbaycan mədəniyyətinə, ədəbiyyatına çox nadir şəxsiyyətlər verib. Xalq yazıçısı Əli Vəliyev, akademik Həsən Əhmədov, alimlərdən Qəni Baxşəliyev, Rəhim və Qardaşxan Orucovlar. İldırım Qasımlı, Nəsimi Quliyev, Maqsud və Bəxtiyar Nəcəfovlar, Mürşüd Ənnağıyev, məşhur sahibkar Zaman İsgəndərov, maarif xadimi İsgəndər İsgəndərov, vaxtilə Azərbaycanda yol naziri işləmiş Yusif Novruzov, şair Əvəz Mahmud Lələdağ və başqaları. Eləcə də, ağdülülər həmişə qürur duyub, fəxr edirlər ki, xalq şairi Məmməd Arazın atası İnfil kişi məhz ağdülüdür. O, 1918-ci ilin erməni - müsəlman davasında didərgin düşərək Naxçıvanın Şahbuz rayonunun Nurs kəndində məskunlaşmış urudlu qızı Cahanla ailə quraraq ömrünün sonuna kimi orada yaşamışdır. İnfil kişi haqqında həmişə əfsanə dolu həqiqətlər danışırlar. Çünki erməni - müsəlman qırğınları vaxtı bu qoçaq və qorxmaz insan böyük şücaətlər göstərib, sözün əsl mənasında, ermənilərə qan uddurub. Lakin tale elə gətirib ki, o da öz doğma kəndinə qayıda bilməyib.

II Dünya müharibəsi zamanı 63 ağdülü o davada həlak olmuşdur. Elə ailələr də var idi ki, onların da bütün kişiləri məhz bu müharibədən qayıtmamışdır. Lakin buna baxmayaraq, yetimliyin və həyatın hər cür ağır zülmünü görən insanlar yaşayıb-yaratdılar, qurdular, tikdilər.

Təəssüf ki, Ağdünün xoş günləri uzun sürmədi. 1988-ci ilin

payızında onun əhalisi öz doğma yurdlarından didərgin düşdü. Qarabağ müharibəsində ağdülü gənclər Azərbaycan torpağının bütövlüyü uğrunda canlarını qurban verdilər. Şəhidlik zirvəsinə yüksəlmiş o igidlərin adı ürəyimizdə əbədiyyət heykəlinə çevrildi.

## AĞDÜNÜN YAZIÇI OĞLU



Bu, silsilə romanlar müəllifi, xalq yazıçısı Əli Vəliyevdir. Azərbaycan ədəbiyyatının inkişafında, nəsr dilinin zənginləşməsində özünəməxsus rolu olan Əli Vəliyev bir növ xalqımızın taleyini öz şəxsi həyatında yaşamış, onun ağrı-acılarını ürəyində daşımış, erməni-daşnak zülmünün hər cür sifətini görmüş, didərginliyin, qaçqınlığın əzablarını çəkmiş cəfakeş, fədakar bir şəxsiyyət olub.

Əli Qara oğlu Vəliyev 1901-ci ildə Zəngəzur mahalının Ağdü kəndində anadan olub. İlk təhsilini kənddə açılmış dörd illik rus-tatar məktəbində alıb. Qəlbi oxumaq eşqi ilə alovlanan gənc öz arzularına elə də asan qovuşmayıb. Onun həyat yolu əzablı dönüm və döngələrdən ötüb keçmişdir. 1918-ci ildə daşnaklar Zəngəzura divan tutanda bu qasırğanın hədəflərindən biri də məhz Ağdü kəndi olmuşdur. Bütün həmkəndliləri kimi Əli Qara oğlunun da taleyinə didərginliyin ağır günləri yazılmışdı. O, bir müddət Azərbaycanın müxtəlif rayonlarında yaşamış, ata-anasını, yaxın qohumlarını itirdikdən sonra Bakıya gəlmişdir. Əlbəttə, gəncliyindən sarsıntılar və əzablar içində çabalayan gəncin ömür yolu çox gərgin keçmişdir.

Əli Vəliyev bir yazıçı kimi Azərbaycan ədəbiyyatına öz töhfəsini vermişdi. "Nənəmin cəhrəsi", "Madarın dastanı", "Qarlı dağlar", "Qəhrəman", "Sovqat", "Gülşən", "Çiçəkli", "Ürək dostları", "Zamanın ulduzları", "Turaclıya gedən yol", "Anaqız", "Bir cüt ulduz", "Samovar tüstülənir", "Durna qatarı", "Qarabağda qalan izlər", "Zəngəzur qartalları", "Narahat adam", "Sənət eşqi", "İşığa doğru", "Cəbhə hekayələri",





"Ərköyün", "Ordenli çoban" və bir çox başqa kitabların müəllifidir. Amma mənim xatirəmdə, yaddaşımda ən başlıcası, duyğularımda iz salan kitabı "Budağın xatirələri"dir. Bu əsəri mən bir neçə dəfə oxumuşam. Uşaqlıq illərində, gəncliyimdə və nəhayət, indi. Hər dəfə də bu kitabı başa vurduqdan sonra bir müddət özümə gələ bilməmşəm. Dəhşətlisi budur ki, 1957-ci ildə yazılmış və ötən əsrin əvvəllərini, xüsusilə də erməni daşnaklarının Zəngəzurda törətdikləri faciələri əks etdirən bu əsər indi də son dərəcə aktualdır. Orada cərəyan edən hadisələrin mahiyyətinə vardıqca sanki bu faciələr 1918-1920-ci illərdə de, yil, 1988-1990-cı illərdə baş verib. Çünki namərd qonşularımız məhz eyni plan əsasında azərbaycanlıların yaşadığı kəndlərə hücum edir, onların mülklərini, evlərini dağıdır, olar-olmazını əllərindən alır, insanlara işgəncələr verərək qətlə yetirir, soydaşlarımızı öz doğma ocaqlarından didərgin salıblar. Əli Vəliyev bir yazıçı ustalığı ilə başına gələnləri elə təsirli qələmə alıb ki, bu kitabı oxuduqca damarlarında qan donur. Xalqımızın başına min bir müsibət açmış ermənilərə nifrətlə alışıb yanırsan.

"Budağın xatirələri" kitabı bir növ Ağdü kəndinin bədiiləşmiş obrazıdır. Çünki müəllif hələ kitabın giriş hissəsində Ağdünü belə təsvir edib: "Kəndimiz Salvartı dağının ətəyindədir. Kövşənimizdən üç el yolu keçir. Camaatımız bunlara Cada deyir. Yazın 4-5-ci günündən payızın ortalarına qədər bu yollar boş qalmır. Əriş-arğac kimi tərəkəmə köçünün ardı-arası kəsilmir. Mahalın ən böyük kəndində biz yaşayırıq. Atasından, qardaşından təzə ayrılıb özünə comalaq tikənləri nəzərə almasaq, buraya "beş yüz evli Vüqarlı" deyirlər (Vüqarlı Ağdü kəndinin romanda obrazıdır - F.X.). Bu kitabda həm kəndin təsviri, həm də ətraf qonşu yaşayış məskənləri haqqında zəngin məlumatlar var. Həmin əsərin başqa bir yerində Əli Vəliyev yazıb: "Bizim Kövşənlə Gorusun arası dağlı, dərəli, təpəli yerlərdir. Buraların axar-baxarı çox gözəldir. Dərələrdən ətir qalxır. Təpələr yaşıl dona bürünüb. El yolunun altı, üstü çiçəklə bəzənib. Bizim kəndlə Gorus şəhərinin arasında Arpa, Buğda təpələri, Göbək daşı, Yantəpə, Üçtəpə, Soyuqbulaq, Göybulaq, Yeddi bulaq kimi yerləri görür, bir çox müsəlman tacirinə, erməni xocasına rast gəlirdin. Yolum enişli-yoxuşlu, səfərim uzaq idi".

Müəllif bu bioqrafik əsərində mənim anadan olduğum Urud kəndinə də öz münasibətini bildirib: "Urud kəndinin girəcəyində İstisu var. Burada həmişə adam olur. Ətraf kəndlərdən, yaylaqdakı

tərəkəmələrdən buraya gəlir, çimir, bir müddət qalıb müalicə olunurlar. Bu su mədə-bağırsaq və yel xəstəliklərinin dərmanıdır".

Əli Vəliyev bu kitabda Ağdünün qayğılarını, dolanışıq və məişət çətinliklərini də bacarıqla qələmə alıb: "Payız gələn kimi kəndimizin qabağında Tənəzzül dağını duman bürüyür... Kövşəndən taxıl qurtarır, xırman qızğın döyülür, taxıl yuyulub sərilir, dəyirmanlıq başlanırdı. Əriştə kəsilib qurudulur, Naxçıvandan duzla ərik, Həkəri, Bərgüşaddan düyü ilə maş gətirilir, qış ehtiyatı görülürdü. Çox çəkmirdi ki, qış qapını kəsib gözünü ağardır, camaatın hazırlığını yoxlayırdı. Dövlətlilərin qapısında kərmə qalaqları, evlərin üstündə ot tayaları ucalır, samanlıqlar ağzına kimi dolurdu. Unluqlar unla, quyular taxılla, kartofla ləmhaləm olurdu. Bizim yerlərin qışı bərk gələndə adamlar altı ay evdə, heyvanlar tövlədə yeyib-yatırlar".

Kitabı vərəqlədikcə gözümüz önündə qəribə mənzərələr açılır. Vaxtilə yaşadığımız, bəlkə də qədrini bilmədiyimiz o dilbər yerlərin mənzərələri pərdə-pərdə dəyişir. Elə bil hər şey dünən olmuşdu. Biz də müəlliflə bərabər doğma yurddan harasa çıxıb gedirik. Yol boyu arxamızca su səpən buludlar, xeyir-dua verən küləklər nəsə pıçıldayır. Bu xəyalı səfərlərin içindəcə Əli Vəliyevin qələmə aldığı xatirələr bizi təsirləndirir: "Mən Yelli gədiyə çatıb geri baxdım. Çökəkdə olan kəndimiz nura boyanmışdı. Bacalardan və həyətlərdən çıxan tüstü yuxarı qalxıb seyrəklənir, çox çəkmədən yoxa çıxırdı. Qala yerinin döşündə bir neçə quzu otlayırdı. Qara pirin başında bir dəstə qız-gəlin pencər yığırdı... Xatirimdə ikən bir şeyi də deyim ki, üç ay yaz, bir ay yayda camaatımız çoxlu pencər yeyərdi. Körpə gicitkanla quzuqulağını bir yerə qatıb duzla ovmaq, lavaşın arasına qoyub dürməkləməyin ləzzəti hələ də damağımdan getməyib. Qoyunqulaqlı ayran aşı, yarpızlı dovğa, şomulu kətə, qırxbuğumlu plov, əvəlikli çəkmə. Güllü qız Yovşanlı düzdə, Dimdikli daşın altında oturub həzin bir səslə oxuyurdu:

Mən gəlmişəm sarı geyib sallanam,
Gəlməmişəm çit-mit geyib allanam.
Mən gəlmişəm istəkana qənd salam,
Gəlməmişəm ürəyimə dərd salam.

Mən gəlmişəm samovarı cütləyəm,
Gəlməmişəm yetimləri bitləyəm.





Mən gəlmişəm nimçələrə aş çəkəm,
Gəlməmişəm qor-qoduğa baş çəkəm".

Mən mərhum yazıçımızın əsərindən ona görə belə çoxlu sitat gətirirəm ki, Əli Vəliyev həqiqətən bir rəssam istedadı ilə gördüklərini sözlə ifadə etməyi, o yerlərin ələdüşməz təbiətini, gözəlliyini yaratmağı çox gözəl bacarıb. Hərdən müəyyən abzasları oxuduqca adamın ürəyinə sanki köz sıxılır. Görün, Əli Vəliyev nə yazırdı: "Yeddinovlu bulağın üstünə gəlib doyunca su içdim. Bir qədər oturub yenə kəndə baxdım. Alçaq daş hasarla araları kəsilmiş yoncalıqlar, Qızılqayanın altında, Qalayerinin qabağındakı meyvə bağları, Ağdüzdən gəlib kəndin içindən ötən, Yovşanlı düzdən adlayıb Qarabulağa enən poçt yolu, Gilliklə Ağ oyuğun arasında güclə birləşmiş enli yoxuş bir an belə gözlərimdən aralanmırdı. Mən Qoşa oyuğun daşlı cığırları ilə qalxıb Əkinlər düzünə çıxdım. Sərin meh əsirdi. Göz işlədikcə hər yer səfalı idi. Yaşıl taxıl zəmiləri, otu biçilməli olan qoruqlar, ətri bir verstlikdən adamı məst eləyən gül və çiçəklər, taxılların, örüşlərin içində qırmızı paltarı ilə göz qamaşdıran lalələr, bütün bu büsata şadlıq nəğməsi oxuyan torağaylar, daşdan-daşa uçan çəkçəkilər, hasardan-hasara qonan bala sarıköynəklər, yolun ortası ilə gedib, gözünü daldan çəkməyib addımbaşı uçub yenə yerə qonan çobanaldadanlar özləri ilə mənim xəyalımı da aparırdılar... Qara çınqılın başına dırmaşıb gözüm işləyən yerlərin hamısına baxdım. Arpa təpəsinin üstündəki kom-kom tıstıs kollarına nəzər saldım. Buğda təpəsinə boylananda Çöplü çuxuru unutmadım. Qaranlıq Kahaya nəzər salanda Örəncəni, Ayı Kahasının üstündəki Kotan yerini görəndə Ağsaqqal çuxuru gözümdən yayınmadı..."

Misal gətirdiyimiz bu nümunədə sonsuz bir gözəllik, qeyri-adi mənzərələr var. Fikir verdinizsə, nə qədər toponim işlədib müəllif. Orada yad ifadəyə, yad sözə rast gəlinmir. Bütün bunlar isə Ağdü kəndinin, ümumiyyətlə, Zəngəzur mahalının qədimliyindən və onun məhz türklərə məxsusluğundan xəbər verir. Əli Vəliyev elə belədən, xala xətirin qalmasın yazmazdı: "Mahalda müsəlman kəndləri içərisində bizim kənd ən böyüyü idi".

Təəssüf ki, bu könül sevindirən söhbətlərdən sonra müəllif ürək ağrısı ilə başına gələn faciələri də dilə gətirib. O atasının anasına dediyi bir xəbəri belə qələmə alıb: "Andronik adlı birisi Osmanlı

torpağında farağat oturmadığı üçün hökumət onu tutmaq istəyib. O da qaçıb gəlib Gorusa. Bu şəhərdə... daşnaklar çoxdur. Həmin o daşnaklar Androniki silahlandırıb əlinin altına çoxlu qoşun veriblər. Məqsəd budur ki, müsəlmanları qırsınlar". Faciə də bununla başladı. 1918-ci il Zəngəzur mahalına şaxta, soyuq və qırğınla gəldi. İnsanlar erməni vəhşiliyinin qurbanı oldular. Doğma yerlərlə ayrılıq məqamını Əli Vəliyev belə qələmə almışdır: "Zəngəzur mahalından aralanmaq, torpağımızdan ayrılmaq, suyumuzdan göz çəkmək ağır idi... Çalbayır gədiyində dayanıb Mağavız dərəsinə baxanda dərdim təzələndi. Elə bil bizim yerlər idi. Düzünə qalsa, İşıqlı dağı iri bir yorğan, Zəngəzur bu yorğanın üzü, Mağavız astarı təsvirini bağışlayırdı. Göz işlədikcə başı qarlı dağlar, yaşıl təpələr, göy məxmərli düzlər görünürdü..." Bunlardan sonra yazıçının ağır günləri başlayıb və nəhayət, uzun illərdən sonra Azərbaycanın məşhur yazıçısına çevrilib. Dünyasını vaxtsız dəyişmiş oğlu Məsud istedadlı tənqidçi idi. Ədəbi tənqiddə sərt və obyektiv yazı müəllifi kimi nüfuz qazanmışdı. Nəvəsi Afaq Məsud tanınmış yazıçı və dramaturqdur.

Əli Vəliyev valideynlərini, yurdunu itirdikdən sonra doğma vətəni haqqında irihəcmli əsərlər yazdı, xatirələr qələmə aldı, jurnalistlik etdi. Danışırlar ki, vaxtilə ermənilər İrəvan şəhərində Andronikin heykəlini qoymaq istəyəndə Əli Vəliyev birbaşa Moskvaya uçaraq bunun qarşısını almışdır. Bu səbəbdən də həm əsərlərində, həm də yeri düşdükcə nitqlərində daşnakları pisləyən, onların iç üzünü açan yazıçını ermənilər sevmirdilər. Yadımdadır ki, 1971-ci ildə Əli Vəliyevin anadan olmasının 70 illiyi ilə əlaqədar müxtəlif tədbirlər keçirilirdi. Təbii ki, sovet dövründə yaşadığımız üçün xalq yazıçısının doğulduğu yerdə də yubiley mərasimi olmalı idi. Həmin ilin yazında Əli Vəliyev sənət dostları - tənqidçi Qulu Xəlilov, yazıçı Bayram Bayramov, şairlər - Famil Mehdi, Məmməd Rahim və başqaları ilə birlikdə rayona gəlmişdi. Xalq yazıçısını, o dövrdə SSRİ-də məşhur olan bir qələm sahibini rayon mərkəzində ermənilər qarşılamadılar. Amma qonşu kəndlərdə yaşayan azərbaycanlılar, eləcə də ağdülülərin özləri, xüsusilə də Bakıdan gələn ziyalılarımız Əli Vəliyevi nəinki Zəngəzurun girəcəyində, Naxçıvanda qarşılayaraq böyük təntənə ilə doğulduğu, yeniyetmə ikən zorla tərk etdiyi, yaşının müdrik çağında döndüyü doğma Ağdü kəndinə gətirdilər. Kənd klubunda gözəl bir mərasim təşkil edildi. İndi də gözlərim önündən çəkilmir. Əli Vəliyev





uşaq kimi necə kövrəlmişdi?! Səsi titrəyir, gözləri dolub-boşalırdı. O axşam kəndi qarış-qarış gəzdi yazıçı.

...İndi nə o yurd yerləri var, nə də Əli Vəliyev. Yaxşı ki, yazılanlar qalıb. Bu gün Əli Vəliyevin qələmə aldıqlarını oxuduqca adama elə gəlir ki, bunlar lap dünən sənin, mənim, onun başına gələn hadisələrdir.

## FƏDAKAR ALİM, LƏYAQƏTLİ İNSAN



Elə insanlar var ki, onlar haqq dünyasına qovuşduqdan sonra da heç vaxt unudulmur, həmişə yad edilirlər. Burada söhbət, bir ailənin, bir nəslin etibarından vəfasından yox, ömrünü elmə, onun inkişafına, millətin sabahına həsr etmiş elm adamlarından, alimlərdən, görkəmli sənətkarlardan gedir. Millətin imzasını imzalar içində təsdiqləyənlər həmişə xalqın iftixarına çevrilir, cismani yoxluqları da onları yaddaşlardan poza bilmir. Mənalı və ləyaqətli ömür sürmüş nur timsallı insanlar yad edildikcə, millətin işığı, ziyası daha da artır. Çünki nümunə ən gözəl örnəkdir.

Belə nümunəvi həyat və elmi fəaliyyət sahibi olmuş Həsən Əhmədov Azərbaycanda yer elminin müxtəlif sahələri ilə bağlı maraqlı axtarışlar aparmış, neft geologiyasının yaradıcılarından biri olmuşdur. İstər sağlığında, istərsə də indi onun elmi irsi, monoqrafiyaları, müxtəlif məqalə və çıxışları yeni nəslin nümayəndələri üçün maraqlı mənbə sayılır. Bütün mənalı ömrünü Azərbaycan geologiyasına bağlamış Həsən Əhmədov neft geologiyası elminin inkişafında misilsiz xidmətlər göstərmişdir. Onun apardığı elmi işlər həm respublikamızda, həm də onun hüdudlarından kənarda mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmişdir. Hərtərəfli və geniş elmi fəaliyyətinə görə o,

1962-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1967-ci ildə isə həqiqi üzvü seçilmişdir. O, bir sıra ölkələrdə keçirilən beynəlxalq simpoziumlarda, konqreslərdə və konfranslarda fəal iştirak edərək Azərbaycanda geologiya, geofizika sahəsində qazanılmış uğurları dünyanın elmi ictimaiyyətinin diqqətinə çatdıraraq xalqımızı elmimizi, elə layiqincə təmsil etmişdir ki, həmişə hər yerdə onun haqqında yüksək fikirdə olmuşlar.

Hələ sovet dövründə Həsən Əhmədovun səsi Hindistandan gələrdi. Halbuki, o dövrdə azərbaycanlı alimin SSRİ Elmlər Akademiyasını xarici ölkədə təmsil etməsi o qədər də asan məsələ deyildi. Həsən müəllim buna öz elmi hünərinə və gücünə görə nail olmuşdu. Çünki hələ SSRİ - də heç kim geofiziki Aya Həsən Əhmədov qədər bələd deyildi. Onun bu sahədəki elmi fəaliyyəti ABŞ alimlərinin də diqqətini cəlb edirdi. Beynəlxalq konfranslardakı çıxışlarını ABŞ mətbuatı rəy və münasibətlərlə dərc edərdi. Sovet dövründə Türkiyənin qapıları azərbaycanlıların üzünə bağlı olduğu vaxtlarda Həsən Əhmədov qardaş ölkədə yerli geologiya elmləri doktorları ilə birlikdə aylarla çalışaraq Türkiyənin yeddiillik geoloji planını hazırlamışdı. Geologiya üzrə dünyanın bir sıra tanınmış mütəxəssisləri Həsən Əhmədovun rəyləri, məsləhətləri ilə razılaşır, onun ensiklopedik biliyinə böyük rəğbət bəsləyirdilər.

Həsən Əbdüləli oğlu Əhmədov 1906-cı ildə Zəngəzur mahalının Sisian rayonunun Ağdü kəndində anadan olmuşdur. İlk təhsilini ibtidai rus məktəbində alan Həsən Əhmədov sonralar Bakıda Sənaye İnstitutuna (indiki Azərbaycan Dövlət Neft Akademiyası) daxil olaraq Geologiya kəşfiyyat fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə sıravi geoloq kimi başlayan Həsən Əhmədov sonralar "Azərneftkəşfiyyat" Trestinin baş geoloqu və geoloji kəşfiyyat kontorunun direktoru vəzifəsində çalışmışdır. Tələbəlikdən elmi işlərə, tədqiqata böyük marağı olan gənc mütəxəssis geologiya sahəsində müxtəlif araşdırmalar aparmışdır. Ümumittifaq Geofizika İnstitutunun Azərbaycanda yaradılan filialı məhz Həsən Əhmədovun adı ilə bağlıdır. Həmin institutun ilk direktoru Həsən Əhmədov olub, 1975-ci ildə isə səhhəti ilə əlaqədar olaraq şöbə rəhbəri vəzifəsinə keçmişdir.

1947-ci ildə elmlər namizədi, 1956-cı ildə elmlər doktoru, 1959-cu ildə isə professor adına layiq görülmüş Həsən Əhmədov





akademikliyə qədər şərəfli bir ömür yolu keçmişdir. Qərbi Abşeron, Qobustan geologiyasının öyrənilməsində Həsən Əhmədovun xidmətləri əvəzsizdir. O, bir sıra neft və qaz yataqlarının aşkara çıxarılmasında da böyük rol oynamışdır. Bu xidmətlərinə görə də, 1974-cü ildə akademik İ.M.Qubkin adına mükafat almışdır. Elmi - tədqiqat və geofizika ahəsində araşdırmalarla bərabər Həsən Əhmədov həm də yüksək ixtisaslı kadrların hazırlanmasında da böyük zəhmət çəkmişdir. Bu gün Azərbaycanın geologiya və geofizika sahəsində çalışan yüksək ixtisaslı kadrların arasında Həsən müəllimin onlarca yetirməsi var.

Onun uşaqlıq illəri erməni - müsəlman davasının çox ağır məqamına düşmüşdü. 1918-ci ildə daşnakların Zəngəzurda törətdiyi vəhşilik və quldurluq ömrü boyu onun xatirəsindən silinməmişdi. 13 yaşından Bakıya gələn, yaxın qohumlarının himayəsi altında qalan, gündüzlər işləyib, axşamlar oxuyan Həsən Əhmədovun bir çox əzizlərini hələ o vaxt ermənilər qətlə yetirmişlər. Doğrudur, sonra sovet hökumətinin qurulması ilə əlaqədar bu qırğınlar bir qədər səngidi. Həsən Əhmədov da öz arzularının arxasınca getməyə başladı. Həyat bütün dərdi - səri, itkiləri unutdururdu.

Amma əslində o, elə bir dövrdə elmi fəaliyət göstərmişdir ki, həm SSRİ kimi nəhəng dövlətin müəyyən qadağaları üstündə idi, həm də II Dünya müharibəsinin ağrılarını çəkmişdi, M.C.Bağırov rejiminin xofunu yaşamışdı. Qızı Səfurə Əhmədova öz xatirələrində yazır ki, ötən əsrin 30-cu illərində vətənimizi bürümüş repressiyalar onların ailəsindən yan ötüşmədi. Zəngəzur mahalının tanınmış axundu, maarifçi və xeyriyyəçisi Hacı Əbdüləli (Həsən müəllimin atası) "kulak" adı ilə həbs edilmişdir. Halbuki Hacı Əbdüləli dövrünün gözüaçıq maarifpərvər bir insanı idi. O öz vəsaiti hesabına evində ibtidai məktəb açmışdır. 27 dəfə Məkkəyə ziyarət etmiş bu insan xalqının balalarını oxutmaq, savadlandırmaq üçün əlindən gələni əsirgəmirmiş.

Ədəbiyyatşünas Abbas Zamanov vaxtilə Gorus şəhərinin arxivlərində Hacı Əbdüləli haqqında müəyyən sənədlər əldə etmişdir.

Xatirələrin birində söylənilir ki, Moskvanın diktəsi ilə hərəkət edən M. C. Bağırov akademik Həsən Əhmədovun məntiqi çıxışlarına, ən başlıcası prinsipiallığına görə həmişə fəalların yığıncağında, xüsusilə də "Azərneft" işi ilə bağlı keçirilən iclaslarda

onu mütləq dinləyər, fikri ilə razılaşarmış. Bütün bunlara da səbəb alimin rəqəmləri dəqiq və əzbər bilməsi imiş.

AMEA-nın prezidenti Mahmud Kərimovun imzaladığı bir rəydə oxuyuruq: "Dövlətimiz Həsən Əhmədovun geologiya elmi sahəsində çalışan gənc kadrların yetişdirilməsinə sərf etdiyi əməyini və Azərbaycan neft sənayesinin inkişafındakı nümunəvi xidmətlərini yüksək qiymətləndirərək onu iki dəfə "Şərəf" nişanı ordeni(1944, 1971), "Əmək rəşadəti" (1942), "Qafqazın müdafiəsinə görə" (1944), "Böyük Vətən müharibəsi dövründə fədakar əməyə görə" (1945) və "Əməkdə fərqlənməyə görə" (1966) medalları ilə təltif etmişdir. O, həmçinin müxtəlif illərdə üç dəfə Azərbaycan Ali Sovetinin fəxri fərmanı, SSRİ Geologiya Nazirliyi və Həmkarlar İttifaqının nişanı ilə təltif olunmuşdur".

Mütəxəssislər və həmkarları böyük ürəklə söyləyirlər ki, Azərbaycan Geofizika Elmi - Tədqtqat İnstitutu Həsən Əhmədovdan bir nişanədir. Çünki o, bu institutun yaradıcısı və ilk direktoru olmuşdur.

Həsən Əhmədov doğma yurdu Zəngəzura tez-tez gedərmiş. Hətta alim dostlarına oradan arı pətəkləri gətirərək - "Siz də bağınızda saxlayın. Bəlkə arıların hesabına yaşıllığı qoruyub, gül - çiçək becərəsiniz", - deyib onlara bağışlayarmış. Ömrü boyu torpağa bağlı, onun sirlərini öyrənməyə çalışan və 75 yaşında dünyasını dəyişmiş Həsən Əhmədovun xəbəri olmadı ki, daha o ulu dağlara uzanan yollara qar yağıb. İllərdir ki, yazın, yayın istisi bu şaxta tutmuş yolların buzunu əridə bilmir.

## İŞIQLIDAN SÜZÜLƏN NUR

Zəngəzur mahalının el ağsaqqalı sayılan Barat kişinin sevimli oğlu Zaman İsgəndərov təkcə Sumqayıtda deyil, bütövlükdə, Azərbaycanda böyük hörmət və nüfuz sahibidir. O, bu hörməti, ehtiramı özünün xeyirxah əməlləri, xeyriyyəçiliyi, mərdliyi, hər kəsə göstərdiyi qayğı və diqqəti sayəsində qazanıb.

Hələ uşaq vaxtı Urudda yaşadığım illərdə Sumqayıtda Mərkəzi Univermağın direktoru vəzifəsində çalışan ağdülü Zaman İsgəndərov haqqında xoş sözlər eşidərdim. Yayda kəndə istirahətə gələn cavanlar





Zaman müəllimin onlara göstərdiyi qayğıdan və yardımdan danışardılar. Şəhərə ilk dəfə üz tutan insanlar məhz Zaman İsgəndərovu arayıb tapar, onun köməkliyi ilə işə düzələr, ev-eşik sahibi olardılar.



**Turab kişi**

Zaman İsgəndərov Ağdü kəndində Barat kişinin ailəsində dünyaya göz açmışdı. Təbii ki, ilk təhsilini də elə doğma kəndində almışdır. Yeniyetməlik çağlarından öz ağlı və fərasəti ilə həmyaşıdlarından seçilən Zaman günlərin birində dəqiqləşdirdi ki, mütləq Bakıya getməli, şəhərdə yaşamalı, özünə işıqlı gələcək tapmalıdır. İşıqlı dağının bir parçası sayılan bu insan hara getdisə, orada nur kimi parladı, ətrafına şölələr saçdı. İlk gəldiyi şəhər Sumqayıt olub. Boru zavodunda işə düzəlib. Dilbər bir guşədən, təmiz bir ailədən gələn bu saf diləkli gənc əvvəllər şəhər həyatının hay-küyünə, çalışdığı zavoddakı şəraitə çətin uyğunlaşıb. Amma dözüm gətirə bilib. Cəfakeşliyi və fədakarlığı sayəsində fəhləlikdən sex briqadirinə kimi yol gəlib. Sonralar təsadüfən urudlu qızı Fatma xanımla rastlaşıb. Adi yoldaşlıq münasibətləri dərin məhəbbətə, səmimi münasibətə çevrilib. Fatma xanım institutu bitirdikdən sonra onun təyinatını Sumqayıt Təşhsil Şöbəsinə veriblər. Onlar bir müddət (bu, Fatma xanımın təkidi ilə olub) Corat kənd məktəbində müəllim işləyiblər. Lakin Zaman İsgəndərovun pedaqoji fəaliyyəti cəmi iki il çəkib. "Hiss etdim ki, mən müəllimlik üçün doğulmamışam", - deyən Zaman İsgəndərov yenidən istehsalata qayıdıb. Əvvəlcə kərpic zavodunda mexanik-çilingər işləyib, sonra zavod



**Fatma xanım**

həmkarlar komitəsinin sədri seçilib. Tale elə gətirib ki, bir müddətdən sonra zavodun nəzdindəki çörək mağazasında işləməli olub. Elə 1964-cü ildən də taleyini ticarətə bağlayan Zaman İsgəndərov bu ixtisas üzrə də ali təhsil almağı unutmayıb. Xalq Təsərrüfatı İnstitutunun əmtəəşünaslıq fakültəsini bitirib. 1975-ci ildə 63 saylı mağazaya ərzaq şöbəsinin müdiri təyin edilib. 1980-ci ildən Sumqayıt univermağının direktorudur. Bu illər ərzində Ticarət Nazirliyinin, Sumqayıt Ticarət İdarəsinin fəxri fərmanları ilə təltif olunub. Hazırda Ticarət Mərkəzi ASC-



nin sədridir. Bir oğlu, iki qızı var.

Zaman İsgəndərov gördüyü xeyirxah işləri reklam etməyən bir insandır. O həm böyük bir nəslin ağsaqqalıdır, həm də köməyə ehtiyacı olanların ümid yeridir. Onunla təmasda olanlar həmişə bu böyük insanla fəxr edib, öyünüblər. Xızı qəsəbəsində məskunlaşmış onlarla imkansız ailəyə daim yardım göstərən, onların yaşamaları və işləmələri üçün şərait yaradan Zaman İsgəndərov, sözün həqiqi mənasında, savab əməllər sahibidir. Rəhbərlik etdiyi Ticarət Mərkəzi ASC-nin kollekti-







vi öz böyüklərindən həmişə qayğı və məhəbbət gördüklərindən Zaman İsgəndərova dərin ehtiram göstərirlər. Arzu edirlər ki, bu gözəl insanın xoş günlərini taleyin icazəsi ilə doğma torpaqda - Ağdüdə keçirmək mümkün olaydı.

Şair qardaşı Əvəz Mahmud Lələdağ qələmə aldığı bir şeirində deyir:

Gözlərimə nur gətirdin
Qardaş, sənə qurban olum.
Məni loğmana yetirdin
Qardaş, sənə qurban olum.

Əvəz müəllim öz qardaşını gözlərinin nuru, dizinin taqəti, qolunun qüvvəti, yaman gününün yiyəsi adlandırır. Bu səmimiyyətdən doğan fikrə bir əlavəmiz var ki, Zaman İsgəndərov İşıqlı dağından qopan nur parçasıdır. O ziyanın şöləsi hələ çox ömürlərə nur saçacaq, həyat yollarını işıqlandıracaq. Zaman müəlimin oğlu Nizami İsgəndərov Milli Məclisin üzvüdür.

## AĞDÜNÜN ZİYALILARI

Bu yerlərin təbiətindən asılı olaraq insanları da zəngin və dərin keyfiyyətlərə malik olublar. Ağdü kəndinin məşhur adamları çoxdur. Onların haqqında bir-iki kəlmə söz demək kifayətdir ki, yada düşsünlər. Ağdülülərin ən çox fəxr etdikləri unudulmaz insanlardan biri də:

## QƏNİ BAXŞƏLİYEVDİR



Həmişə adı ehtiramla çəkilən, haqqında xoş sözlər deyilən ziyalılardan biri də Qəni Baxşəli oğlu Baxşəliyev 1914-cü ildə Ağdü kəndində anadan olub. 1918-ci ildə dörd yaşında ikən daşnakların kəndə hücumu nəticəsində didərginlik həyatına məruz qalmış körpə sonralar təhsilini məskunlaşdıqları Laçın rayonunda almışdır. Bakıda Azərbaycan Pedaqoji İnstitutunu bitirdikdən sonra elə həmin təhsil ocağında çalışmışdır. Görkəmli tarixçi-alim uzun müddət bu ali məktəbdə dekan vəzifəsində çalışmış, yüzlərlə kadrın yetişməsində gərgin əmək sərf etmişdir. Qəni müəllimin işıqlı xatirəsi həm onu tanıyanların, həm də tələbələrinin yaddaşında bu gün də yaşamaqdadır.

## AĞAQULU NƏCƏFOV



Ağdü kəndinin ilk ali təhsilli müəllimlərindən sayılan Ağaqulu Nəcəfovun da uşaqlıq illəri erməni-müsəlman qırğınının ən dəhşətli məqamlarına təsadüf edib. 1914-cü ildə Ağdü kəndində doğulan Ağaqulu Nəcəfov ilk təhsilini doğma kənddə almış, sonra Şuşa Pedaqoji Gimnaziyasını bitirərək müəllimlik fəaliyyətinə başlamışdır. İşləyə-işləyə isə İrəvan Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsini bitirmişdir. Əməkdə xüsusi fərqləndiyinə, bacarıqlı müəllim olduğu-





na görə 1952-ci ildə "Əməkdar müəllim" fəxri adına layiq görülmüş Ağaqulu Nəcəfovun sinəsini müxtəlif orden və medallar bəzəyirdi. Ömrünün 58 ilini gənc nəslin təlim və tərbiyəsinə həsr edən Ağaqulu Nəcəfovun yetirmələri arasında onlarla elmlər doktoru, namizədi və dövlət xadimləri var. Həm uşaqlığı, həm də ömrünün ahıl çağı erməni daşnaklarının törətdiyi münaqişələrə düçar olan Ağaqulu Nəcəfov 1988-ci ildə doğma ocağından didərgin düşdü. Vətən həsrəti, yurd yanğısı ağsaqqal müəllimimizin ömür sürməsinə xitam verdi. O, Bakı şəhərində dünyasını dəyişdi.

## HÜSEYN ƏHMƏDOV



1928-ci ildə anadan olub. İncəsənətə, yaradıcılığa böyük həvəsi varmış. Kənd Təsərrüfatı Texnikumunda oxumasına baxmayaraq, arzuları onu 1947-ci ildə Teatr İnstitutunun rejissorluq fakültəsinə gətirib. 1952-ci ildə hələ tələbə ikən onun qabiliyyətini nəzərə alaraq incəsənət işləri komitəsinə inspektor vəzifəsinə götürüblər. İnstitutu bitirən ili yenicə təşkil olunmuş Bakı Vilayət İcraiyyə Komitəsində incəsənət şöbəsinə işə götürülüb. 1953-cü ildə isə Mədəniyyət Nazirliyinin İncəsənət İşləri İdarəsində işə başlayan Hüseyn Əhmədov Leninqrada kursa göndərilir. İncəsənət işçiləri hazırlayan həmin kursu müvəffəqiyyətlə başa vurduqdan sonra Hüseyn Əhmədov Mədəniyyət Nazirliyində Baş İdarənin (incəsənət) rəis müavini vəzifəsinə təyin edilib. Azərbaycan Dövlət Kukla Teatrının təşkilində Hüseyn müəllimin böyük əməyi olmuşdur. Məhz onun təşəbbüsü ilə yaradılmış yeni teatra direktor vəzifəsinə təyin edilən Hüseyn Əhmədov uzun illər bu kollektivə rəhbərlik etmişdir. Mədəniyyətin inkişafında göstərdiyi xidmətlərə görə ona "Azərbaycanın əməkdar mədəniyyət işçisi" fəxri adı verilib. O, akademik Həsən Əhmədovun oğludur.

## QARDAŞXAN ORUCOV



Ağdünün tanınmış ziyalı alimlərindən biri də Qardaşxan Alməmməd oğlu Orucovdur. 1931-ci ildə anadan olan Qardaşxan müəllim Bakı Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsini bitirib. Ömrünü elmin bu ağır sahəsinə bağlayan Qardaşxan Orucov 1954-cü ildən Azərbaycan Dövlət Pedaqoji Universitetində çalışıb. O, bir tərəfdən gələcək elmi-pedaqoji kadrların hazırlanmasına çalışıbsa, digər tərəfdən də gecə-gündüz elmi məqalələr yazmaqla məşğul olub. İşlədiyi riyaziyyat fakültəsində dekan, kafedra müdiri kimi şərəfli bir yol keçən Qardaşxan Orucov 1995-ci ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1997-ci ildən isə Funksiyalar nəzəriyyəsi kafedrasının müdiri və professorudur.

## MÜRŞÜD ƏNNAĞIYEV



1934-cü ildə Ağdü kəndində anadan olmuşdur. İlk təhsilini Ağdüdə alan gənc qonşu Vağədi kəndində orta məktəbi bitirdikdən sonra Bakıya gəlmişdir. Azərbaycan Pedaqoji İnstitutunu bitirdikdən sonra EA-nın Neft-Kimya Prosesləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başlamışdır. 1967-ci ildə namizədlik, 1992-ci ildə isə doktorluq dissertasiyaları müdafiə edərək kimya elmləri doktoru alimlik dərəcəsi almışdır. Mürşüd Ənnağıyevin apardığı elmi-tədqiqat işləri 2 sanballı monoqrafiyada, 240 elmi əsərdə, o cümlədən 10 ixtira və





4 patentdə öz əksini tapmışdır. Onun rəhbərliyi altında onlarla elmlər namizədi hazırlanmışdır. Bu tanınmış alim dünyanın bir çox mötəbər konfrans və simpoziumlarında maraqlı və elmi məruzələrlə çıxış etmişdir. Onun rəhbərliyi altında aqressiv sənaye qazlarını qurutmaq üçün xüsusi qurğu tikilmiş və sınaqdan keçirilərək istifadəyə verilmişdir. O bu cür mühüm sahədə 4 tətbiq işinin müəllifidir.

## MƏNSUR ƏHMƏDOV



1934-cü ildə Ağdü kəndində anadan olub. 1963-cü ildə Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirdikdən sonra Azərbaycan Dövlət Universitetində əmək fəaliyyətinə başlayıb. 1964-cü ildə SSRİ idman ustası normasını yerinə yetirərək "Sanbo güləşi üzrə SSRİ idman ustası" adına layiq görülmüşdür. Ümumittifaq yarışlarında on dəfə respublikanın idman şərəfini qoruyub. Onun tələbələri arasında 20 idman ustası, 60 idman ustalığına namizəd yetişib. 1987-ci ildə Azərbaycan Dövlət Universitetinin "Bədən tərbiyəsi və idman" kafedrasının müdiri vəzifəsinə seçilmiş Mənsur Əhmədov həmin kafedranın dosentidir. İdman sahəsinə aid 8 dərslik və monoqrafiyanın müəllifidir. İdman və elmi-pedaqoji fəaliyyəti nəzərə alınaraq Mənsur Əhmədova sanbo və cüdo güləşi üzrə "Əməkdar idman ustası və idman işçisi" fəxri adı verilib.

## İSGƏNDƏR İSGƏNDƏROV

İsgəndər Barat oğlu İsgəndərov 1946-cı il oktyabr ayının 4-də Ağdü kəndində anadan olub. Orta məktəbi Sumqayıt şəhərində bitirib. 1964-cü ildə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin riyaziyyat fakültəsinə daxil olub. Ali məktəbi bitirdikdən sonra gənclik şəhərində müəllim kimi əmək fəaliyyətinə başlayıb. İşlədiyi müddət ərzində



özünü bacarıqlı pedaqoq kimi təsdiqləyən İsgəndər İsgəndərov müxtəlif məktəblərdə müəllim, direktor müavini, eləcə də Şəhər Təhsil Şöbəsində inspektor vəzifələrində işləyib. 1982-ci ilin aprelində keçmiş Maarif Nazirliyində inspektor vəzifəsinə təyin olunub. Burada da özünü bacarıqlı təhsil işçisi kimi təsdiqləyən İsgəndər İsgəndərov bir müddət Təhsil Nazirliyində məktəblər şöbəsinin müdiri işləyib. 1999-cu ildən isə təhsil nazirinin müavini təyin edilib. Riyaziyyatın tədrisi, təhsilin idarə olunması və islahatları ilə bağlı bir neçə kitabın, onlarla məqalənin müəllifidir. Təhsil sahəsində göstərdiyi xidmətlərə görə müxtəlif təltiflərə, fəxri adlara layiq görülüb.

## GÜLEYŞƏ ƏHMƏDOVA



1941-ci ildə Ağdü kəndində anadan olub. Azərbaycan Dövlət Universitetinin fizika fakültəsini bitirib. Uzun illər Neft və Kimya İnstitutunda müəllim işləyib. Sonralar elmi fəaliyyətini davam etdirərək aspiranturada oxuyub. 1983-cü ildə dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür. Güleyşə Əhmədova Dövlət İqtisad Universitetinin Fizika kafedrasının dosentidir. 50-dən artıq elmi-metodiki əsərin, eləcə də bir çox metodik vəsaitin müəllifidir.





## NİZAMƏDDİN İSGƏNDƏROV



1979-cu ildə Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini bitirib. 1986-cı ildə Kiyevdə namizədlik, 2003-cü ildə isə doktorluq dissertasiyalarını müdafiə etmişdir. Fizika-riyaziyyat elmləri doktoru Nizaməddin İsgəndərov BDU-nun mexanika-riyaziyyat fakültəsinin professoru, Riyaziyyat və Mexanika İnstitutunda isə şöbə müdiridir. 40-dan çox elmi məqalə və monoqrafiyanın müəllifidir. Nizaməddin İsgəndərov respublikanın nüfuzlu riyaziyyatçı alimlərindən sayılır. Onun apardığı tədqiqatlar, əldə etdiyi elmi nəticələr həm respublika, həm də dünya alimləri arasında böyük maraqla qarşılanır.

## AKİF MƏHƏRRƏMOV



1942-ci ildə Ağdü kəndində müəllim ailəsində anadan olmuşdur. 1959-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olmuş, oranı bitirdikdən sonra bir müddət Dərələyəz mahalının Əzizbəyov rayonunda işləmişdir. 1968-ci ildə Ukrayna Elmlər Akademiyasının Biokimya İnstitutunda tədqiqatçı kimi işə başlayaraq həmin institutun aspiranturasında oxumuşdur. 1972-ci ildə dissertasiya müdafiə edərək biologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. Bir neçə il Ukrayna EA-nın Elmi İnstitutunda çalışan həmyerlimiz sonralar həmin elmi müəssisənin laboratoriya rəhbəri vəzifəsinə təyin edilmişdir. Daim elmi axtarışlara maraq göstərməsi onun yeni bir mövzu üzərində işləməsinə səbəb olmuş, 1982-ci ildə doktorluq dis-

sertasiyası müdafiə etmişdir. Sonralar Azərbaycana qayıdan Akif Məhərrəmov bir müddət AEA-nın Fiziologiya İnstitutunda laboratoriya rəhbəri vəzifəsində çalışmışdır.

Tanınmış alim 108 elmi işin, 4 ixtiranın müəllifidir. Onun xidmətləri dövlət tərəfindən dəfələrlə yüksək qiymətləndirilib. "SSRİ ixtiraçısı", "SSRİ əlaçısı" fəxri adlarını almışdır. Bir müddət Səhiyyə Nazirliyinin Baş Əczaçılıq və Tibbi Texnika İdarəsinin rəisi vəzifəsində çalışmışdır.

## RƏHİM ORUCOV

Ağdü camaatının fəxr etdiyi ziyalılardan biri də Rəhim Alməmməd oğlu Orucovdur. O, əmək fəaliyyətinə 1945-ci ildə müəllim kimi başlamış, sonralar həm Naxçıvanda, həm də İrəvan Pedaqoji İnstitutunda təhsil almışdır. 1954-cü ildə isə Azərbaycan Tibb Universitetinə daxil olaraq ömrünü səhiyyəyə bağlamışdır. 1963-cü ildən göz həkimi və cərrah işləməyə başlamışdır. Elmə olan həvəsi onu aspiranturada oxumağa, namizədlik dissertasiyası müdafiə etməyə sövq etmişdir. Tibb elmləri doktoru, professor Rəhim Orucov fədakar əməyinə görə müxtəlif orden və medallara, döş nişanlarına layiq görülmüşdür. Gələcək kadrların hazırlanmasında fəal iştirak edən Rəhim Orucov Azərbaycan Sanitariya Həkimləri və Gigiyenistləri Elmi Cəmiyyəti İdarə Heyətinin üzvüdür.

## SƏLİM ORUCOV



Orta məktəbi doğma Ağdüdə bitirdikdən sonra Bakıdakı Ali Pedaqoji Məktəbdə təhsil alıb. Bir müddət Abşeron rayonunda və Bakı şəhər məktəblərində riyaziy yat müəllimi işləmişdir. Sonra isə Azərbaycan Dövlət Pedaqoji Universitetində laborant və baş laborant vəzifələrində çalışan Səlim Orucov dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır. O, 7 elmi məqalənin, 3 metodik vəsaitin müəllifidir. Qəlbi daim axtarışlarla dolu olan istedadlı alim dünyasını çox vaxtsız dəyiş-





## İLDIRIM QASIMLI



İldırım Əvəz oğlu Qasımlı 1940-cı ildə Ağdüdə anadan olmuşdur. 1958-ci ildə Azərbaycan Pedaqoji İnstitutuna daxil olmuşdur. Hələ tələbə ikən müxtəlif mətbuat orqanlarında publisist və ədəbi-tənqidi məqalələrlə çıxış edirdi. O, bir müddət Sumqayıt şəhərində çıxan qəzetdə ədəbi işçi və məsul katib vəzifələrində çalışmışdır. İldırım müəllim həm də pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. O, Sumqayıt tibb məktəbində 27 il müəllim və tədris işləri üzrə direktor müavini işləmişdir. Yaradıcılığa, elmə olan həvəsi onu tədqiqatlar aparmağa ruhlandırmışdı. Azərbaycan nəsrinin problemləri ilə bağlı orijinal araşdırmaları var idi. İldırım Qasımov "Əli Vəliyevin romanları" mövzusunda dissertasiya müdafiə edərək alimlik dərəcəsi adı almışdır. Sonralar onun "Əli Vəliyev" adlı monoqrafiyası da nəşr edilmişdir. Teatr, kino, musiqi, rəssamlıq haqqında maraqlı yazıların müəllifi idi. Sumqayıt şəhərinin mədəni həyatı onu daim düşündürür və bu mövzuda diqqət çəkən məqalələr yazırdı. "Sumqayıtın teatrı" adlı kitabı müəllifin məhz bu yaradıcılığının bəhrəsi idi. İctimai-siyasi həyatda da çox fəal iştirak edirdi. Təəssüf ki, bu istedadlı alimin ömrü də, axtarışları da yarıda qırıldı.

Mənim yaddaşımda isə İldırım Qasımlı mərd və təəssübkeş insan kimi qalıb.

## TAHİR QULİYEV

Tahir Məhərrəm oğlu Quliyev Ağdü kəndində dünyaya göz açıb. Orta təhsilini doğma kənddə bitirdikdən sonra Bakı şəhərinə gəlib. İndiki Slavyan Universitetini bitirib. Paytaxtın İdarəetmə orqanlarında müxtəlif vəzifələrdə çalışıb. Tahir müəllimi yaxından tanıyanlar bilirlər



ki, o, son dərəcə vətənpərvər, yurd təəssübü çəkən, torpağa, millətə, dövlətə bağlı qeyrətli vətəndaşdır. Uzun illər Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışıb. İşlədiyi müddət ərzində Bakımızın görməli və gözəl guşələrindən birinə çevrilən Nəsimi rayonunun bugünkü ürəkaçan mənzərələrində Tahir Quliyevin özünəməxsus əməyi var. "Şöhrət" ordenli Tahir Quliyev bir müddət də Xızı rayonuna rəhbərlik edib. Mehriban, həssas ürəyə malik olan Tahir müəllim son dərəcə kövrək insandır. Zəngəzur mahalının adı çəkiləndə gözləri dolur. Baxışları uzaqlara dikilir: "Əvvəl-axır biz o yerlərə qayıdacağıq. Erməni nə karədir ki, bizi qədim və halal torpağımıza həsrət qoysun" - söyləyir. Biz də buna inanırıq. Tanrı hər birimizin duasını eşitsin!

## MAQSUD NƏCƏFOV



Ağaqulu müəllimin böyük oğludur. 1971-ci ildə BDU-nun mexanika-riyaziyyat fakültəsini bitirmişdir. Universiteti fərqlənmə ilə başa vurduğuna görə həmin təhsil ocağının elmi şurasının qərarı ilə aspiranturada saxlanmışdır. Uğurlu elmi axtarışlar nəticəsində əvvəlcə namizədlik, sonra doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edən Maqsud Nəcəfov hazırda ADPU-nun riyaziyyat fakültəsinin dekanıdır. Elmi-pedaqoji fəaliyyətlə yanaşı, respublikanın ictimai-siyasi həyatında fəal iştirak edən Maqsud Nəcəfov 1992-ci ildə Heydər Əliyev Müdafiə Komitəsinin üzvü və ümummilli liderimizə müraciət edən 91 vətənpərvər ziyalıdan biri olmuşdur.





## BƏXTİYAR NƏCƏFOV



Bakı Dövlət Universitetinin fizika fakültəsini başa vuran Bəxtiyar Nəcəfov bir müddət fizika sahəsinin ən unikal sahələrində elmi axtarışlar aparmışdır. 1984-cü ildə elmi araşdırmalarını bir araya gətirərək Azərbaycanda ilk dəfə olaraq hidrogenləşmiş nazik təbəqəli materiallarda elektrik enerjisinin alınması probleminin həll edilməsi ilə bağlı bir neçə ixtiranın müəllifi olmuşdur. Dünyanın 10-dan çox ölkəsinin mətbuatında məqaləsi çap olunmuş Bəxtiyar Nəcəfov 30-dan çox elmi simpozium və beynəlxalq konfransın iştirakçısı, 50-dən artıq elmi məqalənin müəllifidir. Hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Radiasiya Problemləri İnstitutunda çalışan fizika-riyaziyyat elmləri doktoru Bəxtiyar Nəcəfov belə hesab edir ki, gələcəkdə təbiətin ekoloji durumunun yaxşılaşdırılması əsasən elmi nailiyyətlərə üstünlük verilməsi ilə aradan qaldırıla bilər. Bu səbəbdən də o, bu istiqamətdə öz araşdırmalarını davam etdirir.

## MƏHRUZƏ ŞATIROVA



Məhruzə İsmayıl qızı Şaturova 1964-cü ildə Ağdü kəndində anadan olmuşdur. Doğma kənddəki məktəbi bitirdikdən sonra Sumqayıt Dövlət Universitetinin kimya texnologiya fakültəsində təhsil almış, sonra isə aspiranturada oxumuşdur. 1989-1992-ci illərdə indiki AMEA-nın Polimer Materialları İnstitutunda mühəndis, kiçik elmi işçi, böyük elmi işçi vəzifələrində çalışıb. Sonra isə namizədlik dissertasiyasını müdafiə edərək kimya elmləri namizədi alimlik dərəcəsi almış-

dır. Onun elmi fəaliyyətinin nəticələri müxtəlif xarici və yerli jurnallarda, beynəlxalq simpozium və konfransların toplularında dərc olunmuş 50-yə yaxın elmi əsərdə öz əksini tapmışdır. Məhruzə xanım elmi axtarışlarını və bu yöndə fəaliyyətini uğurla davam etdirməkdədir.

## RƏNA ƏHMƏDOVA



Rəna xanım 1964-cü ildə Bakı şəhərində anadan olub, amma bütün uşaqlıq illəri Ağdü kəndində keçib. Onun valideynləri, ulu babaları, nəsli-nəcabəti Zəngəzur mahalının bu dilbər guşəsində yaşayıb ömür sürmüşlər. Rəna xanım söhbətlərində deyir ki, özümü o yerlərsiz təsəvvür edə bilmirəm. Bakıda o qədər qohum-qardaşım, dostum-tanışım var ki... Amma mənə elə gəlir ki, bizlər əslində, qanadı qırılmış bir quşuq. Çünki getməyə yerimiz - dönməyə kəndimiz yoxdur. Hərdən fikirləşəndə adam dəli olur ki, babalarının ruhu dolaşan, qəbri alışan o yerlərə necə getməmək olar? Neyləyəsən ki, daşnaklar bizi öz vətənimizə həsrət qoydu.

Orta məktəbi Bakı şəhərində bitirən Rəna Əyyub qızı Əhmədova 1983-cü ildə BDU-nun fizika-riyaziyyat fakültəsinə qəbul olub. Universitetdə oxuduğu müddətdə nümunəvi tələbə kimi seçilib. Onu əlaçı tələbələrlə birlikdə Çexoslovakiyada təcrübə mübadiləsinə də göndəriblər. Ali məktəbi bitirdikdən sonra elə doğma universitetdə əmək fəaliyyətinə başlayıb. Bir müddət də Texniki Universitetdə çalışıb. Sonralar orta məktəbdə müəllim işləyib. Təlim-tərbiyə işləri üzrə direktor vəzifəsində çalışıb. Rəna xanım həmişə həm bacarıqlı müəllim kimi, həm də idarəetmə sahəsində təşkilatçılıq qabiliyyətinə görə həmkarlarından seçilib. 2004-cü ildən Nəsimi rayonundakı 35 saylı məktəbin direktorudur. Rəna Əhmədova bu təhsil ocağına gəlməmişdən öncə adını çəkdiyimiz məktəb demək olar ki, tamamilə sıradan çıxmaq üzrə idi. Bir direktor kimi onun ilk işi məktəbin texniki cəhətdən ayağa qaldırılması sahəsində çalışması oldu. Sonra isə müəllim və şagirdlər arasın-








da doğma ünsiyyəti bərpa etdi. Məhz Rəna xanımın çalışqanlığı, bacarığı sayəsində indi 35 saylı məktəb Nəsimi rayonunun, ümumiyyətlə, Bakı şəhərinin qabaqcıl təhsil müəssisələrindən sayılır.

# 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏN QAYITMAYAN AĞDÜLÜLƏR

1. Hübəli Azadov
2. Şəmistan Azadov
3. Cəmil Bayramov
4. Cənnət Bayramov
5. Dövlət Bayramov
6. Baba Bayramov
7. Ziyadxan Cəfərov
8. Eynulla Cəfərov
9. Xudayıl Cəfərov
10. Xasay Cəfərov
11. Əbiş Cəfərov
12. Fərhad Cəfərov
13. Qara Cəlilov
14. Abuzər Əhmədov
15. Bayram Əliyev
16. Zihrəli Əliyev
17. Fehruz Məhəmməd oğlu Əliyev
18. Maşallah Əbdürrəhmanov
19. Fehruz Əvdil oğlu Əliyev
20. Məhyəddin Əliyev
21. Məşkur Əliyev
22. Məşkur Əbdürrəhmanov
23. Abbas Əliyev
24. Vəliş Əliyev
25. Balı Əliyev
26. Arasxan Əliyev
27. Qulamhüseyn Əliyev
28. Savalan Əliyev
29. Hacıxan Heydərov
30. Dilavar Həsənov





31. Əşrəf Həmzəyev
32. Binnət Heydərov
33. Nəsib İsgəndərov
34. Dustaq İsmayılov
35. Soltan Kərimov
36. Salman Kərimov
37. Xanhüseyn Kərimov
38. Xaləddin Kərimov
39. Hüseyn Kərimov
40. Əli Quliyev
41. Qaraş Quliyev
42. Şirin Quliyev
43. Rəsul Qağayev
44. Şadətqulu Qağayev
45. Əbülfəz Quliyev
46. Qəhrəman Lələkişiyev
47. Karay Məmmədov
48. Firəddin Məmmədov
49. Nurəddin Məmmədov
50. Göyüş Muradov
51. Əli Məmmədov
52. Əmənulla Muradov
53. İbaqulu Nəcəfov
54. Qaraş Niyazov
55. Rəsul Rüstəmov
56. Soltan Rüstəmov
57. Əli Səlimov
58. Biliş Şirinov
59. Dağıstan Şatırov
60. Ağyəddin Telmanov
61. Əli Tahirov
62. Biliş Verdiyev
63. Məhəmməd Verdiyev

# ƏBƏDİYYƏT HEYKƏLLƏRİ

Bineyi-qədimdən qurdürəkli oğulları ilə zaman-zaman fəxr etmiş, yağıya meydan sulamış Ağdü kəndi taleyin qəfil qəzavü-qədəri ilə üz-üzə dayananda qoynunda pərvaz tapmış övladları zülmün, qəsdin, talanın, vəhşiliyin ağırlığına tab gətirə bilmədi. Əliyalın insanlar silahlı quldurların qarşısında aciz qaldılar. Vaxtilə bu dağlarda at oynatmış, ermənıyə qan qusdurmuş qaçaq Nəbinin, Qaçaq Süleymanın, Qaçaq Nuruşun, Qoçaq İnfilin... ruhu sızıldadı. Çünki olnların övladları zalım əlində pənahsız qalmışdılar. Beləcə, xoş günləri kül kimi sovurulub getdi Ağdünün. 1988-ci ilin payızı Ağdü camaatının bioqrafiyasında daim qan verən yaraya döndü. Milləti sındırsalar da, onun qürurunu əymək, içindəki fədakarlığı, qəhrəmanlığı, vurub yıxmaq əzmini boğa bilmədilər. Çünki o qurdürəkli, qorxubilməz, qoçaqlığı dillər əzbəri olan kişilərin nəvələri elə də mağmın, zəif deyildilər. Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü, qədim Qarabağın erməni caynağından xilası uğrunda həlak olanların arasında ağdülü cavanlar da şəhidlik zirvəsinə yüksəldilər. Onlar öz həyatlarını torpaq uğrunda qurban verərək bu yurdun ürəyində əbədiyyət heykəlinə döndülər.

## BABƏK CƏFƏROV



1972-ci ildə Ağdü kəndində dünyaya göz açmış Babək Tapdıq oğlu Cəfərov doğma yurdu tərk edəndə 15 yaşını təzəcə tamamlamışdı. Ermənilər onların da ailəsini dədə-baba ocaqlarından vəhşiliklə qovdular. Cəfərovlar ailəsi əvvəlcə Qubadlının Çardaqlı kəndində məskunlaşıb, sonra isə Sumqayıta köçüblər. 1990-cı ildə hərbi xidmətə çağırılan Babək Almaniyada atıcı alayında xidmət edib. Sonra Xabarovsk hərbi dairəsinə göndərilib. Bu, elə bir vaxt idi ki, Azərbaycanın özündə qan tökülürdü. İgidlər ölüm-dirim savaşına qalxmışdılar. Çox keçmir ki, Babək Cəfərov öz xahişi ilə hərbi xidmətini Azərbaycanda davam etdirmək üçün respublikamıza gəlir. Bir müddət azğın düşmənlərə qarşı döyüşlərdə rəşadət göstərib. Nişanlı olduğundan ailələri ilk övladın toyuna hazırlaşırdı. Hətta toy günü də təyin edilmişdi. 10 sentyabr 1992-ci ildə Babəkin toyu çalınmalı idi. Amma sən saydığını say, gör fələk hansı hesabdadır. Elə həmin ilin avqust ayında Laçının Səfiyan kəndi uğrunda gedən döyüşlərdə Babək Cəfərov qəhrəmancasına həlak olub. Həsrətlə oğul toyu gözləyən Tapdıq kişinin beli büküldü. Səmayə xalanın gözləri bulağa döndü. Toy vaya çevrildi.

Sumqayıtdakı Şəhidlər xiyabanında dəfn edilən Babək Cəfərov indi təkcə öz ailəsinin deyil, millətin, Vətənin fəxr etdiyi qəhrəman, igid balasıdır.





## HİCRAN ZÜLFÜYEV

1960-cı ildə Ağdüdə doğulan Hicran Əliş oğlu Zülfüyev orta təhsilini də doğma kənddə aldıqdan sonra rayon mərkəzində Rəssamlıq Məktəbində oxuyub. Sonra Azərbaycan Pedaqoji Universitetin bədii qrafika fakültəsini bitirmişdi. Qəlbi ilhamla, yaradıcılıqla dolu olan Hicran Zülfüyev bəlkə də gələcəkdə istedadlı rəssam kimi məşhurlaşacaqdı. Bunu müəllimləri də, öz qabiliyyəti də təsliqləyirdi. Təəssüf ki, müharibə - Qarabağ munaqişəsi çox arzuları qönçə ikən soldurdu. Hicran əlinə fırça alıb kətan üzərində mənzərə çəkmək əvəzinə, silahdan yapışdı, Vətən torpağının müdafiəsinə qalxdı. Müxtəlif cəbhə bölgələrində ermənilərə qarşı vuruşdu. Baş leytenant rütbəsinədək yüksələn bu Vətən oğlu müharibənin ölüm dolu günlərindən xilas ola bilmədi. 1992-ci il may ayının 13-də Qırmızıbazar kəndi uğrunda gedən döyüşlərdə böyük şücaət göstərdi. Təəssüf ki, ona tuşlanmış gülllədən xilas ola bilmədi. Yoldaşları danışırlar ki, onun son sözü belə olub: "Biz yaşayacağıq". Vətənə oğulluq borcunu ləyaqətlə yerinə yetirən Hicran Zülfüyev ondan yadigar qalmış iki övladına doyunca atalıq edə bilmədi.

# RAMİZ RÜSTƏMOV



Ramiz Rüstəmov 1971-ci ilin bir qış günündə Cümşüd kişinin ailəsində dünyaya gəlmişdi. Rayon mərkəzindəki texniki peşə məktəbində oxuyurdu. Lakin təhsilini tamamlaya bilmədi. 1988-ci ildə başlayan qovhaqov çarpışmasında ailə üzvləri ilə birlikdə Sumqayıt şəhərinə pənah gətirmişdilər. O, bu şəhərdəki Texniki-peşə məktəbinə daxil olmuş, sonra hərbi xidmətə çağırılmışdı. Maraqlıdır ki, Vətən al qan içində çırpınarkən onu Vyetnama hərbi xidmətə göndərmişdilər. Bu borcu da başa çatdıqdan sonra bir müddət zavodda fəhlə işləyən Ramiz Rüstəmov Qarabağdan gələn həyəcan dolu səslərə tab gətirə bilmədi. Gunlərin birində könüllü olaraq cəbhə bölgəsinə yollandı. Bizim yerlərə gedən yollar Laçından keçərdi. Ramiz bu bölgənin erməni tapdağında qalmasına, süqutuna heç cür razı ola bilmirdi. Ona görə də Laçın uğrunda gedən döyüşlərdə fədakarlıq göstərirdi. Təəssüf ki, onun bu şücaəti boşa çıxdı. Laçın da əldən getdi, Ramizin də həyatına son qoyuldu. Nə yaşamışdı ki, Ramiz. Sevdiyi qıza da könül açmağa macal tapmadı.

# QULU QULİYEV

Qulu Hacıəyyub oğlu Quliyev 1968-ci ilin yanvarında Ağdü kəndində dünyaya gəlmişdi. Gəlişi böyük bayrama, dünyadan vaxtsız gedişi isə çəkilməz dərdə, kədərə, qəmə çevrildi.

Ü.Hacıbəyov adına Ağdam Orta İxtisas Müsiqi Məktəbini bitirmiş Qulu Quliyev doğma kənddə müəllim işləyirdi. 1987-ci ildə rayon hərbi komissarlığı tərəfindən Leninqrad şəhər Hərbi Akademiyasına göndərilmişdi. Həmin akademiyanı fərqlənmə diplomu ilə bitirən Qulu Quliyev 1991-ci ildə təyinatla Əfqanıstanda





rus qoşunlarının tərkibində hərbi xidmətə getmişdi. Erməni işğalçılarının torpaqlarımızda törətdiyi vəhşiliklər onu da Vətənin harayına gətirdi. Sorağı Laçın, Şuşa, Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl, Ağdərə uğrunda gedən döyüşlərdən gəlirdi. Son ünvanı Kəlbəcər rayonunun Yanşaq kəndi uğrunda gedən döyüşlər olub. Təəssüf ki, həmişə düşmən hədəfindən yayınmağı cəsarətlə bacaran Qulu Quliyev 1994-cü ilin yanvarında şəhid oldu. Ümummilli liderimiz Heydər Əliyevin 1994-cü il sərəncamı ilə 1995-ci ildə Qulu Quliyev ölümündən sonra "Azərbaycan bayrağı" ordeni ilə təltif edilmiş və Bakı şəhərində küçələrin birinə onun adı verilmişdir.

# AYDIN MƏMMƏDOV

1974-cü ilin qışında Amanxan kişiyə bir xəbər çatdırdılar. Onun oğlu olmuşdu. Bu müjdədən sevinən ata oğlunun adını Aydın qoydu. "Ailəmizə işıq və nur olsun", - dedi. Təəssüf ki, Aydının ziyası çox tez kəsildi. 1988-ci ildə Vətəndən qovulan Məmmədovlar ailəsi də Sumqayıt şəhərində məskunlaşdılar. Aydın təhsilini yenicə öyrəşdiyi şəhər məktəbində davam etdirdi. O da sinif yoldaşları kimi günlərin birində hərbi xidmətə çağırıldı. Vətən qarşısında öz borcunu qaytarmaq üçün Naxçıvan Muxtar Respublikasına göndərildi. Bu o zaman idi ki, Nəqsicahanın Ermənistanla sərhəd rayonlarında qanlı döyüşlər gedirdi. Aydın ermənilərə qarşı nifrətlə vuruşur, mənfurları məhv eidikcə ürəyi sevinirdi. Ona elə gəlirdi ki, Ağdünün intiqamını alır. Ordubad rayonunun Soyuqtəpə şəhərində keşikdə dayanan Aydın Məmmədov qəfildən erməni faşistləri ilə üz-üzə gəlib. O bu döyüşdə ağlagəlməz igidlik göstərsə də, həlak olub.

# İMRAN DÜNYAMALIYEV

Təbii ki, İmranın da yaş kağızında doğulduğu yer Ağdü kəndidir. Doğma kəndin təmiz havasından, soyuq sularından içən İmran Cavanşir oğlu Dünyamalıyev I sinfə 1967-ci ildə gedib. Orta məktəbi bitirdikdən sonra sovet ordusu sıralarına göndərilib. Sonralar Vətən torpaqları erməni işğalçılarının zülmünə məruz qalanda İmran da könüllü olaraq ərazilərimizin müdafiəsinə qalxıb. Danışırlar ki,



İmran çox qorxmaz, qartal kimi düşmənin üstünə şığımaq qüdrətinə malik bir oğul imiş. İmran olan döyüşlərdə həmişə uğurlu əməliyyatlar həyata keçirilərmiş. 1991-ci ilin iyulunda Hadrut rayonunun Zamzur kəndi uğrunda gedən döyüşlərdə İmran Dünyamalıyevin həlak olmasına nə əsgər dostları, nə də ailəsi inana bilmişdilər. Hamıya elə gəlirdi ki, İmran hər şeydən güclüdür.Ölüm belə ona yaxın düşə bilməz. Əslində elə ölümündən sonra da yeni bir həyatı doğulub İmranın. Şəhidlər ölümsüzlüyə qovuşurlar. Onların ruhları həmişə başımızın üstündə günəş kimi işıq saçır.

## RAFAEL MƏMMƏDOV

Ağdüdə VIII sinifdə oxuyarkən ermənıər onları dədə-baba yurdlarından qovdular. Bütün ağdülülər kimi Bədəlxanın da ailəsi Sumqayıt şəhərinə pənah gətirdi. Rafael Məmədov da başqa həmkəndliləri kimi təhsilini Sumqayıt məktəbində davam etdirdi. 1992-ci ildə Milli Ordu sıralarına yazılaraq cəbhəyə yollandı. Mərd və vətənpərvər Rafaelin sorağı müxtəlif səngərlərdən eşidilirdi. Amma o zaman döyüş bölgələrindən tək-tək adam qurtula bilirdi. Çünki ölümün caynaqları xərçəng kimi çoxşaxəli idi. Yurd sevgisi ilə alışıb-yanan və bu yolda vuruşanlar ölümün amansız caynaqlarının məngənəsindən xilas ola bilmirdilər. Çox nakam bir ömür və tale yaşamış Rafael Məmmədov ürəyində bir qızın məhəbbətini gəzdirə-gəzdirə Füzuli rayonunun Divanlı kəndi uğrunda gedən döyüşlərdə ağır yaralandı. İgidi həyata qaytarmaq mümkün olmadı. Yaşamaq eşqli gəncin gözləri əbədi yumuldu. Kim bilir, onun qəbrini ziyarətə gələnlər arasında gözaltı etdiyi qız da varmı?! Eh, indi bunun nə fərqi var ki, eşqin kitabı qara bağlandı.





## MÜHÜD QASIMOV



1970-ci ilin baharında Əli kişinin yeddinci övladı dünyaya gəldi Həmişə uşaqlarına qəribə adlar qoymağı sevən ata bu körpəsini Mühüd adlandırdı. Təəssüf ki, ailəniin xoşbəxtliyi çox uzun sürmədi. Günlərin birində böyük bir külfət erməni daşnakları tərəfindən yurd-yuvasından didərgin düşdü. Onlar Abşeron rayonunun Saray qəsəbəsində məskunaşdılar. Həmkəndlilərinin soyuq bir qış günündə erməni daşnakları tərəfindən necə əsir-yesir olduğunu gözləri ilə görən Mühüd Qasımov bu dəhşətli məqamları unuda bilmirdi. Ona görə də, qəlbi intiqam hissi ilə alışıb yanırdı. 1993-cü ilin iyununda cəbhə bölgələrinə də elə bu məqsədlə getmişdi. Onun qəhrəmanlığı ilə bağlı əfsanəyə bənzər şeylər danışırlar. Mühüdin sonuncu döyüşü Ağdərə rayonunun Lüləsaz kəndində olmuşdu. O burada ermənilərin bir neçə əsgərini məhv etmiş, özü də şəhid olmuşdu.

# DAĞLAR, VƏTƏN AMANATI

Hazırda Sumqayıtda yaşayıb-yaradan Əvəz Mahmud Lələdağ təkcə Ağdü kəndinin, Qarakilsə bölgəsinin deyil, bütövlükdə Zəngəzur mahalının sayılıb-seçilən oğullarından, sinəsi şeirlə döyünən söz - sənət adamlarından biridir. Ağdünün şair oğlu ilk əmək fəaliyyətinə müəllimliklə başlayıb. Onun biz nəslə dərs deyib- deməməsindən asılı olmayaraq, hamımız Əvəz Mahmudu özümüzə müəllim hesab edirik. Bunun bir neçə səbəbi var. Birincisi odur ki, ilk dəfə Əvəz müəllimi öz sinifimizdə bizdən imtahan götürən görmüşəm. Onun məmnuniyyətlə mənə "əla" yazmağını bu günə kimi unutmamışam. Baxmayaraq ki, o, bizə dərs deməmişdi. Sadəcə imtahan vaxtı assistent kimi iştirak edirdi.



Uzun illər Ağdü kənd məktəbində müəllim işləyən Əvəz Mahmud lap uşaqlıqdan şeirə, sənətə maraq göstərib. Dost-qardaşın tövsiyəsi belə olub ki, Əvəz mütləq ədəbi mühitə yaxın olmalıdır. Bu səbəbdən də onun şəhərli həyatı başlayıb. Sumqayıtda müxtəlif məktəblərdə direktor vəzifəsində çalışan Əvəz Mahmud 10-a yaxın kitabın, 400-dən artıq elmi-publisistik-metodik yazının müəllifidir. Onun pyesləri H.Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrında tamaşaya qoyulub, televiziya ekranlarında səhnələşdirilib. Şairin poeziya aləmi ilə tanış olduqda duyursan ki, onun yaradıcılığından vətən həsrəti sarı sim kimi keçir. Ötən günlərin nisgili müəllifi xiffət içində göynədir.Bəzən də şairin şeirlərində dəsti - Şəhriyar xətti, ənənəsi duyulur:

Kəklikotu, qantəpəri dərərdik,
Gündöyəndə seyrək - seyrək sərərdik,
Əvəliyi qız saçıtək hörərdik,
Vətənsiz beləcə saraldım, soldum,
Təbibsiz, loğmansız, dərmansız oldum.

Bu bağlılığın, mənəvi yaxınlığın əsas kökü şair ürəyində iz salmış





yurd həsrətidir. Bir vaxtlar öz soydaşlarının həsrəti ilə qovrulan və uşaqlıq nisgillərini də bu dərdin üstünə əlavə edərək "bir uçaydım bu çırpınan yeliənən", - deyən Şəhriyar həsrətinin davamı kimi Əvəz Mahmudun könül sarsıntıları adamın varlığını titrədir, ruhunu dara çəkir:

Əriməzdə qarım qaldı,
Dağlar, qarım amanatı,
Yarım gəldi, yarmı qaldı,
Dağlar, yarım amanatı.

İnsan nə qədər ki, doğulduğu yurdundan uzaqdadır, beşiyinə, ilkinliyinə əli yetmir, doğrudan da, yarımçıqdır, tam deyil. Əvəz müəlimin bu canyanğısını ancaq içində yurd həsrəti, Vətən dərdi çəkənlər duya bilər. Onun şeirlərində elə kövrək, həzin misrarlar var ki, oxuduqca sanki doğma yerlərin ətrini duyur, gözəlliklərini görürsən.

Kəndimiz yuxuma girmişdi gecə,
Əlmərdan bulağı həzin axırdı,
Babamınsa ruhu Qızılqayadan,
Dayanıb nifrətlə mənə baxırdı.

İndi gəl bu ittihamdan sonra döz, yaşa! Eh, yaşamaq deyil ki, bu, qardaşım, üzülməkdir, dirigözlü ölməkdir.

Əvəz Mahmud Lələdağın yaradıcılığında bu dərdlər elə təsirli dil açıb ki, itirilmiş yurd yerlərinin bütün mənzərəsi onun poeziyasında olduğu kimi əks edilib. Ömrünün müdriklik çağını yaşayan Əvəz müəllim sanki bir yolayrıcında dayanaraq özündən, onu əhatə edən insanlardan, üzləşdiyimiz bəlaların şahidlərindən, bir sözlə, hamıdan və taledən hesabat istəyir. Nə idi bizim günahımız? Bu qədər uzun sürən ayrılıq olar? Amma nə vaxtsa yollarını toz basmış Vətənə dönəcəyimiz gün gələcək. Əgər o yerlərin - Zəngəzurun, Göyçənin, Dərələyəzin çiçəyi, gülü, dağı, dərəsi, çeşməsi, gədikləri yadımızdan çıxmayıbsa, hər gecə yuxuda dağılmış yurd görürüksə, bulaqlardan su içiriksə, üzümüz dağlara sarıdırsa, ruhumuz orada dolaşırsa, demək, unudulmayıb Vətən. Məmməd Araz təbirinə söykənsək, demək, vətən eşqimizə hələ qar yağmayıb. İnsanlar vəfasızdır bu dünya kimi. Ona görə də Vətəni əzəldən səngərli olanlara tapşırıb deyirik: dağlar, Vətən amanatı!

Zəngəzur mahalının Ağdü kəndində anadan olan, lakin hazırda

Sumqayıtda yaşayan, ruhu ilə cismi didərgin düşən Əvəz Mahmud könül dünyasının ağrılarını misralarda göyərdərək ötən günlərinə tor atır. Tor hələ ki, bomboşdur. Bu nisgil misra-misra dilə gəlir:

Ocaq, daşın olammadım,
Pir, başına dolanmadım,
Qoynunuzda qalammadım,
A yaylaqlar, a yaylaqlar.

Yayda yaylağı, qışda oylağı, yazda seyrəngahı olan dağlar Əvəz müəllimin poeziyasında elə məğrur və əzəmətlidir ki... Çox arzulayardıq ki, şairin yeni doğulacaq şeir kitablarında həsrət notları duyulmayaydı. Yurda qayıdışından doğulmuş sevinc dolu şeirlərini oxuyaydıq. Kaş bunlar xəyal olmayaydı. Bir gün elllikcə yığışıb Əvəz Mahmud Lələdağa gözaydınlığı verərdik. Deyərdik ki, çəkdiyimiz intizara son qoyuldu. Nola, Tanrım, yurda qayıdış havası ürəyimizin kökündəki qəm-kədəri küləklərin qanadına yükləsin. "Vətən, yollarının tozu olaydıq" ahını bir daha çəkməyəydik. "Vətən, görüşünə gəlirik!",- deyə hayqırardıq.

Əvəz Mahmud Lələdağ haqqında danışmaq mənim üçün Vətəndən söz açmaq deməkdir. Çünki, Əvəz Mahmudun təbiətində o yerlərin saflığı, təmizliyi, əzəməti, vüqarı və xeyirxahlığı əks olunur. Mütləq bir sözü oxuculara çatdırmalıyam ki, bu kitabın yazılmasında Əvəz müəllim qədər mənə mənəvi kömək göstərən çox az olub. Bir neçə günün içində o, Ağdü kəndinin ziyalıları, tanınmış insanları və şəhidləri haqqında məlumatlar gətirdi, faktlar topladı, şəkillər tapdı. Böyük qardaşı Zaman müəllimə həsr etdiyi misraları mən də bir şagird istəyi ilə elə Əvəz müəllimin özünə ünvanlayıram:

Mənə məğrur gəzməyi də sən öyrətdin,
Yaman günə dözməyi də sən öyrətdin.
Sən öyrətdin eniş - yoxuş çıxmağı da,
Sən öyrətdin gözəlliyə baxmağı da.





# GƏLİMLİ, GEDİMLİ DÜNYA...

## QARTALLARI DÖNMƏZ OLDU DAĞLARIN

**Əslən Sisianın Ağdü kəndindən olan**
**qələm sahibi, görkəmli yazıçımız**
**Şamil Xurşudun əziz xatirəsinə...**



Biz nəslin yaddaşında dərin izlər salmış insanlar olub:

Həsən Əliyev, Qəşəm Aslanov, Qulu Xəlilov, Şamil Xurşud (Fərzəliyev), Xudu İsgəndərov... Onların hər biri örnək, nümunə olacaq şəxsiyyət kimi çox mənalı həyat sürüblər.

Seçilən talelərini şəhərli həyatlarının üstündə kökləsələr də, əslində bütün varlıqları ilə təbiət genişliyinə bağlı, kənd havalı insanlar idilər. Onları birləşdirən, bir simin üstündə səsləndirən, xəyalımızda eyni sırada canlandıran da elə bu məziyyətlərdir.

Bu unudulmaz, işıqlı insanlardan biri də yazıçı-publisist Şamil Xurşud idi. Əgər yaşasaydı, fevralın 18-də 70 yaşı tamam olardı. Təəssüf ki, o, xatirələrimizdə eləcə 50-52 yaşlı Şamil müəllim kimi qaldı. Çoxumuzun qolundan tutan, ona mənəvi dəstək olan Şamil Xurşud təbiətən xeyirxah, nəcib və əsl el adamı idi. Qəribədir, biz biləndə ki, Şamil müəllim dünyanı tərk edəndə cavan olub, təəccübləndik. Çünki elə müdrik, elə tədbirli insan idi ki, hətta öz yaşıdları da ona ağsaqqal kimi baxır və hörmət edirdilər.

Bəllidir ki, o, sovet dövründə yaşayıb yaratmışdı, bir sıra mətbuat orqanlarında baş redaktor vəzifəsində çalışmışdır. Şamil müəllimi yaxından tanıyanlar bilirlər ki, sözün əsl mənasında o, ədib redaktor idi. İstər bədii əsərlərində, istərsə də publisistikasında həmişə bir məsələ önə çəkilirdi - İnsanın mənəviyyatsızlıqdan qorunması.

Çalışırdı ki, onun əsərlərini oxuyanlar bütün əməllərini, fəaliyyətlərini düzgün istiqamətləndirmək üçün nəsə öyrənə bilsinlər. Həmkarları Şamil müəllimdən danışarkən həmişə bir məsələni xatırladırlar ki, o, "Azərbaycan gəncləri"nin redaktoru işlədiyi müddətdə bu qəzet rəsmi mətbuat orqanlarının içində ən nüfuzlu və sevimli nəşrlərdən biri olub. O, bir redaktor kimi özünəməxsus cəhətləri ilə fərqlənirdi. Bir tərəfdən yuxarıların tapşırıqlarını intizamla yerinə yetirirdi, digər tərəfdən də jurnalistlərin məhdud çərçivədən çıxmaları üçün onlara hər cür şərait yaradırdı. Yadımdadır ki, ötən əsrin 70-ci illərin sonu, 80-cı illərin əvvəllərində Şamil müəllim mənə tapşırdı ki, SSRİ Ali Sovetinə deputatlığa namizədlər arasında ən gənc qız- Tərlan Musayeva haqqında oçerk yazım. Şamil müəllim standart, şablon yazı tərzinin həmişə əleyhinə idi. Onun verdiyi məsləhətlər indi də qulağımda səslənir: "Əsl azərbaycanlı qızının portretini yarat, zəhmətsevərliyini, əməyə bağlılığının səbəbini düzgün şərh et. Heç kəs bəxtəvərçilikdən pambıq tarlasına üz tutmayıb. Çalış bu əməyin sonda şərəfə ünvan olmağının səbəblərini təsirli və maraqlı verə biləsən". Yəqin ki, biz nəsil jurnalistəlrin çoxu təsdiqləyər ki, universitet təhsilindən sonda səriştəli qələm əhli kimi formalaşmağımızda Şamil müəllim kimi insanların böyük təsiri olub.

Ötən əsrin 70-80-cı illərində Şamil Xurşud dramaturq və publisist kimi tanınırdı. O, uzun illər "Azərbaycan gəncləri" qəzetinin redaktoru vəzifəsində çalışmışdır. 50-ci illərdə ədəbiyyata gəlmiş Şamil Xurşud yazdığı povest və digər əsərləri ilə ədəbi tənqidin diqqətini cəlb etmiş və onun yaradıcılığı həmişə müsbət qiymətləndirilmişdir. Bu yazıçının özünəməxsus yaradıcılıq prinsipləri olmuşdur. O, bədii əsərlərində həmişə yaratdığı obrazların fərdi xüsusiyyətlərini, psixoloji aləmini açmağı, təsvir etdiyi hadisələrin mahiyyətini bitkin ifadələrlə dolğun və canlı çatdırmağı sevirdi. Xalq yazıçısı Əli Vəliyev yazırdı: "Şamil xalqın məişətinə, adət-ənənələrinə yaxından bələd olan yazıçılardandır. Onun dili səlisdir, xalq məsələləri, ifadələri ilə zəngindir. O, klassik və müasir yazıçılardan öyrənməyə çalışdığı kimi, xalq yaradıcılığının həmişə gur və şəffaf qaynaqlarından da bəhrələnir".

Əlbəttə, Şamil Xurşud birinci növbədə nasir idi. Onun "Ağaclar kəsilmədi","Naxırçı çörəyi","Ona deyin kəndə gəlsin" kimi povestləri bu yazıçının yaradıcılığı haqqında gözəl təsəvvür yaradır. Şamil





Xurşudu dramaturq kimi də tanıyırdılar. O, "Məhəbbət" novellası, "Qızıl zəncir", "Kiçik torpaqda üç gün", "Qvardiya, irəli", "Sevinc", "Yol ayrıcında" kimi müasir insanın daxili aləmini açan pyeslərin müəllifi idi. Doğrusu bəzən dəqiq araşdıran olmur ki, yaradıcılığın hansı sahəsində Şamil müəllim daha çox uğur qazanıb. Çünki o, öz ömrünün 30 ilini məhz mətbuata həsr edib. Müəllifin publisistik məqalələri, xüsusilə də felyetonları həmişə diqqət çəkib. O, qələmə aldığı mövzuya, toxunduğu məsələlərə vətəndaşlıq mövqeyindən yanaşıb. Şamil Xurşud milli ləyaqətə, mənəvi paklığa, nəcib insani keyfiyyətə üstünlük verib. Bunun müqabilində isə rəzilliyi, satqınlığı, mənəvi simasızlığı həmişə ciddi tənqid atəşinə tutub. O, öz yaradıcılığında elə mövzulara üz tutub ki, həmişəyaşardır.

Günlərindən çox ağrını qova-qova ömrünün son gedişinə tələsən Şamil Xurşud əslində ağ kağızlarda öz abidəsini ucaldıb. İndi kitabın dəbdən düşdüyü bir məqamda bəlkə də gənc nəsil fikirləşər ki, kimdir Şamil Xurşud? Məsləhət görərdik ki, onun həm yuxarıda adlarını çəkdiyimiz əsərlərini, həm də "Sonluq", "Sakitlik olmayacaq", "Yalan ayaq tutar, yeriməz", "Tüstü", "Azarkeş nənə", "Nə var, nə yox, əmi oğlu?", "Qayıtdılar", "Dialoq","Kötük","Duz-çörək", "Cəsarət", "İşıq", "Sizi unutmaram"... kimi əsərlərini oxusunlar. Gənc jurnalistləri isə publisistikası ilə maraqlanıb "Özüm və özün", "Toy nə toy", "İclas azarı", "Marallarım", "Başlandı", "Səriyyə xalanın gileyi", "Bura xublar evidir" adlı felyetonlarına nəzər salsınlar. Hər bir qələm əhli üçün nümunə, məktəb qoyub Şamil müəllim. Bu da bir faktdır ki, bəzən elə qələm sahibləri olur ki, onlar həmişə təbliğ edilirlər, xatırlanırlar. Şamil Xurşud sağlığında da təvazökar idi, vəfatından sonra da reklamdan uzaqdır. Amma bizə elə gəlir ki, belə nəcib, istedadlı, içində vətəndaş yanğısı olan, onu kəlmə-kəlmə əsərlərinə köçürən ədəbiyyata, mətbuata iddiasız, təmənnasız xidmət göstərən Şamil Xurşud kimi insanları unutmamalıyıq. Müəllifin "İnsan yaşayır" adlı bir povesti var. Əsərin qəhrəmanı Vahid adlı bir şəxsdir. Sağalmaz xəstəliyə düçar olub. Eşitdiyimizə görə, əsərin təsirli, təbii və maraqlı alınması üçün Şamil müəllim xeyli müddət xəstəxanada yatıb. Məhz həmin xəstələri yaxından müşahidə etmək üçün. Belə təcrübə başqa yazıçıların da yaradıcılığında olub. Əsl yazıçılar ümumiyyətlə həyatın içində olmağı, baş verən hadisələri dərindən izləyib, öyrənib, sonra yazmağı sevərmişlər.

Şamil müəllimin rəhbərlik etdiyi redaksiyada yeddi il onunla çiyin-çiyinə işləmiş jurnalist Şakir Yaqubov yazır: "... Şamil Fərzəliyev vicdanlı adam, zəhmətkeş insan, yaxşı kişi, demokratik redaktor idi".

Dünyasını vaxtsız dəyişmiş şair-jurnalist Şahmar Əkbərzadə Şamil Xurşudla bağlı xatirələrini belə dilə gətirmişdi: "İndi bəzi obalarımızı başsız görəndə bir haray üşüdür ürəyimi: "Ona deyin kəndə gəlsin". Bu, Şamil vəsiyyəti idi, yaddaşımızı silkələyir".

Yazı-pozu adamlarının içində Şamil Xurşud qədər kəndə bağlı az adam tanıyırıq. Bəlkə də elə buna görədir ki, o bu dünyanı tez tərk edəcəyini bilirmiş. Özünə əbədi ünvan da kəndi seçibmiş. Bir də söyləyirlər ki, o qədər sadə, təvazökar insan imiş ki, hər hansı bir məclisdə, süfrəsinin başında əyləşənlərin yarıdan çoxu adi peşə sahibləri olarmış.

Həmişə dağların-zirvələrin görüşünə tələsən Şamil Xurşud xarakterinə uyğun gəlməyən bir etibirsızlıq etdi. İlk baxışda buz baltası təsiri bağışlayan bu palıd cüssəli kişini sən demə içindən ağır xəstəlik xəbiscəsinə yeyirmiş. Son gününə kimi heç bir ağrıya baş əyməyən, dost-tanış məclisindən qalmayan, çoxumuza xeyirxahlıq edən, hər birimizin çox sevdiyi, boynumuzda böyük haqqı olan Şamil müəllim. Bu dəfə qəfil qəza onu öz qanadına alaraq doğulduğu ana torpağın ağuşuna apardı. Dağların bir qartalı daha geri dönmədi. Küləklər o ucaboylu, zahirən qaraqabaq, zəhmli, əslində zərif və həssas ürək sahibi, istedadlı vətən oğlunun saçlarını bir də oxşamadı...

**2004.**

## NURLU YOLLAR YOLÇUSU

"Gəlimli, gedimli, son ucu ölümlü dünya", sənin körpündən kimlər keçmədi? Geniş sinəndə kimlər at oynatmadı? Yaradanın, quranın, dağıdanın fərqinə varmadın. Hamını eləcə "of" demədən sinənə çəkdin, içində əritdin, torpağa döndərdin. Sağlığında işıqlı əməlləri ilə abidələşən insanlar cismən bu dünyanı tərk etsələr də, qəlblərdə həmişəyaşardılar. Onların xatirəsi həyatın özü qədər şirin və mənalıdır. Əbədiyyət ünvanına çox vaxtsız qovuşmuş Yusif Novruzov kimi. Bir həqiqət də var ki, Yusif müəllimdən söz düşəndə hamının ürəyində xiffət qarışıq xoş duyğu baş qaldıracaq. Çünki haqq dünyasına tələsən





bu vətən oğlunun gözəl ürəyi vardı. İnsanlar onu böyük məhəbbətlə, ehtiramla yad edəcəklər.



Adətən vəfat etmiş adamlar haqqında həmişə hörmətlə danışarlar. "Bu, Allaha xoş gedər" fikri ağzımızın duasına çevrilib.

Tanrı xoş vaxtında yaratmışdı onu. Yusif Novruzov kimi insanlar öz nəcibliklərinə görə bu dünyada əbədi yer qazanmış olurlar. O, əslində, bir yolçu idi. Seçdiyi istiqamət isə nura, işığa aparırdı. Təbiətən yaradıcı adam olan Yusif Novruzov 1941-ci ildə Ağdü kəndində anadan olmuşdur. Uşaqlığı II Dünya müharibəsinin sıxıntılı və çətin illərinə düşsə də, atası İsmixan kişi övladlarını elə böyütmüşdü ki, oğlu Yusifin də xarakterindəki bütövlük, mərdlik cəhətləri ömrü boyu ona yar oldu. Boya-başa çatdığı Zəngəzur dağlarının əzəməti, suyunun, havasının paklığı, torpağının səxavəti, insanlarının zəhmətsevərliyi Yusif Novruzovun varlığına hopmuşdu.

Orta və ali məktəbləri Bakıda bitirən gənc erkən zəhmətə qatlaşmağı və onun bəhrəsini dadmağı bacardı. Bir çox gözəl insani məziyyətinə görə hələ gənclik illərindən çoxundan seçilirdi. Onu bəzən "Polad xarakterli insan" adlandırırdılar. Əyilməz, mərd, sözübütöv idi. İlk baxışda nə qədər sərt təsir bağışlasa, qaraqabaq görünsə də, onu yaxından tanıyanlar bilirdilər ki, çox kövrək və həssas idi. Zəhmətə elə bağlanmışdı ki, həmişə öz çalışqanlığı, işgüzarlığı ilə fərqlənərdi. İçindəki qaynarlıq bütün fəaliyyətində özünü büruzə verərdi. Bu, alın yazısı idi, yoxsa elə öz əməlinin nəticəsi - bilmirəm. Tale elə gətirmişdi ki, o, gəncliyindən mühüm vəzifələrdə çalışmış, həmişə də kollektivin dərin hörmətini qazanan, arzu edilən, sevilən rəhbər işçi kimi diqqət çəkmişdi. Bir tərəfdə, idarəetmə orqanlarında fəallıq göstərən Yusif Novruzov, eyni zamanda mükəmməl iqtisadçı olmaq arzusunu inadlı şəkildə həyata keçirməyə çalışırdı.

1984-cü ildə Moskvada Xalq Təsərrüfatı Akademiyasına oxumağa göndərilən Yusif Novruzov oranı qırmızı diplomla bitirmişdir. 1989-cu ildə həmin akademiyada elmi iş müdafiə edərək iqtisad elmləri

namizədi alimlik dərəcəsi almışdır. Dövlət müəssisələrində, müxtəlif nazirliklərdə idarə rəisi, nazir müavini... kimi vəzifələrdə çalışan Yusif Novruzov 1994-cü ildə prezident Heydər Əliyevin sərəncamı ilə "Azəravtoyol" Dövlət şirkətinin prezidenti vəzifəsinə təyin olunub. Ömrünün sonuna kimi də o, bu mühüm vəzifədə çalışmışdır.



Milli Məclisin deputatı Rizvan Cəbiyev bu unudulmaz insan haqqında hələ onun sağlığında yazırdı: "Mən bir dost, qardaş kimi sevinirəm ki, Yusif müəllim... bu az vaxt ərzində özünün işgüzarlıq, tələbkarlıq, təşkilatçılıq bacarığını məharətlə nümayiş etdirə bildi və neçə-neçə yeni körpülər salındı, yollar tikildi, istifadədə olan körpülər və yollar abadlaşdı. Belə də olmalıdır, çünki Yusif Novruzov öz əməli fəaliyyəti ilə doğma xalqına xidmət etdiyini çox gözəl bilir".

Onun görəcəyi işlər hələ çox idi. Qəlbində neçə arzusu, diqqətində görəcəyi neçə iş planı var idi. Amma ömür vəfa etmədi. Bəzən insan bu etibarsızlığın, bu qəfil gedişin səbəbini axtarmaqla məşğul olur. Ağıla min bir şey gəlir. Yusif Novruzovun da həyatının görünən və görünməyən tərəfləri olub. O, bəzən elə haqsızlıq və qəfil qadaları, sədləri aşa bilib. Qalibiyyətin də yolu heç vaxt asan olmur. Üzdə sakit görünsə də, onun ağrı və acıları insanın içindən keçir. Məgər gözəl





işçi, bacarıqlı rəhbər olanda hamının xoşuna gəlir?! Təbii ki, bir qrup insan səndən razı qalsa da, başqaları, deyək bu vəzifəyə susayanlar səni yıxmağa, aradan götürməyə çalışıblar. Təəssüf ki, bizim bu ağırtaxtalı vətən oğlumuz da həyatında belə çətin məqamla çox üzləşib. Xüsusilə də, milli liderimiz Heydər Əliyev Moskvada vəzifədən gedəndən sonra respublikamızda haqsız yerə aparılan təftişlərin zərbəsi Yusif müəllimə də dəyib. Onu gah vəzifədən çıxarıblar, gah vəzifəsini aşağı salıblar, gah da işsiz qoyublar.Xüsusilə də Əbdürrəhman Vəzirov Azərbaycana rəhbərlik etdiyi dövrdə Yusif Novruzov doğma vətənində heç yaşaya bilmədi. Kənd təsərrüfatı nazirinin müavini vəzifəsindən istefa verərək Moskvaya getdi. Məlum hadisələr baş verəndən sonra yenidən Bakıya qayıtdı. Ona elə gəlirdi ki, xalq hakimiyyəti dövrüdür. Yəqin ki, onun təcrübəsi, biliyi mütləq lazım olar. Amma Yusif Novruzov kimi mütəxəssislər cəbhəçi "bəy"lərə lazım deyildi. Yenə də işsizlik, yenə də əzab-əziyyət... Və nəhayət, xalqın tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev bu ağrı acılı həyat yolu keçmiş insana diqqət göstərdi. Onu tərkibində 350-dən artıq idarə olan "Azəravtoyol" Dövlət şirkəti kimi böyük bir müəssisəyə prezident təyin etdi. Heydər Əliyev az vaxtda dağıdılmış, parçalanmaq təhlükəsində qalan ölkəni yenidən qurmaq istəyirdi. Bu səbəbdən də müdrik rəhbərimiz Yusif Novruzov kimi əqidəli, dönməz insanlara inanır və etibar edirdi.

Onun rəhbərliyi ilə başlayan şirkətin uğurları çox oldu. Bir fakta fikir verin. 1995-ci ildə 328,1 kilometr avtomobil yolu istifadəyə verilmişdir ki, bu yolların 200,7 kilometri asfalt-beton, 66,6 kilometri qara çınqıl örtüklü, 13 kilometri isə qrunt yoldur. 20 kilometr uzunluğu olan Biləsuvar-İran sərhəddi avtomobil yolunun və Naxçıvan təyyarə limanında uzunluğu 3,3 kilometr, eni 42 metr olan uçuş enmə zolağı tikilib istifadəyə verilmişdir. Bu, ilk işlər idi. Sonrakı illərdə də prezidentin etimad göstərdiyi bu insan hər bir işin öhdəsindən şərəflə gəlməyə, iqtisadçı alim kimi yol təsərrüfatının müsbət yöndən dirçəlişinə çalışırdı.

Əlbəttə ki, bütün bunlar (söylədiyimiz digər faktlar da) Yusif Novruzovun vəzifə borcu idi. Onun heç vaxt reklam edilməyən, lakin bu gün də insanlar tərəfitndən ehtiramla xatırlanan, danışılan başqa bir borcu da var idi. "Əl tutmaq Əlidən qalıb" el misalı onun həyat devizi idi. Gah şəhid ailələlərinə, gah hərbi hissələrə, gah da adicə imkansıza

daim yardım göstərirdi. Amma heç xoşu gəlmirdi ki, kimsə bunu bilsin, kimsə bu barədə qəzetə yazsın, ekranda getsin. "Allaha ağır gedər. Kişi etdiyi yaxşılığı dilə gətirməz. Bir əlin verdiyini o biri əl bilməməlidir" - söyləyirdi.

Mənalı və az yaşadı Yusif müəllim. Bir ildir ki, Novruzovlar ailəsi bu ağır itkinin təsirindən çıxa bilmir. Amma nə yaxşı ki, ondan xoş xatirələr, əməllər, bir də mehriban övladlar, nəvələr qaldı. Nurlu bir yolun yolçusu idi. Bu yollar bu gün Azərbaycan adlı bir məmləkətin sinəsindən belədən-belə keçməkdədir. Bu yolların hər cığırında, hər döngəsində, hər səmtində Yusif Novruzovun nişanəsi var.

2004.

# DAĞIDILMIŞ KƏNDLƏRİN NİŞANƏLƏRİ

## İRMİS

Uruddakı qədim qalanın döşündən baxanda İrmis kəndinin xarabalıqları görünürdü. İndi də yadıma düşəndə ürəyimin başı göynəyir. Özümü qınağa çəkirəm ki, mən niyə nəfəsi kəsilmiş o yurd yerlərini gedib gəzmədim? Təəssüf ki, yalnız yaddaşlarda eləcə adı qalan bu qədim türk kəndinin sakinlərindən çox az adam qəzadan qurtulmuşdu. 1918-ci idə ermənilər bu kəndi elə yandırdılar ki, bir daha orada yaşamaq mümkün olmadı. Kənd camaatından salamat qalan 5-10 adamın bəzisi urudda məskunlaşmış, bəziləri də heç geri qayıtmadılar. Urudda məskunlaşan irmislilər bunlar idi: Həmzə Məmmədov, Mürsəl Qəhrəmanov, Babışovlar, Mehdiqulu kişi, Xəlilovlar və başqaları. Əbdüləli Ağaəli oğlu isə İrmisdə doğulub böyüsə də, o qanlı hadisələrdən sonra bir daha doğma yurda qayıtmadı. Gözlərinin önündəcə ermənilər tərəfindən qətlə yetirilmiş doğmalarının naləsi gəncin ürəyini çox şeydən sıyırdı və sındırdı. Həyatın ağır günlərinə sinə gərən Əbdüləli ömrünün sonuna kimi Bakının Biləcəri qəsəbəsində yaşamışdır. Əslində Əbdüləli bəy oğlu idi. Böyük bir tayfanın nişanəsi olan Əbdüləlinin bütün əzizlərini ermənilər öldürmüşdülər. O, əvvəlcə neft mədənlərində fəhləlik etmiş, oxumuş,





özünə gün-güzəran düzəltmiş, adlı-sanlı dəmiryolçu kimi şöhrət qazanmışdı. Ailə qurmuşdu, oğul-uşaq sahibi idi. Ama bir dəfə də olsun ötən günlərini dilə gətirib keçmişindən danışmağı sevmirdi. Ona elə gəlirdi ki, xatirələri tərpətsə, ağır günlərin həsrətinə davam gətirə bilməz. Onu bu qaradinməzliyə çəkən başqa bir qüvvə də var idi. Ötən əsrin 30-40-cı illərində qohumlarından salamat qalmış bir neçə nəfərlə əlaqə yaratmışdı. Xüsusilə də Məmməd Xəlilovla



**Əbdüləli Ağəli oğlu qohumu və dostu Məmməd Xəlilovla birlikdə**

ünsiyyət qururdu. Lakin Məmməd Xəlilovun Böyük Vətən müharibəsi adlandırılan savaşdan qayıtmaması Əbdüləlinin bütün ümidlərinin üstünə qara xətt çəkmişdi. Dünyadan sanki əməlli-başlı küsmüşdü. Yaşının ahıl çağında övladlarını başına yığaraq kədərlə demişdi: "Balalarım, bizim əslimiz Zəngəzurdandır. Nəslimizin əksəriyyətini ermənilər qətlə yetirdilər. Amma nişanə qalmamış olmaz". Bununla da, axtarışlar başlanmış, 60-cı illərdə Urudda yaşayan qohum-əq-



rabadan xəbər tutub görüşə bilmişdilər.

Əbdüləli kişinin sonbeşik oğlu Telman Ağabəyli bütün bu baş verənləri qəlb ağrısı ilə danışır: " Böyük qardaşım Qarakilsəyə getdi, Uruddakı qohumlarla görüşdü, İrmisin xarabalıqlarını gəzdi, atamın nişan verdiyi yerlərdə oldu, amma mənim qismətimə düşmədi. İndi də içimdə bir göynərti duyuram".

Telman Ağabəyli atasının yolu ilə getmş, hazırda onun Biləcəridəki evində çırağını yandıran sonbeşik oğludur.

## DƏRƏKƏND

Bu kənd də 1918-ci ildə daşnaklar tərfindən darmadağın edilərək əhalisi qətlə yetirilib. Ağdü kəndi ilə Vağədi arasında, dərədə yerləşən bu adı var, özü olmayan Dərəkəndin ərazisində ermənilər 1928-ci ildə Noravan (Yenioba) adlı bir yaşayış məskəni saldılar. Əhalisi xarici ölkələrdən gəlmə ermənilərdən ibarət olub. Yeniobanın ətrafında qədim qəbiristanlıqlar var idi. O zaman ermənilər özləri söyləyirdi ki, bunlar türk məzarıstanıdır.

Bu kənddə cəmi 2-3 azərbaycanlı ailə yaşayırdı. Onlardan biri də Niftalı kişinin külfəti idi. İşin ən ağırından yapışan, ömrünü çobanlığa bağlayan Niftalı Niftəliyev əslən Dərələyəzdən idi. Atası, əmiləri 1937-ci ilin repressiya qurbanı olmuşdur. Sadəlövh gəncə elə gəlmişdi ki, ölkənin o başından bu başına üz tutanda qəzadan, bəladan sovuşmaq asan olar. O zaman repressiya qurbanlarının ailəsi təzyiqlərə, məşəqqətlərə məruz qalırdı. Mütləq bu əzablardan qurtulmağın yolunu qaçmaqda görən gənc ömrünü, gününü dağda keçirər, qoyun-quzu otarardı. Niftalı kişinin çox yanıqlı, məlahətli səsi var idi. Hərdən əlini qulağının dibinə qoyaraq ürəkdən "Segah" deməyi olardı. Bəzən də o qədər ürəkdən oxuyardı ki, gözünün qarşısında canlanan mənzərələr qəlbini riqqətə gətirər, hönkür-hönkür ağlayar, - Allah sovet hökumətinə lənət eləsin - deyərdi. Həyat yoldaşı Fatma xanım da quruluşun ağır zərbələrinə tuş gəlmiş çox cəfakeş qadındır. Lap körpə ikən valideynlərini itirib. Atası Məşədi Cəbrayılı







Zəngəzurda tanımayan yox idi. Laçın bölgəsində yaşamış bu el ağsaqqalı məşhur ruhani idi. Qarabağda, Zəngəzurda qoçaqlıq və mərdlikdə ad çıxaran Soltan bəyin ən yaxın dostlarından olan Məşədi Cəbrayılı 1932-ci ildə "siyasi dustaq" kimi gedər-gəlməzə göndəriblər. Bundan sonra isə ev-eşiyini talan edərək yaxın qohumlarını, övladlarını sərgərdan salıblar. Taleyin bu müdhiş zərbələrindən minbir əzaba düçar olmuş iki gənc bir-birinə sığınaraq sanki yeni təhlükələrdən qaçıb gizlənmişdilər. Onlara elə gəlirdi ki, ermənilərin içində yaşamaqla həyatın bu qansız üzünə tərs sillə vurmaq olar. İki qızı erkən ailə qurduğundan oxumadı. Yeganə oğul övladı Allahverdi və sonbeşik Nazilə təhsil aldılar. Allahverdi Niftəliyev həm orta, həm də ali məktəbi erməni dilində bitirdi. Yadımdadır, biz Vağədi kənd orta məktəbində oxuyarkən hay düşdü ki, bəs erməni şöbəsində iki azərbaycanlı gənc oxuyur. Bizə çox qəribə gəldi. Qaçaraq həmin sinfin qarşısına getdik. Allahverdi və Köçəri adlanan bu gənclər bütün məktəblilərdən fərqli olaraq, çox səliqəli geyinmişdilər. Xüsusilə də Allahverdi Niftəliyev orta məktəbdə hamıdan yaxşı oxuyur, dərslərindən "beş" alırdı.

Düşmənlərin iç üzünə onun qədər bələd olan yoxdur. Gəncliyində itlə dostluq etməsinə baxmayaraq, heç vaxt sərvaxtlığını itirməyib,



ağacı əlində möhkəm saxlayıb. Buna səbəb birinci növbədə atasının öyüdü, anasının söylədikləri, bəlkə də ən çox babalarının başına gələn faciələr olsa da, tarixə dərindən bələdliyi, hadisələrə dürüst mövqe göstərə bilməsi onun hər zaman köməyinə gəlirdi. Təbii ki, Ermənistanda çalışan gənc kadr hər addımbaşı müxtəlif təzyiqlərlə üzləşirdi. Hiss etdi ki, o, uzun müddət ermənilərin içində yaşaya bilməz. Günlərin birində Bakıya gəldi. Məlumdur ki, sovet dövründə paytaxtda qeydiyyata düşmək, işə düzəlmək çox çətin idi. Dünya yaxşı adamlardan xali deyildi. Cahangir İl-

dırımzadə bu açıqfikirli, demokratik ruhlu, geniş dünyagörüşlü, dərin məlumatlı, vətənpərvər gənci dinləyib söhbət etdikdən sonra onu tərəddüdsüz rəhbəri olduğu mühüm dövlət idarəsinə - Qlavlitə (Mətbuatda dövlət sirlərini mühafizə edən Baş idarə) işə götürdü.

Yayda həmişə doğma kəndə dönən Allahverdi mütləq kitabxanaya gedər, yenicə çapdan çıxmış kitablarla maraqlanardı. Bu hadisə də yadımdadır ki, 1985-1986-cı illərdə Ermənistanda buraxılmış anti-Azərbaycan ruhlu kitabların (erməni dilində) icmalını çıxardaraq Bakıda Mərkəzi Komitəyə təqdim etdi. "Ermənistanda Azərbaycanın əleyhinə dəhşətli təbliğat gedir, xoşagəlməz hadisələr törənə bilər" xəbərdarlığını etdi. Amma o vaxt bu ziyalının harayını eşidən olmadı. Bir də onda ayıldılar ki, Zori Balayanın "Ocaq" kitabı Moskvada rus dilində nəşr edilərək yayılıb. Halbuki bu hadisədən bir il öncə həmin bədnam kitab erməni dilində nəşr olunmuşdu və bu barədə də Allahverdi Niftəliev öz rəyini yazıb Azərbaycan hökumətinə təqdim etmişdi. Təəssüf ki, onun vətəndaşlıq mövqeyinə dürüst münasibət göstərən olmadı. Əksinə, kinayə ilə qarşıladılar: " Ermənilər nə karədir ki, bizimkilərə gözün üstə qaşın var söyləsin". Amma namərd qonşular söylədilər də, hələ üstəlik bizi doğma ocağımızdan vəhşicəsinə qovdular da. Əgər bu faciələrin baş verməsində əsl günahkar ermənidirsə, müəyyən mənada bizim də səhvlərimizin, laqeydliyimizin olmasını etiraf etməliyik. Düşmən əhatəsində əliyalın yaşayan, ov silahı belə olmayan, arxasız, köməksiz, insanlar silahlı quldurların hücumu qarşısında nə edə bilərdi? Biz bu suala daha cavab axtarmırıq. Bu sualı doğuranların haqqın divanına çəkilməsini istəyirik.



Allahverdi Niftəliyev həmişə vətəndaşlıq mövqeyi ilə yaşayıb, işləyib, ciyərparaları olan iki oğlunu - Elnur və Bəhruzu da bu ovqatla böyüdüb. Amma hərdən fikirləşirsən ki, mədhiyyəçilər Vətən, millət dərdinə biganələr, öz mənafeyi naminə hər şeyi ayaq altına salanlar üçün həyat olduqca rahat və hamardır. Görünür, bu da taleyin yazısıdır ki, ürəyində Vətən eşqi çiçək açanlar həmişə çətin yaşamalı, çarpışmalı, mübarizə aparmalıdırlar. Çünki onların saf əməlləri, təmiz diləkləri ulu Yaradanın özünə bəllidir.





# MƏRDLƏR YURDU – ÇOMƏRDLİ



***Gecə-gündüz könlüm sənə sarıdı,***
***Yurdu olmaz bör-böcəklər yarıdı.***
***Gorən bizə böylə kimlər qarğıdı***
***Həsrətimə sığal çəkən köz Vətən.***

# GÖZƏLLİKLƏR MƏSKƏNİ - COMƏRDLİ KƏNDİ

Rayon mərkəzindən 15 km aralıda - Salvartı dağının ətəyində yerləşən Comərdli Qarakilsənin azərbaycanlılar yaşadığı gözəl dağ kəndlərindən biridir. Yerli tələffüzdə "Comartlı" adlanan kənd tarixi mənbələrdə də "Comartlu" kimi göstərilmişdir. Bu kəndin yerli əhalisi mənşəcə qədim türk tayfası Kəngərlilərə məxsus ailələrin məskunlaşması hesabına yaranmışdır. Burada yaşayan insanların əsas məşğuliyyəti taxılçılıq, tərəvəzçilik, heyvandarlıq və s. idi. Bir neçə dəfə erməni daşnakları tərəfindən tar-mar edilmiş Comərdli sovet hakimiyyəti illərində müəyyən yüksəlişə nail olmuşdur. Kənddə orta məktəb, kitabxana, tibb məntəqəsi mövcud idi. Statistik məlumata görə, əgər 1918-ci ildə Comərdlidə 110 ailə yaşayırdısa, 1988-ci ildə bu rəqəm 40-a enmişdi. Rayonun başqa kəndləri kimi, Comərdlinin də əhalisi elə həmin ilin payızında öz doğma ocaqlarından qovulmuşdu. Kəndin adı onun binəsini hörmüş, əsasını qoymuş Comərd kişinin ismi ilə bağlıdır. Bu kənd çox da qədim olmadığından onun yaranma tarixini yerli əhalinin hamısı əzbər bilir. Yaşlı adamlar isə daha ətraflı məlumatlar verirlər. Xüsusilə də Şahgəldi Zəngəzurlunun qələmə aldığı xatirələrdə (əlyazmalarda) kəndin keçmişindən ətraflı söz açılır. Məlum olur ki, Şuşa qalasında Comərd və Alagöz Məmməd adlı iki qardaş yaşayırmış. Onların gözəl bir bacıları da varmış. Oğulların babası öz övladlarını hərbçi görmək istəyib. Xüsusilə də Qarabağ xanı ilə dostluq əlaqələri, yaxınlıqları var imiş. Bir gün İbrahim xan qardaşlara əmr edib ki, bacıları Növrəstə xanımı onun hərəmxanasına göndərsinlər. Xanın bu hərəkəti sərkərdə qardaşların heysiyyatına bərk toxunur. Amma onu da bilirlər ki, inadkarlıqla heç nəyə nail ola bilməyəcəklər. Xan zorla da olsa bacılarını öz kənizlərinin içinə mütləq qatacaq. Buna görə də Comərdlə Alagöz Məmməd qaçmaqdan başqa yol görmürlər. Qardaşlar bacılarının və öz mehtərlərini də götürüb Zəngəzur qəzasına qaçıblar. Bir müddət Qarakilsənin Uz kəndində yaşayıblar. Sonra Naxçıvanda məskunlaşmış bir qohumlarının yanına üz tutublar, Hüseynqulu xandan sığınacaq istəyiblər. Təəssüf ki, Naxçıvan xanı onların sözünü yerə salır. Bacıları Növrəstəni Naxçıvanda qohumlarının yanında qoyaraq





bir müddət Culfada, Əlincə qalasında qalan qardaşlar yenidən Qarakilsəyə qayıdırlar və Salvartı dağının ətəklərində böyük qardaşın adı ilə qurulan Comərdli kəndinin binəsini qoyublar. Bu kəndin çox qeyri-adi coğrafi mövqeyi var. Bir tərəfi böyk dərin dərədir, qarşı hissəsində düzənlik uzanıb gedir, arxa tərəfi isə hündür dağdır ki, oradan atılan güllələr belə kəndə çatmazdı. Görünür, qardaşlar o vaxtın silah imkanlarını nəzərə alaraq bu gözəl guşəni özlərinə məskən ediblər. Beləliklə, 1805-1900-cü ilə qədər kənd evbəev artıb, qonşu kəndlərlə, xüsusilə də Urudla qohumluq əlaqəsi, gediş-gəliş yaranıb.



Şahgəldi kişi danışır ki, Comərdin nəvəsi Əlimərdanın hərbə çox həvəsi olduğundan babası Məmmədbağır onu Türküstana göndərib. Əlimərdan orada zabitlik məktəbini qurtarıb. Bu, 1911-1912-ci illərə təsadüf edir. Kəndə qayıdan Əlimərdan kişi dünyada baş verən müharibələrdən və qonşulardan gözünün su içmədiyini söyləyib. Camaatı başına yığaraq məsləhət görür ki, gəlin üç qala tikək, kəndi üç tərəfdən qorusun. Lakin söz birliyi yaranmadığından kənddə yalnız Əlimərdan uşaqları qala tikirlər ki, o da erməni-müsəlman davasında kənd camaatının çox köməyinə çatıb. Akademik Həsən

Əliyev deyirdi ki, əgər o qala olmasaydı, kənddən bir nəfər də salamat çıxa bilməzdi. Əlimərdan təkcə qala tikməmişdi, həm də 6 ədəd üçatılan Osmanlı tüfəngi almışdı. Cavanlara güllə atmaq öyrətmişdi. Andronikin ordusu Zəngəzuru qan çanağına çevirəndə yüz nəfərlik bir birləşməni Comərdli kəndinin üstünə göndərmişdi. Onlar kəndə heç nədən ehtiyat etmədən hücuma keçdilər. Ağıllarına belə gətirmədilər ki, 5-6 cavan bu qəddarların cavabını verəcək. Kəndin hazırlığı nəticəsində daşnaklar itki verərək geri çəkiliblər. Ermənilərin yeni qüvvə ilə kəndə hücum edəcəyindən ehtiyat edən ağsaqqallar qərara alıblar ki, qadın və uşaqlar kənddən çıxarılsın. Comərdli qaçqınları Naxçıvan ilə Zəngəzur arasındakı Gəvik dağının səmtində cəmləşiblər. Lakin Andronikin silahlı dəstəsi onları burada haqlayaraq görünməmiş faciələr törədiblər. İnsanlar vəhşiliklə qətlə yetirilib. Təsadüfən kolluqda, qamışlıqda gizlənənlər salamat qalıb. Qamışlıqda gizlənənlərdən biri də Həsən və Hüseyn Əliyevlərin anası - Əlirza kişinin həyat yoldaşı Narıngül xanım olub. Körpə balası qucağında gizlənən qadın uşağın səsi çıxmasın deyə onu sinəsinə möhkəm sıxıb. Atışma kəsiləndən sonra uşağı sinəsindən ayıranda görüb ki, fidanı keçinib. Əlirza qucağıboş qadını görəndə Narıngül xanım hüznlü bir bayatı çəkib:

Dəvələr qatar gedər,
Bir-birinə çatar gedər.
O hansı anadır qəsdən
Balasın atar gedər.

Uzun illər yas mərasimlərində Narıngül xanımı bu bayatısı ilə yad edərdilər. Əlirza oğlanları Həsən, Hüseyn və həyat yoldaşı Narıngüllə bir qədər Ərəfsənin yaxınlığında olan kahada yaşayıblar, sonra Noraşen kəndinə köçüblər. O vaxt Comərdli kəndindən didərgin düşən qaçqınların bir hissəsi Ərəfsədə, Zeynəddində, Yarımcada, Tumbulda, Təzəkənddə məskunlaşmışdılar.

1919-1920-ci illərin qışını Noraşendə qalan Əlirzanın həyatında ağır itki baş verib. Didərginlik həyatına, eləcə də ciyərparasının ölümünə dözməyən Narıngül xanım vəfat edib. Həmin vaxtlar Narıngül xanımın əmisi qızı İzzət xanım da həyat yoldaşını itirmişdi. Qohumlar belə məsləhət görüblər ki, ömrün dolaylarında qanadsız





qalan hər iki gənc baş-başa verib üç uşağı: Həsəni, Hüseyni və Surəni (İzzət xanımın Əbülfəzdən olan qızı) atalı-analı böyütsünlər. Əlirza kişi ailəsini başına yığıb şəhərə - Naxçıvana üz tutdu, ev kirayələyib dəmir yolunda işə düzəldi. 1921-1922-ci illərdə Comərdlidən didərgin düşmüş insanlar yenidən doğma ocaqlarına qayıtmağa başladılar. Əlirza kişinin əmisi oğlu Teymur onun yanına gedib məsləhət görür ki, öz kəndlərinə qayıtsınlar. Əlirza kişi xeyli fikirləşdikdən sonra belə deyib: "Vətən məni də səsləyir. İçimdə narahatçılıq var. Babalarımız Comərdlə Alagöz Məmmədin yaratdıqları o kənd bizim əsl vətənimizdir. Amma, ay əmoğlu, Həsənlə Hüseyni məktəbə qoymuşam, yaxşı da oxuyurlar. Uşaqları



necə dərsdən ayırım? Biz burada qalası olduq. Amma yəqin ki, uşaqlar böyüyəndə mütləq Comərdliyə gedərlər. Ata-baba yurdunu unutmazlar". Sonralar Əlirza kişinin yeni övladları dünyaya gəldi: Heydər, Aqil, Cəlal, Şəfiqə və Rəfiqə Naxçıvanda anadan oldular. Şahgəldi kişi danışır ki, onlar həmişə yay tətillərində kəndə gələr, öz doğmaları ilə görüşərdilər, qoca nənələri urudlu qızı olduğuna görə ora da çox gedərdilər. 1937-ci ildə ermənilərin fitvası ilə

Comərdli kəndinin say-seçmə oğulları repressiya qurbanı oldular. 1941-ci ildə başlanan Böyük Vətən müharibəsində Qərbi Azərbaycanın bütün bölgələrində olduğu kimi, Qarakilsənin say-seçmə oğulları bu davada fədakarlıq göstərdilər. Comərdli kəndindən Böyük Vətən müharibəsinə 32 gənc yola düşmüşdü. Onlardan 16-sı geri qayıtmadı. 1948-ci ildə Ermənistanda azərbaycanlılra qarşı növbəti qara tufan başladı. Vedi, Bazarkeçər, Zəngibasar, Dərələyəz mahallarında yaşayan soydaşlarımızı qəfildən Azərbaycanın ilan mələyən düzlərinə köçürdülər. Özü də bu əməliyyat ilin ən qəribə fəslində - yaz və yayda həyata keçirilmişdi. Daşnaklar bu köçürülmə əməliyyatını qəsdən isti havada başladılar ki, dağ şəraitində doğulub böyümüş insanlar aranın nəfəs qurudan istisinə tab gətirməsinlər. Bu, bir növ mənəvi qəsd idi. Xoşbəxtlikdən köçürülmə əməliyyatı Sisian rayonuna gəlib çatmadı, hansı səbəbdənsə dayandırıldı.

1988-ci ildə isə Comərdli kəndi ermənilər tərəfindən işğal edildi. O zaman kənddə 200-ə yaxın adam yaşayırdı. Alınan məlumata görə, 1991-ci ildə ermənilər Comərdlinin adını dəyişdirib Tanahad qoyublar. Azərbaycanın müxtəlif şəhər və rayonlarında məskunlaşmış comərdlilər Qarabağ torpağı uğrunda gedən döyüşlərdə onlarca şəhid vermişdir.

## COMƏRDLİ KƏNDİNİN TOPONİMLƏRİ

Sarıbulaq, Arpatəpə, Dəliçay, Sandıqdaş, Dəvəboynu, Yəhərtəpə, Güllüçəmən, Laləli, Qızlar bulağı, Qırxqız bulağı, Ağbulaq, Yastı biçənək, Yandərə, İlanlı güney, Kiçikdaş, Qızılkilsə, Quzu dərəsi, Dəpirli döş, Daştəpə, Fərzəli yatağı, Qoyundağılan, Dəhnəbazar, Arxacdaşı, Çətəndaşı, Dərvişdözməz, Öküzyatağı, Çillidərə, Kəklik bulağı, Palıdlı quzey, Sallıq dərəsi, Qoşundağılan, Əhməd yoxuşu, Səlim gədiyi...

Bu toponimlərin hamısı təmiz türk dilindədir.





## KƏNDİN ZİYALILARI

1. **Həsən Əliyev - akalemik**
2. **Hüseyn Əliyev rəssam**
3. **Fərzalı Ağamalıyev - biologiya elmləri dokoru, professor**
4. **Çərkəz Ağamalıyev - fizika-riyaziyyat elmləri namizədi**
5. **Məhərrəm Ağamalıyev - texnika elmləri doktoru**
6. **Mədət Hidayətoğlu - fizika-riyaziyyat elmləri namizədi**
7. **İsgəndər Baxşəliyev - tibb elmləri namizədi**
8. **Əli Mehdiyev - riyaziyyat elmləri namizədi**

Hazırda dövlət strukturlarında, özəl şirkətlərdə, müxtəlif idarəetmə orqanlarında, xarici ölkələrdə onlarca comərdlili çalışmaqdadır. Bir fakt da qəribədir ki, 1918-ci ildə ermənilərin əlindən baş götürüb qaçan kənd camaatı Kəlbəcər rayonunun axar-baxarlı yerində bu kəndin adını daşıyan bir oba yaratmışdılar. 1993-cü ildə Kəlbəcər işğal edilləndə həmin kənd də dağıdıldı.

## II DÜNYA MÜHARİBƏSİNDƏN QAYITMAYAN COMƏRDLİLƏR

1. **Bayram Əbdüləzimov**
2. **Əsəd Əhmədov**
3. **Fərman Rüstəmov**
4. **Məhəmməd İsmayılov**
5. **Nəsrəddin İsmayılov**
6. **İmamverdi İsmayılov**
7. **Hüseyn Təhməzov**
8. **Məşi Heydərov**
9. **Baba Həşimov**
10. **Məhəmməd Həşimov**
11. **Hidayət Baxşəliyev**
12. **Umud Əkbərov**
13. **Nemət İbrahimov**
14. **Seyfəddin İsmayılov**
15. **Məhəmməd İsmayılov**
16. **Hüseyn Baxşəliyev**

# MƏŞİ ELYAZOV



1923- cü ildə Sisian rayonunun Comərdli kəndində anadan olub. Kəndin canlı tarixidir. Sinəsində doğma el-oba ilə bağlı minbir xatirə yatır. Həyatın hər cür əzab-əziyyətini görmüş Məşi kişi Qarakilsənin sayılıb- seçilən şəxsiyyətlərindən biri olub. Böyük Vətən müharibəsi iştirakçısıdır. Ukraynadan başlamış Rumıniya, Macarıstan, Fransa və İtaliya ərazilərində müharibə dəhşətləri ilə üz-üzə gəlmiş, dəfələrlə yaralanmış, I qrup əlildir. O, hələ kənddə yaşayarkən həmişə gəncləri başına yığıb müharibə xatirələrini danışar, partizanlara qoşulub faşistlərə qarşı necə vuruşduğundan söhbət açardı. O da yadımızdadır ki, akademik Həsən Əliyev rayona gələndə ilk görüşdüyü və qonağı oduğu ailə məhz Məşigil olardı. Həsən müəllimin Məşiyə xüsusi ehtiramı var idi. Təbiətən millətə, soykökə bağlı olan Həsən Əliyev Məşi kişinin xətrini ona görə çox istəyirdi ki, o, bu ağsaqqalın varlığında doğma kəndin tarixini oxuyurdu. Həqiqətən də, yaşının ağsaqal çağında Məşi Elyazov Zəngəzurla bağlı tarixi faktları, məlumatları, ən incə detalı belə yadından çıxarmayıb. 7 övlad atası olan Məşi Elyazov hazırda Bakıda yaşayır. Qızı Əfruz xanım danışır ki, atamın ən böyük arzusu Comərdliyə qayıtmqdır. Bu xoş gün doğulacaq, ya yox, bilmirəm, duyduğum odur ki, bu cür qənimət insanlarla tez-tez görüşmək, onların söhbətlərini dinləmək, Vətənin ən adi daşı, cığırı, izi haqqında məlumat toplamaq gərəkdir.





# NUR BAHARLI HƏSƏN ƏMİ

Son dərəcə zəngin və mənalı bir ömür yaşayan Həsən Əliyev alimliyindən, sənətindən, vəzifəsindən öncə əsl insan, hamıya nəsib olmayan böyük ürək sahibi idi. Mənim həyatımda, taleyimdə bu müqəddəs insanın elə rolu olub ki, hər an onu hörmətlə xatırlayır, ruhu qarşısında ehtiramla baş əyirəm. Hətta indinin özündə müşkülə tuş gələndə, düz yolumu əyriliklər kəsəndə yenə onu arzulayıram. Yeri yaman görünür Həsən müəllimin. Başdan ayağa xeyirxahlıq, mərdlik, kişilik nümunəsi idi.

Onun barəsində qələmə aldığım xatirələr bəlkə başqasına adi görünər. Amma bu adiliklərin içindən böyük bir insanın - Həsən Əliyevin nəcib əməlləri, nurlu sifəti boylanır. Onun adı ilə bağlı hər kiçik söhbət, əhvalat, xatirə bu gün Həsən Əliyevi sevənlər üçün bir təsəllidir.

Dövlət universitetimizin jurnalistika fakültəsini bitirdikdən sonra təyinat aldığım redaksiyada məni dərhal işə götürmədilər. Pullu məzunlardan kimsə fərasətli çıxmışdı. İşsiz-gücsüz şəhər yerində yaşamağın çətinliyi məni çox sıxdı. Günlərin birində yaxın qohumumuzun məsləhətilə Həsən Əliyevin yanına getdim. O vaxt mənə demişdilər ki, «Kommunist» (indiki «Xalq qəzeti») qəzetində boş yer var, amma gərək yuxardan kimsə tapşıra. Həsən müəllim mənə diqqətlə qulaq asdı, qəzetlərdə dərc edilmiş yazılarıma baxdı. Xeyli söhbət etdik. Nədənsə yaman kövrəlmişdi. Elə yanımdaca həmin qəzetin redaktoruna zəng etdi. Təəssüf ki, söhbətləri alınmadı. Həsən müəllimin mülayim səsinə bir əsəbilik qatıldı:

- Mən bilirdim ki, sən uzaq dağ kəndindən gəlmiş, öz ağlı, savadı ilə oxumuş azərbaycanlı qızını işə götürməzsən. Sənə Tanya, Mariya, Varya lazımdır.

Doğrusu, çox pərt oldum. Dağ boyda kişini işə saldığıma peşiman idim. Üzrxahlıq etmək məqsədilə dilləndim:

- Həsən müəllim...

- Qızım, mənə «müəllim-filan» yox, sadəcə «əmi» de. Bilirsən nə var, gəl səni öz jurnalımıza- «Azərbaycan təbiəti»nə işə götürək. Sonrasına baxarıq.

Beləliklə, «Azərbaycan təbiəti»ndə foto müxbir vəzifəsində çalışdım. Yazı-pozumu bəyənirdi. Qəribə xasiyyəti var idi. Yazılarına,

çəkdiyi şəkillərə görə müəlliflik haqqını - qonorarı almazdı. Rayondan ona göndərilən mer-meyvəni də redaksiyamıza yollayardı. Qeyri-adi insan idi. Hər dəfə məni görəndə kövrələrdi, uşaqlıq illərindən söz salardı. Sonralar rəssam qardaşı Hüseyn Əliyev söylədi ki, bəs sən bizim anamıza çox bənzəyirsən. Dərhal anladım ki, niyə Həsən müəllim mənimlə elə yuxa ürəklə söhbət edirmiş.

Günlərin birində məni Təbiəti Mühafizə Cəmiyyətinin nəzdindəki Elmi-kütləvi lektoriyaya müdir təyin etdilər. İşim də elə çətin deyildi. Təbiət sərvətlərinin mühafizəsinə dair sifariş verirdik. Sonra onları təbiəti sevənlər arasında yayırdıq.

Bir dəfə iş elə gətirdi ki, sifariş edilən materialın dalınca özüm akademiyanın institutlarından birinə getdim. Yazını götürüb çıxanda məşhur bir alim (rəhmətə gedib) belə dedi:

- Flora xanıma salam deyərsiniz.
- Flora... elə mən özüməm.
- Sən?! Uşaqsan ki?!

Bu sözlərdən özümə gələ bilmədim. Fikirləşdim ki, yox bıra mənim yerim deyil. Mətbuat bir maqnit kimi məni özünə çəkirdi. Yenə də Həsən müəllimin yanına getdim.

- Əmi, bağışla məni, lektoriyada işləyə bilmirəm. Balıq susuz yaşaya bilmədiyi kimi, mənə də mətbuatsız çox çətindi. Kəndimizə getmək üçün ərizəmi yazaraq öz hesabıma məzuniyyətə çıxdım. Uç gün idi ki, rayonda dincəlirdim. Teleqram aldım: «Təcili Bakıya qayıt! Səni «Azərbaycan müəllimi» qəzetində gözləyirlər». Vaxtı ilə təyinatla işə düzələ bilmədiyim qəzetdən məni axtarırdılar, qayıtdım. Məlum oldu ki, məni işə götürmək istəyirlər. Sonralar bildim ki, Həsən müəllim qəzetin redaktoruna zəng edərək deyib: «Beşindən pul alanda birini də işə pulsuz götür, bəlkə Allaha xoş gedər, sənin günahlarından keçər. Ayıb deyil, təyinatla sizin redaksiyaya göndərilmiş qızı bu qədər incidirsən».

İnsanlardan mehrini, qayğısını əsirgəməyən, ürəyi ancaq və ancaq yaxşılıqla, xeyirxahlıqla dolu olan, bu nəcib niyyətli akademikimiz haqqında o illərdə «Həsən əmi» adlı bir şeir də yazmışdım.

Tale elə gətirdi ki, Həsən Əliyevdən bir neçə müsahibə aldım. Hər dəfə də onunla söhbətdən heyrətlə ayrılırdım. Bir nur çeşməsi idi. Ondan adamın varlığına bir işıq gəlirdi. İstəyirdin ki, bütün aləmə ancaq yaxşılıq edəsən, gözəl işlər haqqında düşünəsən. Hərdən





sevinirəm ki, taleyin nə xoş qismətidir ki, mən Həsən müəllimi yaxından tanımışam, onun neçə-neçə xeyirxahlığının, təmənnasız yaxşılığının şahidi olmuşam.

O günlərdən illər ötüb. Amma bir təsəllimiz var: Həsən Əliyev kimi şəxsiyyətlər heç vaxt ölmürlər. Onlar sadəcə olaraq haqqın dərgahına uzanan bir ömrün əbədi yolçularıdır. Və bu müqəddəs yolun nurundan xəyallarımıza, xatirələrimizə işıq düşür. Bu işığın içində isə Həsən Əliyevin pak və müqəddəs ruhu həmişə bizimlədir. Biz də gəldi-gedərik. Həsən Əliyev dünən də olub, bu gün də var, gələcəkdə də... Bu əbədi ömrün mübarək olsun, Həsən əmi.

## ZİRVƏLƏRƏ UCALAN ALİM

Əməkdar elm xadimi, dövlət mükafatı laureatı, akademik Həsən Əliyev ötən əsrin yetirdiyi böyük alimlərdən biri idi. Azərbaycan təbiətini, torpağını, xalqını ürəkdən sevən və bu yolda vətəndaşlıq, cəfakeş alimlik xidməti göstərən unudulmaz Həsən Əliyevin istər elmi fəaliyyəti, istərsə də örnək ola biləcək insanlığı heç vaxt unudulmayacaq. Bu gün respublikamızın elmi-tədqiqat institutlarında, ali təhsil ocaqlarında Həsən Əliyev məktəbinin yetirmələri çalışmaqdadır. O, milli elmi kadrların hazırlanmasında böyük fədakarlıq göstərmişdir. Vaxtilə "Həyəcan təbili" adlı kitabında yazırdı: "Keçmişdə özünün bir nəfər belə ixtisaslı torpaqşünas alimi olmayan respublikamızda indi iri elmi-tədqiqat institutları və yüzlərlə mütəxəssis vardır. Elmlər Akademiyasında və digər institutlarda 20 nəfər elmlər doktoru (onlardan 5 nəfəri akademik və Akademiyanın müxbir üzvüdür), 80 nəfərdən çox elmlər namizədi, 200 nəfərdən artıq kiçik elmi işçi, aspirant fəaliyyət göstərir və onlar torpaqşünaslıq sahəsində geniş tədqiqat işi aparırlar".

86 il ömür yaşamış Həsən Əliyev Azərbaycanın taleyinə yazılmış bir çox ağrıları öz şəxsi həyatında da çəkməli olmuşdur. O, elə bir zamanda dünyaya gəlmişdi ki, Zəngəzur qan içində boğulurdu. 1905-ci ildə ermənilərin törətdiyi vəhşiliklər hələ də sona yetməmişdir. Belə bir vahiməli məqamda - 1907-ci ildə Zəngəzur mahalının Comərdli kəndində Əlirza kişinin ailəsində ilk oğul övladı dünyaya göz açdı. Dinə, imana çox bağlı olan Əlirza kişi ilk övladının adını Həsən

qoymaqla sanki bu bəlalardan Tanrının köməyi ilə sıyrılmaq istəyirdi. Amma vəziyyət olduqca gərgin idi. İl ildən bəd gəlirdi. Zəngəzurda ermənilər tərəfindən törədilən vəhşiliklər səngimək bilmirdi. Onlar azərbaycanlılar yaşayan kəndləri talan edir, insanları diri-diri yandırır, evləri xaraba qoyurdular. Belə bir vaxtda çoxu ailə üzvlərini başına yığaraq Naxçıvana köçmək məcburiyyətində qalmışdı.

1905-ci ildən başlanan qara tufanın nəticəsində Andronikin qoşunları azərbaycanlılar yaşayan kəndləri bir-bir Yer üzündən silməyə



başladılar. Comərdli bu fəlakəti - 1918-ci ilin payızında ən dəhşətli məqamını yaşadı. Gecə qəflətən kəndə hücum edən daşnaklar əhaliyə divan tutdular. Birtəhər canını götürüb Naxçıvana tərəf qaçanlar bu qətldən xilas oldular.

O vaxtlar Zəngəzurdan Naxçıvana pənah gətirən insanlar çox idi. Vəziyyət çətin idi. Buna görə də ayağı yer tutan işlə məşğul idi, çünki ailəyə çörək gətirmək lazım gəlirdi. Əlirza kişinin də ailəsi böyük idi. Ona görə də 11 yaşlı Həsən işləmək məcburiyyətində qalır. Bununla





bərabər, oxumaq eşqini də başından çıxarmaq bilmirdi. Hələ beş yaşında olarkən atası onu doğma kənddə molla məktəbinə qoymuşdu. O, ilk savadını burada almışdı. Zaman ağır gəldiyindən təhsilini davam etdirməyə çox gecikmişdi. Naxçıvan şəhərindəki axşam məktəbində oxumağa başlayanda artıq onun 17 yaşı var idi.

Həsən Əliyevin həmin məktəbdə oxuduğu illərdə "Şərq qapısı" qəzetində (1925) "Bizə də teatr lazımdır", "Molla Nəsrəddin" jurnalının 16-cı sayında isə (1929) "Müəllim lazımdır" adlı məqalələri dərc edilmişdir.

Həsən Əliyev çox bacarıqlı, istedadlı, kənd təsərrüfatının bütün incəliklərini bilən mütəxəssis kimi o illərdə diqqət çəkirdi. Altı il ərzində orta təhsil, üç il ərzində ali təhsil almış Həsən Əliyevi birbaşa aspiranturaya qəbul etmişdilər. O, Azərbaycanın təbii sərvətlərinin öyrənilməsi, coğrafiyası, iqtisadi rayonlaşması üçün səmərəli elmi-tədqiqat işləri aparırdı. 1937-ci ildə Həsən Əliyev Bakıya gəlir. SSRİ EA-nın Azərbaycan filialının torpaqşünaslıq bölməsində elmi işçi, elmi katib vəzifəsində çalışır. Bu illər ərzində Həsən Əliyevin ilk monoqrafiyası işıq üzü görür. Bir neçə elmi əsərləri çap edilir. II Dünya müharibəsinin başlanması onun elmi işlərini yarımçıq saxlayıb.

O, Şimali Qafqazın faşistlərdən azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib. Şiddətli döyüşlərin birində ağır yaralanıb. Ömrü boyu müharibədən yadigar olaraq sifətində gəzdirdiyi nişanəyə işarə edən Həsən müəllim deyərdi: "Mən müharibəni hər gün görürəm".

Ağır yaralandığına görə hərbi hissədən vaxtından əvvəl tərxis olunan Həsən Əliyev əvvəlki iş yerinə qayıdaraq elmi fəaliyyətini davam etdirib. 1944-cü ildə kənd təsərrüfatı elmləri namizədi alimlik dərəcəsinə yiyələnən Həsən Əliyev 9 il sonra Azərbaycan EA-nın akademiki kimi şərəfli bir missiyanı yerinə yetirirdi.

Həsən Əliyevin bioqrafiyası olduqca zəngin hadisələrlə səciyyələnir. Uzun illər Torpaqşünaslıq İnstitutunda elmi işlər üzrə direktor müavini, Botanika İnstitutunda direktor, Azərbaycan KP MK-nın katibi vəzifəsində çalışmış Həsən Əliyev digər akademik həmkarları: M.Mirqasımov, Y.Məmmədəliyev, H.Hüseynov, M.Topçubaşov, N.Qaşqay və başqa alimlərlə birgə Azərbaycan elminin gələcək inkişafının uğurlu özülünü qoyanlardandır.

O, bir tərəfdən torpaqşünas-alim kimi tədqiqatlar apararaq ətraf

mühitin çirklənməsinə, suyun, havanın, torpağın zəhərlənməsinə, bitki və heyvanat aləminin məhvinə səbəb olan amilləri tədqiq edirdisə, digər tərəfdən də ətraf mühitin mühafizəsinə bağlı adam kimi elmi fəaliyyətinin ikinci istiqamətinin inkişafına səy göstərmiş, 1955-ci ildə təbiəti mühafizə üzrə komissiyanın sədri kimi fəaliyyətə başlamışdı. Bu sahədən onlarca məqalə yazmış, monoqrafiyaları çap edilmişdi. 1969-cu ildə direktoru olduğu Coğrafiya İnstitutunda ətraf mühitin qorunmasına aid ilk elmi-tədqiqat şöbəsinin yaradılmasına nail olmuşdu.

Həsən Əliyev təbiətlə ünsiyyətdə olmağı çox sevərdi. O, Naxçıvandan tutmuş Dəvəçiyə, Qubaya, Şamaxıya, Gəncəyə, Abşerona, Qəbələyə - hər yerə tez-tez gedərdi. Onun sorağı İlanlı dağdan, Çıraqqaladan, Təngə dərəsindən, Pirquludan, Göy Göldən... gələrdi. Həsən Əliyevin təbiətin mühafizəsində, ondan səmərəli istifadə edilməsi sahəsində apardığı tədqiqatların, gördüyü işlərin miqyası olduqca genişdir.

Bütün varlığı ilə torpağa bağlı olan Həsən Əliyev Azərbaycan təbiətinin vurğunu idi. Akademikin oğlu, memar Rasim Əliyev söyləyir: "Atam Azərbaycan meşələrinin məftunu idi. Atam deyərdi ki, ən qansız, qəddar insan təbiətə qəsd edəndi. Mən istəyirəm ki, Azərbaycanda heç bir ağacın budağı da kəsilməsin, meşələr qırılmasın, nadir sərvətlərimizin nəsli kəsilməsin. Bir ağacı ərsəyə gətirmək üçün bəzən bir insan ömrü bəs etmir. İnsanlar bilməlidir ki, selin, suyun, daşqının qarşısını kəsən, təbii fəlakətlərə sinə gərən meşələrdir. Meşələr həm də torpağın zinətidir. Bir sözlə, Azərbaycan təibəti bütün nemətləri, gözəllikləri ilə atamı özünə elə bağlamışdı ki, o, ömrünün mənasını bu zümrüd dünyanın mühafizəsində görürdü. Onun üçün heç bir fəslin fərqi, vaxt anlayışı yox idi. O, hər bir ağaca, gülə, çiçəyə, bulağa nəfəsi gedib-gələn canlı varlıq kimi baxırdı. Təbiətin qoynunda onunla yol getmək müşkül məsələ idi. Çox iti yeriyirdi. Dağlara quş kimi qalxırdı".

Meşələrimizin qorunmasında, heyvanlar aləminin mühafizəsində, çəmənliklərin nəzarətə alınmasında xidmətləri həddən artıq böyük idi. O, Azərbaycanın şoran torpaqlarında yeni meşə zolaqlarının salınmasında böyük şücaət göstərmişdir. Bütün bunlar isə Azərbaycan təbiətinin mühafizəsinə, ekoloji tarazlığına xidmət edirdi. Akademik Həsən Əliyevin böyük xidmətlərindən biri də Azərbaycanda dövlət





qoruqlarının yaranmasında, təşkilindəki əvəzsiz roludur. O yazırdı: "Qoruq sözü varsa, deməli, təbiətimiz qorunur. Qorunursa, daha da gözəlləşəcək və zənginləşəcək". Tuqay meşələrinin qorunub saxlanılması məqsədilə Qarayazı, eləcə də Bəsitçay, Türyançay, Hirkan, Qızılağac, Şirvan dövlət təbiət qoruqları Həsən Əliyevin təşəbbüsü ilə yaradılmışdı. Bu qoruqlarda Azərbaycanın nadir təbiət kompleksləri qorunub saxlanaraq gələcək nəsillərə çatdırılıb. 1961-ci ildə respublika ərazisində cəmi 100 baş ceyran qalmışdı. "Qırmızı kitab"a daxil edilmiş bu təbiət gözəlinin qorunub saxlanmasında Həsən Əliyevin xüsusi qayğısı olmuşdu. İndi bu zərif varlıqların sayı beş mini ötməkdədir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində hazırda 14-dən artıq dövlət qoruğu və 20 dövlət yaşıllığı mövcuddur. Bunların da əksəriyyəti akademik Həsən Əliyevdən nişanədir. O, milli parkların yaradılmasına da xüsusi əhəmiyyət verərdi. Dünyanın bir çox ölkələrində belə parkları görən Həsən Əliyev Azərbaycanda da milli parkların yaradılmasını arzulayırdı.

Uzun müddət Həsən Əliyevlə bir yerdə çalışmış xalq şairi Məmməd Araz akademikə həsr etdiyi xatirələrinin birində yazırdı: "Həsən Əliyev el, xalqcanlı insan idi. Odur ki, o, ümumxalq məhəbbəti qazanmışdı... Bütöv bir ömrü gənclik eşqi ilə başa vuran, gənclik ehtirası ilə yazıb-yaradan, xitabət kürsülərində cəsarətli, alovlu çıxışlar edən, təbiəti, dünyanı gəzib dolaşmaqdan həzz alan bir alimin, sənət adamının taleyinə düşən xoşbəxtlik əslində alın yazısıdır. O alın yazısı ki, Tanrı onu ən sevimli övladlarına bəxş edir. Həsən müəllim də məhz həmin xoşbəxt taleli insanlardan biri idi".

"Təbiətin mühafizəsini insanın mənafeyi tələb edir"- deyən Həsən Əliyevi dünyanın təbiətşünas alimləri çox gözəl tanıyırdılar. Çünki o, ən nüfuzlu, beynəlxalq elmi konfranslarda adi nümayəndə kimi yox, onun təşkilatçılarından biri kimi çıxış edirdi. Kanada, Yaponiya, Macarıstan, Almaniya, Fransa, Belçika, ABŞ, Vyetnam və başqa ölkələrdə keçirilən konqreslərdə maraqlı məruzələrlə çıxış etmişdi. 1960-cı ildə Beynəlxalq Torpaqşünaslıq Cəmiyyətinin üzvü seçilən Həsən Əliyev Azərbaycanda təbiəti mühafizə və ekologiya elminin banisi və əsas yaradıcısıdır.

İnsan var ki, gündəlik ruzi qayğısı ilə çalışır, həyatı ancaq kiçik sevinclərdən ibarət olur. İnsan da var ki, onun bütün fəaliyyəti, xidməti çətinliklərdən, ağrı-acılardan, uzun illərin çalışmalarından keçərək

millətin, xalqın xoş sabahına yönəlir. Həsən Əliyevə görə Azərbaycan təbiəti Azərbaycan torpağı demək idi. Bunların ünsiyyəti isə Azərbaycan xalqının varlığından xəbər verirdi. Ona görə də bütün həyatını, elmi fəaliyyətini Azərbaycan təbiətinin gələcək nəsillərə olduğu kimi çatdırılmasına yönəltmişdi. Ən böyük arzusu bu idi ki, insanlar ətraf mühitə ağıllı nəzərlə baxsınlar. O deyirdi ki, təbiətin ahəngini, səliqə-sahmanını pozmaq olmaz. Onun fikrincə, ahəng torpaqdır, sudur, havadır, yaşıllıqdır, canlı aləmdir, onlarla insanın təmasıdır. Təbiətdə hər şey vəhdətdədir. Akademik yazırdı: "...Təbii gözəlliyi görmək hər şeydən əvvəl ona qayğı göstərmək deməkdir. Əgər biz gözəlliyin qayğısına qalmırıqsa, demək, onu görmürük".

Son dərəcə zəngin və mənalı bir ömür yaşayan Həsən Əliyev alimliyindən, sənətindən, vəzifəsindən öncə əsl insan, hamıya nəsib olmayan böyük ürək sahibi idi. Neçə-neçə insanın həyatında, taleyində bu müqəddəs şəxsin elə rolu olub ki, hər an onu hörmətlə xatırlayır, ruhu qarşısında ehtiramla baş əyirlər. Xalq şairi Nəriman Həsənzadə yazır: "Həsən Əliyev kimsəsizlər kimsəsi idi". Belə şəxslərin yoxluğu onu yaxından tanıyanları məyus etsə də, müqəddəs əməlli, xeyirxah insanların ruhu həmişə başımızın üzərində olur. Həsən Əliyev təkcə vətənimizdə deyil, dünyanın hər yerində təbiətin təəssübkeşi kimi çıxış edirdi. Ona görə də bu təbiət aşiqinin adı şair demişkən:

Ana təbiətin ürəyindədi,
Əsən küləyində, axan suyunda,
Sabaha açılan səhərindədi.

**2006**





# RƏNGLƏRİN MUSİQİSİNİ TABLOLARA KÖÇÜRƏN RƏSSAM



Mən onu ilk dəfə uşaq vaxtı doğma kəndimizdə - indi yağılar tapdağı altında qalan Urudda görmüşdüm. Ortaboylu, ağsaçlı, eynəkli Hüseyn Əliyevin doğma el-oba ilə hər görüşü əsl toy-bayrama çevrilərdi. Həmişə də jurnalist Xudu İsgəndərovla qoşa gələrdi. Bazarçayın sahilində əyləşib suların minbir rəngini, təbiətin gül-çiçəyini, əzəmətli qalanın vüqarını kətana köçürərdi. Onu bütün günü dağda, dərədə, meşədə görmək olardı.

Hüseyn Əliyev Zəngəzur mahalındakı Qarakilsə bölgəsinin Comərdlı kəndində anadan olmuşdu. Dünyaya gəlişi aprel ayına təsadf etmişdi. Gözünü açandan gördüyü təbiət, dağ, şəlalə - bir sözlə, minbir gözəllik kiçik yaşlarından qəlbinə hakim kəsilmişdi.



Təsadüfi deyildir ki, ilk təbiət mənzərəsini çəkəndə onun 12 yaşı var idi. Bu ilk cığır sənət həvəsli gənci öz arzularına qovuşdurdu Bakıda Rəssamlıq Texnikumunda oxuduğu illərdə (1927-1932) "Molla Nəsrəddin" jurnalında müxtəlif eybəcərlikləri qamçılayan karikaturaları, rəsm əsərləri çap edilərdi. Azərbaycan mətbuatının inkişafında çox möhtəşəm mərhələ olan, işıqlandırdığı mövzuları bu gün də aktual səslənən "Mola Nəsrəddin"in Hüseyn Əliyevin rəssam kimi formalaşmasında böyük rolu vardı. Xalq rəssamı Tahir Salahov öz xatirələrində yazır: " Qəlbimdə xalq rəssamı Hüseyn Əliyevin işıqlı, cazibəli xatirəsi yaşayır. O, Azərbaycan rəssamlıq ənənəsini Bəhruz Kəngərli və Əzim Əzimzadədən alıb davam etdirmişdir. Biz nəsil rəssamlar incəsənətə xeyli sonralar gəlmişdik. Həmişə bu qocaman ağsaqalımıza minnətdarlqla yanaşır, onun yaradıcılığını və mədəniyyətə gətirdiyi yeni nəfəsi yüksək qiymətləndiririk. O,





rənglərlə işləməyin ustası idi. Xüsusilə də, məzmunun mənasını açmağa kömək edən atribut və rəmzləri öz əsərlərində məharətlə tətbiq edirdi. Onun rənglərində musiqinin ritmi və ahəngi duyulurdu. Bu canlılıq hər rəssama xas olmur".



Hüseyn Əliyev Leninqrad Rəngsazıq, Heykəltaraşlıq və Memarlıq İnstitutunun bitirdiyi ildən (1935) təqaüdə çıxanədək "Kommunist" qəzetində rəssam işləyib. Qəzetçiliyin gündəlik qayğıları, operativlik bir rəssam kimi vaxtını çox alsa da, o, öz istedadı və zəhməti sayəsində sənət imtahanından həmişə şərəflə çıxmışdır. 1939-cu ildə M. F. Axundovun portretini yaratmaq üçün elan edilmiş respublika müsabiqəsinə Hüseyn Əliyevin təqdim olunan əsəri mükafata layiq görülmüşdür. Dövrün, zamanın tələbləri ilə bağlı çəkdiyi onlarca plakatı ictimayi-siyasi məzmununa, sadəliyinə və eyni zamanda orijinal həllinə görə fərqlənmişdi. Hələ o illərdə azərbaycanlı rəssamın yaradıcı əməyi "Xalqlar dostluğu" ordeni ilə təltif olunmuşdur.

Əsasən qrafika ilə məşğul olmuş Hüseyn Əliyev həm də mənzərə ustası kimi məşhur idi. O, doğma vətənin füsunkar təbiətini seyr etməkdən xüsusi zövq alardı. Rəssamın duyğuları isə rənglərdən ibarət nəhəng bir çələngə çevrilərdi. 1960-1970-ci illərdə yaratdığı peyzajlar sənətin məhz bu janrına yeni nəfəs və ruh gətirmişdi. Doğma yerlərin bənzərsiz təbiəti Hüseyn Əliyevin fırçası ilə kətan üzərində canlandıqca sanki yeni bir möcüzə ilə qarşılaşırsan. Yoluna,

izinə, dağına, dərəsinə bələd olduğumuz yurd yerlərinin əzəməti, gözəlliyi önündə bir daha valeh olursan. Rəssamın Göygölün təsvirinə həsr edilmiş silsilə əsərləri xüsusi diqqət cəlb edir. Xalq rəssamı Azərbaycan təbiətinin incilərindən sayılan bu mavi gözlü gözəlin müxtəlif variantlarda təsvirini yaratamışdı. Gah dağların qoynunda məskən salmış Göygölün mavi sularını kətanda əks etdirir, gah da hər hansı təkrarolunmaz gözəlliyindən mövzu tapırdı. Onun qurduğu kompozisiyalar , rəng ötürmələri, kaloritlik öz bənzərsizliyi ilə seçilirdi. İki il ərzində Kəpəz dağının 25-dən artıq akvarel görüntüsünü kətana naxışlayan Hüseyn Əliyev həqiqətən möcüzə yaratmışdı. Xalq rəssamı Mikayıl Abdullayev sənət dostunun bu uğurundan vəcdə gələrək yazırdı: " Dünya təcrübəsində yalnız italyan rəssamının bir dağın on görüntüsündən başqa heç kim bir obyektin 25 görüntüsünü kətan üzərində əks etdirməyib". Təəssüf ki, bu əsərlərin ylnız 13-ü bu günə çatmışdır, üç əsərin isə slaydı da, bir əsəri isə fotoşəkil formasında qorunub saxlanılmışdır. Ötən il Hüseyn Əliyevin "Göygöl mənzərələri" adlı dəsti çapdan çıxmışdır. Rəssamın 17 mənzərəsi həmin topluda verilmişdir.

Hüseyn Əliyevin böyük məharətlə yaratdığı " İlanlı dağ" tablosu son dərəcə orijinal və qeyri-adi gözəlliyə malik əsər kimi bütün sənətsevərlərin diqqətini çəkir. "Urud qalası" peyzajı rəssamın yaradıcılığında ən yaxşı və şah əsərlərdən biridir. Bu sənət nümunəsi təkcə orijinal kompozisiyası, quruluşu, obrazlı həllin gözəlliyi ilə deyil, həm də dağ qalasının özünəməxsusluğunu təbii boyalarla verilməsi ilə fərqlənirdi. Hüseyn Əliyevin Zəngəzur mövzusuna həsr etdiyi akvarel seriyaları da maraqlıdır. Doğma yurdun hər qarışını böyük məhəbbətlə öz duyğularından, təxəyyülündən yaradıcılıqla keçirən görkəmli rəssamın "Zəngəzur mənzərəsi", " Zəngəzur dağları", "Şəki şəlaləsi", "Comardlı mənzərəsi", "Meşədə qış", "Payız", "Qürub çağı" kimi əsərləri incə müşahidə qabiliyətinin məhsulu idi.

Hüseyn Əliyev portret çəkən rəssam kimi də çox böyük uğur və şöhrət qazanmışdır. Onun çəkdiyi portretin hər biri öz sahibinin daxili dünyasını, sənətini əks etdirmək baxımından maraq doğurur. Məsələn, əlləri qoynunda dayanmış Hüseyn Cavidin portreti çox canlı və mənalıdır. Böyük şairin duruşu, baxışı, uzaqdan görünən Araz çayı, İlanlı dağ tamaşaçıya nələr söyləmir?! Eləcə də Nizami





Gəncəvinin portreti də düşündürücü təsir bağışlayır. Bütün bunlar bir daha təsdiqləyir ki, xalq rəssamı Hüseyn Əliyev portret yaradıcılığında da özünün bilik və qabiliyyətini əks etdirməyə çalışırmış. Ondan bizə ərmağan qalan bir sıra portretlər də var ki, tarixilik baxımından böyük əhəmiyyət daşıyır. Hüseyn Əliyevin portretləri öyrənmək, məlumatlanmaq baxımından dəyərlidir.

Hüseyn Əliyevin Azərbaycan təsviri sənətində xidmətlərindən çox danışmaq olar. Onun yaradıcılıq sahəsi olduqca genişdir. İstifadə etdiyi rənglərin çalarları al-əlvandır. 2004-cü ildə bir fərəhləndirici hadisə həm Hüseyn müəllimin pərəstişkarlarını, həm də, ümumiyyətlə, Azərbaycan mədəniyətinin vurğunu olan insanları ürəkdən sevindirdi. Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dəbi şəhərində görkəmli rəssamın əsərlərindən ibarət sərgi təşkil edilmişdi. Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə həyata keçirilən bu beynəlxalq tədbir çox yüksək dəyərləndirildi. Xarici ölkə vətəndaşları azərbaycanlı rəssamın rənglərin musiqisini təbiətin rəngində tablolara əks etdirmək məharəti qarşısında məmnun qalmışdılar. Bu xoş münasibət hər kəsdə böyük qürur doğururdu ki, Azərbaycan adlı bir məmləkətin övladı vurğunu olduğu və qarış-qarış gəzdiyi doğma torpağı kətanlara köçürərək bir-birindən gözəl, nəfis, orijinal əsərlər yaradıb. Bu əsərlər isə onu seyr edənləri daim heyrətə gətirməkdədir.

Hüseyn Əliyevin yaradıcılığında mənzərələr, tablolar, portretlər və natirmotlarla bərabər, başqa janrlarda işlədiyi, əsərlər də çoxdur. O, uzun müddət "Kommunist" qəzetində işlədiyi illərdə nəqaşlıqla, su boyaları ilə də məşğul olmuşdur. Alleqorik əsərlərə müxtəlif məzmunlu karikaturalar, təsvirlər çəkmişdir. Bütövlükdə, Hüseyn Əliyev yaradıcılığının ətraflı öyrənilməsi, onun təsviri sənətimizdəki yeri haqqında mükəmməl tədqiqatların aparılması vacibdir.

...Bütün bunlardan sonra deyim ki, Hüseyn müəllimi indi də tez-tez xatırlayıram. Yaxşı yadımdadır, "Azərbaycan müəllimi" qəzetində işlədiyim illərdə tez-tez görüşərdik. Həmişə deyərdi ki, sən rəhmətlik anama çox bənzəyirsən. Mənim cizgilərim əsasında Narıngül xanımın portretini işləmək istəyirdi. Təəssüf ki, qismət olmadı. Vaxtın ucbatından bu fürsəti itirdik. Mərd, istiqanlı, mehriban insan idi Hüseyn müəllim.

# ANA

Rəfiqə Əlirza qızı Əliyeva bir qərinəyə yaxındır ki, Bakı Dövlət Universiteinin "Analitik kimya" kafedrasında çalışır. Tələbələrin istəklisi olan, həmkarları tərəfindən sevilən Rəfiqə xanım həm də mehriban ana, sevimli nənədir. Onunla olan söhbətlərimizdə ana, ananın ailədəki rolu ilə bağlı elə ürəyəyatan məqamlara toxunurdu ki... Adı böyük hərflərlə yazılacaq o ilahi nəfəsin - Ananın əfsun dolu həyatı ürəyimizdə şirin arzular doğururdu. Söhbətimizin gənc analara, gəlin köçəcək qızlara gərəkliyini nəzərə alaraq onu yazıya çevirdik.

- Rəfiqə xanım, mən Lənkərandakı uşaq evində eyni ailədən olan altı bacı-qardaş gördüm. Onlar öz valideynlərini heç də qəza nəticəsində itirməmişdilər. Ata ailəsini ataraq Rusiyaya gedib, ana da onları gətirib uşaq evinə. Əvvəllər həftədə, sonra da ayda bir dəfə uşaqlara dəyərmiş. Mən onların yanında olanda söylədilər ki, altı aydan çoxdur ki, anaları daha gəlmir. Hansısa restoranda işləyir, vaxtı yoxdur. Həyatın iqtisadi çətinlikləri doğrudanmı analıq hisslərinə qalib gələ bilər?

- Mənə elə gəlir ki, yox! Bizim ailənin timsalında bəzi məsələləri danışmaq istərdim. Atamızı tez itirmişdik. Ailədə 8 uşaq olmuşuq. Sonbeşik mən idim. İki qardaşım Bakıda oxuyurdu. Böyük bacım da ərə getmişdi. Yerdə qalan beş uşağın bütün dərd-səri, qayğısı anamın üzərinə düşmüşdü. Bizim ilk müəllimimiz elə anamız İzzət xanım olub. Təsəvvürə gətirin ki, bizim hamımızı oxudub. Bütün bunlar ağ günlərin qanadı altında olmayıb. Atasız ailənin dərd-səri çox böyükdür. Anamız bizim hər birimizin gündəlik dərsi ilə çox ciddi maraqlanardı. Müəllimdən qabaq hər şeyi ona danışar, ilk qiymətimizi anamızdan alardıq. Səhvimizi ustalıqla düzəldən, yaxşı-pisimizi dəqiq qiymətləndirən anamızın sinəsi xalq çeşməsi inciləri ilə doluydu. Hünərimiz nə idi ki, səliqəmiz, səhmanımız yerində olmasın. Deyim ki, bizi danlayardı, döyərdi... qətiyyən yox! Heç birimiz bunu görməmişik. Açığı, bilmirəm, nə sirr vardısa, ondan, onu incitməkdən çəkinərdik. Çox yumşaq, həddən artıq mehriban qadın idi, amma o mehribanlığın daxilində bizi öz həddimizdə saxlayan qəribə bir zabitə





vardı. Elə ailəcanlı idi ki... Sözlə bu istəyin, bu münasibətin şəklini çəkmək indi mənim üçün çox çətindir. Ana da olmuşam, nənə də, amma ... Amması odur ki, anama çata bilmədim. O, necə qürurlu və məğrur qadın idi, İlahi! ..

- Çörək qazanmaq, yəni evə ruzi gətirmək, əslində, atanın vəzifəsi sayılıb. Uşaqları tərbiyə etmək, millət üçün ləyaqətli övlad kimi böyütmək anaya bağlıdır.

- Bu mənada mənə elə gəlir ki, əsl məktəb elə bizim öz evimizdə olub və bu məktəbin də əvvəldən axıra bir müəllimi var idi, o da öz anamız idi.

- Bu gün bir, iki uşaq tərbiyə etmək çətinliyi qarşısında qalıb bəzi analar. Mənə maraqlı gəlir ki, o dövrdə Naxçıvan kimi bir bölgədə - hər tərəfi düşmən və çətinliklərlə dolu bir yerdə bu qədər problemin öhdəsindən İzzət xanım necə gəlirdi?

- İndi o günləri yadıma salanda fikirləşirəm ki, bizim çox qüdrətli dayağımız varmış. Ailəmizdə elə bir tərbiyə mövcud idi ki, hər kəs öz yerini, öz işini bilirdi. Böyüklər balacalara kömək edərdi. Dərsimizi oxuduqdan sonra evin bütün işlərində anamıza yardımçı olardıq. Anamız hər bir işi təkcə özünəməxsus səriştə ilə deyil, həm də adət-ənənənin qanun-qaydaları ilə həyata keçirərdi. Yazılmamış, deyilməmiş bir rejimi hamımız dərk etmişdik və onu da yerinə yetirirdik. Mən bir məsələni fərəhlə qeyd etmək istəyirəm. Cəmiyyətdə tutduğumuz mövqe bizim heç birimizi daxilən dəyişdirmədi. Bunların da hamısı anamdan gəlirdi. Onun sadəliyi, mərdliyi bizə nümunə idi. Yadımdadır, o vaxtlar bizim ətrafımızda çox firavan yaşayan qonşularımız var idi. Amma hamısı da bizim həyətimizə, həyatımıza həsəd aparırdı. Çünki anamın əli hara dəyirdisə, ora gül açırdı. Biz sadə yaşayırdıq, amma bu sadəliyin içində qəribə bir cazibədarlıq vardı. Bu gözəlliyin müəllifi anam idi. Biz maddi cəhətdən yox, mənəvi cəhətdən çox varlı idik.

- Rəfiqə xanım, ananıza aid xəyallarınız, xatirələriniz yaşla bağla dəyişilmir ki?

- Əsla! Ananı yada salmaq, unutmaq yaşla bağlı deyil. Mənim xəyalımda anam eləcə olduğu kimi qalıb: ucaboylu, sarışın, mavigözlü, ağbənizli, düzqamətli... Bəlkə elə övladlarının hamısının da xatirəsində belə qalıb. Bir məqam var, onu heç unuda bilmirəm. O vaxtlar Naxçıvanda bütün qadınlar çarşab örtərdi. Mənim anamın da

vur-tut bircə çarşabı var idi. Xeyrə-şərə elə onu örtərdi. İnanırsınızmı, hamıdan seçilirdi. Elə bil ki, hansısa bir dövlətlinin xanımı idi. Bilirsinizmi, bütün bunlar nədən irəli gəlirdi? Anamın daxilindəki toxluq, təmizlik, xanımlıq onun bütün hərəkətlərində özünü büruzə verirdi, istər danışığında, istər yerişində, duruşunda, istərsə də adicə geyimində...

- Yəqin ki, bütün bunlar ananızın öz ailə tərbiyəsindən irəli gəlirdi?

- Əlbəttə, mənim ana babam Cəfərqulu kişi çox varlı olub. Sizin dediyiniz o tərbiyə, mədəniyyət, ədəb-ərkan nəsillə, qanla keçib bizə. Kim nə deyir desin, həyat göstərir ki, göyərçinin balası göyərçin, ilanın balası ilandır.

- Ananız boş vaxtlarında nə ilə məşğul olardı?

- Onun boş vaxtını heç xatırlamıram. Görərdin, qonum-qonşu doqqaza yığışıb söhbət edir. Anamın onlara qoşulmağa vaxtı olmazdı. Bəlkə də bunu özü sevməzmiş, bilmirəm. Fikri-zikri bizim əyin-başımızda, tərbiyəmizdə olardı. Çox qəribə paltar ütüləməyi var idi. İndi hər şey var, o vaxt elektrik ütüsü nə gəzirdi. Kömürlə qızdırılan ütü ilə anam qardaşlarımın paltarlarını elə ütüləyirdi ki, yuyulanda belə qatı açılmazdı. Məktəbdə, küçədə hiss edirdim ki, paltarına ütü çəkilən təkcə elə bizik. Nişastanı da özü hazırlayardı. O illəri xatırlayandı mənə qəribə gələn bilirsənmi nə olur? Anamın mərdliyi! Biz əslində çətin yaşamışıq, amma anam həyatımızı elə qurub ki, biz bunu hiss etməmişik. Bu ağırlıq anamın yalnız öz çiynində, öz ürəyində olub. Bəlkə elə bu səbəbdən də az yaşadı. Əlimiz çörəyə çatsa da, bizim çoxumuzun taleyindən, şəxsi həyatından, cəmiyyətdəki mövqeyindən xəbəri olmadı. Bayramlarda, əlamətdar günlərdə həmişə qəbrini ziyarət edirik.

- Sizlərdən daha çox kim ananıza bənzəyir?

- Bütövlükdə heç birimiz ona tamamilə oxşamırıq. Zahiri cəhətcə mən bir qədər ona çəkmişəm. Xasiyyətindən isə hərəmizə bir şey keçib. Mənim anam olduğu üçün demirəm, həqiqətdir. Uşaq vaxtı bunları başa düşməzdim. İllərin bu başında - özüm yaşlanandan sonra heyrətləndim ki, bir qadın bir ömürdə bu qədər nəcib keyfiyyətlərə necə malik ola bilərmiş?! Və bütün bu fədakarlığı bir ana tək necə bacararmış? Görünür, inam sahibi olduğundan ulu Yaradan özü ona kömək durumuş. Yox yerdən pay tutmağı, təmizliyi, səliqəsi,





səhmanı, səriştəsi, nüfuzu ilə hamıya nümunə olmağı... hər işini zərgər dəqiqliyi ilə düzüb-qoşardı. Hələ bişirdiyi xörəklərin ətri, dadı... Yadımdadır. Yarpaq dolmasına noxud ləpəsi ilə mərzə vurardı. Küftənin ətini toxmaqla daşda döyərdi, plovu ancaq bayramdan bayrama bişirərdi. Təndirə yapdığı lavaşların ətri indi də burnumdadır. Qadın var ki, bir qoyunun ətindən ortaya bir fərli xörək çıxara bilmir. Anam bir toyuğun ətindən bir məclisi yola salardı...

- Sizə qulaq asdıqca xəyalımda mən əsl azərbaycanlı ana görürəm. Bu söhbətdən gəldiyim nəticə budur ki, İzzət xanım dastanlara, şeirlərə sığmayan ana obrazıdır. Dünyaya dahi bəxş edən bu ana adi qadın ola bilməzmiş. Bu mənada ananız təkcə sizin ailəyə, qohum-əqrabaya yox, bütövlükdə Azərbaycana məxsusdur. Qəribədir ki, sizinlə söhbətimiz may ayına təsadüf edir, yəni o mübarək aya ki, İzzət xanım Azərbaycan xalqına Heydər Əliyev kimi bir dahi bəxş edib. Əlbəttə, hər kəsə öz anası əziz və müqəddəsdir. Amma bu, məhz sizin ailənin xoşbəxtliyidir ki, ananız bütün xalqımız üçün müqəddəsdir. Onun ruhu qarşısında hamımız baş əyirik.

...Və bu kiçik qeydlərimə başqa ad verməkdən çəkindim. Çünki mən, sözün əsl mənasında, çox böyük bir insanın - Ananın xatirəsini ancaq onun əsl adı ilə adlandırmağı təbii sandım. Böyük nur sahibindən söz açmaq, nura üz tutmaq, nura boyanmaq deməkdir. Qoy bu işıq bizim bütün gənc anaların, qadınların əməllərinə, arzularına ələnsin. Onlar vətən üçün, millət üçün qəhrəman övladlar böyütsünlər.

**1998.**

## BİZ TORPAQSIZ XƏZAN OLDUQ

Böyük Məmməd Arazın məşhur misralarıdır:

Bu torpaqsız harda, nə vaxt, nə dərdim.
Xəzanımdır, xəzanımdır, xəzanım!

Bilmirəm, nədən belə düşünürəm? Amma duyuram ki, haqlıyam. Ağac kökündən qoparıla, budaq yerindən üzülə, görən, onda nə olar?! Yaşıl yarpaqlar saralar, qol-qanadlar quruyar, o zümrüd aləmə bir xəzanlıq gəlməzmi?! Mənə görə yurd-yuvasından perik düşənlər elə bu ağac, budaq timsalında saralıb solurlar. Comərdli kəndinin də camaatı bir qış gecəsində üzü böyük Azərbaycana sarı min bir yerə, yüz bir səmtə paralandı, parçalandı. Kimi oğul-qızının, bacı-qardaşının, qohum-əqrabasının, dost-tanışının, kimi də eləcə xeyirxah soydaşının himayəsinə sığındı. Kimi də bütün bunlardan fərqli olaraq Allahın səması altında dayanacaq tapana qədər gah yeridi, gah süründü, gah qaçdı. Ölən öldü, itən itdi. Sağ qalanın da sinəsində ağır dərdlər, kədərlər, nisgillər göyərdi. Mənə elə gəlir ki, bu nisgillərə, bu ağrılara bir təskinlik sığalı çəkmək üçün, ya bəlkə də o namərdlərdən bizlərin qisasını almaq naminə comərdlili gənclər də ulu babaların saldığı mərdlik körpüsündən əzəmətlə keçərək silaha sarıldılar. Qarabağ uğrunda - vətən torpağının bütövlüyü naminə savaşa qalxdılar. Amma nə yazıqlar ki, biz nişançı yox, hədəf olduq. Biz qıra bilmədik, bizi öldürdülər. Biz qalib gəlmədik, məğlub olduq. Biz getmişdik torpaqlarımızı almağa, bu şərəflə də ölməyə, məzarımız doğma yurda qismət olmadı.

Qarabağ döyüşlərində, ümumiyyətlə, ermənilərin millətimizə qarşı yürütdüyü ədalətsiz müharibədə comərdli gənclərinin də ömürləri vaxtsız soldu. O buz baltalı, qamətli, igid oğullardan biri də





## FAİQ MÜSLÜM OĞLU ƏKBƏROV İDİ



1971-ci ildə anadan olmuş Faiq orta məktəbi bitirəndən sonra hərbi qulluğa çağırılıb. Rusiyanın müxtəlif şəhərlərində hərbi hissədə qulluq edən bu comərdli balası tankçı peşəsinə yiyələnmişdi. 1993-cü ildə könüllü olaraq Qarabağ uğrunda müharibəyə atılan Faiq Müslüm oğlu Laçın, Qubadlı uğrunda gedən döyüşlərdə fədakarlıq göstərib. Onu tanıyanlar söyləyirlər ki, ölümün üstünə göz qırpmadan gedərmiş. Çox cəsarətli və hünərli igidin taleyi müəmmalara tuş olub. Ağır döyüşlərin birində - Qubadlı rayonunun Mollu kəndində itkin düşüb. İndiyə kimi bu igid oğuldan səlis bir məlumat əldə etmək mümkün olmayıb. Onun əmisi oğlu və bir həyətdə boya-başa çatdıqları

## UMUD NƏCƏF OĞLU ƏKBƏROV



1994-cü ildə vətən torpağının müdafiəsinə qalxıb. Umud da Faiq kimi hünərli, mərd, cəsarətli vətən balası idi. Füzuli bölgəsində Horadiz döyüşləri zamanı, bir qış günündə düşmən gülləsinə tuş gəlib. Comərdlinin bu şəhid oğlu Fəxri xiyabanda torpağa tapşırılıb.

## VASİF VAQİF OĞLU QULİYEV



C.Naxçıvanski adına hərbi liseyi başa vurduqdan sonra artilleriya üzrə hazırlıq kursu keçib. Müxtəlif hərbi hissələrdə qulluq edib. Leytenant rütbəsinə qədər yüksəlmiş bu comərdli oğlu da erməni qüvvələri ilə üz-üzə dayanan Tərtər rayonunun Qırmızıkənd yaşayış sahəsində torpaqlarımızı yağıdan qoruyurdu.

Vasif Quliyevin komandirliyi ilə Azərbaycan əsgərləri Tərtər istiqamətində bir neçə dəfə düşmənin xeyli texnikasını və canlı qüvvəsini məhv etmyə müəssər olmuşlar. Düşmən tərəfi anlamışdı ki, uğur qazanmaq üçün ilk növbədə öz taktikası, cəsarəti, hərbi biliyi ilə seçilən, müdafiəni düzgün quran, hücumu dəqiq yerinə yetirən komandiri aradan götürmək lazımdır. Bu tülkü niyyətin nəticəsində Vasif növbəti əməliyyat zamanı erməni snayperçisinin hədəfinə tuş gəlib. Məlumat üçün qeyd edək ki, Vasifin dayısı

## LİTVİN BABAYEV

1994-cü ildə Füzuli bölgəsində gedən döyüşlərdə şəhid olub. Atalar haqlı deyiblər: "İgid oğul dayısına oxşar". 1999-cu il iyunun 16-da Vasif Vaqif oğlu Tərtərdə şəhid olub.

Bu şəhidlərin sırasında dayanan Elxan Orxan oğlu Rüstəmov, Elşən Fərəc oğlu Cəbiyev şəhidlik zirvəsinə yüksəlmiş vətən oğullarıdır. Onlar torpaq uğrunda qan tökdülər. Tökülən qan isə yerdə qalmaz. Sadəcə, o qisas gününün geci və tezi var. İnanırıq ki, bir gün biz doğma vətənə qayıdıb hər şeyi yenidən səhmana salacağıq. Məktəblər açılacaq, yeni gülüzlü balalar doğulacaq, onları vətən uğrunda böyütmək üçün bu igid əsgərlərimiz barəsində həqiqətdən su içmiş nağıllar danışacağıq.





# COMƏRDLİ YADİGARLARI

## İSGƏNDƏR HƏKİM



İsgəndər Əli oğlu Baxşəliyev 1946-cı ildə Comərdli kəndində anadan olub. 1963-cü ildə Dəstəyirddə orta məktəbi bitirib. Onlar ailədə çox uşaq olublar. Anası Səriyyə bibi "Qəhrəman ana" idi. Comərdlinin sayıb-seçilən ailələrindən olub. İsgəndərin uşaqlıqdan arzusu Tibb İnstitutunda oxumaq idi. Bu səbəbdən də hələ orta məktəbdə dərslərini yaxşı oxuyur, öz ağlı, fərasəti ilə başqalarından seçilirdi. Orta məktəbi bitirən il Bakıya gələrək Azərbaycan Tibb İnstitutuna daxil olub. Bakıda ali məktəbə daxil olan İsgəndər Baxşəliyev Saratov Tibb İnstitutunu bitirib. Həkim diplomunu əlinə alaraq 1 il Gürcüstanda, 5 il isə Macarıstanda hərbi xidmətdə olub.

Bacarıqlı cərrah kimi şöhrət qazanan İsgəndər Baxşəliyev 1975-ci ildə vətənə qayıdıb. Əvvəlcə Sabunçu Kliniki Xəstəxanasında cərrah kimi çalışıb, sonra Bakı şəhəri Kliniki-Təcili Tibbi Yardım Xəstəxanasının qəbul şöbəsinin müdiri vəzifəsinə təyin edilib. Bir ildən sonra həmin xəstəxanada baş həkimin müavini vəzifəsində 15 il işləyib. Bu arada ictimai fəaliyyətlə də məşğul olub, Rayon Deputatlar Sovetinə seçilib. Elmi araşdırmalarını davam etdirərək 1986-cı ildə tibb elmləri namizədi elmi dərəcəsi almaq üçün müvəffəqiyyətlə müdafiə edib.

1993-1995-ci illərdə İran İslam Respublikasına mütəxəssis kimi dəvət edilərək orada cərrah kimi fəaliyyət göstərmişdir. Vətənə qayıtdıqdan sonra yenə də öz şərəfli peşəsini davam etdirməyə başlayan İsgəndər həkimin bioqrafiyasına müxtəlif səhiyyə

ocaqlarının adları yazılıb. Hazırda Respublika Kliniki Xəstəxanası baş həkiminin müavini vəzifəsində çalışan İsgəndər Baxşəliyevin 3 övladı var. Həmişəki kimi, elmə, tədqiqata marağı olan İsgəndər Baxşəliyev doktorluq işi üzərində çalışmaqdadır.

## XƏLİL HÜSEYNOV

1939-cu ildə Comərdli kəndində anadan olmuş, orta məktəbi bitirdikdən sonra həmyaşıdları kimi Bakı şəhərinə üz tutan Xəlil Adıgözəl oğlu Hüseynov Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsində təhsil almışdır. Erkən yaşlarından əmək fəaliyyətinə başlayan Xəlil Hüseynov fəhləlikdən tutmuş rəis vəzifəsinə qədər çalışmışdır. Bakıda gedən geniş tikinti işlərində, quruculuqda Xəlil Hüseynovun xüsusi əməyi var.

1986-1991-ci illərdə Bakı Dövlət Universiteti rektorunun əsaslı tikinti üzrə müavini (prorektor) vəzifəsində çalışmışdır. Sonra Nazirlər Kabineti yanında Dövlət Material Ehtiyatları Komitəsində baş mütəxəssis, şöbə rəisi, işlər idarəsinin rəisi vəzifəsində çalışan Xəlil Hüseynov bir müddət həmin komitədə ümumi şöbənin müdiri olmuşdur. Hazırda təqaüddədir.

Xəlil Hüseynovun Tikinti Nazirliyi Aparatında işlədiyi illərdə Naxçıvan Muxtar Respublikasının sənaye, mülki, sosial, ticarət, kommunal, təhsil, kənd təsərrüfatı, yerli və yüngül sənaye və digər obyektlərin inşasında, Bakı şəhərinə Kür su kəmərinin çəkilməsində, paytaxtın böyük kanalizasiya şəbəkəsinin, Neftayırma Zavodunun kanalizasiya təmizləyici qurğusunun və 3-cü su kəmərinin çəkilişində fəal iştirak etmişdir. Hələ sovet illərində tikinti sahəsində səmərəli fəaliyyətinə görə müxtəlif mükafatlara layiq görülmüşdür.

## ŞƏHİD ATASI

1947-ci ildə Comərdli kəndində anadan olmuş Vaqif Quliyev Azərbaycan Pedoqoji İnstitutunun fizika fakültəsini bitirib.1970-ci ildən Binəqədi rayonunda müəllim işləyir. Son 18 ildir ki, təlim-tərbiyə işləri üzrə direktor müavinidir. Ömrünün 34 ilini gənc nəslin







təlim-tərbiyəsinə həsr edən Vaqif müəllimin həyat yoldaşı Ziyafət xanım da ali təhsilli mütəxəssisdir. Bu mehriban insanların üç övladı olub. Üç qardaşın böyüyü Vasif Milli Ordunun zabiti idi. Vətənimizin azadlığı və bütövlüyü uğrunda şəhid olub.

Ömrü boyu insanlara xeyirxahlıq göstərməyi özünə amal seçən Vaqif müəllimin gözlərində açıq-aşkar duyulan bir hüzn var. Bir qədər söhbəti kövrək qursan, o mənalı və kədərli gözlərdən sanki bulaq qaynayacaq. Bir insana nə qədər zülm etmək mümkün imiş, İlahi? Vətənini əlindən alsınlar, doğulduğun kəndə gedə bilməyəsən, min əziyyətlə ərsəyə çatdırdığın övladın namərd gülləsinə qurban gedə və bütün bunlardan sonra öz şəhərində, doğmalarının arasında qərib və nisgilli yaşayasan. Nə etməli, Vaqif müəllim? Bü qisməti, bu taleyi biz Qərbi azərbaycanlılara Tanrı yazıb. Allahın məsləhətinə şükür edərlər. Bu gözütoxluğun, şükranlığını içində kaş ki, o biri övladlarınızın barını, bəhrəsini dadasınız, toylarında qol götürüb süzəsiniz. Gün o gün olsun ki, nəvələrinizi başınıza yığıb Comərdliyə dönəsiniz. Bəlkə onda Ziyafət xanımın da baxışlarındakı kədərin ömrü bitə.

## BİR ÜRƏYİN NALƏSİ

Elxan Əli oğlu Baxşəliyev 1961-ci ildə Gomərdli kəndində anadan olub. Orta məktəbi bitirib, hərbi xidmətdə olub. Özündən böyük qardaşları ali təhsil alaraq Bakıda yaşamağa üstünlük veriblər. Əli kişi sonbeşik oğlunu ata-baba yurdunda saxlamaq üçün şəhərə getməyə qoymayıb. Ona elə gəlib ki, Elxanın ayağı Bakıya dəysə, bir də kəndə dönməyəcək. Elxan da atasının sözündən çıxmayıb. Rayonda texniki-peşə məktəbini bitirdikdən sonra kənddə təsərrüfatda çalışıb. Ailə qurub, oğul-uşaq sahibi olub. Amma təəssüf ki, bu sakit və xoş həyat uzun müddət davam etməyib.



Mən Elxanı tələbə vaxtı görmüşdüm. Atası Əli kişi, qardaşı Tahir, bacısı Anaxanım və bir neçə başqa insanlarla birlikdə Uruda - bizə qonaq gəlmişdilər. Yadımdadır, Mirismayıl Ağanın günbəzində qurban kəsdilər. Deyib-gülən, zarafatcıl Elxanı bir də yurdumuzu itirəndən sonra Bakıda gördüm. Mənim tanıdığım Elxandan əsər-əlamət qalmamışdı. Sanki yurdsuzluğun itkisi çoxsaylı illərə dönüb Elxanın saçlarında, üz-gözündə, ən çox da gözlərinin dərinliklərində qəribə izlər salıb. Elxan ali təhsil almayıb, amma ona qulaq asanda sanki müdrik bir tarixçiyə, tədqiqatçıya qulaq asırsan. İlahi, onun nə qədər geniş mütaliəsi, zəngin dünyagörüşü var. Elxan heç bir ali məktəb bitirməyib, amma neçə-neçə ali təhsillidən savadlı və məlumatlıdır. Xüsusilə də Comərdli kəndinin tarixi ilə bağlı Elxanın sinəsində dastanlar yatır. Nə vaxtsa qələmə aldığı bir yazını olduğu kimi bu kitaba saldım. 1988-ci ilin soyuq payızında soydaşlarımızın başına gələn faciəli günlərin şahidi Elxanın ürək parçalayan bu xatirələri olmuş gerçəkliyin əks-sədasıdır. Hansı söz, hansı cümlə yerinə düşməyibsə, mən üzr istəyirəm.

Elxanın yazdıqlarından:

1988-ci ilin noyabr-dekabr aylarında nəinki gecələr, hətta gündüzlər də qorxu və həyəcan içərisində yaşayırdıq. Buna baxmayaraq, 6 ədəd quş gülləsi, əl ağacı, balta və şana ilə silahlanıb erməni dığalarının qarşısında dayanmışdıq. Dekabrın 3-də və 5-də rayon rəhbərliyi bizi xəbərdarlıq etdi ki, başınızın çarəsini qılın, sizin təhlükəsizliyinizə cavabdeh deyilik. Çarəsiz qalmışdıq. Bir tərəfimiz qarlı dağ, digər tərəfimiz əlisilahlı saqqallılar. Noyabrın 29-da kəndimizə ilk zərbə vuruldu. Rüstəmov Cəmil Şükür oğlu anasını, yoldaşını və üç oğlunu erməni dostunun köməkliyi ilə onun "Vilis"





maşınında Şahbuz rayonunun Biçənək kəndində yaşayan Əli Rəhimovun (xalamgilin) evində qoyub qayıdanda Şələk adlanan kənddə ermənilər tərəfindən döyülərək ölümcül halda su gölməçəsinə atıldı. Sonralar Cəmil danışırdı ki, ölü kimi olsam da, ürəyimin döyüntüsünü eşidirdim, hər şeyi hafizəmdə saxlamağa çalışırdım.

İşgəncə verildə, Allaha yalvarırdım ki, tez ölüm, əzablardan canım qurtarsın. Bir erməni hətta Cəmilin ölmədiyini görüb onun boynuna daş bağlayıb çaya atmağı təklif edir. Təsadüfən erməni milisləri hadisə yerinə gəlib xata-bəlanı özlərindən uzaqlaşdırmaq üçün Cəmili qan içində cırılmış paltosuna büküb dayısıgilə gətiriblər. Həmin vaxt sovxozun direktoru V. Avetisyan, raykomun təlimatçısı və sahə müvəkkili gəlib dedilər ki, özünüzə gün ağlayın. Biz soruşduq ki, bəs bizi qoruyacağınıza söz vermişdiniz. Cavab verdilər ki, camaatın qarşısını ala bilmirik. Sizinkilər də Bakı, Sumqayıt, Kirovabad və Naxçıvanda ermənilərin başına müsibətlər açıblar. Cəmilin vəziyyəti get-gedə ağırlaşırdı. Onu kənddə müalicə edəcək bir adam, tibbi avadanlıq yox idi. Nəyin bahasına olursa-olsun Cəmili Naxçıvana çatdırmalı idik. Salvartı dağını keçib Şahbuz rayonunun Gömür kəndinə çatdıq. Rayonun birinci katibi Telman Xudaverdiyev yolun qarını təmizlətdirərək Cəmili təcili yardım maşınında xəstəxanaya çatdırmağımıza kömək etdi.

Həmin vaxt qadınlar, körpələr kənddə qalmışdı. Ermənilər hər gecə kəndin ətrafında tonqallar qalayır, atəş açırdılar. Dekabrın 4-5-də şaxtalı gündə dağ yolları ilə kəndi tərk etdik. Gedənlər hiss edirdi ki, kənd boşalır, bir də geri qayıtmayacaqlar. Sanki məzar daşları da canlı insan kimi bizim minbir əzabla dırmaşdığımız dağa baxır və inilti ilə səsləyirdilələr: "Bizi tənha qoyub hara gedirsiniz?" O günlər heç vaxt yadımdan çıxmaz. Ürək dağlayan göz yaşları, hıçqırıqlar küləyə qarışaraq qayalara dəyib əks-səda verirdi. Mən bu dəhşətli mənzərəni görür, için-için ağlayırdım. Köç bir-birinin ardınca irəliləyirdi. Zəncirvari karvanın uzunluğu 1 kilometrə çatırdı. Salvartı dağında yerləşən Gəlin qayasına çatanda çovğun bir addım atmağa imkan vermədi. Bir tərəfdən də sürü ilə dağ-dərəni dolaşan canavar əhalini qorxudurdu. Uşaqlar soyuğa, şaxtaya tab gətirmir, ağlaşırdılar. İki yaşlı oğlum Sərxanın "ata, dondum" fəryadı hələ də qulaqlarımda cingildəyir. Kimsə yolu azdığımızı dedi. Camaat çaş-baş qalmışdı.

Ümid dolu gözlər mənə dikildi. Hamıya ürək-dirək verir, aldadırdım ki, Naxçıvan torpağına çatırıq. Hər dəfə deyirdim ki, axırıncı aşırımdır. Nəhayətsiz aşırımlar isə bir-birini əvəz edir, qurtarmaq bilmirdi.

Minbir əzabla Naxçıvan sərhədinə - "el qəbiristanlığı" deyilən bir yerə, oradan isə Gömür kəndinə gəlib çatdıq. Sevincimizin həddi-hüdudu yox idi. Gömür camaatı qayğımıza qaldılar, başımıza gələn müsibəti eşidib bizi öz doğmaları kimi qəbul etdilər. Belə bir vəziyyətdə sağ-salamat, itkisiz gəlib çatmağımız Allahın möcüzəsi idi. Şahbuz rayonunun I katibi T.Xudaverdiyevlə görüşdüm. Telman müəllim bildirdi ki, bizi xəstəxananın isti otaqlarında yerləşdirəcəklər. Şahbuz camaatı buna razı olmadı. Hərə bir ailəni götürüb evinə apardı. Mən də həyat yoldaşım, bacım və iki körpəmlə birlikdə rayonun maarif işçisi Sabir Şirinovun evinə pənah apardıq. Sabir müəllimin ailəsi bizi mehribanlıqla qarşıladı.

Ata-baba yurdunun tənhalığı, kimsəsizlik biz comərdliləri heç vaxt tərk etmir. Yaxşı adamlara, Gömür camaatına, şahbuzlulara, Telman müəllimə, Sabir müəllimə, bizə qayğı göstərən tanıdığımız-tanımadığımız adamlara minnətdarlıq bildiririk və deyirik: Ocağınız isti, süfrəniz bol, nemətli, ürəyiniz dərd-qəmsiz olsun!

Şəfalı dağları unutmaq olmaz,
O dağlar ürəkdə dağımdır mənim!
Dostluqdan bir daha danışmaq olmaz,
Erməni ölüncə yağımdır mənim!

Diz çöküb heç zaman əyilməz Elxan!
Türk oğlu türk doğub onu anası!
Qocalıb yüz yaşa çatsa da Sərxan
O körpə fəryadı dağımdır mənim!

Comərdli dağları olmuş yaylağım,
Səninlə keçirdiyim ötən çağlarım
Yadıma düşdükcə vətən oylağım,
Tab etməz ürəyim, hər gün ağlaram.





# ZƏNGƏZURDA BİR KƏND VARİDİ



***Orada bir evimiz bizlərə həsrət,***
***Yurddan didərginik, qonağıq, Allah!***
***Yönümüz dağlara, düzlərə həsrət,***
***Getməsək, ölərik, qınağıq, Allah!***

# ƏZƏL HÜSNÜ GÖZƏL, SONU QARA ŞƏKİMİZ

Qarakilsənin ən böyük və qədim kəndlərindən biri də hüsnü gözəl Şəkimiz idi. Bu kəndin ərazisi tarixi abidələrlə və təbii gözəlliklərlə zəngin olub. Rayondan beş kilometr şimalda Naxçıvana gedən yolun üstündə yerləşən Şəkinin 2 min ilə yaxın yaşı olduğu barədə müxtəlif mənbələr mövcuddur. Şəki əslində qədim türk tayfalarının yaşadığı vilayətin mərkəzi imiş. Kəndin adını yaşadan Şəki abidəsi də tarixin bir çox olayını özünün bioqrafiyasında yaşatmaqda idi. Bu yerlər Babək igidlərinin, eləcə də neçə-neçə məşhur el qəhrəmanlarının oylağı olub. Tarixdən məlumdur ki, Xürrəmilər hərəkatı dövründə Babək Səhl ibn Sumbatın xəyanəti nəticəsində Şəki qalasında ələ keçirilərək düşmənlərinə təslim edilmişdir.

Kəndin cənub-şərqində isə Qoşundaş abidəsi var idi. Daşa dönmüş qoşunların gah Əmir Teymura, gah da başqa bir istilaçıya məxsus olduğu barədə el arasında müxtəlif əfsanələr, həqiqətəbənzər rəvayətlər dolaşmaqda idi. Təbiətin min bir rəngini, gözəlliyini, eləcə də insan ağlının və əlinin nişanələrini özündə əks etdirən bu dilbər guşə həmişə başı qeylü-qallı olub. Gah təbiətin fəlakətlərinə düçar olub, gah da düşmən talanlarına məruz qalıb. Zəlzələlər, müharibələr, toqquşmalar, milli zəmində baş verən münaqişələr hər dəfə Şəkinin sinəsinə çalın-çarpaz dağ çəkib. Gah abidələri yerlə-yeksan edilib, gah da saf və zəhmətkeş sakinləri qətlə yetirilib.

Əzəldən Şəkidə türklər yaşayıb. Ermənilər uydurmaq istədikləri "tarix"də vaxtilə burada yaşamış albanların xristian olduqlarına görə, hər şeyi erməniləşdirmək istəsələr də faktlar başqa sözlər pıçıldayır. Tarixi mənbələrdə göstərilir ki, XIX əsrin 80-ci illərinə qədər Şəki kəndinin əhalisi tatarlar (azərbaycanlılar) olub. Ermənilər bu kəndə 1829-cu ildən sonra gəlməyə başlamışlar. İrandan qovulmuş 25 ailə o vaxt Şəkidə yerləşdirildi.

Kəndin qədim qəbiristanlığında müqəddəs insanların şərəfinə yaradılmış günbəz və məqbərələr də var idi. Gəlmə ermənilər (1922-ci ildən sonra) öz ölülərini pirin döşündə dəfn edərdilər. Şəki qəbiristanlığı kəndin tarixini və uzaq keçmişini əks etdirən daş mənbə idi. Çünki qəbir daşlarının çoxunun üstündə rəqəmlər, naxışlar, rəsmlər





son günlərə qədər dururdu. Qəbirüstü yazılardan kəndin ziyalıları özləri müəyyənləşdirmişdilər ki, bu müqəddəs yerin ən azı 1500-2000 il yaşı var.

Şəki bir tərəfdən Qızılcıq, Əngələvid kəndləri, digər tərəfdən isə Şahbuzun ərazisi ilə həmsərhəd idi. Bu qədim yaşayış bölgəsi vaxtilə vilayət mərkəzi olduğundan onun ərazisində müxtəlif yaşayış yerləri var idi. Onların bəziləri yuxarıda deyildiyi kimi zəlzələlər, digərləri də daşnaklar tərəfindən dağıdılmışdır. Təəssüf ki, 1918-1919-cu illərdə tayqulaq Andronikin quldur dəstələri tərəfindən tamamilə yandırılaraq yer üzündən silinmiş kəndlərin sırasında Şəkiyə bitişik obaların da adları hallanır. Həmin obaların, kəndlərin yalnız xarabalıqları və sadəcə adları qalmışdır: məsələn Şəkiyə bitişik Aşağı Dəhnə, ondan yuxarı iki-üç kilometr şimalda Yuxarı Dəhnə, ondan bir kilometr aralıda Özəncə kəndi yerləşib. Qoşundaş deyilən yerdə isə 40-50 ailənin yaşadığı bir kənd də olubmuş. Hətta Şəkidən bir az şimalda Güllübulaq kəndi yerləşibmiş. Ötən əsrin əvvəllərində bu kəndlərin xarabalıqlarında qazıntı zamanı qızıl, gümüş, mis pullar, əşyalar, müxtəlif məişət qabları, saxsı borular tapılıb. Hətta daş karxanası, dəyirman yerləri, dağıdılmış məscidin qalıqları da üzə çıxmışdır.

1922-ci ildən sonra azərbaycanlılar ayrılığa dözə bilməyərək yenidən doğma ocağa qayıtdılar. Təbii ki, yeni həyata başlamaq çətin olsa da, Vətəndə yaşamaq şirinliyi hər bir acıya üstün gəldi. 1930-cu illərdən sonra güzəran yavaş-yavaş yaxşılaşmağa doğru gedirdi ki, kəndin başının üstünü repressiyaların ağır tufanı haqladı. Yenə də Şəkinin qeyrətli oğulları, təpərli ürək sahibləri bu qovğaya qurban getdi. Yaralar tamam sağalmamış II Dünya müharibəsi başladı. Həmin savaşda Şəki kəndindən 300-ə yaxın şəkili cəbhəyə yola düşdü. Bu igidlərin yarıdan çoxu alman faşizminə qarşı gedən müharibədə qəhrəmancasına həlak oldu. Ələstan Əliyev, Ruhulla Hüseynov, Nəsrulla Həsənov, Hüseyn Babayev, Qəyyum Xıdırov və başqaları.

Müharibədən sonra yenə də bu insanların rahat yaşamalarına əngəl törədən hadisələr baş verdi. SSRİ Nazirlər Soveti 23 dekabr 1947-ci il və 10 mart 1948-ci il tarixli qərarları ilə azərbaycanlıları Ermənistan deyilən yerdən, əsrlər boyu yaşadıqları doğma yurdlarından deportasiya etdilər. Bütün Ermənistanı bürümüş bu qara qasırğanın caynaqları Qarakilsəyə də uzandı. O zaman Şəki sakinləri də bu bəladan min bir əziyyət çəkdilər. Bu iş elə Sisianda da yarımçıq qaldı.

1950-51-ci illərdən sonra Şəkidə yenidən həyat öz axarına düşdü. Yeni nəsil doğuldu, məktəblər tikildi, təsərrüfatda çalışan şəkililər öz cəfakeşliklərinə görə fərqləndilər, xariqələr yaratdılar. Üç nəfər Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü: Məhəmməd Gözəlov, Əli Hüseynov, Şirvan Cəfərov. Artıq şəkililərin sorağı müxtəlif məmləkətlərdən, şəhərlərdən gəlirdi.

## MÜQƏDDƏS İNSANLAR

Bu kənddə çox müqəddəs ocaqlar, pirlər mövcud olub. Şəkinin ərazisində qədimdən müqəddəs yerlər var idi ki, məsələn, Qızılqayada, kəndin ortasında, Güllübulaqda, "Şamaxı" adlanan ərazidə yerli camaatın ziyarət etdiyi, çətinə düşəndə nəzir dediyi və payladığı inanc, güvənc ünvanlarına dönmüşdü. Bu kənddən dədə-babadan Məkkəyə, Məşhədə müntəzəm ziyarətə gedənlər olarmış. Qarakilsənin kəndləri arasında ən çox Hacı, Məşədi, Kərbəlayi titulu qazanmış ziyarətçilər Şəkidən olub: Hacı Hüseyn, Hacı Atakişi, Hacı Rəhim... Məşədi Abış, Məşədi Səfiyyə Mirəhməd qızı, Məşədi Fərman... Kərbəlayi Qara, Kərbəlayi Kərim və başqaları. Bu şəxslər həm də kəndin ən varlı sakinləri olub. Onların haqqında həmişə ehtiramla söz açırdılar.

Şəkidə cəddinə inanıb pənah aparılan seyid nəsli yaşayırdı. Seyid Mirhüseyn Miryəhya oğlu isə kəndin sayılıb-seçilən ağsaqqalı kimi böyük hörmətə, izzətə, nüfuza malik imiş. Onun övladları da həmişə müqəddəs sayılıb. Təkcə Şəkidən deyi, ətraf kəndlərdən, qonşu rayonlardan da onun işığına gəlirdilər.

Seyid Mircavad, Seyid Mirağa, Seyid Miryəhya, Seyid Xatın öz ataları kimi inam sahibi olublar. Onların övladları da bu inamı və ehtiramı qazanaraq Şəki kəndinin sevimli və nüfuzlu sakinləri idilər. Doğma kəndi ermənilər tərəfindən işğal edildikdən sonra da şəkililər yenə də öz müqəddəslərinin ruhlarını məhz bu övladların simasında görərək onları ziyarət edirlər. Təəssüf ki, bu ziyarətin ünvanı indi Şəki deyil, ayrı-ayrı bölgələrdə məskunlaşmış, gözləri yollarda qalmış insanların müvəqqəti yaşadıqları müxtəlif yerlərdir.





## ŞƏKİNİN DƏYİRMANLARI

Tanrı bu kənddən öz sevgisini əsirgəməmişdir. Dünyanın bütün gözəlliklərini ona bağışlamışdı. Təbiəti gözəl olan yerdə doğulanların da zəngin daxili aləmi olur. Şəkililər əzəldən səxavətli, mərd, çörəkverən insanlar olublar. Şəkili qapısına getdinsə, deməli, orada səni gözəl bir qonaqlıq gözləyir. Tanınmaza-bilinməzə sənə elə bir süfrə açardılar ki, ömrün boyu bu qonaqpərvərliyin ləzzəti damağından getməzdi. Qarakilsənin bütün kəndlərində dəyirman olub. Şəkidə isə bunların sayı daha çox idi. Hər dəyirmanın da öz sahibi var idi. Əmirin qoşa dəyirmanı, Məşədi Abış kişinin qoşa dəyirmanı, Məşədi Camal dəyirmanı, Sərxan, Tərxan dəyirmanı, Həsənbaba dəyirmanı və s. Bu dəyirmanlarda təkcə şəkililər deyil, qonşu kəndlərin də əhalisi gəlib buğdasını, arpasını üyüdərdi. Deyirlər ki, kənddə bir dəyirman işləyirsə, aclıq olmaz. Şəkidə isə nəinki bir dəyirman, 10-15-i işləyirdi. İndi suyu sovrulmuş, ləlləsi köçmüş o taxıl "fabriklərində", Allah bilir, hansı siçovullar gəzir.

Deyirlər ki, çörəyə xor baxanın gözü tutular. İllər boyu bu dəyirmanda taxıl üyütmüş şəkililərin çörəyini yeyən, qapısında sümsünən ermənilərin gözləri nə vaxt tutulacaq?

## ŞƏKİ TOPONİMLƏRİ

Şəkidə hər dağın, dərənin, təpənin, döngənin, düzün, cığırın, bulağın, çayın, qayanın, daşın belə öz adı var. Hər adın yaranışında isə bir tarixi hadisə gizlənməkdədir. Məsələn, Şəki qalası, Darvaza qalası, Balaşın qalası, İsrfail qalası, Qaraqaya, Güddar qaya, Qızılqaya, Sarıtəpə, Oyuqlu-Daşlı təpə, Ataşın təpəsi, Məşədi Şirin təpəsi, Plan təpəsi, Qaranlıq kaha, İşıqlı kaha, Şor dərə, Dovşan dərəsi, Qoruq dərəsi, Sarı dərə, Sel dərəsi, Ramazan düzü, Kotan düzü, Kahanın düzü, Daşbulaq, Xorxor bulağı, Ağbulaq, Təhnəli bulaq, Damcı bulaq, Köşə gölü, Dəvə boynu, Fətinin hasarı, Şükürün hasarı, Kollu göl, Bayram gölü, Ala göllər, Qara göl, Qızıl boğaz, Dik daş, Sarı yer, İdişik yer, Kəlbay qara yurdu... və məşhur Şəki şəlaləsi.

Qəribədir ki, Şəki kəndinin cənubundan Bazarçay süzülüb keçirdi. Şəkinin bulaqlarından axan sular isə eyni istiqamətdə qovuşaraq Şəki

çayını əmələ gətirirdi. Kənddən 2 kilometr aralıda həmin çayın qabağı kəsilərək Darvaza qalasının altından tunelə keçirdi. Tunelin o biri tərəfində, Bazarçayın kənarında isə saatda 800 kVt işıq verən su elektrik stansiyası işləyirdi. Bütövlükdə Şəkidə 200-dən çox bulaq var idi və bu bulaqların da adları yerli əhali tərəfindən sıralanmışdı. Məsələn, Aşağı Gözə bulağı deyiləndə bilirdin ki, söhbət Yuxarı Gözə bulağından, Ağbulaqdan, Şor dərədəki, "Şamaxı" deyilən yerdəki Güllü bulaqlardan gedir. Qızılqaya bulaqları isə öz adının içində Göy bulaq, Xorxor bulaq, Örəncə, Çınqıllı, Əyribərə, Çömçəli, Qurdlu, Cinli və s. bulaqları birləşdirib. Şəkidə bəzi bulaqlar da var idi ki, yalnız yaz və yay aylarında suyu gur olardı. Payız və qış aylarında o bulaqlarda su olmazdı. Şəkinin müalicəvi mədən suları da vardı. Deyirdilər ki, Qoşundaş və Şor dərədəki bulaq min dərdin dərmanıdır.

## ZƏNGƏZURDA TÖRƏDİLƏN FACİƏLƏRİN ŞAHİDİ



Yaradıcılığa şeirlə başlayan, uzun müddət publisistika ilə məşğul olan, uşaqlar üçün maraqlı əsərlər yazan Əyyub Abbasov adlı bir yazıçımız olub. Bu ədib nəinki yaddaşlarda, eləcə də Azərbaycan ədəbiyyatında özünün ilk və son əsəri olan "Zəngəzur" adlı iki cildlik romanı ilə möhtəşəm yer tutub. Təəssüf ki, onun barəsində bugünkü nəslin bir o qədər də geniş məlumatı yoxdur. Çünki ötən əsrin ortalarında vəfat edən Əyyub Abbasov bir o qədər də təbliğ edilməyib.

Uzun müddət idi ki, bu yazıçı barədə düşünürdüm. Bu narahatlıq məni onun ədəbi irsini daha dərindən öyrənməyə vadar etdi. Vaxtilə Əyyub Abbasov haqqında yazılmış materialları, məqalələri oxudum. Yazıçılar Birliyindəki şəxsi işi ilə tanış oldum. Cəmi 52 il ömür sürmüş





zıçının həyatı çox keşməkeşli olub. Təsəvvürə gətirin ki, erməni-müsəlman toqquşmasının ən tufanlı çağında - 1905-ci ildə Zəngəzur mahalının Şəki kəndində anadan olub. Valideynlərini, bacı-qardaşlarını, bütövlükdə nəsillərini bu davada itirmiş Əyyub Abbasov bir müddət Naxçıvanda xeyirxah insanların himayəsində yaşayıb, oxuyub və sonradan taleyini Bakıya, onun ədəbi mühitinə bağlayıb. Yarım əsrlik bir ömürdə hansı müsibətləri görməyib. Lap kiçik yaşlarından gəncliyinə kimi Zəngəzurda törədilən faciələrin şahidi olub. 1937-ci ildə Stalin-Bağırov cütlüyünün qovğasını görüb.II Dunya savaşında soyuq səngərlərdə faşistlərə qarşı vuruşub.

Əyyub Abbasov "Zəngəzur" romanını yazıb. I cild 1956, II cild 1957-ci ild çap olunub. Elə həmin ilin dekabrında da vəfat edib. Onu tanıyan həmkarlarının bəziləri ilə söhbət edərkən Əyyub Abbasovun ölümü ilə maraqlandım. "İşə gedərkən qəflətən ürəktutmasından keçinib" - dedilər. Ölümün müəmmalı olması duyulurdu. Çünki həmin illərdə xalqlar dostluğunun "carçısı" olan bəzi yazıçıların Əyyub Abba-



sovla bağlı şikayət məktublarını da oxumuşdum. O yazılarda bildirilirdi ki, Əyyub Abbasov erməni-azərbaycanlı dostluğuna kölgə salır. Təəssüflər olsun...

Xəyalım yenidən Zəngəzura qanadlandı. Yadıma uşaq vaxtı evimizdə - daha doğrusu, anbar kimi istifadə etdiyimiz otaqda yerləşən

qutunun içində gördüyüm bir neçə kitab düşdü. Onların arasında Əyyub Abbasovun "Zəngəzur" romanı da var idi. Uşaq marağı ilə onu oxuyarkən kitabxanaçı bacımdan xəbər aldım ki, niyə bu kitablar ora atılıb, rəfə qoyulmayıb? Qəribə bir cavab verdi ki, heç mən də bilmirəm. Ermənistanda bütün kitabxanalardan onu çıxarıblar. O dövrün qanununa görə akt olunmuş kitablar mütləq yandırılmalı idi. Bacım isə gizlincə onları evə gətirmişdi. Universitetdə oxuyanda mərhum tənqidçimiz Qulu Xəlilov bizə XX əsr Azərbaycan ədəbiyyatından dərs deyirdi. Azərbaycan romanının inkişaf tarixindən söz açan zaman Əyyub Abbasovun romanından geniş və ətraflı danışdı: "O, uzun müddət şairlik etmiş, pyeslər də yazmışdır, lakin bu əsərlərin heç biri "Zəngəzur" qədər müəllifinə rəğbət doğurmamışdır. Erməni-Azərbaycan xalqlarının dostluğu "Zəngəzur"dakı qədər geniş, epik lövhələrlə təsvir edilməmişdir". Bəs onda niyə bu kitab Ermənistanda kitabxanalardan yığışdırılmışdır? O vaxtdan məni düşündürən bu suallara indi - Zəngəzur əlimizdən çıxandan sonra dəqiq cavab tapmağa çalışdım. "Zəngəzur"u təkrar oxudum. Bir daha bəzi qaranlıq mətləblər mənim üçün aydınlaşdı.

Zəngəzur qırğınları "Zəngəzur" romanında son dərəcə ətraflı və geniş şəkildə öz əksini tapmışdır. Yazıçı Əyyub Abbasov təkcə baş verən qırğınların bədii təsvirini verməklə kifayətlənməmiş, bəzən açıq, bəzən də üstüörtülü şəkildə daşnakların məkrli siyasətinin "haradan start götürdüyünü" ustalıqla qələmə almışdır.

"Zəngəzur"un qiymətli cəhətlərindən biri də budur ki, müəllif bu bölgədə baş vermiş hadisələrin şahidi olan bir adam kimi məhz öz başına gələnləri oxucuya danışır. Daşnakların alçaq niyyətlərini həyata keçirməyə can atan Andronik, Karo, Nijde kimilərinin mürtəce və qaniçən əməllərini ifşa edib. Kitabı oxuduqca sanki bir tarixi salnamənin vərəqlərini nəzərdən keçirirsən.

Andronik öz qoşunu ilə Zəngəzura daxil olmağa hazırlaşanda ermənilərlə görüşür: "Elindən, obasından ayrı düşmüş ermənilər! Yaşamağa eviniz, əkməyə torpağınız, yeməyə çörəyiniz yoxdur. Siz onları Ərdəhanda, Qarsda, Sarıqamışda qoydunuz. Mən sizi qaçqın edən türklərdən, Türkiyədən intiqam ala bilmədimsə, Qafqazda, bax, bu Zəngəzurda alacağam". Və sonra o, belə bir qanlı plan qurur: "Müsəlman kəndlərinin biri də salamat qalmamalıdır". Bu tarixi fakt bəllidir ki, Andronikin qoşunları Zəngəzurda azərbaycanlıların yaşadığı





15 min kəndi talan edərək yandırıblar. Bu tayqulaq quldurun bircə məqsədi, ideyası olub və bunu da həyasızcasına bəyan edib: "Türkü öldürmək cinayət deyil, qəhrəmanlıqdır". Və yaxud da "mən Andronikəm! Axırıncı soldatım qalana kimi türklərə qarşı vuruşacam".

Əyyub Abbasov yazırdı ki, Andronikin cinayət hərəkətlərinə mane olmayan, əksinə, müsəlman kəndlərinin dağıdılmasında ona haqq qazandıran daşnaklar sadə erməniləri, yəni Andronikə tabe olmayanları "siz erməni deyilsiniz, millət xainisiniz, dəstəmizə qoşulmasanız, türklər sizi qıracaq" - deyə hədələyirdilər.

Bir erməninin evində qonaqlıqdır. Keşiş sağlıq deyir: "O ermənilərin sağlığına içək ki, cəbhədə türklərə qarşı vuruşur. Türklər bizim ata-baba düşmənlərimizdir. Ərdəhandan, Vandan, Qarsdan nə qədər erməni qaçqını qaçıb Zəngəzura gəlmişdir". Təbii ki, bir millətin din xadimi belə danışandan sonra silahlısı da qırmalı, yandırmalı idi.

Yenə romandan: "Tanrı Andronikin külünü göyə sovursun, bizi yurdumuzdan elədi... - deyə şəkili Nəbi dərindən bir ah çəkdi". Andronikin Zəngəzurda törətdiyi faciələri Əyyub Abbasov gözləri ilə gördüyündən o müsibəti olduğu kimi qələmə almışdır. "1919-cu ilin yazıdır. Malını, pulunu özü ilə aparmağa müvəffəq olmuş dövlətlilər istina olmaqla, Zəngəzur qaçqınlarının güzəranı getdikcə pisləşirdi. Minlərlə insan səfalət içində idi. Onların əkməyə torpaqları, yeməyə çörəkləri, geyməyə paltarları yox idi. Boğazlarına keçmiş fəlakət zəncirini qırıb atmağa heç bir yol və imkan tapa bilmirdilər. On aydan artıq idi ki, Zəngəzur qaçqınları fəlakət içində çırpınırdılar. Hamı yandırılmış, viran edilmiş kəndlərinin, yurd-yuvalarının həsrətində idi. Lakin daşnakların hökmranlıq etdikləri bir torpağa qayıtmaq mümkün deyildi".

Talesizliyə bax ki, tarix təkrar olunub. Demək olar ki, məzmun eynidir, dəyişən formadır. Ötən əsrin əvvəllərində törədilən vəhşiliklər həmin əsrin sonlarında eyni dəhşəti ilə təkrarlandı. "Zəngəzur" romanını yenidən vərəqləyirəm. Erməni generalı Karo Hamparsumyanın bəyanatından sətirlər: "Bu yaxınlarda qoşunumuz hücuma keçəcək. Sərhədimizə yaxın olan müsəlman kəndlərini götürəcəyik. Planımız belədir ki, tezliklə Qarabağa girək. Vediyə, onun ətrafındakı kəndlərə yaxşı divan tutmuşuq. İndi o kəndlər də erməni qardaşlarımızın əlindədir. Ölən ölüb, sağ qalan müsəlmanlar isə İrana, Naxçıvana qaçmışdır. Belə bir danışıq da var ki, İrandakı qoşun

Naxçıvana hücum eləsin".

Zəngəzur kəndlərini tar-mar edib, əhalisini fəlakətlərə salan Androniki hamı tanıyırdı. Ancaq qan tökmək fikrini heç vaxt başından çıxarmayan bu tayquluq "dığa" müharibə üçün yeni yollar axtarırdı. Bu barədə yenə də "Zəngəzur"da oxuyuruq ki, bolşevik Vahan daşnak Androniki hədələyir: "Türklər Bakını işğal ediblər, Qarabağa çatıblar, xəbəriniz varmı?! Əgər onlar Zəngəzura girə bilsələr, sizin külünüzü göyə sovuracaqlar". Türklərin gəlişindən vahimələnən Andronik "mənim son yerim Sisiandır" - desə də bu dəfə başının qorxusundan Zəngəzuru tərk etməyə məcbur olmuşdur. Əyyub Abbasov yazırdı: "Andronik ingilislərə pənah gətirmək üçün İrana keçmişdir".

Doğrudur, "Zəngəzur" romanı çapdan çıxdıqdan sonra ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. Xüsusilə erməni-müsəlman toqquşmasında daşnakların xalqımızın başına gətirdiyi zülmləri görən insanlar müəllifin əsərini məhəbbətlə qarşılmaışlar. Qəribədir ki, Bakıda çıxan "Qrakan Adrbecan" ("Ədəbi Azərbaycan") jurnalında (Ermənistanda isə Azərbaycan dilində belə bir ədəbi jurnal nəşr edilmirdi - F.X.) A.Balayan adlı birisi bu əsəri tərifləyərək onu "Xalqlar dostluğu haqqında roman" adlandırmışdır. Amma yazısının bir yerində qeyd etməmişdir ki, müəllif azərbaycanlılara qan udduran, onları minbir zülmlə qətlə yetirən cinayətkar Andronikin vəhşi simasını necə bacarıqla açıb. Halbuki bu əsərdən danışanda tayqulaq "dığa"nun qanlı obrazını görməmək qeyri-mümkün idi və ona görə də Ermənistanda "Zəngəzur" kitabxanalardan yoxa çıxarılmışdır. Bakıda isə əksinə, vazgenlərin, ohanyanların, kaputikyanların, tumanyanların kitablarını böyük məmnuniyyətlə çap edirdilər. Tarix boyu ermənilər bizim unutqanlığımızdan öz məqsədləri üçün fəndkirliklə istifadə ediblər. Doğrudur, ötən əsrin ortalarında Azərbaycan mətbuatında "Zəngəzur" haqqında müsbət məqalələr dərc olunub. Amma nədənsə bir kimsə bu kitabın Ermənistanda yaratdığı əks-səda ilə maraqlanmayıb. Kitabı təhlilə çəkən tənqidçilərimiz də əsasən iki xalqın dostluğundan, sadə ermənilərin mehribanlığından, sədaqətindən söz açıblar. Əsas mövzunun üstündən sükutla keçiblər. Təbii ki, o dövrün qanun-qaydaları elə idi ki, "Zəngəzur"un sovet boyunduruğundan salamat çıxması üçün müəllif əsərində dostluq, qonşuluq motivlərinə geniş yer verməli idi. Əslində elə müharibəni pisləmək, fitnə-fəsada bais olanları tənqid etmək hər bir yazıçının





vəzifəsidir, mənəvi borcudur. Bu mənada Əyyub Abbasov bütün xalqların sülh, əmin-amanlıq şəraitində yaşamasını arzulayırdı. O bilirdi ki, öz millətini qırğına, fəsada, cinayətə təhrik edən birinci növbədə elə öz xalqının düşmənidir. Yazıçı fakt və dəlillərlə, eləcə də öz gözləri ilə gördüyü hadisələrin köməyi ilə Andronikin, Nijdenin, Karonun, Baqratın... və başqalarının iç üzünü açaraq, ermənilərin məkrli siyasətlərini sərrast qamçılayaraq, rəzil portretlərini realist lövhələrlə bütün millətlərə təqdim edib. Dinc əhaliyə divan tutan, qadınların kürəyinə qaynar samovar bağlayan, körpələri süngüyə keçirən, göz çıxardan, baş kəsən, ev yandıran, el dağıdan androniklər, doğrudanmı, qəhrəmandır? Erməni xalqı belə bir rəzilləmi öyünür və fəxr edir? Əyyub Abbasov məşhur romanında, bax, bu haqlı sualların cavablarını istəyirdi.

Yenə də romanı vərəqləyək. Orada bir obrazın dili ilə səslənən sözlərə fikir verək: "Sözümün canı bundadır ki, gərək Şimal tərəfdən üstümüzə axıb gələn selin qabağını alaq! Bəli, bulanıq selin..." Çox incə siyasətlə qələmə alınan bu sözlərlə yazıçı hansı mətləbləri pıçıldayırdı, indi məlumdur. Təəssüf ki, o bəlanın qarşısı alınmadı. Bunun da hesabına bolşevik bayrağı altında Zəngəzurda talanlar başlandı. Və o talanların da nəticəsində Zəngəzur ermənilərin pəncəsinə keçdi. Kitabda belə bir haşiyə var: "İndi bizim yerlərdə yazdır, çöl, bayır göyərib, ağaclar yarpaqlayıb, çayın, bulaqların qıraqlarında yarpızlar baş qaldırıb. Eh, görəsən mənim ev-eşiyim hansı zalıma qismət oldu? Görəsən qızılgüllərimi qırıb tələf etmədilər ki? Biz kəndə qayıtsaq, ermənilər hər kəsin evini, torpağını özünə verəcəklərmi? ...Andronik kökümüzün üstündə od qaladı. Allah baisin evini başına uçursun, axı biz ermənilərə nə eləmişdik? Niyə məxluqu yerindən, yurdundan elədilər?!" Adamın inanmağı gəlmir ki, bu kəlmələr 1913-cü ilin aprel ayında səfalət içində yaşayan bir insanın dilindən qopur. Çünki indi qaçqın və didərgin həyatı yaşayan bir milyondan artıq soydaşımızın ürəyi məhz belə ağrı, acı içində döyünür.

Mərhum tənqidçi Məsud Əlioğlu yazırdı ki, romanda təsvir olunan Zəngəzur coğrafi mövqeyi, ərazi etibarilə Azərbaycanla Ermənistanın birləşdiyi yerdə yerləşir. Bura bir növ dağlar ölkəsidir. Sıldırım qayaları, yaşıl yamacları, zəngin təbii füsunkarlığı ilə fərqlənən bu yerdə yaşayan əhalinin təbiəti də öz gözəlliyi ilə seçilir. Hayıf ki, o gözəl təbiətli insanlar o dilbər guşələri bir daha itirdilər. Bais təkcə

ermənilərin rəzilliyi, məkrli siyasəti deyildi. Onların at oynatmağına meydan verən, iman yaradan səbəblərdən ən əsası bəlkə də bizim unutqanlığımız, həddən artıq humanist, böyük ürək sahibi olmağımız, bir sözlə, ilanı quzu donunda görməyimizdir. Bütün bunlardan sonra başımıza gələnlər bizə dərs olacaqmı? Yoxsa yenə də 50 ildən sonra "Zəngəzur" kimi əsərləri oxuyub özümüzü ittihama çəkəcəyik?

İndi Əyyub Abbasovun 100 illik yubileyidir. Cəmi 52 il yaşamış bu unudulmaz yazıçının öz xalqına bir növ vəsiyyəti olan "Zəngəzur" romanında Zəngəzur qırğınları bütün dəhşətləri ilə əks olunub. Təəssüf ki, bu əsər çoxdan çap edildiyindən onu gənc nəsil əldə edib oxuya bilmir. Latın qrafikası ilə "Zəngəzur"un çapına həqiqətən ehtiyac var. Hər şeydən əvvəl ona görə ki, o kitabda tariximizin izləri yaşayır.

2005.

# POZULMAYAN İZLƏR, SÖNMƏYƏN IŞIQLAR



Maraqlı həyat yolu və zəngin yaradıcılığı ilə seçilən, çoxcəhətli fəaliyyəti ilə xalqa, ədəbiyyata xidmət edən istedadlı tərcüməçi, ədəbiyyatşünas alim, əsl vətənpərvər Əziz Şərif ötən əsr Azərbaycan ədəbi mühitinin ən parlaq simalarından biri olub. Onu həmkarlarından fərqləndirən və tale yoluna əbədi işıq salan mühüm bir hadisə - böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadə ilə daim təmasda olması məhz bu fədainin ruhunda yetişməsini şərtləndirən əsas səbəbdir.

Əziz Şərif 1895-ci ildə Naxçıvanda anadan olub. İstər tərcümeyi-halı, istərsə də valideynləri və soykökləri ilə bağlı qələmə aldığı "Keçmiş günlərdən" adlı kitabda müəllif öz nəsli haqqında müfəssəl məlumatlar verib. Sənədli xatirələrdən ibarət





olan bu qiymətli məxəzi vərəqlədikcə tarixilik baxımından bəzi qaranlıq məqamlara işıq düşür. Güzgü tutulan hadisələrin fonunda neçə-neçə unudulmaz və böyük şəxsiyyətin parlaq portreti görünür.

Məlum olur ki, Əziz Şərifin hər iki nənəsi Qarakilsə (indiki Sisian) mahalındakı Şəki kəndində anadan olub. "Zəngəzur" romanının müəllifi, məşhur yazıçı Əyyub Abbasov Əziz Şərifin doğmaca xalası oğludur. Məhz erməni-müsəlman münaqişələri nəticəsində doğma yurddan perik düşmüş nəsillər sonralar ara sakitləşəndə tez-tez ana yurda baş çəkər, onun saf, təmiz qoynunda dinclik taparmışlar. Bu hadisələrlə bağlı Əziz Şərifin xatirələrində Zəngəzur dağlarının əzəməti boylanır, təbiəti dil açır. Hətta o illərin fotoşəkilləri də kitaba salınmışdır. Doğma vətəni Şəki haqqında yazırdı: "Səfalı, axarlı-baxarlı, çəmənli-çeşməli Şəkidəki kənd həyatı heç bir cəhətdən Naxçıvandakı şəraitə bənzəmirdi. Şəkidə hər kəs azad, dünyadan bixəbər yaşayar, qızlar, gəlinlər çadranın nə olduğunu bilməz, başında yaylıq, dodağında yaşmaq gəzər, dolanar, bulaqdan su daşıyar, xana qurar, xalı toxuyar, nehrə çalxalar, yayda biçin biçər, taxıl döyər, yuyar, qurudar, evin kişilərinə kömək edərdi. Bir sözlə desək, təbii həyat sürərdi".

Əzizin atası Qurbanəli Şərifzadə dövrünün çox mükəmməl biliyə malik, savadlı, bir neçə dil bilən şəxsiyyəti olub. Mirzə Cəlillə, Mirzə Ələkbər Sabirlə, Əliqulu Qəmküsarla çox yaxından dostluğu, ailəvi münasibətləri varmış. "Molla Nəsrəddin"in ən fəal yazarlarından biri olan Qurbanəli Şərifzadə bu jurnalın səhifələrində "Mozalanbəy", "Hacıleylək" və s. gizli imzalarla öz felyetonlarını, tənqidi yazılarını dərc etdirərmiş. Arxiv materiallarından məlum olur ki, M.Ə.Sabir həmişə Qurbanəliyə "Ruhum, canım Şərifzadə", - deyə müraciət edərmiş. Cəlil Məmmədquluzadənin Şərifzadəyə şəxsən bağışladığı "Molla Nəsrəddin" jurnalının cildinə yazılmışdı: "Bu kitabı mən verirəm hamıdan çox istədiyim Qurbanəliyə ki, bizlər də ölüb gedəndən sonra onun oğlanları bizim dostluğumuzu bu kitabı açan vaxt yada salsınlar". Hüseyn Cavid isə Qurbanəli Şərifzadəni "dövrünün fazla məlumatlara malik müəllimi, böyük istedad sahibi və qəhrəman bir rəhbəri" adlandırırdı. Hüseyn Cavidə görə, "Qurbanəli Şərifzadə mütəfəkkir bir alim həyatını yaşardı..." Firudin bəy Köçərli isə Qurbanəli Şərifzadənin vəfatı ilə bağlı 1917-ci ildə "Açıq söz" qəzetində yazırdı: "Millətimizin ruhu, həyatı, səadəti və mənəvi varlığı

Şərifzadənin zəif vücudunda müşahidə olunmaqda idi".

Təbii ki, belə məziyyət və zəka sahibinin övladı olmaq şərəfini Əziz hələ kiçik yaşlarından duymamış deyildi. Uşaqlıq illəri doğma Şəki kəndində keçən Əziz Şərifin ilk oxuduğu təhsil ocağı Naxçıvanda Məmmədtağı Sidqinin açdığı "Təbiyə məktəbi" olub. Orada neçə il oxuduğunu yaxşı xatırlamayan Əziz Şərif yazırdı: "İlk dəfə rusca dərsi mən bu məktəbdə keçdim. 1903-cü ildə isə müəllimimizin ölüm xəbəri bizi bərk sarsıtdı. Xüsusilə də atam Sidqinin qəfil ölümünə dözə bilmirdi". Bu səbəbdən Qurbanəli Şərifzadə oğlunu İrəvan gimnaziyasına qoymalı olub. Lakin o illərdə baş verən ermənimüsəlman münaqişələri gəncin bu şəhərdə oxumasına mane olub. Günlərin birində ata öz oğlunu İrəvandan Tiflisə gətirib. Tiflisdə Cəlil Məmmədquluzadə azərbaycanlı uşaqlar üçün xüsusi pansion açmışdı ki, yeniyetmələr burada oxuduqdan sonra gimnaziyada öz təhsillərini davam etdirə bilsinlər. Əziz Şərif yazırdı: "İlk dəfə Tiflisdə Mirzənin pasionuna gələndə mən xalis kənd uşağı idim. Heç nə bilməyən, heç nədən xəbəri olmayan kənd uşağı. Hər bir şey mənə maraqlı və təəccüblü gəlirdi. Pansionda piano var idi ... mən onu qarmona oxşadır, təəccüb edirdim ki, niyə onu açıb bükmək lazım gəlmir. Heyrət və təəccüblə bilik toplayaraq mədəni səviyyəmi yüksəldirdim". Tiflisdə gimnaziyada oxuduğu illərdə Əziz Şərif bir müddət Cəlil Məmmədquluzadənin ailəsində tərbiyə olunmuş, mütərəqqi ictimai ideyalara yiyələnmişdir. O dövrdə Tiflisdə fəaliyyət göstərən Azərbaycan aktyorlarını, sənətkarlarını da məhz Mirzə Cəlilin evində görmüşdü. Hətta Məmməd Rza Təhmasib, Hüseyn Ərəblinski ilə yoldaşlıq edərmiş.

Erməni quldurlarının 1905-ci ildə başladıqları qəddarlığın alovları bütün Azərbaycanı bürüməkdə idi. Naxçıvanda da qanlı qırğınlar törədilmiş, talanlar edilmişdi. Aranın belə qarışdığı bir vaxtda Qurbanəli kişi ehtiyatlanaraq Əziz Şərifi Tiflisdən Naxçıvana aparmışdı. 1906-cı ildə Cəlil Məmmədquluzadənin redaktorluğu ilə "Molla Nəsrəddin" jurnalının ilk nömrəsi işıq üzü gördü. Əziz Şərif öz xatirələrində yazır ki, jurnal çıxan gündən atam özü abunəçi yazılmış, Naxçıvanda bütün dost və tanışlarını da abunəçi yazdırmışdı. "Yadımdadır ki, jurnal bizə iki nüsxə gəlirdi. Bir nüsxəsi atamın adına, biri də məni jurnala həvəsləndirmək üçün mənim adıma". Beləliklə, Əziz Şərifin "Molla Nəsrəddin" jurnalında ilk yazısı çıxanda 15 yaşı





vardı. "Molla Nəsrəddin" jurnalının 16-cı nömrəsində çap edilmiş bu yazı "Əziz Qurbanəli oğlu Şərifzadə" imzası ilə çap edilib. Atası Qurbanəli Şərifzadənin arxivində bir sıra sənədlər və məktublar var ki, onlar Qurbanəli Şərifzadənin "Molla Nəsrəddin"in necə fəal yazarlarından olduğunu təsdiqləyir. Əlbəttə, Qurbanəli Şərifzadə peşəkar yazıçı, yaxud jurnalist olmayıb. Lakin dövrünün ağrı-acılarını dərindən duyan, xalqına, millətinə ürəyi yanan bir şəxsiyyət idi. Onun bu yöndəki yaradıcılığının tarixi əhəmiyyətini müəyyənləşdirmək, tədqiq etmək xüsusilə vacibdir.

Sonralar təhsilini davam etdirən Əziz Şərif Moskvada ali məktəb bitirmişdi. Sovet hakimiyyəti qurulduqdan sonra 1925-ci ildə (düz 10 il) Zaqafqaziya MİK-də işləmişdir. O, mətbuatda fəal çıxış edir, tədqiqatlar aparır, ədəbiyyatşünaslıqla bağlı maraqlı əsərlər qələmə alırdı. Əziz Şərif həm də respublikamızda tərcümə işinin banilərindən sayılır. O, rus və Azərbaycan dillərində bədii tərcümə sahəsində çox səmərəli fəaliyyət göstərmişdir. Cəlil Məmmədquluzadənin, Əbdürrəhim bəy Haqverdiyevin, Mir Cəlalın, Süleyman Rəhimovun, Mirzə İbrahimovun əsərlərini rus dilinə, Qoqolun, Qorkinin, Fadeyevin romanlarını, povest və pyeslərini ana dilimizə tərcümə etmişdir. O, ədəbi əlaqələrin yaxınlaşmasında, inkişafında sanballı xidmət göstərmişdir. "Naxçıvan məktubları", "Sabir bu gün", "Cəlil Məmmədquluzadə", "Molla Nəsrəddin"in yaranması", "Zaqafqaziya xalqlarının ədəbiyyatı", "Vaqif məhəbbət və gözəlik nəğməkarıdır" kimi əsərləri hələ sağlığında ona böyük şöhrət qazandırmışdır. "Keçmiş günlərdən" kitabının isə tarixi əhəmiyyəti daha böyükdür. Burada həm Azərbaycan tarixinin müəyyən məqamları faktlarla öz əksini tapıb, həm də ədəbiyyatımızın tanınmış simalarının bizə bəlli olmayan həyatı qələmə alınıb.

Əziz Şərif 1937-ci il repressiyalarının sarsıntılarını yaşamış, duymuş bir şəxsiyyət olmuşdur. Onun uşaqlıqdan sevdiyi Hüseyn Cavid o ağır illərin qurbanı olmuşdur. Müşkinaz xanım, Cavid öz xatirələrində minnətdarlıqla xatırlayırdı ki, o illərdə hamı bizdən üz döndərmişdi. Çoxu salam verməyə belə qorxurdu. Bu ağır və yalqız günlərdə Cavidlər ailəsini arayan, axtaran, onların ünvanına məktub yazan iki nəfərdən biri məhz Əziz Şərif idi. O, öz insanlıq borcunu sədaqətlə yerinə yetirirdi. Həmişə Turan Cavidə təskinlik verməyə, ona dayaq olmağa çalışırdı.

Filologiya elmləri doktoru Əziz Şərif həm də böyük pedaqoq idi. O 25 ildən artıq müddət ərzində, yəni ömrünün axırınadək M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin professoru olub. Azərbaycanın əməkdar elm xadimi Əziz Şərif Moskvada dünyasını dəyişəndə 94 yaşı var idi. Vəsiyyətinə görə Əziz Şərifi Naxçıvan qəbiristanlığında, atasının yanında dəfn ediblər. Burada bir qəribə uyğunluğu xatırlamamaq olmur. Qurbanəli Şərifzadə də erməni quldurlarının torpaq iddiasına düşdüyü vaxt dünyasını dəyişmişdi, Əziz Şərif də məhz 1988-ci ildə, soydaşlarımızın doğma torpaqlarından qovulduğu vaxt vəfat etdi. Ruhlarına daim dualar oxunan hər iki parlaq şəxsiyyət bütün varlıqları ilə torpağa, vətənə bağlı insanlar olublar. Vaxtilə Qurbanəli Şərifzadənin qəbri üstündə nitq söyləyən Rza Təhmasib belə bir söz demişdir: "Mərhum hürriyyət və ədalətin ən səmimi dostlarından biri di. Məşədi Qurbanəli bəy kimi vücudların fövt olub getməsi millət üçün ağır dərddir". Bu gün bu fikri eynən Əziz Şərif haqqında da söyləmək mümkündür. Amma bir təsəlli var ki, parlaq şəxsiyyətlərin saldığı izlər pozulmur, yandırdıqları mənəvi işıqlar isə heç vaxt sönmür.

## XƏYALIMIN QƏHRƏMANI



Şəkidə öz nüfuzu ilə seçilən nəsillər, ailələr çox olub. Bu sırada Babayevlər ailəsinin özünəməxsus şöhrəti var. Hələ sovet dövründən başlayaraq öz ziyalıları, məşhur adamları, elm xadimləri ilə seçilən Babayevlər ailəsi bir neçə nəslin formalaşmasında böyük rola malikdir. İndi də həmin insanları məhəbbətlə xatırlayırlar. Əli, Kamran, Vəli, Ramiz, Məmməd Babayevlər haqqında söylənilən xoş xatirələr adamın ürəyini riqqətə gətirir. Litvin Məhəmməd oğlu Babayev isə qəhrəmanlığın şəhidlik zirvəsinə yüksəlmiş oğullarımızdan biri olub. O, 1994-cü ildə Qarabağ uğrunda ge-





dən döyüşlərdə qəhrəmancasına həlak olub.

Bu nəsildə uşaqlıqdan mənim xəyalımın qəhrəmanı olan bir xanım da var idi. Bu, Güllər Babayeva idi. O, 1924-cü ildə Mirzəqulu Babayevin ailəsində anadan olmuşdu. Atası I Dünya müharibəsində həlak olmuşdu. Ailənin bütün qayğıları ilk övladın üzərinə düşmüşdü. Güllər xanım, sözün həqiqi mənasında, bir cəngavər qadın olub. Söhbət təkcə onun şəxsi həyatındakı fədakarlığından getmir. Bir vətəndaş olaraq, bir türk qızı olaraq Güllər xanımın bioqrafiyasında bu gün çoxuna örnək ola biləcək hünər nümunələri var. Mən hələ uşaq ikən onun haqqında əfsanəyə bənzər söhbətlər eşidirdim. Eşitdiklərimin nə dərəcədə həqiqət olduğunu sonralar anladım. O, ötən əsrin 60-cı illərində Qarakilsə rayon (Sisian) Partiya Komitəsində katib işləyib. Həmin vaxt Güllər Babayevanın həyatının çox ağır və çətin dövrünü əhatə edib. O, tez-tez dost cildinə bürünmüş, əslində türkün qanına yerikləyən ermənilərin min cür hiyləsi ilə üz-üzə gəlib. Vaxtilə qondarma "genosid"in 50 illiyi ilə əlaqədar rayonda Andronikə abidə qoymaq istəyirmişlər. Məhz Güllər Babayevanın ciddi səyləri nəticəsində daşnaklar bu arzularını həmin vaxt reallaşdıra bilmədilər. Amma ürəklərində bu xanıma qarşı qisasçılıq hisslərini oyaq saxladılar. Elə həmin vaxtlarda İrəvanda bir plenum keçrilmişdi. Onun profili elə idi ki, yığıncaqda ancaq Ermənistanın rayon partiya komitləri və digər sahələrə rəhbərlik edənlər, yəni birinci şəxslər iştirak edirdilər. Sisian rayon Partiya Komitəsinin birinci katibi hansısa səbəblər üzündən həmin məclisə gedə bilməyib. Bu iş Güllər Babayevaya tapşırılıb.

Plenumun işində o vaxt SSRİ-də ad çıxarmış, Lenin haqqında bir sıra yazıların müəllifi kimi tanınmış Marietta Şaginyan da iştirak edirmiş. İclas zamanı ermənilər Şaginyana belə suallar veriblər: "Bizim "Böyük Ermənistan" arzumuz nə vaxt reallaşacaq? Bizim Türkiyə və Azərbaycan ərazilərinə qatılmış torpaqlarımız nə vaxt qaytarılacaq?" Maraqlıdır ki, Şaginyan öz soydaşlarına belə cavab verib: "İndi sovet hökuməti vaxtıdır. Bu məsələləri ciddi şəkildə qaldırmaq olmaz. Hər şeyin öz vaxtı var. Amma siz öz körpələrinizin qulağına hələ beşikdə ikən deməlisiniz: "Türk sənin düşmənindir. Sən "Böyük Ermənistan"ın qurucusu olmalısan, sənin ana torpaqların Türkiyənin və Azərbaycanın ərazisindədir".

Təbii ki, ermənilərin yuxarı eşalonunda əyləşənlər zənn etmirdilər ki, salonda azərbaycanlı var. Amma Güllər xanımı, təbii ki, tanıyanlar

var idi. Hətta biri "canyananlıqla" onun qulağına pıçıldamışdı: "Özünü qoru, çətin sən Sisiana salamat qayıdasan". Güllər Babayeva soyuq qış günündə başqaları şübhələnməsin deyə, paltosunu qarderobdan almadan birbaşa aeroporta getmiş, oradan da təyyarə ilə Bakıya uçmuşdur. Bakıda SSRİ hökumətinin rəhbərlərinə teleqramlar vuraraq plenumdakı söhbətlərin mahiyyətini bildirmişdir. Doğrudur, həmin vaxt SSRİ hökuməti bu işə dərhal reaksiya verərək Ermənistan KP MK-nın birinci katibi Koçinyanı tutduğu vəzifədən azad etdi.

Lakin Güllər Babayevanın həyatı yenə də təzyiqlərə, təqiblərə məruz qaldı. Ermənilər tez-tez milli ədavəti qızışdıracaq hərəkətlərə yol verir, azərbaycanlılara qarşı böhtan dolu plan hazırlayırdılar.

Belə iyrənc planlardan biri 1968-ci ildə baş tutdu. Şəki kəndində ermənilərin özləri tərəfindən qətlə yetirilən bir dığanın ölümünü azərbaycanlı yeniyetmənin üstünə ataraq ailə başçısını və oğlanı həbs etdilər. Həmin vaxt Güllər Babayeva bütün varlığı ilə çalışaraq günahsız yerə həbs edilmiş ata və oğulun çəkəcəkləri cəzanı Azərbaycan həbsxanalarında baş tutmasına nail oldu. Bununla da erməni həbsxanalarında ağır işgəncələrə məruz qalan iki azərbaycanlının həyatı xilas edildi.

Güllər Babayeva uzun müddət Bakı şəhərində yaşayıb, müəllimlik fəaliyyəti ilə məşğul olub. 1988-ci ildə soydaşlarımızın doğma yurdlarından didərgin edilməsi onun sinəsinə çalın-çarpaz dağ çəkdi. Bu hadisələrlə bağlı bir çox yerlərə, xüsusən keçmiş SSRİ-nin rəhbərlərinə dönə-dönə teleqramalar göndərdi. Amma heç bir şeyin faydası yox idi. Bir tərəfdən də qohum-əqrəbalarının övladları Qarabağ müharibəsində şəhid olurdu. 20 Yanvar faciəsi, Xocalı soyqırımı... bütün bu müsibət və bəlalar ömrü çox qovğalar görmüş Güllər Babayevanın vətən həsrəti ilə gözlərini əbədi yummasına səbəb oldu. O, 1999-cu ildə dünyasını dəyişdi.

...Qardaşı qızı Ziyafət xanım bibisi haqqında öz bildiklərini danışdıqca mənim də xəyalım qədim Zəngəzura qanadlanırdı. Hələ uşaq yaşlarımda ikən xəyalımda qəhrəman qadın obrazını yaratdığım bir xanımın həqiqətən də hünərli, cəsarətli, ən başlıcası, milli qürura sahib olması məni xeyli riqqətə gətirdi. Məhz belə anaların dünyaya gətirdiyi oğullar bu vətəni, bu xalqı düçar olduğu zillətdən xilas edəcək. Mən buna əminəm. Yəqin ki, indi axarlı-baxarlı Şəkinin başı üstündə bir ananın nigaran ruhu dolanmaqdadır.





## GÖZ HƏKİMİ



Şəkidə bir ziyalı ailə yaşayırdı. Təbriz Kərimovun ailəsi. O, 1939-cu ildə Şəki kəndində pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Uzun illər şəkililərin maariflənməsində əvəzsiz əməyi olan Təbriz Kərimovun Zəngəzur mahalında böyük nüfuzu var idi. Qarakilsənin maarifpərvər, gözüaçıq oğullarından biri olan Təbriz müəllim həm də millətimiz, xalqımız üçün ləyaqətli övladlar böyüdüb tərbiyə etmişdir. Bu işıqlı ailənin oğullarından biri Kərəm Kərimovdur.

O, 1947-ci ildə Şəkidə anadan olmuşdur. Orta məktəbi qızıl medalla bitirən Kərəm Təbriz oğlu bir müddət müxtəlif ali məktəblərdə - Azərbaycan Dövlət Neft və Kimya, Politexnik institutlarında təhsil alsa da, içindən gələn arzusu ona bu ali məktəblərdə təhsilini tamamlamağa imkan verməyib. Hələ uşaqlıq illərindən ağ xalatlı həkimlərə məhəbbətlə baxan, özünü onların sırasında görən yeniyetmə arzularının dalınca gedərək Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olub. 1974-cü ildə həmin institutu bitirdikdən sonra bir sıra elmi-tədqiqat ocaqlarında, göz xəstəxanalarında oftalmoloq işləmişdir.

İnsan əzalarının hamısı gərəklidir. Tanrı onu xəlq edəndə orqanizmin bütün üzvlərinə xüsusi missiyalar bəxş etmişdir. Etiraf edək ki, insan üçün göz daha önəmlidir. Çünki bütün aləmin gözəlliyi, düzlüyü, əyriliyi - hamısı məhz göz vasitəsilə insana bəlli olur. Göz işıqlı həyat, xoşbəxtlik, görmək, sevmək, baxmaq, düşünmək deməkdir. Göz əvəzsiz nemətdir. Bu səbəbdən də Kərəm Kərimov göz həkimi kimi çox gərəkli bir missiyanı yerinə yetirir. Onlarla, bəlkə də yüzlərlə insanın gözlərinə şəfa verən, onun görmə qabiliyyətini qaytaran Kərəm Kərimovun neçə-neçə qəlbdə, ürəkdə mənəvi abidəsi ucalıb. O, 1985-ci ildə "Azərbaycan Respublikasında görmə üzrə ilkin əlillik, korların və zəif görənlərin reabilitasiyası" mövzusunda

namizədlik dissertasiyasını müdafiə etmişdir. Bir müddət Qlaukoma və Əlillərin Reabilitasiya Mərkəzinin müdiri vəzifəsində çalışmışdır. Mikrocərrahiyyə ilə məşğul olan və bu sahədə böyük uğurlar qazanan, həm respublikamızda, həm də dünyada məşhurlaşan Kərəm Kərimov 1997-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1998-ci ildən 2005-ci ilə qədər akademik Zərifə Əliyeva adına Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun direktoru vəzifəsində çalışmış bu məşhur göz həkimi hazırda "Ekzimer" və "Fako lazer" mərkəzlərinin rəhbəridir. Onun barəsində Milli Məclisin deputatı Nizami Cəfərov belə deyir: "Professor Kərəm Kərimov tibdə çox mühüm sahələrdən birini tutan göz xəstəlikləri ilə məşğuldur. O, əslində bu sahə üzrə elmdə böyük məktəb yaratmış, çoxlu elmlər namizədi, bir neçə elmlər doktoru hazırlamışdır. Professor Kərəm Kərimov xarici ölkələrdə də tanınan alimlərdəndir. Onun bir sıra ölkələrdə keçirilən simpozium və beynəlxalq konfranslarda məruzələri maraqla dinlənilir, elmi, biliyi yüksək dəyərləndirilir".

Tibb elminin inkişafında özünəməxsus xidmətləri olan Kərəm Kərimovu xəstəsi olmuş insanlar onu böyük məhəbbətlə sevir, bir alim kimi yüksək qiymətləndirirlər. Onun sadəliyindən, həssaslığından, insanlara qayğıkeş münasibətindən, ürəyinin genişliyindən ağızdolusu danışırlar.

Belə bir müdrik fikir var: "Həkim insanlara verilən əlavə ömrün müəllifidir". Bu sözlərdən gələn həqiqətin işığında bir məsələ də çox düşündürücüdür. Bəs zülmətin bağrını bıçaqla yararaq insanın ruhuna, varlığına nur göndərən, onu bu işıqlı aləmin bəxtəvərinə çevirən adama nə deyək? Sadəcə, göz həkimimi?! Məncə, bu gözəl ifadədir. Təmtaraqdan uzaq, amma mənalı, dəyərli. Gözə təbiblik edən insan daha alidir, daha ucadır. Sevinirəm ki, Şəkidə ziyalı bir ailədən pərvazlanaraq böyük Azərbaycanımızın neçə-neçə övladının gözünə nur paylayan Kərəm Kərimov belə incə, həssas, çətin bir sənətin - göz həkimliyinin öhdəsindən qabiliyyətlə, bacarıqla və cəsarətlə gəlir. Ocağınızın işığı gur, əllərinizin şəfası bol, ömrünüz uzun olsun, gözlərə nur qaytaran Kərəm müəllim!





# TARİXDƏN GƏLƏN SƏSLƏR



Məcnun Kərimov Zəngəzurun tanınmış ziyalılarından biridir. O, Şəki kəndində anadan olmuşdu. Uşaqlığının min bir xatirəsi bu doğma yerlərlə bağlıdır. "Azərbaycan" qəzetində onun haqqında bir neçə yazım dərc olunub.

Onların ilk çıxışı böyük maraqla qarşılandı. İnsanlar öncə eşitdikləri qəribə və ecazkar melodiyaların təsirindən xəyala dalmiş kimi uyudular. Sanki tarix kitablarında, klasik ədəbiyyatda oxuduqları, bir də nə vaxtsa analarından eşitdikləri laylalar səs adlı qüdrətdən can alaraq ayaq açıb varlıq kimi yeriyirdi, min bir şəkilə düşürdü. Dil açıb danışdığı şirin əfsanələr əsrlərin o tayından - çox uzaqlardan qanadlanırdı. Bu səslərin ahəngindəki doğmalıq, şirinlik, cazibədarlıq adamın sümüklərinə qədər yeriyir, ürəyin döyüntüsünə qarışaraq sözlə ifadəsi çətin alınacaq bir ovqat yaradırdı.

Tarix yalnız salnamələrdə, daş kitabələrdə, abidələrdə, xalçalarda əks olunmayıb. O, həm də ruhun qidası sayılan musiqidə, ifaçılıq alətlərində, mahnılarda, muğamlarda min bir libasda yaşamaqdadır. Mədəniyyət tariximizin dərin qatları açıldıqca çox həqiqətlər üzə çıxır. İndi dünyanın məşhur ansambllarının, ayrı-ayrı sənətkarların böyük məharətlə ifa etdiyi "Qərbə məxsusdur" etiketinə malik müasir formalı, özgə adlı musiqi alətləri var ki, əcdadı məhz qədim Şərqdir. Çoxunun da ilk vətəni Azərbaycandır. Təəssüf ki, uzun illər bu məsələyə laqeyd münasibət bəslənildiyindən, bir o qədər ciddi əhəmiyyət verilmədiyindən milli sərvətlərimizin çoxu ya tamam sıradan çıxaraq unudulub, ya da başqa məmləkətin "sakin"lərinə çevrilib.

Bütün bunlarla bərabər texniki kəşflər, müasir dünyanın yenilikləri insanı öz sehrində nə qədər möhkəm saxlasa da, zamanın özünəməxsus hökmü var. Xüsusilə də Şərq insanı öz mentalitetinə, qədim

ənənələrinə, soykökünə, milli dəyərlərinə dərin bir ehtiyac, aclıq duyur. Ən nəhəng konsert salonlarında müxtəlif orkestrlərin saldığı gurultunun, səsin içində könlünü qəfildən bir neyin, tütəyin həzin sədası alıb aparır.

İllərdir ki, xalq sənətimizin təbliğatçısı, milli musiqi alətlərinin bənzərsiz bərpaçısı, bəlkə də çoxunun yenidən yaradıcısı Məcnun Kərimov Azərbaycan musiqi mədəniyyəti tarixində özünəməxsus bir yer tutur. Hələ uşaqlıqdan milli musiqi alətlərinə olan marağı Məcnun Kərimovu uzun illər bu sahədə tədqiqatlar aparmağa sövq edib. 1988-ci ildə Şah İsmayıl Xətayinin 500 illik yubileyinə həsr olunmuş tədbirdə birdən-birə tamaşaçılar səhnədə qeyri-adi bir ansambl gördülər. Bu ansamblın qeyri-adiliyi ondan ibarət idi ki, bütün ifaçıların əlindəki alətlər ilk dəfə idi ki, seyr edilirdi. Məcnun Kərimov bu alətlərin həyata qayıtmasına böyük əmək sərf etmişdir. Klassik və orta əsr ədəbiyyatını mütaliə edərək Nizaminin, Füzulinin əsərlərində adları çəkilən musiqi alətlərinin bərpasına cəsarət etməyinin bir səbəbi də bu idi ki, klassik şairlərimiz öz əsərlərində qədim musiqi alətlərinin nəinki adını çəkir, hətta onun formasını, quruluşunu verir, simlərinin sayını göstərirdilər. Bəzi hallarda bu alətlərdə çalmaq qaydalarından da danışıblar. İlk konsertdən sonra uzun bir müddət ərzində Məcnun Kərimov bir sıra alətlərin bərpasına nail oldu. 1996-cı ildə bu ansamblın konsertinə qulaq asan ümummilli lider Heydər Əliyev sənət fədailərinin məharətinə heyran olduğunu gizlətməyərək :"Biz həm milli musiqimizi, həm də milli ifaçılıq alətlərimizi mütləq qorumalıyıq" - söyləmişdir. Unudulmaz şəxsiyyətin sərəncamı ilə Milli Musiqi Alətləri Ansamblına elə həmin ildə dövlət statusu verildi. Bu, çox yüksək, dəyərli bir qiymət idi və bu sərəncamdan sonra Məcnun Kərimov daha da ilham və məhəbbətlə, böyük məsuliyyət və vurğunluqla öz işini davam etdirdi.

Musiqi Mədəniyyəti Dövlət Muzeyinin nəzdində fəaliyyət göstərən Qədim Musiqi Alətləri Ansamblı payızda keçiriləcək yubileyinə hazırlaşır. Onlar öz yubileylərini məhz ümummilli liderimiz Heydər Əliyevin imzaladığı sərəncamın tarixi ilə bağlayırlar.

Hazırda ansamblın repertuarında 30-a yaxın musiqi nömrəsi var ki, onların əksəriyyəti orta əsr musiqi mədəniyyəti nümunələridir. Ansamblın üzvləri 60-dan çox qədim musiqi alətlərindən istifadə edirlər. Onlardan cəmi 17-si dövrümüzə qədər gəlib çıxmışdır. 12-si





tamamilə yenidən bərpa edilib, qalanları isə təkmilləşdirilib. Səfiəddin Urməvinin qeydlərinə əsasən, üzərində işlədikləri, bərpasına çalışdıqları növbəti alətin adı nüshədir. Bu alət qanun (səhvən onu kanon da adlandırırlar - F.X.) və çəngə bənzəyir. Əslində bu alət çənglə kanonun sintezindən yaranıb, 81 simi var.

İndi bu kollektivin sorağı müxtəlif ölkələrdən gəlməkdədir. Festivallara, yarışlara, musabiqələrə tez-tez qatılan Milli Musiqi Alətləri Ansamblı tamaşaçıları əfsunlamaqda davam edir.

Bakı Musiqi Akademiyasının xalq çalğı alətləri kafedrasının dosenti Məcnun Kərimov 1991-ci ildən bu ali məktəbin qədim musiqi alətlərinin bərpası və təkmilləşdirilməsi elmi laboratoriyasının müdiri vəzifəsində çalışır. Söhbət zamanı maraqlı faktlara toxunan Məcnun Kərimov dedi: "Azərbaycanın məşhur musiqişünası Səfiəddin



Urməvinin (XIII əsr) risalələrində təsvir edilmiş musiqi alətlərini tədqiq və bərpa etməyə çalışdıq. Nəticədə 10 qədim musiqi aləti - çəng, çəganə, çoğur, rud, rübab, səntur, tənbur, bərbət, qopuz və ney yenidən bərpa edilərək həyata qaytarılmışdır. Orta əsrlərdə dünyada ilk musiqi nəzəriyyəsini yaradan azərbaycanlı Əbdülqadir Marağayi olub. Hazırda ansamblımız onun XIV əsrdə yazdığı üç əsərini ifa edir. İlk əbcət

hesabı ilə yazılmış bu musiqi notlarını Türkiyədən tapıb gətirdik".

Ansambl özünün təkrarolunmaz proqramı ilə on il müddətində böyük şöhrət qazanmış, xoş sorağı müxtəlif konsert salonlarından gəlməkdədir. 2002-ci ildə Fransada keçirilən "Roman yolu və səsi" adlı beynəlxalq festivalda iştirak edən Qədim Musiqi Alətləri Ansamblı YUNESKO-ya dəvət almış, onun iqamətgahında geniş konsert proqramı ilə dinləyiciləri heyrətə salmışdır. Ansamblın üzvlərindən Nuriyyə Hüseynova, Teyyub Aslanov son dərəcədə şirin, məlahətli avazları ilə musiqi alətlərindən qopan melodiyalara xüsusi ahəng gətirirlər. Onların səsləri də, sanki çox qədimdən gəlir. Bu ansamblda təkcə çalğıçılar deyil, oxuyanlar da tamaşaçıları valeh edirlər. Səslə musiqinin qovuşuğundan çox qəribə, könülə rahatlıq gətirən bir aləm yaranır. Məcnun müəllim söyləyir ki, musiqi alətlərinin bərpası o qədər də asan olmur. Çünki elə əşyalar var ki, onları tapmaq həqiqətən çox çətindir. Qədimdə istifadə olunan musiqi alətəlri üçün seçilən materiallar çox təbii və keyfiyyətli olub. Onları indiki kimi sintetik maddələrdən deyil, əsl dəridən - özü də hər dəridən yox - dana dərisindən, qoyun bağırsağından, meşələrdə bitən müxtəlif ağac növlərindən hazırlayıblar. Bəlkə də buna görədir ki, həmin musiqi alətlərinin simlərindən qopan sədalar müasir alətlərdən xeyli fərqlənir.

İtirilmiş və unudulmuş hər hansı mədəniyyət incisinin yenidən bərpa olunaraq həyata qaytarılması, ondan məharətlə istifadə edilməsi gələcəyimizə xidmətdir. Məsələnin bir başqa tərəfi isə daha önəmlidir. Azərbaycan mədəniyyəti dərin köklərə, ənənələrə malikliyini bir daha sübut edir. Söhbət zamanı Məcnun Kərimovdan eşitdiyimiz bir xatirə də diqqətimizi çəkdi: "1996-cı ildə Yusif Məmmədəliyevin yubileyində çıxış edərkən ulu öndər Heydər Əliyev bizə çox diqqətlə qulaq asmışdır. O, bizim ifamızı çox bəyənmişdi. Bu hadisədən bir il sonra isə Novruz bayramında İçərişəhərdə biz onunla görüşdük. Açıq havadakı 40 dəqiqəlik konsert proqramımıza böyük məmnuniyyətlə qulaq asan Heydər Əliyev bu fikirləri söylədi: "Çox şadam ki, belə bir işlə məşğulsunuz... Qədim musiqini qorumaq, inkişaf etdirmək gələcək nəsilə bir ərmağandır".

Uzun müddət milli musiqimizə, xalq mahnılarımıza, muğamlarımıza qarşı bir laqeydlik var idi. Məlumdur ki, YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı





Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bu sahədəki boşluqların üzərindən qətiyyətlə xətt çəkildi. Qarabağ xanəndələrinin ifaçılığını əks etdirən xüsusi albom buraxıldı. Bakıda Muğam evinin yaradılması ilə bağlı ölkə Prezidenti tərəfindən sərəncam verildi. Azərbaycan Dövlət Filarmoniyasında müntəzəm olaraq xanəndələrin muğam gecələri təşkil edilir, muğam müsabiqələri müvəffəqiyyətlə həyata keçirilir. Bir sözlə, mənəvi yaddaşımıza, soyköümüzə qayıdışın yolu ruhumuzu ehtizaza gətirən, ana südü kimi varlığımıza hopmuş milli musiqinin təbliği, qorunması ilə bağlı görülən işlərdən keçməkdədir. Bu sırada Milli Musiqi Alətləri Ansamblın da öz xidməti var. Mehriban xanım Əliyeva bu maraqlı kollektivin də səmərəli və mükəmməl fəaliyyət göstərməsi üçün diqqət və qayğısını əsirgəmir. Bakıya gələn qonaqlara təqdim edilən konsert proqramlarında, görüşlərdə Məcnun Kərimovun bədii rəhbəri olduğu Milli Musiqi Alətləri Ansamblı da müntəzəm dəvətlər alır. Çıxışları maraq və rəğbətlə qarşılanan bu gözəl ansamblı qarşıda hələ çox uğurlu görüşlər, səfərlər və konsert proqramları gözləyir.

**2006.**

## ŞƏKİDƏN QARABAĞA BİR KÖÇ GƏLİRDİ

Məmmədxan Zamanov 1904-cü ildə Şəkidə varlı bir ailədə anadan olmuşdu. Atası Kərim kişi yüzbaşı idi. Dövrünün gözüaçıq elmli adamı olan yüzbaşı təhsilə, maarifə yüksək qiymət verirmiş. O, övladlarını elmli görmək üçün kiçik yaşlarında onlara müəllim tutmuşdur. Kərim kişi özü də Qurani-Kərimi gözəl oxuyur, ayələrini əzbər bilirdi. Rus dilində mükəmməl danışan Kərim kişinin həyat yolu çox maraqlı olmuşdur. O, hətta bir müddət (1897-1905) Zəngəzur mahalında pristav müavini vəzifəsində çalışmış, sonra isə həm Şəkidə, həm də ətraf kəndlərdə yüzbaşılıq etmişdir. Övladlarının söylədiyi xatirələrə görə Kərim kişi çox sərt və qətiyyətli şəxs imiş. Kərim kişinin şəxsiyyəti haqqında yazıçı Əyyub Abbasovun "Zəngəzur" romanında müəyyən məlumatlar var. O, 1916-cı ildə taun xəstəliyindən vəfat etmişdir.

1918-ci ildə Zəngəzuru bürüyən iğtişaşlar zamanı ermənilər Məmmədxanın iki qardaşını onun gözü qarşısında doğramışlar. 14 yaşlı



yeniyetmə ömrü boyu bu qanlı hadisəni yadından çıxara bilməmişdir. Kərim kişinin ailəsindən sağ qalan digər ailə üzvləri bir qədər Laçında məskunlaşmış, sonra isə Karyaginə (Füzuli) üz tutmuşlar. Bu kənddə Kərim kişinin Bayram bəy adlı bir dostu yaşadığına görə ailə onlara pənah gətirmişdi. Bir müddət burada yaşadıqdan sonra Məmmədxan yeni həyat tərzinə alışmışdı. Gözü necə qorxmuşdusa, bir daha doğulduğu torpağa qayıtmaq istəməmişdi. Şəkidən qanadlanan köç Qarabağda əbədi məskən saldı. Buna əsas səbəb Məmmədxanın gözlərindən çəkilməyən qanlı hadisə idi. Məmmədxan dərd-sərə qalib gələrək böyüdü. Qarabağın gözəl bir qızı Afərim (yazıçı İlyas Əfəndiyevin xalası) xanımla ailə həyatı qurdu. Onlar 1924-cü ildə Ağdama köçərək burada yaşamalı oldular. Həyat bütün dərd-səri unutdurmuşdu. Məmmədxanın yeddi övladı olub. Onlardan beşi səhiyyə sahəsində təhsil alıb, bir övladı geofizika sahəsində, digəri isə rəssamlıqda ad-san qazanıb. Məmmədxan kişi 1934-cü ildən 1957-ci ilə qədər respublikanın müxtəlif rayonlarında milis sistemində rəhbər vəzifələrdə çalışıb. Həmişə obyektivliyi, cəsurluğu ilə seçilən Məmmədxan Zamanov 1967-ci ildə vəfat edib və Ağdam şəhərində torpağa tapşırılıb.









## Ailənin böyük övladı

Məmmədxan kişinin birinci övladı Minayə Kərimova 1927-ci ildə Ağdam şəhərində anadan olmuşdur. 1950-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirən Minayə xanım terapevt kimi fəaliyyətə başlayıb. O hazırda bir nömrəli poliklinikada baş həkimin müavini vəzifəsində çalışır. İki övladı var. Həyat yoldaşı da, akademik Həsən Əhmədovun oğlu Hüseyn müəllimdir.

## Atanın alim övladları



Hüsü Kərimov da 1928-ci ildə Ağdam şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Bakıya gəlmiş, böyük bacısının yolu ilə gedərək Azərbaycan Dövlət Tibb İnstitutunda təhsil almışdır. Ali məktəbi qırmızı diplomla bitirən Hüsü Kərimov elmlər doktorluğuna qədər şərəfli ömür yolu keçmişdir. Onun rəhbərliyi ilə neçə-neçə elmlər namizədi, elmlər doktoru yetişmişdir. Monoqrafiya və yüzdən artıq elmi məqalənin müəllifi olan Hüsü Kərimov həm də ləyaqətli ailə başçısı olmuşdur. Onun iki oğul övladı ata yolunu davam etdirmişdir. Sənan Hüsü oğlu Kərimov tibb elmləri doktoru, professordur. Hazırda Azərbaycan səhiyyə nazirinin müavini vəzifəsində çalışır.

Məmmədxan kişinin övladlarından biri də Kərim Kərimovdur. O, 1933-cü ildə Ağdam şəhərində anadan olmuşdur. Bacı-qardaşlarından



fərqli olaraq Kərim 1957-ci ildə Azərbaycan Sənaye İnstitutunu bitirmişdir. Bir müddət EA-nın Dərin Neft-Qaz Yataqları Problemləri İnstitutunda baş mühəndis vəzifəsində çalışmışdır. İşləməklə bərabər o, elmi axtarışlarla məşğul olmağa üstünlük vermiş, geofizika ixtisası üzrə aspiranturada təhsil almışdır.

1965-ci ildən 1992-ci ilə qədər Azərbaycan Geofizika Elmi-Tədqiqat İnstitutunda müxtəlif vəzifələrdə çalışan Kərim Kərimov 1994-cü ildən geofizika və mühəndis geologiyası İB-nin baş direktorudur. 1964-cü ildə namizədlik, 1975-ci ildə doktorluq dissertasiyalarını müdafiə etmişdir. Professor Kərim Kərimov 1991-ci ildə "Əməkdar elm və texnika xadimi" adına layiq görülmüşdür.

1995-ci ildə Beynəlxalq Ekoenergetika Akademiyasının həqiqi üzvü seçilmiş, 1997-ci ildə isə həmin akademiyanın vitse-prezidenti təyin olunan Kərim Kərimov 2000-ci ildə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış Lütfi-Zadə adına Akademiyanın akademiki seçilmişdir. "Şöhrət" ordenli eloğlumuz 2001-ci ildən AMEA-nın müxbir, 2002-ci ildən isə Avropa Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

500-ə yaxın əsərin, 7 monoqrafiya və 13 ixtiranın müəllifi olan Kərim Kərimovun elmi nailiyyətləri, uğurları həddən artıq çoxdur. Onun əsərləri dünyanın müxtəlif ölkələrində çıxan elmi jurnallarda çap edilir. Şöhrəti vətəndən kənarlara yayılan Kərim Kərimov həm də yaradıcı şəxsiyyətdir. O, 1965-ci ildən Jurnalistlər İttifaqının üzvüdür. Maraqlısı odur ki, Kərim Kərimov təkcə geofizika sahəsində çalışmır. O, həm də karikaturaçı rəssamdır. Rəssamlar İttifaqının üzvüdür. Dörd mindən artıq siyasi plakat və karikaturanın müəllifidir. Son illərdə təkcə Bakıda deyil, Moskvada, Sankt-Peterburqda, İstanbulda fərdi sərgiləri təşkil edilmişdir.





## ŞƏKİNİN ADINI SOYADINDA YAŞADAN SƏNƏTKAR



Xalq artisti Barat Şəkinskaya Azərbaycan mədəniyyətinin inkişafında misilsiz xidmətləri olan unudulmaz sənətkarlarımızdan biridir. Onun haqqında tədqiqat aparanlar bir yanlışlığa teztez yol verirlər. Bu da onun soyadı ilə bağlıdır. Hətta tanınmış teatrşünaslardan biri bu soyadı Şəki ilə (Nuxa Şəkisi) əlaqələndirir. Halbuki bu tamamilə səhvdir.

1996-cı ildə Barat xanımla olan bir söhbətimi heç unuda bilmirəm. Mən də böyük sənətkarımızın "Şəkinskaya" soyadını daşımasına görə həmişə onu şəkili (Nuxa) bilirdim. Amma Barat xanım kövrək bir şəkildə "Doğulduğum yer gözümdən çəkilmir. Hər gecə yuxularımın vətəni Şuşadır" - deməsi həm təbii, həm də heyrətli idi. O danışdı ki, 1914-cü ildə Şuşada anadan olub. Anası Ağca xanım yazıçı Əbdürrəhimbəy Haqverdiyevin bacısı qızıdır. Kökü də möhtəşəm bir nəslə - Pənah xana, İbrahim xana gedib çıxır. Dağıstan xanının baldızı, acar qızı Yelena Abaşidze ilə evlənən İbrahim xanın bu izdivacdan Gövhər və İsgəndər adlı oğulları olur. İbrahim xan sevimli zövcəsinə - acar qızına Zəngəzuru bağışlayıb. Gövhər ağa da Qarakilsədəki (indiki Sisian) Şəki kəndində yaşamağı, dincəlməyi çox sevrəmiş. Elə bu kəndin adını da özünə soyad götürüb. Bu səbəbdən də Barat xanımın familiyası Şəkinskayadır. Babaların soyadını ömrü boyu fəxrlə daşıyan və yaşadan aktrisamız iftixarla deyərdi: "Zəngəzurda bir kənd var e, dağların qoynunda, adı Şəkidir. Bax mənim familiyam da oradan gəlir. Babamın torpaqları olub"

AzTV-də gedən verilişlərin birində jurnalist Mailə Muradxanlı Barat Şəkinskaya ilə müsahibə aparırdı. Yenə də söz soyaddan düşdü. Barat xanım özünəməxsus yumşaq səslə dedi: "Zəngəzurda bir kənd var e, adına Şəki deyirlər...". Yəqin ki, bu lent fondda durur. Yaxşı olar ki,

coğrafi baxımdan Şuşaya daha yaxın olan Şəkini qoyub hər şeyi uzaqlara aparmasınlar. Elə faktlar var ki, onu olduğu kimi demək lazımdır. Şəkinin adını soyadında yaşadan Barat xanıma Tanrıdan rəhmətlər diləyirik.

## "ŞƏKİ GÖZLƏRİMDƏN ÇƏKİLMİR"



Nəbi Əli oğlu İmanov iş adamıdır. Sahibkarlıq fəaliyyəti ilə məşğuldur. Bakının Binəqədi rayonunda, eləcə də ətraf qəsəbələrdə hamı onu xeyirxah, mərd, sözübütöv, fərasətli, yetim-yesirin pənahı, səxavət yiyəsi kimi tanıyır. Zahirən boylu-buxunlu, bir qədər də zəhmli təsir bağışlayan Nəbi Əli oğlunun sinəsində kəpənək zərifliyində ürək döyünür. Ən sərt, qaşqabaqlı çağında bir kəlmə Şəkidən söz sal. O an sifətində qəribə cizgilər yaranacaq, gözləri dolacaq, səsi titrəyəcək.

"Heç bir var-dövləti, yaxşı yaşayış tərzi, cəh-cəlallı şərait doğulduğun doğma yurdun yerini verə bilməz. Mən axırıncı dəfə 1988-ci ilin avqustunda kəndimizdən çıxmışam. Az qala 20 ildir, amma bir saat da olsun Şəki gözlərimdən çəkilmir. O yerlərə gözüyumulu gedərəm, ürəyimdə həsrətlə bərabər bir ümid də yaşayır. Heç ola bilməz ki, biz doğma yurda qayıtmayaq" - söyləyən Nəbinin gözləri çox uzaqlara dikildi. Kim bilir uşaqlıq illərinin hansı şirin xatirəsi xəyalını çalıb aparmışdı.

O, 1965-ci ildə Şəkidə anadan olub. Atası Əli kişi də, anası Gülarə xanım da Qarakilsənin sayılıb-seçilən xətir-hörmət yiyələrindən olublar. "Ailədə 5 uşaq idik: iki qardaş, üç bacı. Hamımız da oxumaq,





ali təhsil almaq istəyirdik. Bu səbəbdən də orta məktəbi bitirən kimi Bakıya üz tutmuşuq" - deyən Nəbi İmanovun həyat yolu o qədər də hamar olmayıb. İndiki şöhrətinə, nüfuzuna çatmaq üçün həyatın bütün çətinliklərini pillə-pillə keçməli olub. "Hansı işin qulpundan yapışmamışam?! Fəhlə də, adi xidmətdə də, satıcı da işləmişəm, amma çalışmışam ki, mənə tapşırılan işləri ləyaqətlə yerinə yetirim. Uşaqlıqdan əyriliklə aram olmayıb. Atam bizi belə tərbiyə etmişdi ki, bütün uğurların, qələbələrin açarı faydalı əmək, halal qazancdır. Nə qurmuşamsa, nə əldə etmişəmsə, hamısı öz əziyyətimin bəhrəsidir". Atası Əli kişi uzun illər Qarakilsədə ət tədarükü idarəsində məsul vəzifədə işləyib. Ermənilər həmişə qapılarında yallanan, yaltaqlanan görən Nəbi İmanovun heç vaxt ağlına da gəlməzdi ki, bir gün bu yaramazlar - erməni dığaları onun qohum-əqrabasını doğma Şəkidən zorla çıxarda bilərlər. Bağları, mülkləri ermənilər tərəfindən zəbt edilər. Bu, nəinki şəkililərin, bütün zəngəzurluların yuxusuna da girməzdi. Arxalı köpəyin qurdu basması elə buymuş.

Nəbi İmanovun tez-tez xatırladığı və kövrəldiyi bir insanın adını da çəkmək istərdik. Bu, dayısı Yədulla Səfərovdur. Şəkidə zootexnik işləyirdi. Kənd arasında böyük hörməti var idi. Hamının ona işi düşərdi. Əlindən gələni bir kimsədən əsirgəməzdi. 1980-ci ildə çox cavan vəfat edən Yədullanın qəbri də doğma Şəkidədir. İndi Bakıda yaşayan Gülarə xala tez-tez yuxuda haqq dünyasındakı qardaşını görür. Gücü göz yaşlarına çatan ananın bu pəjmürdə halı Nəbiyə ağır təsir edir. "Belə də dərd olar? Doğmalarının qəbrini ziyarət edə bilməyəsən" - deyə əllərini düyünləyir.



Onun qardaşı İlham İmanov da iş adamıdır, hazırda Rusiyada yaşayır. Bacısı Kifayət tibb işçisidir, o da hələlik Moskvadadır. Digər bacıları Göyçək və Məlahət Bakıda məskunlaşıblar. "Bu günlərdə qardaşım İlhamın ad günü bəhanəsi ilə bir yerə yığışmışdıq. İlham bir tanışının vasitəsilə Şəkinin bu gününü lentə aldırıb. Dost-tanışla birgə kəndimizin görüntülərinə baxdıq. Gözlərimizə inanmadıq. Baxmayaraq ki, orada ermənilər də yaşayır. Amma Şəki



yaman günə qalıb. Kəndin simasındakı solğunluq, kasıblıq adamın ürəyini deşirdi. Hələ evimizi zəbt edərək yaşayan o erməni... Əsəblərim davam gətirmədi. Havaya çıxdım. Həyatımda nəyəsə, kiməsə yalvardığımı xatırlamıram. O gün axşam üzümü Tanrıya tutub - "Bizi oğul-uşaq yanında xəcil etmə, İlahi! Bizə güc-qüvvət, imkan ver. O dığaları doğma yurddan qovub çıxardaq", - deyə yalvardım.










Hərdən mənə elə gəlir ki, nə qədər biz varıq bu iş tez görülməlidir. Mənim övladlarım Bakıda dünyaya gəliblər. Şəkinin hər döngəsinin, dağının, daşının, dərəsinin, bulağının adını əzbər bilirlər. Harada şəlalə



görsələr "bizim şəlaləyə oxşayır" - deyirlər. Buna səbəb odur ki, biz onlara hər gün Şəkidən danışırıq, doğma yurdu unudulmağa qoymuruq. İstəyirik ki, soyköklərinin haradan gəldiklərini dərindən bilsinlər. Bəs sabah necə? Onlar da öz övladlarına Şəkidən danışacaqlarmı? Əsl sual budur. Təssüf ki, cavabı bəlli deyil. Ona görə də nə qədər ki, o yerlərdə doğulanlar yaşayır, biz işğal edilmiş torpaqlarımızın azad olunmasına çalışmalıyıq" - söyləyən Nəbi qardaşımızın fikirlərinə mən də şərikəm.

Şəki həsrətini, Zəngəzur intizarını bir qədər aradan qaldırmaq üçün Nəbi İmanov "Zəngəzur" adlı şadlıq sarayı tikdirdi. Həyətdə, sarayın içində Zəngəzuru xatırladacaq nişanələr yaratdı. Soydaşlarımız bu adın eşqinə öz övladlarının xeyir işlərini "Zəngəzur"da düzənlədilər. İlk baxışda adi görünən məqamlardı. Amma bu mərasimi keçirənlərdən biri də mən oldum. Böyük oğlum Elnurun toyunu məhz "Zəngəzur"da etdik. Soruşanlara, dəvətlilərə "Zəngəzur"a gəlin, oğlumun toyuna", - deyəndə sanki ürəyimi soğan kimi soyurdular. Bu mənim və bir çox didərgin düşmüş soydaşlarımızın arzusudur ki, dörd divara sığışmış "Zəngəzur" toyları gün o gün olsun ki, o uzaq dağların qucağında məskən tutmuş əsl Zəngəzurda çalınsın.

## ŞAHBUZDAN O YANA



Elə ki, Batabat yaylağını keçib dağların ensiz yolları ilə döngələri aşırsan, ürcahına yaşıllıqların qoynunda qərar tutmuş Şəki kəndini görürsən. Milli liderimiz Heydər Əliyevə məxsus sözlərdir: "... Mən o kəndi görmüşəm. Şahbuzdan dağı aşıb gedəndə yolun üstündədir. Orada bir çay var idi, ermənilər hidrostansiya tikib adını Şəki SES qoydular. Bəli, Şəki kəndi var, amma azərbaycanlı kəndi idi".

1918-ci ilin qırğınları zamanı Şəkiyə ermənilər doluşdu. Sonralar Şəkiyə qayıdan azərbaycanlılar bu namərdlərlə bir kənddə yaşamaq məcburiyyətində qaldılar. Şəkinin ağ günlərini görmüş insanlardan biri də Məhərrəm Balay oğlu Əvəzovdur. 1972-ci ildə orta məktəbi doğma Şəkidə bitirən Məhərrəm Əvəzov Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda təhsil aldıqdan sonra bir müddət Şəkidə çalışmışdır. Lakin ermənilərlə bir yerdə işləmək onu bərk sıxırdı. Bu səbəbdən də 1985-ci ildə Abşeron rayonuna gələrək əvvəlcə Xızı südçülük sovxozunda, sonra Novxanı üzümçülük, maldarlıq sovxozunda zootexniklikdən direktor müavininə qədər müxtəlif vəzifələrdə işləyib. 1999-cu ildə Bələdiyyə seçkilərində iştirak edərək qələbə qazanıb. Hazırda Novxanı bələdiyyəsinin sədridir.





İşləyə-işləyə Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının İnzibati dövlət və Bələdiyyə İdarəetmə fakültəsini bitirib. Üç övladı var. Uşaqları da Şəkidə anadan olublar. Söhbət əsnasında öyrənirik ki, Məhərrəmin atası Balay kişi Şəki kəndində böyük nüfuza malik olan Hacı Xudaverdinin nəvəsidir. Hacı Xudaverdi isə Zəngəzur mahalında qəhrəmanlıqları ilə tanınan Qaçaq Qardaşxanın bacısı oğludur. 1988-ci ilin represiyası zamanı Novxanı kəndinə köçmüş Balay Zeynalov 2005-ci ildə vəfat etmişdir.

Məhərrəm Əvəzov Şəkinin qeyrətli oğullarından biridir. Belə vətənpərvər və təəssübkeş insanla fəxr etməyə dəyər.

## ŞƏHİDLƏR



1988-ci ilin payızında Şəkinin doğma sakinləri ata-baba ocaqlarından qovulduqdan sonra şəkililər Azərbaycanın müxtəlif yerlərinə səpələndilər. Şəki kəndi ermənilərin başladığı bu məkrli siyasətdə şəhid vermiş ilk kəndlərdən sayılır. Hələ şəkililər öz doğma ocaqlarından köçürülməmişdən öncə ermənilərin ssenarisi əsasında Sumqayıtda iğtişaşlar törəndi. Həmin münaqişələr zamanı həlak olan tələbə Canpolad Orucov Qarakilsənin ilk şəhidi oldu.

1988-ci ilin dekabrında şəkililəri kənddən qovarkən 1925-ci il təvəllüdlü Xalidə Əliyeva adlı bir ağbirçək qadın sıldırım qayaları keçərkən borana düşmüş və həlak olmuşdur. Yalnız bir də yazda, dağların qarı əridikdən sonra 1989-cu ilin martında qohumları onun cəsədini cırılmış paltarlarının rəngindən və ağ saçlarından tanımışlar. Daha sonra torpaqlarımızın azadlığı uğrunda həlak olmuş igidlərin sırasında şəkili balaların da adları var: Litvin Babayev, İlyas Babaşov, Etibar Abbasov, İsrafil Səfərov, Xəqani Abbasov, Bəxtiyar Eynullayev.

## GÖYƏRMİŞ DƏRD



Canpolad (biz ona Nazim deyərdik - F.X.) Orucov Şəkidə anadan olmuşdu. Anası Sürəyya xanım urudlu qızıdır, atası Məhiyyəddin kişi isə Şəkidəndir. O, üç yaşında ikən ailələri repressiyaya məruz qaldığından Bakıya köçüblər. Saray kəndində məskunlaşıblar. Canpolad Orucov erməni vəhşilərinin törətdiyi münaqişənin ilk qurbanlarından biridir. Qarakilsənin bu igid oğlu cəmi 23 il yaşadı...

1988-ci ilin fevralı. Ermənilərin sitat gətirməyi xoşladıqları Sumqayıt hadisəsi. Necə deyərlər, ssenarist də kənarda qaldı, dirijor da, baş rolların ifaçıları da. Zərbə sadə adamlara, tamaşaçılara - yoldan ötənlərə, təsadüfi epizodik rollarda çıxış edənlərə dəydi. Bilmək olmurdu, ölən kim idi, öldürən kim, amma tamaşa oynanıldı. Hətta bu facieni lentə almaq üçün dünyanın bir çox ölkələrindən, eləcə də Ermənistanın özündən operatorlar, fotoqraflar əvvəlcədən öz yerlərini tutdular. Uydurulmuş səhnələr və montaj sonranın işi idi. Fakt o idi ki, Sumqayıtda erməniləri kürüyürdülər. Amma bu kürüyən kim idi? Arakelyan, yoxsa Əhmədov? Moskvada olan üzdəniraq məhkəmələr belə hesab etdilər ki, əsl qatil Əhmədovdur. Nədənsə ölüm hökmünə tələsdilər. Gərək bəzi günahları da onun boynuna yıxaydılar ki, Qarabağ hadisələrinin əsas səbəbkarı elə odur. Ermənistandan qovulmuş 300 min didərgini də yer-yurdundan o eləyib. Nə çətin





iş idi? Lap yanvar hadisəsini də Əhmədovun boynuna yıxmaq olardı. Görünür, ağıllarına gəlməyib. Bir də nə fərqi var, Əhmədov olmasın, Məmmədov olsun. Təki qovğalar yanlardan ötüşsün. Məqsədim o günlərdən söhbət açmaq deyil. Dediyim odur ki, itə daş atan qaldı kənarda...

Haradan əsirdi bu ölüm qoxulu küləklər? Üstümüzə Əzrail kimi şığıyan bu küləklər, sən demə, neçə il imiş ki, Ermənistandan üzü bəri yol gəlirmiş. Bizi yerli-dibli yıxmağa, öldürməyə məqam gəzirmiş.

O gün Nazim (Canpolad) də Bakıya - oxuduğu M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutuna getməli imiş. Görənlər, eşidənlər danışırlar ki, o gün əsgərlər tankları yolun kənarında dayanmış adamların da üstünə sürüblər. "Qayda-qanun" yaratmağa gələnlər günahsız insanları yerindəcə qanına qəltan ediblər. Nazim də elə bu faciəyə düçar olub. Bunları mənə anası Sürəyya xanım danışıb:

- Evdən çıxanda dedi ki, yol-iz pisdir. Gəlməsəm, narahat olma. Şəhərdə qalacağam. Üç gün meyidxanada qalan balam elə bilirdim ki, xalasıgildədir. Ağlıma necə gələrdi ki, 20 il bundan əvvəl mənə dağ çəkən ermənilər ürəyimə ondan da betər yara vuracaqlar?!

Valideynləri doğma yurdu tərk edəndə Nazimin üç yaşı var idi. Anasının qucağında mışıl-mışıl yatırdı. Hərdən anasının göz yaşları üzünə dəydikcə yarıyuxulu dillənirmiş: "Nolar, ağlama".

1967-ci ildə Sisianda Andronikə heykəl qoymaq istəyiblər. Rayonun Şəki kəndində yaşayan azərbaycanlılar öz etirazlarını bildiriblər. Həmin Nazimin babası, qohumları deyiblər ki, biz öz gözümüzlə görmüşük Andronik adamlara necə zülmlər edib, azərbaycanlı qadınların kürəyinə qaynar samovar bağlayaraq başına hansı zülmləri gətirib. Biz ölərik, amma o daşnaka heykəl qoyulmasına razı olmarıq. Katib çox fikirləşəndən sonra Şəkinin "baş bilənlərini" - daşnakları yanına çağıraraq göstəriş verib: "Elə eləməlisiniz ki, o nəsildən kənddə bir nəfər də qalmasın, bizim işlərimizə mane olurlar" - Novruz bayramında Şəkidə bir erməni uşağına güllə atdılar. Əsl qatil qaldı kənarda (öz millətlərindən qan düşmənləri varmış). Bu qanlı cinayəti səkkizinci sinifdə oxuyan Fikrətin üstünə yıxaraq ona 10 il, atası Məhiyyəddin kişiyə də iki il iş kəsdilər. Yenə ürəkləri soyumadı. Rayon rəhbərlərinin fitvası ilə iki ay ərzində 24 ailə kənddən çıxarıldı. Beləliklə, ehtiyat edilən nəsildən Şəkidə bir nəfər də qalmadı. Sən taleyin qəsdinə bax ki, 20 ildən sonra həmin dərdli ailəyə bir dağ

vurulur. Üç yaşında anasının qucağında doğma yurdu tərk edən Nazim-Canpolad 20 ildən sonra...

Sən demə, dərd göyərərmiş. Göyərə-göyərə evdən-evə, eldən-elə ötərmiş. Əvvəllər Süreyya xala tək Nazim deyib ağı çəkirdi. İndi bu başıbəlalı qadının ürəyi para-para olub. Bilmir, kimi ağlasın? Vaqif çağırsın, Aqil desin, yoxsa Fəxrəddini, Vüqarı, Farizi oxşasın. Nazim-Canpoladın dəfn olduğu gün - martın 4-də hər il evində yas məclisi qurulur. Şəhidlərimizin ruhuna Quran oxutdurur, ehsan verir. O qara paltarlı ana qara günlərimizin canlı heykəlinə çevrilib. Bir yönü Saraydakı qəbiristanlıqdı - Nazimin cismi uyuyan yer, bir yönü də Şəhidlər xiyabanıdı.

Əsrin əvvəllərində əsən acı küləklərin 1918, 1948, 1968, 1988-ci illərdə törətdiyi faciələr son illərdə xalqımızın taleyində daha bir müsibət oldu. Bu müsibətin ilk qurbanlarından biri də Nazim-Canpolad Orucovdur. Yadıma bu yaxınlarda bir telejurnalistin Türkiyədə yaşayan erməni jurnalisti ilə apardığı çiy müsahibəsi düşdü. Bizim müxbir türkcə çox təmiz danışan ermənіyə güclə başa salırdı ki, Ermənistanda bir türk də qalmayıb. Erməni də öz xislətinə uyğun olaraq söylədi ki, bu hadisələrə bir durum səbəb olub. Məsələn, Sumqayıt və Bakı hadisələri. Nə təəssüflər ki, bizim jurnalist - özü də Ermənistandan didərgin düşmüş soydaşımız bu xılt sahibinə gün kimi aydın olan bir məsələni başa salmaqdan, deməkdən nədənsə yan keçdi. Məgər biz bilmirik ki, Sumqayıt hadisəsi nə vaxt olub və kim tərəfindən törədilib?

Söz ki, sərrast deyilmədi, yerinə düşmədi, heç nə. Elə bu səbəbdəndir ki, erməni ən kiçik hadisəni də belə dünyaya car çəkə bilir və ünvanımıza nələr uydururlar? Biz isə olmuş həqiqəti də deyə bilmirik. Süreyya xalanın bir sözü yadıma düşür: "Danışa bilməyəndə gərək susasan".

**1994.**





# HƏYATI DƏYƏRLƏNDİRƏNLƏR



Orta məktəbin birinci sinifinə Urud kəndində gedib. Böyük qardaşı Səyavuşla birlikdə nənəsi Sarabəyimin yanında qalırdı. Validyenləri və digər bacı-qardaşları isə Şəki kəndində yaşayırdılar. Novruz bayramında həmin kənddə bir erməni uşağı öldürüldü. Öz millətlərindən qan düşməni varmış. Lakin əsl qatil qaldı bir yanda. Hadisəni VIII sinifdə oxuyan Fikrətin üstünə yıxdılar. Beləliklə, bir ailə bütün nəsli və dohum-əqrəbaları ilə birlikdə Şəkidən sürgün edildi.

Bütün bu hadisələr isə Sovet dövründə - ötən əsrin 60-70-ci illərində baş verirdi. Beləliklə, Niyaz Orucov orta məktəbi Bakının Saray kəndində bitirdi. Hələ körpəlikdən ermənilərin haqsızlığını dadmış gənc oğlan torpaqlarımız işğal olunana qədər doğma Zəngəzura tez-tez gedərmiş. Təəssüf ki, indi o yerlər haqqında ancaq xatirələr söyləmək mümkündür. Dünyanın bir çox ölkəsini məmnuniyyətlə dolaşmış Niyaz Orucov doğma yurda heç vaxt gedə bilmir.

O, Bakı Neft Akademiyasını bitirəndən sonra uzun illər Ceyranbatan Su İstismarı İdarəsində çalışıb. Hazırda özəl bir şirkətdə işləyir. Mehriban ailə başçısıdır. İki gül balası var. "Mən qızlarıma Şəkini, Urudu göstərə bilməsəm həyatımın mənası yoxdur", - söyləyir. Tanrı arzularına qovuşdursun qardaş!

Qəlbində təkcə vətən dərdi qərar tutmayıb ki? Kiçik qardaşı 23 yaşlı Canpoladın Sumqayıt hadisələri zamanı faciəli surətdə həlak olması, atası Məhiyyəddin kişinin bu sitəmə dözməməsi, anası Süreyyanın qara paltarlı qadına çevrilməsi - bütün bunların çarəsi ancaq vətənə dönən yollardadır. O yollarda ki, hələ bağlıdır.

Niyaz bir vaxt Zəngəzurda, sonra da Sarayda və ətraf kəndlərdə yaxşı ad çıxarmış, böyük nüfuz və hörmət qazanmış atası Məhiyyəddin Orucovun əsl davamçısıdır. Sevinirəm ki, nəcib əməllərinə görə qürur duyduğumuz Niyaz Orucovun sinəsində əsl vətəndaş və qeyrətli oğul

ürəyi döyünür. Belə saf qəlbli, nəcib insanlar olmasaydı həyatın mənası duyulmazdı. Dünyanı dəyərləndirən, gözəlləşdirən də məhz yaxşı insanların mövcudluğudur.

... Bakının Saray kəndində xeyli şəkili yaşayır. Xeyirdə-şərdə bir yerə yığışaraq bəxtəvər məqamları - Şəkidə keçən günləri yada salırlar.

Əzizinəm düşən ağlar,
Qürbətə düşən ağlar.
Yurd atmaq çətin dərddi,
Bu dərdi çəkən ağlar.

## QARA KƏLAĞAYILI CEYRAN XALA



Şəki adı eşidiləndə yadıma həmən qırmızı yanaqlı, qara kəlağayılı, mehriban Ceyran xalam düşür. Əslində anamın xalası qızı idi. O qədər yaxın idilər və bir-birlərini elə çox istəyirdilər ki, biz onları doğma bacı bilirdik. Onun hər dəfə Şəkidən Uruda gəlişi bizim evdə toy-bayrama dönərdi. Sovqatı da adətən qaymaq, pendir, süd-qatıq və qovurmadan ibarət olardı. Bilmirəm nədənsə sonradan Şəkidən köçüb getdilər...

Dünyasını erkən dəyişmiş Ceyran xalamın Şəkinin aqibətindən xəbəri olmadı. Ondan nişanə Tərlan, Mərcan, Gülpəri və Yunis adlı balaları qaldı. Xalamın sonbeşik qızı Gülpəri Ağdamda ev-eşik sahibi idi. Həyat yoldaşı Saday Məmmədov (əslən Şəkilidir) lap köhnə kişilərdəndir. Ağırtaxtalı, hər kəsin yerini bilən, qətiyyətli, mərd, ağsaqqal... Ağdamda necə gözəl ev-eşikləri var idi. Təəssüf ki, Zəngəzurdan, ümummiyyətlə, Qərbi Azərbaycandan əsən qara ruzigar onları da öz ocaqlarından perik saldı. İndi Xındırıstan kəndində məskunlaşıblar. Ümidsiz deyillər, inanırlar ki, nə vaxtsa Ağdama qayıdacaqlar. Ceyran xalamın nəvəsi, Saday kişinin gözünün ağı-qarası Fərid Məmmədov





kapitan rütbəsi ilə Milli Ordumuzda xidmət edir.

Niyə xatırladım bunları? Duyduğum bu oldu ki, Şəkidən danışanda Ceyran xalamı anıb ruhuna dualar oxumasam, günah etmiş olaram. Çünki uşaq vaxtı mənim bu gözəl, mehriban xalam tanıdığım ilk şəkili qonağımız, əzizimiz idi. Yaşımın bu çağında da Şəki adı çəkiləndə gözlərimin önündə qara kəlağayılı Ceyran xalam canlanır...



**Məhşur Şəki şəlaləsi**

# UCA DAĞLI, YAŞIL YAMACLI, YALÇIN QAYALI ŞIXLAR



*Gör yadıma gəlib düşdü haralar?!*
*Mansırdağın indi başın qar alar,*
*Sarıyarğan həsrətindən saralar.*
*Bir də gedib o yerlərdən keçəydim,*
*Daş çeşmənin gözündən su içəydim.*



## YÖNÜ BİZDƏN DÖNƏN DAĞLAR

Qədim dastanlardan üzü bəri həmişə saz-söz ustadlarımız yurd həsrəti, dağ nisgili ilə qovrulanda belə çalıb oxuyardılar:

Yönü bəri baxan dağlar,
Mənim sizdə nəyim qaldı?

Amma indi 20 ilə dönür ki, ürəyimizi qovuran bu bayatını tərsinə oxuyuruq: "Yönü bizdən dönən dağlar". Çox ağır, nisgilli bir məqamdı, çəkib qurtarmaq olmur. Ürəyində, xəyalında daim yer tutan, könlündən çıxmayan yurd yerlərinə nəfəsin çatmaya, əlin yetməyə. Heç olmasa ildə bircə kərə doğulduğun yurda dönə biləsən. Bilmirəm, biz azərbaycanlılardan başqa bu ağır dərdi çəkən ikinci millət varmı? Yurd həsrəti sinəmizdə sağalmaz bir yaraya çevrilib. Biz yaşlaşdıqca o yara da böyüyür, ağrı-acısı bütün əzalarımıza yayılır.

Zəngəzur mahalının məşhur kəndlərindən biri də uca dağları, yaşıl yamacları, yalçın qayaları, sərin bulaqları ilə seçilən Şıxlar kəndi idi. Qarakilsənin mərkəzindən 13 kilometr cənub-qərbdə yerləşən qədim Şıxlar kəndi Ərənlər piri adlanan dağın ətəyində salınmışdır. Arxiv materiallarına istinadən demək olar ki, bu kəndin yaranışı ilə bağlı bir neçə yazılı mənbə vardır. Şıxların tarixi orta əsrlərə gedib çıxır. Lap qədim zamandan türk məskəni olmuş bu kənddə çoxlu pir vardı. Birinci variant budur ki, məhz bu müqəddəs yerlərin sahibləri şeyxlər olduqlarına görə kəndin adı da əvvəlcə Şeyx olub. Sonralar dildən-dilə keçərək Şıxlara çevrilib. Fakt üçün deyək ki, Azərbaycanda bu adda onlarca kənd var. Başqa bir variantda söylənilir ki, Zəngəzur mahalında ən uca dağ başında yerləşən və Günəş işığını ilk dəfə görən məhz Şıxlar kəndidir. Bəlkə də elə buna görə el arasında kəndi "İşıqlar" da adlandırırdılar. Hər iki halda söylənilən bütün fikirlər, adlar, toponimlər türk soyuna söykənir. Burada yad, ögey bir kəlmə, söz yoxdur.

Hələ qədim zamanlardan Şıxlarda pirlərin çoxluğu onun sakinlərinin ən müqəddəs, iman sahibi olduqlarına bir işarədir. Qara pir, Ərənlər piri, Mansır piri və s. Bu kənddə tarixən erməni yaşamamışdır. Kəndin

ətrafındakı bulaqların adları da diqqət çəkir. Daş çeşmə, Molla çeşməsi, Turşsu, Bəşir çeşməsi, Tahir bulağı, Söyüd bulağı, Qaramalıq çeşməsi, Quzey çeşməsi, Bəyməmməd çeşməsi, Göldərə çeşməsi, Fərhad çeşməsi, Dərə çeşməsi, Şahverdi çeşməsi, Soyuq bulaq, Zarxandüşən, Barmaqlar... Yer və dağ adları - Sarıyarğan, Gölyazı, Göl dərəsi, Daşqala, Çuxurlar, Daşlı güney, Tatar düzü, Qabaq biçənək, Mollaqulu yeri, Subay mal yatan, Düz zəmi, Babəkən (bu yer Babəkin adı ilə bağlıdır), Qızılqaya, Hərəmlər dağı, Ağ dərə, Ərəfsə dərəsi, Babaoğlu dərəsi və s.

Əslən Şıxlardan olan Hüseyn Həsənoğlu "Ermənilərin qanlı cinayəti" adlı kitabında yazır: "Şıxların aşağısında iki qədim mağara vardır. Kənd camaatı o mağaraları "kaha" adlandırır və ora mal-heyvan yığardılar. Ancaq az-çox tarixdən xəbəri olan da bilir ki, bura qədim insan məskəni olan yaşayış yerləridir". Təəssüf ki, orada vaxtında arxeoloji qazıntı aparılmayıb. Lakin buna baxmayaraq, bütün tarixi faktlar təsdiqləyir ki, Şıxlar yarandığı gündən türk kəndi olub, əhalisi də maldarlıq və əkinçiliklə məşğul idi.

Əslən Şıxlardan olan filologiya elmləri doktoru, professor Vilayət Əliyev "Zəngəzurda qalan izimiz" adlı kitabında yazır: "Kənd müxtəlif tayfalardan ibarət olmuşdur: Nurullular, Ocaqqulular, Gödəklilər, Dərvişlər, Qaraməhərrəmlilər, Korhəsənlilər, Hacıməmmədlilər, Əhmədlilər və s."

Şıxlar kəndi 1905, 1907, 1915,1918-ci illərdə erməni daşnakları tərəfindən dəfələrlə yandırılmış, əhalisi qarət edilmiş, vəhşiliklə qətlə yetirilmişdir. Andronikin başçılığı ilə erməni quldurları 1918-ci ildə Şıxların bütün evlərini dağıtmış, əhalisinin xeyli hissəsini qılıncdan keçirmişdir. Doğma yurddan perik düşmüş insanlar sovet hakimiyyəti qurulduqdan sonra kəndə qayıdaraq özlərinə təzədən ev-eşik düzəltmişlər. Ötən əsrin 30-cu illərindən sonra Şıxlar sürətlə inkişaf etməyə başladı. Kənddə məktəb, klub, kitabxana, rabitə şöbəsi, uşaq bağçası, tibb məntəqəsi istifadəyə verildi. 1988-ci ilə kimi Şıxlarda 100-ə yaxın ev var idi. Hələ sovet dövründə ermənilər öz məkrli siyasətlərini ardıcıl olaraq həyata keçirməkdən çəkinmirdilər. 1940-cı ildə kəndin adı dəyişilərək Qızıl Şəfəq qoyuldu. Ad doğma olduğu üçün o qədər də pis qarşılanmadı. İlk baxışda onun arxasında hansı niyyətin gizlənildiyi duyulmurdu. 1941-ci ildə II Dünya müharibəsinin ağrı-acıları bu kəndə də öz təsirini göstərdi. Cəbhəyə 72 oğul





göndərən Şıxlar onun 34-nün qara xəbərini eşitdi.

İllər bütün faciələri unutdurmuşdu. Bəxtəvər günlərini yaşayan, sabaha ümidlə baxan Şıxlar camaatının ağlına da gəlməzdi ki, 1988-ci ilin payızında onlar daha bir qanlı olayın qurbanına çevriləcəklər. Qarakilsənin azərbaycanlılar yaşayan başqa kəndləri kimi Şıxlar da erməni quldurları tərəfindən repressiyaya, deportasiyaya məruz qaldı. Ermənilərin əlindən qurtulub qaçan soydaşlarımızın bir qismi Naxçıvana, bir qismi də Laçına, Kəlbəcərə üz tutdu. Kəndin bütün var-dövləti, kolxoz mülkiyyəti ermənilərə qaldı. Sonralar aldığımız bir xəbərə görə də 1991-ci ildə ermənilər Qızıl Şəfəq adının da üstündən xətt çəkərək Şıxların yeni adını Torunik etmişlər.

Hazırda Şıxlar kəndinin əhalisi Bakı, Sumqayıt, Naxçıvan, Mingəçevir şəhərlərində məskulaşmışlar. Qarabağ torpaqları uğrunda gedən savaşda Şıxlar da öz oğul qismətini qurban vermişdi. Süleyman Əliyev, Nəcəf Əhmədov qəhrəmancasına həlak olaraq şəhidlik zirvəsinə yüksəldilər.

Şıxlar kəndindən olan ziyalılar isə Azərbaycan elminə, mədəniyyətinə, ictimai-siyasi həyatına böyük şöhrət gətirmişlər. Onların adı ilə yalnız Şıxlar camaatı deyil, bütün Azərbaycan fəxr edir. Şıxların hüsnünü unutmayan, dünyasını vaxtsız dəyişmiş şair oğlu Əhliman Tahirov "Yurd yeri" adlı şeirində yazırdı:

Taleyini dastan etsin aşıqlar,
Əzbərləsin sinədəftər uşaqlar,
İndi zülmət əlindədir o Şıxlar,
Ocaqları, çıraqları sönübdü,
Bəxt yazanın üzü bizdən dönübdür.

# ŞIXLARDAN QANADLANMIŞ İŞIQLI ÖVLADLAR

## MƏMMƏDƏLİ MÜƏLLİM



Şıxlarda cənnət guşəsini xatırladan böyük bir bağ var idi. Kənd arasında ona "Şəmil əminin bağı" deyərdilər. Bağ bütün mahalda məşhur idi. Bu yaşıl guşənin sahibi Şəmil kişi zəhmətkeş bağban fərəhi ilə bir tərəfdən təbiətin əsrarəngiz gözəlliyini artırırdısa, digər tərəfdən də ləyaqətli övladlar böyüdürdü.

Şəmil kişinin böyük oğlu Məmmədəli Əbdülov orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdı. Bir müddət müxtəlif orta məktəblərdə müəllim işləyən Məmmədəli Əbdülov 1961-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun aspiranturasına daxil olub. Ömrünü elmi tədqiqatlara bağlayan Məmmədəli müəllim 1962-ci ildən indiki Azərbaycan Dövlət Pedaqoji Universitetində çalışır. Qırx ildən artıqdır ki, o, Pedaqoji Universitetdə görkəmli psixoloq-alim və müqtədir pedaqoq kimi böyük bir həyat yolu keçib. Müxtəlif elmi-tədqiqat işlərinin, kitabların müəllifi olan Məmmədəli müəllim psixologiya elmləri namizədidir. Tələbələr də, müəllim həmkarları da bu qocaman pedaqoqu çox sevərək ona dərin hörmət bəsləyirlər.

## MƏNİM TANIDIĞIM MƏHYƏDDİN ƏBDÜLOV

Şəmil kişinin ikinci oğludur. O, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsini bitirmişdi. Bir müddət orta məktəbdə müəllim işləmişdir. 1961-ci ildən ömrünün sonuna kimi "Azərbaycan müəllimi" qəzetində çalışmışdır.

Məhyəddin müəllimin adı çəkiləndə xəyalıma onun nurlu sifəti,







nəzakətli danışıqları gəlir. O, sözün əsl mənasında, saf insan idi. Yalana, əyriliyə nifrət edirdi. Onu yaxından tanıyanlar bilirlər ki, Məhyəddin Əbdülov hamıya xeyirxahlıq etməyi çox sevirdi. Tanrı elə bil ki, onu ancaq yaxşılıq etmək üçün yaratmışdı. O qədər təmənnasız insan idi ki, hamıya münasibətində qəribə bir mərhəmlik duyulardı. Məhyəddin müəllim xüsusilə də istedadlı gəncləri çox sevər, onlara hər bir vəchlə kömək etməyə çalışardı.

Yaxşı yadımdadır, tələbə vaxtı məni təcrübə keçmək üçün "Azərbaycan müəllimi" qəzetinə göndərmişdilər. O zaman Məhyəddin müəllim qəzetdə şöbə müdiri vəzifəsində çalışırdı. Təsadüfən mən onun şöbəsinə düşmüşdüm. Haralı olduğunu da bilmirdim. Göstərdiyi qayğıdan, diqqətdən heyrətə gəlirdim. Çox sonralar bir yerdə işləyəndə (redaktor müavini idi) bildim ki, bizim rayondandır. Ürəyim qürurla döyündü.

Məhyəddin Əbdülov jurnalistika ilə yanaşı, elmi-pedaqoji axtarışlarla da müntəzəm məşğul olurdu. O, pedaqoji elmlər namizədi və bir neçə kitabın müəllifi idi. Göstərdiyi xidmətlər dövlət və hökumət tərəfindən yüksək qiymətləndirilmişdi. Azərbaycanın "Qabaqcıl maarif xadimi", "Əməkdar mədəniyyət işçisi" fəxri adlarına layiq görülmüşdü. Təəssüf ki, elə bir istedadlı və bütöv xarakterə malik insan aramızdan tez getdi.

Hərdən ötənlərə boylananda Məhyəddin Əbdülovun mənə verdiyi tövsiyələri xatırlayıram. Bir məramı var idi: "Sən yaxşılıq elə, balıq bilməz, Xaliq bilər". Xatirəsini həmişə əziz tutduğum, ruhuna dualar oxuduğum, əziz Məhyəddin müəllim. Bilin ki, mən sizin məsləhətinizə həmişə əməl edirəm. Məni balıqlar yox, həmişə Xaliq düşündürüb. Yaxşı ki, belə bir müqəddəs insanın ocağında qeyrətli övladlar ata ömrünü ləyaqətlə davam etdirirlər.

# MİLLİ MƏCLİSİN DEPUTATI



Fəzail Rəhim oğlu Ağamalı 1947-ci ildə Şıxlar kəndində anadan olub. Orta məktəbi doğma kənddə bitirən Fəzail Bakı Dövlət Universitetinin tarix fakültəsində təhsil almışdır. O, 1980-ci ildə namizədlik, 2005-ci ildə doktorluq dissertasiyalarını müdafiə etmişdir. Bir müddət Naxçıvanda orta və ali məktəbdə müəllim işləmiş Fəzail Ağamalı sonralar Azərbaycan Texnologiya İnstitutunda (Gəncə), Dövlət İqtisad İnstitutunda (Bakı) çalışmışdır.

1980-ci ildən xalq hərəkatına qoşularaq onun liderlərindən biri olan Fəzail Ağamalı Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparan vətən oğullarından biridir.

1992-1993-cü illərdə Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin birinci müavini, sonra isə nazir vəzifəsində çalışmışdır.

1990-cı ildə Ana Vətən Partiyasını yaratmış və onun sədri seçilmişdir. Birinci, ikinci və üçüncü çağırış Azərbaycan Respublikasının Milli Məclisinin deputatı olan Fəzail Ağamalı millət vəkili kimi ləyaqətli fəaliyyət göstərir.

Tarix elmləri doktoru Fəzail Ağamalı 5 kitab, 2 monoqrafiya və 50-dən çox elmi məqalənin müəllifidir.

ABŞ-ın Nebraska ştatının və Linkoln şəhərinin fəxri vətəndaşı olan soydaşımız ailəlidir, 3 övladı, 5 nəvəsi var.





# YARIMÇIQ ÖMÜR



Fəzail Ağamalının kiçik qardaşı Füzuli Rəhim oğlu da Şıxların ziyalı oğullarından biri idi. O, 1969-cu ildə M.F.Axundov adına APXDİ-nin ingilis-Azərbaycan dilləri fakültəsinə qəbul olmuş, oranı bitirdikdən sonra bir müddət Şıxlarda və qonşu Sofulu kənd orta məktəblərində ingilis dili müəllimi işləmişdir. Sonralar Bakıya köçən Füzuli Ağamalıyev bir müddət bitirdiyi ali məktəbdə çalışmışdır. Daha sonra isə Bakı Dövlət Universitetinin hüquq fakültəsində qiyabi təhsil almışdır.

Az ömrün bioqrafiyası çox zəngindir. Müxtəlif nazirliklərdə, komitə və idarələrdə yüksək vəzifələrdə işləyən Füzuli Ağamalıyev Gömrük Komitəsi sədrinin birinci müavini vəzifəsində də çalışmışdır. Təəssüf ki, xalqına xidməti özünə şərəf sayan, millətinə, vətəninə çox bağlı olan Füzuli Ağamalıyev 2003-cü ildə dünyasını dəyişdi.

# VƏTƏNİNİN, MİLLƏTİNİN, DİLİNİN VURĞUNU

Vilayət Hüseyn oğlu Əliyev nəsli etibarilə Şıxlardandır. Amma orada anadan olmayıb. Ermənilərin müxtəlif illərdə millətimizin başına gətirdiyi qəzavü-qədər onların da ailəsindən yan ötüşməyib. Atası Hüseyn kişi dəfələrlə doğma yurddan didərgin düşüb. Ara sakitləşəndən sonra yenidən vətənə dönüb. Vilayət müəllim danışır ki, bizim nəslimiz böyükdür. Hərəsi də bir tərəfə səpələnib. Amma buna baxmayaraq, yayda həmişə doğma yurda - Şıxlara dönərdik. Harada yaşamağımızdan asılı olmayaraq, valideynlərimiz bizi elə tərbiyə etmişdilər ki, qibləmiz həmişə Zəngəzur idi.

Filologiya elmləri doktoru, professor Vilayət Əliyev ADPU-nun elmi



işlər üzrə prorektorudur. Dilçilik sahəsində böyük xidmətlər göstərib. Onun elmi- tədqiqatları Azərbaycan dilçiliyi və türkologiyası ilə bağlıdır. 200-dən çox elmi məqalənin, onlarla kitabın müəllifidir. Müxtəlif elmi-publistik topluların elmi redaktorudur. Onun "Zəngəzurda qalan izimiz" kitabı doğma yurdumuz haqqında qələmə alınmış mükəmməl əsərlərdən biridir.

Əməkdar müəllim fəxri adına layiq görülmüş Vilayət Əliyev respublikamızın sayılıb-seçilən ziyalılarından biridir. Ən başlıcası, sinəsində vətən həsrəti ilə döyünən ürək çırpınır. Xarakterindəki bütövlük, mülayimlik onu hamıya sevdirir. Çətinə düşən anda ona zəng etsən, qulluğunda hazırdır. Yaşından, vəzifəsindən asılı olmayaraq, uşaq kimi qabağa düşüb istənilən qapını döyməkdən çəkinməz. Çünki yaxşılıq etmək, insanlara gərək olmaq, onları dardan xilas etmək Vilayət müəllimin ən gözəl xüsusiyyətlərindəndir. Dəqiq bilirəm ki, Vilayət Əliyev bütün zəngəzurluların sevimlisidir. Biz həqiqətən onunla fəxr edirik. Bütövlükdə Vilayət Əliyevin mənsub olduğu nəslin Azərbaycan elminə, tarixinə, ədəbiyyatına, səhiyyəsinə, hərbi inkişafına töhfə verən, böyük xidmətlər göstərən oğulları var.

## BƏŞƏRİYYƏTİN MƏDƏNİYYƏT BEŞİYİ

Şıxların alim oğlu AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru Vəli Əliyev 40 ildən çoxdur ki, Naxçıvan Arxeoloji Ekspedisiyasına başçılıq edərək bu ərazidə qədim və orta əsr abidələri üzrə elmi işlər aparır. Həmçinin Abşeron, Astara, Lerik, Qazax, Xaçbulaq, Füzuli, Şəki, Balakən və başqa bölgələrin arxeoloji abidələrinin öyrənilməsi sahəsində də faydalı tədqiqat işlərinin müəllifidir. Məlumdur ki, Naxçıvanla bağlı tədqiqat aparan alimlərimiz çox olub. Məhz Vəli Əliyev ilk dəfə muxtar respublika ərazisində qədim şəhər







mədəniyyətini təsdiqləyən abidələrin aşkara çıxarılmasında gərgin elmi tədqiqatlar aparmış, nəticədə Azərbaycan tarixinə çox mühüm elmi yenilik gətirmişdir.

Professor Vəli Əliyevin elmi nailiyyətlərindən biri də Azərbaycanın ilk şəhər mədəniyyət abidələrinin tədqiqi ilə bağlıdır. Onun topladığı zəngin materiallar çox mühüm elmi əhəmiyyət kəsb edir. Azərbaycanın qədim mədəniyyətini beynəlxalq aləmdə tanıtmaq üçün İran, Türkiyə, İngiltərə, ABŞ, Pakistan, Orta Asiya, Rusiya, Gürcüstan alimləri ilə sıx əməkdaşlıq edən Vəli Əliyev bir çox ölkələrdə keçirilən beynəlxalq konfranslarda məruzə etmişdir. Hazırda Azərbaycan AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunda şöbə müdiri vəzifəsində çalışan Vəli Əliyev həm də ADPU-nin ümumi tarix kafedrasına rəhbərlik edir..

Tarixçi alimlə müsahibəni oxucuların diqqətinə çatdırırıq:

Vəli müəllim, bildiyimiz kimi, müxtəlif dövrlərə aid tarixi abidələri, təbii sərvətləri ilə seçilən Naxçıvan Azərbaycanın ən dilbər və qeyri-adi guşələrindəndir. Naxçıvanla bağlı araşdırmalar aparan tədqiqatçı-alim kimi fikrinizi bilmək maraqlı olardı. İbtidai icmadan sivilizasiyaya qədər yol gələn bu füsunkar diyar hansı əsaslara görə Şərqin ən qədim şəhər mədəniyyətinin mərkəzi sayılıb?

- Naxçıvan şəhərinin adına və tarixinə aid məlumatlara yunan, latın, ərəb, fars, Azərbaycan, türk, rus mənbələrində və Orta əsr salnamələrində rast gəlinir. Bu sualın cavabı çox genişdir. Konkret olaraq, bəzi tədqiqatçılardan nümunələr söyləmək istərdim. Naxçıvan şəhərinin ilk təşəkkül tarixi uzun müddət elm aləmində sirli qalmışdır. Nuh haqqında dini əfsanədə bu şəhər bəşər nəslinin ilk beşiyi kimi təsvir olunmuşdur. Qədim yunan qaynağına və maddi mənbələrə - arxeoloji materiallara əsaslanaraq demək olar ki, Naxçıvan eramızdan çox əvvəllər bir şəhər kimi tanınmışdır. Orta əsr tarixiçisi Moisey Xorenli Naxçıvan şəhərinin eramızdan əvvəl VI əsrdə mövcud

olduğunu qeyd etmişdir. Əslində, Naxçıvan şəhərinin yaranması tarixi və nəhayət, arxeoloji tədqiqatlar nəticəsində əldə edilmiş maddi mənbələr əsasında müəyyənləşdirildi. 1968-ci ildə Naxçıvan şəhərinin şimal hissəsində e.ə. II minilliyə aid yaşayış yeri və onun həmdövrü olan qədim nekropol aşkara çıxarılmışdır. Burada açılmış qəbir abidələrindən e.ə. II minilliyin ortalarına aid keramika məlumatları, tuncdan bilərziklər, sırğalar və müxtəlif suxurlardan hazırlanmış incə bədii tərtibatlı, boyalı qablar qədim şəhər mədəniyyəti üçün səciyyəvidir. Arxeoloji materiallar e.ə. II minilliyinin birinci yarısında Naxçıvanın şəhər kimi inkişaf tapdığını, Şərqin əsas mədəniyyət, sənətkarlıq və ticarət mərkəzi kimi tanındığını sübut edir. Bu dövrdə şəhərin və onun ətraf ərazilərindəki yaşayış məskənlərinin sahəsi əhalinin artması nəticəsində genişlənmişdir. Burada sənətkarlıq xüsusilə inkişaf edərək Azərbaycan mədəniyyətinin meydana gəlməsinə təkan verən memarlığın, incəsənətin (təsviri sənət, heykəltaraşlıq və s.) tərəqqisinə səbəb olmuşdur.

- Belə bir fikir də var ki, Naxçıvanın əlverişli, təbii, coğrafi mövqeyi məhz onu bəşəriyyətin ilk yaşayış məskənlərindən birinə çevirib.

- Azərbaycanın cənub və şimal əraziləri arasında, çox mühüm coğrafi mövqedə yerləşən, Avropa, Asiya xalqlarının tarixi və müasir iqtisadi, mədəni əlaqələrində böyük rol oynayan Naxçıvan təsadüfi olaraq "Şərqin qapısı" adlandırılmamışdır. Araz çayının sol sahil qolları - Gilançay, Əlincəçay, Naxçıvançay və Arpaçay vadilərində Ordubad, Culfa, Babək, Şahbuz, Şərur və Sədərək rayonları yerləşir. Bu rayonların hər birinin öz adına uyğun şəhər və şəhər tipli qəsəbə mərkəzi var. Muxtar Respublikanın ərazisində 206 kənd mövcuddur. 342 min nəfərdən artıq əhalisi var. Hazırda muxtar respublikanın ərazisi 5,5 min kvadratkilometrdir. Bunun 1,2 min kvadratkilometri üçün kəskin kontinental iqlim səciyyəvidir. Bu bölgə mürəkkəb relyefə və təkrarolunmaz çay şəbəkəsinə malikdir. Şərqdən Zəngəzur silsiləsi ilə sərhədlənən Muxtar Respublika şimal-qərbdən Dərələyəz və Mehdidağ silsilələri ilə birləşib. Kiçik Qafqaz dağlarının cənub-şərq hissəsində yerləşən Naxçıvan Muxtar Respublikası tipik dağlıq ərazidir. O, mürəkkəb fiziki coğrafi şəraitə malikdir. Cənubdan, cənub-qərbdən Araz çayının dərəsi boyunca Türkiyə (11 kilometr) və İranla (204 kilometr), eləcə də şimaldan, şimal-şərqdən Zəngəzur və Dərələyəz silsilələri ilə (246 kilometr) əhatələnib. Muxtar respublika müxtəlif





təbii sərvətlərlə çox zəngindir. Onun əlverişli təbii coğrafi şəraiti qədim zamanlardan belə ibtidai insanların bu ərazidə həqiqətən məskunlaşmasına səbəb olmuşdur.

- Arxeoloqlar bu fikirdədirlər ki, Azərbaycanda ibtidai incəsənət tunc dövründə, xüsusilə onun orta və son mərhələlərində çiçəklənmə dövrü keçirmişdir. Qədim incəsənətin bu yüksəliş mərhələsi Naxçıvanda da olmuşdurmu?

- Əlbəttə. Gəmiqaya petrofliflərində qədim incəsənətin inkişafı özünü bir daha parlaq şəkildə göstərib. Məlumdur ki, Gəmiqaya və Qobustanda Yazılı təpədəki bir neçə daş üzərində maraqlı rəsmlər həkk olunmuşdur. Gəmiqaya qayaüstü rəsmləri qədim insanların bədii təfəkkürünü, estetik baxışlarını və dini ideoloji təsəvvürlərini əks etdirən ən qiymətli sənət əsərləridir. Buradakı petrofliflərin analoji abidələrlə müqayisəli təhlili Azərbaycanın qədim əhalisinin mənəvi mədəniyyəti və incəsənəti haqqında bir sıra elmi nəticələr söyləməyə imkan verir. Gəmiqayada - yalçın qayaların qoynunda qorunub zəmanəmizə qədər qalmış qədim yurd və rəngarəng süjetli rəsmlər "qalereyası", müxtəlif piktoqrafik işarələr, tayfa damğaları xalqımızın ulu mənəviyyat xəzinəsi olub, tariximizin qaynaqlarının tədqiqinə imkan verən əbədi həkk olunmuş daş salnamələrdir.

- Sizə məxsus fikirdir ki, qədim Naxçıvan mədəniyyəti öz zənginliyinə və yüksək inkişaf səviyyəsinə görə Midiya mədəniyyəti ilə eyniyyət təşkil edir.

- Bilirsiniz, Naxçıvan qədim dünyanın ilkin sivilizasiya vətənlərindən sayılan Midiya, Manna və Atropatena ilə sıx əlaqə şəraitində, onlarla bir iqtisadi, mədəni inkişaf dairəsində təşəkkül tapmışdır. Naxçıvanın e.ə. II-I minilliklərə aid dulusçuluq, metalişləmə kimi mühüm sənət növlərində, təsviri incəsənətində, xüsusilə boyalı qablar mədəniyyətində bu eynilik özünü daha aydın göstərir. Məsələn, Naxçıvanın Şahtaxtı, I Gültəpə, II Gültəpə, Nəhəcir, Qarabağlar, Şortəpə, Yaycı, Kərki, Plovtəpə və başqa abidələrinin incə naxışlı boyalı qabları Midiyanın mühüm mədəniyyət mərkəzlərinin qədim dulusçuluq sənəti nümunələri ilə eyni səviyyədədir. Şərurdakı Oğlanqala Midiya dövründə Naxçıvanın əsas şəhərlərindən biri olmuşdur.

- Sizin rəhbərliyinizlə aparılan ekspedisiya nəticəsində Naxçıvan şəhərində, Xaraba Gilanda, Oğlanqalada və bir çox kənd tipli yaşayış

yerlərində Atropaten mədəniyyətinə aid abidələr, hətta Makedoniyalı İsgəndərin adına kəsilmiş gümüş sikkələr aşkara çıxarılmışdır.

- Bilirsinizmi, bu nə ilə bağlıdır? Antik dövrdə Naxçıvan şəhərinin ərazisi xeyli geniş idi və o, Azərbaycanın əsas ticarət mərkəzlərindən biri idi. O dövrdə təkcə Naxçıvan deyil, Gilan şəhəri də tanınmış, sənətkarlıq və ticarət mərkəzi olmuşdur.

- VII əsrdə Cənubi Qafqazın başqa bölgələri kimi Naxçıvan da ərəb xilafətinin işğalına məruz qalmışdır.

- Həmin dövrdə şəhər ərəb hakimlərinin iqamətgahına çevrilmiş, IX əsrin əvvəllərində Naxçıvan xilafət zülmü əleyhinə baş qaldıran xürrəmilərin - Babəklər Azadlıq Hərəkatının geniş yayıldığı ərazilərdən biri olmuşdur. Xalq qəhrəmanı Babəkin adı ilə bağlı Naxçıvan ərazisində qala, yaşayış məskəni və s. abidələr var.

- Tarixdən məlumdur ki, XII əsrdə Naxçıvan Atabəylər dövlətinin əsas mərkəzi olmuşdur.

- Azərbaycan tarixinin Atabəylər dövrü görkəmli şərqşünas-alim, akademik Ziya Bünyadovun orijinal orta əsr məxəzləri və digər mənbələr əsasında yazdığı "Azərbaycan Atabəylər dövləti" adlı əsərində ilk dəfə yüksək elmi səviyyədə öz əksini tapmışdır.

Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəgizin daim yaşayış yeri Naxçıvan olmuşdur. Onun qadını Möminə Xatun 1175-ci ildə Naxçıvanda vəfat etdi. Atabəy Şəmsəddin Eldəgiz onun qəbri üzərində məqbərə tikdirməyə başladı. Lakin arvadından bir ay sonra vəfat etdi. Məqbərənin tikintisi Atabəy Cahan Pəhləvanın vaxtında başa çatdırıldı. Möminə Xatun məqbərəsini Şərqin məşhur memarı Əcəmi Əbu Bəkr oğlu Naxçıvani inşa etmişdir. Bu dövrdə Yusif ibn Küseyir türbəsi də tikilmişdir. Məlumat üçün deyək ki, həmin dövrdə Naxçıvanda elm və mədəniyyətin inkişafına böyük şərait yaradılmışdır.

- Zaman-zaman Naxçıvan yadellilərin hücumuna məruz qalmışdır.

- XIII əsrin əvvəllərində belə bir qəsbkarlıq yürüşünü də monqollar həyata keçirdi. Monqol işğalçıları Azərbaycanın bir sıra şəhərlərini işğal etdikdən sonra Naxçıvana daxil oldular. XIV əsrin sonlarına kimi nəinki Naxçıvan, bütövlükdə Azərbaycan yadellilərin aramsız basqınlarına məruz qaldı. Hətta XVI əsrin əvvəllərində də Naxçıvan döyüş meydanına çevrilmişdir. Bu barədə tarix kitablarında ətraflı məlumatlar toplanıb.

- Tarixçilər yazır ki, Naxçıvan XVII əsrin ortalarında Azərbaycanın





ən iri şəhərlərindən biri kimi tanınırdısa, bu yüzilliyin sonunda mədəni mərkəz rolunu oynamaqda xeyli zəifləmişdir.

- Bütün bunlara səbəb şəhərin döyüşlərlə üzləşməsi, vuruşması olub. Naxçıvan hər bir vaxt bütün vəlvələlərdən, ən ağır döyüşlərdən qələbə ilə çıxıb. Səfəvi dövlətinin mövcud olduğu vaxtlarda Naxçıvana gələn səyyahların sayı xeyli artmışdır. Onların yazdığı məlumatlardan bilinir ki, Naxçıvan bütün dövrlərdə ticarət mərkəzi rolunu oynamaqda davam edib. XVIII əsrdə Naxçıvanda bir sıra memarlıq və təsviri incəsənət abidələri yaradılmışdır. Halbuki rus-İran və rus-türk müharibələri Naxçıvanın da üzərinə öz qara kölgəsini salmışdır. Amma bütün bunlara baxmayaraq, Naxçıvanda yaşayıb yaradan insanlar quruculuğa çox meyilli olduqlarından bir sıra memarlıq abidələrinin tikilməsi davam edirdi.

- XX əsrin güzgüsündə Naxçıvan necə görünür?

- Siz bilirsiniz ki, XX əsrin əvvəlləri ziddiyyətlər, inqilablar, çevrilişlər və müharibələrlə dolu olub. Ən dəhşətli məqam isə 1905-1907-ci illərlə bağlıdır. Türkiyədə öz mənfur niyyətlərini həyata keçirə bilməyən ermənilər Azərbaycanın müxtəlif bölgələrində milli qırğına, soyqırıma rəvac verdilər. Azərbaycanlıların taleyində faciələrlə dolu olan 1905-ci il tarixli hadisələr haqqında M.S.Ordubadinin "Qanlı sənələr" adlı əsərində faktlar var. Əsərdə göstərilir ki, ermənilər 1905-1907-ci illərdə Azərbaycanın dinc əhalisinə qarşı Bakıda, Gəncədə, Naxçıvanda, Qarabağ qəzasında, Zəngəzurdə, Göyçə ətrafında, Mehridə qanlı cinayətlər törətmişlər. O dövrdə Naxçıvan qəzasının bir çox kəndlərində baş verən münaqişələr silahlı toqquşmaya çevrilmişdir. I Dünya müharibəsi illərində də Cənubi Qafqazın başqa yerlərində olduğu kimi, Naxçıvanda da əhalinin vəziyyəti daha da ağırlaşmışdır. Həmin dövrdə "Böyük Ermənistan" yaratmaq xülyası ilə öz quldur dəstəsini başına yığaraq azərbaycanlılara divan tutan Andronik 1918-ci ilin mart ayında Naxçıvan-Culfa istiqamətində hərəkət edərək Naxçıvanın və Culfanın ətrafındakı kəndləri talan edib dağıtdılar. Yaycı əhalisini vəhşicəsinə qırmağa başladılar. Əgər 1918-ci ilin iyununda türk ordusu Qara Bəkir Paşanın rəhbərliyi ilə naxçıvanlıların köməyinə çatmasaydı, yəqin ki, ermənilərin bu bölgədə törətdikləri ağır fəsadların sayı daha çox olacaqdı. Maraqlıdır ki, XX əsrin sonlarında da Naxçıvanı erməni daşnaklarının hücumundan növbəti dəfə salamat çıxaran ümummilli liderimiz Heydər Əliyev oldu.

- Bu gün Naxçıvan əslində doğma anasından ayrı düşmüş xiffətli övlada bənzəyir. 20 faiz torpaqlarımızın işğal edilməsi, Zəngəzurun düşmən tapdağında qalması bizim bu bölgə ilə sıx əlaqə saxlamağımıza maneçilik törədir. Gediş-gəlişlər ancaq təyyarə vasitəsilə həyata keçirilir.

- Buna baxmayaraq, Naxçıvan qarı düşmənin önündə həmişə məğrur və qürurla dayanıb. Naxçıvanın keşiyində dayanan Vətən əsgərlərinin hər biri əyilməz qaladır. Ümummilli lider Heydər Əliyevin şücaəti, hünəri sayəsində inkişaf edən, tərəqqi tapan, daha da gözəlləşən Naxçıvan bütün bəlaların, təzyiqlərin içindən sıyrılaraq bu gün düşmənə göz dağıdır.

## ATA ÖYÜDÜNÜN BƏHRƏSİ



Onunla 11-ci mərtəbədə söhbət etsək də, elə bir mövzunun üstündə köklənmişdik ki, istər-istəməz xəyalımız çox uzaqlara - dağlar qoynunda boynubükük qalmış yurd yerlərimizə qanadlandı. Vətən adlanan məfhumun nə qəribə sehri və cazibəsi varmış, İlahi? İşinə, gücünə min tərif deyilə, şöhrətin ən uca zirvəsində qürurla dayanasan, haqqında həmişə xoş sözlər söylənə, ömrün boyu fəaliyyətin xalqa xidmətə yönələ... Bütün bunlar gözəl, çox gözəldir. Amma nə ola bu bəxtəvərliklə bərabər içində xiffət, könlündə həsrət olmaya. Özünü dünyanın xoşbəxti saya biləsən. Təəssüf ki, bu hər vaxt mümkün deyil. Babalarının, nəslinin, nəcabətinin axirət dünyası düşmən tapdağı altında qala, xəyalın qanadlanan yerə yönün düşməyə, dözmək olarmı bu zülmə? Daş da olsa əriyər, insandır ki, tablaşır.

Bir məsələ də gərək unudulmaya ki, qəlbimizin can atdığı qədim Zəngəzur mahalı əzəldən igidlər, qəhrəmanlar yurdu olub. Təəssüf ki, Koroğlu timsallı ərənlərin el-obasında Keçəl Həmzələr də əskik





olmayıb. Qasırğa, tufan önündə əyilməyənlər, hiyləgər, nadan yadların fitnə-fəsadına tuş gəlib. Elə bu səbəbdəndir ki, indi dağ hünərli, zorbiləkli, kürəkli, hərbi düşüncəli, döyüşün hər cür texnikasına bələd insanlar bəndi-bərəsi kəsilmiş yurd yerlərinə qayıdış üzərində çalışmalı olublar.

Xoşbəxtlikdən müsahibim məhz belə vətənpərvər, əqidəli, varlığı ilə yurda bağlı vətən oğlu kimi diqqətəlayiq, sənətin, peşənin, səriştəli hərbi təcrübənin yiyəsidir. Gizlətmək lazım deyil ki, indi çoxumuzun taleyi bu cür mütərəqqi fikirli, dərin bilikli, müdrik planlı insanların düşünülmüş taktikasından, uzaqgörən siyasətindən, ölçülüb-biçilmiş addımlarından çox asılıdır. Həm də o, adi peşə sahibi deyil. Ağlına, biliyinə, əqidəsinə, saflığına, ən başlıcası, Vətən eşqinə güvəndiyimiz Vahid Əliyev xalqımın general-leytenant rütbəli hərbiçisidir.

Babaları Məşədi Hüseyn (Şıxlar kəndi), Osman kişi (Şəki kəndi) Qarakilsədə, bütövlükdə Zəngəzur mahalında böyük nüfuza, hörmətə malik ağsaqqallardan olublar. Ötən əsrin əvvəllərində daşnak Andronikin quldur dəstəsinin bu bölgədə törətdiyi qanlı toqquşmaların, faciələrin şahidləri olublar. Onlar millətimizin başına gələn müsibətləri övladlarına danışmağı unutmayıblar.

Vahidin atası Əli kişi də Qarakilsənin tanınan, sevilən qeyrətli oğullarından biri olub. II Dünya savaşında cəbhədə göstərdiyi qəhrəmanlıqlar barədə həmişə övladlarına danışar, onların əsl vətənpərvər ruhda böyüməsinə çalışardı. Tanrının bəxş etdiyi xoşbəxtlikdir ki, Əli Əliyevin zəhməti hədər getmədi. Onun övladları təkcə bir ailənin, bir nəslin deyil, bütün millətin fəxr edəcəyi, qürur duyacağı şəxsiyyətlər oldular. Ata öyüdünün bəhrəsi Azərbaycana dörd yüksək rütbəli hərbçi bəxş etdi: Vaqif Əliyev polkovnik, Zərifə xanım polkovnik rütbəli hərbi həkim, Vidadi Əliyev general, Vahid Əliyev general-leytenant.

Vahid Əliyev 19 aprel 1969-cu ildə Bakı şəhərində anadan olub. Orta məktəbdə oxuduğu illərdə həm atasının təsiri, həm də hərbi sənətə olan marağı onu 1983-cü ildə C.Naxçıvanski adına Hərbi liseyə gətirib çıxartdı. Hərbçi kimi ilk addımlarını burada inamla atan Vahid Əliyev sonralar Leninqrad Ali Hərbi Siyasi Məktəbi fərqlənmə diplomu ilə bitirdikdən sonra sovet qoşunlarının xüsusi təyinatlı kəşfiyyat alayında xidmət edib. Milli Təhlükəsizlik Orqanlarının əməliyyat işində də xidmət göstərən həmyerlimiz 1992-ci ildən 1997-

ci ilədək Azərbaycan Respublikasının Prezidenti Yanında Xüsusi İdarədə müxtəlif qoşun növlərində əməliyyat müvəkkili, baş əməliyyat müvəkkili, bölmə rəisi, şöbə rəisi vəzifələrində fəaliyyət göstərmişdir. Bu arada Bakı Dövlət Universitetinin hüquq fakültəsini müvəffəqiyyətlə bitirən Vahid Əliyev bir müddət Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik nazirinin müavini vəzifəsini yerinə yetirib, 1998-ci ildən 2002-ci ilədək Muxtar Respublikanın təhlükəsizlik naziri olub. 2002-ci ildən isə Azərbaycan Respublikası Prezidentinin müdafiə məsələləri üzrə köməkçisi vəzifəsində çalışır. Müharibə veteranı olan Vahid Əliyev göstərdiyi xidmətlərə görə bir sıra orden və medallarla təltif edilmişdir. Peşəkar hərbçi kimi qeyd edilən həyat dolu rəqəmlər Vahid Əliyev ömrünün qiymətli anlarını özündə yaşadır. Bizi ən çox düşündürən isə bu görkəmli hərbçinin Vətənlə, doğma yurdla bağlı düşüncələri oldu. İstər səsində, istər səliqəli zabit geyimində duyulan sərtlik xatirələrin kövrəkliyində əriyib gedirdi: "Bilmirəm, hansı hiss idisə, bir gün atam hamımızı başına yığıb dədə-baba ocağına apardı. Bu, 1983-cü ildə olub. Onda mənim 14 yaşım var idi. Atam doğma yerləri bizə qarış-qarış gəzdirdi. Əvvəlcə Şıxlarda olduq, Bəyməmməd bulağından su içdik. Kəndin mərd, mehriban, qonaqsevər əhalisi ilə görüşdük. Dağ döşündə yerləşən Şıxların gözəlliyi hələ də gözlərimdən çəkilmir. Şəkidə də olduq. Kəndin yaxınlığında çağlayan şəlalənin hüsnünə tamaşa etdik. Sonra ailəliklə Uruda getdik. Dərənin içində, dağların qucağında yerləşən Urudun da özünəməxsus gözəlliyi var idi. Kəndin hər qarışı bir mənzərə idi. Biz bu kənddə Zəngəzur, Naxçıvan, Qarabağ bölgələrinin etiqad bəslədikləri Mirismayıl Ağanın günbəzini ziyarət etdik. Urudun rəmzi olan qədim qalanın qeyri-adi görünüşü, müdrik duruşu bizi, məftun etmişdi... İndi də yadıma düşəndə qəlbim riqqətə gəlir. Fikirləşirəm ki, nə yaxşı atam bizi o vaxt doğma yurda apardı. Cəmi beş ildən sonra o yerlərdən soydaşlarımızı son nəfərədək çıxartdılar. Bu da Allahın işidir. Bəlkə kişinin ürəyinə nəsə damıbmış. Biz atamızı heç vaxt elə şən, xoşbəxt görməmişdik. Hələ anam Qumru necə sevinirdi. Baxmayaraq ki, onlar doğma yurddan neçə il idi ki, çıxmışdılar. Amma hər daşın, qayanın, dağın, dərənin, çayın, bulağın adını əzbər bilirdilər. Elə cığırlar, yollar tanıyırdılar ki, inanın, il boyu orada yaşayanlar özləri bunları dəqiq bilmirdilər. Mən hər cür regionçuluğun əleyhinə olan adamam. Ancaq burada həssas bir nöqtə





var. İnsan ana yurdunu, ata ocağını ürəkdən sevməlidir ki, bu sevgi ailədən qonşuya, kənddən şəhərə keçərək böyük və əzəmətli Azərbaycana yönəlsin. Vətən sevgisi beşikdən başlayır..."

Vətən sevgisi ilə döyünən ürəklər var olsun. Bu cür ürəklərin bütün çırpıntısında torpaq, millət, xalq deyilən sehrli varidatın məhəbbəti yaşamaqdadır.

Nə qədər ki, Zəngəzur dağlarının əzəmətini, qürur və ucalığını qanında, yaddaşında, məsləkində yaşadan Vahid Əliyev kimi general oğullarımız var, sənə mütləq dönəcəyimiz gün olacaq, vətən! Bunu təkcə mən - kövrək ürəkli bir ana söyləmir. Keşiyində dayanmağa, səni düşmən pəncəsindən almağa hazır olan oğulların deyir. Bunu gur və qətiyyətli səsləri ilə Vahid, Vaqif, Vidadi, Elçin... kimi ciyərparaların deyir. Bunu bizə inandıransa öz vəsiyyətləri ilə ruhumuzda, mübarizəmizdə həmişə bizimlə olan ümummilli liderimiz Heydər Əliyevdir.

# YAYLAĞIGÜLÜ ƏRƏFSƏ



*Bu yolların rəngi sarı,*
*Ana yurdum, eşit barı,*
*Üzü gedir yaza sarı,*
*Nədən sənə yetmir əlim?*



## SALVARTI DAĞININ ƏTƏYİNDƏ

Orada bir kənd var idi. Adına Ərəfsə deyirdilər. Rayon mərkəzindən təqribən 20 kilometr məsafədə yerləşən bu qədim türk kəndi Comərdli, Təzəkənd, Hörtüyüz (1918-ci ildə daşnak ermənilər tərəfindən yer üzündən silinmişdir) kəndləri, eləcə də Culfa və Ordubad əraziləri ilə həmsərhəd idi. Bir tərəfdən də silsilə, aşırımlı dağlarla əhatə olunmuşdu.

Qədim mənbələrdə bu kəndin adı dəfələrlə çəkilib. Qəribədir ki, Culfa rayonunda da Ərəfsə kəndi var, hər iki obanın camaatı digər kəndi "O üz Ərəfsə" adlandırır. Çox güman ki, hər iki yaşayış məntəqəsinin qədim sakinləri eyni türk tayfalarından olublar. Bir tərəfdən də maraqlı cəhət odur ki, Ərəfsə kəndi böyük İpək yolunun



üzərində yerləşirdi.

1918-ci ilin payızında Zəngəzurun digər kəndləri kimi Ərəfsə kəndinin də əhalisi daşnak Andronikin quldur dəstəsi tərəfindən vəhşicəsinə qətlə yetirilmiş, salamat qalan digər insanlar isə baş götürüb çox uzaqlara qaçmışlar. Hətta ərəfsəlilərin bir qismi Orta Asiyaya üz tutaraq orada məskunlaşmış, bir qismi də Naxçıvanda özlərinə yeni yuva qurmuşlar. On ilə kimi kənd eləcə boş qalmış,

xarabalıqlarının üzərində bayquşlar ulamışdı.

Vətən həmişə şirin olur. Məcburiyyət qarşısında onun isti qoynunu tərk etsən də, ömrün boyu unuda bilmirsən. Ara sakitləşən kimi 1927-ci ildə bir qrup ərəfsəli, daha doğrusu, dörd ailə doğma kəndə qayıdaraq onun solğun simasına yeni həyat gətirdilər. Dağıdılmış, tamamilə sıradan çıxarılmış kəndlərin də sakinləri son ümid yeri kimi Ərəfsəyə üz tutdular. Ərəfsənin yeni sakinlərindən biri də qətlə yetirilmiş Hörtüyüz kəndinin əhalisi oldu. Onlar da Ərəfsədə məskunlaşaraq həyatlarını davam etdirdilər.

Ərəfsə təbiətin şah əsərlərindən biri idi. Bu balaca kəndin sinəsindən dörd çay axırdı: Dəli çay, Taxtakörpü, Salvartı (qolları Daşkəsən, Çayaşağı), Xırda çay. Yer adlarının hamısı da türkcədir: Alabaxta, Meşəbaşı, Kilsəçiməni, Ramazanölən, Ağakişi qoruğu, Qaracallı düzü, Molla Məhərrəmli, Dibəkli, Kürd yeri, Sarıyataq, Bədəlxan, Mərcanlı yurdu, Sisianlı yurdu, Xaşxaşlı, Xəndəkli, Qazmayurd, Abbas yüzbaşı yurdu, Teymur yurdu (deyilənə görə, Əmir Teymurun qoşunları Əlincə qalasını mühasirədə saxlayanda yayda gəlib burada istirahət edərmişlər. Həmin yerdə Orta Asiyadan gətirilmiş soğan toxumları əkilibmiş, sonralar oraya el arasında "Soğanlıq" deyirmişlər. Bütün bu illər ərzində orada soğan bitərmiş). Hətta Camal qalasının da Əmir Teymurun sərkərdələrinin birinin adı ilə bağlı olması haqqında danışırlar. İki Ərəfsənin arasında Gəbik adlı (yəqin ki, bu gədik mənasındadır) yer də vardır. Ərəfsədə Zenişərəf adlı qəribə bir qaya da vardır. Təqribən 1000 ton ağırlığında olar. Maraqlıdır ki, bu nəhəng qaya balaca bir daşın üzərində dayanıb. Ona el arasında təbiətin "daş heykəli" də deyirdilər. Kölgəsində sürülər dincələ bilirdi. Keydidər qayasında isə Keydidər adlı quşlar yaşayarmış. Təndirli qaya haqqında da əfsanələr danışırlar.

Ərəfsənin əzəmətli dağları: Qırxlar, Salvartı, Xaşxaşlı, Dibəkli, Topurğulu, Cəvik. Bu balaca kəndin hər qayasının dibində bir bulaq qaynayırdı: Soyuqbulaq, Mustafa bulağı, Teyfə bulağı, Abbasyüzbaşı bulağı, Baldırğanlı bulaq, Şırşırbulaq, Çayarası bulaq, Yeddibulaq, Arançı bulağı və s.

Kənd sakini, uzun müddət Qarakilsə rayonunda bir sıra məsul vəzifələrdə çalışmış Vəli İbrahimov söyləyir ki, kəndin ərazisində müxtəlif yerlərdə sayı-hesabı bilinməyən qəbiristanlıq olub. Bu onu göstərir ki, Ərəfsə kəndi çox qədim yaşayış məskənlərindən biridir.





Hətta uzun illər Qarabağ camaatı yayda bu yerlərə yaylağa gələrmiş. Yaxınlıqda Kalafalıq adlanın bir ərazi də var. Çox qədim zamanlarda baş verən yer sürüşməsi zamanı dağılıb. Sıradan çıxmış evlərin xarabalıqları, bir də qəbiristanlıq bizim əsrə qədər qalırdı.

Sovet hakimiyyəti illərində Ərəfsə kəndi yenidən quruldu, yaşayış evləri tikildi, geniş bağlar salındı, məktəb, klub, kitabxana əhalinin istifadəsinə verildi. II Dünya müharibəsi zamanı kəndin igid oğulları da davaya getdi. 87 nəfərdən 43-ü geri qayıtmadı.

Kənd o qədər sürətlə inkişaf etmişdi ki, bədnam ermənilərin gözü yenə də bunu götürmədi. 1968-ci ildə onun qədim adını dəyişdirərək "Arevis" qoydular. Sanki bununla öz məkrlərinin davam etdiyini bildirirdilər. 120 ailədən ibarət olan Ərəfsə kəndi 1988-ci ilin dekabrında özünün ən müdhiş günlərini yaşadı. Qarakilsənin erməni təcavüzünə məruz qalmış sonuncu kəndi məhz Ərəfsə oldu. İndi ərəfsəlilərin bir qismi Naxçıvanda, Abşeronda, bir qismi də Bakı və Sumqayıt şəhərlərində yaşayır. Haqsızlığa, mənəvi və fiziki terrora məruz qalanlardan dünyalarını dəyişənlər daha çoxdur. Əlbəttə, bununla bərabər, dünyaya yeni ərəfsəlilər də gəlir. Genlərin möcüzəsinə həmişə inanmışıq. Onlar nə vaxtsa mütləq Vətənə qayıdacaqlar.

Ərəfsəli ağsaqallar: İslam Sadıqov, Əvəz Mirzəyev, Bilal Əliyev, ağbirçəklərdən Zeynəb Əliyeva (dini təhsil görmüş müdrik bir qadın olub), Əsli Nəsir qızı həmişə öz məsləhətləri, xeyir-duaları ilə kənd camaatının sevimlisinə çevrilmişdilər. Ərəfsədə kolxoz qurulandan sonra ona müxtəlif insanlar rəhbərlik etmişlər. Onlar adicə kolxoz sədrləri kimi yox, ərəfsəlilərin xeyrinə-şərinə yarayan, çörək verən, xeyirxah insanlar kimi indi də ehtiramla xatırlanırlar: Məhəmməd Rüstəmov, Adıgözəl Əliyev, İsaq Sadıqov, Məhəmməd Musayev, Əziz İmanov, İsmayıl Cümşüdov, Turab İsgəndərov (Ağdülu), İsa Həmidov, Hüseyn Musayev, Vəli İbrahimov. Kənd ağsaqqalı İslam Sadıqov uzun müddət rayonda maliyyə şöbəsində çalışıb. Yeganə azərbaycanlı idi ki, II Dünya müharibəsi zamanı cəbhəyə getməmək üçün xüsusi "bronu" olub. Kənd camaatı onu xeyirxah insan kimi tanıyaraq sevmişdir. Ərəfsənin son poçtalyonu Hüsü Zeynalov, son klub müdiri, həm də kitabxanaçısı Qasım Qasımov, kənd həkimi isə Əli Məhərrəmov olub. Ərəfsəlilərin minnətdar olduqları insanlardan bir qrupu da müəllimlər idi: Haqverdi Yaqubov, Əziz İmanov, Həsən İmanov, Əsgər Əsgərov,

Həsən Cümşüdov, Söhbət Əliyev, Tanrıverdi Əliyev, Məmili Süleymanov...

Ərəfsəyə şöhrət gətirmiş alim oğullar: Ramiz Əliquliyev, Məmməd Yaqubov, Əhməd Musayev, Xızır Süleymanov, Adil Yaqubov, Qəzənfər Həsənov, Əli Yaqubov, Murad İmanov, Fazil Sadiqov, Xavər Sadiqova, Əhməd Musayev, Bəxtiyar Musayev, Sabir Həmidov, Fəzail Cümşüdov, Məhəbbət Musayev və başqaları.

Ərəfsənin işğalından sonra onun qoynundan pərvazlanmış igid oğulları Qarabağ uğrunda gedən döyüşlərdə xüsusi fədakarlıq və qəhrəmanlıq göstərdilər. Şəhidlik zirvəsinə yüksəlmiş dörd ərəfsəli gəncin adı gözümüzün yaşına, ürəyimizin qüruruna çevrilib. Çünki onlar Vətən uğrunda, torpaqlarımızın bütövlüyü naminə canlarını "uf" demədən qurban verdilər: Gəray Əhmədov, Azad İmanov, Sərbaz Zeynalov, Məhəmməd Qəniyev.

## KƏNDİ SONUNCU TƏRK EDƏNLƏRDƏN BİRİ



Bu, Vəli İbrahimovdur. Gözünü 1936-cı ildə Ərəfsədə açan, ilk təhsilini orada alan, ali məktəbi bitirdikdən sonra doğma kəndə qayıdan Vəli İbrahimov rayonda bir sıra məsul vəzifələrdə çalışmış, 1968-ci ildən 1988-ci ilədək Ərəfsə kənd sovetinin sədri vəzifəsində işləmişdir.

Bizimlə söhbət zamanı söylədi ki, 1905-1918-ci illərdə Zəngəzurda ermənilərin törətdikləri soyqırım nəticəsində onun 3 əmisi vəhşiliklə qətlə yetirilmiş, nəsillərindən yeganə sağ qalan nümayəndə atası Musa kişi olubmuş. İndi bu nəsildə 5 övlad, 28 nəvə, 36 nəticə vardır. "Ermənilərə nifrət bizim bütün varlığımızda özünə yer tapıb. Qarabağ müharibəsində həlak olanlar arasında neçə-neçə yaxın qohumum vardı".

Vəli İbrahimov Ərəfsəni çox sevirdi. Vəzifədə olduğu müddətdə çalışırdı ki, həmişə kəndə bir xeyri dəysin. 1967-ci ildə Ərəfsə Ermənistanda ikinci kənd idi ki, II Dünya müharibəsindən qayıtmayan azərbaycanlı oğulların şərəfinə abidə ucaldıldı. Bu kompleksin yaradılmasında Vəli İbrahimov sözün əsl mənasında böyük cəfakeşlik göstərmişdir. "43 ərəfsəlinin adını biz o abidənin üzərinə həkk etdirmişdik. Sonradan aldığımız məlumata görə, abidə yerində qalsa da, yazılar qopardılıb".





Vəli müəllim hazırda Bakıda yaşayır. Yaşlaşıb. Ömür-gün yoldaşı Səkinə xala vətən həsrəti ilə dünyasını dəyişib. Beş övladın atası olan Vəli İbrahimovun bircə arzusu var: "Allahın möcüzəsi baş verə, məni aparıb Salvartının ətəyində qoyalar. Gözüyumulu əlimi daşlara, qayalara sürtə-sürtə evimizə gedərəm. Qoy evimizi də dağıtsınlar, ağaclarımızı da kəssinlər, suyumuzu da qurutsunlar, təki o daşının, qayasının gözəlliyinə söz çatmayan torpağımızı özümüzə versinlər. Başıbəlalı Ərəfsə iki əsrdə neçə dəfə yanıb, dağılıb, yenidən qurulub, gözəlləşib". Səsi titrədi, gözləri yaşla doldu, üzünü mənə tutub qəhərlə dedi: "Məni qınama qızım, mən şəhərləşə bilmədim. Fikrim-zikrim o dağlarda qalıb".



# YÖNÜ DAĞLARA SARI



Hər dəfə Vətənlə, Zəngəzurla bağlı mətbuatda bir yazım dərc ediləndə mənə ilk zəng edən, minnətdarlığını bildirən, o yerlərlən danışdıqca səsi titrəyən Oqtay Sadıqovla neçə illərdir ki, telefon ünsiyyətimiz var. Elə diqqətli, həssas oxucudur ki, adi rəqəm də belə gözlərindən yayınmaz. Tarix müəllimidir. Ötənləri - daha doğrusu, Zəngəzur elinin başına gələn qəzavü-qədərin səbəbini dərindən bilir.

O, 1939-cu ildə Ərəfsə kəndində anadan olub. Yeddi illik məktəbi doğma kənddə oxuyub, orta təhsilini isə Naxçıvanda alıb. İrəvan Dövlət Pedaqoji İnstitutunu bitirdikdən sonra bir müddət Ərəfsədə müəllim işləyib. 1969-cu ildən Abşeron rayonuna köçərək Xırdalan qəsəbəsində pedaqoji fəaliyyətlə məşğul olub. Məqsədi tarix sahəsində elmi iş yazmaq imiş. O, Azərbaycan Elmlər Akademiyasının dissertantı olub, hətta bir müddət həm İrəvanda, həm də Bakıda arxivlərdə çalışsa da, obyektiv səbəblər ucbatından elmi işi yarımçıq qalıb.

Oqtay Sadıqov Ərəfsədən söz düşəndə mütləq ziyarətgahların adlarını çəkir. "Bizim əhali dinə, imana pənah gətirər, müqəddəslərini tez-tez yad edərdilər. Kəndimizdə müqəddəs ünvanlar çox idi: Salvartı piri, Qırxlar piri, Yeylax piri, Abuzər piri, Hafizin piri.

Atam İslam Seyid Mirhəbib ağa ilə (Urudda yaşayan Seyid Mirismayıl Ağanın kiçik qardaşı) dostluq edirdi. Ağa özü Zaqatalada yaşayırdı. Hər il yayda Qarakilsəyə gələrdi. Qohum-əqrəba ilə görüşərdi. Mütləq bizim evdə qalardı. İndi onun məzarı Zaqatalanın Həmşəri qəbiristanlığındadır. İldə bir yol ziyarətinə getməklə sanki sakitlik tapıram. Məni ağrıdan odur ki, ata-anam yaşlarının ahıl çağlarında doğma yurddan didərgin düşdülər.

"Anam 20 Yanvar hadisələrindən sarsılaraq dünyasını dəyişdi, atam da 2000-ci ildə vəfat edib", - deyə baxışlarını bizdən yayındırmaqla





kövrəlməyini gizlətmək istəyən Oqtay müəllimi yaxşı anladıq.



Oqtay Sadıqov alimlər atasıdır. Onun övladları ali məktəb müəllimləridir. Xavər Neft Akademiyasında, Dilşad Pedaqoji Universitetdə çalışır. Emin iqtisadiçıdır, Hüsniyyə mühəndisdir. Oqtay müəllim söhbət etdikcə xəyalımız Zəngəzura qanadlanırdı. Sinəsi dolu idi. Kəndin ağsaqqallarından, ziyalılarından, dərəsindən, dağından, bulağından danışdıqca doymurdu. "Hər gecə yuxuda Ərəfsə dağlarını görürəm. Məni qınamayın, bizim dağların bənzəri heç harda yoxdur. Hətta o dağlarda yaşayan canlılar da belə fərqli idi. Harada dağ görsəm, qəlbimin başı göynəyir. Mənə elə gəlir ki, insan hər gecə üzünü dağa tutub dua etməlidir ki, səhəri aydın gəlsin. Biz indi o dağları itirmişik. Təpələrdən nə gözləyək? Ürəyimdən keçir ki, bir oğul-uşağı, nəvə-nəticəni başıma yığıb pay-piyada bizim dağlara sarı yollanam, amma gedə bilirəm ki?" - söyləyən Oqtay Sadıqov Məmməd Arazın məşhur misraları ilə söhbətə yekun vurdu:

Vətən mənə oğul desə nə dərdim,
Mamır olub qayasında bitərdim.
Bu torpaqsız harda, nə vaxt, nə dərdim -
Xəzanımdır, xəzanımdır, xəzanım.

# ƏRƏFSƏNİN QONŞULUĞUNDA BİR KƏND VAR İDİ



Adına Hörtüyüz deyirdilər. İndi Xocalı soyqırımından, 20 Yanvar faciəsindən danışaraq ermənilərin necə dəhşətli qətllər törətdiyini nəhayət dilə gətiririk. Halbuki 1905-ci ildən başlayaraq ermənilər zaman-zaman xalqımıza qarşı müxtəlif soyqırımı həyata keçiriblər. 1918-ci ildə ermənilər təkcə Zəngəzurda 115 kəndi yer üzündən siliblər. Özü də bu vəhşiliyi onlar dan yeri ağarmamış, insanlar yuxuda ikən həyata keçiriblər. Hörtüyüz kəndi də belə qətlama məruz qalmış kəndlərimizdən biri olub. 1918-ci il sentyabr ayının 22-si sübh tezdən Andronikin başçılıq etdiyi quldur dəstə Hörtüyüzdə ağlagəlməz soyqırım törədiblər. Onlar kəndin əhalisini zəmi kimi biçiblər. Bir günün içində 192 adamı qətlə yetirərək dərədə axan çaya atıblar. Hadisələrin sağ qalan şahidləri söyləyirlər ki, Hörtüyüz dərəsindən axan çay bir müddət qırmızı rəngdə olub.

Hörtüyüzdən tək-tük insan salamat qalıb. Onlardan biri də Haqverdi Yaqubovun ailəsi olub. Onlar sıldırım dağlardan aşaraq Culfanın Xanağa kəndində məskunlaşıblar.

Haqverdi Yaqubov 1936-cı ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirərək Culfa rayonundakı Milax və Ərəfsə kəndlərində dərs deyib. II Dünya müharibəsi zamanı cəbhəyə gedib. O vaxt övladı Məmməd Yaqubov (1941) dünyaya gəlib. Başsız qalan ailə doğma yurda qayıtmaq məcburiyyətində qalıb. Amma artıq Hörtüyüz deyilən kənd yer üzündə yox idi. Məmməd Yaqubov danışır ki, nənəm Ərəfsə kəndində yaşayırdı, biz də onun yanına getdik.

1954-cü ildə bu kənddəki yediillik məktəbi bitirən Məmməd Yaqubov orta məktəbi Naxçıvanda əla qiymətlərlə başa vurub. 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsinə qəbul







olunub. Ali məktəbi fərqlənmə diplomu ilə bitirən gənci aspiranturada saxlayırlar. Fizika-riyaziyyat elmləri namizədi olanda Məmməd Yaqubovun 25 yaşı var idi. Onun fizika-riyaziyyat sahəsində əhəmiyyətli, dəyərli elmi işləri çoxdur. Məmməd Yaqubov həmkarları arasında sayılıb-seçilən, nüfuzlu alimlərdən biridir. O, 1991-ci ildə Sankt-Peterburqda "Paylanmış parametrli sistemlərdə optimal sürüşən rejimlər və optimallıq üçün zəruri şərtlər" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Onun bu sahədə aldığı nəticələr Moskva, Sankt-Peterburq, Kiyev, Tbilisi, Yekaterinburq və digər şəhərlərdəki Optimal İdarə məktəblərinin mütəxəssisləri tərəfindən yüksək qiymətləndirilmiş və bir çox beynəlxalq jurnallarda dərc olunmuşdur. Məmməd Yaqubovun rəhbərliyi altında 12 gənc namizədlik dissertasiyası müdafiə etmiş, onlardan ikisi hazırda elmlər doktorudur. Məmməd müəllim 100-ə qədər elmi əsərin müəllifidir. Ali məktəblər üçün dərslik və dərs vəsaitləri hazırlayan Məmməd Yaqubov 1985-ci ildən Amerika Riyaziyyat Cəmiyyətinin üzvü və riyaziyyat üzrə ABŞ-da nəşr olunan bir elmi jurnalın rəyçisidir.

1965-ci ildən Bakı Dövlət Universitetində işləyən Məmməd Yaqubov hazırda həmin ali məktəbdə kafedra müdiridir.

# SİRA DAĞLAR, GEN DƏRƏLƏR



*Ana yurdum yaman düşüb beynimə,*
*İstəyirəm məktub yazam özümə,*
*Bu ayrılıq heç gəlməzdi eynimə,*
*Yuxu kimi tərsə yozum özümə.*



## DƏSTƏN HANI, DƏSTƏYİRD?!

Qarkilsənin mərkəzindən 21 kilometr cənubda yerləşən Dəstəyird bölgənin ən qədim yaşayış məskənlərindən biridir. Kəndin adı ilə bağlı müxtəlif fərziyyə və əfsanələr mövcuddur. Arxiv sənədlərdə "Dəstəgird", "Dəstəkerd" yazılan, yerli sakinlərin tələffüzündə "Dəstəyird" kimi səslənən toponimini bəzən fars sözü kimi izah edirlər. Amma əslində bu iki kəlmənin hər komponentində türk dilinin varlığı duyulur. "Dəstə get", "Dəstə igid", "Dəstə yurd" kimi mənalandıran təmiz, anlaşıqlı, doğma sözlərimizə özgə köynəyini geyindirməyə lüzum yoxdur. Bu adla bağlı söylənilən əfsanələrdə də tez-tez hallandırılır ki, təpənin başında dayanan sərkərdə öz əsgərlərinə belə əmr verərmiş: "Dəstə get". Elə o söz də dillərdə yaşayaraq sonralar yaşayış yerinin adına çevrilib.



Dəstəyird kəndi Sofulu, Murxuz, Şıxlar (Qızılşəfəq), Ginətağ və Qafan rayonu ilə həmsərhəddir. Yüz evli kəndin 500-ə qədər əhalisi olub. Kəndin ərazisində iki müqəddəs pir - Şeyx Əhməd və Qara Qaya

var idi. Çox böyük nüfuz və inam sahibi olan seyid Rəhim ağanın da ocağı ziyarətgaha çevrilmişdi.

Dəstəyird həqiqtən çox qədim yaşayış məskəni olub. Bunu kəndin mərkəzində tikilmiş alban kilsəsinin qalıqları da sübut edirdi. 1919-cu ildə daşnak Andronik Ozanyanın quldur dəstəsi tərəfindən yerləyeksan edilmiş həmin məbədin xarabalığı ötən əsrin 50-ci illərinə kimi qalırdı. Hətta kilsənin divar daşlarından bəzilərini kənd sakinləri müqəddəs nişanə kimi qoruyub saxlayırdılar. Kənd sakini Hacı kişinin evinin yanında (1988-ci ildə Dəstəyirdin işğalına qədər) qalırdı. Bundan başqa, kəndin üst tərəfində qədim bir qəbiristanlıq var idi. Həmin qəbirüstü daşların üzərindəki yazılar da alban əlifbası ilə nəqş edilmişdi.

Dəstəyird kəndinin ərazisi çox böyük idi. Zəngəzurun bu səfalı və dilbər guşəsi hər tərəfdən üzük qaşı kimi sıra dağlarla əhatə olunmuşdu. Vaxtilə kəndin yaylaqlarında Cəbrayıl, Qubadlı, Füzuli, Zəngilan rayonlarının heyvandarları yaylaqlanardılar.

Dəstəyirdin toponimləri də türkcədir. Yurd yerləri: Mehrili, Qızyurd, Başyurd, Ortayurd, Yerliyurd, Faxyurd, Seyid Sədi Yurdu, Namazevi, Qoçu Yurdu, Qarabağlıdüşən, Əmiraslan Yurdu... Yer adları: Təkbarmaq, Arpadərəsi, Sarıdərə, Tozqoparan, Haçaqaya, Armudluq, Kotandüzü, Tulauçan, Ayıdərəsi, Kəklikdaşı, Dibəkli, Qanqallı, Əlidərəsi, Göybiçin... Bulaq adları: Soyuqbulaq, Sudaşı, Muzlasuyu... Çaylar: Haçaqaya çayı, Təkbarmaq çayı. (Bu çaylar rayondan keçən Bazarçaya tökülürdü. Təkbarmaq çayının üzərində "Daş körpü" adlanan - 6 metr uzunluğunda, 1,5 metr enində bütöv bir sal daş - təbii keçid var idi. İnsanlar bu qeyri-adi körpüyə Allahın möcüzəsi kimi baxırdılar). Pirlər: Şeyx Əhməd, Qaraqaya.

Dəstəyird tarixən imanlı yaşayış məskəni olub. Kənd camaatı görkəmli din xadimləri ilə həmişə fəxr edirdilər. Şamxal Əfəndinin adı bu kəndin rəmzinə çevrilmişdi. O, din xadimi olmaqla bərabər, yüksək səviyyəli ziyalı idi. İstanbulda ali təhsil almışdı. Vaxtilə Şamxal Əfəndini Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsinə işə dəvət etsələr də, o, sovet hökumətinin təhsil ocağında işləmək istəməmişdir.

İki dəfə Həcc ziyarətində olmuş Hacı Mustafa bölgənin sayılıb-seçilən ağsaqqallarından olmşudur. Hacının oğlu molla Qəni də mükəmməl dini təhsil almış elmli bir adam idi.

1918-1920-ci illər arasında erməni daşnaklarının Zəngəzurda





qopardığı qara tufanın bir dalğası, təbii ki, Dəstəyirdi də bürüdü. Evləri, mülkləri, yurdları tar-mar edilmiş, erməni vəhşilərinin ağlagəlməz zülmlərinə düçar olmuş insanların xeyli hissəsi bu ağır toqquşmada qətlə yetirildi. Üzlərini Azərbaycana sarı tutan dəstəyirdlilər erməni zülmündən qurtulsalar da, xəstəlikdən, istidən, şəraitsizlikdən ölümə məhkum oldular. Ara sakitləşəndə yurda dönən də oldu, onu biryolluq itirən də.

Sovet hakimiyyətinin qurulmasından çox əvvəl kəndin ən nüfuzlu bəylərindən biri Xansuvar bəy idi. O, sonralar məşhur şair və alim olmuş Qasım Qasımzadənin atasıdır. Qiyas kişi də kəndin çox qoçaq,igidlərindən sayılıb. Deyirlər ki, onun qorxusundan kəndin camaatına bir nəfər də toxuna bilməzdi. Xüsusilə də ermənilər Qiyas kişidən tük salarmışlar. Elə buna görə də 1937-ci ilin repressiyalarında namərdlər Qiyas kişinin də həbs edilib Sibirə göndərilməsində öz çirkin əməllərini yerinə yetirdilər.

II Dünya müharibəsinin başlanması ilə əlaqədar bu kəndin də üzərini qara dumanlar bürüdü. Minbir əziyyətdən, əzabdan sıyrılaraq özünə təzə-təzə yurd-yuva düzəldən, həyat quran insanların acı günləri başladı. Dəstəyirddən müharibəyə 80-ə yaxın oğul yola salındı. Onlardan 37 nəfəri geri qayıtmadı.

1947-ci ildə Dəstəyird dağlarında aparılan geoloji kəşfiyyat nəticəsində bir sıra təbii sərvətlərin üzə çıxarılmasına nail olundu. Bununla bağlı kənddə mis-molibden mədəninin işə salınması ilə əlaqədar yaşayış massivinin həm həyat tərzi, görünüşü və statusu dəyişildi. Dəstəyird rayonda azərbaycanlıların yaşadığı yeganə qəsəbəyə çevrildi. Kəndin həm mərkəzində, həm də ətrafında yeni evlər, eləcə də hündürmərtəbəli binalar tikildi. Bölgədən, eləcə də müxtəlif yerlərdən qəsəbəyə fəhlə axını başladı. 1969-cu ildə mədənin fəaliyyəti dayandırılaraq yeni bir zavod işə başladı. Tibb alətləri istehsal olunan bu zavodda çalışanların əksəriyyəti azərbaycanlılar idi.

Dəstəyird ziyalıları həmişə öz mədəniyyətləri, bilik və istedadları ilə seçiliblər. Onların əldə etdikləri nailiyyətin ünvanı həmişə unudulmaz, yaddançıxmaz Dəstəyirdin şöhrətinə yazılıb. Belə hörmət və nüfuz qazanmış insanlardan Firudin Hüseynov (həkim), İdris Nəsibov (həkim), Yusif Məmmədov (akademik), Səfiyar Əliyev (professor), Cəlal Əhmədov, Əli Yusifov , İlqar Məmmədov (alimlər) və başqalarının adlarını çəkmək olar. Təəssüf ki, 1988-ci ilin o ağır



repressiyası Zəngəzurun bütün bölgələri kimi, bu qəsəbəni də xarabaya çevirdi. Elindən, yurdundan perik düşmüş insanlar yüz ünvana tuş oldu. Onları tapmaq, söhbətləşmək çətin olduğu üçün Dəstəyird və onun mərd sakinləri haqqında ürəyimiz istədiyi qədər xəbər tuta, məlumat ala bilmədik. Səma ulduzları kimi, yaxına, uzağa səpələnmiş bu insanlardan sadəcə üzr istəyirik. Tanrı onları qorusun! Sağlara cansağlığı, dünyasını dəyişənlərə ruh dincliyi arzulayırıq! Bütün bunlardan sonra içimizdən gələn ağır bir sualın nida daşını uzaqlara ataraq hayqırmaq istəyirik: Dəstən hanı, Dəstəyird?!





# ADINI UCA TUTAN OĞULLAR

## XANSUVAR CƏFƏROV



Dəstəyirdi qorumaq, orada yaşamaq mümkün olmadı. Çünki hər tərəfdən ermənilər bu silah-sursatsız insanların üstünə elə hücum çəkdilər ki, suda boğulanın əl atmağa saman çöpü də olmadı. Bu vəhşiliyi gözləri ilə görən yeniyetmələr əlləri silah tutan kimi vətənin - doğma Dəstəyirdin intiqamını almaq üçün Qarabağ savaşına qatıldılar. Belə oğullardan biri də Xansuvar Surxay oğlu Cəfərov idi.

O, 1970-ci ildə Dəstəyird qəsəbəsində anadan olmuşdu. 1987-ci ildə orta məktəbi əla qiymətlərlə bitirən Xansuvar sənədlərini Bakıda Tibb İnstitutuna vermişdi. Lakin qəbul imtahanı zamanı müsabiqədən keçməmişdi. O, Siyəzəndə yaşayan qardaşının yanına getmişdi. Ermənistana qayıtmaq istəmirdi. Siyəzən Broyler Quşçuluq fabrikində çilingər kimi işə başlamışdı. 1988-ci ilin may ayında Dəvəçi Rayon Hərbi Komissarlığı tərəfindən xidmətə çağırılır. "Sakit Okean" Hərbi Dəniz Donanmasında sualtı qayıqda motros kimi xidmətə başlayan Xansuvar Cəfərov tezliklə hərbi texnikanın sirlərini öyrənir. Əla xidmət etdiyinə görə, əvvəlcə ona baş motros, sonra isə müxtəlif rütbələr verilir. Hərbi hissəni isə müxtəlif fəxri fərman, "Hərbi Dəniz Donanması əlaçısı", "Uzaq səfərə" döş nişanları ilə tərk edib. Yenidən Siyəzənə qayıdaraq doğma kollektivdə fəaliyyətini davam etdirib. Arzusu həkim olmaq idi. Gecə-gündüz çalışırdı ki, yenidən sənədlərini Tibb Universitetinə versin. Lakin ermənilərin namərdliyi bu cavan oğlanın öz arzusuna qovuşmasına mane oldu. 1992-ci il aprelin 6-da könüllü olaraq cəbhəyə getdi. Cəmi 8 gündən sonra isə Ağdam rayonunun Şelli kəndi uğrunda gedən ağır döyüşdə başından, sinəsindən və ayaqlarından 14 güllə yarası alan Xansuvar Cəfərov qəhrəmancasına həlak olmuşdur.

# RAMİZ İSMAYILOV



1957-ci ildə anadan olmuş Ramiz İsmayılov Bakı Dövlət Universitetini qırmızı diplomla bitirmişdi. Bir müddət Əzizbəyov rayonunda Neft Avadanlığı Maşınqayırma zavodunda sex rəisi işləyib. Ailəli idi. İki övlad atası Ramiz İsmayılov 1992-ci ildə könüllü olaraq cəbhəyə gedib. Alay komandiri vəzifəsində işləyən baş leytenant 1994-cü ildə Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olub. Vətənin adını hər şeydən uca tutan bu igidin çox arzuları yarıda qaldı.

# MÖHTƏŞƏM BİR NƏSLİN ÖMÜR AĞACINDAN YARPAQLAR

Dəstəyirdin el ağsaqqallarının, möhtəşəm insanlarının həyatı ilə maraqlananda diqqət çəkən faktların, heyrətedici həyat yaşamış insan taleləri ilə rastlaşdım. Mən həmişə qürur və fəxr keçirirdim ki, görkəmli Azərbaycan şairi Qasım Qasımzadə Zəngəzur mahalındandır. Bu böyük şəxsiyyətin, sözün əsl mənasında, alicənab insanın yaradıcılığını çox sevirəm. Ömrü boyu halallığın, mənəviyyatın, insan adlı mücəmməsinə çevrilən Qasım Qasımzadənin bütün məziyyətləri, sən demə, əslində, soykökdən, nəsil-nəcabətdən gəlirmiş. Bu möhtəşəm nəslin nəhəng ağacından kiçik yarpaqları kitaba daxil etdim.

## BABALAR

Hacı Qasım ağa Zəngəzur mahalının müdrik insanlarından biri olub. O, təkcə maddi cəhətdən deyil, mənəviyyatca da çox zəngin və nüfuz sahibi kimi şöhrət qazanmışdı. İnsan həmişə öz ruhuna, xasiyyətinə





uyğun kəslə yaxınlıq etməyə daha çox meyilli olur. Hacı Qasım Dəstəyird dağlarının o biri üzündəki obada yaşayan Şahsuvar bəylə möhkəm dostluq edirmiş. Hər ikisi Zəngəzurun çox hörmətli, comərd, savadlı simaları sayıldığından onların sözü, məsləhəti nəinki mahal əhli, eləcə də hökumət dairələri tərəfindən də rəğbətlə qarşılanardı. Şahsuvar bəy çar Rusiyası dövründə pristav, milli Cümhuriyyət illərində isə Zəngəzur qəzasının rəis müavini vəzifəsində çalışmışdır. Sovet hakimiyyəti qurulandan sonra dəfələrlə təqiblərə, haqsız, ədalətsiz təzyiqlərə məruz qalsa da, doğma eli həmişə onu qorumağa nail olmuşdu. Bu əzəmətli insan haqqında əfsanəyə bənzər, lakin olmuş əhvalatlar danışırlar.

Deyilənə görə, 1921-ci ildə Zəngəzura təyin olunan yeni hökumət nümayəndəsi Şahsuvar bəyi "sinfi düşmən" sayaraq onun "ev dustağı" edilməsinə qərar verib. Danışırlar ki, bəyin evinin ətrafında gözətçi durmağa heç kimi məcbur edə bilmirlər. Çünki Şahsuvar bəy xeyirxah əməlləri ilə hamıya o qədər yaxşılıq etmişdi ki, heç kəs bu nəcib insana gözətçi olmağa razılıq vermirdi. Lakin uzun mübahisə və təzyiqlərdən sonra (meşə çaqqalsız olmaz, axı) bir nadan bu işi öz boynuna götürüb. Ancaq bir neçə gündən sonra həmin şəxsi öldürüblər. Yerli camaatın Şahsuvar bəyə olan məhəbbətindən, ona düşmənçilik edənlərə bəslədikləri hiddətindən, Şahsuvar bəyə gözətçi qoymaq fikrindən daşınılıb. Bir qədər keçəndən sonra Şahsuvar bəyin mahaldakı böyük hörmətini, nüfuzunu nəzərə alaraq onu yeni hökumətlə əməkdaşlığa çağırıblar. Lakin həmişə qürurlu, sözün əsl mənasında, ağa ömrü yaşamış Şahsuvar bəy ona edilən təklifləri qəbul etməyib. Öz ailəsinin qayğısını çəkməkdə davam edib. Zahirən öz ağayanalığını saxlasa da, üzləşdiyi haqsızlıqlar, ədalətsizliklər xəstəlik adı ilə varlığını yeməyə başlayıb. 1929-cu ildə öz əcəli ilə dünyasını dəyişib.

Bu şəxsiyyətin mərdliyi, igidliyi haqqında Zəngəzurda onlarla əfsanə, dastan danışılır və mahnılar oxunurdu. Deyilənə görə, 1918-ci ildə Andronik Ozanyanın silahdaşı daşnak Stepan öz quldur dəstəsi ilə Zəngəzura hücum edib tufanlar qoparanda bu erməni dığasının layiqli cavabını məhz Şahsuvar bəy verib. O, öz əqidə dostları ilə birgə Stepanın gədələrinin axırına çıxaraq onun dəstəsini darmadağın edib. Bu hadisə ilə bağlı mahalda dilləri dolaşan bir nəğmədə deyilirdi:

Şahsuvar bəy beşatlan bağladı,
Ermənilər zarı-zarı ağladı.
Hayın getdi, vayın qaldı İstepan,
Butulkada payın qaldı, İstepan.

Deyilənə görə, məhv edilmiş Stepanın bağlamasında araq şüşəsi varmış. Ona görə də bu daşnağı lağa qoyaraq "butulkada payın qaldı" deyirmişlər. Hətta Şahsuvar bəyin zahiri şücaəti, görünüşü ilə bağlı el arasında təriflər gəzərdi: "Atlananda at bağrı çatladardı, düşəndə düşmən bağrı".

## ATALAR

Şahsuvar bəyin yaxın dostu Hacı Qasım da mahalın sayılıb-seçilən kişilərindən olub. Ermənilər 1918-ci ildə Dəstəyirdi işğal etdikdə Hacı Qasım bir daha öz doğma kəndinə qayıtmayıb. O, oğlu Xansuvara dostu Şahsuvar bəyin qızı Arəstə xanımı gəlin köçürərək onların xoşbəxtliyinə xeyir-dua vermişdi.

Sovet hakimiyyətinin ilk illərində bolşeviklər mahala gələrək nüfuz sahibi olan insanları həbs etməyə, sındırmağa, el içində hörmətdən salmağa cəhd göstərirdilər. Xansuvar bəy haqqında da belə bir hadisə danışırlar ki, o, şura hökumətinin nümayəndələrinin qarşısında tüfəngini ata tuşlayaraq ucadan deyib : "Bəylərə, xüsusilə də Şahsuvar bəyə qəsd etmək fikrinə düşən hər kəsi bax bu at kimi gəbərdərəm". Bu hadisədən vahimələnən bolşeviklər dərhal camaat arasında gizlənməyə çalışıblar.

Şahsuvar bəyin ölümündən sonra Xansuvar bəyin ailəsi müəyyən çətinliklərlə üzləşsə də, axar-baxarlı, saf təbiətli, dilbər guşəli Zəngəzurda deyil, aranda - Yevlaxın Malbinəsi kəndində yaşamalı olublar. Bu ailənin hansı zillətdən, əziyyətdən keçdiyini bildirmək üçün bir faktı diqqətə çəkmək istərdim. Təsəvvür edin ki, Şahsuvar bəyin qızı, Hacı Qasım ağanın gəlini, Xansuvarın həyat yoldaşı Arəstə xanım fermada sağıcı kimi işləmək məcburiyyətində qalıb. Lakin həyatın bütün sınaqlarından öz qabiliyyəti, işgüzarlığı, ağlı və fərasəti ilə qalib çıxan bu bəy qızı sonralar ferma müdiri və kolxoz sədri olub. II Dünya müharibəsi illərində Arəstə xanımın adı bütün respublikada məşhur idi. O, bacarıqlı kolxoz sədri kimi böyük şöhrət qazanmışdı.







Ona təkcə kəndin, rayonun deyil, bütün Qarabağın camaatı böyük ehtiram göstərir, Arəstə xanımı özlərinin ağbirçəyi sayırdılar. Sağıcılıqdan başlanan yol deputatlığa qədər gəlib çıxdı. Bu bəy qızı qurultay nümayəndələrinin arasında olurdu, adı dövlət təltifləri üçün tutulan siyahılara yazılırdı. Neçə-neçə mükafat, fəxri fərman alan, şan-şöhrəti Azərbaycanı dolaşan Arəstə xanım qəlbində isə heç vaxt sağalmayan bir yara gəzdirirdi. O, kommunist olsa da, unutmurdu ki, bu dünyadan nakam və narazı getmiş Şahsuvar bəyin qızıdır.

## OĞULLAR

Bu ailədə bir övlad da böyüyürdü. O, 1923-cü ildə Zəngəzurda anadan olmuşdu. Amma yeddillik məktəbi Yevlaxda bitirərək Nuxada



(Şəki) pedaqoji təhsil almışdı. Bu, Kəlbəcərdə riyaziyyat, ədəbiyyat müəllimi kimi ilk əmək fəaliyyətinə başlayan Qasım Qasımzadə idi. Əslində, Qasım Qasımzadə hələ uşaq ikən iki istiqamətdə təhsil alırdı. O, məktəbdə oxumağı, yazmağı, evdə isə atasının, babalarının həyat yolunu öyrənirdi.

Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə daxil olan Qasım Qasımzadə əvvəlcə türk şöbəsində oxuyub. Lakin 1937-ci ilin represiyalarının zillətini çəkmiş bir yazıçı gənc həmkarına məsləhət görüb ki, sən Şahsuvar bəyin, Hacı Qasım ağanın nəvəsisən, özün də türk

şöbəsində oxuyursan. Bütün bunlar kifayətdir ki, mənfurlar sənə pantürkist damğası vurub sürgün etsinlər. Belə olsa sən heç bir vaxt öz arzularına çata bilməyəcəksən. Yaxşı olar ki, fakültəni dəyişəsən. Beləliklə, Qasım Qasımzadə universitetin filologiya fakültəsində oxumağa məcbur olub.

Qasım Qasımzadə ədəbi yaradıcılığa ötən əsrin ortalarında başlayıb. "Bizim kənd" adlı ilk kitabı 1951-ci ildə işıq üzü görüb. Şairlik Allah vergisi olduğundan Qasım Qasımzadənin özünün seçdiyi bir yol da var idi. Bu, elmi araşdırmalara, tədqiqatlara yönəlmiş bir alim ömrü idi. O, 1950-ci ildə Azərbaycan Elmlər Akademiyasının aspiranturasına daxil olub. Lakin dünyada yalnız yaxşılar qərar tutmayıb ki? Hansı gülüstanda alaq yoxdur? 1952-ci ildə Qasım Qasımzadə yenidən ağır bir ittihamla üzləşməli olub. Onun aspiranturadan çıxarılması məsələsi qaldırılıb. Səbəb də bu olub ki, çar çinovniki, Cümhuriyyət dövründə isə qəza rəisinin müavini olan Şahsuvar bəyin nəvəsi Qasım Qasımzadə sovet quruluşunun yetişdirdiyi alimlərin siyahısına qatıla bilməz. Qəribədir ki, bir müddət şöhrəti zirvələri dolaşan anası Arəstə xanımın da əlindən atasına görə mandatları geri alınmış, adı siyahılardan silinmiş, müxtəlif təzyiqlərə məruz qalmışdı. Təbii ki, Qasım Qasımzadənin bütün bunların hamısından xəbəri var idi. Amma geri çəkilmək əzmində deyildi. O dövrdə Ali Sovetin sədri işləyən Nəzər Heydərov (o, Şahsuar bəyi şəxsən tanıyırdı) Qasım Qasımzadənin müdafiəsinə qalxaraq sübuta yetirib ki, böyük hörmət və izzət sahibi Şahsuvar bəy heç vaxt vətəninə, millətinə xəyanət etməyib, "xalq düşməni" olmayıb. Nəticədə gənc alimin işinə xitam verilib. O, elmlər namizədi də oldu, elmlər doktoru da. Neçə-neçə kitabı işıq üzü gördü. Dövlət mükafatı laureatı adını aldı. 1973-cü ildən ömrünün sonunadək Milli Elmlər Akademiyası ilə bağlı oldu. Azərbaycan ədəbiyyatının inkişafında bir alim kimi fədakarlıq göstərdi. Onlarla elmlər namizədinin, elmlər doktorunun yetişməsində əmək sərf etdi. Bütün bu illər ərzində onu izləyən təqibdən, təzyiqdən, bəzən də xəyanətdən yan ötmədi. Atası Xansuvar kişi kimi ömrünün son illərini də ağır xəstəliklə başa vurdu.

Xalq şairi Xəlil Rza Ulutürk yazırdı: "Biz Qasımzadəni həmişə ön cərgədə görmüşük, Azərbaycan poeziyasının, ictimai-elmi fikrinin ön axarında görmüşük. O, hücumçu idi. Onun qəzəbində bir təmkin yaşayır, təmkində qəzəb və məhəbbət əkizdir".





Poeziyasında torpaq məhəbbəti, bahar təravəti duyulan Qasım Qasımzadə həqiqətən o şairlərin sırasında dayanan ləyaqət sahiblərindən olub ki, özü ilə sözü arasında sıx bağlılıq və vəhdət var idi. Şairin qələm dostları, xüsusilə də mərhum tənqidçi Yaşar Qarayevin bu mənada fikri çox maraqlıdır: "Qasım Qasımzadənin poeziyası onun şəxsiyyətinə bənzəyir: sərt və kövrək, sakit və çılğın, təbii və məğrur, milli və beynəlmiləl..."

Qasım müəllim həyatda necə təmiz, alicənab, mərd, sözü bütöv, həssas insan idisə, onun könlündən qopan şeirlərində də bu sübh şəfəqliyi, saflıq öz əksini tapmışdır. Həyatın, zamanın, dövrün bir çox keçilməzliyindən qalib çıxan, həmişə öz şəxsiyyətini qoruyub saxlamağı bacaran Qasım Qasımzadənin təbiətindəki ağayanalıq, nəcabətlilik bütün yaradıcılığına iz salıb:

Səndən ayrılanda, dağlar, cavandım,
İndi görüşünə qoca gəlmişəm.
Qayğılar üstümə düşdü - talandım,
Üzümə üz tutub borca gəlmişəm.

## NƏVƏLƏR

Qasım müəllimin ailəsində üç oğul böyüyüb - Fəxrəddin, Xansuvar və Nəriman. 1984-cü ildə böyük şairimiz yazmışdı:

Üç oğlum var idi... çox gördü tale,
Cəllad baltasını çaldı belimdən -
Özü ata olan qəşəng siftəmi
Bir göz qırpımında aldı əlimdən.
Qəfil söndü yanan şamım,
Bürcü töküldü qalamın.
Qızlar, gəlinlər ağlasın
Bacısı yoxdur balamın.

Sinəsində çox dərd gəzdirən Qasım Qasımzadə bu ağır dərdi də qəlb köynəyinə bükərək onun nisgilində öz ömrünü beləcə əritdi.



Hamımızın qürur duyduğu, elmi təfəkkürünə, düşüncələrinə, poeziyasına heyran qaldığımız Nəriman Qasımoğlu bu nəhəng nəsil ağacının ən zümrüd yarpaqlarından biridir. Onun haqqında çox geniş danışmaq olar. Amma bir şeiri var ki, atası Qasım Qasımzadəyə ünvanlayıb. Yetər ki, bu şeiri diqqətlə gözdən keçirək. O zaman həm Nəriman qardaşımızın poetik dünyasından, duyğularından, həm də ataya, Yaradana olan ehtiramından xəbər tutarıq. Tək bu şeir kifayətdir ki, bilək kimdir Nəriman Qasımoğlu:

Baxıram dünyaya sənin gözünlə,
Harda işıq varsa, iz səninkidir.
Dan yerində od saçır baxışlarım,
Zülmətə kök salan göz səninkidir.

Oldum sərnişini nur gəmisinin,
Bu da meracıdır eşq dəlisinin.
Rəbbimin ən gözəl təsəllisini
Görürəm qarşımda, üz səninkidir.

Ruhun ucalarda şad olsun deyə,
Oxu, nələr vermiş Tanrı bəndəyə.
Mən yerdən göylərə yüksələn ayə
Üstündən qalxdığım miz səninkidir.

Dar eylərəm qaranlığın yerini
Zülmət gələn taleyim bir mərmimi,
Sən özün cəm eylə qəlpələrimi
Göyə ulduz-ulduz düz, səninkidir.





Mən hicran qənimi, vüsal dəmiyəm,
İçirəm ruhundan dəmlər dəmiyəm.
Tənimlə badəyə ruhumla meyəm,
İçəlim bu meyi süz, səninkidir.

Yerişim, duruşum, qaçışım səndə,
Həvəsim, ilhamım, uçuşum səndə.
Göylərin, yerlərin Rəbbi önündə
Səcdəyə gedirəm, diz səninkidir.

Canın canımdadır, qanın qanımda,
Ayrılmaz ruhlarıq Tanrı yanında.
Qiyamət günündə, məhşər anında,
Sənsən şəfaətçi, söz səninkidir.

## YUSİF MÜƏLLİM



Yusif Əbülfət oğlu Məmmədov 24 yanvar 1950-ci ildə Dəstəyirddə anadan olmuşdur. 1966-cı ildə orta məktəbi qızıl medalla bitirərək Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinə daxil olmuş, universiteti əla qiymətlərlə bitirdikdən sonra 1971-ci ildə təyinatla ABU-nun riyazi-fizika tənlikləri kafedrasında saxlanılmış, bu kafedrada assistentdən professor vəzifəsinədək yüksəlmişdir. 1993-cü ildə həmin kafedranın müdiri vəzifəsinə seçilmişdir. 2000-2004-cü illərdə BDU-nun tətbiqi riyaziyyat və kibernetika fakültəsinin dekanı, 2004-2006-cı illərdə BDU-nun elmi işlər üzrə prorektoru vəzifələrində çalışmışdır.

2006-cı il aprelin 21-də isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru vəzifəsinə təyin edilmişdir.

1974-cü ildə namizədlik, 1990-cı ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. Fizika-riyaziyyat elmləri doktorudur.

2000-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Riyaziyyatçıdır, riyazi fizika və diferensial tənliklər sahəsində tanınmış mütəxəssisdir. 100-dən artıq elmi əsərin müəllifidir. Əsərlərinin xeyli hissəsi xarici ölkələrin nüfuzlu jurnallarında çap olunmuşdur. 10 nəfər elmlər namizədi, 1 nəfər elmlər doktoru yetişdirmişdir.

YUNESKO-nun "Elmi biliklərin və texnologiyaların etikası" Azərbaycan Komitəsinin üzvüdür. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının riyaziyyat və mexanika ixtisasları üzrə ekspert şurasının sədridir.

Yusif müəllim ADPU-ya rektor təyin olunandan sonra bu ali məktəbin həyatında həqiqətən də bilik əsas meyar oldu.

## POLKOVNİK



Yunis Ramazan oğlu Abdullayev Dəstəyirdin ziyalı və igid oğullarından biri olub. Təəssüf ki, bu mərd və qoçaq kənd ziyalısı haqqında ancaq xatirələrin işığı ilə məlumat əldə etmək mümkün oldu. Oğlu Elbrusun verdiyi məlumata görə, Yunis Abdullayev 1914-cü ildə Dəstəyird kəndində anadan olmuşdur. İbtidai təhsilini doğma kənddə, orta təhsilini isə Vağədidə başa vuran Yunis İrəvan şəhərində Pedaqoji Texnikumu bitirdikdən sonra əmək fəaliyyətinə başlamışdır.

O vaxtlar savadlı, işgüzar, fərasətli ziyalılara çox ehtiyac var idi. İnsanlar yeni quruluşun - sovet hökumətinin qanun-qaydalarına ina-





nırdılar. Yunis Abdullayevin həyat yolu komsomol sıralarından başlayaraq Partiya Komitəsində müxtəlif vəzifələrdə qərar tutdu. O, rayonda tanınmış partiya işçisi, bacarıqlı təşkilatçı kimi ad-san qazanmışdı. Xüsusilə də kəndlərdə kolxoz quruculuğunun başa çatdırılmasında fədakarlıq göstərmişdir.

1943-cü ildə hərbi xidmətə çağırılan Yunis Abdullayev əvvəlcə zabit hazırlayan kurslarda oxumuş, cəbhəyə leytenant rütbəsi ilə göndərilmişdir. İndiyə kimi saxlanılan üçkünc əsgər məktublarının ünvanları müxtəlif ölkələrin, şəhərlərin adları ilə bağlıdır. Müharibədə göstərdiyi qəhrəmanlığa, qoçaqlığa görə polkovnik rütbəsinə qədər yüksəlmiş Yunis Abdullayevin ölüm xəbəri Qələbəyə bir neçə gün qalmış Almaniyadan gəlmişdir.

Çox sonralar Yunisin əzizləri onun məzarını Purrusiyadakı qardaşlıq qəbiristanlığında tapdılar.

Saralmış əsgər məktublarını vərəqlədikcə Yunis Abdullayevin necə dünyagörüşü, təfəkkürü olduğunu dəqiq anlayırsan. 1945-ci ilin əvvəllərində valideynlərinə göndərdiyi məktubların birində yazıb: "Atacan, heç kəsə boyun əymə, yaman günün ömrü az olar. Uşaqları başqasından asılı olmağa qoyma". Başqa bir məktubunda öz inamını belə ifadə edib: "Atacan, hazırda şücaətli Qızıl Ordumuzun qəhrəmanlığı, yoldaş Stalinin başçılığı ilə təkcə sovet xalqını deyil, başqa ölkələrin də xalqlarını faşizmdən xilas etməkdədir". Son məktubundakı bir cümlə isə lap düşündürücüdür: "Atacan, uşaqlardan muğayat ol, çünki onların hər biri bir Yunisdir..."

Təəssüf ki, belə igid bir oğul faşist gülləsindən xilas ola bilmədi. İndi o günlərdən illər keçir. Bu gün Yunisin doğulduğu, ata-babasının uyuduğu məzarı doğma Dəstəyird yadların tapdağında saralmaqdadır. Qohum -əqrabaları, məktublarında tez-tez xəbər aldığı kənd camaatı didərginlik həyatının əzablarını yaşayırlar. Kim bilir, bəlkə polkovnik oğulun dinclik bilməyən ruhu da elə Dəstəyird dağların başı qarlı zirvəsində dolaşmaqdadır.

## AZƏR HÜSEYNOV



Dəstəyirdin təəssübkeş, ziyalı övladlarından biri olan Azər Hüseynov 1938-ci ildə anadan olmuşdur. 1962-ci ildə Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin kitabxanaçılıq şöbəsini bitirmişdir.

Əmək fəaliyyətinə uşaq kitabxanasında metodist kimi başlayan Azər müəllim respublikada ilk dəfə olaraq "Mirmehdi Seyidzadə", "Abdulla Şaiq", "Xanımana Əlibəyli", "Qılman Musayev", "Süleyman Sani Axundov" adlı bukletləri və "Uşaq kitabxanasının qarşısında duran vəzifələr", "Gözəlliyə doğru", "Məktəb kitabxanasında işin təşkili", "Uşaq kitabxanaları fəaliyyətinin birillik icmalı" və s. metodiki vəsaitləri nəşr etmişdir.

Ömürlüyündə müxtəlif iş yerlərinin adları var: Dövlət Dillər Universitetinin kitabxanasına rəhbərlik edib (1975-1981). Sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru vəzifəsində işləyib. Bakı Mədəni-Maarif Texnikumunda direktor müavini olub. Hazırda Nəsimi Bələdiyyəsinin sədr müavinidir.

Azər Hüseynovun əməyi müxtəlif fəxri fərman və mükafatlarla dəyərləndirilmişdir. O, həm də mehriban ailə başçısıdır. Dörd övladın atasıdır.

Azər müəllimi yaxından tanıyanlar onu sədaqətli dost, qeyrətli vətəndaş, şeiri, sənəti sevən, duyğulu bir insan kimi səciyyələndirirlər. Onun ən böyük arzusu günlərin birində övladlarını başına yığıb Zəngəzura dönməkdir. Tanrı arzunuzu gözünüzdə qoymasın, Azər müəllim.





# ƏYRİÇAYIN SAHİLİNDƏ



***Doğmaca evimdə qonaq kimiyəm,***
***Vətən həsrətindən qınaq kimiyəm,***
***Əllini ötmüşəm, uşaq kimiyəm,***
***Sofulu günlərim dindi bu gecə.***

# YAYLAQLARIN KİMƏ QALDI, SOFULU?!

Qarakilsənin qədim kəndlərindən biri olan Sofulu rayon mərkəzindən 18 kilometr cənub-qərbdə, Əyriçayın sahilində yerləşirdi. Tədqiqatçıların araşdırmalarına və qədim mənbələrə görə bu kəndin yaranma tarixi XVII-XVIII əsrə gedib çıxır. Sofulu sözünün kökü Sofulular adlı qədim türk tayfasının ismi ilə bağlıdır. Məlumdur ki, məşhur Kəngərli tayfasının bir qolu olan Sofulular Orta Asiyadan başlamış Qafqazın müxtəlif yerlərində kənd, oba, yaşayış yerləri yaratmışlar. Azərbaycanın bir sıra bölgələrində - məsələn, Ağdam, Cəbrayıl, Yevlax, Qazax, Qarayazı, eləcə də Orta Asiyada, Türkiyədə Sofulu kəndi vardır. Hətta Zəngəzurun başqa rayonlarında da bu kəndin adı ilə bağlı yaşayış yeri var.

Bineyi-qədimdən Sofulu türklərin yaşadığı ərazi olub. Xüsusilə də yaylaq kimi istifadə edilirmiş. Kəngərlilərin adətiymiş. Qışda Qarabağda, yayda Sofuluda yaşayarmışlar. O cümlədən, Sofulunun bir sıra əraziləri uzun illər Qubadlı, Cəbrayıl, Füzuli rayonlarının yaylaq yeri olmuşdur. Əhali əsasən kənd təsərrüfatı və maldarlıqla məşğul olurdu.

1905-1918-ci ildə ermənilərin törətdiyi vəhşiliklərin zülmünü çəkənlərdən biri də Sofulu kəndi olmuşdur. Hər dəfə də ara sakitləşən kimi ölümdən qurtulmuş sofulular yenidən doğma kəndə qayıdıb öz həyatlarını davam edərmişlər. Sofulunun tarixində 1918-ci il daha dəhşətli olmuşdur. Mart ayının ortalarında axır çərşənbəyə 3-5 gün qalmış daşnaklar Sofulu kəndinə basqın ediblər. Onlar kənd sakinlərinin əksəriyyətini qılıncdan keçiriblər. Bu vəhşilikdən xilas olanlar isə qarlı yollarla dağ və dərələr aşaraq özlərini Naxçıvana yetirmişlər. Sofulu kəndinin yaxınlığında yerləşən Qıvraq, Əlişar, Püsək kəndləri isə erməni quldurları tərəfindən darmadağın edilərək tamamilə sıradan çıxmışdır. Sovet hakimiyyəti qurulandan sonra sofulular yenidən öz yurdlarına üz tutdular. Yuxarıda adlarını çəkdiyimiz üç kəndin salamat qalan sakinləri də qayıtdılar. Amma onlar doğulduqları yerdə məskunlaşa bilmədilər. Çünki həm sayca az idilər, həm də kənd elə xarabazarlığa çevrilmişdi ki, onu yenidən qurmaq müşkül məsələ idi. Bu səbəbdən o biçarələr də Sofulu kəndinə pənah gətirdilər. Beləliklə, Sofuluda üç məhəllə yarandı. Kəndin yuxarısı Püsək, ortası Əlişar, aşağısı Qıvraq adlanırdı. Təbii ki,





rəsmi sənədlərdə kəndin bir adı var idi, Sofulu. Amma hər kəs doğma obasının ismini yaşatmaq üçün öz aralarında yer üzündən silinmiş bu üç kəndin adını hər gün çəkirdilər. Sofulunun yanında Armudlu adlı kənd də mövcud olmuşdu. 1918-ci ilin qırğınlarında ermənilər bu kəndi öz sakinləri ilə birlikdə qətlə yetirmişdilər. Bu qədim yaşayış yerlərindəki kalafalıqlar, bir də qəbiristanlıqlar son vaxtlara qədər qalırdı. Sofulu Dəstəyird kəndi ilə Murxuz kəndinin arasında yerləşirdi. Bu kənddə tayfalar da çox olmuşdur: Sofulu, Soyxanlı, Bədirxanlı, Allahqulular, Cümşüdlülər, Qoşnalılar, Səməndi, Əmirastanlılar, Vəlilər.

Sovet hakimiyyəti illərində kənddə kolxoz quruldu, yeni təsərrüfat yaradıldı, məktəb binası tikildi, müxtəlif sosial obyektlər - kitabxana, klub, tibb məntəqəsi, mağaza və s. istifadəyə verildi.

Kənddə çox qədimdən məscid olmuşdur. Orada mədrəsə fəaliyyət göstərirdi. 1930-cu ildə ermənilər onu dağıdaraq bəzəkli daşlarını da daşıyıb apardılar. Bununla belə kəndin yaxınlığında çoxlu müqəddəs yerlər var idi: Şeyx Əhməd piri, Hərzəmlər piri, Qara qaya, Seyid Rəhimin məzarı, Xeyri piri, Armud piri, Hacı Sofunun məzarı, Şeyx Nalbənd piri, Qırxlar piri, Molla Qəyib piri və s.

Sofulu kəndində olan bütün toponimlər təmiz türk dilindədir. Hər bir bulağın, çayın, dağın, dərənin öz adı var idi. Məsələn, Əmiraslan körpüsü, Güneylər, Çuxurlar, Başqala güneyi, Şirvan dərəsi, Qaratorpaq dərəsi, Hovuz dərəsi, Çağqulu dərəsi, Molla dərəsi, Uçqun dərəsi, Yetər dərəsi, Qanqallı yurdu, Ləpəxeyrənli yurdu, Parovlu yurdu, Əbdilli yurdu, Qoca qoruğu, Şəhla qaçan yurd, Çiçəkli yurd, Xıdır samanlığı, Kotan yalı, Sarı dərə, Keşiş arxı, Ahu dərəsi, Göbək daşı, Motal qayası, Gilanar dərə, Şor dərə, Daşlı dərə, Saf dərə, Qaratorpaq dərəsi, Qoşqar dağı, Mağara güneyi, Qəcir qayası və s.

Sofulu bulaqlarla zəngin idi: Kəklik bulağı, Nəcəfin bulağı, Zınqırovlu bulaq, Nəcəfalı bulağı, Qoşa bulaq, Qurdlu bulaq, Qaşqa çeşmə, Telli bulağı, Turş su, Acı bulaq... Kəndin içində və ətrafında çoxlu soyuq bulaqlar, eləcə mineral tərkibli, qazlı turş sulu çeşmələr də qaynayırdı. Kəndin sol yanından Əyriçay axırdı. Eləcə də kiçik Püşək çayı da bu yerlərə bir gözəllik gətirirdi.

Sofulunun on min hektardan çox əkin sahəsi və alma-armud bağları göz oxşayırdı. Kəndin örüş yerləri də çox idi. Yayca yurd, Molla yaylağı, Böyük yer, Böyük til, Yumuru til, Bəylik, Dilbər, Arxaşan və s.

II Dünya müharibəsi illərində Sofuludan cəbhəyə 92 oğul getmişdi. Onlardan 45-i geri qayıtmamışdır. 1988-ci ilə kimi burada 128 yaşayış evi olmuşdur. Kənd məktəbində 380 nəfər şagird oxuyurdu. Dünyanın pisliklərindən, hiylələrindən xəbərsiz olan kənd camaatı öz gün-güzəranı ilə məşğul idi. Əzəldən başları minbir bəla görmüş nəcib xasiyyətli, yumşaq təbiətli, xeyirxah niyyətli sofuluların ağlına da gəlməzdi ki, onların əziyyətlə qurduqları yurd-yuvalar dağılacaq, var-yoxları əllərindən çıxacaq, yenidən zülmlərə düçar olacaqlar. 1988-ci ilin sonlarında Qərbi Azərbaycanın, eləcə də Zəngəzurun azərbaycanlılar yaşayan bütün kəndləri kimi Sofulu da erməni vəhşətinə tuş oldu. Kəndin camaatı məcburi şəkildə qədim yurdlarını tərk etdilər. Onların bütün pul-paraları, əşyaları əllərindən alındı. Dolu evləri, allı-güllü bağları, mal-dövlətləri eləcə ermənıyə qaldı. Yerindən, yurdundan didərgin düşmüşlər isə Azərbaycanın müxtəlif rayon və şəhərlərinə səpələndilər.

Qarabağ müharibəsi zamanı Sofulu cavanlarından Rza Mürvət oğlu Əmikişiyev, Vidadi Xanış oğlu Vəliyev, Afaq Ağayar oğlu Ağalarov torpaqlarımız uğrunda gedən savaşda şəhid oldular.

Çox araşdırsaq da Sofulu haqqında daha müfəssəl məlumatlar əldə edə bilmədik. O gözəl təbiətli kəndin şəkli da tapılmadı.

Aşağıda oxuculara təqdim etdiyim yazını 1978-ci ilin aprelində "Azərbaycan müəllimi" qəzetində dərc etdirmişdim. Bilirəm ki, məqalənin qəhrəmanı şair Rəhim Əliyev haqq dünyasındadır. Vaxtilə Sofulunun şair oğlu haqqında yazdığım məqaləni kitaba salmağı məqsədəuyğun hesab etdim.

## DAĞLARDA DÖYÜNƏN ÜRƏK

Salvartı, İşıqlı dağlarının səfalı qoynunda bir ürək döyünür. Müəllim ürəyi, şair ürəyi! Sisian rayonunun, Sofulu kəndində yaşayan, yaradan Rəhim Əliyevin poetik nəğmələri neçə illərdir ki, doğma Zəngəzuru dolaşır, xoş sədası Bakımıza da yayılır.

"Ədəbiyyat və incəsənət", "Sovet Ermənistanı" və s. qəzetlərin səhifələrində Rəhim Əliyevin imzasına tez-tez rast gəlirik. Vaxtilə "Qəlbimin təranələri" adlı ilk şeir kitabçası onu tanıyanların böyük sevincinə səbəb olmuşdur. "Ədəbi Ermənistan" adlı məcmuənin müxtəlif nömrələrində Rəhim müəllimin pyeslərini, şeirlərini oxuduqca





qəlbən necə fərəhlənmişik. Yerevandakı "Hayastan" nəşriyyatında R.Əliyevin ikinci şeirlər kitabı - "Dan ulduzu"nu çap olunmuşdur. Buraya müəllifin 60-a yaxın şeiri və bir poeması daxil edilmişdir. Bu şeirlər insanlarla, təbiətlə təmasda olan bir müəllim qəlbinin səsi, onun poetik düşüncələri, duyğularıdır.

Rəhim Əliyev şeirlərinin axıcılığı, şirinliyi ilə oxucu qəlbinə yol tapa bilir. Xüsusən təbiət şeirləri daha məzmunlu və maraqlıdır. Müəllif təbiətə qarşı həssasdır. Onun "Ay bahar" şeirində təbiətin incə gözəllikləri çox təbii və səmimi tərənnüm olunmuşdur:

Dağlar qaş-qabağını
Sənsiz tökülü saxlar.
Sən gəlincə bülbüllər
Könlündə gülü saxlar.
Ağaclar tumurcuqda
Səni bükülü saxlar,
Ləngimə, gəl, ay bahar.

Obyektiv həqiqətin poetik ifadə tərzi yeni və məzmunludur. Şiş qayalar, əngin boşluqlar, ağ çalmalı Zəngəzur dağları, Üçtəpə yaylağı, qıjhaqıjla axan çayların, dağlardan qopub yuvarlanan qayaların səsi təkcə dağda, daşda əks-səda vermir. Təbiətin bu cür müxtəlif, rəngarəng, füsunkar mənzərələri "Bazarçayın dərəsində", "Xəzan", "Zəngəzur dağları", "İşıq" və s. şeirlərdə əks olunmuşdur. Bu şeirlərdə təbiət genişliyi, ətirli təbiət havası boldur. Ümmiyyətlə, Zəngəzura xas olan bütün təbii gözəlliklər onun şeirlərinə köçmüşdür.

R.Əliyev gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olan ən yaxşı müəllim və zəhmət adamlarından biridir. Şeirləri də incə və yüksək zövqün məhsuludur. Yeni kitabında toplanmış şeirlərin əksəriyyətində ictimai məzmun, vətəndaşlıq hissi, sənət eşqi, xalqlar dostluğu ideyası duyulur... Kitabda forma və məzmunca rəngarəng, orjinallığı ilə seçilən lirik şeirlər diqqəti cəlb edir.

Rəhim müəllim kiçik yaşlı oxucularını da unutmamışdır. Kitabın "Uşaqlar üçün" bölməsində çap olunmuş şeirləri sadədir, düşündürücüdür:

Sürülərə baxdırıb
Qurdları yalvartmışam.
Armudun dövrəsində
Ayını oynatmışam.
Pələngi hədələyib,
Şirləri yumşaltmışam.
Toyuqların "hin"ində
Tülkünü yuxlatmışam.
Timsahı ovsunlayıb
Sahilə uzatmışam.
Fillərin ayağını
Meymuna bağlatmışam...
Oyuncaqlar içində
Mən özüm də yatmışam.

Kitabın "Sabiri ziyarət" hissəsində Rəhim Əliyevin satirik əsərləri toplanmışdır. Onlarda da müəllif el malına kəm baxanları, bədxahları pisləyir, insanların nəcib hiss və duyğularla yaşamasını arzulayır.

Kitaba lirik, epik səpkidə yazılmış "Dan ulduzu" poeması da daxil edilmişdir. Poema II Dünya müharibəsində faşizmin vurduğu ağır yaralara həsr olunmuşdur. Vətənpərvərlik və müharibəyə nifrət hissi əsərdə maraqlı hadisələr fonunda poetik həqiqətin gücü ilə öz əkisini tapmışdır. Rəhim Əliyevin kitabında təsadüf etdiyimiz bəzi kiçik qüsurların üzərində dayanmağı lazım bilmədik. Unutmaq olmaz ki, o ədəbi ictimaiyyətdən uzaqda balalarımızın tərbiyəsi ilə məşğul olan, şeiri, sənəti sevən, qələmi əlindən qoymayan kənd müəllimidir...

**1978.**

## "İSTOT" İMZALI MÜXBİR

"Molla Nəsrəddin" jurnalının səhifələrində gizli imzalarla çıxış edən yazarlardan biri də Nuşirəvan Kərimov adlı bir müəllif olub. Əsasən "İstot" imzası ilə jurnala müxtəlif yazılar və satirik şeirlər göndərən Nuşirəvan Kərimov dövrünün məşhur ziyalılarından biri olub. O, xalqın maariflənməsi yolunda həqiqi mənada zəhmət çəkən bir müəllim kimi





uzun illər həm də pedaqoji fəaliyyəti ilə ad-san qazanmışdı. Təəssüf ki, onun haqqında çox az yazılıb. Əlbəttə, bütün imza sahiblərinin aşkarlanması çox çətindir. Uzun illərdir ki, tədqiqatçılar bu yöndə apardıqları araşdırmaları hələ də tamamilə başa çatdıra bilməyiblər. Amma bu imzaların sahiblərinin dəqiqləşməsi, onların haqqında oxuculara məlumat verilməsi vacibdir. Çünki milli tərəqqi, təhsil, maariflənmə naminə mübarizə apararaq öz ömürlərini bu müqəddəs yolda gilə-gilə əridənlərin xalqa tanıdılması gərəklidir. Birinci ona görə ki, xalq öz mücahidlərini unutmamalı, ikinci də belə şəxsiyyətlərin ədəbi irsinin daim öyrənilməsi gənc nəsil üçün bir nümunədir. Nuşirəvan Kərimov 1898-ci ildə Zəngəzur mahalının Qarakilsə bölgəsinin (indiki Sisian) Sofulu kəndində məşhur bəy ailəsində anadan olmuşdur. O dövrdə Azərbaycan torpaqları hələ bu dərəcədə parçalanmamışdı. Doğulduğu kənd Nuşirəvangilin yaylaq yeri, dağın o üzündəki Xocamsaxlı kəndi (Qubadlının kəndi) isə qışlaq idi. Nuşirəvanın babası Molla Səfi Zəngəzurda tanınmış adam olub. O, yalnız mollalıqla deyil, müəllimliklə də məşğul olubmuş. Dövrün özünəməxsusluğundan gələn ifadədir ki, savadlı insanları həm də "molla" adlandırırmışlar. Babadan gələn ənənəni Nuşirəvan da davam etdirirmiş. Nəvəsi tanınmış şair Rafiq Yusifoğlu söyləyir ki, mən ilk dəfə Quranı babamda görmüşəm. Sovet hökuməti vaxtında o, bu müqəddəs kitabı gizli saxlayar, amma hər gün onu öpüb və oxuyardı. Nuşirəvan Kərimov 1931-ci ildə Şuşa Pedaqoji Texnikumunu bitirdikdən sonra Qubadlıya qayıdaraq Xocamsaxlıda ibtidai məktəbin açılmasına nail olub. O vaxta qədər bu kənddə məktəb olmayıb. Pedaqoji fəaliyyəti müxtəlif təltiflərə layiq görülüb. O, respublikanın əməkdar müəllimi olub, Lenin ordeni, Qırmızı Əmək Bayrağı, "Şərəf nişanı" ordenləri və medallarla, müxtəlif fəxri fərmanlarla təltif edilib. Rafiq müəllim danışır: "Babam həmişə mənə öz şeirlərindən oxuyardı. Bir nisgili var idi ki, ölüb gedəndən sonra şeirləri itib batacaq. Təəssüf ki, belə də oldu. Onun şeirlərinin bir qisminin əlyazması məndədir. Ancaq şeirlərin çoxu öz evində idi. Bəxtimizə qaçqınlıq payı düşəndə həmin yazılar da Qubadlıda qaldı. Uşaq vaxtı anamdan belə bir şeir öyrənmişdim:

Deməyəsən bir zəli,
Nə zəli, lap məzəli,
Girmiş imiş bir suya,
Özün vurub yuxuya...

Şeir çox uzundur. Anam deyirdi ki, bu şeir babanındır. Elə babamın dilindən də onun bəzi misralarını eşitmişdim. Sonralar isə həmin şeiri "Molla Nəsrəddin"də oxudum, müəllifi "İstot" imzalı bir şəxs idi. Şair Qasım Qasımzadə və tədqiqatçı Rəşid Quliyevin araşdırmaları nəticəsində məlum oldu ki, həmin ləqəbin sahibi mənim babamdır". Nuşirəvan Kərimov "İstot" imzası ilə "Molla Nəsrəddin" jurnalında dərc olunarmış. Onun 30-cu illərdə jurnalın müxtəlif nömrələrində dərc edilmiş "Molla Lətif", "Ağlaşma", "Zəhmətkeşlərə" şeirləri, eləcə də "Aşıq" imzası ilə yazdığı "Yeni pir", "Fırıldaqçı molla" felyetonları eyni dəstt-xətlə, eyni bölgədən yazıldığı bəllidir. Hətta kənddə məktəb binasının bərbad vəziyyəti ilə bağlı "Molla Nəsrəddin" jurnalında "Qubadlıdan" rubrikası ilə müxtəlif tapmacalar da verilmişdi ki, onun da müəllifi məhz Nuşirəvan Kərimov olduğu təsdiqlənib. Tapmaca belə idi:

O nədir ki, zığı var,
Altında çubuğu var.
Pəncərəsi yoxsa da,
Hər yandan işığı var?

Cavab isə belə idi:

Çəpərədir, zığı var,
Altında çubuğu var.
Gilətağ məktəbidir,
Hər yandan işığı var.

Söhbət Zəngilandakı Gilətağ kəndində o zamankı "çəpərə" məktəbdən gedirdi. Nuşirəvan Kərimovun "Molla Nəsrəddin" jurnalında çap edilmiş məşhur "Zəli bulaq" şeiri məhz Qubadlı ərazisindəki zəli ilə dolu bulağın insanlara gətirdiyi bədbəxtlikdən,





xəstəlikdən söhbət açılıb. Həmin şeirin sonunda müəllif - "İstot" üzünü jurnala tutaraq deyirdi:

Molla əmi, müxtəsər,
Yaz bizə doğru xəbər.
Görək belə dərdlərin,
Dərmanını kim verər?

"Molla Nəsrəddin" jurnalının 1930-cu il üçüncü sayında dərc edilmiş bu şeirə Mirzə Cəlil özü belə cavab vermişdir:

Qurtarmağa bu dərddən,
Ayrı dərman gəzmə sən.
Kəndli deyil ki, dəli,
Udmasın giri zəli.

Tənbəlliyi atsınlar,
Səlamətə çatsınlar.
Təmir etsin bulağı,
Ta dincəlsin qulağı.

"Molla Nəsrəddin" jurnalının bu çıxışından sonra bulaq təmir edilmiş, məktəb binası tikilib başa çatdırılmışdır. Şair Qasım Qasımzadə yazdığı tərcümeyi-halında göstərirdi ki, ibtidai məktəbdə ona dərs deyən ən əziz müəllimi Nuşirəvan Kərimov olub. Məlumdur ki, ötən əsrin 30-cu illəri çox təzadlı olub. Sinfi mübarizənin qızğın dövründə gənclər yalnız inqilab, kommuna mövzusunda şeirləri oxumağa məcbur idilər. Dövrün məxsusluğundan Nuşirəvan Kərimov da kənarda qalmayıb, onun yazdığı mətnə hətta musiqi də qoşublarmış:

Kommunanın yolun tutub gedirik,
Nikolay yıxılıb, bayram edirik.
Fəhlə qardaş! Kəndli qardaş!
Birləşərsək ikimiz,
Çox xoş gedər günümüz.

Əlbəttə, məzmununda 30-cu illərin ruhu çırpınan bu misralar indi adi görünsə də, zamanın nəğməsi, dövrün həqiqəti idi. Bu səsdə köhnəliyə, ayrı-seçkiliyə nifrət, yeniliyə çağırış çox coşqun əks-səda tapırdı. Əvvəllər "Molla" adlanan Nuşirəvan Kərimova sovet dövründə "müəllim" deyirdilər. Nuşirəvan Kərimov sözün həqiqi mənasında ziyalı olduğundan soydaşlarının elmə, təhsilə maraq göstərməsində, savadlanmasında, oxumasında böyük zəhmət çəkmişdir. O dövrdə yalançı, dövrün diktəsinə uyğun hərəkət edənlər də var idi. Köhnə "Molla nəsrəddinçi" bu hallara da biganə qala bilmirdi. Dillər əzbəri olan bir şeiri həm "Molla Nəsrəddin" jurnalının səhifələrində, həm də yaddaşlarda qalmaqdadır:

Köhnə fikirlər hanı, təzələnir hər nə var,
Xalq oyanıb büsbütün, kimlər onu aldadar.
Gəldi həvəskar olub kursa, bütün mollalar,
Bir mən ölüm, diqqət et, köhnə-təzə adətə,
Molla müəllim olub, ləzzətə bax, ləzzətə.

Çıxarıb aparıb pirə çoxları öz çuxasın,
Geyib rubaşqanı, düymələyib yaxasın.
Əyninə kostyum taxıb, gizlədibdir əbasın,
Gör necə şux yeriyir, bax bu boya, qamətə,
Molla müəllim olub, ləzzətə bax, ləzzətə.

Adını "müəllim" siyahısına saldırmaq üçün özünü oda-közə vuraraq pedaqoji kurslarda təhsil alıb, əslində elə köhnə təfəkküründə qalan "mollanümalar" haqqında yazdığı bu şeirdə Nuşirəvan müəllim dövrün ab-havasını Sabiranə şəkildə əks etdirib. Onun yazıları "Molla Nəsrəddin" jurnalında "İstot", "Aşıq" və digər məxfi imzalarla çap edilsə də, bunların kim tərəfindən yazıldığını Zəngəzur mahalında hamı bilirdi. Jurnal nəşrini dayandırdıqdan sonra da Nuşirəvan Kərimov öz fəaliyyətini digər mətbuat orqanlarında da davam etdirib. Şair Qasım Qasımzadə 1949-cu ildə yazdığı bir şeirdə öz müəlliminə





məhəbbətini belə dilə gətirmişdi:

Nuşirəvan müəllim öyrətdi bizə,
Yerlərin, göylərin necə sirrini.
Qatdı şərbət kimi o, dilimizə
Vaqifin, Sabirin şeirlərini.

Yüzlərlə ali təhsilli mütəxəssisin, onlarca mollanəsrəddinçinin qəlbində yaşayan Nuşirəvan Kərimov poeziyamızın "İstot"u idi. O, 1966-cı ildə vəfat etmiş, qəbri indi işğal altında olan Xocamsağlı kəndindədir. "Molla Nəsrəddin" jurnalının 100 illiyi ilə bağlı görülən səmərəli işlərdən biri də məhz bu müəllifə yönəldilməlidir. Yaddaşlarda yaşayan əsərlərini, eləcə də jurnalda dərc edilmiş müxtəlif yazılarının saf-çürük edilib ayrıca kitab şəklində çap olunması vacibdir. Bu, hər şeydən əvvəl mollanəsrəddinçi müəllifə, eləcə də böyük ziyalıya, unudulmaz xalq müəlliminə sevgimiz və ehtiramımız sayılar.

**2006.**

# DÜNYANIN SON NÖQTƏSİ



*Bura Murxuzdu, oğul!*
*Yolumuzun sonu burdan,*
*Canımızın qanı burdan,*
*Bura Murxuzdu, oğul!*
*Bura Vətəndi, oğul!*



## DAĞLI, DƏRƏLİ, YAYLAQLI MURXUZ

Əyriçayın sahilində, gül-çiçəkli bir ərazidə Qırxlar dağının ətəyində yerləşən Murxuz Qarakilsənin ən ucqar kəndlərindən sayılırdı. Hətta el arasında deyərdilər: "Dünyanın axırı Murxuzda qurtarır".

Tarixi mənbələrdə "Murxuz" sözü "Murquz" kimi qeyd olunub. Bu sözlə kökü eyni olan adlara müxtəlif yerlərdə rast gəlmək olur. Məsələn, Borçalıda Murquztəpə, Qazaxda Murquzdağ, Zaqatalada Murqutala kəndi var. Bu adların mənası eynidir. Azərbaycan dilinin dialektlərində "Murquz" sucaq yerdə bitən qarğı, qamış mənasındadır. Bundan başqa, adın sonundakı "uz" kəlməsi də türk tayfasının adı ilə əlaqəlidir.



Dəstəyird və Sofuludan Murxuza daxil olan avtomobil yolu çox sərt təzada malik olan uca dağlar arasından keçərək məhz bu kənddə bitirdi. Sanki hər şey burada tamamlanırdı. Murxuzun dağlarla, yaylaqlarla, bulaqlarla, dərələrlə əhatə olunmuş ərazisində bir neçə çay axırdı. Kəndin girəcəyindəki qalanın və köhnə yurd yerlərinin xarabalıqları Murxuzun qədim tarixə malik olduğunu təsdiqləyirdi.

Eləcə də köhnə qəbiristanlıqdakı yazılı daşlarda (alban əlifbası ilə) tariximizin bir çox səhifəsi öz əksini tapmışdı. Təəssüf ki, dəfələrlə erməni daşnaklarının bu kəndə hücumları zamanı təkcə insanlar qətlə yetirilməmiş, ev-eşiklər dağılmamış, həm də mədəni sərvətlər, tarixi abidələr qəsdən tar-mar edilmişdir.

Murxuz Tanrının Yer üzündəki ən ecazkar tablosu idi. Onun təbii gözəllikləri qarşısında heyrətdən danışa bilmirdin. Gül-çiçəyin ətrindən bihuş olurdun. Quşların nəğməsindən qulaq tutulurdu. Adicə arının, cırcıramanın, kəpənəyin, bör-böcəyin bu qeyri-adi təbiət tamaşasında öz payı vardı. Qırxlar, Kopar, Əyriçay və Çiçəkli çayları Böyükçayda qovuşaraq Bazarçaya tökülürdü. Bu ərazilərin toponimləri təmiz türk dilində idi. Kiçik bir kənddə neçə yerdə bulaq qaynayırdı: Daşbulaq, Çobanöldürən, Turşu bulağı, Salam bulağı, Xələfli bulağı, Yeddibulaq... Allı-güllü yaylaqlarının əvəzi yox idi: Zeynal xanın Kopar yaylağı, Nalbənd, Qayaq, Lələli, Obruz, Daşbaşı, Yelli, Taxta, Hacı Seyid, Yal, Cadılı, Hacımolla, Göyçuxur, Sinik, Orta Yurd, Qaragözlü Yurdu. Murxuzun qarşısından axan Əyriçayın sol qolu olan Çiçəkli çayının hövzəsindəki Turaclı, Qoca qoruğu, Kərbala yaylaqları daha məşhur idi. Çünki buradan nəinki Murxuzun öz camaatı istifadə edirdi, eyni zamanda Cəbrayıl, Füzuli, İmişli, Beyləqan rayonlarının zəhmətkeşləri də qoyun-quzularını yayda bu yaylaqlara gətirərdilər. Rayonun başqa kəndləri kimi Murxuzun da qəribə, dibi görünməyən dərələri vardı. Kəndin yaylaqları, dağları və qayaları öz növbəsində bu dərələr ilə üzvi surətdə bağlı olmuşdu: Aralık, Qurd yuvası, Sultangələn, Dərvişgörməz, Xəlifəli yurd, Qamaxyurdu, Ərinməz (burada buz o qədər qalın olurdu ki, yayda da ərimirdi) dərələrinin adları min illər boyu xalqın yaddaşında yaşamaqda idi. Kəndin ətrafında silsilə dağlar sanki bir-birləri ilə əl-ələ tutaraq bu qədim türk kəndinə keşik çəkirdilər: Böyük Qurban dağı, Kiçik Qurban dağı, Atötən, Qurban kahası, Təkcənur, Daşbaşı dağı, Dəmirli dağ, Əyri dağ, Qarabağlıdüşən... Qəribədir ki, bu yerlərdə dağ əzəmətindən seçilməyən qeyri-adi qayalar, hətta daşlar da var idi: Uçanqaya, Təpəuçan qaya, Çadır daş və s.

Qırxlar dağının zirvəsində Təkcəpir adlanan bir ibadətgah var idi. Buraya yalnız murxuzlular deyil, başqa yerlərdən də ziyarətə gələrdilər. İnsanlar hündür dağa qalxar, çətin yolu könül rahatlığı ilə başa vurar, piri ziyarət edər, niyyət tutar, sonra isə həmin müqəddəs





ocağın ətəyində yerləşən Göyçuxur yaylağında qurbanlıq üçün gətirdikləri qoyunları kəsərdilər. Oradakı bulağın suyu da müqəddəs və şəfalı sayılırdı.

Murxuzun təbiəti, saf havası bu yerlərin insanlarının da varlığında öz əksini tapmışdır. Murxuzlular həmişə öz mehribanlığı, təmiz əqidələri, sədaqəti, iradəsi, dözüm və xeyirxahlıqları ilə seçilmişlər. Acılar olsun ki, tarix boyu erməni adlı ikiayaqlı vəhşilərlə qonşuluqda yaşamaqdan, min bir əziyyətə tuş olan digər soydaşlarımız kimi murxuzlular da dəfələrlə bu müsibətin əzabını çəkiblər. 1918-ci ildə Andronik Ozanyanın quldur dəstələri tərəfindən yerlə-yeksan edilmiş Murxuzda 1922-ci ildən sonra yenidən həyat qaynamağa başlamış, insanlar dağılmış yurda əvvəlki hüsnünü qaytarmağa çalışmışlar. Elə həmin ildə ilk dəfə olaraq Murxuzda məktəb açılmışdır. Bu gözəl təşəbbüsün sahibi Qoşnalı Mərdanov və Cahangir Mahmudov olmuşlar. Məktəb kənd sakini Məhəmmədə məxsus evlərin birində fəaliyyət göstərmişdir. Kəndin ilk müəllimləri və uzun müddət bu məktəbdə dərs deyən Möhsüm Məmmədov və Mehrac adlı bir şəxs olmuşdur. Uca dağların, hündür qayaların qucağında yerləşən bu kiçik kənddə məktəb açılmış, kolxoz qurulmuş, bütün kin-küdurətlər, demək olar ki, unudulmuşdu. Yeni doğulan uşaqlar səkkizillik təhsili kənddə oxusalar da, orta və ali təhsil almaq üçün doğma ocaqdan çıxmalı olmuşlar. Erməni zülmündən xilas olmuş kənddə yeni həyat öz axarında davam edirdi. Kənd ağsaqqallarından Salam Adıgözəlov, İzzət Bayramov, Xansuvar Mərdanov, Yelmar Mərdanov, Şahbaz Hacıyev, Şahvələd Məmmədov, Alqayıt Fərəcov, Musa Qayıbov, Mübarək Məmmədov kəndin hörmətli adamlarından sayılırdılar. Bu nəslin ənənəsini davam etdirən sonrakı ziyalılar Murxuzun qürur duyduğu, fəxr etdiyi simalardan olublar. Onların sırasında adlarını rəğbətlə çəkə biləcəyimiz neçə-neçə insan var: Şamo Abbasov, Adil Abbasov, İsa Qayıbov, Zahid Fərəcov, Manaf, Niftalı, Famil Qayıbov qardaşları, Xeyrulla Abbasov, Ədalət Quliyev, Möhlətdin Fərəcov, Ağalı Qarayev, Araz Fərəcov və başqaları. Bu insanlar təkcə Murxuzda deyil, respublikamızda məşhurdurlar. Mərhum İsa Qayıbov kənd təsərrüfatı elmləri namizədi və bu sahənin çox tanınmış mütəxəssisi olmuşdur. Qardaşı Famil Qayıbov isə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirdikdən sonra bacarıqlı həkim kimi şöhrət qazanmışdı. Təəssüf ki, çox gənc yaşlarında dünyasını dəyişib. Xeyrulla Abbasov neft-mədən sahəsində

öz işini yüksək səviyyədə bilən geoloq-mühəndis, Şamo Abbasov və Ağalı Qarayev energetika sahəsində rəhbər vəzifələrdə çalışmış mütəxəssislər olmuşlar. Valeh Fərəcov görkəmli pedaqoqdur. Ona respublikanın əməkdar müəllimi adı verilmişdir.



İzzət Bayramov kolxoz sədri işlədiyi dövrdə kəndin yenidən qurulmasında, eləcə də əhalinin maariflənməsində son dərəcə böyük xidmətləri olub. Həyat yoldaşı Asya xanım da gözəl xasiyyəti və mehribanlığı ilə seçilən bir qadın idi. Bu ailədə böyüyən övladların hamısı ali təhsil almış, həm nəsillərinin, həm də murxuzluların sevimlisinə çevrilmişlər.

Kənddə seçilən ziyalı ailələrdən biri də Alqayıt Fərəcovun ailəsi idi. Bu ocaqda yeddi övlad boya-başa çatmışdır. Böyük oğul Əbdül Fərəcov ali təhsil aldıqdan sonra uzun müddət doğma kənddə dərs-hissə müdiri və direktor işləmiş, sonra isə qaçqın düşmüşdür. Oğlu Namiq Fərəcov Azərbaycan Dövlət Tibb Universitetinin müalicə-profilaktika fakültəsini qırmızı diplomla bitirib, Sumqayıtda 2 saylı xəstəxanada cərrah işləyir. Ailənin ikinci oğlu Möhlət Fərəcov uzun müddət Sumqayıtın tikinti obyektlərində iş icraçısı olmuşdur. Səmərəli fəaliyyətinə görə ona "Azərbaycanın əməkdar inşaatçısı" adı verilmişdir. Ailənin üçüncü oğlu Ədalət Fərəcov öz işini mükəmməl bilən kənd təsərrüfatı mütəxəssisidir. Kiçik oğul Zahid Fərəcov Sumqayıtda tanınmış cərrah kimi böyük hörmət sahibidir. Onun həyat







yoldaşı Gülayə xanım urudlu Seyid Mirişin qızıdır.

II Dünya müharibəsi illərində Murxuzun da başının üstünü qara buludlar almışdır. Bu kiçik dağ kəndindən müharibəyə 50-dən artıq murxuzlu getmişdir. Bunların yarıdan çoxu cəbhədə həlak oldu. II Dünya müharibəsindən geri qayıtmayan murxuzluların adlarını ehtiramla qələmə alırıq: Mikayıl Quliyev, Abbasəli Quliyev, Əlixan Quliyev, Şahgəldi İmanov, Dağbəyi Abbasov, Bəhmən Orucov, Atlıxan Mərdanov, Vəli Səfərov, Yamin Hüseynov, Tatan İmanov, Abbas Səfərov, Məhəmmədəli Hacıyev, Əmirxan Orucov, Əliyar Quliyev, İrəvan Bayramov, Qardaşxan Hüseynov, Xanmurad Quliyev, Yusif Rzayev, Əli Həsənov, Müslüm Quliyev, Əbülfəz Abdullayev, Baloğlan Quliyev, Əmirbağır Quliyev, Bəhram Paşayev. Müharibədə Xudu Abbasov şücaət və hünər göstərmişdir. O, Poltavada ikinci Taqanroq diviziyasının tərkibində alman-faşist işğalçılarına qarşı qəhrəmanlıqla vuruşmuşdur. Krım döyüşlərində dörd dəfə ağır yaralanmış, Macarıstan və Rumınıya torpaqlarının azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edərək Berlinə qədər igidlik yolu keçmiş, o dövrün müxtəlif orden və medalları ilə təltif olunmuşdur.

1988-ci ilin payızında Murxuz kəndinin əhalisi ermənilər tərəfindən zorla çıxardılaraq öz doğma yurdlarından didərgin salındılar. Bir türk eli də beləcə dağıldı. Ömrümdə bircə dəfə Murxuzda olmuşdum. Uşaq vaxtı toya getmişdik. Yaddaşımı nə qədər tərpətsəm də, illərin solğun xatirəsində o toyun qeyri-adi coşğunluğu gözlərim önündən çəkilmir. Mənə elə gəlir ki, qara zurnanın ruh oynadan sədaları hələ də o dağlarda əks-sədadadır. Kim bilir? Bəlkə elə ikinci dəfə də yolum Murxuza - toya düşəcək. Özün kömək ol, ulu Tanrı, biz kimik ki? Yazan da sənsən, pozan da, elə məni dilləndirən də, bir sim üstə kökləndirən də... Getsək də, getməsək də, o yol bizim yolumuzdur. Dönsək də, dönməsək də, o kənd bizim kəndimizdir - Murxuz türkün obasıdır.

## ƏQİDƏ SAHİBİ



Zəngəzur elinin böyük hörmət və ehtiramla xatırladıqları insanlardan biri də Salam Adıgözəlovdur. Bu unudulmaz insanın elə mərd, nəcib keyfiyyətləri olub ki, kimdən onu xəbər alsan, ürəkdolusu danışar, Salam Adıgözəlovun mənalı həyatından yadda qalan maraqlı hadisələr söyləyərlər.

O, 1898-ci ildə Murxuz kəndində anadan olmuşdur. Atası Zeynalxan, anası Şərəfnisənin yeddi övladından biri olan Salam ailənin sonbeşiyi idi. Hələ uşaqlıqdan fərasəti, çevikliyi, qabiliyyəti ilə seçilən Salamı atası oxutmaq qərarına gəlib. Onu Gorusda açılmış gimnaziyanın birinci sinfinə qoyub. Salamın oxumağa çox həvəsi olduğundan müəllimlər bu dilli-dilavər, səliqəli, tapşırıqları diqqətlə yerinə yetirən uşağa xüsusi məhəbbət göstəriblər. Rus dilini dərindən mənimsəyən Salam Adıgözəlov dərs əlaçısı idi. O vaxt bu məktəbdə azərbaycanlılarla ermənilər bir yerdə oxuyurdular. Salam Adıgözəlovun istedadlı olması hamıya bəlli idi. Hətta erməni müəllimlər də onu öz uşaqlarına nümunə göstərərdilər.





O, Gorus gimnaziyasını bitirən il bütün Qafqazı inqilab əhval-ruhiyyəsi bürümüşdü. O zaman insanlar yaxşı yaşamağın yolunu məhz çevrilişdə gördüklərindən inqilabi hərəkata qoşulur, müəyyən təbliğat aparırdılar. Belə fəal həyat mövqeyinə malik oğullardan biri də Salam Adıgözəlov olub. O, öz əqidə dostları: Əli Əmiraslanov, Göyüş Hümbətəliyev, Qulu Əbdüləzimov, Kərim İsgəndərov, Əliqəmə Ağayev, Ələkbər Abdullayev və başqaları ilə birlikdə mübarizə meydanına atılıb.

Salam Adıgözəlov təhsilini davam etdirmək fikrində olsa da, ailə vəziyyəti və maddi imkanı ona bu yolda bir müddət maneə törədir. Lakin Zəngəzurda baş verən siyasi proseslər və milli ədavətlər, xüsusilə də daşnakların bizə qarşı törətdiyi vəhşiliklər onun dünyagörüşünün formalaşmasına, həyat təcrübəsinə xeyli təsir göstərmişdir.

1898-ci ildə məhz Gorusda yaradılmış Daşnaksütyun partiyasının əsas məqsədi Türkiyə və Azərbaycan torpaqlarını zəbt etməklə "Böyük Ermənistan" xülyasından ibarət olmuşdur. Bu partiyanın üzvləri müxtəlif təxribatlarla məşğul olur, azərbaycanlılara qarşı vəhşi siyasətlər həyata keçirirdilər. Milli ədavətlər, daxili çəkişmələr, eləcə də bolşeviklərin Zəngəzurda fəallığı bu bölgədə çaxnaşmalar yaradırdı. Belə bir qarışıq zamanda Salam Adıgözəlov erməni millətçilərinə qarşı mübarizədə yaxından iştirak etmək üçün inqilabi hərəkata qoşulmaq məcburiyyətində qalıb. 1920-ci ildə Kommunist Partiyasının sıralarına daxil olub. Bütün varlığı ilə millətinə bağlı olan Salam Adıgözəlova elə gəlirdi ki, Zəngəzurun nahiyə və kəndlərində inqilab komitələri yaradılsa, insanlar arasında geniş təbliğat aparılsa, erməni millətçilərinin işğalçılıq siyasəti kütlələrə aydınlaşar. Bu niyyətlə də daşnaklara qarşı xüsusi mübarizə üsullarının hazırlanması üçün Salam Adıgözəlov cəfakeşlik göstərirdi. O zaman daşnaklar Zəngəzur qəzasının bütün kəndlərində öz hakimiyyət orqanlarını bərpa etmişdilər. Onlar min cür vəhşiliklə Azərbaycan kəndlərini dağıdır, millətimizə ağır işgəncələr verir, kütləvi qırğınlar törədirdilər. Erməni vəhşiliklərinin qarşısını almaq üçün yerlərdə partizan dəstələrinin yaradılması labüd idi. Belə partizan dəstələrindən birinə məhz Salam Adıgözəlov başçılıq edirdi. Onun rəhbərliyi ilə bu dəstənin üzvləri Zəngəzurun ərazisini daşnaklardan təmizləmək uğrunda əsl mənada qəhrəmanlıq göstəriblər. Xüsusilə də Gorusun yaxınlığında daşnak Dronun süvari dəstəsinin dağıdılmasında Salam Adıgözəlovun şücəəti

çox olub. Daşnaklara layiqincə cavab verən insanlardan biri də Salamın yaxın dostu Dadaş Səfərov idi. Onlar Zəngəzurda elə bir ad qazanmışdılar ki, daşnaklar hər iki igidin qətlə yetirilməsi üçün öz silahdaşları qarşısında mühüm bir tapşırıq qoymuşdular. Dostlar Gorusun 4-5 kilometrliyində yerləşən Sofulu kəndində yaşayır və kəşfiyyat işləri aparırdılar. Daşnaklar bundan xəbər tutan kimi böyük bir qüvvə ilə dumanlı bir gecədə Sofulu kəndini mühasirəyə alıblar. Böyük bir dəstəyə malik olan ermənilərə qarşı nə vuruşmaq, nə də bu 6-7 evdən ibarət kiçik kənddə gizlənmək mümkün idi. Odur ki, silahlı quldurlar hər iki igidi tutmağa nail olmuşlar. Bu xəbəri eşidən qonşu kəndlərin camaatı hər iki igidi azad etmək qərarına gəlib. Böyük bir insan axını ilə üzləşən daşnaklar çaşbaş qaldıqları vaxt Salam Adıgözəlov fürsətdən istifadə edərək yaxınlıqdakı kahaların birində gizlənmişdi. Kənd camaatı Dadaş Səfərovu xilas etməyə çalışsalar da, silahlı quldurların müqavimətini qıra bilməmişlər. Ermənilər Dadaşın da qaçacağından ehtiyatlanaraq onu elə yoldaca qətlə yetiriblər.

1920-ci ildə Zəngəzurun vətənpərvər oğulları erməni millətçilərinə qarşı nə qədər kəskin mübarizə aparsalar da, bu müqəddəs yolda çoxlu şəhid versələr də, Zəngəzuru Azərbaycanın tərkibində saxlaya bilmədilər. Qarabağın və Zəngəzurun fövqəladə komissarı Cəmil Vəzirov XI Qızıl ordu hissələrini Zəngəzura çağırmışdı. Sonradan onu əvəz edən Armenak Qaragözovun komissarlığı dövründə guya XI Qızıl ordu daşnakları tərksilah etmiş və beləliklə, bu bölgədə sovet hakimiyyəti qurulmuşdu. O zaman Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanov da bu mahaldakı yeni quruluşun bərqərar olunmasını sevinclə qarşılamışdı.

Əlbəttə, bunlar məsələnin üzü idi. Astarında isə başqa hadisələr qaynayırdı. Daşnaklar yenidən öz qüvvələrini birləşdirib Zəngəzurda müxtəlif qiyamlar qaldırırdılar. Qarakilsənin mərkəzində, eyni vaxtda Qafanda daşnak Nijdenin başçılığı ilə erməni quldurları nələr törətmədilər?! 1920-ci ildə Gorus yenidən daşnakların əlinə keçdi. Bu döyüşdə yüzlərlə azərbaycanlı qətlə yetirildi. Qızıl ordunun məqsədli köməyi nəticəsində Salam Adıgözəlov silahdaşları - Nəzər Heydərov, Oruc Babayev, Aslan Əsədovla birlikdə nə qədər əzab-əziyyət çəksələr də, öz istəklərinə nail ola bilmədilər. Zəngəzur torpaqları Ermənistanın tərkibində qaldı. Hadisələr elə tərzdə inkişaf etmişdi ki, baş verənlərə tabe olmaqdan başqa əlac yox idi. O dövrdə





azərbaycanlılar hansı zülmə, zillətə məruz qalıblarsa, bu barədə yazıçı Əyyub Abbasovun "Zəngəzur", Nəzər Heydərovun "Zəngəzur dağlarında" və Əli Vəliyevin "Zəngəzur qartalları" əsərlərində ətraflı və geniş məlumat var.

Təbiətən mübariz və dərin təfəkkür sahibi olan Salam Adıgözəlov 1921-ci ildə Qubadlı Qəza Firqə Komitəsində şöbə müdiri işləmişdi. Onun idarəetmə sahəsindəki bacarığı diqqət mərkəzində idi. Sonralar müxtəlif vəzifələrdə, eləcə də Zəngilan rayonunun Partiya Komitəsinin birinci katibi işləmişdir. Bu o illər idi ki, Azərbaycanı repressiya dalğaları bürümüşdü. Bəlkə də Salam Adıgözəlovun həmin vaxt Zəngilanda işləməsi bu rayonun bir çox ziyalısını üzləşə biləcəyi "gedər-gəlməz" fəlakətindən xilas etdi. Salam Adıgözəlov həmişə xeyirxah, qayğıkeş insan olduğundan zəhmətkeşlər onu çox sevər və inanardılar.

Böyük Vətən müharibəsi illərində Salam Adıgözəlov Qubadlıda çalışıb. Bu illərdə o, göstərdiyi fədakar əməyə görə müxtəlif orden və medallarla təltif edilmişdir. Salamın həyat yoldaşı Əminə xanım da orta məktəbdə müəllimə işləyirdi. Zaman çox dumanlı idi. Heç nədən insanlar vəzifədən götürülür, zindana salınır, təzyiqlərə məruz qalırdı lar. Qəribədir, partiya sıralarında olan, ona inanan və sidq ürəklə qulluq edən Salam Adıgözəlov belə bir qəfləti hökmə tuş oldu. 1948-ci ildə tutduğu vəzifədən azad edildi. Yüksək vəzifələrdə çalışan dostları onu nə qədər Bakıya dəvət etsələr də, o, bu təkliflərlə razılaşmayaraq ailəsini də götürüb doğulduğu Murxuz kəndinə qayıtdı. Fikir verin, 1948-ci ildə. Bu o dövr idi ki, Ermənistanda azərbaycanlıları dövlət səviyyəsində sıxışdıraraq deportasiya edirdilər. Bu təzadlı qayıdışın - Salam Adıgözəlovun doğma kəndə dönməsinin öz mənası vardı. Bir müddət yaşamağa evləri olmadığından qohum-qardaşa sığınan Salam Adıgözəlov müəllimliklə məşğul olub, özünə yeni ev tikib, oğul-uşaq qayğısına qalıb. Murxuzun abadlaşmasına, gözəlləşməsinə çalışan Salam Adıgözəlov həmişə kənd camaatına təbliğ edərdi ki, dədə-baba torpağınızı qoruyun, onu sahibsiz qoymayın. Belə bir əqidə sahibi 1954-cü ildə yenidən Qubadlıya qayıtmışdı. O, 1965-ci ildə 67 yaşında vəfat etmişdir.

Zəhmətdən zövq alan bu qüdrətli insan həm də gözəl ailə başçısı idi. Beş övlad böyüdüb başa çatdırmışdı. Böyük qızı Klara həkim-ginekoloq kimi ad-san qazanıb. Ortancıl qızı Məfkurə xanım 30 ilə



yaxındır ki, Azərbaycan Dövlət Tibb Universitetində çalışır. Kiçik qızı Sara ədəbiyyat müəlliməsidir. Salam Adıgözəlovun böyük oğlu Fikrət iqtisad elmləri doktoru, Azərbaycan Memarlıq və İnşaat Universitetinin professorudur. Kiçik oğlu Faiq isə uzun müddət Daxili İşlər Nazirliyi sistemində çalışdıqdan sonra təqaüdə çıxmışdır.

Ömrü boyu dilinə haram tikə vurmayan, elinə, obasına, millətinə xidmətdən doymayan, xalqının maariflənməsində xüsusi zəhməti olan Salam Zeynalxan oğlu Adıgözəlovun xatirəsi bu gün murxuzluların, bütövlükdə onu tanıyan bütün zəngəzurluların qəlbində yaşamaqdadır.

## BİZİM FİKRƏT MÜƏLLİM

Çox mehriban, sadə, təvazökar insan olan Fikrət Adıgözəlovla bu yaxınlarda həmsöhbət olmuşam. Gözlərinin dərinliyində qəribə bir kədərin yaşantısı duyulan Fikrət Adıgözəlov həssas qəlbə malik olmaqla bərabər, həm də görkəmli alim, elm xadimidir. Onu mənimlə





bacısı Məfkurə xanım tanış edərək demişdir: "Qardaşm olduğu üçün demirəm, Fikrət həqiqətən Zəngəzur mahalının fəxr edilə biləcəyi zəngin daxili aləmə malik və təəssübkeş bir oğludur". Bir neçə söhbətdən sonra duydum ki, ömrün 60 baharını tamamlayan Fikrət Adıgözəlovun sinəsində yurd sevgisi, vətən həsrəti ilə döyünən bir ürək çırpınmaqdadır.



"Pasportumda doğulduğum yer Qubadlı rayonunun Qubadlı qəsəbəsi yazılsa da, mən əslən, nəslən, soykökü etibarı və bütün uşaqlıq xatirələri ilə birlikdə murxuzluyam. Atam Salam Adıgözəlovun istər Qubadlıda, istər Qarakilsədə (Sisian), istərsə də külli Zəngəzurda böyük hörmət-izzəti var idi. Tale elə gətirdi ki, bizim ömürlüyümüzə Qubadlı da, Qarakilsə də əziz, doğma yurd kimi iz saldı. Atamın vəzifəsi, işi ilə əlaqədar biz bir müddət məhz Qubadlıda yaşamalı olmuşuq. Doğma kəndə - Murxuza qayıdanda 5 yaşım var idi. Atamı haqsız yerə işdən çıxartmışdılar. O, bu təzyiqlərə dözmək üçün məhz doğma kəndin təbiətinə, onun saf, təmiz insanlarına sığındı. Uzun müddət qonşu Sofulu kəndində müəllimliklə məşğul oldu. Sonra elə oldu ki, biz yenidən Qubadlıya dönməli olduq. Amma bütün illər ərzində, 1988-ci ilə kimi bizim Murxuzla, doğma qohum-qardaşla, tanış-bilişlə əlaqəmiz kəsilmədi. Murxuz mənim xəyalımda uca dağları, gül-çiçəkli yaylaqları, soyuq bulaqları, bir də mehriban insanları ilə yaşamaqdadır. Xüsusilə də uşaqlıq dostlarım, həmyaşıdlarım: Rəfi, Ədalət, Xeyrulla, Alı, Manaf, Maşallah, Allahverdi, Adil heç yadımdan çıxmırlar. Onların bəziləri ilə bu gün də əlaqəm var. Xüsusilə də Rəfi mənim ən sevimli dostlarımdan birinə çevrildi. Mən ilk dəfə məktəbə Murxuzda getmişdim. Anamın xəstəliyi ilə əlaqədar Qubadlıya köçəndən sonra təhsilimi qəsəbə orta məktəbində davam etdirdim".

1960-cı ildə orta məktəbi əla qiymətlərlə bitirən Fikrət Adıgözəlov elə həmin il Azərbaycan Politexnik İnstitutuna daxil olub. Bu ali

məktəbdə inşaat mühəndisi ixtisasına yiyələndikdən sonra institutu bitirən il ordu sıralarına çağırılıb və 1968-ci ildən Azərbaycan Dövlət Plan Komitəsi ET İqtisadiyyat İnstitutunda elmi işçi kimi əmək fəaliyyətinə başlamışdır. 1976-cı ildən isə Su resursları və su təsərrüfatı tikintiləri bölməsinə rəhbərlik edən Fikrət Adıgözəlov ömrünü-gününü bağladığı bu elm ocağında maraqlı elmi-tədqiqat işləri apararaq iqtisad elmləri namizədi alimlik dərəcəsi almaq üçün 1976-cı ildə dissertasiya müdafiə etmişdir. 1983-1991-ci illərdə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun "Hidrotexniki və hidromeliorasiya işlərinin təşkili" kafedrasında dosent, 1999-cu ildə isə "İnşaatın iqtisadiyyatı" kafedrasının professoru vəzifəsinə qədər yüksəlmişdir.

Fikrət Adıgözəlov iqtisad elminin müxtəlif sahələrinin problemlərinə aid geniş tədqiqat işləri aparmaqla məşğuldur. Onun 1990-cı ildə müdafiə etdiyi doktorluq dissertasiyası yüksək qiymətləndirilmişdir. F.Adıgözəlov tərəfindən ilk dəfə olaraq iqtisadi rayonlar üzrə su təsərrüfatı balansları düzgün qurulmuş, onun işlənməsi və tətbiqi metodikası keçmiş ittifaqın mərkəzi təşkilatlarının işində öz əksini tapmışdır. Professorun yüzlərlə məqaləsi, metodik göstəriciləri, bir çox dərs vəsaiti və 5 monoqrafiyası var.

Diqqətə çatdırdığımız bu faktlar görkəmli alimin həyat yolunu əks etdirmək baxımından çox maraqlıdır. Amma bizim üçün önəmli olan odur ki, Fikrət Adıgözəlov bu gün yadlar tapdağında bəlkə də məhv edilmiş, bir yurd yeri kimi sıradan çıxarılmış, xarabaya çevrilmiş Murxuzun ziyalı oğullarından biridir. Gözəl, mehriban ailə sahibidir. 2 oğlu və 3 qızı var. Yan-yörəsində nəvələri dolaşır. Ən böyük arzusu uşaqlığının xatirələri yaşayan o gözəl Murxuza dönməkdir.

## MURXUZUN ŞƏHİD BALLARI

1988-ci ildə kəndin camaatı ermənilər tərəfindən doğma Murxuzdan zorla çıxardılaraq qaçqına, didərginə çevrildi. Bakı, Sumqayıt, Naxçıvan... talesiz insanlara öz qoynunda yer versə də murxuzlunun gözü öz yurdunda qaldı.

Murxuzlu Dadaş İsaqovun iki oğlu şəhidlik zirvəsinə ucaldı. Şahin 1990-cı ilin 20 yanvarında, Dilbaz isə Murovdağda həlak olmuşdur.





# DAŞLARI XINALI QIZILCIQ



*Yazın gülü, qışın qarı perik düşdü,*
*Yerin rəngi, göyün nuru perik düşdü.*
*Yurddan-yurda su daşıyan buludların perik düşdü.*
*Düzlərimizin yağışları, çölümüzün taxılları perik düşdü.*
*Hələ-hələ göz görməyən,*
*Hələ qulaq eşitməyən misraların perik düşdü.*

***Məmməd Araz***

# BƏXTSİZ KƏNDLƏRİMİZDƏN BİRİ - QIZILCIQ

Adının mənasında qızıl sözü var. Elə kəndin daş-qayası da qızılı rəngdədir. Kənardan bu obaya baxanda adama elə gəlirdi ki, binədən hasarı qızıldan hörülmüş Qızılcıq kəndinin sakinləri dünyanın ən bəxtəvər və xoşbəxt adamlarıdır. Qarakilsənin beş-altı kilometrliyində yerləşən Qızılcıq kəndi Corusdan gələndə ilk görüş yerimiz olardı. Çünki Zəngəzurun bu kəndi Qarakilsə ilə Gorusun arasında yerləşirdi. Tarixi mənbələrdən belə məlum olur ki, XVII əsrdə Türkiyədən









gəlmiş türk tayfaları tərəfindən kəndin əsası qoyulmuşdur. Bir sıra kitablarda "Qızılcıq" sözünün mənası zeytunluq kimi mənalandırılsa da, nəinki bu kənddə, heç Qarakilsənin başqa ərazilərində də zeytun bitməyib. Ona görə də kəndin zeytunluq kimi açması düzgün deyildir. Bir də ki, görünən kəndə nə bələdçi? Adın özündən hər şey bəllidir. İndi əlimizdən alınmış Qızılcıq haqqında fikirləşəndə dərhal xəyalıma kəndin zümrüd libası, əlädüşməz ətirli balı, qız-gəlinlərin könül sevdalarını öz naxışlarında əks etdirən xal-xalçaları gəlir. Qızılcıqlılar qeyrətli, təmiz ürəkli, zəhmətkeş, cəfakeş insanlar olublar. Bu kənddə doğulub böyüyənlərin pislikdən, namərdlikdən, xəbis düşüncələrdən xəbərləri olmayıb. Onlar bəlkə də dünyanın ən pak,

təmiz guşəsində yaşadıqlarından çəkdikləri zülmləri, əzabları qəlblərində uzun müddət yaşada bilməyiblər. 1918-ci ildə quldur Andronikin rəhbərliyi ilə daşnaklar Qızılcığa elə bir od vurdular ki, əhalinin yarıdan çoxu qətlə yetirildi, evlər dağıdıldı, ailələr pərən-pərən düşdü. Salamat qalanlar bir də Sovet hakimiyyəti qurulduqdan 5-6 il sonra Qızılcığa qayıtdılar. 500 nəfərlik əhalidən cəmi 70 nəfərə yaxın qızılcıqlı yenidən öz doğma yurdunda yaşayıb-yaratdı, kəndin simasını dəyişməyə çalışdı. Məktəb açıldı, klub, kitabxana fəaliyyətə başladı. Dünyadan elə də çox umacaqları olmayan saf təbiətli qızılcıqlılar başlarını aşağı salıb faydalı işlərlə, nəcib əməllərlə məşğul olurdular. Artıq ailələr böyümüş, bunun da nəticəsində kənddə yaraşıqlı yeni evlər inşa edilmişdi. 1988-ci ilin deportasiyasına qədər kənddə 120-ə yaxın ev, 700-ə qədər insan yaşayırdı.

II Dünya müharibəsi zamanı Qızılcıq kəndindən savaşa 80 nəfər igid yola düşmüşdü. Onun 25-i həmin davada həlak olmuşdur.

Kəndin uzunömürlü ağsaqqallarından biri Avdın kişi olub. Deyilənə görə, 115 il ömür sürüb. Hətta Qaçaq Nəbi ilə dostluğu var imiş. 1918-ci ilin erməni-müsəlman davasının da iştirakçısı olub. O qanlı çaxnaşmalarla bağlı həmişə övladlarına ibrətamiz hadisələr danışarmış. Kəndin digər ağsaqqalları Molla İdrisin, İsmayıl kişinin, Şəminin təkcə doğma Qızılcıqda deyil, ətraf yaşayış məskənlərində də böyük hörməti və nüfuzu olub.

Kəndin ərazisindəki toponimlər də öz mənasına görə diqqət çəkir: Ayı dərəsi, Böyük düz, Xırda dərə, Aşağı kaha, Qoşundaş, Qoşa ağıl, Cərdə qaya, Göl qayası, Fərməc təpə, Südlü bulaq, Qablama bulaq, Novlu bulaq, Seyid çayı, Sutökülən, Çömçə təpə, Qurbanın inəyini qurd yeyən dərə, Üç təpələr, Qaraqum təpələri, Qızıl boğaz, Tülkü yaylağı, Çəpər qaya, Kərim çuxuru, Kəmənd hasarı...

Kənd ziyalılarından Bayram Kətənov, Alxan Quliyev, Savalan Məmmədov, Xanış Əsədov, Aydın Şərifov, Yaqut Hüseynova, İzzət Mürşüdova, elmi fəaliyyəti ilə məşhurlaşmış Qardaşxan Vəliyev, Aslan Şirinov, Misir Əliyev və başqaları qızılcıqlıların iftixarıdır. Bu kənddə anadan olmuş ədəbiyyatşünas-tənqidçi, yazıçı Qulu Xəlilov isə təkcə Qızılcığın deyil, bütün Zəngəzur mahalının, böyük Azərbaycanın fəxr etdiyi unudulmaz alimlərindən biridir.

Kənd 1988-ci ildə erimənilər tərəfindən işğal edilmiş, əhalisi isə Azərbaycanın müxtəlif rayonlarına pənah aparmışdır. Deyilənə görə, indi Qızılcıqda ermənilər yaşayır, kəndin də adını dəyişdirib İşğanzar qoyublar. Bu, ermənilərin öz uydurmasıdır. Tarix isə başqa həqiqətlər deyir. Bu həqiqətlərin içində ən ağrılısı odur ki, vaxtilə adi daşı da qızıla oxşadılan Qızılcıq ən bəxtsiz kəndlərdən biri oldu. Nadir Ağayev, Yunis Mirzəyev isə öz igidlikləri ilə şəhidlik zirvəsinə yüksəldilər. Onlar Qarabağ uğrunda gedən döyüşlərdə həlak olublar.





Bir təəssüfümü də bildirmək istərdim ki, kəndin pərən-pərən düşmüş əhalisi ilə əlaqə saxlamaq o qədər çətinləşdi ki, Qızılcıq kimi bir altun timsallı kənddən pərvazlanmış insanlar barədə mükəmməl məlumat əldə edə bilmədik. Təəssüf ki, əlidüşməz təbiəti və qeyri-adi gözəlliyi ilə ancaq yaddaşımızda, xəyalımızda yaşayan Qızılcığın şəklini də tapa bilmədik.

## HƏMİŞƏ ÖZÜ OLAN İNSAN

Mən Qulu Xəlilovu ilk dəfə qışda elə Bakıda öz evində görmüşdüm. Universitetdə qiyabi oxuyan bacımla onlara qonaq gəlmişdik. 5-6-cı sinifdə oxuyurdum. Qulu müəllim də hardansa istirahətdən qayıtmışdı. Hərəyə bir hədiyyə almışdıq. Mənə bağışladığı mavi saçaqlı ipək yaylıq hələ də yadımdadır. Elə həmin ilin yayı o, indi yadlar tapdağında saralan kəndimizə gəlmişdi. Onun ağ tutu necə ləzzətlə saplaqlı yeməyi, qoşa ovucla bulaqlardan su içməyi, maraqlı söhbətləri, nəsihətləri heç vaxt xəyalımdan çəkilmir.

Deyim ki, bizim evdə iki mənəvi işıq yanırdı. Qulu Xəlilov və Məmməd Araz. Mən də bu işığın cazibəsindən, əfsunundan yapışaraq Bakıya ali təhsil almağa, bir sözlə, yazı-pozu adamı olmağa gəldim. Universitetin jurnalistika fakültəsinə qəbul olundum. Görkəmli tənqidçimiz bizə üçüncü kursda dərs deməyə başladı. Adamı heyrətləndirən sərtliyi, ürəyi titrədən qəribə kövrəkliyi var idi. Mühazirələri çox maraqlı və şirin keçərdi. Təbii danışığını, şirin söz-söhbətini təsvir etməkdə qələm acizdir. O, həm də çox ciddi və tələbkar idi. Mühazirədən yayınan, seminarda iştirak etməyən tələbəni sevməzdi. Mütləq ondan yazılı şəkildə izahat alardı. Və bu "məktublar"ı da həmişə özündə saxlayardı.

Günlərin birində anam Bakıya gəlmişdi. Onu həkimə aparmalı idim. Elə oldu ki, Qulu müəllimin mühazirəsində iştirak edə bilmədim. Tələbə rəfiqəm mənə çatdırdı ki, jurnalda adları oxuyanda sənin adını

çəkmədi. Mən də ön cərgədə əyləşərdim. Növbəti dərsdə Qulu müəllim adları oxuyanda başını qaldırıb üzümə mənalı baxdı və yavaş səslə dedi: "Sən dünən yox idin?!" Mən də öz aləmimdə guya cavab verdim:

- Hə, bilirəm.

Heç bir izahat tələb olunmadı. Ürəyimdə qəribə bir arxayınçılıq yarandı. İş elə gətirdi ki, anamı rayona yola salan günü yenə də dərsə gələ bilmədim. Növbəti mühazirədə Qulu müəllim auditoriyaya daxil olan kimi birinci məni dindirdi:

- Hardaydın?

Səsinin ahəngi məni qorxuzdu. Dillənə bilmədim.

- İzahatını yaz.

İndiki kimi yadımdadır. Belə yazmışdım: "Pr. Q.Xəlilova tələbə... tərəfindən izahat". Səhəri yenə Qulu müəllim içəri daxil olan kimi məni ayağa durquzdu və dedi:

- Prı nədi, aaz? Ağıllı-başlı izahat yaz.

Yenə qələmi aldım əlimə: "Filologiya elmləri doktoru, professor Qulu Qasım oğlu Xəlilova tələbə filankəs tərəfindən izahat və ya bağışlanması haqqında ərizə..." Bu "məktublar" arxivində son illərə kimi dururdu.

H. adlı bir müəllimimiz var idi. Bizdən yuxarı kursda oxuyan tələbələr danışırdılar ki, biliyə fikir verən deyil. Tapşırılmasan, ömründə "5" yazmaz. İmtahan günü səhər-səhər dəhlizdə Qulu müəllimlə rastlaşdım. "Aaz, nə olub? Rəngin niyə qaçıb? Rəfiqəm tez söz atdı: "H. müəllimdən qorxur, o da ki..."

- Hazırlaşmamısan ki?

- Suallara gözüyumlu cavab verərəm.

- Onda qorxaq olma.

Bileti çəkib təzəcə əyləşmişdim ki, Qulu müəllim içəri girdi. H. müəllim tez ayağa qalxıb ona ehtiramla əyləşməyi təklif etdi.

Biletdəki sualların hamısına cavab verdim. Əlavə suallar üstümə yağış kimi yağdı. Amma onu da hiss edirdim, elə bir məqam yaranıb ki, H.-nin qiymətini aşağı salmaq şansı çox aşağıdır. Çünki öz ədaləti və həqiqəti ilə fakültəmizin sevimlisi olan Qulu müəllimin yanında o bu hərəkəti edə bilməzdi. Beləliklə də, mən "5" aldım.

Bir dəfə də Qulu müəllim mühazirəyə təzəcə başlamışdı ki, gördüm çənəsində nəsə yağlı ləkə var. Əl yaylığımı çıxarıb öz çənəmi sildim





və ona baxdım. Bir neçə dəfə bu yöndəmsiz hərəkəti təkrar etdim. Qəfildən o, məni ayağa durquzub soruşdu:

- Nədi, aaz, ma nə qaş-göz edirsən?

Təsəvvürə gətirin ki, 50 nəfərlik bir auditoriyanın qarşısında mən nə hala düşdüm. Özümü itirmədən dedim:

- Əşi, qaş-göz nədi, yemək yeyəndə çənənizə dəyib.

Adam kimi de də...

Sevimli müəllimimiz mühazirələri elə qururdu ki, vaxtın necə keçdiyini bilməzdik. Bəzən iki qoşa saatı birləşdirərdi, yəni fasiləyə çıxmazdıq. Zahirən tünd xasiyyətli görünsə də əslində, çox yumşaq ürəyi var idi. Yadımdadır, tələbə yoldaşlarımızdan birinin atası rəhmətə getmişdi. Ondan heç nə soruşmadan mexaniki "məqbul" yazdı. Amma atası çox yüksək vəzifədə işləyən imkanlı, lakin tənbəl bir tələbə yoldaşımıza özü cavab verməyincə "məqbul" yazmadı.

Sessiya vaxtı tələbə yoldaşlarım məni başdan çıxardılar ki, Qulu müəllim sənin xatirini çox istəyir, bəlkə biletin suallarını öyrənib gətirəsən. Üz tutdum onlara. Nahar vaxtı idi. Həyat yoldaşı Gözəl xanım məni də süfrəyə dəvət etdi. Qulu müəllimlə bir stol başında əyləşdik. Boğazım tutulmuşdu, amma ayrı əlac yox idi. Rəfiqələrimə söz vermişdim. Mənim sözlü adam olduğumu duyub söhbətə özü cığır saldı:

-Xeyirdimi? Niyə imtahanlara hazırlaşmırsan?

Qorxdum ki, indicə deyəcək: "Qapıları nə gəzirsən?" Əlüstü dilləndim:

- Qulu müəllim, elə mən də imtahana görə gəlmişəm, sualları yazım.

- Sual nədi, aaz? Sizə o qədər ədəbiyyat yazdırmışam, oxuyun da..

...Nə edəcəyimi bilmirdim. Əlimi hər şeydən üzmüşdüm. Yenə də onun gur səsini eşitdim:

-Yaxşı, çox fikir etmə, çörəyini ye. Mənim işim var, gedirəm. Bax, Azərin canına and içirəm, "4"-ə bilsən "3" verəcəyəm. Əməlli-başlı hazırlaş.

Açığı pərt olmuşdum. Handan-hana özümə gəlib universitetə döndüm. Rəfiqəm Sədaqət həyəcanla soruşdu: "Hardasan, Qulu müəllim gəlmişdi, biletləri yazdırdı". Quruyub qaldım. İmtahan günü isə hamımız həyəcanlı idik. Qulu müəllim nə qədər kövrək, həssas insan olsa da, çox tələbkar idi. Nəhayət, özü də gəlib çıxdı. İmtahan

başlamazdan əvvəl dəhlizə göz gəzdirib bərkdən dedi:

- "5" almaq iddiasında olan varsa, gəlib bilet çəkib fikirləşmədən danışsın.

Sözü göydə aldım. Bu daş mənim bostanıma atılırdı. Əlaçı olsam da, Qulu müəllimdən həmişə çəkinirdim. Ağlıma gətirə bilmirdim ki, ona qaneedici cavab verə, razı sala bilərəm. Amma geriyə yol yox idi. "nə olar, olar" - deyərək içəri girdim. Mənim bileti çəkməyimlə onun dillənməyəi bir oldu:

- Danış.

- ...

- Yoxsa bilmirsən?! Onda get fikirləş və "5"-dən də əlini üz.

- Niyə ki, hazıram.

Nə danışırdım, necə danışırdım, yadımda deyil. Hərdən gözlərimə Qulu müəllimin mehriban baxışları və qapı-pəncərədən boylanan yoldaşlarımın həyəcanlı sifətləri dəyirdi. Bir də gördüm ki, Qulu müəllim ayağa qalxaraq güldandakı gülü götürüb mənə uzatdı:

- Halal olsun ananın südü sənə.

Elə bil səsimi qəfildən kəsdilər. Dayandım.

- Nooldu, aaz?! Niyə danışmırsan?

- ...

- Dəlinin biri, bəs bilmirdin, "5"-i döyüşüb alarlar.

Qulu Xəlilovun mənə bağışladığı o güllər qurusa da, əziz xatirə kimi uzun müddət evimizdə saxlayırdım. Tələbəlikdən sonra "Azərbaycan təbiəti" jurnalı və "Azərbaycan müəllimi" qəzeti redaksiyalarında işlədiyim illərdə tələbə-müəllim münasibətimiz artıq iki həmkarın yaradıcılıq, əməkdaşlıq ünsiyyətinə çevrilmişdi. Qulu Xəlilov həm də son dərəcə diqqətli oxucu idi. Ürəyincə olan, ona xoş gələn yazılarım barəsində mütləq zəng edib fikrini bildirərdi.

"Azərbaycan müəllimi" qəzetində işləyəndə Qulu Xəilovun redaksiyamızda bir məqaləsi var idi. Redaktor məni çağırıb onu ixtisar etməyi tapşırdı. "Mənlik deyil" - söylədim.

- Niyə?

- Çünki o, mənim müəllimim olub.

Bu sözləri ona çatdırdılar. Əlüstü mənə zəng çalıb dedi:

- Aaz, sağ ol ki, mənə belə hörmət edibsən. Amma yadında saxla, yaradıcılıq güzəşt sevmir. Qulu olmasın, kim olur-olsun, çök yazısının sinəsinə. Denən bu mənəm, mən qoç döyüşünü sevənəm. Heç vaxt





ədalətsizliklə eləmə, haqlısansa, geriyə çəkilmə".

Yeri düşmüşkən, "Azərbaycan" qəzetində işləyəndə onun Rəhim Qazıyevi tənqid eləyən bir məqaləsi var idi. Amma yazının həcmi elə böyük idi ki, mütləq ixtisar aparılmalı idi. Məqalə çap olunan günü dedilər ki, Qulu müəllim redaksiyaya gəlib, çox əsəbidir. Söyləyir ki, mənim yazımı kim bu kökə salıb? Cərrahlar qabırğamı sökdülər, jurnalistlər də yazılarımı. Özümü itirmişdim. Açığı, onun belə inciyə biləcəyini ağlıma da gətirməmişdim. Özü mənim otağıma gəldi:

- Aaz, sən burda ola-ola, kim mənim yazımı...

- Qulu müəllim, o həkimlər vardı ha, sizi müalicə edirdilər, onlar sizə pislik göstərirdilər? Yaşamağınız üçün əməliyyatları aparmaq məcburiyyətində qalırdılar. Biz yazımızın çap olunması üçün...

Sözümü kəsib dərhal bərkdən güldü:

- Həə, deməli, bu qəhrəmanlığı sən etmisən?

"Azərbaycan müəllimi" qəzetində işlədiyim son illər idi. Qəzetin maliyyə çətinlikləri var idi. Vaxtlı-vaxtında maaş da ala bilmirdik. Qulu müəllim məsləhət gördü ki, "Həyat" qəzetinə gedim. Sonra bir jurnalist həmkarım mənə çatdırdı ki, həmin qəzetin baş redaktoru məni tanımadığını, yazılarımı oxumadığını söyləyibmiş. Açığı, bu sözlər mənə toxundu. Söhbət tanınıb-tanınmamağımda deyildi. Bunu bir mühəndis, həkim desəydi, eybi yox idi. Qəzet işçisinin, özü də redaktorun müntəzəm çap olunan bir qələm sahibini "tanımıram" deməsi bağışlanılmaz idi, çünki o dövrdə elə də çox qəzet çıxmırdı ki? Nə isə. Mənim o qəzetə getməməyimin səbəbi ilə maraqlananda olanları Qulu müəllimə danışdım. Elə kükrədi ki:

- Sözə bax. Böyük bir iş olub. Səni Karl Marks, Engels, Lenin tanımayıb?

Sonralar "Azərbaycan" qəzetində işləməyə başlayanda yenə də tez-tez zəngləşirdik. Nə acılar ki, bu gün o diqqəti, o zəngi itirmişəm. Mən onu sonuncu dəfə ölümündən bir neçə gün qabaq balkonlarında görmüşdüm. İşə gedirdim, maşın evlərinin yanından keçəndə boylandım. Hər iki əlini balkonun məhəccərinə söykəmişdi. Həyat yoldaşı da yanında idi. Yaman sarsıldım. Zirvələr qatrtalı elə bil heydən düşmüşdü. Ürəyimə gələn qorxulu hissdən xoflandım. "Allah eləməsin" söylədim.

Qızı Rəna mənə demişdi ki, ata ağır xəstədir. Amma yanına gedə bilmirdim. Pisliklər önündə ildırım kimi çaxmağı, tufan kimi

püskürməyi bacaran dağ cüssəli kişini başqa cür görmək istəmədim. Doğrudur, bunu indi özümə bağışlamasam da, hərdən özümə haqq qazandırıram. Çünki Qulu Xəlilov xəyalımda eləcə dağ cüssəli, vüqarlı, heç nəyə, hətta ən ağır, amansız xəstəliyə belə əyilməyən, dözümlü bir insan kimi qaldı. Belə ləyaqət və qürur sahibləri adicə dünyalarını dəyişmirlər. Mənə elə gəlir ki, Qulu Xəlilov nura qənşər uzanan əbədi bir yolun yolçusuna çevrilib. Həmişə dediyim bir fikrin üstünə dönə-dönə qayıtmaqla sanki bir təskinlik tapıram. Qulu Xəilovdan yuxarıda da dayanan var, aşağıda da.Amma Qulu Xəlilov olmaq qeyri-mümkündür. Yalnız özü olan bu unudulmaz insanın solub-soluxmayan xatirələri həmişə mənimlədir.

## ƏDƏBİYYATIMIZIN ƏSL KEŞİKÇİSİ

Görkəmli ədəbiyyatşünas alim, tənqidçi Qulu Xəlilov 1930-cu ildə Qarakilsənin Qızılcıq kəndində anadan olmuşdu. 25 yaşından düz 40 il ağır xəstəliklərlə mübarizədə olan bu fədakar və cəfakeş insan 9 dəfə cərrahi əməliyyata məruz qalıb. Hər dəfə də ağrı-acılardan "Mən yaşamaq istəyirəm" qətiyyəti ilə sıyrılıb. Qulu Xəlilov bacarıqlı müəllim, gözəl mühazirəçi idi. Bu gün qəzet və jurnal redaksiyalarında çalışan, təhsil ocaqlarında dərs deyən, kitabxanada işləyən bizim nəsil nümayəndələri arasında çox az adam tapılar ki, filologiya elmləri doktoru, professor Qulu Xəlilov ona dərs deməmiş olsun. İlk baxışdan çox sərt görünən və tələbkar Qulu müəllim kövrək, həssas insan idi.

Əzəmət və məğrurluq simvolu kimi pərəstiş etdiyimiz, həyat eşqli, yaşamaq həvəsli sözünü, özünü, məsləhətini tez-tez andığımız istəkli müəllimimiz, gözəl yazıçı, görkəmli ədəbiyyatşünas alim, ədəbi tənqidçi Qulu Xəlilov haqqında keçmiş zamanda düşünmək, danışmaq, xatirə söyləmək həqiqətən ağırdır. Onun yoxluğu təkcə ailəsində, dost və tanışları arasında deyil, ədəbiyyatımızda, mətbuatımızda, cəmiyyətimizdə, toplantılarımızda hiss olunur, yeri görünür. Qəribədir ki, vətəndaş alimin olumu da, ölümü də məhz payıza - noyabr ayına təsadüf edib.

O, 20 noyabr 1930-cu ildə Ermənistanın Sisian rayonunun Qızılcıq kəndində anadan olmuşdur. Ömür kitabının sonrakı səhifələri isə Qarabağda, Bakıda yazılıb. O, əvvəlcə Ağdamda Fəhlə-Gənclər Məktəbində, sonra isə Bakıda ADU-nun jurnalistika fakültəsində oxumuşdur.







İlk iş yeri "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyası olub. Namizədlik və doktorluq dissertasiyaları yazıb. 30-a yaxın kitabın, mindən çox ədəbi-bədii, tənqidi, publisistik məqalənin müəllifidir. Ömrünün sonuna kimi BDU-nun jurnalistika fakültəsinin professoru idi. Xidmətlərinə görə, "Əməkdar elm xadimi "adına və bir neçə medala layiq görülmüşdür. Bunlar Qulu müəllimin olduqca qısa bioqrafiyasıdır. Əslində onun fədakar əməyinin, tənqidçi cəngavərliyinin, vətəndaş cəsarətinin və yanğısının bəhrəsi olan zəngin ədəbi irsindən, xarakterinin bütövlüyündən, qəribəliyindən... saatlarla, günlərlə danışmaq mümkündür. Bu adlar, təltiflər başqa bir alimin də, ədəbiyyatşünasın da həyatında ola bilər və var da. Bütün bunlar Qulu Xəlilov yaradıcılığının zahiri tərəfləridir. Özünəməxsusluğu, əqidə və məslək adamı olması onu çoxundan fərqləndirib.

Yəqin ki, tələbə yoldaşlarım, eləcə də digərləri fikrimə şərik çıxarlar. Mir Cəlal, Qulu Xəlilov, Əzizə Cəfərzadə, Famil Mehdi, Şamil Qurbanov... kimi müəllimlər tələbələrə yalnız ədəbiyyatın fəzilətlərini öyrətmirdilər, onlar həm də həqiqət, düzlük, paklıq, bütövlük dərsi keçirdilər. Təkcə bu insanlardan öyrəndiklərimiz əsl həyat dərsinə bərabər idi. Yadımdadır 37-ci ilin qurbanlarından danışanda Qulu müəllim necə kövrələrdi. Sovet dövründə adları yasaq edilmiş Əlibəy Hüseynzadə, Əhmədbəy Ağayev, Əhməd Cavad, Almas

İldırım və başqalarından yana-yana danışardı. O dövrdə də bizə çox mətləbləri andırardı. İndi açılan bütün həqiqətləri müəllimlərimiz bizə vaxtında deyiblər. Hünər və ləyaqət sahibi olan Qulu Xəlilov həm də çox sadə və təbii insan idi.

Bu dünyamızda onun yeri yaman görünür. Qulu müəllimin həmkarları təsdiqləyərlər ki, o həqiqətən çox saf insan idi. Haqqı nahaqqa verməzdi. Elmi şuralarda, simpoziumlarda həmişə boğazdan yuxarı yox, ürək yanğısı ilə danışardı. Sinəsindən qopan adicə söz yox, sanki od-alov idi. Çılğın təbiətli olsa da, vətəndaş mövqeyini qoruyan, sözünün çəkisini, yerini bilən şəxs idi. Güclü yumoru var idi. Bəlkə də bu hisslərin təsiri idi ki, düçar olduğu ağır xəstəliyə də əyilməyib. Həmişə həyat eşqli və vüqarlı olub. Gülər üzə, nurlu sifətə, məzəli, yumorlu nitqə malik Qulu Xəlilov elə bu istəklə də "Yaşamaq istəyirəm"i yazdı və bir daha mərdliyə, dözümlülüyə, böyük iradəyə sahib durmağın insan üçün məziyyət olduğunu təsdiqlədi.

Obyektiv fikirli tənqidçinin həmişə axtarışda olan fədakar ədəbiyyatşünaslığından bu yazıda geniş danışmağa eştiyac yoxdur. Qoy bu barədə alimlər öz sözlərini desinlər. Qulu Xəlilov yoxluğunun bizi göynədən ağrılarından bir-iki kəlmə söz açmaq istərdim. Onun kitablarını vərəqlədikcə duyursan ki, yeni yaranan şeirlərdə həmişə Sabir sənətinin döyüşkən ruhunu, təzəlik, poetik ustalıq axtarırmış. Tapmayanda həmin yazıları yaxşı əsərlərin ənənələrinə laqeydlik kimi səciyyələndirirmiş. Bu gün əsl şairlərə meydan oxuyan bəzi cızma-qara sahiblərini görəndə istər-istəməz Qulu Xəlilovun kəskin və qəti sözünü eşitmək istəyirsən. O, ədəbiyyatımızın əsl keşikçisi idi.

Yaranan hər bir əsər gərəkdir ki, ədəbiyyatımzın məna üfüqlərini genişləndirsin. Yoxsa Məmməd Araz demişkən: "Şeir yazmaq az qala siqaret çəkməkdən asan olub". Son zamanlar əxlaqımıza, milli adət-ənənlərimizə uyğun olmayan açıq-saçıq, şit, ədəb-ərkandan uzaq, bayağı yazılara rast gəlirsən. Demokratiya ilə anarxiyanın qarışığı başlayır. Yadımdadır, bir vaxtlar redaksiyalar zəif əsərləri dərc etməmək üçün müəlliflərə standart cavablar verərdilər. "Yazınız ədəbi-bədii cəhətdən zəif olduğu üçün istifadə edilmədi". İndiki mətbuat bolluğunda isə əksinə, ideya və sənətkarlıq baxımından qüsurlu yazılar meydan sulayır. Vaxtilə Qulu müəllim yazırdı: "Əlbəttə, əxlaq haqqında düşüncə və qənaətləri fetişləşdirmək fikrində deyilik. Əxlaq normaları da mədəni inkişafımızdan asılı olaraq dəyişməli, getdikcə





saflaşmalı, yeni keyfiyyətlər kəsb etməlidir. İnsan aləminin birinci şərti əxlaqi gözəllikdir". Görkəmli tənqidçi əxlaq, məhəbbət kimi ciddi tərbiyəvi əhəmiyyətə malik problemləri səthi və bayağı qələmə alanlara qarşı çox sərt və kəskin münasibət göstərərdi. Bu mənada bəzi qəzetlərdə baş alıb gedən amalsız, cılız, miskin, qərəzli yazılar görəndə Qulu Xəlilov müdaxiləsinə ehtiyac duyulur. O yazardı: "Elə səhvlər var ki, onu bağışlamaq, ona güzəştə getmək, ondan keçmək olar, lakin elə qəbahətlər də var ki, insanı ömrü boyu gözükölgəli, diligödək və xəcalətli edər". Bizə elə gəlir ki, Qulu Xəlilovdan sonra ədəbi kürsülərin cəsarəti azalıb.

Qulu Xəlilov fəal mövqeli vətəndaş, cəfakeş tənqidçi, həssas insan idi. Bu mərd insanı tanıyanlar yaxşı bilirlər ki, o həm də təbiət aşiqi idi. Mərhum akademik Həsən Əliyevlə möhkəm dostluqları vardı. Tənqidçinin arxivində Həsən Əliyevin aftoqraf yazdığı bir neçə kitabı var. Onları bir-birinə bağlayan təbiət sevgisi idi. Qulu Xəlilov unudulmaz akademikin təbiət duyğusunu, ətraf mühitə münasibətini belə səciyyələndirirdi: "Həsən Əliyevdən söhbət gedəndə istər-istəməz təbiəti, onun gözəlliklərini, iqlimi, meşələri, dağları, soyuq bulaqları odlu bir ürəklə sevən və bunların qorunması üçün qüvvəsini əsirgəməyən mötəbər bir alim yada düşür". Qulu müəllim özü də təbiətsiz yaşaya bilmirdi. İstirahət günü şəhərdə qalmağı sevməzdi. Mütləq Mərdəkana gedər, oradakı bağında çalışardı.

Onu sevənlərin əməlində, qəlbində, xəyalında yaşayan insanlar heç vaxt ölmürlər. Onlar eləcə haqq dünyasının sakinləri olurlar. Qulu Xəlilov 40 il ağır xəstəliklə, hər an gələ bilən ölümlə döyüşə-döyüşə yaşadı. Hər cərrahi əməliyyatdan sonra bədəninin bir parçasını itirən bu cəfakeş insan yüzlərlə ədəbi-tənqidi məqalə, neçə-neçə roman, povest, hekayə, məruzə, rəy yazdı. Universitet auditoriyalarında mühazirələr oxudu. İmtahan, zaçot götürdü. Amma yaxınlarından başqa çoxu bilmədi ki, sinəsində dünya boyda ürək və dərd gəzdirən bu qartal hünərli kişinin sağ əli işləmir, iflic olub.

Bir vaxtlar çox sevdiyi Hüseyn Cavidin nəşi Bakıya gətiriləndə onun Fəxri xiyabanda deyil, Naxçıvanda dəfn olunmasını istəyənlərdən biri Qulu Xəlilov olmuşdur. O, çox sərt və sərrast danışdı. Dediyi sözlər hələ də yaddaşlardan silinməyib: "... Cavid başdan-ayağa müqəddəs bir varlıq idi. Elə doğulduğu yerdə - pak-təmiz bir torpaqda uyumalıdır". Qəribədir, o özü də belə vəsiyyət etmişdi: "Məni bir yaşıllığın

qoynunda, bir ağacın altında torpağa tapşırarsınız. Elə yerdə ki, doğulduğum yerləri xatırlatsın". Hərdən mənə elə gəlir ki, Qulu Xəlilov elə beləcə dünyasını dəyişməyib. Sirli bir ruha dönərək doğma yurduna - Zəngəzur dağlarının qoynuna qayıdıb. Bələdçi kimi, yurd daşı kimi, yanaqlarımızdan yuvarlanan göz yaşı kimi...

Pisliklər önündə vulkan kimi püskürməyi, ildırım kimi çaxmağı, heç bir zərbəyə əyilməməyi bacaran Qulu Xəlilovu bəlkə də yurd nisgili tez apardı. Makinada yazdığı son sözlər belə olub: "Biri varmış, biri yoxmuş, bir Qulu kişi varmış..." Hayıf ki, bu yazı tamamlanmayıb. Təsəlli budur ki, Qulu Xəlilov miras qoyub getdiyi ədəbi-bədii, elmi irsində, ədəbiyyatşünaslığımızda tələbələrinin, əqidə dostlarının, ailəsinin xatirələrində, bütövlükdə isə xalqımızın yaddaşında həmişəyaşardır.

## ARIÇI ƏŞRƏF

Kənddə Əşrəf adlı çox mötəbər bir kişi yaşayırdı. Qızılcığın sayılıb-seçilən ağsaqqallarından biri idi. Kiçikdən-böyüyə hamı ona hörmətlə yanaşardı, bir sözünü iki etməzdilər. Rayonda məşhur arıçı kimi tanınan Əşrəf kişi taleyin bir çox əzablarını görmüşdü. Lakin buna baxmayaraq, bütün sarsıntılara, əzablara sinə gərməyə çalışardı. Atası Ağaları və əmisi Xeyrullanı 1918-ci ildə ermənilər qətlə yetirmişdilər.

Qızılcığın ağır günlərinin şahidi olan Əşrəf Məhərrəmov doğma kəndini çox sevirdi. Dəniz səviyyəsindən 2000 metr hündürlükdə yerləşən Qızılcıq dağlarla, bağlarla əhatə olunmuşdu. Bu yerlərin sərt qışı, mülayim yayı sakinlərə də öz təsirini göstərmişdi. Qızılcıqlılar bulaq kimi saf idilər. Bütün dərdlərin önündə əzəmətlə dayanan Əşrəf kişi dağ havasının təsirindən, içdiyi sulardan aldığı mənəvi gücə görə həmişə gümrah görünərdi. Böyük külfət sahibi idi. Dörd oğul, dörd qız atası olan bu genişürəkli kənd adamı gecə-gündüz çalışardı. Onun qulluq etdiyi arıların məhsulu - balı nəinki Qarakilsədə, bütün Zəngəzurda məşhurlaşmışdı. Deyərdilər ki, Əşrəfin arılarının balının dadı tam başqadır.

II Dünya müharibəsinin ağrı-acıları Əşrəf kişinin də ürəyinə çalın-çarpaz dağ çəkdi. İki oğlu - Qaraş və Ağalar cəbhəyə getdi. Ac qurd kimi qara caynaqlarını mərd oğulların sinəsinə uzatmış müharibə atanın gözlərini əbədi olaraq yollarda qoydu. Hər iki oğul müharibədə





qəhrəmancasına həlak oldu.

1893-cü ildə dünyaya gəlmiş, həm ermənilərin, həm də faşistlərin zülmünü görmüş Əşrəf Məhərrəmov 1965-ci ildə dünyasını dəyişib. Əlbəttə, taleyin ağrı-acılarına tuş gəlmiş bu nəsil ağacı öz yaşıl pöhrələrini verməkdə davam edir. Yerdə qalan övladlar ata ocağının çırağını yandırdılar. İndi Əşrəf kişinin nəvə-nəticələri Azərbaycanın müxtəlif guşələrinə səpələniblər. Məzarı Qızılcıqda, ruhu, kim bilir, harada olan Əşrəf Məhərrəmov heç vaxt unudulmur. Qızılcıqdan söz düşəndə adı ehtiramla anılan insanlardan biridir.

## MOLLA İDRİS

Qızılcığın adı çəkiləndə ilkin yada düşən kişilərdən biri də haqq dünyasına qovuşmuş Molla İdrisdir. Məlumdur ki, Qızılcıqda yaşayan əhalinin bir hissəsi çox qədimdən Türkiyənin Diyarbəkir bölgəsindən gəlmiş Çələbilər və Məmmədlilər tayfası olmuşdur. Molla İdris də Çələbilər tayfasından idi. Dini təhsil almış bu şəxsiyyət Quranı gözəl və təmiz oxuyardı. Ata-babaları çox uzun ömür sürmüş insanlar olub. Bu nəsil heç vaxt dilinə şərab vurmamış, ət də yeməmişdir. Qidaları süd, qatıq, qaymaq, bir də Qızılcığın təbii nemətləri idi.

Molla İdrisi nəinki Qızılcıqda, qonşu kəndlərdə də yaxşı tanıyırdılar. Tanrı ona həm də qeyri-adi istedad bəxş etmişdi. Xəstələr, şikəstlər onun qapısına gələndə mütləq şəfa tapardılar. O, təkcə yazdığı duaları ilə deyil, sidq-ürəklə etdiyi alqışları ilə də insanların köməyinə çatardı. Bu səbəbdən də dara düşən hər bir kəs ilk növbədə Molla İdrisin yanına gedərdi. Doğrudur, bəzən avam və sadə insanlar da çarəsi tapılmayan dərdlərin, düyünə düşmüş işlərin əlacını Molla İdrisdə axtarırdılar. O, heç kəsin qəlbinə dəyməzdi. Əli hər yerdən üzülmüş həmkəndlilərinə, ona pənah gətirənlərə elə məsləhətlər, tövsiyələr verərdi ki, müşküllərin mümkünləşməsi heyrət doğurardı. Görünür, ulu Tanrı da öz təmiz bəndəsinin çətin vəziyyətdə qalmasını istəmədiyi üçün onun diləklərini eşidirmiş.

## QARDAŞLAR



O, 1933-cü ilin mart ayında Qızılcıq kəndində anadan olub. İlk təhsilini doğma kənddə aldıqdan sonra Bakıda Azərbaycan Dövlət Xarici Dillər Pedaqoji İnstitutunun alman dili fakültəsini bitirib.

1956-cı ildən Savalan müəllim Qarakilsənin Vağədi kəndində alman dili müəllimi işləyib. Demək olar ki, ətraf kəndlərdən olan şagirdlərin əksəriyyətinin müəllimi məhz Savalan Məmmədov olub. 1965-ci ildə doğma Qızılcığa qayıdaraq bir müddət müəllim, sonra isə məktəb direktoru vəzifəsində çalışmışdı.



O, urudlu qızı Sərvinaz xanımla ailə qurmuşdu. Sərvinaz Yolçiyeva tibb işçisi idi. Uzun illər azərbaycanlılar yaşayan kəndlərdə işləyərək neçə-neçə ailəyə sevinc bəxş etmişdir.

1988-ci ilin payızında ermənilərin Qarakilsədə törətdiyi faciələr onların da ailəsinə qaçqınlıq, didərginlik kimi talesizlik gətirdi. Bakıda məskunlaşdılar. Savalan Məmmədov bir müddət Bakı şəhərinin Suraxanı, Xətayi rayonlarında müəllim işlədi. Hazırda təqaüdçüdür. Sərvinaz xanım isə dünyasını dəyişib.



Savalan müəllim söyləyir: "Daşnakların bizim ailəmizə vurduğu yaraları əsrlər belə sağalda bilməz. Təsəvvürə gətirin ki, babam 1905-ci ildə, atam 1918-1920-ci illərdə qaçqın olub. Üç-beş ildən sonra yenidən doğma vətənə qayıdıblar. Mən də 1988-ci ildən qaçqın düşmüşəm. Hələ də Qızılcığa qayıda bilmirəm. Neçə doğmam, ömür-gün yoldaşım qəriblikdə dünyasını dəyişdi".

Savalan müəllimin kiçik qardaşı İmran da ailə ənənəsini davam etdirib 1960-cı ildə Bakıda





Xarici Dillər İnstitutunu bitirib. Bir müddət 196 saylı orta məktəbdə alman dili müəllimi işləyib. Arada hərbi xidmətə göndərilib. Sonra yenidən doğma kollektivə qayıdıb. Direktor vəzifəsinə qədər yüksələn İmran müəllim 1984-cü ildən Suraxanı rayonunun müxtəlif məktəblərində direktor vəzifəsində çalışmışdır. Bir neçə dəfə Hövsan qəsəbə sovetinə deputat seçilən İmran Zeynalov hazırda təqaüdçüdür.

## XUDAYIL İSMAYILOV



Qızılcıqda anadan olmuş Xudayıl İsmayılov 1970-ci ildə indiki Azərbaycan Pedaqoji Universitetinin fizika-riyaziyyat fakültəsini bitirərək təyinatla İmişli rayonuna göndərilib. Bir müddət orada çalışıb.

Uzun illər pedaqoji fəaliyyətlə məşğul olan Xudayıl hazırda Sumqayıt şəhərində yaşayır və çalışır.

## TALE

Onların ailəsi sovet repressiyasının ağır təzyiqlərini çox çəkib. Xanış Fərrux oğlu Əsədov Qızılcığın ağsaqqallarından biridir. O, 1926-cı ildə Qızılcıqda anadan olub. Danışır ki, ailəmiz böyük idi. Hamı kənd təsərrüfatı və heyvandarlıqla məşğul olurdu. Gecə-gündüz çalışırdılar ki, güzəranları yaxşı keçsin. 1932-ci ildə heç bir əsaslı səbəb olmadan bu ailəyə "qolçomaq" damğası vuraraq böyük bir nəsli pərən-pərən salıblar. 1937-ci ilin tuthatutunda Xanış kişinin əmisini də həbs ediblər. Bütün bu ağrı-acılara baxmayaraq, Xanış da yaşıdları kimi məktəbə getmiş, əla qiymətlərlə oxumuşdur. Ən böyük arzusu müəllim olmaq idi. İstəyirdi ki, İrəvan Pedaqoji Texnikumunda oxusun. II Dünya müharibəsi başladı. Kənd müəllimləri cəbhəyə getdi. Bu zaman 9-10-cu sinfi bitirənlər kənd məktəbində işləyirdilər. 1944-cü ildə Xanış Əsədovu da əsgərliyə apardılar. O vaxt onun 17 yaşı var idi. Qələbəyə bir neçə gün qalmış ağır yaralanıb. Doğma yurda müharibə əlili kimi qayıdıb. Yenidən oxumaq həvəsi onu Ağdam şəhər Pedaqo-

ji Texnikumuna aparıb.

Sonralar M.F.Axundov adına Rus Dili və Ədəbiyyatı İnstitutunu bitirərək Culfa rayonunda rus dili müəllimi işləyib. Nəhayət, Bakıya köçüb. Qocaman müəllimin kəndin adı ilə bağlı qəribə bir mülahizəsi var. Söylədiyinə görə, kəndin içərisində böyük bir dərə var. Dərənin sol tərəfində isə daş kahalar olub. Həmin kahaların birindən çoxlu küp dolu qızıllar tapılıb. Başqa bir kahada isə 60-70 metr dərinliyində dəri və saxsı qabın içərisində yenə də qızıl tapılıb. Həmin yerə "Qızıl çıxdı" adı deyiblər. Vaxt keçdikcə "di" şəkilçisi ixtisara düşüb, olub "Qızılcıq". Xanış müəllimin dediyinə görə, bu kənd Teymurləngin istilasından əvvəl var imiş. Əsasən o vaxt kənddə yaşayanların bir qismi köçəri həyat sürənlər olub. Bu kənd vaxtilə Karyagin, Beyləqan, Cəbrayıl, İmişli rayonlarından yaylağa gələnlərin məskəni olub. Hətta belə bir fərziyyə də var ki, XVI-XVII əsrlərdə qızılcıqlıların bir hissəsi Türkiyəyə köçərək bu kəndin adını orada da əbədiləşdiriblər. Hazırda Ərzurumda, Qarsda yaşayan qızılcıqlılar var.

## QIZILCIĞI UNUTMAYANLARDAN



**Tofiq Şərifov**

Qızılcıqlı Tofiq qardaşımız Qızılcıqdan söz düşəndə deyir: "Görkəmli ədəbiyyatşünas alim Qulu Xəlilova məxsus fikirdir ki, Qızılcıq dağ başına qonmuş qartala bənzəyir. Onu necə unutmaq olar? Kaş günlərin birində o qartal bizi dimdiyinə alıb Qızılcığın xınalı qayalarına çırpardı.

Vaqif Zeynalov 1968-ci ildə Qızılcıqda anadan olub. Orta məktəbi doğma kənddə bitirdikdən sonra Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda oxuyub. Müxtəlif ticarət idarələrində mühasib işləyib. Hazırda "İnterfaks-Azərbaycan İnformasiya Agentliyi" MMC-nin baş mühasibidir.



**Vaqif Zeynalov**





# YOLLARININ TOZU OLAYDIM, VƏTƏN!..



***Şəhər küləyinin havası ağır,***
***Şəhər küləyindən qorun, amandı.***
***Könlümə kəndçilik havası yağır,***
***Kənddən aralıyam xeyli zamandı.***

# BƏŞƏR TARİXİNDƏ ROLU OLMAYAN ERMƏNİSTAN ƏRAZİSİ HARADAN BAŞLANIR?

"İlan ulduz görməyincə ölməz" deyirlər. Bu sözlərdə nə qədər gerçəklik var, bilmirəm, amma atalar sözü kimi formalaşaraq dilimizdə yaşayırsa, deməli həqiqətdir. Xəstə təxəyyüllü daşnakpərəst qüvvələrin çirkin əməlləri haqqında fikirləşdikcə düşünürsən ki, nə dərəcədə ilan xislətli millətin mövcudluğu mümkünmüş. "Böyük Ermənistan" xəstəliyinə tutulmuş daşnaklara sabun köpüyünə bənzəyən niyyətlərinin puçluğunu göstərmək üçün tarixin çox dərin qatlarına baş vurmaq tələb olunmur. Əlimizdə olan tarixi sənədlərin, fakt və dəlillərin işığında eləcə də erməni tarixçilərinin öz sözləri ilə bəzi məsələləri bir daha təkrar etmək lazımdır.

Diqqətə çəkirəm, erməni tarixçisi B.İşxanyan 1916-cı ildə Petroqradda çap etdirdiyi "Qafqaz xalqları" kitabında yazırdı: "Antik dövrdə ermənilərin əsl vətəni olan "Böyük Ermənistan" Kiçik Asiyadan, Yeni Rusiyadan kənarda yerləşirdi". Tarixçilərin qeydinə görə, Fərad çayının yuxarı qolu olan Qaraçay sahilində yaşayan ermənilər artıb çoxalandan sonra torpaq iştəhasına düşüblər. Onlar çox sonralar Ağbaba, Çuxur Səd, Şərur mahallarına gəliblər. Van gölündən başlayaraq Urmiya, Göyçə gölünə qədər olan məsafəni işğal ediblər.

Başqa bir erməni tarixçisi K. Patkanyan isə "Yaxın Asiya tarixində Van yazıçılarının rolu" kitabında belə yazırdı: "Ermənistan heç bir zaman bəşər tarixində xüsusi rol oynamamışdır. "Böyük Ermənistan" ermənilərin yayılıb səpələndikləri bir regionun coğrafi adıdır".

İrəvan xanlığının ərazisi tarixən azərbaycanlıların doğma baba yurdudur. Ermənilər nə qədər İrəvanı "Erebuni"yə döndərməyə, öz adlarına çıxmağa çalışsalar da, tarixi faktlar əsl həqiqəti deyir. Bu şəhəri 1504-cü ildə Rəvanqulu xan Şah İsmayılın təklifi ilə tikdirib. İrəvanın sonuncu hökmdarı da Hüseynqulu xan (1828) olub. Ermənilər nə qədər cəhd göstərsələr də ki, indiki Ermənistan onların öz vətənidir, tarixin hökmləri daha sərt və sərrastdır. Çünki ermənilər heç vaxt Qafqazın yerli sakinləri olmayıblar. İ.Orbeli 1963-cü ildə İrəvanda çap olunmuş "Seçilmiş əsərləri"ndə yazırdı: "Eradan əvvəl VI əsrdə meydana gələn, Hind-Avropa xalqı olan ermənilərin gəlişindən qabaq indi Ermənistan adlanan ərazidə kaladis və ya xaldes xalqı yaşayırdı. Onların da ölkəsi Urartu adlanırdı". Faciəyə bax, özləri belə yazdıqları halda bizim orta məktəbin tarix kitablarında beynimizə yeridilirdi ki, Van gölünün ətrafında erməni şahlığı olan Urartu var idi.





Başqa ölkələrdə yaşayan ermənilər əslində İran-rus müharibəsində sonra məhz rusların himayədarlığı ilə Qafqaza axışmağa başlayıblar. İrəvan Çuxuruna, Dərbənddən Batumiyədək, Naxçıvandan Armavirə qədər bütün dağlıq və dağətəyi yerlərə səpələnərək məskunlaşıblar. Bir tarixi fakt, Həştərxan ermənisi Moses Safarov 1769-cu ildə, Rusiya ermənisi Hovsep Arturyan və Hovxanes Lazaryan isə 1780-ci ildə rus çarı II Yekaterina ilə danışıqlar aparıblar ki, Türkiyə ilə İran sərhədləri arasında erməni dövləti yaratsınlar. Hətta həmin ölkələrə hücum da planlaşdırılıb. Amma çarın ölümü bu planın baş tutmasına maneçilik törədib.

1804-cü ildə I Aleksandrın çarlığı dövründə rus qoşunlarının aramsız hücumlarına dözməyən 5-6 min nəfər azərbaycanlı Loru Pəmbəkdən Qarsa köçüb. Həmin əraziyə isə 2 min nəfər erməni gəlib. Tarixin səhifələrini qatladıqca taleyin amansızlığı qarşısında nə edəcəyini bilmirsən. 1804-1813-cü illər müharibəsinin nəticəsi olaraq 1813-cü il oktyabrın 12-sində Rusiya ilə İran arasında bədnam "Gülüstan" müqaviləsi bağlanıb. Müqaviləyə əsasən Şəmşəddin, Loru Pəmbək və Şörəyel əraziləri, Gəncə, Qarabağ, Şəki, Şirvan, Bakı, Quba, Dərbənd, Talış xanlıqları və Dağıstan Rusiyanın tabeliyinə keçib.

1827-ci ilin mayında Paskeviçin, Yegizar Lazaryanın və A.S. Qriboyedovun təşəbbüsü ilə İrandan ermənilərin İrəvan və Naxçıvan ərazilərinə köçürülməsi başlanıb. Ümumiyyətlə, İrandan köçürülən 8.249 ailədən 6.949-u erməni vilayəti adlanan əraziyə, 1300-ü isə Qarabağda və Zəngəzurda yerləşdirilib.

I Nikolayın dövründə rus qoşunları İrəvan qalasını işğal edərək Azərbaycan kəndlərinin əksəriyyətini yerlə yeksan ediblər. Təkcə 1827-ci ildə İrəvan şəhəri ətrafında 4.500 azərbaycanlı ailəsi İrana və Türkiyəyə köçmək məcburiyyətində qalıb. Təzada fikir verin, azərbaycanlılar doğma ocaqlarından qovulur, öldürülür, ora isə ermənilər gəlirlər.

1826-1828-ci illərin Rusiya-İran müharibəsi birincinin qələbəsi ilə başa çatdı və 1828-ci ildə Rusiya ilə İran arasında "Türkmənçay" müqaviləsi bağlanıb. Nəticədə İrəvan və Naxçıvan xanlıqlarının

ərazilərində yeni inzibati ərazi-erməni vilayəti yaradılması haqqında fərman verilib. Bu biabırçı fərman 1828-ci il martın 21-də imzalanıb. Bu işdə Rusiyanın İrandakı səfiri A.S.Qriboyedovun rolu daha çox olub. Vaxtilə əsərlərini oxuyub, öyrənməyə can atdığımız bu şovinist yazıçı da xalqımızın bir nömrəli düşmənlərindən imiş. Elə bu dövrdən ermənilərin İrəvana, Naxçıvana, Qarabağa və başqa ərazilərə axını başlayıb. 1877-1878-ci illərdə Rusiya-Türkiyə müharibəsindən sonra ermənilərin İrəvan quberniyasında yerləşdirilməsi prosesi daha da kütləvi xarakter alıb. İndiki Ermənistanın ərazisi azərbaycanlıların ata-baba yurdu olduğu halda Rusiyanın köməyinə arxalanan ermənilər bizləri zaman-zaman öz torpaqlarımızdan çıxarmağa müvəffəq olmuşlar. Ermənilərin 1828-ci ildə yaratdıqları erməni vilayəti (əhalisi 25.131 nəfərdən ibarətdir) 1849-cu ilin noyabrında İrəvan quberniyasına və qəzalara çevrilmişdir. 1920-ci ilin noyabrında isə bolşeviklərin köməkliyi ilə Ermənistan Sovet Sosialist Respublikası yaradıldı və bu respublikanın mövcudluğuna qədər ermənilər tərəfindən 1918-ci ildə Ağsu, Kürdəmir və Lənkəranda 130, Şamaxıda 58, Qubada 112, Gəncədə 272, Zəngəzurda 115, Qarabağda 157, İrəvan quberniyasında 221, Bəyaziddə 7, Sürməlidə 75, Eçmiədzində 84, Qarsda 62 yaşayış məntəqəsi yerlə yeksan edilib. Əhalinin əksəriyyəti qırılıb, qalan hissəsi isə didərgin salınıb.

Azərbaycan tərəfindən 1918-ci ildə İrəvan ərazisinin ermənilərə güzəşt edilməsinə razılıq verilib. Bunun da nəticəsində 1918-ci ilədək sahəsi 9,8 min kvadrat kilometr olan qondarma erməni vilayəti Azərbaycan torpaqlarının hesabına genişlənərək 1920-ci ildə 29,8 min kvadrat kilometrə çatmışdır. Torpaq iştəhası, onu müntəzəm qamarlamaq hərisliyi ermənilərin gözlərini elə örtmüşdü ki, daşnaklar tarixin hər bir anından bu məkrli siyasəti həyata keçirmək üçün çox hiyləgərliklə istifadə edirdilər. Siz tarixin bu qan qoxuyan səhifələrinə diqqətlə fikir verin. 1920-ci ildə Yeni Bəyazid qəzasının Basarkeçər mahalı, İrəvan qəzasının Vedibasar mahalı və Gəncə quberniyasının Zəngəzur qəzası Ermənistana verilmişdir. Bununla yanaşı, 1920-ci ilin əvvəllində Qazax qəzasının cənub hissəsi də Ermənistana bağışlanmış və burada Dilican qəzası yaradılmışdır. Bu faktdır ki, Zəngəzur qəzası iki hissəyə bölünərək Ermənistanla bölüşdürülmüşdür. Nəticədə daşnaklar Naxçıvan diyarını öz anasından ayrı salmaq məqsədilə Mehriyə bitişik ərazilərin də Ermənistana verilməsinə nail olublar. Bu





ağrılı faktları öyrəndikcə adamın beynində tufan qopur: 1922-ci ildə Göyçə, Dilican əraziləri, 1922-ci ildə Naxçıvanın 9 kəndi, 1929-cu ildə Qazaxın 5 min hektar torpaq sahəsi, Cəbrayıl qəzasının Nüvədi, Ernəzir və Tuğud kəndləri Ermənistana verilib. Bu məsələ 39 ildən sonra - 26 noyabr 1968-ci ildə Azərbaycan KP MK-nın Bürosunda müzakirə edilib və Ali Sovetin Rəyasət Heyətinin 7 may 1969-cu il tarixi fərmanı ilə təsdiq edilib (o vaxt Azərbaycanın rəhbəri Vəli Axundov idi). 1946-cı ildə Azərbaycanın 4 min hektar meşə sahəsi də Ermənistana bağışlanıb. Bu "töhfə"lərin əvəzində isə azərbaycanlılara qarşı 1918-1920-ci illərdə soyqırımı, 1930-1938-ci illərdə repressiya, 1948-1953-cü illərdə deportasiya siyasəti yeridilib.

1914-cü ildə İrəvan quberniyasında 237.684 nəfər azərbaycanlı yaşayıb. 1918-1920-ci illərdə azərbaycanlılara qarşı düşünülmüş soyqırımı və deportasiya nəticəsində 1922-ci ildə artıq bu rəqəm 72.997-yə enmişdir. Fikir verin, bizim milləti qırdıqca, azaltdıqca öz saylarını artırmağa başlayıblar. 1946-cı ildə Suriya, Yunanıstan, Livan, İran, Bolqarıstan və Rumıniyadan 50.900, 1947-ci ildə Fələstin, Suriya, Fransa, ABŞ, Yunanıstan, Misir, İran və Livandan 35.400 nəfər erməni köçürülərək Ermənistanda yerləşdirilib. Bununla bərabər xarici ölkələrdən gələn erməniləri yerləşdirdikcə Ermənistan rəhbərliyi azərbaycanlıların Ermənistandan köçürülməsi məsələsini qaldırıb. İrəvan, Əştərək, Zəngibasar, Eçmiədzin, Hoqtemberyan, Qəmərli, Qarabağlar, Vedi, Dərələyəz, Hrazdan və s. yerlərdən köçürülən azərbaycanlılar Salyan, Saatlı, Sabirabad, Beyləqan, Əli Bayramlı, Biləsuvar, Ağcabədi və Bərdə rayonlarında yerləşdirilib. Bu da silahsız, tüfəngsiz bir ölüm əməliyyatı idi. Çünki ömür boyu dağ şəraitində yaşamış insanların əksəriyyəti aran iqlimində dözməyərək dünyalarını dəyişdilər. 1948-ci ildə Ermənistandan 24.631, 1949-cu ildə 54.373, 1950-ci ildə 65.650 nəfər azərbaycanlı öz isti ocağından köçürülüb. Həmin ərəfədə orada yaşayan soydaşlarımız arasında belə bir təbliğat aparılırdı ki, sizin əsl vətəniniz Azərbaycandır. Hiyləgərliyə baxın, Azərbaycanın özündə yaşayan ermənilərin toyuğunu da qovan olmadı. Əksinə, Türkiyədən, İrandan gələn ermənilər Dağlıq Qarabağda yerləşdirildi. Bununla da istər Ermənistanda, istərsə də Azərbaycanın Dağlıq Qarabağ bölgəsində erməniləşdirmə siyasəti həyata keçirildi.

O vaxtdan yarım əsrə yaxın bir vaxt keçdi. Qarşıdan isə 1988-ci il

gəlirdi. Yeni torpaq iddiasına qədər ermənilər şəhər, rayon və kənd adlarının dəyişdirilməsi, eləcə də digər məkrli siyasətlə məşğul oldular. Bu məmləkətdə türkcə heç nə qalmasın. 1924-1959-cu illərdə 18 şəhər, rayon, 495 kənd və qəsəbə adı dövlət səviyyəsində dəyişdirilmişdir.

Basarkeçərə Vardenis, Vediyə Ararat, Hamamlıya Spitak, Gümrüyə Leninakan, Allahverdiyə Manas, Qəmərliyə Artaşat, Duzkəndə Axuryan, Karvansaraya İcevan, Göyçəyə Sevan, Cəlaloğluya Stepanavan ... adları verildi. Mənim çox yaxşı yadımdadır ki, hələ orta məktəbdə oxuyanda doğulub boya-başa çatdığım doğma Urud kəndinə "Voratan", kəndimizin aşağı hissəsində axan qədim dağ nəhri olan Bazarçaya da "Voratan" adı verdilər. Qonşu kəndlərimizdən Comərdlini Tanahat, Məlikləri Spandaryan, Ağdünü Aqitu adlandırdılar.

Bir daha tarixi faktlardan aydın olur ki, daşnakların törətdiyi toqquşmalar zamanı 1905-1907 və 1914-1920-ci illərdə təxminən yarım milyon azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilmişdir. Bu acı və dəhşətli faktı bir daha təkrar etmək lazımdır ki, 1918-ci il martın son 3 günü ərzində ermənilər Bakıda 15 min nəfər azərbaycanlını qətlə yetirmişlər.

1988-ci ilin noyabr və dekabr aylarında isə ermənilər azərbaycanlıları-oğuz türklərini kütləvi surətdə çox amansızlıqla ata-baba yurdlarından qovdular. Payızla qışın qovuşduğu o şaxtalı günlərdə 170 sırf Azərbaycan, 94 qarışıq yaşayış məntəqəsi Azərbaycansızlaşdırıldı. Bu, qovhaqov əməliyyatının özü də çox dəhşətli tərzdə həyata keçirildi. Dağda-daşda qurda-quşa yem olanları, şaxtada donanları hələ demirik. Dörd rayondan olan 229 nəfər azərbaycanlı min bir əzabla qətlə yetirildi. Kirovakanda 12 azərbaycanlı diri-diri yandırıldı. Quqarkda körpələri boruya dolduraraq ağzını qapadılar. Qərbi Azərbaycandan azərbaycanlıların qovulması prosesinin başa çatdırılması gününü isə ermənilər milli bayramları kimi xüsusi şadlıqla qeyd etdilər.

Azğınlaşmış vəhşilərin ürəyi soyumadı. Azərbaycanın kənd və qəsəbələrini işğal etdikcə, 20 Yanvar fəlakətini, Xocalı soyqırımını törətdikcə nəfəsləri genişləndi, iştəhaları artdı. Çünki bu xəbis millətin burnu ovulmadı, başı kəsilmədi...

Son 200 ildə ermənilərin başımıza gətirdiyi fəlakətlərlə, soyqırımla





bağlı cildlərlə kitab yazmaq, filmlər çəkmək olardı, amma nədənsə həmişə böyüklük bizə qalıb. Ya susmuşuq, ya bağışlamışıq. Bu hərəkətimiz də özümüzə baha başa gəlib. Minillik yurdlarımız əlimizdən gedib, soydaşlarımız zülmə, əzaba, qırğına məruz qalıblar.

Dünyanın tanıdığı sərhəd və hədlər daxilindəki torpaqlarımızın işğaldan azad olunmasından danışırıq, bəs Qərbi Azərbaycandakı dədə-baba ocaqlarımız? Nə acılar ki, biz susduqca qarı düşmənin iştəhası daha da artıb. İndi də Goranboydan, Naxçıvandan, Qarsdan, Ərdahandan danışır. Quru rəqəmlərin dili ilə desək 1988-ci ildə Qərbi Azərbaycandan 300 min soydaşımız didərgin edildi, amma bu, orada qeydiyyatda olan insanların siyahısıdır. Əslində o 300 min əhalinin 300 mindən də çox qohum-qardaşı, oğlu-qızı ayrı-ayrı yerlərdə, ölkələrdə, şəhərlərdə müvəqqəti yaşayırdılar, təhsil alırdılar. Bəs onların taleyi?

Ermənilərin uzaq keçmişini araşdıranda dəhşətə gəlirsən. Əslində Hindistandan gəlmiş qaraçı tayfalarından olan törəmələrdir. Talehsizliyə bax ki, rus imperiyasının məqsədyönlü siyasəti nəticəsində bu soy-köksüz millət Qafqazda dövlət yarada bilmişdir. Qamarladıqları ərazilər isə onlara bəs etmir. Qanlı caynaqları hələ də uzanmaqdadır...

Mən anayam, Qarabağ savaşında neçə əzizimin şəhidlik qürurunu duyuram, nisgilini, ağrı-acılarını çəkirəm. Müharibənin nə demək olduğunu yaxşı bilirəm. Heç bir insan savaş istəməz, o da ola ana... Amma qarşıdakı ilan səni çalmağa hazırdısa, ya onun başını əzmək, ya da onu öz yuvasına qədər qovmaq gərəkdir. Başqa çıxış yolu görmürəm.

**2000.**

## YADDAŞIMIZIN SƏHİFƏLƏRİ

İki əsrdə ermənilərin xalqımızın başına gətirdiyi fəlakətlər 1988-ci ildə sonuncu repressiya ilə nəticələndi. Noyabrın axırı dekabrın əvvəllərində - cəmi iki həftə ərzində soydaşlarımızı Qərbi Azərbaycandakı dədə-baba ocaqlarından amansızcasına qovdular. Bu ağır və məşəqqətli günlərdən 19 il keçir. Yaralarımız sağalmaq bilmir. Çünki Ermənistan adlanan yerdə baş qaldıran torpaq iddialı "əjdaha" böyük Azərbaycanımızın 20 faiz torpağını qanlı dişlərinin arasında sıxmaqdadır. Bir milyondan artıq qaçqınımızın gözləri vətənə gedən

yollara dikilib. Hələ də dağlarımızın başı dumanlıdır. Hələ də doğma yerlərimiz isti hənirtiyə möhtac qalıb. Çox qəribə və ya bəlkə də təbii bir hissdir. Amma elə qəmlidir ki, nisgilini çəkmək olmur. Nə vaxt doğma yurdun, el-obanın adını eşitsəm ürəyim soyulur. Özümdən asılı olmayaraq fikirlərim çox uzaqlara qanadlanır. Uşaqlığım keçən yerlər, gəncliyimin ən qızıl çağları qalmış doğma ocaqlar bütün dağı-dərəsi ilə üstümə yeriyir. Bu qəfil "görüşün" təsirindən az qala havalanıram. Özüm öz suallarımdan təngə gəlirəm: "İlahi, belə də dərd olar? Doğma el-obana gedə bilməyəsən?". Və nə qədər bu əzici suallarla yaşamaq olar? Bax, onda yaddaşın yaralı səhifələri çevrildikcə gözlərimin önündə Qərbi Azərbaycan elləri apaydınca dayanır. Bax bu da mənim həsrətindən üzüldüyüm Zəngəzur. O yerlərin həsrəti bizi dirigözlü öldürür. Bircə onunla təsəlli tapırıq ki, hələ qəlbimizdən çıxartmamışıq. Hələ onu unutmamışıq, hələ...

Zəngəzurdakı dağ, çay, yaylaq, yaşayış yerlərinin əvvəlki adlarının türk və albanca olması özü sübutdur ki, bu yerlərdə heç vaxt ermənilər yaşamamışlar. Dəfələrlə aparılan arxeoloji qazıntılar, eləcə də bir sıra tədqiqatlar təsdiqləyir ki, XVIII əsrə qədər bu yerlərdə erməni-filan olmayıb. Əslində Zəngəzurun ən acınacaqlı dövrü XVIII əsrin sonu XIX əsrin əvvəllərində rus imperiyası Qafqaza daxil olduqdan sonra başlayıb. İrandan gəlmə ermənilərin Zəngəzurda və Qarabağda yerləşdirilməsi ilə xalqımızın faciəsinin əsası qoyulub. Bu işdə Rusiyanın İrandakı səfiri Qriboyedovun da böyük rolu olmuşdur. Yazılarımda onun "fövqəlbəşər" xidmətlərindən dəfələrlə söz açmışam. Həmişə yadelli basqınlara qarşı mərdliklə sinə gərən Zəngəzur mahalının cəngavərləri ağıllarına belə gətirməzdilər ki, yalançı göz yaşlarına, "zavallı" görkəmlərinə inanaraq torpaqlarında yer verdikləri, çörəklərinə, sularına, təmiz havalarına şərik çıxartdıqları ermənilər hansı namərdlikləri törədəcək, vəhşiliklərə yol verəcək, xəyanətlər həyata keçirəcəklər. Azərbaycanın Cənub Qərbində yerləşən Zəngəzur mahalı bir neçə bölgədən ibarət idi: Mehri, Zəngilan, Qubadlı, Laçın, Qafan, Gorus, Qarkilsə (Sisian), Dərələyəz. Zəngəzurun ən gözəl bölgələrindən biri isə Qarakilsə (Sisian) idi. Bu bölgənin Vağədi (ən qədim alban kəndi) kəndində anadan olmuş, ömrünün sonuna qədər ermənilərin iç üzünü açan, onlara qarşı mübarizə aparan və bu mövzu ilə əlaqədar şəxsi arxivində zəngin materiallar qalan Əli Nəcəfzadə müəllifi olduğu "Vətən həsrəti"





kitabının çap sevincini görməsə də, biz bu qiymətli sənədlər toplusuna görə ruhuna duaçıyıq. Çünki doğma yurdumuz, yuvamız haqqında bu kitabdan öyrənəcəyimiz bir çox qiymətli faktlar var. Çox qədimdən bölgədəki kəndlər hamısı alban və türk tayfalarına məxsus olub. Mənim heç yadımdan çıxmaz ki, 20 il bundan əvvəl Bərdədə bir kişi Sisiandan olduğumu biləndə ağladı. Təəcübləndim. Söylədi ki, mən də ordanam. Bizim kəndin camaatından salamat qalan yeganə mənəm, "Hansı kənddənsiniz" sualıma "Qaraməliklidənəm" cavabını verdi. Evdə valideynlərimdən soruşanda aldığım cavabdan xeyli mütəəssir oldum. O kənd çoxdan Stepandariyandır. O Stepan ki, sonradan məlum olacaq ki, Bakıda, Qubada, Şamaxıda millətimizin kütləvi şəkildə qətlə yetirilməsinin təşkilatçılarından, tayqulaq Andronikin adamlarından biri olub. Bax bu faktları və rəqəmləri təsirli epizodlarla oxuculara çatdıran Əli Nəcəfzadə yazıb: "Tarix boyu erməni dövləti olmayıb. Onlar bu niyyətlərinə məhz 1918-ci ildə nail olublar. 1920-ci ilin dekabrında sovet imperiyasının daxilində ermənilərə daha geniş imkanlar verildi. Onlar üçün yeni-yeni ərazilər ayrıldı. Bu əraziyə Zəngəzur mahalının Mehri, Qafan, Gorus, Qarakilsə (Sisian) və Dərələyəz bölgələri verildi".

Yenicə dövlət olmuş Ermənistan haqqında Əli Qəzənfər oğlu yazırdı: "O zaman bu dövlətdə ərazinin 93 faizi Azərbaycan adları idi. Əhalinin 64,1 faizi azərbaycanlı, 34,6 faizini erməni, 1,3 yezdi kürdləri təşkil edirdi. Dövlətin mərkəzində (İrəvan) təqribən 67 faiz Azərbaycan türkləri yaşayırdı. Zəngəzurun Ermənistana verilməsində Mikoyanın da xüsusi rolu olmuşdur. 1928-ci ildən başlayaraq ərazidə olan qədim türk adları dəyişdirildi".

## BİR QƏDƏR DƏ QARAKİLSƏ (SİSİAN) HAQQINDA

Əvvəlcə - 1920-ci ildən 1936-cı ilin dekabrınadək Gorusun tabeçiliyində olub. 1936-cı ilin dekabrından müstəqil rayon adlandırılıb. Qarakilsə, yəni indiki Sisian hər tərəfdən hündür dağlarla əhatə olunmuş, dəniz səviyyəsindən 2300 metr hündürlükdə səfalı bir çökəklikdə yerləşir. Təqribən 1700 kvadrat kilometrdən çox sahəni təşkil edir. Ərazisində yüksək dağ zirvələri - İşıqlı, Əriməz, Qısır dağ,

Salvartı, Qırxqız, Qazançı vardır. Bazarçay bölgənin ərazisini iki yerə bölür. 1905-ci ilə qədər ərazidə 76 kənd olub. Onun 61-i türk tayfalarına məxsus olub, qalanı albanlara. Təəssüf ki, 1905-ci ildə erməni daşnakları o kəndlərin əksəriyyətini Yer üzündən sildilər. Və nəyə görə bu bölgənin adı Qarakilsə olub? Həqiqətən də bölgədə bu günə kimi duran bir Qarakilsə var. Albanlara məxsusdur. Məhz həmin kilsəyə görə bölgəyə Qarakilsə deyirmişlər. XVI əsrdən sonra albanlar bu ərazini tərk edib getsələr də onların inamının təcəssümü olan kilsələr bu günə kimi qalırdı. Yaşlı ağsaqqalların söylədiklərinə görə Babək özü də bu bölgədəki Şəki kəndində olub. Hətta bölgənin ən qədim kəndi olan Urudda möhtəşəm bir qala var ki, adına Babək qalası deyirlər. Bu bölgəyə ermənilər 1813-cü ildən başlayaraq İrandan gəlmişlər. Və bu proses 1948-ci ilə qədər davam etmişdir. 1988-ci ildə bölgədə Urud, Ağdü, Qızılcıq, Şıxlar, Sofulu, Murxuz, Comərdli, Ərəfsə (sırf azərbaycanlı), Vağədi, Şəki və Dəstəyird qismən azərbaycanlı kəndləri qalırdı. Onları da bölgədən tam çıxartdılar. Ermənilər bu üstünlüyü ələ aldıqdan sonra İşıqlı dağı İşğan, Bazarçayı Voratan, Urudu Voratan... və s. adları kobudcasına erməniləşdirdilər. Doğma yerlərimiz haqqında acılı xatirələr yazan müəllif yadlar tapdağında qalmış kəndi Vağədinin də tarixi keçmişindən, abidələrindən, zəhmətsevər insanlarından söz açır. Mən Urudda anadan olsam da orta təhsilimi Vağədi kəndində almışam. Ona görə də o bölgənin hər bir kəndi, cığırı, çəhlimi mənə əzizdir. "Vətən həsrəti" kimi kitabların yazılması bu gün çox vacibdir. Çünki hər kəs bilməlidir, unudulmamalıdır ki, indi Ermənistanın ərazisi hesab edilən torpaqlar tarixən bizə məxsus olmuşdur. Ataların çox müdrik bir sözü var: "İtlə dostluq et, amma əlindəki ağacı yerə qoyma". Lakin görünür ki, biz hardasa bu məsləhəti unudaraq ağacımızı yerə atmışıq və o gündən də müsibətimiz başlayıb. Yenə də Əli müəllimin sözlərinə qayıdıram: "Əzəli sərhədlərimiz tam bərpa olunacaq". Təəssüf ki, böyük ürək sahibi olan el ağsaqqalı arzularına çatmadan dünyasını dəyişdi. Və bu ruhları ilə cismləri ayrı-ayrı yerlərdə qərar tutmuş insanların vəsiyyətlərinə əməl edilməlidir. Edilməlidir ki, türkün "Kitabi-Dədə Qorqud" dastanı ilə qoşa duran qəhrəmanlıq epopeyası yaransın. Bax, onda oğuz elinin müsibəti yox olub gedəcək.

**2002.**





# İLAHİ, SƏN BİZİ O YURDA DÖNDƏR

"Biri var idi, biri yox idi, dağların qucağında, Allahın altında və umudunda, bu dünyadan, dünyanın paxıllığından, pisliyindən, naqisliyindən xəbərsiz yaşayan 110 evli bir kənd var idi. Əzəli-əbədi türk məskəni olan bu kəndin qədim qəbiristanı və onun yanında şəstlə ucalan Babək qalası var idi. Bütün kənd hər səhər qibləgah kimi oraya baxıb Salavat çevirərdi. Bu qəbiristan və bu qala kəndin tarixi idi". Bu kəndin adına Urud deyirdilər. On ildən artıqdır ki, yadlar tapdağında saralıb-solur, Azərbaycanın rayon və şəhərlərinə səpələnmiş sakinləri isə bu çəkilməz nisgilin caynağında qovrula-qovrula qalıblar. Şair Musa Urudun "Araz" nəşriyyatında çap edilmiş "Urud" kitabı təkcə əsirlikdə qalmış doğma yurdu unutmayan, onun həsrəti ilə nəfəs alan, dərdi ilə yaşayan urudlular üçün deyil, bütövlükdə damarlarında türk qanı axan hər kəs üçün çox qiymətli və əzizdir. Müəllif Qafqazda ən qədim yaşayış məntəqələrindən biri olan bu türk yurdunun timsalında itirilmiş Qərbi Azərbaycan ellərinin tarixindən, taleyindən, adət-ənənəsindən, etnoqrafiyasından, təbiətindən, dəyərli insanlarından, ziyalılarından maraqlı söhbət açır. Ana babaları Urudda torpağa tapşırılan xalq şairi Məmməd Araz yazır: "...Yer üzündə Urud var idi. O zaman o kəndin lap yanından keçən, onun bağlarını, əkin yerlərini, kövşənlərini iki yerə bölən Bazar çay da, Zor-zor bulaq da, Qaz bağı da, Babək qalası da, bəlkə də yalnız o kənddə olan iri yumurta boyda cevizləri ilə məşhur "Motalanqoz" bağları da var idi, indi də var. Lakin indi o torpağın, o kəndin sakinlərindən heç kim yaşamır Urud kəndində. 1988-ci ildə Zəngəzurun başqa kəndləri kimi Urud camatı da doğma ocaqlarını məcburən tərk etdilər".

9 fevral 1999-cu ildə Prezident Aparatında keçirilən bir iclasda EA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi Məşədixanım Nemətova öz çıxışında urudluların da sarı siminə toxundu. Hörmətli Məşədixanım yana-yana bir həqiqəti açıqladı: "...Zəngəzur Azərbaycan torpağıdır. Mən bunu sübut etmək üçün dəridən-qabıqdan çıxdım. Zəngəzurun Urud kəndindəki qəbiristanlıq böyük bir məsələnin üstünü açdı. O vaxta qədər bütün tarixçilər yazırdılar ki, islam gələndə xristian olan alban tayfaları Qriqorian xaçını qəbul edib erməniləşdi və gürcü xaçını qəbul edib gürcüləşdi.

Rəhmətlik Ziya Bünyadov "Azərbaycan VII-IX əsrlərdə" kitabında yazırdı ki, bəs bunların türkləşən, islamı qəbul edəni olmadımı, Bax, bunu Urud qəbristanlığı açdı. Orada XI-XVI əsrlərə aid qoç heykəli və sandıqca formalı qəbir daşları var idi... onlardan ikisinin üzərində yazılmışdı ki, "Min övladi ağvan", yəni biz alban nəslindənik. Qəbirüstü daşlarda isə "Quran" ayələri, hədislər, müsəlman adları yazılmışdı. Deməк, alban tayfalarının türkləşən, islamı qəbul eləyəni də olmuşdu". Məşədixanıma diqqətlə qulaq asan cənab Heydər Əliyev ona belə müraciət etdi:

- Urud kəndində olmusunuz, çox gözəl kənddir.

Məşədixanım Nemətova isə belə cavab verdi:

- Olmuşam. Kəndin qəbiristanlığının bütün şəkillərini çəkmişəm. Mənim Urud tədqiqatlarımla yaşıd olan Musa adlı bir oğlan var, o materiallardan ona verdim... Mən onlarda olanda uşaq hələ anasının boynunda idi.

İstər-istəməz bir təsəllidir ki, bütün tədqiqat və araşdırmaların nəticəsi olaraq bu gün əlimizdə doğma yurdumuz haqqında "Urud" adlı bir kitab var. Bir daha Musa qardaşımıza ürəkdən minnətdarıq ki, bizi qiyabi də olsa ünümüz çatmayan, əlimiz yetməyən beşiyimizlə görüşdürdü. Uşaqlığımız keçən o yerləri xəyalımız yenə qarış-qarış dolaşdı. Urudun bağlarını, dağlarını, kövşənlərini, məhəllə və evlərini beynimizdən keçirdik, ürəyimiz sızıldadı. Acılar ki, min dərdin dərmanı olan bulaqlardan: Zor-zordan, kəhrizlərdən, Baldırğanlı bulaqdan, Kəklik bulağından, Soltan bulağından, Cəfər bulağından... bir ovuc da su içə bilmədik. Urudun simvolu sayılan İstisuyu eləcə min bir həsrətlə xatırladıq. Kitab Urud və urudlular haqqında oxucuya məlumat verir. Bəlli olur ki, II Dünya müharibəsində cəbhədə 60-a yaxın urudlu iştirak etmişdir. Onun yarıdan çoxu bu ağır davadan geri qayıtmamışdır. İndi ermənilərin başımıza gətirdiyi fəlakətlərdə isə torpaqlarımız uğrunda həlak olan, ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülən Aqil Quliyev, Fəxrəddin Nəcəfov, şəhidlik zirvəsinə yüksələn Vaqif Tahirov, Ramin Abdullayev, Vüqar Şahverənov, Sərxan Həsənov, Fariz Gəncəliyev, Cahangir Kərimov... məhz həmin kişilərin, həmin babaların nəvə-nəticələridir.

"Urud, səndən Heydər keçdi" başlığı ilə verilən yazı kitabın çox maraqla oxunan, diqqət çəkən səhifələrindəndir. Cənab Heydər Əliyevin tələbə vaxtı dəfələrlə Urudda olmasından, uşaqlıq və gənclik





dostlarından, qohumlarından söz açan müəllif yazır: "Urudlular prezident Heydər Əliyevə əlində tükənməz imkanları olan külli-ixtiyar sahibi, rəhbər adam kimi deyil, göydəki Ay kimi, Günəş kimi, yerdəki ucalardan qarlı zirvəsi görünən uca dağlar kimi baxırlar. Və urudluların Heydər Əliyevdən umacağı da elə göydəki Günəşdən, Aydan, yerdəki vüqarlı dağdan umacaqları qədərdir. Yəni bu Günəşin istisi, bu Ayın işığı azalmasın, yerdəki bu dağın vüqarı əyilməsin, qarı ərimməsin, başını dumanlar bürüməsin".

"Qonaqlı-qaralı Urud" bölməsində XX əsrdə Azərbaycanın ictimai-siyasi, mədəni, elmi həyatında mühüm rol oynamış görkəmli şəxslərin müxtəlif vaxtlarda bu kənddə olmasından söz açılır. Xalq yazıçısı Əli Vəliyev, xalq şairi Məmməd Araz, akademiklər Həsən Əliyev, Ziya Bünyadov, Fərəməz Maqsudov, Cəlal Əliyev, əməkdar elm xadimi, professor Qulu Xəlilov, xalq rəssamı Hüseyn Əliyev və onlarca başqaları Urudda olmuş və onun barəsində müxtəlif yazılar, xatirələr yazmışlar.

XX əsr Urud ziyalılarını şərti olaraq iki yerə ayıran müəllif sovet dövrünə qədərki və bir də sovet dövründəki ziyalılar barəsində ətraflı məlumatlar verir. Urudlu olsam da, mənim üçün də yeni xəbər idi ki, bütün ömrünü Azərbaycanın istiqlalına və müstəqilliyinə, böyük Turan ideyasına həsr etmiş Mirzə Sadıq Aran (Axundzadə) 1898-ci ildə Urud kəndində anadan olmuşdur. Eləcə də Zəngəzur mahalının böyük və məşhur ziyalılarından olan Mirzə Hüseyn Tehranda və Nəcəfdə ali ruhani məktəbini bitirmişdi. Natamam məlumata görə, urudlu Mirzə Hüseyn 1906-1907-ci illərdə Cənubi Azərbaycanda Səttarxan Hərəkatının fəal iştirakçısı olmuşdur. Vaxtilə Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri olmuş Əbdülmanaf Hacıyev II Dünya müharibəsində qələbəyə dörd gün qalmış itkin düşən kapitan Məmməd Xəlilov, tarix elmləri doktoru Məmməd İskəndərov, xalq müəllimi Yaqub Tahirov və onlarca başqaları bu gün didərgin və nakam ruhları ilə Urudun özü kimi urudluların xatirəsində nisgilli bir ömür yaşayırlar.

Müharibədən sonrakı dövrdə, xüsusilə də 60-70-ci illərdə urudlu ziyalılar bir-birinin arxasınca elmin müxtəlif sahələrində zirvələr fəth etdilər: Sabir Hacıyev, Vladimir Tahirov, Qafar Həsənov, Yaqub Yolçiyev, Habil Quliyev, Sabir Tahirov, Məmmədxan Tahirov, Nadir Qəhrəmanov kimi alimlərin sorağı elləri dolaşdı.

Urudlu urudsuzlar bu gün Urudu xatirə və bioqrafiyalarında

yaşadırlar. Hər bir kəs, xüsusilə də tarixçilər və etnoqraflar üçün maraqlı olan "Urud" kitabının çox güman ki, təkrar nəşrinə ehtiyac duyulacaq. Doğrudur, Musa Urudun gərgin əməyinin, yuxusuz gecələrinin, ən başlıcası vətəndaşlıq borcunun bəhrəsi olan "Urud" əslində bir tale kitabıdır. Mənə görə isə bir qədər tamamlanmamış, yarımçıq qalmış. Çünki bizim hər birimiz o yerlərə sarı əli uzalı, dili bayatılı, könlü qubarlıyıq. Musalı, mənli, hamılıqla Allaha yalvarışlıyıq ki,

İlahi, sən bizi o yurda döndər,
İlahi, sən bizi Uruda döndər.

Və bu dönüş nə vaxt olacaq, bilmirəm, təki qismətimizə çıxsın, sonda müəllifə bir arzumu da bildirmək istərdim. Musa Urud, təbiidir ki, bu kitabı min bir əzabla, göz yaşı ilə başa vurdum. Sənə ona görə təşəkkür edirəm ki, bu əzabları bizdən çox sən çəkmisən. Oxumağa nə var ki?! Yazmaq, araşdırmaq çətinliyi öz yerində, kim bilir o yerlərlə bağlı hər daşın, dağın, çayın, çəmənin, qayanın, yolun, izin, toyun, vayın adını çəkəndə nələr fikirləşmisən, hansı xatirələr cızdağını çıxardıb? Gördüyün işsə bu əzabların müqabilində çox gərəkli və vacib olduğundan zəhmətin hədər getməyib. Bunu məzəmmət kimi yox, bir istək kimi də qəbul et ki, gərək belə bir sanballı kitabın ağırlığını tək öz üzərinə götürsən də, çapdan əvvəl onu Urudun ziyalılarına dərindən bələd olan kimsə də oxuyardı. Əgər belə olsaydı, yəqin ki, onda Urudun ilk ali təhsilli ziyalı qadını, II Dünya Müharibəsindən əvvəl İrəvanda işləmiş və dünyasını vaxtsız dəyişmiş Gülbahar Xəlilova, 60-70-ci illərdə Azərbaycan mətbuatında öz dəst-xətti olan, uzun müddət "Kommunist" qəzetində çalışan jurnalist Xudu İsgəndərov, məşhur hüquqşünas Enullah Hacıyev və bir sıra el ağsaqqalları haqqında, nüfuzlu insanlar barəsində məlumat vermək unudulmazdı. Bununla belə bu kitabın məziyyətləri o qədərdir ki, gözə dəyən nöqsanları deməyi lazım bilmədim. İnanıram ki, ikinci nəşrində "Urud" elə Urudun özünə bənzəyəcəkdir. Məmməd Araz deyir ki,

Elə qorxular var, qorxulu deyil,
Elə qorxular var, qorxuya sığmaz.





Dünyanın xəritəsində adı olmayan, lakin hər birimizin qəlbində əbədi ünvan tutmuş kəndimizi bu kitab vasitəsilə bir daha bizlərə ərməğan etməklə elə bil bizi xoflardan uzaqlaşdırdın, Musa Urud! İnan, elə kəndimizəcən yüyürmək istədim, ilin-günün bu vaxtında ana yurdun havası üçün ürəyim göynədi:

Göz yaşları varlığımı qurutdu,
Doğma yerlər ürəyimə şığıdı.
Gecə-gündüz xəyalımda Uruddu,
Ana yurdum gözlərimi sığıdı.

**2000.**

# KÖNLÜMƏ DÜŞƏN YURDUM

Yenə ilin, günün elə vədəsidir ki, qəlbimdən vətən keçir. Diş göynədən bulaqlar, yaşıl ormanlar, gül-çiçəkli dərələr, zümrüd çöllər bütün kədəri ilə üstümə yeriyir. Sanki zirvəsi qarlı dağların daşı-qayası üstümə tökülür. İlahi, bu, nə talehdir?! Doğulduğun kəndə gedə bilməyəsn, qədim Oğuz yurduna üz tutmayasan. Ehey! Hardasınız, Qərbi Azərbaycan elləri?! Sizin də könlünüz belə göynəyirmi?

Ulu Tanrım, üz tutmuşam adına,
Ürəyimi yaralayan zülüm var.
Mən yurdsuzu salarsanmı yadına?
Xəyalımda dağılmış bir elim var.

O elin adı Zəngəzurdu. O Zəngəzur ki, uca-uca dağlarının ovcunda bir kənd var idi. Adına Urud deyirdilər. Qədim yaşayış məskəni və tarixi abidələrlə zəngin olduğundan, alimin diqqət mərkəzində idi. O Urud ki, ziyalısı ümumi əhalisindən çox idi. O Urud ki, şan-şöhrəti hər yeri bürümüşdü. O Urud ki... Bəs hardan əsdi bu soyuq və ölüm qoxulu küləklər?!

1988-ci ilin yazından kəndin rahatlığı yoxa çəkildi. Günlərin birində erməni "saqqallılar"ı Uruda yığışaraq camaatı kənd klubuna topladılar: "Siz bu kağızlara qol çəkin ki, Dağlıq Qarabağ Ermənistana

birləşdirilsin. Bizim sizinlə işimiz olmayacaq". Bu gözlənilməz təklifə urudlular dərhal etiraz etdilər: "Heç elə də iş olar, dərəbəylikdir, Dağlıq Qarabağ Azərbaycana məxsusdur". Elə o gündən də Urudun, ümumiyyətlə, azərbaycanlılar yaşayan bütün kəndlərin, şəhərlərin qara günləri başladı. Kimsə ermənilər sıx olan yerə gedə bilməzdi. "Saqqallılar" tez-tez azərbaycanlılar yaşayan yerlərə hücumlar edir, ev-eşiyə od vurur, bağ-bağatı talayır, insanlara "xox" gəlir, hamını hədələyirdilər. Yazıq anam sonralar mənə danışırdı ki, qorxudan gecə evimizdə də yata bilmirdik. Gecələr dağa-daşa çəkilirdik ki, birdən ermənilər hücum edib bizi qırarlar. Bu səksəkəli günlərdə Bakıda yaşayan biz ziyalılar dəfələrlə o vaxtkı MK-nın rəhbərliyinə, Hərbi Komissarlığa, Ali Sovetə, müxtəlif nazirliklərə, bir sözlə, üzümüz tutan bütün rəhbər vəzifədə çalışanlara müraciət etdik: "Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın həyatı təhlükədədir". Bunu söyləməyə əlimizdə kifayət dərəcədə əsasımız var idi. Yollar bağlanmışdı, gediş-gəliş kəsilmişdi, telefon əlaqəsi zorla alınırdı. Bir tərəfdən də Qərbi Azərbaycandan vahiməli xəbərlərlə bərabər qolu, qıçı, qulağı kəsilmiş insanlar gəlirdi. Barıt çəlləyinə dönmüş günlərimizin qəfil alışmağı duyulurdu. Təəssüf ki, bizi eşidən olmadı. Bəlkə də vaxtında tədbir görülsəydi, Qərdi Azərbaycanda yaşayanlar bu faciəyə düçar olmazdı. Həmin həyəcanlı günlər mənim heç vaxt yadımdan çıxmaz. Çünki mənim anam, bacım, qohum-qardaşım məhz orada qalmışdılar. Heç bir şey edə bilmirdik. Gecə telefonla bir kəndlimizi araya bildim. Üstüörtülü şəkildə iki kəlmə eşitdim: "Kömək edin". Amma acılar olsun ki, ölkə rəhbərliyinin laqeydliyi ucbatından əlimizdən heç nə gəlmədi. Bir də xəbər tutduq ki, əhalini harasa apardılar.

... O gün ilk dəfə urudlular səhərin necə açıldığını, günəşin necə çıxdığını görmədilər. Çünki kənddə qəfil qasırğa qopmuşdu. Səsdən, qışqırtıdan, söyüşdən qulaq tutulurdu. İllər boyu həyatimizdə sülənən "yan"lar bir-bir qapıları təpiklə açaraq insanları-azərbaycanlıları sürüyə-sürüyə, döyə-döyə, min bir əzab verə-verə üstüaçıq maşınlara doldurdular. Soyuğun qılınc kimi kəsdiyi məqamda bu biçarələr əyninə paltar, ayağına ayaqqabı da geyə bilməmişdilər. Yazıq anam danışırdı ki, "saqqallılar" bizi dərəyə-qarın içinə tökəndə ancaq ölümümüzü fikirləşirdik. O dərədə ermənilərin törətdtkləri dəhşəti sözlə ifadə etməyə acizəm. Silahsız, himayəsiz arvad-uşağı təpikləyən, yaşlı qadınları döyən vəhşiyə nə ad axtarasan?! O biçarələrin dərədə qarın





içində donub ölməmələri, salamat qalmaları üçün biz həmişə göydə Allaha, yerdə bir nəfərə minnətdarıq. Bu böyük və fədakar insan Şahbuz rayon xəstəxanasının baş həkimi Taməddin Quliyevdir. Urudda doğulub boya-başa çatmış bu cəsur eloğlumuz 1966-cı ildə Tibb İnstitutu bitirəndən Şahbuzda yaşayır. Onun həkim kimi fəaliyyətindən bütün şahbuzlular razılıq edirlər. Onun necə bacarıqlı tibb işçisi olduğu barədə bəlkə də ayrıca bir məqalə yazmaq lazımdır. Amma məni bu gün onun haqqında söz deməyə vadar edən başqa bir səbəbdir.



Hərdən mənə elə gəlir ki, bu ucaboylu, pəhləvan cüssəli kişi nağıllardan qopub gəlmiş bir qəhrəmandır. Çünki o hay-həşirsiz fəaliyyəti və fədakarlığı ilə əsl igidlik nümunəsi göstərmiş bir vətən oğludur. O günləri xatırlayanda elə kövrəldik ki, bir müddət hər ikimiz özümüzə gəlmədik. Handan-hana söhbətə belə başladıq: "Özün xəbərdarsan o günlərdən. Rahatlığımız necə pozulmuşdu. Bir də xəbər tutdum ki, kəndimizin sakinlərini harasa çıxarıblar. Bakıdan mənə çatdırdılar. Öz fəhmimin gücünə bildim ki, onları mütləq Şahbuz tərəfdəki dərələrin birinə tökərlər. Çünki Sisiana yaxın olan rayon Şahbuzdur. Buraların da yoluna, təbiətinə yaxşı bələdsən. Elə ki, noyabr, dekabr ayları gəldi, dağı-dərəni buz tutar, nə maşın işləyər, nə də gediş-gəliş olar. Amma içimdə tufan qopmuşdur. Beş-on nəfəri başıma yığıb qarlı dağlara aşdıq. Gözümə heç nə görünmürdü. İnan ki, içimdən hayqırtı özü gəlirdi. Məndən qopan nəriltidən özüm dəhşətə gəlirdim. Əgər Ərikli adlanan dərədə bizimkiləri tapmasaydım, bilmirəm nə olardı. Üzü Sisiana sarı gedib yəqin ki, o dağaları əllərimlə boğacaqdım. Amma o anda buz bağlamış insanlar məni saxladı..." yenə də fikrini tamamlaya bilmədi. Dolan gözlərinə baxdım. Ürəyimdən nələr keçdi. Qoluna qurban, igid! Sən anamı beş-altı saat o qolların üstündə Şahbuza yetirmisən. Qeyrətinə qurban, igid! Sən 127 nəfəri soyuqdan ölməyə qoymamısan. Ötən seçkidə Naxçıvan Muxtar Respublikası Ali

Sovetinin deputatı olmusan. Geniş ictimai fəaliyyətin var. Səni bütün Naxçıvanda mübariz, sözü bütöv, ötkəm, bir az da tərs, inadkar adam, bacarıqlı həkim və nəhayət, gözəl ailə başçısı, ata kimi tanıyırlar. Respublika prezidentinin fərmanı ilə bu yaxınlarda layiq görüldüyün "Şöhrət" ordeni də sənin halalındır. Çünki sən bu şöhrəti öz əməlinlə, məramınla, əqidənlə qazanmısan. Yadımdadı, sən Şahbuzda-rayon mərkəzində işləsən də, kənddə-Arıncda yaşamağı üstün tutdun. Və neçə azərbaycanlı gənci də o kənddə yaşamağa apardın. Çünki vaxtilə əsrin əvvəllərində bu dilbər guşəni ermənilər zəbt edərək orada qərar tutmuşdular. 70-ci illərdə mən Şahbuzda olanda bir erməninin dilindən özüm eşitmişdim: "Taməddinin Arınca gəlməsi ilə cəhənnəmin qapısı üzümüzə açıldı". Sən daşnaklara bələd idin. Bu səbəbdən də fürsət tapanda dığalara öz yerlərini göstərə bilirdin. Elə Sisianın özündə də ermənilər səndən tük salırdılar. Urudda can məlhəmi, dərd-çarəsi olan bir İstisu var idi. Yayda ətraf kəndlərdən, eləcə də uzaq yerlərdən gələnlər olardı. Ümumiyyətlə, yayda Urud Bombeyə dönərdi. Qonaq-qara əlindən tərpənmək olmazdı. Tez-tez bizim cavanlarla erməni dığaları arasında dava-dalaş düşərdi. Amma bir neçə igidimiz var idi ki, onlar kənddə olanda ermənilər qorxudan biz tərəflərə üzükməzdilər. Daşnakların ehtiyatlandığı insanlardan biri də sən idin. 1989-1990-cı illərdə sənin çəkdiyin nərə onların da qulağına çatmışdı. O vaxt sənə arxa duran olmasa da, ermənilər hər an sənin qisas alacağını gözləyirdilər. Çünki onlar yaxşı bilirdilər ki, sən vaxtilə ermənilərə qan udduran Cəfərqulunun, Mahmudun nəvəsisən. Əliş kimi qorxmaz, mərd və bir kişinin oğlusan. Hətta başına da qiymət qoymuşdular.

Mən indi sənin kimi vətən daşı olan bir vətəndaş oğlunun nə çəkdiyini gözəl bilirəm: "Partlayıram, hərdən Salvartıya qalxaraq kəndimizə sarı baxıram. Bir qalanın başı görsənir, bir də kəndimizin yuxarı hissəsi... Çətindi. Min il də başqa yerdə yaşasaq, ruhumuz vətəndədi".

Ruhu vətəndə - doğulduğu, böyüdüyü Zəngəzurda olan qardaşım! İnsan beş addımlıq ömür yolunda bütün itkilərə hazır olur. Bilir ki, onun qapısını nə vaxtsa ata, ana yoxluğu döyəcək, əmi, dayı nisgilini çəkəcək. İnsan vətən itkisinə hazır olmur. Bu, elə ağır bir itkidir ki, onun yarası da qaysaq tutmur. Qərbi Azərbaycan indi məhz böyük Azərbaycanımızın ən ağır dərdinə çevrilib. Biz nəsil ki, o torpaqda doğulmuşuq, o torpağın havasını alıb, suyunu içmişik, o yerlər





yuxumuzdan çəkilməz, ürəyimizdən çıxmaz. Ona görə də bu məsələlərin hamısını biz həll etməliyik. Biz vətənə dönməliyik. Çünki o torpağı bizə babalarımız miras vermişdilər ki, gələcək nəslə salamat ötürək. Borcumuz odur ki, bu mirası düşmən pəncəsindən geri alıb gələcək töhmətdən, qınaqdan özümüzü xilas edək.

"Şöhrət" ordenli Həkim Taməddin Quliyevin bir cümləsi yaddaşıma yazıldı: "Vaxtilə öyündüyümüz ata-babalarımız olub. Bəs biz necə, gələcək nəslə bu fəxri, qüruru ötürə biləcəyikmi?!" Əlbəttə, oğul çağıran vətənin hər daşında mamır olmağa hazır igidlərimiz var. Bir himə, bir çağrışa bənddilər ki, düşmən üstünə yerisinlər. Bir də qan tökməyə nə var ki?! Oğul odur ki, tökülən qan izini kəssin. O mübarək günün həsrətilə Flora Xəlilzadə.

2001.

## VEDİNİN YANI DAĞLAR, - CAN SIZLAR, ÜRƏK AĞLAR...

Yuxularımızdan çəkilməyən, baxışlarımızdan asılı qalan, əlimiz yetməyən, ünümüz çatmayan, eləcə kirpiklərimizdə yaşa dönüb hər gün gözlərimizdən tökülən yurd yerlərimiz: Göyçə, Dərələyəz, Zəngəzur, Vedibasar... Sizi acı kədər, şirin bal kimi şeirimizə, sözümüzə qatsaq da, nə özümüzə qaytara, nə özümüz sizə qayıda bilirik. Qoynunuzda olanda nə bəxtəvər idik. Bilməzdik ki, vətəndə böyüyə-böyüyə vətəndən qaçırıq. Böyük şəhərlərdə oxumağa, işləməyə, yaşamağa Vətən bizim içimizdə idi. Heç ağlımıza gələrdi ki, bir gün onu itirərik? Adi sözdən alınardıq, soyuq münasibətdən dərd bağlayardıq, amma əslində bizi gözləyən dəhşətlərdən xəbərimiz yoxmuş. Səni itirəndə biz anladıq ki, vətən həsrəti nə deməkmiş?! Sən demə, ayrılıqdan doğulan məhəbbət daha dərin, daha təsirli, daha güclü olurmuş.

İnsan həyatda bütün itkilərə hazırdır. Bilirsən ki, gec-tez qapını ata itkisi, ana itkisi döyəcək. Amma vətəndən yetim qalmağa adam heç vaxt hazır olmur. Vətənsizliyə dözmək çox ağırdır. Bu yara qaysaqlanmır belə. Yurd itirmək ölümdən də betərmiş. Qoy bəziləri məndən inciməsinlər, hərdən elə bilirəm ki, bu ağır dərdi yalnız

həmkarım Telli Pənahqızı ilə birlikdə başımızın üstünə qaldıraraq qoşa qanad kimi harasa çəkirik. Bəlkə yerli-dibli üzməyə, yox etməyə, ya bəlkə də çəkirik ki, ulu Tanrı səsimizi eşidə:

Hər kəsi yurdunda Daş elə Allah,
Yük əyəndə Daş qürbətə düşərmiş.

Dərd ağlamağa gücümüz var, amma kaş ki, bu ağır nisgilin yükünü daşımağa dözümümüz çataydı. Çataydı ki, itirdiyimiz torpaqların xəyalımızdakı varlığının söz-söz, misra-misra şəklini çəkə biləydik. Bir az da xatirələr bizə dinclik verəydi. Yolunu, izini itirdiyimiz vətənə bir məktub göndərəydik. Dağlar oxuyardı bu naməni, dərələr, meşələr, o güllü obalar eşidərdi bizi.

Ana yurdum yaman düşüb beynimə,
Istəyirəm məktub yazam özümə.
Bu ayrılıq heç gəlməzdi eynimə
Yuxu kimi tərsə yozum özümə.

Telli ilə tez-tez xatirələrin işığında tarixin toz basmış gündəliyini vərəqləyirik. İçimizdən keçən ağrı yazılarımızda göyərir: Qərbi Azərbaycan böyük Azərbaycanın bir hissəsi idi. Ermənilər onu elə vəhşiliklə qopardılar ki, bu ağır yara hələ də qan verir. Bu anda istərdim ki, Telli xanımın "Ayrılıqdan sonra çəkilmiş şəkillər" adlı yeni kitabının ilk cümlələrini oxuyaq: "1920-ci ildə təpədən dırnağa silahlanmış daşnak ordusu Vediyə girə bilmədi. Erməni yaraqlılarına qarşı ölüm-dirim mübarizəsi getdi. İnadla vuruşan igidlərlə bərabər qadınlarımız da silah götürüb səngərlərə atıldılar". Kim idi bu cəsur qadınlar? Xalı bibi, Xeyransa, Nabat, Zərnişan Göyçə qızı, Qaratel, Atqızbəs, Tellibəyim, Bilqeyis, Qara Səkinə, Fatma... Ruhu perik düşmüş bu anaların dərdi indi çəkilməzdir. Çünki 1988-ci ildə elimizə arxa duran olmadı. Bu dəfə düşmən elə fəndkir tərpəndi ki, Qərbi Azərbaycanda yaşayan ağır ləngərli ellərimiz bir quş kimi öz yuvalarından uçdular. Bu qəfil sarsıntıya, ədalətsizliyə ilk etiraz edən unudulmaz yazıçımız Fərman Kərimzadə oldu. Lopabığ, gursaçlı, ucaboylu, nur çöhrəli Fərmanımızın həssas ürəyi millətimizin başına gələn bu bəlaya, bu müsibətə dözmədi. Vedidən gələn soydaşlarımızla görüş zamanı bir fədakar yazıçımız da belə keçindi. Müəllif haqlı olaraq bildirir ki, elini-obasını canından artıq sevən, qələmi ilə tariximizin yaralı dövrlərini yazan, "Qarlı aşırım", "Xudafərin", "Qoca





qartalın ölümü", "Təbriz namusu" kimi əsərləri ilə ədəbiyyatımızda möhtəşəm bir yer tutan, nakam taleli, cəmi 52 il ömür sürmüş Fərman Kərimzadədən həm də bir bayatı yadigar qaldı:

Vedinin yanı dağlar,
Ürəyi, canı dağlar,
Burda bir el var idi
Siz deyin hanı, dağlar?

Bir vətən harayı, bir könül yanğısı kimi bu bayatı hələ də sinəmizə köz basmağındadır.

Telli Pənahqızı yeni kitabında bizi müxtəlif sənət sahiblərindən, lakin vətənpərvərlikdə, mərdlikdə Vedi dağları kimi uca və möhkəm olan insanlardan söz açır. Müəllifin bu kitabını Vedinin bədii ensiklopediyası da adlandırmaq mümkündür. Görkəmli yazıçımız, sevimli müəllimimiz Əzizə xanım Cəfərzadə öz tələbəsinin "Ayrılıqdan sonra çəkilmiş şəkillər" kitabını çox bəyəndiyini, vətəndaşlıq motivlərini xüsusilə qiymətləndirdiyini söylədi. Bu kitabı vedililərin görüş yeri də adlandırmaq olar. Əgər bir kitabda 100-ə yaxın insanın taleyi boylanırsa və onların da qibləgahı ancaq doğulduqları vətən torpağı- Vedidirsə, başqa hansı ad barəsində düşünəsən.

Yağı pəncəsində qalan yurdlarımız haqqında belə kitabların bu gün yazılması əhəmiyyətlidir. Ona görə yox ki, oxuyub kövrələk, xatirələrə dalaq. Məhz belə kitablar bizim yazılı yaddaşımızdır. Elə bir yaddaş ki, onun güzgüsündə dünənimizi görür, bu günümüzdən xəbər tutur, sabahımız haqqında fikirləşirik. Düşünürük ki, Qərbi Azərbaycan torpaqlarının alınması gələcəyin işi deyildir. O yerlərə məhz o adamlar qayıtmalıdır ki, onlar hər gecə doğma yurdlarını öz yuxularında görürlər. Bundan başqa gərək oxucular da unutmasınlar ki, səmasında bulud, torpağında ağac, dağında quruca ot, qayasında mamır olmağa hazır olduğumuz böyük vətənimizin dilbər guşələri yağı pəncəsindədir.

Kaş bircə dəfə,
Əlim sənə dəyəydi,
Dilim "Salam, Vətən" deyəydi,
Sığal çəkəydim gülünün ləçəyinə,
Üzümü sürtəydim daşına, çiçəyinə,
Yollarının tozu olaydım, Vətən!..

Allah insaf versin Telliyə. Dilimin ucundan çəkdiyi misralarla məni yaman kövrəltdi. Görəsən erməni daşnaklarının başımıza gətirdiyi müsibətlər bizə dərs olacaqmı? Çox düşündüm, daşındım və Tellinin verdiyi bir suala da cavab axtardım-nə idi Vedi mənim üçün? Cavabı tapmamış könlümdən başqa suallar keçdi. Bəs Zəngəzur, Urud mənim üçün nə idi? Bəs Qərbi Azərbaycan bizim üçün nə idi? Yeni kitabdan da oxudum bu cavabları: "Bu an gözlərimdəki göynərtini, boğazımdakı qəhəri, ürəyimdəki sızıltını ancaq o kəslər duya bilərlər ki, onlar da mənim kimi uşaqlıq illərinin kövrək xatirələrini izi yaşayan doğma yurda dönmək, o o yerləri təkrar görmək imkanından məhrum olsunlar". Bu doğma hisslərin, bu tanış dərdin qəlbimdə yaratdığı tufanın əks-sədası kimi "Ayrılıqdan sonra çəkilmiş şəkillər"i vətəndən gələn bir namə kimi gözlərimə sıxdım. Oradan boylanan narahat baxışları, nakam insanların gileylərini duydum. Başımın üstündə anamın ruhunu gördüm. "Yollar açılsa, bağımızdan bir ovuc torpaq gətirib qəbrimə tökərsən". Ulu Tanrı, sən bizi ananın və vətənin qarşısında üzü qara eləmə. Dönməliyik o yurda, qayıtmalıyıq o yerə.

**2001.**

## QARA TUFAN

Elə ki qışın buz bağrı yarılır, qar altında günəşə boylanan zərif bənövşələrin qısa ömrü başlayır, onda bağrımın başı göynəyir. Və 15 ildir ki, qəlbimdə dərin iz salmış bu həsrətimlə, kədərimlə qol-boyun yaşayıram. Hava elə bil ki, mənim ruhumdan tutaraq doğulduğum bir guşəyə - qədim Zəngəzurun dağlar qoynunda qərar tutmuş Urud kəndinə çəkir. Hər il keçirdiyim bu zərif və kədərli duyğuların ağırlığında əzilə-əzilə vətən üçün, doğma elim-obam üçün qəribsəyə-qəribsəyə əlçatmaz, ünyetməz uşaqlıq illərimi xatırlayıram. Rayonumuzun mərkəzində (indi adına Sisian rayonu deyirlər. Əslində əvvəlcə adı Qarabulaq olub, ərazisi uzandıqca gedib bir qara kilsəyə çatıb. Bütövlükdə adını dəyişərək Qarakilsə deyiblər. Sonra da türklərin qənimi olan Sisianovun şərəfinə rayonun adı Sisian adlandırılıb) çiçək bayramı keçirirdilər. Bütün məktəblilər dağa, dərəyə səpələnərək həvəslə gül-çiçək toplayaraq bu mərasimdə iştirak edirdilər. Bizi dəstəyə düzərək bir abidənin önünə apardılar. Üzərində





ermənicə yazıldığından abidənin kimə məxsus olduğunu anlamadım. Müəllimdən öyrəndim ki, bu abidə genosidə məruz qalmış erməni xalqının "ağrı-acıları"na ucaldılıb. Uşaq ağlımla bəzi şeyləri dərk etməsəm də, nənəmin uzun qış gecələrindəki bayatılarında babamın, üzünü görmədiyim dayılarımın kafirlər (yəni ermənilər) tərəfindən qətlə yetirildiyini bilirdim. Bundan başqa, Gorus (əslində Gursu) şəhərində bir erməninin öz dilində mənə sualını da xatırlayıram: "Hayes?". Və mənim erməni dilindəki cavabım: "Çe, türkes". O "Harsın"ın eybəcər sifətindəki ironiya ox kimi ürəyimə sancıldı. Sanki onun varlığına ağır bir söyüş göndərmişdim. Və birdən-birə min əziyyətlə yığdığım gül dəstələrini belə bir riyakar əməllərin bəhrəsi olan abidənin üzərinə qoymağı körpə varlığıma sığışdıra bilmirdim. Nəfəsimlə lalələrin ləçəyini üfürdüm. Ovcumda bir top qara nöqtələr qaldı. Onu da əlimlə sıxaraq ovcumda saxladım. Əslində mən ağlıyırdım. Heç bir həqiqəti bilməyə-bilməyə. Bir uşaq fəhmi ilə duyurdum ki, dəhşətli bir yalanın, şərin önündə dayanmışım.

1967-ci ildə rayonu qəribə bir ab-hava bürüdü. Ermənilər tayqulaq Andronikə heykəl qoymaq istəyirdilər. Rayonun Şəki kəndində yaşayan azərbaycanlılar etiraz ediblər. Baba Orucov adlı ağsaqqal bir kişi öz qohum-qardaşlarını, tay-tuşlarını başına yığaraq şikayət edib. Söyləyiblər ki, biz öz gözümüzlə görmüşük ki, Andronik adamlara necə zülm edib, azərbaycanlı qadınlarının kürəyinə qaynar samovarı bağlayaraq onların başına hansı məşəqqətləri gətirib. Biz ölərik, amma elə bir daşnakın heykəlinin qoyulmasına razı ola bilmərik. Moskvaya və başqa yerlərə teleqramlar vurulub. Rayon Partiya Komitəsinin katibi "başbilənləri" yanına çağıraraq göstəriş verib: "Elə etməlisiniz ki, Baba Orucovun nəslindən kənddə bir nəfərdə qalmasın. Asıb-kəsən, boz adamdırlar, bizə mane olurlar".

1968-ci ilin yazında - Novruz bayramında Şəkidə bir erməni uşağına güllə atırlar. Əsl qatil qalır kənarda (öz millətlərindən qan düşmənləri var imiş). Bu qanlı cinayəti Baba kişinin 8-ci sinifdə oxuyan nəvəsi Fikrətin üstünə yıxaraq ona 10 il, atası Məhyəddinə isə 2 il iş kəsirlər. Bununla ermənilərin ürəkləri soyumur, rayon rəhbərlərinin fitvası və köməyi ilə iki ay ərzində kənddən 24 ailə çıxarılır. Beləliklə, ehtiyat edilən nəsildən Şəkidə bir nəfər də qalmayıb. Vətəni tərk edən analardan birinin qucağında isə 3 yaşında bir körpə var idi - Canpolad. Bu adı yadında yaxşı saxla, oxucum. Onun barəsində sonra yenə

danışacağıq.

1971-ci ildə Azərbaycanın xalq yazıçısı Əli Vəliyev anadan olmasının 70 illiyi tamam olurdu. O, Əli Vəliyev ki, uşaqlığı ötən əsrin əvvəllərində ermənilərin minbir zülmünə tuş olmuşdur. Ata-anasını, qohum-əqrəbasını, bacı-qardaşını bu qovğada itirən Əli Vəliyev "Budağın xatirələri" kitabında erməni daşnaklarının iç üzünü açan çox təsirli hadisələr qələmə almışdı. Həyatın minbir acısını dadan xalq yazıçısı ömrünün ahıl yaşında doğulduğu kəndi görmək, doğma el-obası ilə görüşmək istəyinə düşmüşdür. Onun Sisiana gəlişi azərbaycanlıların sevincinə səbəb olsa da, erməniləri bərk qəzəbləndirmişdir. Baxmayaraq ki, Əli Vəliyev o dövrdə tanınmış sənət dostları ilə (Qulu Xəlilov, Məmməd Rahim, Bayram Bayramov, Famil Mehdi və başqaları) doğma yurduna qonaq gəlmişdi. Onları rayon mərkəzində heç bir vəzifəli erməni qarşılamadı. Azərbaycanlılar isə uşaqdan-böyüyə hamı Şahbuz sərhədinə qədər gedərək öz yazıçılarını təmtaraqla doğma kəndi Ağdüyə gətirdilər. Bu faktın özü də ermənilərin ürəklərində türklərə qarşı daim saxladıqları kin və küdurətdən xəbər verirdi.

Bir faktı da xatırlayıram ki, mən uşaq ikən rayonun bütün kitabxanalarından (sonra öyrəndim ki, Ermənistanın bütün kitabxanalarından) Əyyub Abbasovun "Zəngəzur" romanını yerli-dibli yığışdırdılar. Sonralar mən həmin iki cildlik əsəri oxuyanda anladım ki, səbəb nə imiş. Yazıçı həmin romanda erməni faşizmini bütün incəliklərinə qədər təsirli dillə qələmə alaraq onların türklərin başına gətirdikləri zülmləri, faciələri, həyata keçirdikləri çirkin niyyətləri və vəhşilikləri faktların, olmuş hadisələrin fonunda qələmə almışdı. Bir məsələ də diqqət çəkir ki, "Zəngəzur" romanını indi oxuyanda adama elə gəlir ki, orada cərəyan edən hadisələr ötən əsrin əvvəllərində yox, sonlarında başımıza gələn fəlakətlərin oxşarıdır.

## DÜNYA QOPUR

Bu hadisələri ona görə bir daha xatırlayıram ki, ermənilər türklərə qarşı bəslədikləri kin-küdurəti çirkin bir niyyət torbasında, öz içlərində saxlayırdılar, onu partlatmaq üçün fürsət gözləyir, məqam axtarırdılar. Müəyyən mənada onların çəkinəcəyi Heydər Əliyev idi. Yaxşı yadımdadır. Hörmətli prezidentimiz o zaman Moskvada Siyasi Bürodan





gedən kimi sanki ermənilərin çirkin arzularının həyata keçirilməsi üçün günəş doğdu. Onlar bu xəbəri bir-birlərinə göz aydınlığı kimi çatdıraraq Zori Balayanın bədnam "Ocaq" kitabında qaldırdığı ideyaları həyata keçirməyin zamanı gəldi, dedilər. Uzun illər gizli surətdə hazırlaşdıqları torpaq iddiasını qaldırdılar. Birinci variant, daha dəqiq desək, birinci bəhanə Dağlıq Qarabağ oldu. Bunun fonunda Qərbi Azərbaycanda tufan qopdu. Bu tufanın birinci mərhələsini ermənilər Azərbaycanın gənclik şəhəri Sumqayıtda həyata keçirdilər.

1988-ci ilin fevralı ermənilərin ən çox sevdikləri, əzbərlədikləri Sumqayıt hadisəsi. Necə deyərlər, ssenari müəllifi də kənarda qaldı, dirijor da, baş rolun ifaçısı da. Zərbə adamlara, tamaşaçılara, yoldan ötənlərə, təsadüfən epizodik rollarda çıxış edənlərə dəydi. Bilmək olmurdu ki, ölən kimdir, öldürən kim. Amma tamaşa oynanıldı. Özü də çox məharət və ustalıqla. Kassada bilet qalmamışdı. Hətta bu faciəni lentə almaq üçün dünyanın bir çox ölkələrindən, eləcə də Ermənistanın özündən operatorlar, fotoqraflar əvvəlcədən öz yerlərini tutmuşdular. Uydurulmuş səhnələr və mantaj sonranın işi idi. Fakt o idi ki, Sumqayıtdan erməniləri kürüyürdülər. Amma bu kürüyən kim idi? Arakelyan, yoxsa Əhmədov? Açıldımı? Mərkəzdən olan üzdəniraq məhkəmələr belə hesab etdi ki, əsl qatil Əhmədov imiş. Amma ölüm hökmünə tələsdilər. Gərək bəzi günahları da onun boynuna yıxaydılar və döyəydilər ki, Qarabağ hadisələrinin əsas səbəbkarı odur. Qərbi Azərbaycandan qovulan didərginlərin də faciəsini o törədib. Nə çətin iş idi? Bir qədər də gözləsəydilər, lap 20 Yanvar hadisəsini də Əhmədovun boynuna yıxmaq olardı. Görünür, ağıllarına gəlməyib. Bir də nə fərqi var? Əhmədov olmasın, Xəlilov olsun, təki qovğalar, qopan dünyanın ağrıları "yan"lardan ötüşsün. Məqsədim o günlərdən söhbət açmaq deyil. Fikrim odur ki, itə daş atan əslində kənarda qaldı.

## 3 yaşında vətənini, 23 yaşında həyatını itirən Canpolad-Nazim

Üstümüzə əzrail kimi şığıyan bu küləklər Ermənistandan üzü bəri əsirdi. O gün Canpolad-Nazim (ona hamımız belə deyirdik) Bakıya-oxuduğu Neft və Kimya İnstitutuna getməli imiş. Dəftərlərini, elektron hesablama maşınını da götürərək evdən çıxır. Bacısı Almazın

səhər qapı döyüldü. Gələn Nazim idi. Elə sevindim ki. Dedi ki, Bakıya-instituta getməlidir, amma avtobus işləmir, aləm qarışıb bir-birinə, bəlkə yol maşını ilə getdim. Cibimdə pulum azdır. Mən pul kisəsini uzadıb dedim: "Nə qədər istəyirsən götür". Beş manat götürdü. "Niyə belə az?- Bəsimdir"-dedi. Çay istədi, çay soyuq idi. "Bu saat isidərəm.-Yox, lazım deyil, gözləməyə vaxtım yoxdur"-söylədi. Uşaqları öpüb qalxdı. O, qapını örtəndə elə bil ürəyimi sıxdılar. Nədənsə qorxan kimi oldum. Balkona çıxıb küçəyə baxdım. Nazim yeyin addımlarla həyətdən uzaqlaşdı. Qardaşımla bir də 3 gün sonra...".

Şahidlər danışırlar ki, o gün əsgərlər hərbi maşınları qəflətən yolun kənarında dayanan günahsız adamların üstünə sürüblər. "Qayda-qanun" yaratmağa gələnlər şəhər sakinlərini qanına qəltan ediblər. Nazim də elə bu faciəyə düçar olub. Sən demə, göyərmiş dərd bir evdən o birisinə, bir eldən o biri elə ötürmüş.

Ötən əsrin əvvəllərində əsən acı küləklərin 1918, 1948, 1968, 1988-ci illərdə törətdiyi faciələr sonrakı illərdə -1990-1992-ci illərdə xalqımızın taleyində müsibət oldu. Bu müsibətin ilk qurbanlarından biri də sevimlimiz, canım-ciyərim Sürəyya xalamın sonbeşiyi Canpolad-Nazim Orucov oldu.

## "GÜNAHKAR", YAXUD DA HƏBS EDİLƏN AKTRİSA

1988-ci ildə Sumqayıtda baş verən hadisələrin "səbəbkarlar"ını bir-bir həbs etməyə başladılar. Maraqlı olan cəhətlərdən biri də bu idi ki, həbs edilənlər arasında görkəmli aktrisamız, gülüş ustası Afaq Bəşirqızı da olub. Afaq xanım o vaxt Sumqayıt teatrında çalışırdı. Onun söylədiklərini olduğu kimi qələmə alıram: "Sumqayıt hadisələri vaxtı ziyalıların önündə gedən olmuşam. Ağıllı adamlar bilirdilər ki, bu faciə xüsusi təşkil edilib. Biz bir çox bəlaların qarşısını ada bildik. Faciədən sonra mənə çatdırdılar ki, səni həbs edəcəklər. Əvvəlcə telefonda dəyişiklik hiss etdim. Sonra da martın 16-da səhər ertədən qapımız döyüldü. Kitablarda oxuduğumuz 37-ci il kimi. Əvvəlcə evi əməlli-başlı axtardılar, sonra məni apardılar. Eyni vaxtda iş yerimdə də - Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrında da rol paltarlarımdan tutmuş qrim otağındakı əşyalarıma qədər ələk-vələk





etdilər. Bu ağır proses doqquz ay çəkdi. Şəhərdən çıxmağa icazəm yox idi. Doğrudur, bunlar olub keçib. İki məsələni heç unuda bilmirəm. Məhkəmə prosesində 24 azərbaycanlının (özü də yüksək vəzifədə olan "kişi"lərin) fitvası ilə 8 erməni üzümə dirəndi. Onun da beşi Xankəndindən gəlmə idi. Öz millətimizin həmin oğullarını xatırlayanda xəcalət çəkirəm. Mənə doqquz ayın sorğu-suallarından çox, bu yalançı şahidlərin nakişiliyi pis təsir etdi. Yaxşı ki, o vaxtlar İsmət Qayıbov (Sumqayıt şəhər prokuroru idi) kimi insanlar var idi. Onun yana-yana dediklərini unutmamışam: "Mən oğlumun tutulmasına razıyam, Afaqın yox". Doğrudur, çək-çevir uzun çəkdi. Məni sındırmaq istəyirdilər, dözdüm, əyildim. Yaxılan böhtanların heç biri sübuta yetirilmədi. İsmət Qayıbov əsl hünər göstərdi. Mən ölüncə o insanın mərdliyini, fədakarlığını unutmaram".

**2003.**

## A N A M A  D E Y İ N...

## ŞƏHİD ANALARIN VƏ ŞƏHİD ANALARININ RUHUNA

Azərbaycan adlı məmləkətin anaları bir-birinə bənzəyən və bənzəməyən bir taleyi yaşayırlar. On yeddi ildir ki, Azəbaycanda hamının böyük hörmət və izzətlə qarşısında baş əyməli olacağı müqəddəs bir Ana obrazı yaradılıb. Amma bu nə bədii əsərlərdədir, nə də kinoda, teatrda.Bu analar həyatdadır. Sizin, bizim aramızda.

***

Sinəsini daşa söykəmiş qadın yavaş-yavaş dirçələrək başını qaldırdı: "Nə ola, Allah, mən də beləcə daşa dönəm. Balamın taleyinə yazılan mənim də alnımda iz sala. Bir də evə getməyim". Qulağına həzin bir səs gəldi. Kimsə öz balasını oxşayırdı. Durum gedim məngünlünün yanına. O da təkdir. Qoşulub bir-birimizə balalarımıza

məngünlünün yanına. O da təkdir. Qoşulub bir-birimizə balalarımıza ağlayaq".

Titrək addımlarla bayatılayan qadına yaxınlaşdı. Qəbrin üstünə baxdı. Sinədaşına yazılmışdı: "Naməlum". Qadının taqəti sanki tükəndi. Birtəhər sözlərini çatdıra bildi: "Sən kimi ağlayırsan, ay qaragünlü?" Bayatılayan qadın özü kimi dərdin əlində yumağa dönmüş ananın üzünə baxaraq güclə pıçıldadı: "Balam itgin düşüb. Sonra dedilər ki, ermənilər onu öldürüb. Amma elə hala salıblar ki, tanınmaz olub. Bilmirəm, qəbri haradadı. Deyirəm, bəlkə elə bu naməlumlardan biri mənim balamdır. Hər gün gəlib hamısını bircə-bircə oxşayıram". Qəfildən səsi kəsilən ana havalanmış kimi ayağa qalxdı: "Abbas hey, anan qurban, gəlirəm". Qadın bu gəzəri heykəlin dalınca kirimişcə baxdı. "Şükür yazdığına, Tanrı. Mən balamın heç olmasa yerini bilirəm. Gör nə ağır dərdlər var, ölümdən də betərdir. Buna necə dözmək olar?!"

Hər gün ordaca görüşürdülər. Şəhidlər xiyabanı bu sinəsi dağlı anaların görüş yerinə dönmüşdü. Günlərin birindəcə gördüyünə inanmadı qadın. Qəbrin üstündəcə keçinmiş ananı iki kişi xərəyə uzadırdı.

***

"... Dayan ay bala, qaçma məndən, nolar, yalvarıram", Ana nə qədər addımlarını yeyin atsa da, cavan qız göz yaşları ilə ondan uzaqlaşdı. "Belə dərd olar, müsibət olar, hər gün balamın qəbri üstündə ağlayan görürəm onu. Bilmirəm, kimdir, nəçidir, bəlkə elə nakam oğlumun gözaltısıdır. Sevdiyidir. Niyə məndən qaçır? Nə qədər tez gəlirəm, onu burada görürəm", O gecə ana yuxusunu qarışdırdı, səhərəcən çimir etmədi. Fikirləşib çarəsini tapdı. "Paltarımı dəyişərəm, yerişimi dəyişərəm başqa cür edərəm, gedib özgə qəbrin üstündə ağlaram. Təki bilim, o biçarə kimdir?! Niyə məndən yaşınır?".

Sübh tezdən hamıdan qabaq Şəhidlər xiyabanına gəldi. Qonşuluqdakı qəbrin üstündə diz çöküb doğma ana kimi göz yaşlarını axıtdı. Bir xeyli keçəndən sonra hiss etdi ki, öz oğlunun da görüşünə gələn var. "Allah, yenə həmin qızdır. Əlində də qərənfil, şəklini dəsmalı ilə silir. Sinədaşını öpür, əlləri ilə sığal çəkir". Ona zillənən dolu gözllərdən xəbəri olmayan qızsa diz çökərək ağlayırdı. Ana gördüklərinə tab gətirə bilmirdi. Yaxın getməyə də ürək etmirdi.





sifətini, o yaşlı gözlərini doyunca görə bilməyəcək. Qorxurdu ki, oğlunun ruhu inciyəcək. İnciyəcək ki, "Anam bizə mane olur". Bu qeyri-adi, ürək tab gətirməyən "görüş" günlərlə davam etdi. Ana qızı yaxından görə bilmişdi. Yerişinə, duruşuna, hətta hansı ünvana üz tutduğunu da bələdləmişdi. Günlərin birində özünü ələ alaraq Qıza yaxınlaşdı: "Mənim balam, elə mən də hər gün bura gəlirəm sən də. Oğluma ehsan verəcəm. Bizə gələrsənmi?" Qız təəccüblə gözü yaşlı anaya baxaraq "əlbəttə"- dedi. Əslində, qadın onu öz evlərinə deyil, bacısıgilə çağırırdı. Birdən qız onların ünvanını əvvəldən bilmiş olar, gəlməz deyə, oğlunun şəklini də divardan götürtdürmüşdü ki, qızın ağlına heç nə gəlməsin. İçini yeyən bir xiffətin açılmasını istəyirdi. Bilmək istəyirdi ki, bu qara yaylıqlı qız onun gələcək gəlini olacaqmış, ya yox. Nəhayət, deyilən vaxt gəlib çatdı. Qapının zəngi çalındı. Onu ana özü qarşıladı. Evdə ananı tək görən qız içini çəkərək soruşdu:

- Siz bu gün üçün deməmişdiniz?

- Əlbəttə, mənim balam. Orada da ikimizik, burada da ikimizin olmasını istədim.

- " Mən ciyərparamı ağlayıram, oğlumu haraylayıram. Sənin kimindir, bala? Qardaşındır, qohumundur..." - deyə qızı qucaqlayaraq sinəsinə sıxdı. O, çoxdan bu görüşü arzulamışdı. Ananın mehri, səmimi münasibəti qıza çox doğma gəldi. Hiss etdi ki, gizlətməyin yeri deyil. Utana-utana birtəhər ki, özünü ələ alıb qırıq-kəsik cümlələrlə pıçıldadı: "Bir yerdə oxumuşduq, əhdi-peymanımız var idi. Müharibə başlayan kimi getdi. İl ötməmiş belə qayıtdı. Nə bizim evdə bilirdilər, nə də onların. Anasını da əvvəllər qəbir üstündə görərdim. İndi çoxdandır yoxdur, heç bilmirəm ki, o biçarə qadının başına nə gəlib? Bir-iki dəfə mənim arxamca gəldi. Qorxdum ki, ona əlavə dərd olaram. Ona görə də görüşmədim. Çox peşimanam. Kaş ki, Vaqifi böyüdən, onu vətən, millət üçün yetirən o ananı bir dəfə bağrıma basaydım. İndi də özümü bağışlaya bilmirəm ki, mən niyə onun çağırışına səs vermədim?" Ana Qızın bu etiraflarından sonra onu bir daha qucaqlayaraq bağrına basdı. Titrək əlləri ilə saçlarını sığalladı. Amma nədənsə heç nə demədi. Bəlkə də Qızın biryolluq gedəcəyindən çəkindi. Ya bəlkə də Qıza çox dərd vermək istəmədi. Həsrət ananı elə hala salmışdı ki, balasının ətrini bu Qızdan alırdı. Pərişan ananın son sevinci, ümidi bir yol qapısını döymədiyi, barmağına nişan üzüyü taxmadığı, amma ürəyində ona "gəlinim" deyə əzizlədiyi, sevdiyi qız idi. Ana həm də bu zərif,

inciçiçəyinə oğlunun nişanəsi, yadigarı kimi baxırdı. Onlar hər gün eyni ünvanda görüşürdülər. Qız öz sevgilisini, ana da vətənin şəhid oğlanlarını ağlayırdı. Qəfildən ana görünmədi.

Günlərin birində Qız qonşu qəbrin üstündə başqa bir qadını ağı deyən gördü. Elə bildi ki, sadəcə səhv salır. Yaxınlaşanda eşitdiyinə inanmadı. Qadın ağlayırdı:" Bağışla, oğlum, görüşünə tez-tez gələ bilmirəm. Mən rayonda, sən Bakıda..." Qız heyrət içində idi. Özünü birtəhər ələ alaraq oğlunuzdur, ana" - deyə xəbər aldı. "Hə, başına dönüm. Ta əldən düşmüşəm, tez-tez gələ bilmirəm balamın görüşünə". Sözlər hecalara bölünərək Qızın ürəyinə ox kimi sancılırdı. Bu ana rayona qayıtdı, o anadan isə xəbər-ətər çıxmadı. Müəmmalı halın çox uzanmasına dözə bilməyərək ananın vaxtilə onu çağırdığı ünvana getdi. Qapını başqa qadın açdı. Qızın gözləri böyümüşdü. Həyəcanla dedi: "Mənə Leyla xala lazımdır". Ev sahibəsi gözləri dolmuş halda dilləndi:

- Hə, mənim bədbəxt bacımı axtarırsınız? O öz evindədir.
- Ünvanını mənə verə bilərsiniz?
- Əlbəttə, lap səninlə gedərəm də.

İçəri girəndə Qız gözlərinə inanmadı. Hara gəldiyini, hansı aləmə düşdüyünü bir anlıq dərk etməkdən qaldı. Qıza elə gəldi ki, ya dünyanı qeyri-adi bir ovqat bürüyüb, ya da onu qara basır. "Allah, bu nədir? Hər yerdə Vaqifin şəkli asılıb. Yataqda uzanmış tanış qadının mehriban sifətində, qara gözlərində birdən-birə Vaqifin doğma cizgilərini, çöhrəsini gördü. Bir də onda ayıldı ki, xəstə ana əlləri ilə onun saçlarını sığallayaraq titrək-titrək oxşayır: "Can bala", Bu onların son görüşü oldu. Ana həmin gün dünyasını dəyişdi.

İndi qızın iki ünvanı var; əvvəlcə şəhər qəbiristanlığında ananı ziyarət edir, sonra da Şəhidlər xiyabanında sevgilisini...

***

Sükutun harayı qulaqları batırırdı. Kişilərin bir-birinə sıxılmış dodaqları, düyünlənmiş qaşları bu gərginliyi daha da artırırdı. Heç kim ananı inandıra bilmirdi ki, tabutdakı həqiqətən onun oğludur. Tovuz ana bütün varlığı ilə qiyyə çəkdi: "Mən mütləq ona baxmalıyam. Sizin söyləməyinizlə deyil. Mənim ürəyim başqa şeylər deyir. O mənim oğlum deyildir. Məni çəkmir bu tabut", Ananın inadkarlığı nəticəsində





tabutu açdılar. Meyit tanınmaz şəklə salınmışdı. Qadın dəhşətli bir nalə çəkdi. Ətrafdakılar elə güman etdilər ki, ana oğlunun ürək parçalayan vəziyyətindən havalanıb. Ananın həyəcanı hamıya sirayət etdi. Ata, qardaş, qohum-əqraba, qonum-qonşu, meyiti gətirən əsgərlər belə inanmaq istəmədilər. Ana haray qoparırdı: "Mənim oğlum deyil. Onun çiynində, boynunda, qolunda xalı var idi. O xallardan biri yoxdur bu bədbəxtdə. Mənim oğlumun bədəni tunc rəngdə idi. Mənim oğlumun..." Qadın bayıldı.

Sonralar bəlli oldu ki, həqiqətən də Tovuz ananın oğlu Ramin Daşaltıda gedən ağır döyüşlərdə itkin düşüb. Onun haqqında başqa məlumat yoxdur.

***

Əsgərlər gördüyü mənzərədən dəhşətə gəlmişdilər. Düzlərə səpələnmiş qadın, uşaq, qoca meyitləri arasında bir körpə salamat qalmışdı. Onu nə atəş tuta bilmişdi, nə də şaxta dondurmuşdu. Qadının qolları arasında döş əmən körpə ölmüş ananı nə qədər tərpətsə də, qığıltısına haray verən yox idi. Sonradan məlum oldu ki, ananın iki oğlu, bir qızı varmış. Ermənilər oğlanlarını minbir vəhşiliklə qətlə yetiriblər. Çöllərə düşən ana sonbeşiyini sinəsinə sıxaraq qaçıb. Ölüm qoxulu düzlərdə kürəyi erməni güllləsinə tuş gəlib. Özünü birtəhər kolun dibinə salaraq körpəni sinəsinə sıxıb. Beləcə heykəlləşib. Amma sinəsindən gələn həyat balaca Lamiyənin sağ qalmasına səbəb olub.




***

Həyətdəki tünlük ananı xoflandırdı. "Yoxsa ölüb. Dilim qurusun"- deyə ağlına gələn dəhşəti özündən qovmağa çalışdı. Amma həyat yoldaşının üzüntülü görkəmi, qonum-




qovmağa çalışdı. Amma həyat yoldaşının üzüntülü görkəmi, qonum-qonşunun pərişanlığı, tamamilə hər yeri bürümüş solğunluq anaya bəzi mətləbləri anlatdı. Haraylamaq istədi, səsi çıxmadı. Ağlamaq istədi, bacarmadı. Elə bil onun bütün varlığını qurutmuşdular, ruhunu çəkib aparmışdılar. O, yerdə baş verənləri sadəcə seyr edirdi.

Dəfn günü də özünü tox tutdu. Heç elə bil oğlunu itirməmişdi. Bu şivənin, yeri-göyü titrədən ahların sanki ona dəxli yox idi. Qırx gün qayda-qanunla yas saxladı, təziyə tutdu. Ananın bu qəribəliyi hamını heyrətə gətirdi. Zahiri sakitliyi qohum-qardaşı qorxudurdu. "Bircə ağlasaydı, sakitləşərdi. Yoxsa hər şeyi içinə salıb dəli olacaq" fikri beyinlərindən çəkilmirdi. Nəhayət, dolan bulud boşaldı. Bir səhər gördülər ki, Nurcahan əyninə əsgər paltarı geyinib. Kimsə mane ola bilmədi. Ana cəbhəyə yola düşdü. Bir gecədə saçları bəyazlaşmış qadını heç kim inadından döndərməyə çalışmadı. Hamı bilirdi ki, cəhd göstərmək mənasızdır. Çünki ana özü əvvəlcədən zəmanətini verirdi: "Başınıza dönüm, balalarım, yeməyinizi hazırlaram, paltarlarınızı yuyaram, yaranızı sarıyaram. Vallah, mən kənddə heç kimə lazım deyiləm. Yanınızda bir ana da olsa, dünya dağılmaz ki". Beləliklə, bir evin ağbirçəyi bir taborun anasına çevrildi. Gecələrin birində isə... Deyirlər, ana öz intiqamını almışdı. Onun cəsarəti, qorxmazlığı önündə kişilər heyrətdə qalmışdılar. Ömründə qa-





üçün yağı başını "of" demədən əzə bilmişdi...

***

...Gedənlər qayıtmır, qalanlar da bizim deyil". Qədim bir türk şərqisinin bu nidaları onun bütün duyğularını eyni ağrının içində qovururdu. Birdən-birə qəribləşdi. Özünü ələ almağa çətinlik çəkdi. Əzabdan qurtulmaq üçün küçəyə çıxdı. Hər şey öz adiliyində idi. Adamlar harasa tələsirdilər, maşınlar belədən-beləyə şütüyürdülər. Allah, bu nə sakitlik idi? Bir kimsənin onun qəlbindəki şivəndən xəbəri yox idi. Cabbarlı qələminin yadigarı olan misralar ruhunu dolaşdı.

Ana! Ana! ...O adın qarşısında bir qul tək,
Həmişə səcdədə olmaq mənə fəxarətdir,
Onun əli ilə bəla bəhrinə yuvarlansam,
Yenə xəyal edərəm bəzmi istirahətdir.

Nə edəcəyini düşünə bilmədi. Əslində, torpaq, yurd şəhidi olmuş anası Gözəl Nəcəf qızının xəyalı ona dinclik vermirdi. "Anam bizdən ötəri ölümə gedərdi. Amma mən onun qəbrinə bir ovuc vətən torpağı gətirməyə acizəm". İllərdir ki, konlündə yuva qurmuş həsrət onun cızdağını çıxardırdı. Birdən-birə sanki ona güc və qüvvət gəldi, əllərini düyünləyib haray çəkmək istədi. Qulağını həzin bir səda oxşadı. Kimsə oxuyurdu:

Anama deyin,
balası gələr,
Gözləri gülər,
Dağlara deyin,
çəkməsin ona
dumandan pərdə.
Dözmərəm dərdə! ...

**2004.**

# OVQAT

## Dağ başı dolu gözlər



Min aləmin dərdi tökülən baxışların nə deyir, ay ana? Bu nə giley, nə hüzndür yapışıb sənin yaxandan? Bəxtindən, taleyindən gileylisən, yoxsa ömrünü qəfil haqlamış qəzavü-qədərdən şikayətin var? Axı indi yaşının o vaxtıdır ki, qu tüklü, ipək üzlü balışa söykənəsən. Yumşaq döşək üzərində bardaş qurmalıykən bu quru daş-divarın üstündə əyləşib niyə aha-amana sirdaşlıq edirsən? Kaş dərdini biləydim.

Əzizim dolu gözlər,
Dağ başı dolu gözlər.
Yandırdı bağrım başı
Səndəki dolu gözlər.

Yoxsa sənin də ev-eşiyin dağılıb, namərd ermənilər yaşının bu çağında səni də doğma ocağından didərgin ediblər? Ya bəlkə də viran edilmiş yurduna qayıtmısan? Əvvəlki büsatdan, çal-çağırdan əsər-əlamət tapmırsan. Bu lələsi köçmüş yurdun, bu suyu sovrulmuş dəyirmanın yiyəsizliyi səni nə yaman günə salıb? Nə qədər gizlətmək istəsən də, dərd belini əyib, taqətini tükəndirib. Allah, nə qədər oxşardır; sənin qəmli baxışlarınla uçulmuş koma da, qol-qanadı doğranmış, yarpaqları tökülmüş o tənha ağac da? Bəlkə də sizdən





doğması, sizdən yaxını yoxdur bir-birinizə. Üçünüzün bu ağlar halı nələr söyləmir?

Ömrünüzün yaşıl libasını kim soldurdu görən? Bu soyuq küləklər hardan əsdi belə? Bu yerlərdə heç günəşin kölgəsi də yoxdur ki? Nə göyə əlin çatır, nə bu yer də sənindir. Bəs nədir bu naçarlığın adı, ana?

Bu dünyadan nə getmək,
Nə də qalmaq istəyirsən.
Nə ümmanda damlasan,
Nə damlada ümmansan.

Bəs sən kimsən, nəçisən, ey pərişən olan qadın? Bu nə durğun hərəkət, bu nə səssiz şikayət? Allah, bu nə haraydır? Ürəyimə köz kimi sıxılan adını necə dilə gətirim? Öz yurdunda qərib olan, bir misqalı yüz bölən, üfüqdə özü boyda od qalamaq istəyən,bir ocaq tüstüsünə, insan hənirtisinə həsrət qalan ana. Bəlkə ciyərparan şəhid olub sənin? Üzündən min dərd yağır, hansını tapaq biz? Küsmə bu dünyadan, vallah, inciməyə dəyməz. Yaranışından belədir:

Dərdini qanana zindan əzabı,
Nəbzini tutana behiştdir dünya.

Aç başındakı qara kəlağayını, ver küləyə aparsın. Saçlarının bəyazlığı bu boz məkana, bu tar-mar olmuş yurd yerlərimizə bir şəfəq yaysın. Pərvanə kimi işığına uçub gələk. Kaş eşidək səsini, ana, kaş səni möhnətdən qurtara bilək. Ehey, igidlər, eşidirsinizmi? Bizi bir ana çağırır, bizi torpaq çağırır...

**2004.**

# VƏTƏN, VƏTƏN, VƏTƏN!

## KÖNLÜM KEÇİR QARABAĞDAN

Bəlkə də bütün fəsli şəhərdə birtəhər başa vurmaq olar. Elə ki, yaz gəlir, dünyanı bir zümrüd rəng bürüyür, adamın könlü havalanır. Uşaqlığın keçən yerlər səni maqnit kimi özünə çəkir. Amma arzuların kimi əl-qolun da bağlanır. Keçmiş illərdə olduğu kimi səfərə çıxa bilmirsən. Bənd-bərəsi kəsilmiş yolların sərt, minalanmış, barıt qoxulu, mərmi səsli qorxunc sifəti qarşını kəsir. İstəsən lap okeanın o tayına, dünyanın ən uzaq guşəsinə üz tuta bilərsən. Amma doğulduğun, böyüyüb boya-başa çatdığın, havasını udduğun, çörəyini yediyin, suyunu içdiyin, hər izinə, dərəsinə bələd olduğun doğma yurduna qədəm qoya bilməzsən.

İnsan dünyaya gəldiyi gündən ömrünün sonuna kimi sevinc qarışıq bir kədərli həyat sürür. Özünü həm xoşbəxt, həm də bədbəxt sandığı anlar yaşayır. Ömrü boyu bir sıra itkilərə məruz qalır. Bu fani dünyada heç nəyin əbədi olmadığını dərk edir. Neçə əzizini, qohum-əqrəbasını, dostunu, tanışını, valideynlərini itirir. Həyatın bu əbədi hökmü qarşısında çarəsiz insanın əlindən heç nə gəlmir. Dünya yaranışdan belədir. Olumla ölüm, ağla qara, toyla vay, işıqla qaranlıq... qoşa doğulur. Cahanın bir tərəfində günəş doğur, o biri başında zülmət gecədir. İnsanın alışmadığı, öyrəşmədiyi, gözləmədiyi ən ağır dərd Vətən itkisidir. Biz heç vaxt bu dərdə tab gətirə bilmirik. Nə qədər xoşbəxt yaşasaq, müxtəlif uğurlar qazansaq, lap şöhrət zirvəsinə yüksəlsək də vətənsizlik əzabının önündə gücümüz, dözümümüz itir. Bir həzin mehə bənd oluruq ki, könlümüzdə kükrəyib daşmağa hazır hisslərimiz göz yaşlarına çevrilib yanaqlarımızdan süzülsün. Bir kəlam var: "Ağlamaq əzab deyil, göz yaşını silən olsa". Məsələ ondadır ki, Vətən dərdi sağalmazdır. Min saraya qonaq aparalar, yenə də öz kasıb koman hər yerdən rahat və şirindir.

Hərdən fikirləşirəm ki, baş verənlər yuxu kimi tərsinə yozula. Bir səhər maşına əyləşib üzü Qarabağa sarı yol gedəsən. Ağdamdan, Əsgərandan, Şuşa qalasının yanından, Zarıslı kəndindən, Həkəri çayının üstündən, Laçın qayalarının arasından, zümrüd donlu Gorusun dolamalarından keçərək daşları xınalı Qızılcıq kəndinə çatasan,





Qarakilsəyə (Sisian) enəsən, ürəyin döyünə-döyünə, tələsik doğmaca kəndin Uruda çatasan. Bu kəlmələri düzəndə ürəyim titrədi, gözlərimi yumdum. Ayaqyalın düz evimizə doğru qaçaram. O daşları, qayalıqları əllərimlə oxşaram. Təkcə çiçəyini, gülünü deyil, kolunu, tikanını öpərəm. Böyük Məmməd Araz deyirdi ki, Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı. Mən isə sənin yollarının tozu olaydım, Vətən! Tozlu yolda gediş-gəliş çox olar. Tozlu yolda dönüş bitər, qayıdış cücərər. Hərdən təsəlli verirlər ki, biz getsək də, getməsək də, o kənd bizim kəndimizdir. Ürəyimin başı göynəyir bu kəlmələrin ağır ləngərindən, təsirindən. Ömür əbədi deyil axı? İnsan olmadığı yeri yuxusunda belə görmür. Gecələr yuxumda lövbər salan doğma yerlər. Görəsən, siz nə vaxtsa mənim övladlarımın da röyasına girərsinizmi? Güman etmirəm. Onlar məni nə qədər çox sevsələr də, göz yaşlarıma şərik çıxsalar da, Vətən uğrunda döyüşlərə mərd-mərdanə, ayıq-sayıq, hazır dayansalar da, olmadıqları yer yuxularına necə girə bilər?

Yayın istisi cızdağımı çıxarır. Bəlkə də məni qınayanlar tapılar, bu, nə ahu-zardır? Dünyada o qədər görməli, dincəlməli, səfalı yerlər var ki... Məmləkətlər dolaşmışam. Təbiət möcüzələri, insan əlinin yaratdığı gözəlliklər qarşısında heyrət etmişəm. Amma bir etirafımı bildirim ki, heç Niaqara şəlaləsi də mənə kəndimizdəki o kiçik Soltan bulağı qədər zövq verməyib. İnsan öz doğma ocağını sevməsə, arzulamasa, bəşəri incilər qarşısında keçirdiyi həyəcanlar, məftunluqlar, aludəçiliklər bir heçdir. Çünki doğmalıq bambaşqa aləmdir. Dağlar var dağlarıma oxşayır, yol görürəm, min xatirə yada düşür. Amma bunların heç biri mənə Vətəni unutdura bilməz.

## O il Qarabağa gedəndə

Zəngəzur mahalı Gəncə quberniyasının tərkibində olan qədim yurd yerimiz idi. Əzəldən bu torpaqda türklər yaşamışdır. Yer, yurd, çay, bulaq, qaya, dağ adları, müxtəlif toponimlər hamısı türkcədir. Eramızdan əvvəlki qədim qəbiristanlıqlar da əcdadlarımızın uyuduğu müqəddəs ünvan idi. Sinədaşlarının hər birində xəttat babalarımızın nişanələri yaşayırdı. Babək igidlərinin at oynatdığı yerdə onun adı ilə bağlı qalalar, oylaqlar indiyə kimi qalmaqdadır. 1920-ci ildə parçalanan Zəngəzurun bir hissəsi Azərbaycanda qaldı, digər hissəsi isə qondarma Ermənistan dövlətinə (1919-cu ilə kimi ermənilərin dövləti olmayıb.

Onları bu səadətə bolşeviklər çatdırdı - F.X.) verildi. Amma bir müddət Qarakilsədə yaşayan azərbaycanlılar qışda öz mal-heyvanlarını Qarabağa qışlağa aparardılar. Yayda da Qarabağdan yaylağa gələrdilər. Böyük qardaşım bir dəfə anamla Qarabağa gedibmiş. Bunu həmişə iftixarla danışar, öz sinif yoldaşlarına nəyi isə onlardan yaxşı bildiyini sübut etmək üçün birinci cümləsi belə olardı: "O il Qarabağa gedəndə". Bu sözləri o qədər çox, hər kəlməbaşı işlətmişdi ki, daha onu öz adı ilə deyil, "o il Qarabağa gedəndə" çağırırdılar. Bu sözlərin ahəngindəki qəribə bir doğmalıq, istilik hamımızın qəlbinə dolmuşdu. Kənddən heç hara çıxmamışdım. Hərdənbir rayon mərkəzinə gedərdik. Orada da ermənilər çox olduğundan bircə azərbaycanlılar öz aralarında doğma dildə danışardılar. Küçədə, bazarda, mağazada, xəstəxanada, müxtəlif idarələrdə, avtobusda, bir sözlə, hər yerdə qarğa avazına bənzəyən erməni dilinin xoş olmayan qarıltısı ruhumu əzirdi. Balaca olduğumdan çox şeydən xəbərim yox idi. Ağlıma gətirə bilmirdim ki, dünyanın harasındasa böyük toplumda ana dilimizdə danışan olar. Ona görə də kəndimizdən kənara çıxmağı heç sevmirdim. Bu müqəddəs, təmiz, pak guşədə hamı öz dilimizdə danışırdı.

Günlərin birində əmim oğlunun toyu oldu. Gəlini Ağcabədidən gətirməli idik. Gəlingətirdiyə məni də aparmışdılar. Elə ki, Ermənistanın sərhədindən çıxdıq, Laçın qayalıqları diqqətimi çəkdi. Hələ indiyə kimi bu hissi özümdən uzaqlaşdıra bilməmişəm. Laçın özü boyda bir qartal idi, dağın sinəsinə qonmuşdu. Dünyanın heç yerində belə qəribə coğrafi mövqeyə malik olan diyar yoxdur. Sonralar da həmişə Laçın şəhərinə çox təəccüblə baxardım. Fikirləşərdim ki, şəhər bu dağın sinəsində necə qərar tutub? Burada ev tikməyi necə bacarıblar? Düzü-düzəngahı qoyub insanlar dağın bağrını niyə yarıblar? Gözəllik, torpaq və yaşamaq naminə savaşa çıxan laçınlıların dağ vüqarını, Fərhad biləyini sonralar üç-beş dığa necə sındıra bildi? Hələ də ağlım bu məsələləri çözələyib bir yana çıxara bilmir. Təbiətdə elə ağaclar var ki, min il balta çalına kəsilməz, içini yeyən qurdu olmasa. Dəfələrlə belə ağacların qəflətən yerə sərildiyinin şahidi olmuşuq. Laçın da içdən qurulan bir oyunun qurbanı oldu. Kim bilir, bu dilbər guşələr uğrunda ömrünü qurban vermiş Sultan bəylərin goru neçə yerdən çatladı.

Zarıslını keçəndən sonra qalalar qalası Şuşanın yaxasında dayanıb seyr etdiyimiz ətraf kəndlər, Xankəndi (Stepanakert adlandırırdılar -





F.X.) şəhəri yaşıllığın ortasında cilvələnən bir gözəllik idi. Hələ Qırxqız yaylağı, dərin marağıma səbəb olan su kəmərinin uzunluğu (onu XVIII əsrdə Xan qızı Natəvan çəkdiribmiş - F.X.) indi də gözlərimdən çəkilmir.

Nəhayət, Ağdam şəhəri. Bazar günü olduğundan radioda səslənən muğam konsertinin vaxtına düşmüşdük. Şəhərin hər yerindən muğamat eşidilirdi. Dincəlmək üçün 5-10 dəqiqəliyə dayanmışdıq. Hərdən əmimgil deyirdilər ki, sovet hökumətinin Ağdamdan xəbəri yoxdur. Çünki bu şəhərdə yaşayanlar daha sərbəst, azad və həm də imkanlı idilər. Ağdamda olan yaşayış evləri, hasarları örtmüş qızılgül kolları, sarmaşıqlar, darvazalı həyətlər o qədər gözəl idi ki... Və mən ilk dəfə idi ki, əhalisinin hamısının azərbaycanlılardan ibarət olan böyük bir şəhər görürdüm. Həm sevinirdim, həm də için-için göynəyirdim. İnanmağım gəlmirdi ki, dünyada elə bir şəhər var ki, orada yaşından, başından, vəzifəsindən asılı olmayaraq hamı doğma dilimizdə danışsın. Öz təndirmizdə bişən çörəkdən başqa Qarakilsədə dilinə tikə vurmayan, su belə içməyən anam Ağdamda dükandan alınmış çörək yeyirdi, yeməkxanada çay içirdi, harada gəldi əyləşirdi. Nə salavat çevirirdi, nə də sifətini turşudurdu. Bunları aydın görsəm də, səbəbini dərk edə bilmirdim. Bircə onu duyurdum ki, Ağdamın hər qarışı anam üçün saf bir dünya idi. Və mən ilk dəfə idi ki, bu qədər çoxlu doğma insanlar görürdüm. O gündən illər keçməsinə baxmayaraq, indi də Ağdamın adı gələndə sümüklərim sızıldayır, ürəyim göynəyir. O pak, saf günlərin həsrətini çəkirəm. Muğamat həqiqətən Qarabağla bağlıdır. Amma mən muğamat eşidəndə külli Qarabağı deyil, yalnız Ağdamı xatırlayıram. Çünki uşaqlıq illərimdə qəlbimə bu həkk olunmuşdu ki, muğamat Ağdamda doğulub.

Ağcabədi də bir özgə büsatla bizi qarşıladı. Mən ilk dəfə yer üstündə təndir gördüm. Hələ bağ-bostan məni o qədər heyrətləndirdi. Biz tərəflərdə iqlim şəraiti sərt olduğundan bostanda ancaq xiyar-pomidor əkərdik. Ağcabədidə isə mən ilk dəfə qarpız, yemiş bostanı gördüm. Hələ badımcan bitkisi mənə elə qəribə gəldi ki... Bizim həyətdə də üzüm tənəkləri var idi. Ancaq yarpağından istifadə edərdik, bəhrəsi olmazdı. Anam qışda onu xüsusi selofana bükərdi ki, şaxta vurmasın. Boy-buxunu da elə çox hündür olmazdı. Amma Qarabağda üzüm çardaqları məni məftun etmişdi. Büllur salxımların parıltısı çilçırağı xatırladırdı.

Səslərini radioda eşitdiyim xanəndələri toy məclisində görəndə özümə gələ bilmədim. Gör kimlərlə üzbəüz dayanmışam? Xan Şuşinski, Əbülfət Əliyev... Bəlkə min dəfə gözlərimi yumub-açırdım. Bu, yuxudur, yoxsa gerçəklik? O toy-büsatlı günlər ömrümə yeni sevinclər, arzular, xəyallar gətirdi.

O vədə gəldi ki, orta məktəbi bitirib arzularımızın ünvan tapdığı paytaxtımıza - ali məktəbdə oxumaq üçün üz tutdum. İldə iki dəfə - qış və yay tətillərində gözəlim Qarabağdan keçərək Zəngəzura üz tuturdum. Qarabağın demək olar ki, bütün guşələrində olmuşdum. Şuşada, Ağdamda, Bərdədə qohumlarımız, yaxın tanışlarımız, tələbə yoldaşlarım yaşayırdı. Yayda onları da götürüb kəndimizə apardım. Qış tətilində çox vaxt Ağdama, Bərdəyə gedərdim. İlboyu Şuşadan, Ağdamdan evimizə sovqat göndərilərdi. Bizim yerlərdə olmayan nemətlər həmişə Qarabağdan gələrdi. Qarabağ mənim Vətənə gedən yolum idi.

## Bəlaların kökü laqeydlikdən başladı

1986-1987-ci illər idi. Biz yenə də yay tətilini keçirmək üçün doğma kəndə dönmüşdük. Həyat yoldaşım kitabxanadan bir xeyli yeni nəşr gətirdi. Erməni dilində çıxmış bu kitabları oxuduqdan sonra əsəbi şəkildə dedi: "Bu kitabların hər birindən qan qoxusu gəlir". Məlum oldu ki, azərbaycanlıların əleyhinə yazılmış, guya Türkiyədə qalmış torpaqlar uğrunda erməniləri "mübarizə"yə səsləyən bu kitablarda millətimizə qarşı dərin nifrət var. Hiss olunurdu ki, ermənilər hansısa bir fitnə-fəsadı törətmək üçün öncədən ədəbiyyat vasitəsilə təbliğat qururlar. Hətta sonralar ümummilli liderimiz Heydər Əliyev Siyasi Bürodan gedəndən sonra ermənilər bu fəaliyyətlərini daha da genişləndirdilər. İndi onlar heç kimdən çəkinmədən öz niyyətlərini həyata keçirirdilər. Ən əvvəl azərbaycanlılar yaşayan kəndlərdə müəyyən torpaq sahələrini zorla alıb ermənilərin yaşadığı ərazilərə qatırdılar. Bütün bunlar barəsində məlumatlar yazaraq o vaxtkı Azərbaycan KP MK-ya təqdim edildi. Hətta kitabların icmalları da çıxarıldı. Zori Balayanın "Ocaq" kitabı Moskvada rus dilində çap edilməmişdən öncə Yerevanda erməni dilində nəşr edilmişdi. Erməni variantı ilə rusca çap olunmuş "Ocaq" kitabı arasında xeyli fərq var. Təsəvvürə gətirin ki, öz dillərindəki nəşrdə böhtan, yalan, millətimizə





qarşı nifrət daha çoxdur. Z.Balayan hər kəlməbaşı niyyətini gizlətmədən daşnaklara müraciət edib hər erməninin 5 türk öldürməsini şərəf borcu saydığını bildirirdi. Təəssüflər olsun ki, səslənən haraylar eşidilmədi, hətta bəzi hallarda kinayə ilə qarşılandı.

1986-cı ildə yenə də Zəngəzurdan Bakıya dönürdüm. Yolboyu apardığım müşahidələr məni dəhşətə gətirirdi. Dağlıq şəraitdə yerləşən bir ölkənin yolları çox geniş, asfaltı şüşə kimi parıldayırdı. Bu ölkədə neft da çıxarılmırdı. İqtisadi baxımdan əslində yoxsuldur, amma hər kəs öz millətinin xidmətində dayandığından yollar çox abad idi. Elə ki, Gorusu keçib Laçına qədəm qoyurdun, yolların çala-çuxur, ensiz, çox bərbad vəziyyətdə olması bizi cana gətirirdi. "Axı nədən belə olsun", - fikirləşirdik. Laçının Zabux kəndi sanki səfər üstdə idi. Kənd özü boyda çəpərə bürünmüşdü. Təbiətin gözəl guşəsində yerləşsə də, kəndin ab-havasında bir solğunluq var idi. O zaman keçib gəldiyim yolların bu ziddiyyətli görüntüləri barədə "Qonşu qonşuya baxmır" adlı bir məqalə ilə mətbuatda çıxış etdim. Hətta televiziyada da bu yazının oxunmasına məni dəvət etdilər. Amma veriliş baş tutmadı. O zamankı ölkə rəhbərliyində çalışan şəxslərin çox acığına getmişdi ki, "yol nə böyük şeydir, problemə çevirirsiz"?

Nə acılar ki, yol həqiqətən böyük bir məsələdir. Aqillər deyib ki, mədəniyyət yoldan başlayır. Abad yer yolundan bəlli olar. Yol həqiqətən problemdir. Problem olmasaydı, o yolla bu gün Vətənə dönə bilərdik.

1988-ci ilin hadisələri... Tarixin xronologiyasını cızmaq istəmirəm. Ermənilər azərbaycanlılar yaşayan bütün məntəqələri bir-bir gəzərək toplantılar keçirir, soydaşlarımıza belə müraciət edirdilər: "Bizim sizinlə işimiz yoxdur. Siz bu kağıza qol çəkin, təsdiqləyin ki, Qarabağ Ermənistanındır". Təbii ki, öldürülməyinə, minbir əzaba tuş olmağına baxmayaraq, heç bir azərbaycanlı bu bədnam təhrikə qoşulmadı. Əvəzində yurd-yuvasını itirdi. Min cür vəhşətə, dəhşətə düçar oldu. Qərbi Azərbaycan elləri tar-mar edilərək dağıdıldı.

## Bir biləydim ayrılığı kim saldı

İlk vaxtlar qaçqınlara - yerindən-yurdundan perik düşmüş bu biçarələrə münasibət o qədər də xoş olmadı. Çoxu elə bu bəlaya dözməyərək dünyasını dəyişdi. O günləri fikirləşəndə ürəyim tel-tel

olur. Yenə də xəyalıma anam gəlir. Bir insanın taleyi nə dərəcədə uğursuz ola bilərmiş, ilahi? Ötən əsrin əvvəllərində baş vermiş erməni-müsəlman qırğını zamanı nəsil-nəcabətimiz doğma ocağından perik düşmüşdü. Anam Azərbaycanda qaçqın kimi doğulmuşdu. Hər iki babamı ermənilər qətlə yetirmişdilər. Dayılarım itkin düşmüşdü. Neçə qohum-əqrəbamın ermənilər tərəfindən öldürüldüyünü çox sonralar bilmişdik. Ərini, oğullarını itirən nənəm Gülzar qızlarını başına yığıb (sovet hakimiyyətinin qələbəsindən sonra - F.X.) yenidən doğma kəndə qayıtmışdı. Heç ağıla gələrdi ki, əsrin sonlarında həyatın min cür ağrı-acısını görmüş, bəlalarını çəkmiş anam ikinci dəfə qaçqın olacaq? Bir səhər ermənilər bütün kəndin sakinlərini üstüaçıq maşınlara dolduraraq Naxçıvan tərəfə gedən yolun yaxınlığında dərənin içinə tökdülər. Yazıq anam danışırdı ki, bir-birimizin əlindən tutub gedirdik ki, donub ölsək, bizi axtaranlar çox əziyyət çəkməsinlər. Yaşının ahıl vaxtında yurd sitəminə dözməyən anam əslində torpaq, Vətən şəhidi oldu. Son sözü isə içimi bıçaq kimi doğramaqdadır: "Yollar açılsa, bağımızdan bir ovuc torpaq gətirib qəbrimin üstünə tökərsən". Anamın bu son arzusunu əgər yerinə yetirə bilməsəm, övladlarıma bir vəsiyyətim var ki, nə vaxtsa dünyamı dəyişəndə məni anamın yanında dəfn etməsinlər. Nə üzlə qayıdaram onun yanına?!

## Aləm cənnətə dönsə...

Azərbaycan ədəbiyyatında yalnız bir bayatısı ilə möhtəşəm yer tutan Ağabəyim ağanın bu bayatısı yurd həsrəti ilə qovrulan insanların könül havadarıdır:

Əziziyəm Qarabağ,
Şəki, Şirvan Qarabağ.
Aləm cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

İndi bütün dərdlərimiz bir simin üstündə köklənib. Hansı səmtə, hansı tərəfə boylansaq da, bir yolumuz var - Qarabağa getmək! Bu, adi bir səfər, adi bir görüş deyil. İllərdir qəlbimizdə yığılıb qalmış həsrətin, nisgilin bağrını sökmək üçün dikəlməyimizdir. Milli varlığımızın əzəmətini nümayiş etdirməyimizdir. Yüz il belə davam edə Qarabağ





Azərbaycan torpağıdır. "Biz getsək də, getməsək də, o yol bizim yolumuzdur" - deyənlərə söyləmək istərdim ki, daha getmək gərəkdir. Ən uzun sürən ayrılığın da bir sonu var. Olumun da ölüm adlı ünvanı var. Qoy torpağımızı yandırıb lap kül etsinlər, daşımızı, qayamızı, qızılımızı, zinətimizi, varımızı, dövlətimizi talan edib aparsınlar, necə ki, aparıblar. Vətənin başı sağ olsun. Vətən oğlunun əli silah tutsun.

İndi təbiətin də, mənim yaşımın da elə vədəsidir ki, ruhumuz hər havaya qanad açmaz. Böyük Səməd Vurğun demişkən:

Könlüm keçir Qarabağdan,
Gah o dağdan, gah bu dağdan.
Axşamüstü qoy uzaqdan,
Havalansın Xanın səsi,
"Qarabağın şikəstəsi".

**2006.**

## DAĞLAR BİZİ ÇAĞIRIR

Yazın qəribə qüdrəti var. Təkcə torpaq oyanıb sellər, sular çağlamır. Adamın ruhunda da qəribə bir oyanış baş verir. Bütün fəsli şəhərdə can rahatlığı ilə yaşasan da, elə ki Novruzun ətri gəlir, varlığında bir gizilti yaranır. Doğma yerlər, xüsusilə də doğulduğun od-ocaq səni bir maqnit gücü ilə özünə çəkir. İyirmi ilə dönür ki, belədir. Novruz sevinclə, şadlıqla bərabər bir xiffət, bir nisgil də gətirir bizlərə. Çünki ürəyin atlandığı yerə, xəyalının qopmadığı ünvana nə səsin yetişər, nə əlin çatar...

Elə ki yaz gəlir, ruhun bədəndə oynayır. Gündüzlər harada olmağından asılı olmayaraq yuxularında doğma yurddasan. Novruz bayramı bütün xatirələrimizi soğan qabığı kimi soyur. Az qala üzünü küləyə tutub haylamaq istəyirsən: "Bir uçaydım bu çırpınan yelinən. Bir görəydim bizim ellər yerindəmi?" Amma nə fayda. Əlimiz heç nəyə çatmır. Şəhərli dostlarım məni qınamasın, Novruzunku kənddir. O yerdə ki, təbiət var, yaşıllıq var, yazın gəlişini pıçıldayan qaranquşlar ötür, qışın qar bağrını yaran bənövşələr boylanır, Novruz da ilkin ora üz tutur. Novruz təbiət bayramıdır. Heç fikir veribsiniz onun ilaxır

çərşənbələrinin adına: Su, Od, Yel, Torpaq. Bunların qovuşuğu təbiətdir, həyatdır. Novruzun bütün mərasimləri təbiətlə bağlıdır. Çeşmələrdən su gətirmək, su üstündən tullanmaq, həyətlərdə tonqal qalamaq, torpağın qayğısını çəkmək. Yox, bunlar hamısı kənddə daha gözəldir. Şəhərdə hansı bulaqdan su gətirəcəyik, hansı dağın başında tonqal alışdıracağıq? Elə dərd də budur ki, dağlarımızın başı dumanlıdır, doğulduğumuz yerlərə uzanan yollar bağlıdır, yurd yerlərimizdə yağılar dolanır. Hərdən xatirələrin gücü ilə ötənləri yad etdikcə içim qovrulur. Qədim Zəngəzur mahalının ağır elləri gözümün önünə gəlir. Uşaqlıqda elə bilirdim ki, Novruz bayramını təkcə bu bölgədə keçirirlər. Çünki öz evimizdən başlamış qonşulara qədər hamı ona elə ciddi-cəhdlə hazırlaşırdı ki...

Novruza on-on beş gün qalmış qız-gəlinlər ev-eşiyi tökər, xalı-xalçanı günə verər, təmizlik işləri ilə məşğul olar, həyət-bacanı əhənglə ağardar, bağ-bağçanı çör-çöpdən təmizləyər, yaşlılara da kömək edərdilər. Oğlan uşaqlarının işi daha da artardı. Onlar təkcə arxı təmizləyib çöl işlərində valideynlərinə köməklə kifayətlənmirdilər. Hər gün dəstə ilə meşəyə gedib xüsusi kol qırardılar. Onun adına "İtdəyməz" deyərdilər. Novruz bayramında yalnız o koldan tonqal qalayardılar. Həm gec sönərdi, həm də gur yanardı, hisi olmazdı. Uşaqlar o kolları hamının qapısına gətirərdilər. Yeniyetmələr isə beş-on gün dağların başına rezin təkərlər daşıyardılar. Dağların başında alışan tonqallar bir həftə sönməzdi. Hər dəfə ona baxanda fərəhlənərdik. Bilirdik ki, qonşu kənddəki ermənilər o tonqalları gördükcə paxıllıqdan çatlayırlar.

Nənələrin də işi çox olurdu. Boxçalar bağlanırdı. Qonum-qonşuya, qohum-əqrabaya sovqatlar tutulurdu. Bayram axşamı hamı təzə geyinərdi. Novruzda bütün həyətlərdən bihuşedici ətirlər gələrdi. Təndirlərdə nələr bişirilmirdi: çöçə (şəkərburaya oxşayır, içi ya qozdan, ya da lobyadan hazırlanır - F.X.), şirinçörək, həsti qalın, fəsəli, qoğal... Soğan qabığından yumurta boyanardı. Bu da iki rəngdə olardı: ya sarı, ya da qırmızı. Boşqablarda buğda cücərdərdilər. Buna biz tərəfdə "boşqab çəməni" (səməni) deyərdilər. Xüsusi torbada qoz, fındıq, müxtəlif ləbləbi, şirniyyat yığılardı. Papaqatdıya gələnlərin sovqatı xüsusi hazırlanardı. Torbanı atdıqdan sonra oğlanlar qapını elə möhkəm tutardılar ki, ev sahibi heç vaxt bilməzdi ki, ondan sovqat istəyən kimdir. Bütün evlərdə plov dəmlənərdi. Amma buna





baxmayaraq, yaxın qohum-qonşular bir-birlərinə bir boşqab plov payı göndərərdilər. Səbəbi də bu idi ki, hərəsinin öz dadı var.

Novruzda biz tərəflərin özəl hazırlığından biri də itburnudan düzəldilmiş turşudur. Kənddə bunu beş-on evdə hazırlayardılar. Böyük qazanlarda bişirilən bu dadlı təamdan hamıya pay verilərdi. Adı turşu olsa da, özü şirin idi. Çünki içinə müxtəlif ədvalar, düyü və şəkər tozu vurulurdu. Novruzda analar doşab halvası hazırlayardılar. Bayramdan qabaq hamı rəhmətə gedən doğmalarını yad edərdi, bu halva oradaca uşaqlara paylanardı. Bayram çörəyinin hazırlanması tamam başqa cür olardı. Onun xəmirini suda yox, süddə yoğurardılar. Deyilənə görə, bunun da öz mənası var idi: yeni başlanan il bərəkətli və bolluq olsun.

Bayram axşamı kəndin özündə bir gözəllik olardı. Həm həyətlərdən xoş ətirlər gələrdi, həm də bayram ocaqlarının atəşi dağ başında ərşə ucalan tonqalların şəfəqlərindən nur içərək kəndin simasına qəribə coşqunluq gətirərdi. Həmin axşam qulaq falına çıxan qız-gəlinin ovqatı xoş olsun deyə, evlərdə nəhs sözlər danışılmazdı. Hamı bir-biri ilə mehriban rəftar edərdi. Aylarla küsülü olanlar barışardılar. Axır çərşənbənin sübhü qızlar səhəng götürüb bulağa gedərdilər. Sudan atlanar, əl-üzlərini yuyar, səhəngin dibinə bulağın gözündən 7 kiçik daş seçib atardılar. Həyətə su səpilər, çay qoyulardı. Daşlar isə unluğa, bal, yağ qazanına, çörək tabağına, evin künc-bucağına atılardı ki, nə qədər bu daşlar tərpənmir, evin bərəkəti də o qədər ömürlük olsun. Balaca uşaqların sevinci lap aşıb-daşardı. Onlar əl-ələ tutaraq qapıları döyər və deyərdilər: "Çərşənbə çəliyimi ver". Ev sahibi də həmin uşaqlara mütləq ləbləbi, şirniyyat, meyvə verərdi. Sovqatın içində boyanmış yumurta olmasaydı, onlar israr edib mütləq yumurta paylarını da alardılar.

Kənddə bir adət də maraqlı idi. Bayram axşamı çoxdan gözaltı edilmiş qızların evinə elçi gedərdilər. Bunun da səbəbi var idi. Bayramda heç kim acıdil, sərt olmur, qapıya gələni peşiman qaytarmazdı. Hansı ailədən qız almaq müşkül məsələ idi, işi elə qurub düzərdilər ki, bayram axşamında elçi getsinlər. Nişanlı qızlar da öz istəklilərinə sovqat göndərərdilər. Qız evinə gəlmiş sovqat bağlamasını boş qaytarmazdılar. Burada bir özəllik də var idi: qız istəklisinə mütləq öz toxuduğu naxışlı corabı və yaxud da başqa bir libas göndərərdi. Bu, qayda idi. Oğlan evində həmin hədiyyəyə baxar, qızın əl qabiliyyətinə qiymət verərdilər. Bayram təntənəsi on günə kimi davam edərdi.

Novruz adı gələndə bütün varlığım göynəyir. Küncütlü qovurğanın ətri, qapımızda alovlanan tonqalın şəfəqləri, təndir damından ətrafa yayılan bihuşedici rayihələr, bir də anam yadıma düşür.

Gözlərimi yumuram, xəyalımda da olsa kəndə gedirəm. Amma nə qədər cəhd göstərirəmsə də, o yerləri bağrıma basa, ətrini duya bilmirəm. Tanrının möcüzəsi baş verəydi, sahibsiz qalmış o dağların başında yenə tonqallar alışaydı. Elə ki, yaz gəlir, Novruzun ətri duyulur, dağlar bizi çağırır...

2007.

## HAQQA KÖRPÜ SALANLAR

Haqsızlığın üstündən haqqa körpü salanların - şəhidlərimizin əziz xatirəsi qəlblərdə, özləri göylərdədir. Həyatları hesabına düşmənin qara əməllərini bəyan edərək al qanları ilə Bakımızı qara bayraqlı, qırmızı qərənfilli şəhərə döndərən şəhidlər. Bir şairin sözləridir ki, Əzrail bir olar, amma 1990-cı ilin 20 Yanvarında Bakıya sanki əzraillərdən ibarət böyük bir qoşun göndərmişdilər. O zaman təkcə Bakı deyil, bütöv Azərbaycanın dağı, dərəsi, yeri, göyü bir sim üstə köklənərək eyni ahənglə hayqırırdı. Öldü var, döndü yoxdur. Vətən uğrunda can verənin eləcə canı gedər, ruhu qalar, əməli yaşayar. Bu birliyə, bu qüdrətə o gün adi gözlə baxmışdıq. Bu gün isə - 17 il bundan əvvəl baş verənləri heyrətlə xatırlayır, ölümün üstünə şax gedənlərin qəhrəmanlığından, şücaətindən həm qürur duyuruq, həm də kədərqarışıq hisslər keçiririk.

Başı çox bəlalar görmüş Azərbaycan zaman-zaman düçar olduğu qasırğalardan, tufanlardan, haqsızlıqlardan məhz fədakar övladlarının şücaəti sayəsində qalib çıxıb. Sinəsinə min bir dağ çəkilsə də, ciyər-paraları şil-küt edilsə də, səmasının dincliyi pozulsa da, üzləşdiyi bütün yaramazlıqların əhatəsindən sıyrılaraq öz ləyaqətini, qürurunu saxlaya bilib, başını həmişə dik tutub. Bu məğrurluğu, vüqarı düşmənin gözünə ox olub, dostu sevindirib, doğmasını düşündürüb. Vətənin övladları o zaman azad yaşamaq, müstəqil olmaq istəyirdi. Azadlığa uzanan yollar isə heç vaxt hamar və düz olmur. Odlardan, tikanlardan, ölüm püskürən tankların və mərmilərin, topların hədəfindən keçib. Elə bu çətinliyə görə də əldə edilən azadlığın şirinliyi əvəzsizdir. Türk dünyasının





böyük şairi Hüseyn Cavidin misralarıdır:

Azadlıq öylə nazlı afət ki, tək vüqar,
Qan tökülmədikcə üzə gülməz o işvəkar!

O qanlı-qadalı qış gecəsində doğulan körpələrin indi 17 yaşı var. İlk səslənişdə inanmaq istəmirsən ki, aradan bu qədər illər keçib. Sanki hər şey dünən olmuş kimi təptəzədir. Hələ də gözlərimiz önündən boz havalı, qüssəli Bakının o qəhərli günləri çəkilmir. 20 Yanvar, əslində, millətimizin qürur və şərafət günüdür. Çünki nail olmaq istədiyimiz azadlığı kimdənsə pay, sovqat, bəxşiş kimi almamışıq. Onu qanımızla, canımızla, torpağa tapşırdığımız müqəddəs əmanətlərimizlə əldə etmişik. Paytaxtımızın Dağüstü parkında öz varlıqları ilə hopduqları torpağı millətin hünər və şərafət dastanına çevirən şəhidlərin ruhu ilə qazanmışıq. Ötən əsrin əvvəllərində də bu yerlərdə erməni daşnaklarının və bolşeviklərin güdazına getmiş soydaşlarımız torpağa tapşırılmışdı. Amma sovet rejiminin sərt qanunları yaddaşımızın üstündən qara xətt çəkmişdi. Torpaq isə heç nəyi unutmadı. Yeni şəhidlərini qoynuna alanda naməlum şəhidlərin dağılmış sümükləri üzə çıxdı. Bu, tarixin ən ağır ittihamı idi. Amma bu ittiham qarşısında bizim suçumuz yox idi.

O gecənin səhəri Bakının çox təzadlı bir rəngi var idi. Havanın ovqatından ürəksıxıcı bir bozluq, ona həmahəng atəş səsləri, küçələrdə zirehli maşınlar, yad əsgərlər, qara bayraqlı evlər, damlar, pəncərələr, şəhidlərin qanı tökülmüş torpağa döşənmiş al qırmızı qərənfillər və bir də ağır ləngərli insan izdihamı. Bu vahiməli günlər heç vaxt gözlərimiz önündən çəkilmir. İlk dəfə şəhidlərin şərəfli ölümləri önündə sağ qaldığımıza görə xəcalət çəkdik. Bizim hər birimiz həyatla ölümün qovuşuğunda çırpınan millətimizin birliyinin, eyni dərdin, fəlakətin içində candan, qandan yaratdıqları həmrəyliyin şahidi olduq. O gün millətimizin Azərbaycan adlı müqəddəs bir anası var idi. Məhz yeganə anası... Yaşından asılı olmayaraq hamımız bu mərd və dərdli ananın başına qara şal bağlatdırmış qatillərə, qaniçənlərə nifrət bəsləyirdik. O gün bəbəsindən ahılına kimi hamı döyüş ruhunda idi. O gün insanlar elə qorxmaz, cəsarətli, vüqarlı görünürdülər ki... Dərd bizi ağlatsa da, ürəyimizi yesə də, gözümüzü göynətsə də, vüqarımızı əyə bilməmişdi. Bütün şəhər, bəlkə də bütün Azərbaycan şair Məmməd Aslanın "Ağla,

qərənfil, ağla" şeiri ilə nalə çəkirdi:

Bu günahsız qanlara,
Bu didilmiş canlara,
Bu cansız cavanlara,
Ağla, qərənfil, ağla!

Həmişə 20 Yanvardan danışanda xəyalıma ilkin gələn xalq yazıçısı, unudulmaz müəlliməmiz Əzizə xanım Cəfərzadə olub. Onun yanıqlı səsi, çəkdiyi bayatılar ürəyimizdən həm tikan çıxarırdı, həm də sinəmizə köz kimi sıxılırdı:

Arazam, keç üstümdən,
Keç, karvan, keç üstümdən.
Bu dərdi mən əkmişəm,
Dəryaz al, biç üstümdən.

Yaxından tanıdığımız kövrək təbiətli Əzizə xanımı o dərəcədə pərişan görməmişdik. Fələkətin əlində yumağa dönmüş ağbirçək anamız dərdlərin içində əriyə-əriyə düşmənə meydan oxuyurdu: "Sən məni dəryaz kimi biç, nə qədər bacarırsan, biç. Amma mənim şəhidlərimin qanı torpağa toxum kimi düşüb. Hər yerdən boy verib cücərəcək". Əlləri ilə ağ saçlarını üzüaşağı çəkən Əzizə xanımın o halı mənə Azərbaycan adlı bir məmləkətin sanki öz şəlalələri, dənizləri ilə özünü boğmaq qəzəbini nümayiş etdirirdi. O günlər Əzizə xanım tək deyildi. Tələbələri, həmkarları başına toplaşmışdı. Anamız Azərbaycanın naləsi sanki bu qadının bayatılarında dil açırdı: "Boyuna qurban, oğul, boyun torpaq aparır".

Şairə Mədinə Gülgün "Şəhid balaları" adlı şeiri ilə içində haray salan tufanın ağısını çəkirdi:

Dərdimi necə deyim, vallah, deyə bilmirəm,
Mən necə üsyan edim yerə, göyə, bilmirəm,
Başıma qara salıb qara geyə bilmirəm,
Bu, şəhid balaların ölən çağı deyildi.

O gün Azərbaycanın səsini içində boğurdular ki, harayını kimsə





eşidib köməyinə gəlməsin. Səsimiz içimizə düşsə də, o ağır məqamlarda jurnalist həmkarlarımız dəridən-qabıqdan çıxdılar. Xüsusilə də mərhum Elmira Əmrahqızının 1990-cı ilin yanvarındakı fəaliyyəti əsl qəhrəmanlıq nümunəsi idi. Bakının ağır dərdləri Elmira xanımın qəhərli səsi ilə dünyaya yayılırdı. Azərbaycan televiziyası və radiosunun susdurulduğu bir vaxtda "Azadlıq" radiostansiyasında bu zərif həmkarımız titrək və kövrək səslə az qala hönkürürdü: "Bakını qana bələdilər". O vaxt təkcə xarici ölkələrdə yaşayan soydaşlarımız deyil, Azərbaycanın özündə də məhz Elmira Əmrahqızını dinləyir, onun həyəcan dolu məlumatları əsasında Bakıda baş verənlərdən xəbər tuturdular. "Azadlıq" radiostansiyasında çalışan Mirzə Xəzərin də o dövrdəki fəaliyyətini unutmaq olmur. O gün xaricdə yaşayan Azərbaycan vətəndaşları da öz məmləkətlərinin dərdlərini dünyaya yaymağa çalışırdılar.

Ölümlə həyat arasında çırpınan insanlar çox əziyyətlə də olsa, Bakıda törədilən vəhşiliklərin bir qismini videokameraların yaddaşına köçürməyə çalışırdılar. Heç bir ölüm qorxusu onların damların üstünə çıxıb yad əsgərlərin qəddarlığını, vəhşiliyini əks etdirən kadrları çəkməsinə mane ola bilmirdi. Fövqəladə vəziyyət şəraitində Ali Məclisin təcili toplantısında xalq artisti Zeynəb Xanlarova böyük şücaət göstərərək öz şəxsi kamerası ilə həmin iclası lentin yaddaşına köçürdü. Görkəmli müğənnimiz bir il şəhidlərə yas saxlayaraq oxumadı. O, bu sükutu ilə qaniçənlərin murdar sifətlərinə sanki tərs sillə vurdu.

Xalq şairi Qabilin qələmə aldığı "Mərsiyə" şəhidlərin yas məclisində müntəzəm səslənirdi. Analar öz dərdlərini bu şeirin misraları ilə dilə gətirirdilər:

Öldü gənc, öldü uşaq, öldü gəlin-qızlarımız;
Ölmədi! Şanlı şəhid oldu neçə yüzlərimiz,
Bu saat Kərbübəla düzləridir düzlərimiz;
Necə qan ağlamasın üzlərimiz-gözlərimiz?!
Gecəni atəş ilə qırmızı qan eylədilər,
Xalqımı, millətimi güllləbaran eylədilər!

O gün Bakının bütün küçələrinə sanki qərənfil yağışı yağırdı. Azadlıq meydanından başlamış ta Şəhidlər xiyabanınadək baş-başa

döşənmiş qərənfillər Azərbaycan xalqının torpağa axıdılmış qanının izi idi. Hər damla qan isə bizi intiqama, qisasa çağırırdı. Millətin göz yaşları qərənfillə qoşa düzülmüşdü o yerlərə. Dünya özü dəhşətə gəlmişdi bu mənzərədən. Qatillər yalnız igidlərə, uşaqlara, ağbirçəklərə deyil, həm də mənəviyyatımıza, nəğmələrimizə, ovqatımıza güllə atmışdılar. Bizim bütün ruhumuz eyni simin üstündə köklənmişdi. Gözlərimizdən eyni dərdin ağırlığı asılmışdı. İndi fikirləşəndə heyrətə gəlirəm ki, ruhumuzu, yazıb-yaratmaq eşqimizi, yaşamaq həvəsimizi o sarsıntıdan necə çıxara bildik? Mənəvi qürur hər şeyə qalib gəlir. Bizi əysələr də, sındıra bilmədilər. Azərbaycanın bütün ziyalı təbəqəsi, mədəniyyət işçiləri, yazıçı və şairləri düşmənə qarşı mübarizəyə qalxmışdı. Düşmən üstünə gedəndə ağlamazlar. Bəlkə də bu səbəbdən idi ki, xalq şairi Məmməd Arazın bir şeirinə bəstələnmiş mahnı ruhumuzu ölməyə qoymurdu:

Bu torpağın son qurbanı mən olsam,
Öz odumda yanıb külə tən olsam,
Eldən ötən güllələrə dən olsam,
Ata, millət, oğul deyib ağlama!
Ağlamağın yeri deyil, ağlama!

Bu təmkinə çağırışın, bu göz yaşına son qoymağa yalvarışın bir məqamı bəlli idi. Qoy pəncərəni döyən küləklər də ağlasın, eyvanına qonan quşlar da sızlasın, lap ürəyində ağlasan da, qoy içində qalsın, yadlar sənin göz yaşını görməsin. Çünki Məmməd Araz üzünü millətinə tutub qətiyyətlə deyirdi:

Əyilməkdir ağlamağın tərs üzü,
Dərdin dartıb üzməyəni dərd üzür.
Ağlayanı tez də tapır dərd-hüzür,
Bəlkə Tanrı belə yazıb, ağlama!
Səsini boğ, millət qızı, ağlama!

1990-cı ilin qanlı şənbə gecəsi, əslində, azadlıq şimşəyinə döndü. Çünki müstəqillik arzusu ilə yaşayan insanlara bu arzuya çatmaq üçün ölümlə, qan-qada ilə üzləşmək lazım gəlmişdi. O şənbə gecəsi Azərbaycanın qəhrəman oğullarının ruhu da silahsız, əliyalın ölüm





üstünə gedən igidlərlə birgə idi. Nə istəyirdi bu xalq? Azadlıq! Elə buna görə də onun sinəsinə güllə sıxdılar. Oğlunu, qızını şil-küt etdilər. Amma şəhidlər öz ölümləri ilə sübut etdilər ki, heç bir qüvvə onları bu müqəddəs yoldan döndərə bilməz. Onların sinəsindən axan al qana buludlar kişnədi, göy qan ağladı, vətən torpağı qara bağladı. Bununla belə, millət təsdiqlədi ki, azadlıq yolunda ölümə də hazırdır. Yalın əllərlə tanklar üstünə atılan cavanların ölümü göstərdi ki, azadlıq bu millətə halaldır. Xalq şairi Bəxtiyar Vahabzadə "Şəhidlər" poemasında yazırdı:

Şəhid rütbəsinə qalxan cavanlar,
Sinəsi hər zülmə qalxan cavanlar.
Böyük Nəsiminin, ulu Babəkin,
Xeyir-duasını aldı o gecə.
Zamandan irəli sıçrayıb yəqin,
Tarixdə tarix tək qaldı o gecə.

Şairlərimizdən Nəbi Xəzri, Xəlil Rza Ulutürk, Cabir Novruz, Tofiq Mütəllibov, Şahmar Əkbərzadə, Fikrət Qoca və digərləri də o ağır günlərin dərdini misra-misra dilə gətirirdilər. Nüsrət Kəsəmənli yazırdı: "Bakı qanlı paltarını geyirdi... Qanlı köynəyinə bürünənlər şəhidlik zirvəsinə gedirdi". Çünki orada onların ikinci həyatı var idi.

O gecə Azərbaycanda başqa bir şərəfli ad da doğuldu. Şəhid anası. Xalq şairi Fikrət Qoca 20 Yanvarla bağlı bir xeyli şeir yazıb. Onun "Şəhid anaları" şeiri kəsb etdiyi mənasına görə daha təsirli və yaddaqalandır:

Dərd daş atar, ayna sınar,
Sınar evin sonası da.
Dönər şəhid anasına,
Dünyaya gələr analar.

Bəli, saçlarına taleyin ağır qarı yağmış, boğçasına qəm bağlamış şəhid anaları övlad bağçasına dərd əkdilər. Amma dözdülər, özlərini itirmədilər, əyilmədilər, onların övladları vətən üçün doğulmuşdu. Təsadüfi deyildi ki, gənc şair Ülvi Bünyadzadənin ölümündən xeyli əvvəl yazdığı bir şeiri bu mərd insanların məramı kimi səslənmişdi:

Həyat üçün doğulmuşuq,
Vətən üçün ölməliyik.

Bax, bu ideya, bu istək, bu məqsəd naminə insanların ürəyində ölüm qorxusu yox idi. Xalq şairi Sabir Rüstəmxanlı qanlı yanvar gecəsini "Ölən qorxumuz" adlandırıb. Şəhidlər həqiqətən heç vaxt ölmürlər. Ona görə də şair haqlı olaraq yazıb:

Kim deyir yolları qırıldı qısa,
Onlar əbədidi, batmayın yasa.

Unuda bilmədiyimiz və ürəyimizə toxtaqlıq gətirən məqamlardan biri də Qazaxıstan Yazıçılar İttifaqı İdarə Heyətinin birinci katibi Oljas Süleymenovun Azərbaycanda baş verən hadisələrdən xəbər tutan günün səhəri Bakıda olması idi. O, həmkarları, ziyalılar və gənclərlə görüşərək dərdimizə şərik çıxdı. Yaşadığı mehmanxananın divarlarına sovet əsgərlərinin tuşladığı avtomatları gözləri ilə görərək deyirdi: "Qışdan sonra mütləq bahar gələcək". Dəryalarımız qurumasın. Bir arx buxarlansa, dünya dağılmaz ki?!

O günlərdə Ramiz Quliyevin tarı, Habilin kamanı, Kamil Cəlilovun qaboyu millətin dərdini öz yanıqlı avazında dilə gətirməyə başlamışdı. Hər kəsin ürəyindən bu keçirdi ki, qoy haqqın fəryadı dilə gəlsin. Hər pərdədə təzə güllər bitsin.

Qanlı şənbə gecəsi ilə bağlı poeziyamızda nümunələr çoxdur. Nəsr əsərləri də var. Publisistikamız daha fəal olub. Amma təəssüf ki, teatrlarda tamaşaya qoyulacaq uğurlu bir əsərə hələ rast gəlinmir. Müxtəlif rejissorların poetik nümunələr əsasında hazırladığı kompozisiyalar olsa da, bu faciənin dramaturji mətndə əks-sədası və səhnə həlli çox vacibdir. Yəqin ki, gələcəkdə teatrların repertuarında biz bu məsələnin həll ediləcəyini görəcəyik. Xalq şairi Nəriman Həsənzadənin "Qafqaz" adlı şeirində oxuyuruq:

Qanlı Yanvar qan içindən yadigardı,
ona - ləkə, bizə - vətən yadigarı.
O şanlı gün, o kin-qisas unudulmaz, Azərbaycan!
Gör nə deyib qoca Qafqaz, Azərbaycan:





qar nə qədər çox yağsa da, yaza
qalmaz, Azərbaycan!

Ruzgarın hər gedişinin sonrasını şairlər daha tez duyurlar. Bəlkə də buna görədir ki, dərdlərimiz, bizə üz vermiş faciələr poeziyamızda daha çox dilə gətirilib, nəinki nəsr əsərlərində. Təki millətin ruhu ölməsin. O gecə güllə yağışı altında dünyaya gələn körpələrin arasında oğlan cocuqları daha çox idi. Yeni əsgərlər doğulurdu. Dağları aşıb sönən Günəş səhərlər yenidən
məmləkətimizə boylanırdı...

2007.

## İNSANLIĞIN DÜŞMƏNİ

Şərqin böyük təfəkkür sahibi Sədi Şiraziyə məxsus fikirdir:

Ermənidir yer üzünün Əhriməni,
İnsanlığın düşmənidir, düşməni.

"Əhrimən" sözünün mənası şər və zillət mənbəyi deməkdir. Millətimizin taleyinə yazılan amansızlığın bəlkə də ən birincisi onun ermənilərlə qonşuluqda yaşaması, öz ərazisində, öz halal torpağında bu namərdlərə yer verməsidir. Məşhur tarixçi V.L.Veliçko yazırdı: "Ermənilər haqqında çox-çox qədimlərdən pis bir fikir yaranıb və şübhəsiz ki, bu əsassız deyildir. Ona görə ki, əsası olmasaydı bütöv bir xalq haqqında həm də müxtəlif dövrlərdə belə bir fikir yarana bilməzdi". Məhz belə bir mənfur təbiətə malik olan ermənilər həmişə xalqımıza, millətimizə qarşı müxtəlif soyqırımlar, terror aktları, repressiyalar həyata keçiriblər. Böyük rus şairi Puşkinin "Sən qorxaq, sən kölə, sən ermənisən" sözləri isə illərdir ki, sülhsevər insanların dilinin əzbəridir. Ermənilərin alçaqlığı, vəhşiliyi, namərdliyi haqqında dünyanın çox məşhur insanları öz fikirlərini bildiriblər. "Qobusnamə"də (1082-1083-cü illərdə yazılıb) oxuyuruq: "Erməni bədfel, kündə bədən, oğru, gözügötürməyən, bir ayağı qaçmaqda olan, əmrə baxmayan, yersiz hay-küy salan, vəfasız, ziyankar, söyüşsöyən,

ürəyi kinli, ağasına düşmənçidir".

Belə bir mənfi xüsusiyyətlərə malik olan etnik qrup zaman-zaman millətimizə qarşı müxtəlif bəd əməlli niyyətlər və xəyanətlər həyata keçiriblər. 1813-1828-ci ilə qədər 410 min kvadrat kilometr sahəsi olan Azərbaycan torpağı 86,4 min kvadrat kilometr qalana qədər erməni təcavüzkarları və onların tərəfdarları tərəfindən ya parçalanmışdır, ya da işğal edilmişdir. 1905-1918-ci illər arasında ermənilər yarım milyon azərbaycanlını qətlə yetirmişlər. 1918-ci ildə təkcə Zəngəzurda 115 azərbaycanlı kəndi tamamilə yer üzündən silinmişdir. Tarixçilər yazırlar ki, harda bir terror həyata keçirilirsə, mütləq orada erməni barmağı var. Bu namərd millət ömrü boyu vəhşiliklə məşğul olub. Onları xalq, millət adlandırmağın özü bir yanlışlıqdır. Ermənilərin içindən çıxan "ziyalıların, yazıçıların" da arasında insanlığa yaxın olanı, demək olar ki, azdır, bəlkə də yoxdur. Məşhur şairləri Silva Kaputikyan ömrü boyu erməni analarını məcbur edirdi ki, siz hər dəfə öz balalarınıza süd verəndə mütləq onların qulağına pıçıldamalısınız: "Türk sənin düşmənindir. Böyüyəndə qisas almalısan, öldürməlisən, qəsd etməlisən, "böyük Ermənistan" yaratmaq üçün türkü son nəfərinə qədər qırmalısan. Bütün torpaq bizimdir". İnsan adlandırılmağa heç bir məziyyəti olmayan Zori Balayan isə əlinə qələm alan gündən Azərbaycan xalqının ünvanına ağzına gələn hədyanları, söyüşləri yazmaqla məşğuldu. Hələ sovet dövründə İrəvanda erməni, Moskvada rus dillərində çap etdirdiyi "Ocaq" kitabında erməniləri vəhşətə, cinayətə, işğalçılığa çağıraraq onları qeyri-insani hərəkətlərə təhrik edirdi. Zori Balayan o kəslərdəndir ki, sinəsində ürək, üzündə abır-həya, sözlərində həqiqət yoxdur. Beləl追lərini Allah yox, iblis yaradıb. Və bu iblis xislətlilərin qanında ancaq insanlara pislik və nifrət dolaşmaqdadır. Zori Balayan kimilərini xalqımız yetərincə tanıyır. Yadımdadır ki, 2001-ci ilin 9 yanvarında Rusiya Prezidenti Vladimir Putin Azərbaycana gələndə Şəhidlər xiyabanını ziyarət etmişdi. On bir gün sonra isə "Nezavisimaya qazeta"da "Molçaniye-i qresno i opasno" adlı yazısı çap edilmişdir. Həmin vaxt öz hiddət və qəzəbini çox kobud sözlərlə ifadə edən Zori Balayan V.Putini ittiham edirdi və heç vəchlə razılaşa bilmirdi ki, Rusiya prezidenti nəyə görə Şəhidlər Xiyabanında ehtiramla baş əyib. Təəssüf ki, o vaxt bu hadisəyə münasibət respublika səviyyəsində adi şərhlərlə ötüşdü. Halbuki ən azı rus mətbuatı ilə əməkdaşlıq edən





jurnalistlərimiz bu hadisəyə öz sərt mövqelərini bildirməli idilər. Yenidən Zori Balayanı "yad" etməyimizə səbəb bu yaxınlarda internetdə oxuduğumuz tükürpədici məlumatlar oldu. Zori Balayan 1996-cı ildə "Ruhumuzun canlanması" adlı bir kitab yazıb. Oradakı bir məlumatı olduğu kimi qələmə alırıq. (Bəri başdan ürəyi zəif olanların bu yazını oxumamasını məsləhət görürük. Çünki insan adlanan varlıq bu vəhşiliyə necə tab gətirə bilər?! - F.X.) Türkün qatı düşməni Zori Balayan yazır: "13 yaşındakı türk uşağının (bu uşaq Xocalı soyqırımı vaxtı ermənilər tərəfindən girov götürülmüşdür - F.X.) başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqə sonra qan itirərək öldü. İlk sənətim həkimlik olduğuna görə humanist idim. Ona görə də türk uşağına etdiyim bu əməllərə görə də özümü xoşbəxt saymadım. Amma ruhum xalqımın bir faizinin belə qisasını aldığı üçün sevincdən qürurlanırdı. Dostum Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və onu türklə eyni kökdən olan itlərə atdı". Belə bir mənzərəni təsəvvür etmək çətindir. Heç faşistlərdən üzü bəri yer üzü bu cür vəhşilik görməyib. Zori Balayanın bu qara etirafını başqaları eşitmirmi? İnterpol axtarışında olan bir caninin tutulması nə qədər çətinmiş? Beynəlxalq təşkilatlar bəzən elə qəddarlığa göz yumub, elə adiliklərə dəhşət donu biçir ki, qalırsan məəttəl. Azərbaycan bayrağını təhqir etdiyinə, millətinə söydüyünə, doğma yurdunu işğal etdiyinə, valideynlərini, qohum-əqrabasını qaçqına döndərdiyinə, daha hansı sitəmlərə və xəyanətlərə görə dərindən sarsıntı keçirərək əsəbləşib normal vəziyyətdə olmadığına görə bir erməni dığasına qəsd edən Ramil Səfərovun (hərçəndi, biz buna da haqq qazandırmırıq - F.X.) hərəkətləri ağırdır, yoxsa yazıçı Zori Balayanın günahsız körpələri diri-diri soyaraq qətlə yetirməsi, itlərə yedirtməsi? Eləcə də üçyaşlı körpənin ürəyini çıxararaq boynuna asan və bütün bu vəhşiliyi ananın gözləri qarşısında yerinə yetirən zori balayanlara canavar, ayı, vəhşi belə demək olmur. Çünki təbiətdə eyni cinsli heyvanlar da bir-biri ilə bu cür qəddar davranmırlar. Hətta, ən vəhşi heyvanın qarşısına insan cocuğu çıxanda ona toxunmur. Əksinə, aparıb öz balaları ilə birlikdə böyüdür. Bu faktlarla bağlı nə qədər sənədli filmlər çəkilib, əsərlər yazılıb.

26 fevral 1992-ci il Xocalı fəlakəti məhz zori balayanların illər boyu təbliğatı nəticəsində türk millətinə qarşı yeridilən soyqırım siyasətinin tərkib hissəsidir. Bu faciə zamanı şəhid olmuş, əsir və girov düşmüş,

qətlə yetirilmiş insanların rəqəmlə ifadə olunmuş siyahısına baxanda adamın varlığından gizilti keçir. Lentə köçürülmüş məqamları sadəcə seyr etmək də mümkün deyildir. Çünki tükürpədici mənzərələr adamın varlığına vahimə gətirir. İnsan adlanan bəşər övladı bu qəddarlığı necə bacarır?

Gözəl Qarabağımızın dilbər guşələrindən olan Xocalı ötən əsrin əvvəllərində də dəfələrlə erməni daşnakları tərəfindən yandırılıb, viran edilib. Xocalı 1905, 1918-ci illərdə ermənilər tərəfindən tar-mar olunub. Amma həmişə də xocalılar ara sakitləşən kimi doğma yurda qayıdıb. Xocalını bərpa edərək yenidən yaşamağa başlayıblar. Xocalı həm də qədim abidələrlə zəngin olan bir yurd idi. Burada ulu keçmişimizin yadigarı olan müxtəlif kurqanlar var idi. Tədqiqatçıların apardığı araşdırmalar nəticəsində məlum olmuşdur ki, Xocalı çox qədimdən əcdadlarımızın vətəni olub.

Təəssüf ki, sonuncu soyqırımın nəticələri daha ağlagəlməz, daha acınacaqlı idi. 15 ildir ki, biz bu fəlakətin ağrı-acıları ilə nəfəs alır, onun başvermə səbəblərini araşdırır, müəmmalar qarşısında çırpınır, bir çox sualların cavabını axtarırıq. Bu fəlakət baş verməyə bilərdimi?

Bəllidir ki, ermənilər bütün zamanlarda millətimizə diş qıcırdanda başıbəlalı Xocalı coğrafi mövqeyinə görə əsas hədəflərdən birinə çevrilib. 1988-ci ildə ermənilərin qopardığı torpaq davalı tufan Xocalının da başı üstündə bir fəlakət topasına dönmüşdü. Amma bir çox qəsdlər kimi ermənilər bunu da törətməyə dərhal cəsarət edə bilmədilər. Birinci ona görə ki, Xocalı xocalılar tərəfindən inamla qorunurdu. İkinci də daşnaqlar içimizdəki satqınların sifətlərinə hələ tam bələd deyildilər. Bu o zamanlar idi ki, yerli əhalini silahlandırmaq əvəzinə əlindəki, ovcundakı ov tüfənglərini də alırdılar. Xocalıya qədər ermənilər millətimizin gözünü qorxutmaq üçün bir sıra ağır əməliyyatları həyata keçirdilər. Məsələn, 1988-ci ilin fevralında ermənilərin indi dillərinin əzbəri olan Sumqayıt hadisələrini törətdilər. 1988-ci ilin payızında Qərbi Azərbaycandan üç yüz minə yaxın soydaşımızı min bir işgəncə ilə qovdular. Respublikamızın o vaxtkı rəhbərliyi, başda Vəzirov olmaqla bu binəsib insanlara qarşı son dərəcə biganə və soyuq münasibət göstərdilər. Dağ şəraitində yaşamağa öyrəşmiş əhaliyə Dağlıq Qarabağda məskunlaşmağa imkan vermədilər. Oraya üz tutanları o vaxtkı respublika rəhbərləri Dağlıq Qarabağdan çıxardılar.





1990-cı ilin yanvarında sovet ordusunun köməyi ilə Bakıda faciə törədildi. Dinc əhali qətlə yetirildi, paytaxtımız gülləbaran edildi. Vəzirov milləti qan içində qoyub qaçdı. Nazirlər Sovetinin sədri Ayaz Mütəllibov tökülən qanları ayaqlayaraq Moskvaya getdi. Qayıdanda da heç nə olmayıbmış kimi həsrətini çəkdiyi kresloda əyləşdi. Belə manqurtlaşmış insanların ölkəyə rəhbərlik etməsi əsl faciə idi. Onların yadına millət, Vətən düşmürdü. Maraq ancaq bir istiqamətə yönəlmişdi: ancaq və ancaq ətrafları, can atdıqları hakimiyyət, kreslo marağı idi. Azərbaycan torpaqları isə ermənilər tərəfindən kənd-kənd, rayon-rayon işğal edilirdi. Ölkə rəhbərləri isə heç nədən "xəbərdar" deyildilər. "Biz bilməzdik ki, belə bir faciə ola bilərdi" söyləyirdilər. Bu yerdə yada bir müdrik əhvalat düşür. Bir kişi Əzraillə dostluq edirmiş. Bir gün ondan xahiş edir ki, bilirəm nə vaxtsa canımı alacaqsan, amma məni qabaqcadan xəbərdar et, sonra. Əzrail də ona söz verir. Vaxt ötür, əvvəlcə bir qonşu, sonra o biri qonşu rəhmətə gedir. Qəfildən Əzrail kişinin başının üstünü kəsdirir: "Canını almağa gəlmişəm". "Bəs niyə məni xəbərdar etmədin?" - deyə kişi gileylə soruşur. Əzrail gülür: "Nə qəribə adamsan, yan-yörəndəki qonşularının hamısını aparmışam, bəs bunlar xəbərdarlıq deyildi?!"

Niyə xatırlatdıq, bu ibrət götürülməli rəvayəti? Xocıladan öncə, məhz fevral ayında onun ətrafında olan kəndlər ermənilər tərəfindən dağıdılır, yandırılır, külü göyə sovrulurdu. Cəmilli, Meşəli, Quşçular, Qaradağlı kimi kəndlər yandırıldı. Əhalisi qətlə yetirildi, insanların naləsi ərşə bülənd oldu. O zaman bu bölgədə olan jurnalistlər yazırdılar, qəzetlərə informasiyalar ötürürdülər: Xocalı təhlükə qarşısındadır. Bu şəhərin uzun sürən mühasirəsi, yolların bağlanması niyə bir kimsəni ayıltmır? Niyə ölkə rəhbəri bu şəhərin müdafiəsini təşkil etmədi? Niyə insanların harayı eşidilməz oldu? Bax bu sualların cavabları indi yox, o zaman əməli şəkildə həyata keçirilməli idi. Əlbəttə, onda Xocalı soyqırımı baş verməyə bilərdi. Təəssüf ki, Xocalı soyqırımının dəhşətlə həyata keçirilməsinə rəhbər vəzifədə olanların biganəliyi və xəyanəti də yol açdı.

Başqa bir fakt. Faciədən xeyli əvvəl Azərbaycan televiziyasının müxbiri Qulu Məhərrəmli Xocalıda olarkən Milli Ordunun burada yerləşdirilmiş 15-20 nəfərinin komandiri, baş leytenant Aqil Quliyevlə görüşüb. Aqil Quliyev cəbhədə baş verən uğursuzluqların səbəblərindən danışaraq respublika Prezidenti Ayaz Mütəllibovun

göstərdiyi laqeyd münasibətə öz hiddətini bildirib. "Əgər tezliklə əncam çəkilməsə, baş verə biləcək fəlakətin miqyasını sözlə ifadə etmək çətin olacaq" deyib. Təəssüf ki, o zaman Teleşirkətin rəhbərliyində əyləşənlər də Ayaz Mütəllibova xidmət göstərən dinsiz-imansız, duyğusuz qullar idi. Onlar həmin çıxışın ekranda göstərilməsinə icazə verməyiblər. Faciə baş verəndən iki il sonra biz ilk dəfə o kadrı ekranda gördük. Artıq nə Xocalı var idi, nə də ki, Ayaz Mütəllibov Azərbaycanda idi. Bu haqlı ittihamların, xəbərdarlıqların sahibi Aqil Quliyev də Xocalıda qəhrəmancasına həlak olmuşdu. Cəbhədə göstərdiyi qeyri-adi igidliyə görə Aqil Quliyev ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü. İndi Şəhidlər Xiyabanında uyuyan Əlif Hacıyev, Tofiq Hüseynov, İnqilab İsmayılov, Hikmət Nəzərli Aqil Quliyev kimi Vətən qarşısında öz borclarını ləyaqətlə yerinə yetirərək Xocalı uğrunda həlak olmuşlar. Onlar da məhz ölümlərindən sonra Azərbaycanın Milli Qəhrəmanı adını qazanmışlar.

Dəhşətlisi budur ki, sovet ordusunun 366-cı motoatıcı alayının köməyi ilə ermənilər Xocalıya basqın edərək bir gecədə yüzlərlə insanı vəhşiliklə qətlə yetirdilər. Ölümsaçan silahlardan birtəhər qurtulub qaçanlar da yollarda həlak oldular. Amma o zaman Azərbaycan televiziyası "can rahatlığı" ilə belə bir xəbər yaydı: "Xocalıda münaqişə baş verib, iki adam həlak olub". Halbuki televizayının öz öperatorları da qanlı faciənin müəyyən məqamlarını çəkmişdilər.

Qarabağın aran elləri Ağdamdan keçərək hər yay Xocalıya, Şuşaya, Laçına, Zəngəzura üz tutardılar. İndi Şuşada ermənilər yaşayır. Zəngəzur dustaq olub. Xocalı bayquşlar yuvasına çevrilib. Minillik qədim yaşayış yerlərimiz erməni tapdağı altında əzab çəkir. Əlbəttə, bu yaraların qaysaq tutacağına, nə vaxtsa sağalacağına inanırıq. Amma adamı dəhşətə gətirən odur ki, bizi doğrayan, bizi kəsən bu baltaların sapı bizim meşələrin ağaclarından hazırlanıb. Ermənilərin qol açıb oynamaları üçün bu havanı çalanlar arasında özümüzünkülər də var idi. Bu soyqırımın sürətlə qanad açmasına o zaman dövlətin başında dayanan bəzi qafası boşların əməlləri, xəyanətləri də rəvac verdi. Hərdən də ilin, günün bu vədəsində üzü Ermənistana sarı gedərək Dilicanda ermənilərlə birgə rəqs edib, çörək kəsən, Azərbaycan plovu dadan bəzi "hüquq-müdafiə"çilərinin "Biz ermənilərlə yeni dostluq





ənənəsinin təməlini qoyuruq" söyləməsi acı təəssüf doğurur. Zori Balayanın "uf" demədən dərisini soyduğu 13 yaşlı uşağın harayı ürəkləri deşir. İsveçrənin məşhur şərqşünas alimi Adam Metsin "Müsəlman intibahı" kitabında yazdığı sözlər yada düşür: "Ağ qulların ən pisi ermənidir. Əgər erməni qulunu bircə saat işsiz qoysan, onun xasiyyəti həmin anda ziyankarlığa, pisliyə sövq edəcəkdir". Dünyanın müdrikləri sınaqlardan çıxmış hadisələrə, olmuşlara, olaylara söykənərək ermənilər haqqında belə dəqiq və sərrast söz deyiblər ki, bəşəriyyət ayılsın, birdəfəlik bilsin: Erməni insanlığın düşmənidir!

**2007.**

# ERMƏNİ CİNAYƏTLƏRİNİN APREL PƏRDƏSİ

"Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilərin törətdiyi vəhşilikləri saymaqla bitəsi deyil. Ermənilərin həyasızlığı qabardıqca bəzi tarixi faktları təzədən diqqətə çəkmək gərəkliyi duyulur. Onlar heç bir hədd-sədd gözləmədən bütün dünyaya car çəkirlər ki, güya 1915-ci ildə türklər tərəfindən "erməni soyqırımı" həyata keçirilmişdir. Daşnaklar özləri də dəqiq bilirlər ki, belə bir soyqırımı olmayıb. Əslində "Böyük Ermənistan" xülyasını həyata keçirmək uğrunda "uf" demədən vəhşilik törədiblər. Türklərə, azərbaycanlılara, qarşı min cür fəlakət dolu qəsdlər həyata keçiriblər. Onlar öz tarixi cinayətlərinin üstünü örtmək üçün 24 apreldən bir pərdə kimi istifadə edirlər. Tarixi faktlar isə başqa olaylardan xəbər verir. 1905-1907 və 1914-1918-ci illərdə daşnaklar yarım milyon soydaşımızı qətlə yetirmişlər. 1918-ci ilin martında cəmi üç gün ərzində Bakıda 15 min nəfər azərbaycanlının həyatına son qoyulmuşdur. İndi Ermənistan adlanan ərazidə yaşayan soydaşlarımız ağlagəlməz dəhşətli hadisələrlə üzləşdilər, talanlara, qırğınlara, qaçqınlığa məruz qaldılar. Daşnak hökumətinin Andronik, Dro, Hamazaps, Nejde kimi qaniçən generallarının başçılıq etdiyi quldur dəstələr tükürpədici yanğınlar, qırğınlar törətdilər.

Rəsmi arxiv sənədlərindən məlumdur ki, 1918-ci ilin mart ayında məhz bolşevik bayrağı altında Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda dinc əhaliyə divan tutmaqla

yanaşı, milli mədəniyyət abidələrimiz də dağıdılıb məhv edildi.

Məlumdur ki, 1918-ci ilin noyabrında qondarma erməni vilayəti (Azərbaycan torpaqları hesabına) Ermənistan Sovet Sosialist Respublikasına çevrildi. Bu tarixdə ermənilərin ilk ərazi bölgüsü idi. Əsrlərlə can atdıqları bu məqsədə məhz bolşeviklərin hesabına nail oldular. Vaxtilə erməni tarixçilərinin bəziləri öz vəhşiliklərini etiraf edirdilər. A.Lalayan adlı birisi "İstoriçeskie zapiski" kitabında yazırdı: "... Ermənistan daşnak hökuməti 1918-1920-ci illər arasında Azərbaycan əhalisinin 60 faizini qırmışdır". Ermənilərin qanlı caynaqları 1918-ci ilin mart və aprel aylarında Azərbaycanla bərabər Türkiyəyə - İqdıra, Qarsa, Duzlucaya, Sarıqamışa uzandı. Daşnaklar bu yerlərdə də minlərlə insanın həyatına son qoydular. Məşhur fransız səyyahı qraf De-Şolenin ermənilər haqqında maraqlı fikirləri var. O yazırdı: "Ermənilərin yoxsulluğunu və iztirabını görəndə qəlbimdə çox böyük mərhəmət hissi oyansa da, onlara heç vaxt qanım qaynamırdı, çünki onlarda mənfur bir biclik, biabırçı bir əclaflıq və rüsvayçı bir alçaqlıq vardır". İngilis səyyahı Vilson də ermənilərin alçaqlığı ilə əlaqədar öz fikirlərini bildirmişdir: "Ermənilər acgöz və tamahkardılar, fitnəkar və araqarışdırandırlar. Heç kəsi bəyənmirlər. Onlar xırda bir işi şişirtməkdə istedad sahibidirlər. Münaqişə yaratmağı sevirlər". Maraqlıdır ki, dünyanın tanıdığı, qəbul etdiyi neçə-neçə məşhur şəxsiyyət, səyyah, tarixçi, etnoqraf, yazıçı, şair və siyasi xadim var ki, onlar erməni mənfurluğu haqqında dəfələrlə öz fikirlərini söyləyiblər. Məşhur tarixçi V.İ.Veliçko, rus şairi A.S.Puşkin, ingilis hərbçisi kapitan Dikson və başqaları ermənilərin xarakterlərini açan, onları biabır edən məlumatlar yazmışlar, fikirlər söyləmişlər. Bütövlükdə bu insanlar erməniləri qəddar, yaltaq, oğru, sırtıq, qaniçən adlandırmışlar. Hətta kapitan Dikson 30 sentyabr 1908-ci ildə yazdığı bir məlumatda bildirmişdir: "Ermənilərin alçaqlığı və əclaflığı təbii xarakterlərindən, bir növ genlərindən gəlir". Maraqlıdır ki, ermənilərin özlərinin də xarakterlərini açan bir məşhur deyimləri var: "Harada biz yoxuqsa, ora yaxşıdır". Fikrimizcə, əlavə şərhə ehtiyac yoxdur.

1914-cü ilin 21 fevralında Qarsda və Ərdahanda erməni quldur dəstələri 30 min türkü qətlə yetirib, körpələri oda atıblar. Amerika tarixçisi Dj.Şou "Osmanlı imperiyasının tarixi" kitabında yazır ki, 1914-cü ildə beş vilayətdə: Trabzonda, Ərzurumda, Ərzincanda, Vanda, Bitlisdə yaşayan 3.300.000 türk vətəndaşından müharibədən sonra





600.000 adam qalmışdı. Bu amansız qətli həyata keçirən erməni terror təşkilatının üzvləri idi.

J.Malivilin "Armyanskaya tragediya 1915 qoda" kitabında göstərir ki, Qərbi Anadoluda erməni quldur terrorçu dəstələrinin qətlə yetirdiyi dinc müsəlman əhalisinin sayı 16 min nəfəri keçmişdi. Dinc əhalinin ermənilər tərəfindən vəhşiliklə məhv edilməsi Osmanlı dövlətinin səbr kasasının daşmasına səbəb olub. Ona görə də Türkiyə daxili işlər nazirinin 24 aprel 1915-ci il sərəncamına əsasən Türkiyə ərazisində fəaliyyət göstərən erməni komitələrinin işinə xitam verilib. Onlar adi komitə yox, terrorçu təşkilatlar idi ki, müxtəlif qətllərin törədilməsinə, dinc əhalinin öldürülməsinə fitva verirdi. Beləliklə, həmin vaxt İstanbuldan 4 min nəfər erməni mütəşəkkil surətdə Van şəhərinə gəlmişdir. Təəssüf ki, onlar burada da dinc dayanmamış, soyğunçuluqla, kəndlərə hücum edib əhalini evsiz-eşiksiz qoymaqla məşğul olmuşlar. Aparılan araşdırmalar göstərir ki, Van vilayətində ermənilər 30 min dinc əhalini qətlə yetirmişdir.

Bu yaxınlarda Quba və Neftçala rayonlarının ərazisində ermənilər tərəfindən kütləvi surətdə qətlə yetirilmiş soydaşlarımızın qəbiristanlıqları tapıldı. Tədqiqatçılar birmənalı olaraq təsdiqlədilər ki, erməni-müsəlman qırğınları zamanı qətlə yetirilmiş soydaşlarımızı dərin quyulara, çuxurlara ataraq üstünü torpaqla örtmüşlər. Daşnaklar həqiqəti min arşın dərinə basdırsalar da, uzun illərdən sonra yenə də üzə çıxdı.

Buzovnalı tarix müəllimi Sonaxanım Abbasovanın ötən il danışdığı bir fakt yenidən yada düşdü. "1918-ci ildə Şaumyanın başçılığı ilə Bakıda törədilən qırğın zamanı Buzovnadan Bakıya uzanan yol azərbaycanlıların meyiti ilə dolu olub. İtkin düşmüş dayımı axtarmaq üçün babam o meyitlərin arasında çox gəzib-dolaşıb. Sonra kənd camaatının köməyi ilə həmin meyitləri Sabunçu dairəsində torpağa tapşırıblar. Sonradan həmin məzarlığın tən ortasında Leninin heykəlini də qoymuşdular. Yadımdadır, nə vaxt oradan keçsəydik, nənəm dayanar, yasin oxuyar, şəhidlərin ruhuna "Fatihə" verərdi. Sonra da deyərdi: "Burada bizim oğullarımız yatır". Təssüf ki, Dağüstü parkda uyuyan naməlum müqəddəslərin taleyinə bənzəyən Sabunçu dairəsindəki bu məzarlıqdan hələ çoxunun xəbəri yoxdur. Yəqin ki, Bakının tarixi ilə məşğül olan alimlərimiz bu barədə öz sözlərini deyəcəklər. Vaxtilə ermənilər tərəfindən qətlə yetirilərək Quransız,

kəfənsiz eləcə torpağa atılan soydaşlarımızın kütləvi qəbiristanlıqlarını tapmaq, tədqiq etmək və onların hamısının xatirəsinə "Soyqırımı" abidəsi qoymaq gərəkdir. Biz tarixi həqiqətləri unutduqca onun ağır dərsləri və nəticələri ilə üzləşirik. Sovet dövründə çoxumuz bilirdik ki, Dağüstü parkda şəhid məzarları var. Amma bu, bütövlükdə xalqa nə vaxt məlum oldu? 1990-cı ilin 20 Yanvar faciəsindən sonra. Tarixin təkrarı dəhşətdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı xalqımızın 20 minə yaxın övladı həlak oldu. 50 min adam yaralandı. 363 qadın erməni işğalçılarının əsarətinə düşdü. Bu illər ərzində ermənilər bizə qarşı 32 terror aktı həyata keçirmişlər. 1989-cu ildə Tbilisi-Bakı, 1990-cı ildə Tbilisi-Şəmkir-Ağdam avtobusunda, 1991-ci ildə Moskva-Bakı sərnişin qatarında, 1992-ci ildə Türkmənistan-Bakı bərəsində, 1993-cü ildə dəmiryol vağzalında, 1994-cü ildə Bakı metrosunun "20 Yanvar" stansiyasında... törədilmiş terror aktlarının müəllifi məhz Ermənistandır. Əlbəttə, bu, ermənilərin ölkəmizə qarşı yeritdiyi terrorun tam siyahısı deyildir. Təəssüflər olsun ki, dünya bir çox həqiqətləri görə-görə onlara göz yumur. Amerikada yaşayan erməni əsilli tədqiqatçı Edvard Tançı bütün çıxışlarında qətiyyətlə söyləyib: "Mən illərdən bəri deyirəm ki, erməni soyqırımı - belə bir hadisə olmayıb". Tarixi keçmişin obyektiv mənzərəsini yaratmaq üçün həm dünya səyyahlarının, politoloqlarının, tarixçilərinin araşdırmaları ilə yanaşı elə ermənilərin özlərinin də vaxtilə yazdıqlarını, müxtəlif ölkələrdə çap etdirdikləri kitabları vərəqləmək lazımdır. 1916-cı ildə Peterburqda çap edilmiş "Qafqaz xalqları" kitabında oxuyuruq: "Antik dövrdə ermənilərin əsl vətəni olan "Böyük Ermənistan" Kiçik Asiyadan və Rusiyadan kənarda yerləşirdi. Tarixçilərin qeydinə görə, Fərat çayının yuxarı qolu olan Qaraçay sahilində yaşayan ermənilər artıb çoxalandan sonra torpaq iştəhasına düşüblər. Onlar çox sonralar Qafqaza gəliblər. Van gölündən başlayaraq Urmiya və Göyçə gölünə qədər məsafəni işğal ediblər". Erməni tarixçisi K.Patkanyan etiraf edərək yazırdı: "Ermənistan heç bir zaman bəşər tarixində xüsusi rol oynamamışdır. "Böyük Ermənistan" ermənilərin yayılıb səpələndikləri bir regionun coğrafi adıdır". Bu səbəbdən də "Böyük Ermənistan" xəstəliyinə tutulmuş daşnaklara sabun köpüyünə bənzəyən niyyətlərinin puçluğunu göstərmək üçün tarix bizə imkan verir. Əlimizdə olan tarxi sənədləri, fakt və dəlillərin işığında, eləcə də





erməni tarixçilərinin öz sözləri ilə bəzi məsələləri dünyaya çatdırmalıdır.

Bəşəriyyət o zaman xoşbəxtliyə, bəxtəvərliyə, əminamanlığa, sülhə, dinc yaşayışa, əsl səadətə qovuşar ki, terrorun kökünü yerli-dibli kəsə bilsin. Bunun üçün də çox uzaq ölkələrdə axtarış aparmaq, tufan qoparmaq lazım deyildir. Terrorun da, soyqırımı törədənlərin də beşiyi, ona ilham verəni məhz Ermənistan dövləti, erməni siyasətidir.

Azərbaycan torpağının 20 faizi erməni işğalı altındadır. Dövlətimiz çalışır ki, bu torpaqlar müharibə, qan-qada ilə deyil, sülh yolu ilə azad edilsin. Bu nəcib niyyət uğrunda illərdir ki, mübarizə aparılır. Təəssüf ki, Azərbaycan tərəfi nə qədər humanist, nə qədər müdrik addımlar atsa da, ermənilər peşəkar niyyətlərindən əl çəkmirlər. Bu gün Azərbaycanın güclü ordusu var. İqtisadiyyatımız sürətlə inkişafdadır. Ölkə başçısı cənab İlham Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətiyyətli fikri belədir: "Bu münaqişənin sülh yolu ilə həll edilməsi təkcə Azərbaycan üçün deyil, həm də qonşu tərəf üçün də önəmlidir. Ermənistan öz gələcək taleyi barədə ciddi düşünməlidir. Bu qətiyyətin arxasında iqtisadi güc də, siyasi nüfuz da, güclü ordu da var. Məqsədimiz odur ki, bölgədə yenidən qan tökülməsin. Bu səbəbdən də ermənilər bir daha düşünməli, gələcəkdə var və yox olmalarını özləri üçün qəti aydınlaşdırmalıdırlar. Şablon da olsa, məşhur bir ifadənin təkrarı yerinə düşür. Biz müharibə istəmirik, amma ona hazırıq".

Türk övladlarının qəhrəmanlığını tarix dəfələrlə bəşəriyyətə sübut etmişdir. Əslində heç bir milli mənsubluğu olmayan, qaraçılardan törəmiş, əsl vətən, torpaq məhəbbətindən məhrum, dünyanın hər yerinə səpələnən ermənilərin qarşısında biz aciz deyilik. Onların vətən anlayışını göstərən bir ifadə var: "Harda çörək varsa, ora vətəndir". Yalnız qarın üçün yaşayan, qamarladığı torpaqlardan iştahlanaraq yeni həvəsə düşən bu ilan xislətli nadanların başını elə öz yuvasında əzməyə qadirik. Onlar haqqında sınaqlardan çıxmış bir fikir də var: "Erməni tək olanda sənin qulundu, çünki mütilik qanlarındadır. Elə ki, oldular iki-üç nəfər, bir yerə yığıldılar dönüb olurlar başqa xislətin sahibi. Onlara nə qədər hörmət etsən də, həmişə məkrlidirlər".

Erməniləri ancaq təbiətdəki əqrəblə müqayisə etmək olar. Artıq onların iç üzünə bələdik. Özlərini nə qədər yazıq görkəmdə, məzlum sifətdə göstərsələr də, o qədər də şeytana xidmət edirlər. İnanırıq ki,

xalqlar arasında kin-küdurət toxumu səpən, millətləri üz-üzə qoyan, insan ömrünə balta çalan bu bəd əməlli naqis qonşularımızın layiqli cavab alacaqları gün çox uzaqda deyil. Hər açılan səhər, hər doğulan Günəş bizi o müjdəli günlərə, məqamlara aparır.

Hərdən tarixi keçmişə qayıdarkən Andronik Ozanyanı tayqulaq edən türk paşasının ruhuna dualar oxumaqla bərabər, qınaqlı duyğular da yaşayırıq. Gərək cəngavər paşamız bir quldurun qulağını yox, bütövlükdə erməni dığalarının kökünü kəsəydi. Çünki bununla da bəşəriyyət bəla törədən, münaqişə yaradan, insanlığın adına ləkə gətirən, "Yer üzünün düşməni" adlanan ("Qabusnamə") bu soysuz, köksüz quldur xislətli qrupdan əbədilik can qurtarardı. Amma başqa bir fəxrli duyğu bizi sevindirir ki, Andronikin tayqulaqlığı onu əzizləyən, sevən hayların əbədi olaraq göz dağıdır. Onlar illərdir ki, bu kinin, küdurətin ağrısından xilas ola bilmirlər. Bu gün türk adı gələndə hər bir erməni dığasının qulağı göynəyir...

2007

# RUHUMUZUN VƏTƏNİ ŞUŞA

İndi təbiətin elə vaxtıdır ki, adamın ürəyindən yazın gül-çiçək açdığı yerlər keçir. Əlimiz çatmayanı, könlümüzün həsrətinə, nisgilinə çevrilən Şuşa! Harada doğulub, boya-başa çatmağımızdan, yaşamağımızdan asılı olmayaraq Şuşa bizim ruhumuzun, mənəviyyatımızın əbədi ünvanıdır. Xalq yazıçısı Anara məxsus fikirdir: "Şuşa bütün azərbaycanlıların ruhunun vətənidir".

Dirilərə atılan güllələr namərdlərin ürəklərini soyutmadı. Heykəl ömrünə köçüb getmiş insanların - Natəvanın, Üzeyir bəyin, Bülbülün abidələrinə silah tuşlandı. Canlı soydaşlarımız kimi yerindən, yurdundan didərgin düşdülər. İndi onların ruhları Şuşanın başında, heykəlləri isə Bakıda nigarandırlar. O açılan günün, o doğacaq al səhərin, gətirəcək şad xəbərin intizarını çəkirlər. Hələ ki, hamımız o müjdəli günü gözləyirik.

Şuşa dünyanın yeganə şəhərlərindən idi ki, bütövlükdə memarlıq abidəsi sayılırdı. Başqa şəhərlərlə müqayisədə bəlkə də ən müasir şəhərlərimizdən biri Şuşadır. Amma təsəvvür edin ki, Pənahqulu xan bu şəhərin binəsini quranda onun kanalizasiya xəttinin layihəsini də





hazırlatmışdı. Şuşa əsl şəhər üslubunda salınmışdı. Gövhər Ağa məscidi, Aşağı Gövhər Ağa məscidi, İbrahim xanın qəsri, Xan sarayı bu şəhərin emblemi idi. Babalarımız bizə 1 dünya, 110 respublika, 117 yerli əhəmiyyətli tarix-memarlıq abidəsi qoymuşdular. Maddi-mənəvi sərvətlərlə zəngin olan Şuşa 1976-cı ildən qoruq zonası elan edilmişdir. Əgər şuşalılar bir tərəfdən sıradan çıxmışları bərpa edirdilərsə, digər tərəfdən də yeniləri yaradılırdı. Müxtəlif sənətkarların qəbirüstü abidələri götürülür, məqbərələr, bulaqlar tikilir, parklar, xiyabanlar salınırdı. Şərq memarlıq üslubunda yaradılan hər bir yeni əsər qədim nümunələrdən heç də geri qalmırdı. Şuşa əsl Şərq şəhəri idi.

XVIII əsrin yadigarı olan Qala divarları, Pənah xanın sarayı, Əsəd bəyin evi, Mehmandarovların kompleksi, qız monastrı, müxtəlif türbələr, qədim yaşayış evləri, bürclər, bulaqlar, karvansaralar, malikanələr, qədim hamamlar, mədrəsələr, sonradan yaradılmış muzeylər - hər biri ayrılıqda dünya mədəniyyətinin incisi idi.

Şuşadan danışanda Xarıbülbülü xatırlamamaq, ondan söz açmamaq olmur. Bu qəribə görünüşlü təbiət gözəli haqqında müxtəlif rəvayətlər, əhvalatlar danışırlar. Onlardan biri də Qarabağ xanları ilə bağlıdır. İbrahim xan müəyyən münasibətləri nizamlamaq üçün öz sevimli qızını İranın hökmdarı Fətəli şaha ərə verib. Qərib bir diyarda ömür-gün sürən, min nazın, nemətin içində bəslənən Ağabəyim vətən həsrətini söylədiyi bayatılarda dilə gətirib:

Əziziyəm, Qarabağ,
Şəki, Şirvan, Qarabağ,
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ!

Qələm də, bayatı da, göz yaşları da vətən həsrətini ovuda bilmir. Ağabəyim ağanın könlünü şad etmək, onu sevindirmək üçün Fətəli şah Tehranda möhtəşəm bir bağ saldırıb. Şuşada bitən bütün ağac, gül-çiçəyi burada əkdirib ki, Ağabəyim doğma yerlərin havasını bu bağdan ala bilsin. Bəlkə onda könlu toxtayar. Hətta bağbanı da Şuşadan gətiriblər. Bu gülüstanın da adını "Vətən bağı" qoyublar. Ağabəyim həmin bağa seyrə çıxarkən çox qəmlənib. Dərindən ah çəkərək ağlayıb. Bütün saray əhli bu vəziyyətə heyrət kəsilib. Çünki "Vətən bağı" elə Şuşanın bir parçası idi. Ağabəyim üzüntüsünü belə ifadə edib:

"Vətən bağı" al-əlvandır,
Yox üstündə Xarıbülbül.
Nədən hər yerin əlvandır,
Köksün altı sarı bülbül.

Xarıbülbül də məhz Şuşa təbiətinin ilahi tərəfindən yaradılmış təbii bir emblemi idi ki, onu heç bir torpaqda göyərtmək, bitirmək mümkün deyildir. Niyə xatırladım bu şirin və qəmli hekayəti? Mənə elə gəlir ki, məhz şuşalılar da bu Xarıbülbül kimi heç harda vətənləşə, bütövləşə, kök sala bilmirlər və bilməyəcəklər də. Nəfəs alsalar da, vaxtsız qocalsalar da, saralıb solsalar da, Şuşasız günlər ömürdən sayılmır. Şuşalı ömrünü yaşıllaşdırmaq üçün öz yerinə, doğma Şuşaya qayıtmalıdır.

Şuşanın adı və məhəbbəti qonmuş nəğmələr adamın içindən bir ah kimi püskürür: "Şuşanın dağları, başı dumanlı... Dərdindən ölməyə çoxdu gümanlı". Gümanlı, gümansız sinəmizə yığdığımız bu nisgili bir yolluq uzaqlara qovmalıyıq. Vətən oğlu, vətən qızı! Ruhumuzun çağırdığı, ürəyimizin atlandığı, könlümüzün uçduğu, yuxularımızın qovuşduğu, gözlərimizin açıldığı o yerlərə - Şuşaya qayıtmalıyıq. Bunu bizdən Xan qızı Natəvanın, Üzeyir bəyin, Bülbülün, Vaqifin, Zakirin, Soltan bəy Hacıbəyovun ruhları tələb edir. Bunu bizdən avazımıza, səsimizə, ləngərimizə həsrət qalmış Cıdır düzü tələb edir. Bunu bizdən bu gün zaman özü tələb edir. Bizi oraya o yerlərin əlìdüşməz təbiəti, dağları, daşları, qayaları, bulaqları, yolları, izləri səsləyir. Bizi oradan Zəngəzura dönən yollar gözləyir...

**2007.**





# ZƏNGƏZURDA İŞLƏDİLƏN DİALEKT VƏ ŞİVƏLƏRDƏN BƏZİ LƏÇƏKLƏR

**Ağzıayrıx - dünyagörüşü olmayan**
**Akuşka - pəncərə**
**Ağızınəyib - yubanmaq**
**Ayın-şayın - rahat, baş verənlərdən xəbərsiz**
**Avadanı - sahibi**
**Bah atonan, yeri get yiyəsi - təəccüb, heyrət mənasındadır**
**Alız-uluz - qarışıq yuxu**
**Baldon - palto**
**Baca-baca - ilaxır çərşənbəsi yandırılan tonqal ətrafında şənlik**
**Bir hovur - bir az (vaxt mənasında)**
**Basma - peyin yığıntısı**
**Buşqax - evin küncü**
**Bu heyni - indicə**
**Burunlamaq - yola verməmək**
**Bu il ölmüşdüm, bildir - dərin sarsıntı mənasındadır**
**Cəviz-qoz**
**Cantaraq - cüssəli**
**Cənəyə - sklet**
**Cada - yol başı**
**Caqı - çəlimsiz**
**Çaqqala - kal meyvə**
**Cılfır - balaca (əzizləmə mənasında)**
**Cınqır - güclə eşidələn, zəif səs**
**Çərşənbə çəlik - ilaxır çərşənbəsinin səhəri verilən bayram payı**
**Çöçə - Novruz şirniyyatı, şəkərburaya oxşayır**
**Çomalaq - koma**
**Dəvədəlləyi - işsiz-gücsüz**
**Dingiş - arsız**
**Dikdir - əhlikef**

Dəmşəlax - səviyyəsiz
Dundursuz - səviyyəsiz
Düdüləmək - tez-tez, analaşılmaz danışıq
Qıvşamaq - iylənmək
Eyzan - hər yer
Ələşən-küləşən - ordan-burdan
Əlləm-qəlləm - yalançı
Əlbəhəl - həmin an
Əvədək - dolaşıq
Əcaz - qeyri-adi
Fasıx - çoxbilmiş
Flaş - plaş
Feldar - hiyləgər
Finka - qız şalvarı
Gay - gic
Gallahı - özbaşına
Giyəf - kürəkən
Girinc - avara qalmaq
Gıldır - gur göz yaşı
Gılıf - hasardan arxın keçməsi üçün düzəldilən xüsusi yer
Göy-xəsis, qıymaz
Gur - güc, qüvvə
Güzdək - kiçik, axırdan-axıra doğulan uşaq, yetişən meyvə
Gülburnu - gülü tökülməmiş xiyar
Gülul - göy noxud
Həylə - elə
Həmənsür - itburnu
Xotux - uzunqulaq balası
Xper - balaca boy
Xaydarax - gic
Xuduru - bivec, yaramaz
Xırp kəsdi - qəfildən səsini kəsdi
Xızdı - kinli





İncəvara - yaxşı ki
İntəhabaşı - intəhası
İlangəzdirən - qorxunc, eybəcər
İnni-cinni - kimsənin olmaması
İstahat - salamat yer qalmamış
Yavanlıq - pendir, şor, qovurma, bir sözlə ərzaq mənasında
Yencik - yüngül (xarakter mənasında)
Yolağa - məhlə arası
Yava - avara
Yuma (bir yuma) - ölçü vahidi kimi işlənir, bir ovuc
Kelkan - dağınıq, səliqəsiz, daranmamış saç mənasındadır
Kuf - yelləncək
Kub - çəllək
Karxana - bezdən hazırlanır, tut çırpanda istifadə olunur
Kaf deyil - hesaba alınmır
Kərdi - lək
Kəmsər - axmaq
Qəzilləmək - aldatmaq
Qannama - öldürülmüş adamın ailəsinə verilən yardım
Qəməlti - mətbəx bıçağı
Qartdanmaq - sürətlə qaşınmaq
Qartanqaz - çoban yapınçısı
Qəlbi - hündür
Qaradiş - qarımış qız
Qalamaq - öyrətmək (qızışdırmaq mənasında)
Qaşıq əriştəsi - sulu xəngəl
Vəlıduzna - çoxbilmiş
Ləvin - müxtəlif
Licim - libas, zahiri görünüş
Ləmhaləm - ağzınacan dolu
Mavrı - pişik balası
Mağmın - əlindən iş gəlməyən, fağır, bacarıqsız.
Mev yarpağı - üzüm yarpağı

**Məhlim - məgər**
**Müstər - şikəst**
**Mixəşər - albalı qurusu**
**Mağlətə - dava-dalaş**
**Nəf - xeyir**
**Nəverim - səfeh**
**Ovduq - ayran**
**Pazı - çuğundur**
**Pırtlamaq - qəfildən peyda olmaq**
**Pısıx - qəsdən susan**
**Pesi - yumru adam**
**Sabılca - tava**
**Supa - uzunqulaq balası**
**Süzək - aşsüzən**
**Sicim - kəndir**
**Saxəsiz - xəsis**
**Sosur - tez küsəyən, sözbaz**
**Süləngi - gəzəyən**
**Südlü inək - etdiyi yaxşılığı tez yerə vuran**
**Şəpid - ev ayaqqabısı**
**Şümal - sığallı, zahirən əyər-əskiyi olmayan, məsələn çaylaq daşı**
**Şuldurumşup - törtöküntülü, səliqəsiz geyim**
**Təhnə - bəzi bölgələrdə çörək qabı anlamındadır. Ağacdan düzəldilmiş böyük qabdır. İçində qurud əzərlər**
**Tavla - əti qovurmaq**
**Törəməz - qatır**
**Teyxa - büsbütün**
**Ziləf - sırtıq**
**Zırho - danışığın bilməyən**





# ZƏNGƏZUR TƏBƏSSÜMLƏRİ

Aqillər deyirlər ki, dünya gülməsəydi, yaşamazdı. Hətta ən ağır xəstəni də belə gülüşlə müalicə etmək mümkünlüyü də mövcuddur. Saf və təmiz gülüş insanın duyğularını təzələyir, onun varlığına yaşamaq, həyat eşqi ələyir. Vaxtilə ədiblərimiz, klassik şair və yazıçılarımız cəmiyyətin üzləşdiyi bəlalardan xilas yolunu məhz gülüşdə görürdülər. Bu səbəbdən də tənqid etdikləri, satira atəşinə tutduqları ünvanları, hədəfləri gülüşə qərq edirdilər. Hamletin acı qəhqəhələri, Kefli İsgəndərin gülüşləri faciə və qaranlıqlar içərisində ilk qığılcımlar idi. Molla Nəsrəddin lətifələri, Hacı dayının gülməcələri, Abdal Qasımın məzəli əhvalatları bu gün də dillər əzbəridir. Yurdumuzun Şəki, Nehrəm, Gədəbəy... bölgələrində bu gün də yeni yumorlar yaranmaqdadır. Gözümü açandan kəndimizin sakinləri ilə bağlı gülməli söz-söhbətlər eşitmişəm. Əlbəttə, onların hamısını qələmə almaq fikrində olmadım. Düşündüm ki, insanların qəlbinə toxuna bilərəm, məndən inciyərlər. Amma yaxın adamlarımla, qonum-qonşularımızla, bilavasitə özümlə bağlı bəzi təbəssümləri yazıya köçürdüm.

## GÖRÜN, SINMAYIB Kİ?..

Zəngəzur elinin adamları bu hadisəni həmişə təbəssümlə xatırlayırlar. Urudlu bir kişi yaz çağı həmişə meşəni gəzər, hansı ağacın başında qarğa yuvası görsə, tez ora çıxar, quşun ala-bəzək yumurtalarını papağının içinə yığıb evə gətirərmiş. Günlərin birində kişi qoz ağacının hündür bir budağındakı yuvadan yumurta yığarkən kəllə-mayallaq yerə sərilib. Huşu başından çıxıb. Uşaqların hay-həşirinə kənd-kəsək tökülüb gəlib. Handan-hana kişi gözlərini açıb. Qonşuları Tavat arvad özünü irəli verib mehribanlıqla soruşub:

- Qadan alım, haran ağrıyır?
- Əşi, mən cəhənnəm, deyin görüm, yumurtalar salamatdırmı?

## MƏN TƏLƏSİRƏM

Avtomobilin təzə çıxan vaxtları Əhməd kişi Qarakilsədən Naxçıvana iş dalınca gedəsiymiş. Pay-piyada düzəlir yolun ayağına. Hava da çox soyuq imiş. Kişinin yanında qəflətən bir maşın dayanıb.

Rayonun tanınmış işçilərindən biri başını maşının pəncərəsindən çıxarıb deyir:

- Əhməd dayı, hara gedirsən? Gəl min maşına, səni aparaq.
- Yox, ay bala, siz gedin, mənim vacib işim var, tələsirəm.

## ÖZÜNÜZ NƏ QƏDƏR YEMİSİNİZ?

Urudlu Molla Tahir qonşu kəndə toya gedibmiş. Evə gec qayıdıb. Arvadı Nərgiz də əvəlikli aş bişiribmiş. Bir xeyli ərini gözlədikdən sonra onun payını ayrıca qazana çəkib, uşaq-muşağın da yeməyini verib. Axşamın ala-toranında Molla Tahir özünü yetirir evə. Qazanın qapağını qaldırıb baxdıqda içini çəkir. İki əllə başına qapaz vuraraq ağlamağa başlayır:

- Bıy, ay kişi, sənə nə oldu? - deyə arvadı əl-ayağa düşür.
- Çor dəydi, zəhrimar oldu. Mənə bir belə saxlayanda özünüz nə qədər yemisiniz?

## SİZİN RADİODUR

Bir zəngəzurlu yaxın dostugildə qonaqlıqdaymış. Radioda məşhur bir müğənni oxuyurmuş. Ev sahibi ondan soruşur:

- Deyə bilərsənmi, oxuyan kimdir?

Zəngəzurlu təəccüblə ona baxıb çiyinlərini çəkir:

- Mən hardan bilim, bu ki sizin radiodur.

## VAXT İTİRMƏYƏK

İki dost kinoya baxmaq istəyirmiş. Kassanın ətrafında növbəyə durmuş adamları görəndə biri digərinə deyir:

- Bəlkə 4 bilet götürək. Bir də gələndə vaxt itirməyək.

## ALQULUNUN ALÇASI

Zəngəzurda Alqulu adlı bir kişi yaşayırmış. Bağında çoxlu alça ağacları varmış. Bir gün ağacların barından zənbillərə yığıb satmağa aparır. Bazara girən-çıxan - "Alçan şirindirmi?", - deyib bir ovuc xışmalayırmış. Belə-belə Alqulu kişi zənbilin birin qoyub birin götürür. Amma bir kilo da olsa alça sata bilmir. Axşam evə boş zənbillərlə qayıdıb. İndi o vaxtdan Zəngəzurda kim nisyə bir şey aparsa və yaxud





da havayı bir şey istəsə, ona deyirlər:

- Məgər Alqulunun alçasıdır?

## VER MƏN APARIM

Gözəl arvad kəndin başındakı dəhnədən suyu arxa vurub bağçaya yetişmişdi ki, qonşuları Telli özünü çatdırdı:

- Yenə nə canınla əlləşirsən, ay Gözəl? Niyə özünü yorursan? Bizə dincəlmək lazımdır. Bu gün-sabahlığıq.

Gözəl arvad qonşunun məzəmmətindən təsirlənərək dilləndi:

- Bəs neynim, ay Telli? Ağaclar quruyur, axı!
- Əşi, canın sağ olsun, ver suyu mən aparım.

## BƏS MƏNİM TOYUM?

İsmayıl kişi evə çox hirsli gəlmişdi. Həyətdə arvadının cəhrəsi də bir yandan ayağına ilişir. Az qalır ki, yıxılsın. Özündən çıxaraq acıqlı-acıqlı arvadının üstünə sarı yeriyir:

- Vallah, vurub səni öldürəcəyəm.

Nəvəsi Kamal bu sözü eşidcək tez yerindən qalxıb babasının qənşərinə yüyürərək həyəcanla deyir:

- Yox ay baba, neynirsən, öldürmə. Nənəm hələ mənim toyumu da görməlidir axı. Sonra öldürərsən.

## PƏRİ-PƏRİ DANIŞMA

Bu Pəri qarının dilinə heç vaxt düz söz gəlməzmiş. Bir də görürdün, budur ha, özünü yetirdi kəhrizin başına. Qız-gəlinlərin gur yerindəcə dayandı. Nəfəsini dərib özünə gələndən sonra başladı danışmağa:

- Gecə çimir də eləməmişəm.
- Niyə, ay qarı nənə? - deyə qız-gəlinlər onu dövrəyə alarmışlar.
- Tahir nənəsi ölmüş, evə səhər açılanda gəlib.
- Boy, niyə? - deyə qızlar səs-səsə verib soruşarmışlar.
- Bayramın oğlu üçün qız çağırırmışlar.

İnananlar içini çəkər, qarının xasiyyətini bilənlər isə pıqqıldaşarmışlar.

- Kimin qızıdır, ay qarı nənə?
- Eh, heç qızı evə gətirib çıxara biliblər ki? Yolda əllərindən quş kimi pırlayıb.

Beləcə kəhriz başında qarı nənənin xəbərlər kisəsi açılarmış. Amma sonra bilərmişlər ki, qarının dedikləri ağ yalandır. İndi o yerlərdə kim yalan söz desə, ağzını bir kəlmə ilə bağlayırlar: "Pəri-pəri danışma". Ya da ki bir adamın danışdığı uydurma ola. Onda da belə deyirlər: "Əşi, ona fikir vermə, Pərinin biridir".

## AĞLIN ÖZ ANANA GETMƏSİN

Telli arvadın 70 yaşı olanda əri İsmayıl vəfat edib. Bacısı qızı Fatimə hirslə xalasına deyib: "Elə hey cavanlıqda kişiyə qarğış edirdin. İndi ürəyin dincəlsin.

Telli arvad ürəkdən nalə çəkib ağlayıb. Qız xalasının xətrinə dəydiyini zənn edərək təsəlli vermək istəyib:

- Yaxşı, ay xala, qurban olum, ağlama. Bəs anam neyləsin. Cavanlıqdan ərini itirdi. İllər boyu tək-tənha qaldı.

- Elə bizim kişi də 30 il qabaq ölsəydi, daha yaxşı olardı.

- Boy, indi dözmürsən, bu qədər ağlayırsan, ay xala. Bəs onda nə edərdin?

- Ağlın öz anana getməsin. Onda mən özümə sütül bir ər tapardım.

## QOHUMLU-QARDAŞLI BƏXTƏVƏR

Cəlal kişi ulağın üstündə qonşu kəndə satmağa mer-meyvə aparıbmış. Bir arxdan keçəndə uzunqulaq dayanıb. Kişi nə illah eləyibsə, heyvan yerindən tərpənməyib. Cəlal əsəbləşərək cibindəki bizi çıxararaq uzunqulağı bizləyib: "Yeri get də, sünni yanasan. Tərsliyin elə gərək burda tuta".

Onun bu sözlərini eşidən kənd cavanları kişini o ki var döyürlər. Sən demə, kənd sakinləri sünni imiş. Handan-hana özünə gələn Cəlal kişi hıqqana-hıqqana deyib:

- Toşa, yeri gedək, bəxtəvər qohumlu-qardaşlı başına.

## FİLOLOQ - HƏKİM

- İstəyirəm qızım filologiyada oxusun.
- Sonra nə işlə məşğul olacaq?
- Atasının yanında həkim işləyər
- Nə?!





## SON SÖZÜM

Əziz oxucum! Sonda sənə bir nisgilimi də bildirmək istəyirəm. Neçə ildir ki, bu kitabın üzərində çalışıram. Əlimizdən gedən yurdumuz yuxularımızdan çəkilmir. Bəlkə də bu kitab bir jurnalist kimi mənim yaradıcılığımın qu nəğməsidir. Çox acı da olsa bu dərdli şərqini ifa etmək məcburiyyətində qaldım. Xəyalımdan, ruhumdan, gözlərimdən çəkilməyən Vətənimizin həsrəti yaxamdan yapışaraq məni sağa, sola fırlatdı. Hansı səmtə, hansı yana boylansam da, hansı dağı, hansı dərəni, mənzərəni doğma yerlərin künc-bucağına oxşatsam da, intizarımı əridə bilmədim. Könlümü ovutmağa, özümə təsəlli olmağa gücüm çatmadı. Aylar, günlər birləşərək illəri sürətlə yuvarlatdı. Bir də gözümüzü açıb gördük ki, Vətən deyə-deyə qoacalmışıq. İçimizdəki qorxu dözülməz ağrı-acıya dönərək əzalarımıza yayıldı. Aləm cənnətə dönsə də, dönməsə də, yurd-yuvamız yaddan çıxacaq. Bu, həqiqətdir Qarakilsədə, Urudda, Şəkidə, Comərdlidə, Qafanda, Mehridə doğulmayanın nə vecinədir Zəngəzur? Uzaqbaşı göz yaşımızı silərlər, dərdimizə şərik olarlar, "ağlama" deyərlər. Biz də bu dünyaya bir əmanətik. Ömür əbədi deyil. Bax, əsl qorxu onda başlayacaq. Nə Vətən üçün ağlayan tapılacaq, nə də göz yaşımızı silən.

Elimiz dağılandan sonra itirdiyim yurddaşlarımızı tapmaq, onlarla söhbətləşmək elə çətinləşdi ki, bəzən də heç mümkün olmadı. Yaddışımda qalanlardan, yaxın adamlardan eşitdiklərimdən, dost-tanışın xatirələrindən, bir də əldə olan bəzi arxiv sənədlərindən daha dərinlərə getmək istəsəm də, alınmadı. Az qala yalvara-yalvara həmyerlilərimə müraciət etsəm də, yazıqlar olsun ki, səsimə səs verən az oldu. Bu səbəbdən də Qarakilsənin bütün kəndləri haqqında, toponimləri ilə bağlı dolğun, ətraflı, bitkin məlumatlar toplaya bilmədim. Kosmik sürətlə son mənzilə üz tutan ömrün bivəfalığından çəkindim. Qorxdum ki, yazdıqlarımın çapına yubanam. Ona görə də qələmimin kağızlara bəzən pıçıltı, bəzən də göz yaşları ilə naxışladığı bu yazıları hələlik bir yerə cəmləşdirdim. Qismət olsa, gələcəkdə onu daha da təkmilləşdirilmiş şəkildə sizlərə ərməğan edəcəyəm. Əgər işdir, mən bu işi yerinə yetirə bilməsəm, inanıram ki, övladlarım mənim arzumu mütləq göyərdəcəklər. Doğulduğum kəndə, daim müqəddəs bildiyimiz əzizlərimizin axirət dünyasına, anamın ruhuna bu kitab mənim övladlıq və vətəndaşlıq borcumdur. Qəribə budur ki,

adamın içindəki o son nöqtə tapılmır. Hiss edirəm ki, bu borc ölüncə məni tərk etməyəcək.

Apardığım tədqiqatlardan bəzən dəhşətə gəlmişəm. Hər kəsə öz doğulduğu yurd gözəl və möhtəşəmdir. Amma Zəngəzur mahalı həqiqətən dünyanın ən qeyri-adi bir bölgəsi olub. Onun havasında, suyunda, təbiətində nə sirr gizlənibsə, sinəsindən pərvazlanan övladları hara üz tutublarsa, mütləq öz şəxsiyyətləri ilə seçiliblər. Bu seçilən taleyi yaşayanları isə bütün dünya tanıyıb.

İndiyə kimi özümü bağışlaya bilmirəm, behiştlik olmuş Turan Cavid bir dəfə söhbətarası söyləmişdi ki, onun ulu babaları Qarakilsədən gəliblər. Vaxt macal vermədi ki, bu məsələnin də köklərinə bir işıq salaq. İndi də almadığım müsahibəyə görə qovruluram.

Ümummilli liderimiz Heydər Əliyevin nəsil-şəcərəsi məlumdur. O cümlədən xalq şairi Məmməd Araz, Qasım Qasımzadə, yazıçı Şamil Xurşid, akademiklər Aqil və Cəlal Əliyev qardaşları, tarixçi-alim Vəli Əliyev, filoloq Vilayət Əliyev, görkəmli ədəbiyyatşünas-alim Əziz Şərif, akademik Faiq Bağırzadə, Azərbaycanın keçmiş rəhbərlərindən biri olmuş Kamran Bağırov, Milli Məclisin keçmiş spikeri Rəsul Quliyev və onlarla, yüzlərlə başqalarının nəsil-nəcabəti məhz Qarakilsə ilə bağlıdır.

Bir hadisəni isə heç unuda bilmirəm. 1996-cı ildə Azərbaycan Milli Məclisinin üzvü olan bir qrup qadın deputatları ilə 15 günlük qardaş Türkiyədə işgüzar səfərdə idik. Müxtəlif görüşlərdə, tədbirlərdə, gəzintilərdə olurduq. Belə yaddançıxmaz görüşlərdən biri də Türkiyənin Prezidenti Süleyman Dəmirəllə oldu. O, Azərbaycandan gəlmiş qonaqları öz iş otağında qəbul etdi. Dəhlizdə nümayəndə heyətimizin başçısı dedi ki, içəri ancaq deputat qadınlar daxil olsunlar, digərləri gözləsinlər. Professor Adilə Abbasova, general, Flora Əhmədova (o zaman İqtisad Məhkəməsinin sədri idi), müğənni Brilyant Dadaşova dəhlizdə divanda əyləşməli oldu. Açığı bu qeyri-normal hərəkət mənə pis təsir etdi. Çünki həmin deputat xanımların içərisində elələri var idi ki, tamamilə təsadüfi olaraq bu pilləyə qalxmışdılar. Səviyyə və dünyagörüşlərinə görə də dəhlizdə əyləşənlərlə müqayisəyə gəlməzdilər. Qəflətən qapı açıldı, Süleyman Dəmirəl dəhlizə çıxdı. Mən dərhal ayağa qalxdım. O, özü bizə yaxınlaşaraq "xanım əfəndilər, burada niyə dayanıbsınız" - deyə xəbər aldı. Mən səfər yoldaşlarımın cavabını gözləmədən bir qədər də kinayəli şəkildə dedim:







- Sayın cümhur başqanım, bizlər parlamentarilər deyilik.
- Nə fark edər, əfəndim, siz benim üçün müsafirsiniz.

Söhbətarası necə oldusa məndən xəbər aldı:

- Sən nerədənsən?
- Azərbaycandan.
- Orasın bilirəm, bölgəni soruşuram.
- Sisiandan, əski ismi Qarakilsə.
- Əvət. Bənim baba vətənimdənsən.
- Necə?
- Bən Qaçaq Süleymanın torunuyam.

Zəngəzurda, xüsusilə Qarakilsədə Qaçaq Süleyman çox igid və məşhur bir adam olub. Onun haqqında həmişə əfsanəvi hadisələr danışardılar. Süleyman Dəmirəl hətta baba kəndlərinin adını da dedi. Yaddaşım məni aldatmırsa, ya Dərəkənd idi, ya da Dərələr. Əlbəttə, Süleyman Dəmirəl kimi ciddi bir şəxsiyyət bu şəkildə zarafat etməzdi.

Təəssüf ki, mənim onunla söhbət etmək imkanım olmadı. Amma dilindən qopan bu kəlməni unuda bilmirəm: "Mən Qaçaq Süleymanın torunuyam". Sevinirəm və qürur duyuram ki, Zəngəzurda doğulmayan zəngəzurluların da şöhrəti dünyaya yayılıb.

Bu kitab mənim uşaqlıq illərimdən süzülüb bu günə kimi gələn ömrümün Zəngəzurlu günlərinin həm sevincli, həm də nisgilli əks-sədasıdır. Əziz həmvətənlərim! Çoxunuzun adı bu kitabda yoxdursa, bu, mənim günahım deyil. Mən bir nəfərəm. Ünvanım da bəllidir. Hər birinizin axtarışına, səsinə səs verməyə hazıram. Amma tək əldən səs çıxmaz axı. Əgər ürəyinizcə olan bir kəlmə demişəmsə, sizi xatirələrin gücü ilə ötən günlərinizə apara bilmişəmsə, bu yolda çəkdiyim bütün əziyyətəri sizə halal edirəm. Məni kimisə unutmaqda qınamayın. Gərək sizlər də məni axtarıb tapmaqda, bildiklərinizi mənə deməkdə yardımçı olardınız. Yenə də gec deyil, kitabın gələcək səhifələrində o arzularınızı da yerinə yetirərik. Hələ ki, əlimdən gələn budur. Al, oxu, qoy gələcək nəslimiz bir daha yəqinləşdirsin ki, biz getsək də, getməsək də o yol bizim yolumuzdur. Dağlar qoynunda səsimizə həsrət qalmış Zəngəzur mahalı, doğma sədalar gözləyir. Yurda qayıdın, yurda dönün. O qayıdışı görmək arzusu ilə sizin, bütün zəngəzurluların

**Flora XƏLİLZADƏSİ.**





# REDAKTORDAN

Mən Flora xanımın kitabını redlaktə edib başa çatdırdım. Oxucularımızın nəzərinə çatdırım ki, bu işi məmnuniyyətlə gördüm. İlk oxucusu olduğum bu kitabın üzərində işlədikcə vətənimizi, xeyirxah insanları daha yaxından tanımaqla bərabər, Flora xanımın özü, şəxsiyyəti, həyata baxışı, insanlara münasibəti məni çox təsirləndirdi və təəssüf etdim ki, müəllifin bütün istəklərini və arzularını bir kitaba yerləşdirmək mümkün deyil. Hayıf ki, çox şey kənarda qalır. Amma elə şeylər də var ki, onu oxucu da görməsə, nəşriyyat redaktoru görür, oxuyur. Gördüklərimdən biri də elm xadimlərimizin, xalqımızın ziyalılarının 1972-ci ildən bu günə kimi Flora xanım haqqında söylədikləri rəy və səmimi ürək sözləridir. Müəlliflə məsləhətləşmədən, həmin yazıları hörmətli oxucularımızın nəzərinə çatdırmağı özümə borc bilirəm:

"Floranın çox yaxşı qələmi var, istedadlı qızdır. Öz gücünə oxuyub. Balıq susuz yaşaya bilmədiyi kimi o da mətbuata bağlıdır".

**Akademik Həsən Əliyev,**
**1978-ci il.**

"Tələbəlikdən çalışqanlığına görə böyük ümid bəslədiyim Flora Xəlilzadə həqiqətən də istedadlı, bacarıqlı, qabiliyyətli, səmimi jurnalist və şairə kimi sevildi".

**Qulu Xəlilov,**
**1980-cı il.**

"Flora Xəlilzadə öz ruhunda xalqımızın ən gözəl xüsusiyyətlərini yaşadan əqidə dostumuzur.

**Xalq şairi Sabir Rüstəmxanlı,**
**1996-cı il.**

"Floranın qələmindən qopan bütün yazıları maraqla oxuyur, onunla fəxr edir, qürur duyuram".

**Xalq şairi Məmməd Araz,**
**1998-ci il.**

"Flora xanımla döyüşə getmək olar".

**Xalq şairi Nəriman Həsənzadə,**
**1999-cu il.**

"Flora Xəlilzadə şirin qələmli söz ustasıdır".

**Yazıçı-publisist Aqşin Babayev, 2000-ci il.**

"Cəsarətinə, mübarizəsinə, qələminin gücünə çoxlarının həsəd apardığı, mənim isə şəxsiyyətinə xüsusi rəğbət bəslədiyim Flora Xəlilzadə".

**Filologiya elmləri doktoru, professor Vaqif Arzumanlı, 2001-ci il.**

"Flora xanım özünəməxsus özəl və müdrik həqiqətlərdən su içən qələmi ilə publisistikamıza gözəllik və bədiiyyat gətirib".

**Xalq şairi Fikrət Sadıq, 2003-cü il.**

Flora Xəlilzadə öz qələmi ilə ədəbiyyata, mədəniyyətə, millətə xidmət edən, müqabilində isə ona yönələn təşəkkürü "borcumdur" cavabı ilə qapayan, bununla da yaxşılığı özünə əbədi borc sayan, olduqca təvazökar, istedadlı, hamımızın xeyirxahı olan, zəngin daxili aləmə malik qələm yoldaşımızdır".

**Xalq şairi Bəxtiayr Vahabzadə, 2003-cü il.**

"Flora xanımı gözəl jurnalist, yazıçı, səmimi insan, istedadlı gənc jurnalistlərin qayğıkeş hamisi kimi tanıyıb hörmət edirəm".

**Akademik İnqilab Kərimov, 2003-cü il**

"Flora xanım ədəbiyyat və incəsənətimizin "Azərbaycan" qəzeti redaksiyasında fövqəladə və səlahiyyətli səfiridir"

**Akademik Bəkir Nəbiyev, 2004-cü il.**

"Kişi xasiyyətli gözəl qadın, şairə, publisist, incə zövqlü Floramız".

**Xalq şairi Qabil, 2004-cü il.**





"Mən Flora xanımın yazılarını "Qəhrəmanlar qallereyası" adlandırardım".

**Tarix elmləri namizədi Tahirə Həsənzadə, 2004-cü il.**

"Flora xanımın publisist yazılarındakı bədiilik lirizm səviyyəsinə çatır. Aşkar hiss olunur ki, bu publisist yazıların arxasında yüksək vətəndaş mövqeyinə malik olan bitkin qələmli jurnalistlə yanaşı, şair qəlbli yetkin bir yaradıcı sima dayanır. Beləliklə, lirik ovqat, bədii düşüncə tərzi ilə çağdaş publisistika bir məcrada birləşərək Flora Xəlilzadənin fərdi üslubunu müəyyən edir".

**Akademik İsa Həbibbəyli, 2005-ci il.**

"Flora Xəlilzadə ədəbiyyatımızı qəlbən sevən, təbliğ edən, bəzi hücumlardan qorumağı özünə borc bilən müqtədir qələm sahibidir".

**Yazıçı Vidadi Babanlı, 2005-ci il.**

"Flora Xəlilzadə xalqımızın xalçaçılıq sənətini sevən, təbliğ edən və xalçaçılıq sənətinin yaşamasına kömək göstərən və inkişaf etdirənlər barəsində gözəl yazılar yazan zövqlü bir xanımdır".

**Xalq rəssamı Kamil Əliyev, 2005-ci il.**

"Vətən həsrətli, yurd yanğılı, torpaq haraylı, elimin qeyrətli qızı, mən səninlə fəxr edirəm".

**Əvəz Mahmud Lələdağ, 2007-ci il.**








MÜNDƏRİCAT


Ön söz ........ 3
Oxuculara ........ 8
Zəngəzur ........ 10
Vətənin unudulmaz oğlu ........ 14
Sisian ........ 19
Qarakilsə ........ 20

RUHUMUN ÜNVANI URUD

Urud ........ 26
Alışa bilməydiyim həyat ........ 35
Qəlbimizdə Allah,
qibləmizdə Seyid Mirismayıl Ağanın günbəzi ........ 39
Ömrün dünəni ........ 47
Kino göstərən ........ 54
Cərgəsi pozulmuş durna qatarı ........ 55
Üstümüzdə haqqı olan tnsanlar ........ 62
Kəndimizin oğulları ........ 77
II Dünya müharibəsindən Urud kəndinə qayıtmayanlar ........ 79
Nağıla bənzər ömürlər ........ 81
Nəslin fəxri - millətin şöhrəti ........ 90
Xatirələrin işığında
yaxud da, mənim xalam oğlanları ........ 99
Urudlu alimlər ........ 104
Qəhrəmanovlar ........ 106
Dağılan tifaq ........ 108
Xatirələr ........ 110
Əqrabalarım ........ 112
Qan qohumlarım ........ 114
Urudun işıqları - ziyalıları ........ 120
Bir ailənin nişanələri ........ 131
Bizim qonşular ........ 134
Quruyan ağaclar ........ 137
Ləyaqətli ömür sahibi ........ 140
Bəy nəvəsi ........ 144
Kəndimizdə gözəllər var idi ........ 145
Uşaqlıq dostum ........ 148

Vətənin ruhudur şəhid ruhu ....... 158
Orada bir ev var idi ....... 176
Dağların o üzündə ....... 177
Son görüş ....... 183
Bağlar solub, evlər xaraba qalıb ....... 186
"Bir uçaydım bu çırpınan yelinən" ....... 186
11 yaşlı çempion ....... 191
Haray durnam, qatarımı itirdim ....... 192
Oğlumun inşa dəftərindən ....... 198
Urudlu günlərin yadigarı ....... 200

QIZILQAYANIN ƏTƏYİNDƏ

Vağədi - qədim yaşayış məskəni ....... 206
Məktəb illəri ....... 213
Tapdıq dayı ....... 219
Vüqarın məktubundan ....... 220

İŞIQDAN SÜZÜLƏN NUR

Axarlı-baxarlı Ağdü kəndi ....... 222
Ağdünün yazıçı oğlu ....... 226
Fədakar alim, ləyaqətli insan ....... 231
İşıqlıdan süzülən nur ....... 234
Ağdünün ziyalıları ....... 237
1941-1945-ci illər müharibəsindən qayıtmayan ağdülülər ....... 250
Əbədiyyət heykəlləri ....... 252
Dağlar vətən amanatı ....... 258
Qartalları dönməz oldu dağların ....... 261
Nurlu yollar yolçusu ....... 264
Dağıdılmış kəndlərin nişanələri ....... 268

MƏRDLƏR YURDU - COMƏRDLİ

Gözəlliklər məskəni - Comərdli kəndi ....... 274
Comərdli kəndinin toponimləri ....... 278
II Dünya müharibəsindən qayıtmayan comərdlilər ....... 279
Nur baharlı Həsən əmi ....... 281
Rənglərin musiqisini tablolara köçürən rəssam ....... 289





Ana ....... 294
Biz torpaqsız xəzan olduq ....... 298
Comərdli yadigarları ....... 301
Şəhid atası ....... 302
Bir ürəyin naləsi ....... 303

ZƏNGƏZURDA BİR KƏND VAR İDİ

Əzəl hüsnü gözəl, sonu qara Şəkimiz ....... 308
Müqəddəs insanlar ....... 310
Şəkinin dəyirmanları ....... 311
Şəki toponimləri ....... 311
Zəngəzurda törədilən faciələrin şahidi ....... 312
Pozulmayan izlər, sönməyən işıqlar ....... 318
Xəyalımın qəhrəmanı ....... 322
Göz həkimi ....... 325
Tarixdən gələn səslər ....... 327
Şəkidən Qarabağa bir köç gəlirdi ....... 331
Şəkinin adını soyadında yaşadan sənətkar ....... 335
Şahbuzdan o yana ....... 340
Şəhidlər ....... 341
Göyərmiş dərd ....... 342
Həyatı dəyərləndirənlər ....... 345
Qara kələğayılı Ceyran xala ....... 346

UCA DAĞLI, YAŞIL YAMACLI,
YALÇIN QAYALI ŞIXLAR

Yönü bizdən dönən dağlar ....... 349
Şıxlardan qanadlanmış işıqlı övladlar ....... 352
Vətəninin, millətinin, dilinin vurğunu ....... 355
Bəşəriyyətin mədəniyyət beşiyi ....... 356
Ata öyüdünün bəhrəsi ....... 362

YAYLAĞI GÜLLÜ ƏRƏFSƏ

Salvartı dağının ətəyində ....... 367
Kəndi sonuncu tərk edənlərdən biri ....... 370
Yönü dağlara sarı ....... 372

Ərəfsənin qonşuluğunda bir kənd var idi ....374

SIRA DAĞLAR, GEN DƏRƏLƏR

Dəstən hanı, Dəstəyird?! ....377
Adını uca tutan oğullar ....381
Möhtəşəm bir nəslin ömür ağacından yarpaqlar ....382

ƏYRİÇAYIN SAHİLİNDƏ

Yaylaqların kimə qaldı, Sofulu? ....394
Dağlarda döyünən ürək ....396
"İstiot" imzalı müxbir ....398

DÜNYANIN SON NÖQTƏSİ

Dağlı, dərəli, yaylaqlı Murxuz ....405
Əqidə sahibi ....410
Murxuzun şəhid balaları ....416

DAŞLARI XINALI QIZILCIQ

Bəxtsiz kəndlərimizdən biri - Qızılcıq ....418
Həmişə özü olan insan ....421
Ədəbiyyatımızın əsl keşikçisi ....426
Qardaşlar ....432
Tale ....433
Qızılcığı unutmayanlardan ....434

YOLLARININ TOZU OLAYDIM, VƏTƏN!

Bəşər tarixində rolu olmayan
Ermənistan ərazisi haradan başlanır? ....436
Yaddaşımızın səhifələri ....441
Bir qədər də Qarakilsə (Sisan) haqqında ....443
İlahi, sən bizi o yurda döndər ....445
Könlümə düşən yurdum ....449
Vedinin yanı dağlar
Can sızlar, ürək ağlar... ....453





Qara tufan ....456
Anama deyin ... ....461
Dağ başı dolu gözlər ....468
Könlüm keçir Qarabağdan ....470
Dağlar bizi çağırır ....477
Haqqa körpü salanlar ....480
İnsanlığın düşməni ....487
Erməni cinayətlərinin aprel pərdəsi ....493
Ruhumuzun vətəni Şuşa ....

Zəngəzurda işlədilən
dialekt və şivələrdən bəzi ləçəklər ....501
Zəngəzur təbəssümləri ....505

Son sözüm ....509
Redaktordan ....513

**Nəşriyyatın direktoru: Əlirza Sayılov**

**Korrektor: Bəhruz Niftəliyev**
**Dizayner: Saleh Mehdiyev**

**F.Xəlilzadə, "Yolum düşə Zəngəzura"**
**Sənədli, bədii, ensiklopedik nəşr.**

**Yığılmağa verilmişdir: 20.03.2007**
**Çapa imzalanmışdır: 15.06.2007**
**Şərti çap vərəqi: 33**
**Hesab-nəşr vərəqi: 32.625**
**Kağız formatı: 70x100 116**
**Sifariş: 34**
**Tiraj: 500**

**"Araz" nəşriyyatının mətbəəsində çap olunmuşdur.**